AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ НАЦИОНАЛЬНОЙ
АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА

NAKHCHIVAN SECTION OF THE NATIONAL
ACADEMY OF SCIENCES OF AZERBAIJAN

# XƏBƏRLƏR

***İCTİMAİ VƏ HUMANİTAR ELMLƏR SERİYASI***

# ИЗВЕСТИЯ

***СЕРИЯ ОБЩЕСТВЕННЫХ И ГУМАНИТАРНЫХ НАУК***

# NEWS

***THE SERIES OF SOCIAL AND HUMANITIES SCIENCES***

## №1

**Naxçıvan, «Tusi», 2009**

## Redaksiya heyəti:

Baş redaktor:
Akademik **İ.M.Hacıyev**

Məsul katib:
AMEA-nın müxbir üzvü, t.e.d. **V.B.Baxşəliyev**

## Üzvlər:

Akademik **İ.Ə.Həbibbəyli**

AMEA-nın müxbir üzvü, f.e.d. **Ə.A.Quliyev**

AMEA-nın müxbir üzvü, t.e.d. **H.Q.Qədirzadə**

Tarix elmləri doktoru **H.Y.Səfərli**

Filologiya elmləri doktoru **M.A.Cəfərli**

Filologiya elmləri doktoru A.N.Bağırov

Filologiya elmləri namizədi **F.H.Rzayev**

**Siyasi** elmləri namizədi R.Z.Rəhimli



Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin
«Xəbərlər»i, 2009, № 1, 330 s.

Jurnal 25 noyabr 2004-cü il tarixdə Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (şəhadətnamə №1140).

«Tusi» nəşriyyatı, 2009

# M Ü N D Ə R İ C A T

## TARİX

**İsmayıl Hacıyev.** Naxçıvan bölgəsinin etnik tarixinə dair……………………………….5
**Hacıfəxrəddin Səfərli.** Naxçıvanda daş qoç və qoyun heykəlləri…………………........12
**Məmməd Məmmədov.** Naxçıvan mətbuatının yaranma tarixinə dair bəzi mülahizələr (1920-1940-cı illər)………………………………………………………........20
**Həmzə Cəfərov.** Müstəqillik illərində respublikanın ictimai-siyasi və sosial-mədəni həyatında gənclərin iştirakı………………………………………………………………27
**Emin Arif (Şıxəliyev).** Erməni alimlərinin Naxçıvanla bağlı iddiaları………........34
**Zəhmət Şahverdiyev.** Ermənilərin azərbaycanlılara qarşı soyqırım tarixindən: 1905-1906-cı illər, Naxçıvan……………………………………………………………………40
**Fəxrəddin Cəfərov.** Müstəqil dövlətçiliyin möhkəmləndirilməsində Naxçıvan polisinin rolu………………………………………………………………………………………48
**Musa Quliyev.** Konstantin Nikolayeviç Smirnov və onun şəxsi arxivi………………..53
**Adil Baxşəliyev.** Xanbalıq (Çin) ilə Orta Şərq və Cənubi Asiya ölkələri arasındakı münasibətlərə dair………………………………………………………………………..59
**Fəridə Əliyeva.** Azərbaycan ellinizm dövründə digər ölkələrlə siyasi, iqtisadi və mədəni qarşılıqlı əlaqələrdə…………………………………………………………………66
**İbrahim Kazımbəyli.** Erməni xəyanəti tarixi faktların dili ilə…………………………..73
**Yaşar Rəhimov.** XIX əsrdə Naxçıvanda ticarət (rus mənbələri əsasında)……........79
**İlhami Əliyev.** Naxçıvanda ictimai vəziyyət (Səfəvilər dövrü)…………………………..85
**Sara Hacıyeva.** Qəbirüstü xatirə abidələri üzərində sənətkarlıqla bağlı təsvirlərə dair……………………………………………………………………………………………92
**Rza Talıbov.** Səhiyyə və idman sahələrində Yaponiya-Azərbaycan əlaqələri………..97
**Qahirə Hüseynova.** «Şərq qapısı» qəzetində Naxçıvan Muxtar Respublikasının ictimai, elmi və mədəni həyatının işıqlandırılması (1992-ci il)………………………..101

## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**Vəli Baxşəliyev, Catherine Marro, Səfər Aşurov.** Ovçulartəpəsində arxeoloji qazıntılar…………………………………………………………………………………....107
**Rəsul Bağırov.** Qızılburun yaşayış yeri………………………………………………116
**Toğrul Xəlilov.** Naxçıvandakı Son Tunc və Erkən Dəmir dövrü abidələrin Azərbaycan arxeologiyasında yeri və əhəmiyyəti…………………………………………………119
**Zeynəb Quliyeva.** Naxçıvanın Erkən Tünc dövrü mədəniyyətinin mənşəyi və xronologiyası……………………………………………………………………………………124
**Hacı Qadir Qədirzadə.** Duzdağ və duzla bağlı bir neçə söz…………………………..129
**Türkan Qədirzadə.** Naxçıvanda Xıdır-Nəbi, Xızır İlyas bayramı və Anadolu türkləri ilə qarşılaşdırmalar…………………………………………………………........137
**Asəf Orucov.** Üzümçülüklə bağlı təqvim adətləri……………………………………...144

## AZƏRBAYCAN DİLİ

**Əbülfəz Quliyev.** Nizami «Xosrov və Şirin»inin türkcəyə ilk tərcüməsi (XIV əsr) və əsərin bəzi dil xüsusiyyətləri……………………………………………………………150
**Adil Bağırov.** İslam Səfərlinin yaradıcılığında onomastik vahidlərin üslubi imkanları…………………………………………………………………………………158

**Firudin Rzayev.** Naxçıvanda sak, subi, maq türkləri ilə bağlı etnooykonimlərdə yazıyaqədərki dövr türk dili elementləri……………………………………………164
**Şirməmməd Qulubəyli.** Müasir azərbaycan və ingilis dillərində ismin hal kateqoriyasına dair……………………………………………………………………...172
**Səyyar Məmmədov.** Culfa şivələrində sifətin dərəcələri………………………………178
**Nuray Əliyeva.** Şahbuz şivələrində adət-ənənə ilə bağlı terminlər……………………183
**Zülfiyyə İsmayıl.** Babək şivələrində toxuculuq terminləri……………………………189

## ƏDƏBİYYAT VƏ FOLKLOR

**İsa Həbibbəyli.** Ədəbi növlərin təsnifatına fərqli elmi yanaşma………………………195
**Fərqanə Kazımova.** Əliqulu Qəmküsar yaradıcılığında ədəbi dil məsələsi (şairin vəfatının 90 illiyi münasibəti ilə)…………………………………………........201
**Əsgər Qədimov.** «Molla Nəsrəddin» jurnalı və Türkiyə……………………………...206
**Hüseyn Həşimli.** Poeziyada anjambeman…………………………………………...214
**Fərman Xəlilov.** Mirzə Əli Möcüzün ailə mühiti və təhsili……………………………220
**Lütviyyə Əsgərzadə.** Şeyx Məhəmməd Rasizadənin taleyi və yaradıcılığı…………...226
**Ramiz Qasımov.** Cəlil Məmmədquluzadə yaradıcılığında "kiçik" adam obrazlarının düşdüyü sosial zülm və ictimai ədalətsizlik problemləri………………..........233
**Fəxrəddin Eylazov.** AMEA Naxçıvan bölməsi əlyazmalar fondunda saxlanılan naxçıvanlı müəlliflərin əlyazmalarına bir baxış……………………………………..240
**Səbuhi İbrahimov.** Məhəmməd Naxçıvaninin həyatı və "Səhabəd-dümu" əsəri haqqında……………………………………………………………………………245
**Məhərrəm Cəfərli.** Molla Nəsrəddin lətifələrində mifoloji izlər………………………250
**Məhsəti İsmayıl.** Çaylarla bağlı əfsanələrin mifoloji xüsusiyyətləri…………........256
**Rafiq Babayev.** Mif yaddaşı: qarşıdurma və tarazlıq (Naxçıvan materialları əsasında)……………………………………………………………………………262
**Nazirə Əsgərova.** "Arzu-qəmbər" dastanında variantlıq məsələsi……………………267

## İNCƏSƏNƏT

**Əli Qəhrəmanov, Rəfail Kərimov.** Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi……………………………………………………………………….272
**Yaqut Quliyeva.** Naxçıvanda şərq üçlüklərinin yaranması və inkişafı……………….277
**Ələkbər Qasımov.** Naxçıvan teatrı 1918-1920-ci illərdə……………………………….282

## İQTİSADİYYAT VƏ FƏLSƏFƏ

**Rəcəb Rəhimli.** Yerli özünüidarə qurumlarının inkişafında beynəlxalq təşkilatların rolu…………………………………………………………………………289
**Məmməd Rzayev, Abbas Əhmədov.** Şəxsiyyətin azadlığı və məsuliyyətinin vəhdəti…………………………………………………………………………………298
**Asif Şirəliyev.** «Kitabi-Dədə Qorqud» eposunda iqtisadi mənafelər məsələləri……..304
**Novruzəli Rəhimov.** Qloballaşma və informasiya mühiti……………………………...309
**Cavadxan Qasımov.** Müasir dövrdə əhalinin məşğulluq probleminə sistemli yanaşma……………………………………………………………………………314

## YUBİLEYLƏR, XATİRƏLƏR

**İsmayıl Hacıyev.** Görkəmli alim, vətənpərvər ziyalı, tanınmış ictimai xadim……….320

**Hacıfəxrəddin Səfərli.** Azərbaycan etnoqrafiya elminin görkəmli nümayəndəsi……326

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

## TARİX

**İSMAYIL HACIYEV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVAN BÖLGƏSİNİN ETNİK TARİXİNƏ DAİR

Qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Naxçıvan bölgəsində daş dövründən başlayaraq müxtəlif tayfalar yaşamışlar. Bu tayfaların adları və onların etnik tarixi xüsusi tədqiqat predmeti olmamış və lazımi səviyyədə araşdırılmamışdır. Bununla belə, akademik B.Budaqov, t.e.d. Q.Qeybullayev, t.e.n. İ.Kəngərli, tədqiqatçı Q.Budaqova tədqiqat işlərində Naxçıvanın etnik tarixinə də toxunmuşlar (1). Q.Qeybullayev isə buna ayrıca bir məqalə həsr etmişdir (3, s. 37-44). Bütövlükdə götürdükdə isə Naxçıvan bölgəsinin etnik tarixinin və əhalisinin milli tərkibinin öyrənilməsinə böyük ehtiyac vardır. Çünki, məkirli düşmənlərimiz bu problemlə bağlı saxta və uydurma fikirlər irəli sürür və bununla da bölgənin "böyük Ermənistan"ın tərkib hissəsi olduğunu əsaslandırmağa, Azərbaycan türklərinin bu torpaqlara gəlmə olduğunu sübüt etməyə çalışırlar. Əslində bu fikir tamamilə yalnışdır, heç bir elmi əsasa söykənmir. Azərbaycan türkləri bu ərazilərin ən qədim sakinləri olmuşlar. Həm də qədim erməni mənbələrinin heç birində Naxçıvan bölgəsində ermənilərin yaşaması haqqında məlumat yoxdur.

Bəhs olunan məqalədə Naxçıvan bölgəsinin etnik tarixinə diqqət yetirilmişdir.

Aparılan arxeoloji qazıntılar, xüsusilə Qazma mağarasından əldə olunan maddi-mədəniyyət nümunələri və Gəmiqaya daş təsvirləri (e.ə. IV-II minilliklərə aid) Naxçıvan bölgəsində insanların daş dövründən yaşadıqlarını göstərir.

Naxçıvan bölgəsində yaşayan tayfalar Urmiya gölünün ətrafında yaşayan tayfalarla çox sıx əlaqədə olmuşlar. Kuti, lullubi, subi, turukki və b. tayfalar bu ərazilərin ən qədim sakinləri olmuşlar. Naxçıvan bölgəsi tarixən Cənubi Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tərkibində olmuşdur. Həmin dövlətlərin türkmənşəli etnosların siyasi qurumları olması artıq şübhə doğurmur.

E.ə. I minilliyin əvvəllərində göstərilən tayfalar əsasında Assur mənbələrində adları Manna və Maday kimi çəkilmiş etnoslar tarix səhnəsinə çıxırlar (2, s. 37). Manna (e.ə. IX-VII əsrlərdə) və Midiya (e.ə. 673-550-ci illər) dövlətləri türk xalqlarının tarixində mühüm siyasi qurumlardır. Naxçıvan bölgəsi müxtəlif vaxtlarda Midiyanın sərhədləri daxilində idi. E.ə. VI əsrin ortalarında Naxçıvan bölgəsinə 10 min nəfər midiyalı ailə köçürülmüşdür (2, s. 14). Ərəb sərkərdəsi Həbib ibn Məsləmənin Naxçıvan əhalisi ilə bağlı verdiyi fərmanda Naxçıvan əhalisi "Maq" (mar) adlandırılır (4, s. 82). "Naxçıvan marların ölkəsidir" (F.Buzand), "Qoxtanda marların kəndləri mövcuddur" və s. Bunlar göstərir ki, Naxçıvan bölgəsində madaylar (maqlar, marlar) yaşamışdır və onların türkmənşəli olması qəbul edilir (4). Bununla əlaqədar Q.Qeybullayev maraqlı ümumiləşdirmələr aparır: Naxçıvan ərazisi eramızdan xeyli əvvəl başlayaraq Azərbaycanın tərkib hissəsi olmuşdur. Bu ərazinin qədim əhalisi Cənubi Azərbaycan ərazisində yaşamış tayfalarla eyni etnik mühitə malik olmuşdur (3, s. 39).

Naxçıvan əhalisinin etnik tərkibi tarixən türkdilli tayfaların üstünlüyü, çoxluğu ilə diqqəti cəlb edir. Çünki bu bölgənin ən qədim yerli əhalisi türkdilli tayfalar olmuşdur. Bununla belə, bu bölgəyə tarixin sonrakı mərhələlərində müxtəlif türkdilli tayfalar da köç etmiş və bu ərazidə yaşayan eynidilli tayfalarla qaynayıb qarışmışdır. Tədqiqatçıların fikrincə hələ e.ə. VII əsrdə şimal istiqamətindən Cənubi Qafqaza gəlmiş sak tayfaları Naxçıvan ərazisində də məskunlaşmışdır. Bu tayfanın türkdilli olması tədqiqatçılar tərəfindən sübut edilmişdir. Sakların bir qolu olan kol tayfası da (Koltan, Qoxtan) Naxçıvanın Ordubad bölgəsində yaşamışlar.

E.ə. II əsrdə Naxçıvan bölgəsində qədim türk mənşəli Bulqar tayfasına mənsub ailələrin məskunlaşması da elmə məlumdur. Ordubad rayonundakı Vənənd yaşayış məntəqəsinin onlara məxsus olması bəllidir (6, s. 133-135). Qafqaz dağlarından şimalda yaşayan bulqarlar e.ə. 149-127-ci illərdə Cənubi Qafqaz ərazisinə gəlmişlər. V əsr müəllifi yazır ki, gələnlər öz başçılarının adı ilə məskənlərini Vənənd adlandırdılar. Tədqiqatçıların bir qisminin ehtimalına görə, toponim Azərbaycanın məşhur əlvəndi tayfasının adından götürülmüşdür. Oykonim hər iki halda etnotoponimdir və türkmənşəlidir.

Sonrakı dövrlərdə Naxçıvan bölgəsinə qarqar, şirak, basin, alban, xəzər, gerus və s. türk qəbilələri gəlmişlər. VII-VIII əsrlərdə baş vermiş ərəb-xəzər müharibələrinin döyüş meydanı əsasən Azərbaycan ərazisi idi (7, s. 181, 205-211). Mənbələrdə xəzərlərin abas, kulac, tarna, avar, oğuz, bulqar, biral, paçinak, kabar və b. tayfalardan ibarət olduğu qeyd olunmuşdur. Q.Budaqovanın fikrincə, Naxçıvan bölgəsinə xəzərlərin içərisində peçeneqlər də gəlmişdilər.

Naxçıvan bölgəsində eramızın əvvəllərində məskunlaşmış digər türkdilli tayfa peçeneqlərdir. Peçeneqlər Orta Asiyanın qədim türkdilli tayfalarından biri olmuşdur. Q.Budaqovaya görə onlar antik mənbələrdə qeyd olunan basinelərdir. Basine adı sonralar peçeneq, peçene, becənə formala-

rını kəsb etmişdir (2, s. 19). Peçeneqlərin məhz Orta Asiyadan Sır-Dərya çayının hövzələrində e.ə. III əsrdə Kanq dövlətini yaratmış hissəsi Kəngər adlanmışdır. Deməli, peçeneqlərlə Kəngərlər eyni tayfanın adamları idilər. Onlar da eranın əvvəllərində hunların tərkibində Cənubi Qafqaza gəlmişlər.

Peçeneqlər indiki Ermənistan ərazisində və Naxçıvan bölgəsində məskunlaşmışlar. Naxçıvanda bu etnonim Biçənək adlı bir-neçə yaşayış məntəqəsi və aşırım adında əksini tapmışdır. Peçeneqlərin özü bir sıra tayfalardan ibarət olmuşdur. Naxçıvan bölgəsində Qarabağ (Qarabağlar) toponimi (Şərqi Türkiyədə və Azərbaycanın başqa ərazilərində olduğu kimi), Ermənistandakı Qafan (əslində Qapan) toponimi də peçeneqlərin müxtəlif tayfalarının adları ilə adlandırılmışdır. Qarabağ toponimlərinin peçeneqlərin Qarabay tayfasının adı ilə bağlılığı şübhə doğurmur.

Mənbələrdən aydındır ki, peçeneqlərin bir hissəsi Kəngər adlanmışdır. Kəngər adlananlar Orta Asiyada Kanq dövlətində yaşayanların adıdır və Kəngər "Kanq ərləri, kişiləri" mənasını verir. Eranın əvvəllərində Mərkəzi Asiyadan Şərqi Avropaya hərəkət edən hunlar Kanq əyalətindən keçərək kəngərlərin bir hissəsini özlərinə qatmışlar (5, s. 16). Eranın əvvəllərində türkdilli kəngərlər Azərbaycan ərazisində məskun idilər. Zaqafqaziyada Kəngərlərin iki regionda yaşaması məlumdur: həm Albaniyanın qərbində – onun Gürcüstan və Ermənistanla sərhəd zonasında, həm də Naxçıvanda. Suriya mənbələrində Naxçıvanda Kəngərlər 542-552-ci il hadisələri ilə əlaqədar olaraq yad olunur. Orta əsr mənbələrində Naxçıvan zonasında yaşayan kəngərlər haqqında məlumatlar verilir.

Eramızın ilk əsrlərində hunların tərkibində Naxçıvana gəlmiş qədim türk mənşəli kəngər tayfası uzun əsrlər boyu burada yaşamış və bölgənin fəaliyyətində yaxından iştirak etmişlər. XVIII əsrdə isə Naxçıvan xanlığı kəngərlilər tərəfindən idarə olunmuşdur. IX əsrin əvvəllərinə aid məlumatlarda Naxçıvan əyalətindəki 2791 azərbaycanlı ailəsindən 920-si Kəngərlilər nəslinə mənsub olmuşdur (9, s. 101-102). İ.Şopenə görə Naxçıvanda kəngərlər aşağıdakı tayfalardan ibarət idi: Yurdçu, Qızıllı, Sarvanlar, Xalxallı, Pirhəsənli, Salaş, Ağabəyli, Qarabağlar, Kəmən, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli, Bilici, Qızıl İlan, Qurdlar, Qaradolaqlı, Şabanlı, Kəlfir, Ərəfsəli, Qaracallı, Qarakövsərli, Bolqarlı, Kürd Mahmudlu, Əliyanlı, Ziyadlı, Bərgüşadlı (13, s. 537-538).

Şopen Kəngərlilər nəslinin 1433 ailədən ibarət olmasını göstərir. Ola bilsin, kəngərlilərdən Qarabağda qışlayanları Naxçıvanda aparılan bəzi siyahıya alınmalarda nəzərə almayıblar. 1727-ci ildə tərtib edilmiş "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"nə görə, "Naxçıvan elatından" olan Kəngərli camaatı Qarabağda qışlayar, Naxçıvanda yaylarmış.

Şopenin yazdığına görə, Rusiya Naxçıvanı işğal edən zaman orada 67 xan, 373 bəy və sultan olmuşdur. Digər bir rus müəllifi K.Smirnov Naxçıvanda Kəngərli nəslilə yanaşı, aşağıdakı bəy nəsillərinin olmasını qeyd etmişdir: Talışovlar, Ağasıbəyovlar, Muradəsilbəyovlar, Şahtaxtinskilər, Vəzirovlar, Camalbəyovlar, Sultanovlar, Elçiyevlər və s.

XIX əsrin 30-cu illərinə aid mənbədə göstərilir ki, Naxçıvan əyalətində iki böyük tayfa birləşməsi yaşayır: Kəngərlər və Qaracalar. Burada qeyd olunur ki, Kəngər tayfaları aşağıdakı kəndlərdə məskundurlar: Yurdçu – Cəhri kəndində; Cümşüdlü – Govurarx, Xok, Şahtaxtı və Gildasar kəndlərində; Xalxallı – Vayxır kəndində; Qaraxanbəyli – Qaraxanbəyli kəndində; Ağabəyli, Caqataylı, Qaracallı, Bilici, Qaraqulağı, Keçilər, Sarvanlar, Şahbanlı, Əlixanlı – Naxçıvan şəhərində; Ərəfsəli – Dizə Kərimbəy kəndində; Səleykə – Nəhəcir, Külüs və Mahmudoba kəndlərində; Qızıllı – Kültəpə kəndində; Pir Həsənli – Kaqan kəndində; Qızılqışlaq – Bulğan kəndində; Kəlfir – Tırkeş və Sələsüz kəndlərində; Qarabağlar – Qarabağlar kəndində (11, s. 32). Qaracalar tayfası isə Dərələyəz mahalında yarımköçəri həyat tərzi keçirirdilər (11, s. 32).

Naxçıvan ərazisindəki coğrafi adlardan aydın olur ki, burada Abdal, Hun, Gorus, Quşçu, Bayan və b. qədim türk tayfaları da məskunlaşmışdır. XI-XII əsrlərdə Naxçıvana Səlcuq oğuz türkləri də gəlmişlər. Bunlara Yaycı, Bəkdili, Xələc və b. oğuz tayfaları ilə bağlı toponimləri göstərmək olar. Sonralar ustaclı, rumlu və b. türk qəbilələri diyarda daha fəal olmuşlar. Türk tayfalarından didivarlı, qızıllı, əmirxanlı, ərəfsəli, hacılı, keçili, kəlfirli, qaraxanbəyli, qarxunlu, əlixanlı, muğanlı və onlarla başqaları bölgənin aborigen xalqları olmuş, bu gün də muxtar respublika ərazisində həmin tayfaların izləri qalmış, bir sıra yaşayış məskənləri onların adları ilə adlanmışdır.

Göründüyü kimi, tarixən Naxçıvan əhalisi türklərdən-azərbaycanlılardan ibarət olmuşdur. Dövrün mənbələrində bu barədə faktlara kifayət qədər təsadüf olunur. Məsələn, "Əcaib əd-dünya" əsərində (XIII əsr) Naxçıvanda əhalinin sıx olması, aybəniz olmaları, bədii oyma və ağac emalı sahəsində mahir olmaları, qorxmaz, qonaqpərvər və xoş xasiyyətləri ilə seçilmələri, dillərinin xoşagələn olması, xüsusilə islamın şafei təriqətinə itaət etdikləri və s. barədə maraqlı qeydlər verilir.

"Naxçıvan sancağının müfəssəl dəftəri" də etnik məsələlərin araşdırılması baxımından diqqəti cəlb edir. Beləki, XVIII əsrin 20-30-cu illərində Naxçıvan sancağının əhalisi siyahıya alınmış, əhalinin milli tərkibi, məşğuliyyəti, vergi sistemi, demoqrafik vəziyyəti qeydə alınmışdır. "Müfəssəl dəftər"də dünyaya hay-küy salıb Naxçıvana qarşı əsassız ərazi iddiaları irəli sürən mənfur ermənilərə tutarlı cavab verilir. Onlara sübut olunur ki, lap qədimdən Naxçıvan sancağı bugünkü ərazi ilə bərabər, Ermənistanla həmsərhəd rayonların ərazilərini də əhatə etmiş (Vedi rayonunun cənub-şərq hissəsi, Dərələyəz rayonunun bütün ərazisi, Cermux rayonunun yarısı, Sisyan (Qarakilsə) rayonunun əsas hissəsi və Meğri yaşayış məntəqəsi daxil olmaqla rayonun bir neçə yaşayış məntəqəsi), bu torpaqlar əbədi və əzəli oğuz yurdu olmuşdur. "Naxçıvan dəftəri"ndə Naxçıvanın inzibati ərazi bölgüsü, nahiyələr, nahiyələrə daxil olan şəhər və kəndlərin adları, dövlətin vergi sistemi, vergiyə cəlb olunan şəxslərin adı və ata adları, müxtəlif məscid, karvansaray, dükan, bazar, hamam və s. adları verilmişdir ki, bunlar

da erməni iddialarına çox tutarlı cavabdır. XVIII əsrin əvvəllərində Naxçıvan sancağındakı müsəlmanlar əhalinin ümumi sayındakı nisbəti təqribən 70-76% təşkil edir (6, s. 15).

"Naxçıvan dəftəri"ndə verilmiş inzibati-ərazi bölgüsündən görünür ki, Naxçıvan sancağına 14 nahiyə – Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan, Dərələyəz daxil idi ki, bunların da adları Azərbaycan-türk mənşəlidir.

Naxçıvanın orta əsrlər tarixi barədə ilk mənbələrin məlumatı və tədqiqatçıların rəyləri həmin ərazinin bütün orta əsrlər boyu, əvvəlki dövrlərdəki kimi Azərbaycanın tərkibində olduğunu və əhalisinin azərbaycanlılardan ibarət olduğunu təsdiq edir.

Ermənilərin Naxçıvan iddialarını bu bölgənin etnik tarixi, əhalinin milli tərkibi rədd edir. Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan bölgəsində əsasən türkdilli tayfalar yaşamışlar. Azərbaycanlılar qədim zamanlardan Naxçıvanın əsas etnosu olub. Hakimiyyət də təbii olaraq həmişə azərbaycanlıların əlində olmuşdur. Elə bu səbəbdəndir ki, Naxçıvan ərazisindəki coğrafi adların tam əksəriyyəti türkcədir. Nəinki Naxçıvan bölgəsində, indiki Ermənistan deyilən ərazidə də azərbaycanlılar yaşamışlar. XIX əsrin ortalarında İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasını tədqiq etmiş A.V.Parvitski yazır ki, qəzada 55 azərbaycanlı kəndi, 7 erməni kəndi vardı (12, s. 99).

XIX əsr rus mənbələrində də Naxçıvan əhalisinin sayı və etnik tərkibi haqqında maraqlı məlumatlar var. Elə bir XIX əsr rus müəllifi tapmarsan ki, Qriboyedovun «müsəlman ölkəsi» adlandırdığı Naxçıvanı «erməni Naxçıvanı» hesab etmiş olsun. Qriboyedov 1828-ci il sentyabrın 23-də komandan Paskeviçə yazdığı məktubda Naxçıvan əyalətində 2428 ailə, o cümlədən 2024 müsəlman ailəsi və 404 yerli erməni ailəsinin olduğunu bildirir (13, s. 611). Qriqoryevin «Naxçıvan əyalətinin statistik təsviri» əsərində isə əyalətdə 4959 ailənin olması göstərilir. 4149 müsəlman ailəsi və 810 erməni ailəsi (11, s. 75). Göründüyü kimi, kameral sayıma görə, bəzi vaxtlarda ermənilər Naxçıvan əhalisinin yalnız altıda birini təşkil etmişdir.

Naxçıvan əhalisinin tərkibində həm sayca, həm də etnik cəhətdən əsaslı dəyişiklik Rusiya işğalından sonra baş vermişdi. Bu, çarizmin Azərbaycan ərazisini, o cümlədən Naxçıvanı erməniləşdirmək siyasətinin nəticəsi idi. Lakin çarizmin bütün səylərinə baxmayaraq nəinki ermənilər əhalinini əksəriyyətini təşkil edə bilmədi, həm də onlar bu ərazidə duruş gətirə bilmədilər.

Beləliklə, yuxarıda deyilənlər təsdiq edir ki, Naxçıvan bölgəsində türkdilli əhali avtoxton olmuş və bu ərazidə türk mənşəli etnoslar aparıcı rol oynamışlar.

## ƏDƏBİYYAT


1. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı, 2004; Kəngərli İ. Kəngərli elinin soy kitabı. Bakı, 2005; Budaqova Q. Naxçıvan Muxtar Respublikasının toponimləri. Bakı, 1998.
2. Budaqova Q. Naxçıvan Muxtar Respublikasının toponimləri. Bakı, 1998.
3. Qeybullayev Q. Naxçıvan ərazisində azərbaycanlıların qədim etnik tarixinə dair. «Tarix və onun problemləri», 1999, № 2.
4. Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994.
5. Məmmədov A. Kəngərlilər. Bakı, 1996.
6. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 2001.
7. Артаманов М.И. История Хазар. Л., 1962.
8. Буниятов З.М. Азербайджан в VII-IX вв. Баку, 1965.
9. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991.
10. Грибоедов А.С. Сочинения. М., 1982.
11. Статистическое описание Нахчыванской провинции. Составлено В.Григорьевым. СПб., 1852.
12. Парвицкий А.В. Экономический быт гос. крестьян Северо-Западной части Шарура и восточной части Даралагеза Шаруро-Даралагезского уезда Эриванской губернии. «Материалы для изучения эк. быта государственных крестьян Закавказского края», том IV, Т., 1886.
13. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852.


**Исмаил Гаджиев**

## ОБ ЭТНИЧЕСКОЙ ИСТОРИИ НАХЧЫВАНСКОГО КРАЯ

В статье исследуется проживание тюркоязычных племён с известной этнической принадлежностью на территории Нахчывана, начиная с IV-III тысячелетий до н. э. Также показано переселение сюда и обоснование здесь разных родов и племён, начиная с I тысячелетия до н. э. Заключение автора состоит в том, что тюркоязычные народы были здесь местным населением и составляли перевес в национальном составе. В статье доказывается, что армянские выдумки не имеют никакого научного основания.

**Ismayil Hajiyev**

## ABOUT THE ETHNICAL HISTORY OF NAKHCHIVAN REGION

This article deals with the living of the Turkish-speaking tribes in Nakhchivan region, the tribes whose ethnical belonging was known beginning from the IV- III millennium BC. Here also the coming settling of other tribes to this area beginning from I millennium BC is investigated. The author arrives at the conclusion that the Turkish-speaking tribes were the aboriginal population of this region and were superior in the national structure. It is also proved that the Armenian fibs have not any scientific basis.

***Rəyçilər: Tarix e.d., prof. H.Səfərli, AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANDA DAŞ QOÇ VƏ QOYUN HEYKƏLLƏRİ

Naxçıvan Muxtar Respublikası ərazisində qəbirüstü xatirə abidələrinin böyük bir qismini müxtəlif növ daşlardan hazırlanmış qoç və qoyun heykəlləri təşkil edir. Bu heykəllərin muxtar respublika ərazisində yayılmasını bölgələr üzrə izləsək aydın olur ki, keçmişdə Naxçıvanın hər yerində bu cür fiqurlar az və ya çox dərəcədə yayılıbmış.

Ərazidə qeydə alınan bu abidələrin böyük bir qismi qırmızımtıl rəngli daşdan hazırlanmışdır. 1836-cı ilə aid bir mənbədə göstərilir ki, Əlincəçay mahalında, Culfa kəndinin əhalisi qırmızımtıl rəngli, sərt Darıdağ daşından dəyirman daşları və qəbirüstü abidələr düzəldirlər (15, s. 313). Buradan göründüyü kimi, Naxçıvan ərazisi Rusiya ilə birləşdirildiyi dövrdə indiki Culfa bölgəsində daş üzərində işləmə və bədii daşyonma sənəti üzrə mərkəz var imiş. İqtisadçı alim M.Vəlili (Baharlı) göstərir ki, bu mərkəz qədim zamanlardan fəaliyyət göstərmişdir (26, s. 148). Fikrimizcə, Naxçıvan ərazisindəki daş qoç və qoyun heykəllərinin bir hissəsi, xüsusilə Culfa və Ordubad bölgələrində qeydə alınan abidələrin əksəriyyəti bu mərkəzdə hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası ərazisi qoç və qoyun heykəllərinin yayılmasına görə Azərbaycanda əvvəlinci yerlərdən birini tutur. Ərazidə bu fiqurların geniş yayılması burada yerli əhalinin qədimdən qoyunçuluqla məşğul olduğunu göstərir. Qoç qədim türk xalqlarında güc, qüvvət, bolluq rəmzi hesab edilmiş, dadlı və keyfiyyətli əti isə əhalinin əsas ərzaq məhsullarından olmuşdur.

Azərbaycan ərazisindəki daş qoç və qoyun heykəlləri ölkəmizə gələn səyyah və tarixçilərin diqqətini cəlb etmiş, onlar öz əsərlərində, yol qeydlərində bu abidələr haqqında maraqlı məlumatlar vermişlər. 1834-cü ildə Azərbaycanda olmuş fransız səyyahı Dyuba de'Monpere özünün yol qeydlərində Qarabağda çoxlu daş heyvan fiqurları gördüyünü və yerli əhalinin onlara xüsusi hörmət bəslədiyini qeyd etmişdir (9, s. 69). Bu abidələr haqqında rus alimi V.M.Sısoyev də maraqlı məlumatlar vermiş, hətta muxtar respublikanın bəzi kəndlərində onların miqdarını da göstərmişdir. Alim öz qeydlərində gööstərir ki, Naxçıvan şəhərinin şərqində yerləşən qəbiristan-

lıqda bizə qırmızı daşdan, uzunu 1,5 m, hündürlüyü 62 sm, eni 40 sm olan bir qoyun fiquru göstərdilər. Yerli əhali ona böyük ehtiramla yanaşır. Uşağı olmayan qadınlar belə hesab edirlər ki, kim bu fiqurun altından sürünərək keçsə, onun uşağı olacaqdır (4, s. 125). Bu cür qəbir daşlarından keçmişdə bəzi yerlərdə fala baxmaq üçün istifadə edilməsi haqqında məlumatlar vardır (13, s. 59).

Daş qoç və qoyun fiqurları çox qədim tarixə malikdir. Xakasiyada və Qazaxıstanda tapılan daş qoç fiqurlarını tədqiqatçılar miladdan öncə II minilliyə aid edirlər (10, s. 23). Miladdan qabaq I minilliyin başlanğıcında Azərbaycanın cənubunda, Göytəpədə qəbirlərin üstünə bu cür heykəllər qoyulurmuş (19, s. 68). İndiki Türkiyə ərazisinin şərq əyalətlərində də qədim dövrdə hazırlanmış daş qoç fiqurlarına rast gəlmək olur (10, s. 23). Monqolustanda, Ulan-Bator şəhərindən 400 km qərbdə yerləşən və VIII əsrdə yaşamış məşhur türk xaqanı Gültəkinə məxsus olan abidədə doktor Yislin və Ser Odjavanın rəhbərliyi ilə aparılan birləşmiş Çexoslovakiya-Monqolustan arxeoloji ekspedisiyasının işi zamanı giriş qapısının ağzında üz-üzə dayanmış iki ədəd qoyun fiquru aşkar edilmişdir (25, s. 18). Rus alimi V.V.Radlov, ingilis alimi H.Heykel, fransız de'Lyakok da burada iki ədəd mərmər qoç fiqurunun olduğunu təsdiq edirlər (10, s. 23-24).

Qəbirlərin üzərinə qoyun və qoç fiqurlarının qoyulmasını qədim türk tayfalarının dəfn adətləri və inamları ilə əlaqələndirirlər. N.Rzayevin fikrincə bu cür qəbirüstü fiqurlardan birinci olaraq oğuz tayfaları istifadə etmişlər (22, s. 188). Daşdan hazırlanmış qoç və qoyun heykəllərinin yayılma xəritəsini nəzərimizdə canlandırsaq, onların demək olar ki, türk xalqları yaşayan bütün ərazilərdə (Qazaxıstan, Xakasiya, Azərbaycan, Türkiyə və s.) geniş yayıldığı aydın olur. Qədim türklərə məxsus daş insan fiqurlarının yayılmasından danışarkən Y.A.Şer qeyd edir ki, qədim türk tayfalarına məxsus daş heykəllər Cənubi Priuralyedən Şərqi Monqolustana qədər ərazidə yayılmışdır (25, s. 20). Bu fikri tam mənası ilə daşdan hazırlanmış qoç və qoyun heykəllərinə də aid etmək olar.

Bu fiqurlarla bağlı inamlara arxeoloji tapıntılarda da rast gəlinir. Arxeoloji tədqiqatlar zamanı bir sıra yerlərdə, o cümlədən Naxçıvandan I Kültəpə yaşayış yerindən İlk Tunc dövrünə aid mədəni təbəqədən gildən hazırlanmış kiçik ölçülü qoyun fiqurları aşkar edilmişdir (1, s. 141, tabliça XXV). Xakasiyada qəbirlərdən ağacdan hazırlanmış qoç heykəlləri tapılmışdır (2, s. 50). Keçmiş Azərbaycan ərazisi olan indiki Ermənistanda, Çeçen-İnquşetiyada, Gürcüstanda da arxeoloji tədqiqatlar zamanı bu tip fiqurlar əldə edilmişdir (16, s. 176; 14, s. 185-186; 6, s. 61). Tədqiqatçılar qəbirlərə bu cür fiqurlar qoyulmasını qədim inamlarla əlaqələndirirlər (1, s. 142). Buradan belə bir fikrə gəlmək olar ki, əvvəllər qəbirlərə qoyulan qoç və qoyun heykəlləri zaman keçdikcə qəbirlərin içərisindən çıxmış və qəbirlərin üstünə qoyulmağa başlamışdır. Xalq arasında belə bir fikir vardır ki, qəbirlər üzərinə qoyulan bu heykəllər dəfn olunanın axirət dünyasında behiştə getmələrinə kömək edəcəklər. Onlar inanırlar ki, guya ölən adam bu

heykəllərə minərək cənnətə gedəcəklər (13, s. 58). İslam dini bütpərəstliyin əleyhinə olduğundan, bu fiqurlar isə bütpərəstliyi xatırlatdığından Azərbaycanda islam dini yayıldıqdan sonra qəbirlərin üstünə heykəllər qoyulması adəti zəifləyir. Ona görə də Azərbaycan ərazisində islamın hökmranlığının əvvəlki dövrlərində (VIII-XIV əsrlər) belə fiqurlara təsadüf edilmir.

Yerli əhalinin daşdan hazırlanmış bu heykəllərə güclü inam bəsləməsi ərazimizə sonralar köçürülmüş ermənilərin də onlara ehtiramla yanaşmasına səbəb olmuşdur. Onlar bu fiqurları qədim qəbiristanlıqlardan gətirib özlərinin təzə qəbirlərinin üstünə qoymuşlar (24, s. 186). Ancaq ermənilər bununla kifayətlənməmiş, son vaxtlaradək bu heykəlləri ərazimizdən kütləvi surətdə oğurlayıb Ermənistana aparmış, onları İrəvan şəhərinin küçə və meydanlarına düzmüş, indi isə erməni mədəniyyəti nümunələri kimi qələmə verirlər. Həmçinin, onlar keçən yüzilliyin ortalarında əhali arasında belə bir şayiə yaydılar ki, guya bu fiqurların başında və ya qarnında qızıl gizlədilmişdir. Bundan sonra bu abidələr dəfinə hərisləri tərəfindən kütləvi surətdə dağıdılıb, məhv edildi.

Qədim türk xalqlarının inamları və dəfn adətləri ilə bağlı olan daş qoç və qoyun heykəlləri ilk öncə qəbirlərə, dəfn olunanın yanına qoyulmuş heykəlciklərdən ibarət olmuş, zaman keçdikcə bu adət tədricən qəbirlərin üstünə qoyulan heykəllərlə əvəz edilmişdir. İslamın intibah dövründə bu adət müvəqqəti unudulmuş, Qaraqoyunlu və Ağqoyunlu tayfalarının Azərbaycada hakimiyyti zamanı yenidən dirçəlmişdir. Bu zamandan başlayaraq Azərbaycanda, o cümlədən onun ayrılmaz və tərkib hissəsi olan Naxçıvanda da qəbirlərin üstünə daş qoç və qoyun heykəlləri qoyulmağa başlayır. Naxçıvan ərazisində bu günüdək qalan, bəzilərinin üstündə epiqrafik motiv-kitabə olan bu heykəllərin hamısı XV yüzilliyin I yarısından sonrakı dövrlərə aiddirlər.

Bu fiqurların böyük bir hissəsi sadə qoç və qoyun formasında hazırlansa da (tək-tək hallarda bədəni sənduqə şəklində, baş tərəfi isə qoç başı kimi hazırlanmış abidələrə də təsadüf olunur), bir qisminin üzərində türk xalqlarının məişətinə, məşğuliyyətinə, incəsənətinə aid müxtəlif təsvirlər də həkk olunmuşdur.

Ordubad bölgəsinin Düylün kəndində qeydə alınan və XVI yüzilliyə aid olan bir ədəd qoç fiqurunun yan tərəfində saz və qılınc təsviri həkk olunmuşdur. Fiqurun o biri yanında isə şərəfinə abidə hazırlanan mərhumun – Həsən Hüseynəli oğlunun adı yazılmışdır. Müşahidələrimiz göstərir ki, qəbirüstü abidələr üzərində həkk edilən belə təsvirlər əsasən mərhumun peşəsini əks etdirir. Öz peşəsinin incəliklərinə yiyələnmiş və kamil sənətkarlar olan həmin adamların ölümündən sonra qəbirləri üzərində qoyulan abidələrdə ehtiram əlaməti olaraq sənətlərini əks etdirən təsvirlər həkk edilmişdir. Etnoqraf alimlər təsdiq edirlər ki, üzərində saz təsviri olan qəbirlər aşıqlara məxsusdur (4, s. 147). Deməli, Düylün kəndindəki qoç heykəlinin üzərində olan saz təsviri sübut edir ki, Həsən Hüseynəli oğlu aşıq olmuşdur.

Qoç heykəlinin üzərində sazla birlikdə qılınc təsvirinin həkk edilməsi Azərbaycan türklərinin folkloru və etnoqrafiyası üçün səciyyəvi haldır. Belə ki, qəhrəmanlıq dastanlarımızdan göründüyü kimi, xalq arasından çıxmış el qəhrəmanları bəzən qılıncla çata bilmədikləri məqsədə sazla nail olmuşlar. Koroğlu və başqa dastan qəhrəmanları yeri gəldikcə sazdan çox ustalıqla istifadə etmişlər. Koroğlu ən qorxulu səfərlərə gedəndə də, ölüm-dirim savaşında da sazdan ayrılmamış, qələbəsini Qıratla, Misri qılınc və sazla qazanmışdır.

Culfa bölgəsinin Gülüstan kəndi yaxınlığında, Arazın sol sahilində yerləşən qəbiristanlıqda qeydə alınan qoç heykəli (XVI yüzillik) üzərində musiqi məclisi təsvir olunmuşdur. Orada oturmuş vəziyyətdə üç adam təsviri vardır. Onlardan biri sinəsində cürə saz tutmuşdur (21, s. 52-53). Musiqi tariximiz üçün çox qiymətli olan bu abidə Naxçıvan ərazisində nəinki saz sənətinin inkişaf səviyyəsindən xəbər verir, həmçinin orta əsrlər zamanı orada musiqi məclislərinin keçirilməsini də təsdiq edir.

Naxçıvan ərazisində bu günə qədər qalan qoç heykəllərinin bir neçəsinin üzərində qılınc təsviri həkk edilmişdir. Buna Ordubad bölgəsinin Köçəri qəbiristanlığında, Babək bölgəsinin Cəhri kəndində, Şahbuz bölgəsinin Badamlı kəndində və s. yerlərdə qeydə alınmış qoç fiqurlarını misal göstərmək olar. Tədqiqatçılar üzərində qılınc təsviri olan qəbirüstü abidələrin döyüşçülərə aid olması fikrindədirlər.

Ordubad bölgəsindəki Azadkənddə qeydə alınan və 1472-ci ildə vəfat etmiş Səfər adlı adama məxsus olan daş qoç heykəli üzərində ox, kaman və ox qabı təsviri vardır. Təsvirlər göstərir ki, mərhum Səfər ovçu olmuşdur. Şahbuz bölgəsinin Məzrə kənd qəbiristanlığında olan bir qoç heykəli (ölçüsü: 130x30x48 sm) üzərində öküzün üstünə tullanmağa hazırlaşan bəbir təsviri həkk olunmuşdur. Təsvirdə öküz özünü müdafiə vəziyyətində, buynuzlarını irəli tutmuş vəziyyətdə təsvir olunmuşdur. Naxçıvan ərazisinin heyvanat aləmi haqqında məlumat verən bu təsvirin primitiv formasına Ordubad bölgəsində, Gəmiqayadakı qayaüstü rəsmlərdə də təsadüf olunur. Xeyir və şərin mübarizəsini əks etdirən bu tip təsvirlər, həmçinin, Qərbi Azərbaycan ərazisində, indiki Ermənistan Respublikası yerləşən torpaqlarda qalan qoç heykəlləri üzərində də rast gəlinir.

Naxçıvan ərazisindəki daş qoç və qoyun heykəllərinin bir neçəsinin üstündə at təsvirləri vardır. Naxçıvan şəhərindəki Açıq Səma Altındakı Muzeydə mühafizə edilən bir ədəd qoç heykəli üzərində yəhərli-yüyənli at və qılınc təsviri (üzərindəki kitabədən aydın olur ki, Əli adlı şəxsin xatirəsinə həsr olunmuş bu fiqur hicri 1129/ 16.12.1716-04.12.1717-ci ilə aiddir), Şahbuz bölgəsinin Şahbuzkənd qəbiristanlığında qalan bir ədəd qoç heykəlinin isə sağ yanında ata minmiş bir adam (süvari), sol yanında yəhərli at təsvir olunmuşdur. Naxçıvanın digər bölgələrində də üzərində at təsviri olan qəbirüstü daş qoç və qoyun heykəlləri qeydə alınmışdır.

Məlumdur ki, at türk xalqları arasında misilsiz hörmət və məhəbbətə layiq olmuşdur. Ömrü at üstündə, atla bərabər keçən bir xalqın atı sevməsi,

onu uğurlu sayması təbii haldır. Bəzi türk boyları müxtəlif tarixi dövrlərdə ata heykəl, məzar yapmışlar. Arxeoloji qazıntılar təsdiq edirlər ki, qədimdə türklər qəbirə mərhumla birlikdə onun atının cəsədini də qoyurdular. Ə.Ələkbərov Şərur bölgəsinin Şahtaxtı kəndində arxeoloji qazıntılar zamanı at skeleti aşkar etmişdir. Azərbaycanın digər şimal bölgələrində də arxeoloji tədqiqatlar zamanı at skeleti aşkar olunmuşdur (17, s. 115).

Ərəb coğrafiyaşünası və səyyahı İbn Fədlan Volqa çayı sahillərinə səyahət edərkən orada yaşayan bulqar türk tayfalarının dəfn adətlərini müşahidə etmiş və yazmışdır ki, bulqarlar mərhumu dəfn edərkən bir neçə atı da öldürüb mərhumla birlikdə qəbirə qoyurlar (18, s. 63). Sonralar bu adət dəyişilmiş və öz yerini qəbirüstü at fiqurlarına, xatirə abidələri üzərində həkk olunan təsvirlərə vermişdir. Tədqiqatçılar da bu fikirdədirlər ki, islam dini qəbirə əşya qoymaq adətini qadağan etdikdən sonra vaxtilə qəbirə qoyulan əşya və heyvanların təsvirləri qəbirüstü abidələr üzərində həkk olunmağa başlayır (13, s. 81).

At türk xalqları, o cümlədən Azərbaycan türkləri arasında o dərəcədə əziz tutulmuşdur ki, onlar qəbirüstü abidələrdə at təsvirini verməklə yanaşı, həm də qəbirlərin üstünə at heykəlləri qoymuşlar. Gəncədə, Qazaxda, Laçında, Kəlbəcərdə və s. bölgələrdə qəbirlərin üstünə qoyulmuş at heykəlləri qeydə alınmışdır. R.Əfəndiyev Naxçıvanda da at fiquru qeydə almış və onun fotoşəklini nəşr etdirmişdir (9, s. 71, 93). Qoç və qoyun heykəlləri üzərində təsvir olunan at təsvirləri, həmçinin, qəbirlərin üstünə qoyulan at heykəlləri təsdiq edirlər ki, at Azərbaycan türklərinin həyatında mühüm rol oynayan və ən çox sevilən heyvan olmuş, kişilik rəmzi sayılmışdır. Hətta «Kitabi-Dədə Qorqud» dastanında at qardaşla bərabər tutulmuşdur (12, s. 60). Bütün bunlara görə qoç heykəlləri üzərində bu təsvirlər həkk edilmiş, bəzən də qəbirlərin üstünə at heykəli qoyulmuşdur.

Şərur şəhərində bir qoç heykəli üzərində dəvə karvanı təsvir olunmuşdur. Bu təsvir orta əsrlər zamanı Naxçıvanda dəvədən əsas nəqliyyat vasitəsi kimi istifadə olunmasını göstərir. Həmçinin bu təsvir Naxçıvan ərazisində dəvəçiliyin tarixini öyrənmək baxımından çox əhəmiyyətlidir. Qoç heykəlinin yanında dəvə karvanının təsvir edilməsi mərhumun dəvə karvanında işləməsinə, ehtimal ki, sarvan (karvanı idarə edən adam) olmasına işarədir.

Badamlı kəndində (Şahbuz bölgəsi) qeydə alınmış qoç heykəli üzərində bir insan təsvir olunmuşdur. Onun sağ əlində manqal üzərinə tutulmuş, ət tikələri düzülmüş şiş, sol əlində isə kuzə vardır. Bölgənin Keçili kəndində qeydə alınan bir qəbirüstü abidə üzərində isə ov səhnəsi təsvir olunmuşdur. At üstündə oturmuş bir adam sol əlində kaman tutmuş, sağ əlilə ox qabından ox götürür. Onun qarşısında ov zamanı istifadə olunan Şahin quşu uçur (23, s. 151-152). Şahin quşu təsvirinə Keçili kəndində başqa bir abidə üzərində də rast gəlinir. Abidə üzərində öküz üzərinə hücum edən bəbir təsvir olunmuşdur. Şahin quşu təsviri isə bəbirin boynu üzərində həkk

edilmişdir (23, s. 147). Bu təsvirlər Naxçıvan əhalisinin orta əsrlər dövründəki məişəti haqqında dolğun məlumat verirlər.

Daş qoç və qoyun heykəlləri, həmçinin digər qəbirüstü xatirə abidələri üzərində həkk edilən müxtəlif təsvirlər, o cümlədən insan və heyvan təsvirləri təsdiq edir ki, orta əsrlər zamanı şəkil çəkmək, heykəl yapmaq yasaq olunsa (8, s. 68; 27, s. 198; 11, s. 9) da xalq içərisindən çıxmış sənətkarlar bu yasağa müəyyən vaxtlar əməl etsələr də, sonralar buna əməl olunmamışdır (7, s. 104-109).

Tədqiq etdiyimiz daş qoç və qoyun heykəllərinin bir qrupunun üzərində çoxlu təsvirlərlə yanaşı kitabələr də vardır. Belə nümunələrə bir sıra yaşayış məskənlərində qalan və Naxçıvan şəhərindəki Açıq Səma Altındakı muzeydə mühafizə edilən qoç heykəlləri üzərində təsadüf olunur. Məsələn, adı çəkilən muzeydə nümayiş etdirilən, boz rəngli daşdan yüksək ustalıqla hazırlanmış daş qoç fiquru üzərində insan təsviri ilə yanaşı dini xarakterli kəlamlar (Ya Allah, Məhəmməd, Əli) və mərhumun adı (Əli) həkk edilmişdir. Bu kitabələrin bir qismi orta əsrlər dövründə hazırlanmış abidələr üzərində yazılsa da, bir hissəsi islamdan qabaqkı dövrlərdə hazırlanmış abidələr üzərində islamın intibah dövründə həkk edilmişlər. S.Aşurbəylinin fikrincə qəbirüstü qoç və at heykəllərinin bir hissəsi daha əvvəlki dövrlərdə hazırlanmış, onların üstündəki ərəb kitabələri isə orta əsrlər zamanı həkk edilmişlər (3, s. 105).

Orta əsrlər dövründə bu daş heykəllər, onların yaranması səbəbləri barədə çoxlu nağıl və əfsanələr yaranmışdır. Xalq yazıçısı Əzizə Cəfərzadə vaxtilə anasından eşitdiyi, 1982-ci ildə yazıya köçürərək nəşr etdirdiyi nağıl və əfsanələrin birində- «Daş oğlan» əfsanəsində bu heykəllərin necə yaranması haqqında söhbət açır.

Bədii daşyonma sənətinin gözəl nümunələri olan bu abidələr hazırlanma texnikasına görə çox müxtəlifdirlər. Ancaq onların bir əsas ümumi cəhəti vardır ki, bu da onların iki qıçlı olmasıdır. Ancaq vaxtilə Şərur bölgəsinin Qarabağlar kəndində dörd qıçlı fiqur da olmuşdur (22, s. 119). Torpaqlarımızın qədim zamanlardan bəri türk xalqlarına məxsus olduğunu, türklərin bu ərazilərdə tarixin erkən çağlarından yaşadığını təkzib olunmaz şəkildə sübut edən, xalqımızın torpağa vurduğu möhür olan, həmçinin Naxçıvan ərazisində bədii daşyonma sənətinin inkişaf mərhələlərini izləməyə imkan verən bu heykəlləri tamamilə qeydə almaq, onları tədqiq edərək gələcək nəsillərə çatdırmaq və qorumaq hər bir vətən övladının müqəddəs borcu olmalıdır.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Археология СССР. Степи Евразии в эпоху средневековья. М., 1981.
3. Ашурбейли С. Скульптура Азербайджана древного периода и периода

средневековя. Az. Tarixi Muzeyinin əsərləri. T. I. Bakı, 1956 , s. 61-109.
4. Bünyadov T. Əsrlərdən gələn səslər. Bakı: Azərnəşr, 1975, 264 s.
5. Cəfərzadə Ə. Anamın nağılları. Bakı: Gənclik, 1982, 176 s.
6. Джавахашвили А.И., Глонти Л.И. Урбниси I. Тбилиси, 1962.
7. Джафарзаде И.М., Джафарзаде С.К. Азербайджанские намогильные камни. Журнал «Советская этнография», М., 1956, № 3, с. 104-109.
8. Дорошенко Е.А. Шиитское духовенство в современном Иране. М.: Наука, 1985, 232 с.
9. Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənət nümunələri. Bakı: İşıq, 1976, 190 s.
10. Əfəndiyev R. Daşlar danışır. Bakı: Gənclik, 1980, 31 s.
11. Формозов А.А. К проблеме очагов первобытного исскуства. Журнал «Советская археология», М.: Наука, 1983, № 3, с. 5-13.
12. Kitabi-Dədə Qorqud. Bakı: Gənclik, 1978, 184 s.
13. Quliyev H.A., Bəxtiyarov A.S. Azərbaycanda qədim dini ayinlər və onların məişətdə qalıqları. Bakı: Azərnəşr, 1968. 110 s.
14. Мунчаев Т.М. Памятники Майкопской культуры в Чечене-Ингушетии. Журнал «Советская археология», 1962, № 3.
15. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть IV, С.-Петербург, 1836, 401 с.
16. Пиотровский Б.Б. Поселения медного века в Армении. Журнал «Советская археология», 1949, № 11.
17. Погребова М.Н. Иран и Закавказе в раннем железном веке. М.: Наука, 1977, 184 с.
18. Путешествие Ибн Фадлана на Волгу. М.-Л., 1939, 193 с.
19. Rzayev N. Əsrlərin səsi. Bakı: Azərnəşr,1974, 86 s.
20. Рзаев Н.И. Исскуство Кавказской Албинии IV в. до н.э.- VII в.н.э. Баку: Элм, 1976, 155 с.
21. Səfərov F., Cəfərov H.. Səfərova S. Naxçıvanda saz sənəti tarixindən. Nax.MR-nın sosial, iqtisadi və mədəni inkişafının müasir problemləri. Ali məktəblərarası konfransın materialları. Bakı, 1998, s. 51-53.
22. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (отчет о поездке летом 1926 г.) / Известия "Азкомстарис"а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 87-121.
23. Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв) как историко-культурные памятники. Диссертация на сосискание ученой степени канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАН Азербайджана. Инв. № 8383.
24. Сысоев В.М. Нахичеванский край-Нах. ССР (отчет о поездке летом 1927 года). Известия, «Азкомстарис»а, выпуск 4 (тетрадь 2). Баку, 1929.
25. Шер Я.А. Каменные изваяния Семиречья. М.-Л.: Наука, 1966, 139 с.
26. Vəlili M. Azərbaycan. Bakı: Azərnəşr, 1993, 208 s.
27. Яковлев Е.Т. Исскуство и мировые религии. М.: Высщая школа, 1985,

287 с.

**Гаджифахраддин Сафарли**

**КАМЕННЫЕ ФИГУРЫ БАРАНА В НАХЧЫВАНЕ**

В статье рассматриваются надгробные памятники в виде каменных фигур барана, находящиеся на кладбищах на территории Нахчывана. Отмечается, что эти памятники, распространенные на территории с Тихого океана до Европы, где жили тюркские народы, связанны с их древними верованиями. Также в статье про анализированы изображения, высеченные на памятниках.

**Hajifakhraddin Safarli**

**STONE RAM AND SHEEP STATUES IN NAKHCHIVAN**

This article deal with the grave stones in the shape of ram and sheep in the cemeteries in territory of Nakhchivan. It is shown that these statues spread from the Pacific Ocean to Europe are connected with the ancient beliefs of tusk who lived in these territories also descriptions on the graves have been analysed.

***Rəyçilər: Akademik İ.Hacıyev, AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**MƏMMƏD MƏMMƏDOV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVAN MƏTBUATININ YARANMA TARİXİNƏ DAİR BƏZİ MÜLAHİZƏLƏR (1920-1940-cı illər)

Naxçıvan diyarında ilk dəfə qəzet çıxarmaq ideyası hələ XIX əsrin 90-cı illərində dövrün mütərəqqi ziyalıları tərəfindən irəli sürülüb. Bu zaman artıq böyük maarifpərvər Məhəmmədtağı Sidqinin yenicə açmış olduğu “Məktəbi-tərbiyə” təhsil ocağı xalqın savadlanması, təhsil alması yolunda fəaliyyətə başlamış, Cəlil Məmmədquluzadə, Eynəli Sultanov, Məhəmmədağa Şahtaxtlı kimi milli demokratik düşüncəli ziyalılar mədəniyyətimizin inkişafı istiqamətində artıq bir sıra addımlar atmışdılar.

Filologiya elmləri namizədi, Prezident təqaüdçüsü Lətif Hüseynzadənin fikrincə hələ 1894-cü ildən yerli ziyalılar qəzet nəşrinə icazə almaq üçün Peterburqa, ərizə və məktublarla müraciət etmiş, lakin bu müraciətlərə cavab verilməmişdi. Bu məsələ yalnız 1918-ci ildə ölkəmiz müstəqillik əldə etdikdən sonra qəzet nəşri yenidən gündəmə gəldi. O dövrdə Naxçıvanda Araz-Türk Respublikası deyilən bir qurum mövcud idi. Məhz bu dövrdə – Naxçıvanın düçar olduğu olduqca ağır və gərgin ictimai-siyasi dövrdə yenidən qəzet çıxarmağa cəhdlər göstərildi **(**1, 2006, 3 noyabr**).** Nəhayət, Naxçıvanda ilk qəzet sovet hakimiyyətinin ilk illərində, daha doğrusu, 1921-ci ildə işıq üzü gördü **(**3, 1 noyabr, 1921**).** O da bolşevik rejiminə məxsus mətbuat nümunəsi oldu. Müxtəlif dövrlərdə mövcud olan ideoloji, iqtisadi çətinliklər, bəzi hallarda yaradılan süni maneələr isə qəzetin fəaliyyətini dayandıra bilmədi.

Naxçıvanda ilk əvvəl rus dilində “Naxrespublika” adlı qəzet çıxıb, lakin, onun cəmi 2-3 nömrəsi işıq üzü görüb. Sonra isə türk dilində “Cavanlar həyatı” adı ilə gənclər ittifaqının “Cümlə cahan füqərayi-kasibəsi toplantı” şüarı ilə ərəb əlifbası ilə bir vərəqə şəklində qəzet çap olunub. Qəzetin ilk sətrində isə “1921-ci il 1 noyabr, həm də hicri tarix 1340” sözləri yazılmışdı ki, bu tarix də Naxçıvanda mətbuatın yaradılış günü kimi qəbul olunmuşdur. Nömrənin baş məqaləsi olan “1 noyabr” adlı yazıda isə onun məramı açıqlanır: “Bu gündən etibarən Naxçıvanda Azərbaycan Gənclər İttifaqının Naxçıvan Ölkə Komitəsi tərəfindən bu ruznamənin (qəzetin-

M.M.) nəşrinə iqdam olundu. Bu ruznamə gələcəkdə cavanlar ittifaqının nə olduğunu, cavanların gələcəkdə ümumdünya sahəsində nə kimi rol oynamalı olduqlarını fəhlə və kəndli cavanlarına bəqədri imkan bildirəcək. Əminik ki, qeyrətli və məharətli cavanlarımızın məhəbbət və məvəddətindən tutduğu yol, boynumuza aldığımız vəzifə gələcəkdə ifa olunar".

Bu qəzet Naxçıvan Ölkə Gənclər İttifaqının orqanı olduğundan həmin ictimai təşkilatın rəhbəri olan Həmid Mahmudov o dövrdə həm də qəzetin redaktoru olmuşdu. Onu da deyək ki, Naxçıvanda gənclər ittifaqı, o dövrkü ad ilə desək, Naxçıvan Kommunist Gənclər İttifaqı Qəza Komitəsi 1921-ci il martın 27-də yaradılmış, onun təşkilat bürosuna H.Mahmudovla yanaşı, Əkbər Rzayev və Səməd Allahverdiyev də rəhbərlik etmişlər.

Əyalətdə 1921-ci ilin sonunda nəşr olunan qəzetlərdən biri də "Füqəra səsi" adlanıb. Bu qəzetin başında Azərbaycan K(b)P Naxçıvan Ölkə Komitəsinin, Naxçıvan İctimai Şura Cümhuriyyətinin, Mərkəzi İcraiyyə Komitəsinin və Naxçıvan Həmkarlar İttifaqları Şurasının naşiri-əfkarı olan, həftədə bir dəfə çıxan türk qəzetidir" sözləri yazılmışdı. 1925-ci ildən sonra isə o, Naxçıvan Vilayət K(b)P-nın orqanı kimi nəşr olunmağa başlayıb (9, 1925, 31mart).

"Şərq qapısı" qəzeti heç də "Cavanlar həyatı"nın varisi olmayıb. Çünki bu qəzetlərdən birisi ictimai təşkilatın – Gənclər ittifaqının orqanı hesab olunsa da, digəri yerli hakimiyyət orqanlarının rəsmi mətbu nömrəsi olub. 1921-ci ilin payızından nəşr olunan və 4-5 ay ərzində fəaliyyət göstərən "Füqəra səsi" adlı qəzetin bir nüsxəsi də bu gün arxivlərdə qalmadığından onun yaranış günü barədə dəqiq mühakimə yürütmək çətindir. Mətbuatda dərc olunan bir çox yazılarda "Füqəra səsi"nin "Şərq qapısı" üçün təməl daşı rolu oynadığı bildirilib. Məsələn, qəzetin ilk müxbirlərindən biri olan Qasım Tağıyev qəzetin 50 illik yubileyinə həsr olunmuş məqaləsində yazırdı: "Əvvəllər vərəqə şəklində buraxılan "Füqəra səsi" bu gün 50 illiyini qeyd etdiyimiz "Şərq qapısı"nın ilk rüşeymi oldu". (9, 1972, 14 iyul)

Qocaman alim Lətif Hüseynzadə isə "Cavanlar həyatı" ilə həyata vəsiqə almasından danışanda xatirələrinin birində belə bir fikir də işlədib: "Cavanlar həyatı" bir müddət fəaliyyət göstərəndən sonra maddi və mənəvi səbəblər üzündən qapanmağa məcbur oldu" (9, 1981, 26 dekabr). Təbii ki, qapanmağa məcbur olan qəzet "Şərq qapısı" üçün təməl daşı ola bilməzdi. Qəzetin ilk müxbirlərindən biri olan Müzəffər Nəsirli "Şərq qapısı"nın 50 illik yubileyinə həsr etdiyi "Mübarək" şeirində onun "Füqəra səsi" adı altında meydana gəldiyinə işarə vuraraq yazır:

Şərqin qapısında günəş doğanda,
Əridib zülməti, nurla boğanda,
Ucaldı göylərə "Füqəra səsi"...

1922-ci ilin aprelindən «Füqəra səsi» qəzeti "Şərq qapısı" adı ilə çıxmağa başladı. Qəzet öz səhifələrində müntəzəm olaraq partiyanın, hökumətin, komsomolun və həmkarlar ittifaqları təşkilatlarının qarşıya qoyduqları vəzifələri hərtərəfli işıqlandırır, sovet hökumətinin həyata keçirdiyi

tədbirləri qızğın müdafiə edirdi. Qəzet o dövrün rəsmi mətbu orqanı olduğundan orqanlar – Azərbaycan K (b)P Naxçıvan Ölkə Komitəsi və Naxçıvan İctimai Şura Cümhuriyyəti Mərkəzi İcraiyyə Komitəsi onun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məşğul olurdular. Qəzetin mətbəə və onun avadanlıq məsələsi 1922-ci il dekabr ayının 9-da Naxçıvan Xalq Komissarları Sovetinin iclasında müzakirə olunmuş və müvafiq qərar qəbul edilmişdir. Bu barədə qəbul edilmiş qərarın birinci bəndində göstərilir ki, köhnə mətbəə maşınlarını saz, işlək hala salmaq üçün mətbəənin məsrəflərinə 70 manat qızıl pul ayrılsın. İkinci bənddə isə mətbəə binasının təmirinə 60 manat qızıl pul buraxılması qət edilmişdi (1, 2006, 3 noyabr).

1923-cü ildə Bakı şəhərindən Naxçıvana daha mükəmməl mətbəə avadanlıqları gətirildi. O vaxta qədər qəzet “Amerikanka” adlı ayaqla işləyən çap maşını ilə vurulurdu (9, 1931, 25 iyul). Yeni avadanlıqların əldə olunması qəzetin müntəzəm nəşrinə imkan yaratdı. Əvvəllər 100-150 nüsxədən çox olmayan qəzet bu dövrdən 600-700 nüsxə tirajla çap olunmağa başladı.

1924-cü ildə qısa dövr ərzində «Şərq qapısı» qəzeti «Qızıl Şərq» adı altında nəşr edilsə də bu müddətdən sonra qəzetin əvvəlki adı bərpa edilirdi. 1925-ci ilin mart ayında qəzetin 100-cü nömrəsi işıq üzü görürdü. Qəzetin bu yubiley nömrəsi böyük təntənə ilə qeyd edilirdi. Həmin nömrədə dərc olunan baş yazıda deyilirdi: “Əsrlərdən bəri maarif və mədəniyyətin parlaq ziyasından məhrum olaraq cəngavərlər, cəlladlar pəncəsində inləyən Naxçıvan torpağında bu gün göstərilməmiş bir bayram, gələcək nəslə şərəfli bir yadigar buraxacaq həmin bir yadigar, şərqin qapısında yaşayan Naxçıvan ölkəsinin türk əməkçiləri tərəfindən mövhumat və cəhalətə qarşı vuraraq 100 ədəd maarif qurşunu və 100 nömrəyə varmış olan bir türk qəzetəsidir”. Yubileylə bağlı “Şərq qapısı” qəzetinə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Şurası tərəfindən təbrik məktubları göndərilmişdi. Xalq Komissarları Şurasının sədri Həmid Sultanovun və Mərkəzi İcraiyyə Komitəsinin katibi Ələkbər Quliyevin imzaladığı məktubda deyilirdi: “Mətbuat insanların həyatında həmişə böyük rol oynamışdır. Qırmızı mətbuat zəhmətkeşlərin könlünü açmağa, onlara səadət yolunu göstərməyə çalışmaqdadır. Həqiqətdə “Şərq qapısı” qəzetəsi şurədar şərqinin əhəmiyyətli qəzetlərindən olub, gələcəkdə bütün şərq zəhmətkeşlərinin öz tutduğu doğru yola cəlb edəcəyinə əminiz”. Dərc olunan yazılarda qəzetin keçdiyi kəşməkeşli və mübariz yol öz əksini tapırdı (9, 2006, 4 noyabr).

Qəzetin ilk mühərrirlərindən, korrektorlarından biri olan Lətif Hüseynzadənin “Naxçıvanda mətbuat” adlı yazısı da qəzetin həmin sayında dərc olunub. Onun sözlərinə görə də “Füqəra səsi”nin nəşri o qədər də asan olmayıb. Mətbəədə iri şriftlər olmadığından qəzetin adı üçün ayrıca klişe hazırlanmışdır. Qəzet üçün avadanlıqların alınması, mətbəəyə işçi qüvvəsinin toplanması, onların əmək haqları və sair məsələlər Naxçıvan Ölkə Xalq Maarif Komissarlığı tərəfindən ödənilirdi.

20-ci illərin ikinci yarısından “Şərq qapısı” Azərbaycan Kommunist

(bolşevik) Partiyasının Naxçıvan Vilayət Komitəsinin orqanı kimi çıxmağa başlayır.

1931-ci ildə “Şərq qapısı” qəzeti özünün 10 illik yubileyini qeyd etdi. Qəzetin 25 iyul 1931-ci il tarixli sayı bu yubileyə həsr olunub. Bu münasibətlə Bakıda çıxan “Kommunist”, Tbilisidə çıxan “Zarya Vostoka”, İrəvanda çıxan “Qızıl şəfəq” qəzetləri yubilyarı təbrik etmiş və ona uğurlar arzulamışdılar. “Kommunist” qəzeti onu “Şərqin üfüqlərində parlayan bir qızıl ulduz” adlandırmışdı.

1933-cü il dekabrın 30-u qəzet üçün yaddaqalan günlərdən birinə çevrildi. Həmin gün qəzetin 1000-ci nömrəsi rəngli formatda çapdan çıxır. Yubiley nömrəsi nəşr olundu. Həmin nömrənin birinci səhifəsində Azərbaycan Mərkəzi İnqilab Komitəsinin sədr müavini Məmmədxanovun və Naxçıvan Əyalət Firqə Komitəsinin katibi Əli Məhəmmədovun redaksiya kollektivinə təbrik məktubları da dərc olunmuşdu.

Təbii ki, ötən əsrin ziddiyyətlərlə dolu olan 20-30-cu illərində qəzet çıxarmağın olduqca çətin tərəfləri də var idi. Bu illərdə müxbirlik etmək olduqca ağır və məsuliyyətli bir iş idi. Bu dövrdə qəzetlə əməkdaşlıq edən fəhlə-kəndli müxbirlər, ziyalılar arasında Məhəmməd Rəsizadə, Tofiq Fikrət, Fərəməz Mahmudbəyov, Əli Həsənzadə kimi dövrün tanınmış ziyalıları da var idi.

XX əsrin otuzuncu illəri məmləkətimizdə kollektivləşmə, kolxoz quruculuğu və sovet hakimiyyətinin qolçomaqlarla mübarizə dövrü kimi xarakterizə olunur. Ölkədə kollektivləşmə siyasətinin həyata keçirilməsi, birgə ictimai və dövlət təsərrüfatlarının yaradılması, onların iqtisadi cəhətdən möhkəmləndirilməsi, texnika ilə təchiz edilməsi başlıca məsələlərdən birinə çevrilir. Belə bir dövrdə mətbuatın üzərinə xüsusi missiya düşürdü. Məhz bu illərdə bir çox rayonlarda da yerli mətbuatın təməli qoyuldu. Muxtar respublikanın Şərur, Şahbuz, Ordubad rayonlarında da yerli qəzetlər nəşrə başladı. 1932-ci ildə AK(b)P Noraşen PK və PZD İK-nin orqanı olan «Noraşen kolxozçusu» qəzeti nəşr edilməyə başladı. Qəzet 1944-54-cü illərdə «Pambığa doğru», 1966-cı ildən isə «İşıqlı yol» adı altında çap edilmişdi (1, 2006, 3 noyabr).

Otuzuncu ilin əvvəllərindən “Şərq qapısı” qəzeti öz fəaliyyətini daha da genişləndirirdi. Qəzetə qüdrətli qələm sahibi, sonralar Azərbaycanın xalq yazıçısı Əli Vəliyevin redaktorluğu böyük şöhrət gətirdi (7, II c., s. 304). Məhz bu dövrdə Naxçıvan MTS siyasi şöbəsində “Sürət” adlı qəzet də nəşrə başlanır. Mirzə İbrahimov kimi istedadlı və qüdrətli qələm sahibinin Bakı şəhərindən “Sürət” qəzetinə redaktor göndərilməsi də regionda mətbuat mühitinin canlanmasına xidmət etdi.

Əli Vəliyevlə Mirzə İbrahimovun yaxın dostluqları, birgə əməkdaşlıqları bu qəzetlərin ideya-siyasi və mədəni səviyyəsinin yüksəldilməsində də mühüm rol oynadı. O, Naxçıvanda gənc yazıçı və şairlərin ilk ədəbi ocağına çevrildi.

“Şərq qapısı” qəzetinə məxsus müsbət ənənələrin formalaşmasında

da bu dövr əhəmiyyətli rol oynadı. Qəzetin "Ədəbiyyat səhifəsi" gənc yazıçılar üçün sınaq meydanına çevrilmişdi. Yazıçı Ə.Şəkilinin, Ə.Lahutinin şeir kitabları da bu dövrdə qəzetin mətbəəsi tərəfindən işıq üzü görmüşdü. Qəzetin mətbəəsində ilk dəfə olaraq müstəqil "Ədəbiyyat" qəzeti də nəşr olunmuşdu, onun 2-3 nömrəsi işıq üzü görmüşdür (9, 1981, 26 dekabr).

Azərbaycanın xalq yazıçısı Əli Vəliyev sonralar xatirələrində yazırdı: "Mənim redaktor olduğum 30-cu illərdə qəzetin səhifələrində Mirzə İbrahimov, Abbas Gülməmmədov, Qurban Yusifzadə, Əyyub Abbasov, Məmmədəli Tarverdiyev, Lətif Hüseynzadə kimi qabaqcıl ziyalılar yeni həyatı təqdir və tərənnüm edən, nöqsanları cəsarətlə açıb göstərən yazılarla müntəzəm olaraq çıxış edirdilər" (9, 1972, 14 yanvar).

Ədəbiyyata qaynar yaradıcılıq istedadı ilə gələn Mirzə İbrahimov üçün də Naxçıvan sözün əsl mənasında ciddi həyat məktəbi və tükənməz ilham mənbəyi oldu. O, burada təkcə qəzetçilik fəaliyyəti ilə məşğul olmamış, ədəbi yaradıcılığında xüsusi rol oynayan "Həyat" pyesinin mövzusunu da yerli həyatdan alaraq onu bitkin formada tamamlaya bilmişdir (9, 1971, 16 noyabr).

Əli Vəliyevdən sonra qəzetə Məsudə Nuriyeva adlı bir qadın rəhbərlik etmişdir. Düzdür, ondan əvvəlki illərdə də qəzetlə əməkdaşlıq edənlər arasında qadın ziyalılar az olmamışdır. Buna misal olaraq Səkinə Rzalının, Səlbi İsgəndərovanın və başqalarının adlarını göstərmək olar. Məsudə Nuriyeva isə qəzetin ilk qadın redaktoru oldu. Məsudə xanım xatirələrinin birində yazır: "Məndən soruşsalar ki, redaktorluq necə vəzifədir, dərhal deyərəm: narahat və olduqca çətin bir vəzifədir. Axı, "qəzetin çapına icazə verirəm" sözlərini yazıb altından qol çəkən redaktor hər gün, həm də minlərlə, on minlərlə oxucu qarşısında hesabat verir. Yanlış bir faktın, yerində deyilməyən bir sözün qəzet səhifəsinə düşməməsi üçün redaktor həmişə narahat, həmişə həyəcanlıdır. Mən bunu öz təcrübəmdə görmüşəm; 1934-35-ci illərdə "Şərq qapısı"nın redaktoru olduğum zaman. O vaxt "Şərq qapısı" kiçik formatda buraxılırdı. Bununla belə işimiz olduqca ağır idi. Redaksiyada və mətbəədə ixtisaslı kadrlar yox idi. Elektrik olmadığından qəzet səhifələrini çox vaxt şam işığında oxuyurduq..." (9, 1972, 14 yanvar).

1936-cı ildə Naxçıvanda məktəbin yaradılması mətbuatın inkişafında mühüm yer tutur.

"Şərq qapısı" ilə bağlı öyrənilməsi, hələ də qaranlıq qalan məqamlardan biri də 1937-38-ci illərlə bağlıdır. Bu dövrdə ölkədə baş qaldıran repressiya dalğası bu qəzetin redaksiyasından yan ötmədi. Qəzetin o dövrə aid «Əmrlər kitabı» ilə tanışlıq bunu aydın göstərir. Məsələn, 1937-ci il 19 fevral tarixdən ilin sonunadək qəzetə 5 nəfər redaktorluq edib: Hüseyn Mahmudov, Şirəli Şirəliyev, Ə.Hacızadə, Musa İsmayılov, Xəlil Əmirov. Ə.Hacızadənin redaktorluq fəaliyyəti cəmi 13 gün çəkib. Xəlil Əmirovun redaktorluq fəaliyyəti isə bir qədər uzun çəksə də, sonu yaxşılıqla bitməyib. 01 dekabr 1938-ci il tarixində o, Naxçıvan Vilayət Partiya Komitəsinin

qərarı ilə tutduğu vəzifədən azad olunub. Həmin tarixdən redaktor təyin olunan şəxs isə 1939-cu ilin 5 fevralında öz vəzifəsi ilə vidalaşıb (6, s. 347).

Qəzetin Böyük Vətən müharibəsi dövründəki fəaliyyəti də maraqlıdır. Müharibənin yaratdığı mürəkkəb şəraitdə "Şərq qapısı" qəzeti cəbhə ilə xalq arasında körpü yaradan mətbu orqan kimi regionda hər evin qapısını açmış, döyüş cəbhələrinə belə gedib çata bilmişdir. Qəzet müharibə illərində partiya və hökumətin göstəriş və qərarlarının kütlələrə çatdırılmasında, ön və arxa cəbhədə igidlik göstərən həmyerlilərimizin fəaliyyətinin işıqlandırılmasında böyük rol oynamışdır. Maraqlıdır ki, müharibə başlanandan iki gün sonra, 1941-ci ilin iyun ayının 24-də qəzetin redaktoru Hüseyn Ağrılı vətənpərvərlik nümunəsi göstərərək belə bir əmr imzalayıb: "Bu gündən etibarən ordu sıralarına getdiyimdən məsul redaktorluq vəzifəsindən azad olunub, məsul redaktorluq vəzifəsini Mirzəliyev yoldaşa tapşırıram" (9, 2006, 22 iyul).

Müharibə başlanmazdan bir neçə il əvvəl qəzetə redaktorluq edən Xəlil Əmirov və Musa İsmayılov, eləcə də bir neçə nəfər əməkdaş da alman işğalçılarına qarşı mübarizədə qəhrəmancasına döyüşərək həlak olmuşlar (9, 2006, 4 noyabr).

Bu faktı da qeyd edək ki, Böyük Vətən müharibəsinə Naxçıvan diyarından 29024 nəfər oğul və qız yollanmışdır ki, onların da tən yarısı odlu-alovlu döyüşlərdən geri qayıtmamışdır. Sovet İttifaqı Qəhrəmanı fəxri adını alan soydaşlarımız arasında isə Muxtar Respublikamızın üç oğlu olmuşdur.

Böyük Vətən müharibəsi qalibiyyətlə başa çatdıqdan sonra ölkə miqyasında müharibənin gətirdiyi ağır bəlaların aradan qaldırılması istiqamətində bərpa işlərinə başlanıldı. Bu dövrdə də sovet hökuməti mətbuatın səfərbəredici gücündən ideoloji təbliğat vasitəsi kimi istifadə etməyə çalışdı. Bu mənada, 1946-1947-ci illərdə qəzetin fəaliyyətində böyük canlanma duyuldu. Bu dövrdə kiçik formatda həftədə 3 dəfə dörd səhifə həcmində nəşr olunan qəzetdə yeni imzalar da görünməyə başladı: İslam Səfərli, Seyid Səbri, Müzəffər Nəsirli, Abbas Rəcəbli, Hüseyn Razi, Hüseyn İbrahimov, Hüseyn Əzim, Əhməd Mahmudov, Rəşid Qazıbəyov kimi qələm sahibləri bu dövrdə mətbuat səhifələrində tez-tez çıxışlar edirdi. O dövri mətbuat üçün ən üstün cəhətlərdən biri də qəzetdə tez-tez mənzum felyetonların dərc olunması, eybəcərliklərə və nöqsanlara qarşı cəsarətlə mübarizə aparılması idi (9, 2006, 4 noyabr).

Onu da qeyd edək ki, qəzet 1930-cu ilə qədər ərəb, 1930-cu ildən 1940-cı ilə qədər latın, 1940-cı ildən 2001-ci ilin iyul ayınadək kiril əlifbası ilə çap olunub. Ondan sonra isə yenidən latın əlifbası ilə nəşrini davam etdirir (7, s. 304).

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəz.
2. "Azərbaycan gəncləri" qəz.

3. “Cavanlar həyatı” qəz.
4. Məmmədov M. Azərbaycan basınının dünü ve bu günü / IX yerel mediya egitim semineri / Ankara, 2002, s. 45-50.
5. Məmmədov M. Mənim qəzetli dünyam, Bakı: Nurlan, 2006, 384 s.
6. Naxçıvan ensiklopediyası, 2 cilddə, Naxçıvan, 2005.
7. “Sovet Naxçıvanı” qəz.
8. “Şərq qapısı” qəz.

**Мамед Мамедов**

**НЕКОТОРЫЕ СООБРАЖЕНИЯ ОБ ИСТОРИИ СОЗДАНИЯ ПЕЧАТИ НАХЧЫВАНА (1920-1940 гг.)**

В статье рассматриваются вопросы создания печати Нахчывана и двадцатилетний путь ее развития. При этом особо подчеркивается заслуга творческой интеллигенции, игравшую немаловажную роль в формировании положительных традиций в печати Нахчывана

**Mammad Mammadov**

**SOME THOUGHTS ABOUT THE HISTORY OF ESTABLISHING PRESS IN NAKHCHIVAN (1920-1940 s)**

The questions about establishing press in Nakhchivan and its progress for twenty years are looked through in this article. The service of creative intellectuals playing an important role in the formation of positive traditions of Nakhchivan press are noted especially.

***Rəyçilər: Akademik İ.Hacıyev, tarix e.d., prof. H.Səfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**HƏMZƏ CƏFƏROV**
Naxçıvan Dövlət Universiteti

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ RESPUBLİKANIN İCTİMAİ-SİYASİ VƏ SOSİAL-MƏDƏNİ HƏYATINDA GƏNCLƏRİN İŞTİRAKI

Azərbaycan müstəqillik əldə etdikdən sonra əhalinin bütün təbəqələri, sosial qrupları arasında müşahidə olunan milli oyanış, sosial-siyasi fəallıq gənclərdən də yan keçmədi. Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Məqsəd və vəzifələrinə, fəaliyyət istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən dəyərli, yeni, müstəqil gənclər təşkilatları kortəbii şəkildə yaranmağa başladı. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlifyönlü siyasi partiya və qrumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri vahid gənclər siyasətinin həyata keçirilməsi zərurətini ortaya atdı (10, s. 403-408).

Azərbaycan dövlətinin gənclər siyasətinin ən bariz nəticələrindən biri ölkəmizdə gənclər hərəkatının müxtəlif qeyri-hökumət gənclər təşkilatlarının inkişafıdır. Ümumiyyətlə, vətəndaş cəmiyyətinin ən vacib faktorlarından biri də ictimaiyyətin ən müxtəlif təbəqələrinin öz qarşılarına qoyduqları məqsədləri həyata keçirməkdən ötrü ictimai qurumlarda – Qeyri-Hökumət Təşkilatlarında (QHT) birləşmək hüququnun gerçəkləşdirilməsidir.

Respublikada fəaliyyət göstərən gənclər birliklərinin dövlət gənclər siyasətinin həyata keçirilməsilə gənclərlə bağlı qanunvericilik aktlarının hazırlanmasına və təkmilləşdirilməsinə yaxından cəlb etmək məqsədilə 1995-ci ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi Kollegiyasının nəzdində Gənclərlə iş üzrə İctimai Şura yaradıldı (9, s. 12).

Bu gün Azərbaycan gənclərinin fəal hissəsi həmin təşkilatlarda birləşmişlər. Əgər 1997-ci ilin əvvəllərində gənclər təşkilatlarının sayı 60-a yaxın idisə (5, s. 25), 2000-ci ildə onların sayı artıq 120-dən artıq idi. Bu təşkilatların əksəriyyəti konfederativ qurum olan Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının üzvüdür. 1995-ci il noyabrın 21-də təsis olunmuş və 1996-cı il yanvarın 31-də Ədliyyə Nazirliyində qeydiyyata alınmış ARGTMŞ ilk vaxtlar öz ərrafında 30-a yaxın təşkilatı birləşdirirdi.

1997-ci il oktyabrın 27-də Naxçıvan MR-də GTMŞ yaradılmış və oraya 7 gənclər təşkilatının nümayəndəsi daxil olmuşdu (5, s. 441).

Avropa Gənclər Forumunun nümayəndələri 1996-cı ilin fevralında Bakıda səfərdə olmuş, Azərbaycan gənclər təşkilatları ilə tanış olmuşdur. Bundan sonra AGTMŞ AGF tərəfindən hazırlanmış bir sıra beynəlxalq tədbirlərə dəvət edilmişlər. Milli Şura həmçinin BMT sistemindəki Ümumdünya Gənclər Forumu ilə də əlaqələr yaratmış, təşkilatın 1996-cı ilin mayında İstanbulda keçirilmiş tədbirlərində fəal iştirak etmişlər. Milli Şura öz fəaliyyətində regional əməkdaşlığa da xüsusi yer verir. 1996-cı ilin martından başlayaraq MŞ Avropa İttifaqı tərəfindən dəstəklənən «Qafqaz gəncləri dialoqunun» fəal iştirakçısıdır. Dialoqun əsas məqsədi Qafqazda sülhün bərqərar edilməsində gənclərin iştirakını təmin etməkdir. Azərbaycan gənclər təşkilatları İslam Konfransı Təşkilatı (İKT) və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində gənclər əməkdaşlığına qoşulmuşdur.

2000-ci ilin aprelində Milli Şura Avropada ən nüfuzlu bey-nəlxalq qeyri-hökumət təşkilatı olan Avropa Gənclər Forumuna tamhü-quqlu, 2002-ci ilin yanvarında isə BMT-nin İqtisadi və Sosial Şurasına müşahidəçi üzv seçilmişdir.

Azərbaycanın Avropa Şurasına qəbulunda gənclər təşkilatlarının Milli Şurasının böyük xidmətləri olmuşdur. Avropa Şurası Gənclər və İdman Direktorluğunun ölkəmizdə olan gənclər hərəkatı barədə hesabatları yüksək qiymətləndirilmiş və Azərbaycanın Avropa Şurasına qəbulunda öz müsbət təsirini göstərmişdir (13, s. 64). Milli Şura respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edir və o, Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq edir.

Bu gün Naxçıvan MR-də 10-dan çox gənclər təşkilatı, ictimai birlik və federasiyalar fəaliyyət göstərir (14, NMRGİN-nin 1999-cu il üçün hesabatı). Onların fəaliyyətində gənclərin vətəndaşlıq və vətənpərvərlik hisslərinin artılırlması, asudə vaxtlarının təşkili, zərərli vərdişlərdən azad olunması, elmə, təhsilə, idmana marağının artırılması, istedadlarının üzə çıxarılması, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinin, onun çox nəhəng irsinin dərindən öyrədilməsi kimi məqsədlər ön planda durur.

Naxçıvan MR Gənclər və İdman Nazirliyi yanında fəaliyyət göstərən «Heydər Əliyev gənclər məktəbi» gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Nazirlik yanında gənclərin «Diskussiya klubu», «Uşaq və gənclərin mənəvi tərbiyə mərkəzi», «Azərbaycanlıların soyqırımı tarixi mərkəzi» yaradılmışdır.

Ötən müddət ərzində Naxçıvan MR gənclərinin 4 konfransının keçirilməsi MR-də gənclər hərəkatının mühüm tərkib hissəsi olmuşdur. Konfranslarda Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun başçılığı ilə MR rəhbərliyi iştirak etmiş, gənclərin tövsiyə və təkliflərini dinləmiş, onlara MR-də davam edən inkişaf proseslərində daha yaxından iştirak etmək üçün öz tövsiyələrini vermişdir.

1996-cı il Azərbaycan gəncliyi ili olmuşdur. 2 fevral ilk dəfə olaraq

gənclərin qarşısında duran vəzifələrin müəyyən edilməsində, onların problemlərinin müzakirəsinə həsr olunmuş müstəqil Azərbaycan gənclərinin I Forumunun keçirilməsi tarixi bir hadisəyə çevrildi. Həmin ilin oktyabrında «Gənclik» BTM-də «Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində gənclərin yeri və rolu» mövzusunda respublika seminar-müşavirəsi keçirildi. Toplantıda «Dövlət quruculuğunda GİTN və onun yerli idarələrinin rolu haqqında», «Azərbaycan Respublikası Konstitusiyası və müstəqil dövlət quruculuğu», «Gənclər arasında cinayətkarlıq, narkomaniya, alkoqolizm və digər qanun pozuntularının qarşısının alınması», «Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi və ordu quruculuğu», «Gənclərin mənəvi-əxlaqi tərbiyəsi işində ictimai təşkilatların yeri və rolu» mövzularında məruzələr dinlənilmişdir (4, s. 53).

Gənclərimizin mənəvi tərbiyəsi, onları mənəviyyatımıza zidd əməllərdən çəkindirmək, narkomaniya kimi zərərli vərdişlərdən qorumaq, gənclər arasında cinayətkarlığın qarşısını almaq başlıca vəzifələrdən biri sayılır. 1997-ci ildə «Azərbaycan Respublikası gəncləri arasında narkomanlığın vəziyyətinin araşdırılması» adlı elmi-praktik konfrans, rayonlarda isə zona müşavirəsi keçirilmişdir. 1999-cu il aprelin 1-də Azərbaycan Yazıçılar Birliyi, «Antinarkotizm» Elmi-Analitik Mərkəzi və GTMŞ ilə birgə keçirilən tədbirdə antinarkomaniya mövzusunda bədii əsərlərin müsabiqəsi elan edilmiş, bir ildən sonra – 2000-ci il aprelin 1-də ona yekun vurulmuşdur. Bakı şəhər GİT idarəsi, GTMŞ-nın narkomaniya ilə mübarizə komissiyası ilə birlikdə 2000-ci il aprelin 14-də «Narkotiklərsiz XXI əsrə» devizi altında seminar təşkil etmişlər. GTMŞ-nın narkotiklərlə mübarizə komissiyası təqdim etdiyi «Sağlam gənclik» layihəsi GİTN tərəfindən qismən maliyyələşdirilmişdir (4, s. 77).

Gənclər hərəkatının inkişafında Azərbaycan gənclərinin 1999-cu il 2-3 martında keçirilən II Forumu mühüm rol oynadı. Forumda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev gənclərin gələcək fəaliyyətini müəyyənləşdirən proqram xarakterli nitq söyləmiş, gənclər siyasətini reallaşdırmaq üçün dövlət orqanları qarşısında xüsusi tapşırıqlar qoymuşdu.

Azərbaycanın dövlət orqanları və gənclər təşkilatlarının nümayəndələri 1999-cu ilin oktyabrında Minskdə MDB gənclər təşkilatlarının konqresində gənclər hərəkatının müxtəlif sahələrinə aid problemlərin müzakirəsində fəal iştirak etmişlər. Daha bir əlamətdar hadisə Avropa Şurasının gənclər direktorluğunun rəhbəri L.Suralanın 1999-cu ilin martında Bakıya səfəri zamanı «Azərbaycan gəncləri beynəlxalq aləmdə» mövzusunda dəyirmi masanın keçirilməsi oldu. ABŞ-ın Honolulu şəhərində 20-30 oktyabr 1999-cu il tarixdə keçirilmiş Dünya Gənclərinin Minillik Konqresində Azərbaycan numayəndə heyəti iştirak etmişdi. Nümayəndə heyətinə «Şərq Ulduzları» uşaq folklor ansamblı və KİV-in nümayəndələri daxil idi (4, s. 71).

Gənclərin ictimai-siyasi fəallığının mühüm göstəricilərindən biri onların seçkilərdə iştirakı məsələsidir. 1999-cu ilin bələdiyyə seçkilərində gənclərin fəal iştirakını təmin etmək məqsədilə müəyyən tədbirlər hayata

keçirilmişdi. Həmin ilin oktyabrında «Gənclik» BTM-də respublikada fəaliyyət göstərən gənclər təşkilatlarının, siyasi partiyaların gənclər birliklərinin iştirakı ilə Bakıda və rayonlarda «Bələdiyyə seçkilərində gənclər təşkilatlarının yeri və rolu» mövzularında seminarlar təşkil edilmişdir. Müvafiq zona müşavirələri 2000-ci il parlament seçkiləri ilə əlaqədar da keçirilmişdi. 1999-cu ildə ölkə üzrə Bələdiyyə üzvü seçilmiş 21 min nəfərdən 6 mini gənc nəslin nümayəndələri idi (9, s. 10).

2001-ci ildə Avropa Şurası Gənclər və İdman Direktorluğunun xətti ilə ARGİTN və GTMŞ-nın təşkilati dəstəyi ilə «Qaçqın düşmüş gənclərin qeyri-formal təhsil vasitəsi ilə səlahiyyətləndirilməsi» mövzusunda seminar keçirilmişdir. Seminarın əsas məqsədi qeyri-formal təhsil metodlarından istifadə etməklə qaçqın düşərgələrində yaşayan gənclərin yaşayış şəraitini nəzərə almaqla onları səlahiyyətləndirmək, onların öz təşəbbüs və fəaliyyətlərini inkişaf etdirmək üçün ruhlandırmaq və dəstəkləmək olmuşdur (9, s. 26).

İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra ölkəmizdə gənclər hərəkatı yeni yüksəliş dövrünə qədəm qoydu. Gənclər hərəkatının inkişafında, gənclərin təşkilatlanmasında, ictimai-siyasi proseslərdə yaxından iştirak etməsində 2005-ci ilin oktyabrında keçirilmiş Azərbaycan gənclərinin IV forumu mühüm rol oynadı. Forumda böyük nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gəncləri narahat edən problemlərdən bəhs etmiş, bu problemləri həll etmək üçün gəncləri daha fəal olmağa çağırmışdı. O, göstərmişdi ki, «bu gün dünyada inkişafı təmin etmək üçün təbii ehtiyatlar, yaxud da başqa milli sərvətlər deyil, ilk növbədə bilik, savad, yeni texnologiyalardır. Bilik, savad, müasirlik, bunlara nail olmaq üçün isə Azərbaycanda təhsilin səviyyəsi mütləq qalxmalıdır». O, üzünü gənclərə tutaraq «bilin ki, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram» deyə gəncləri Azərbaycanın hərtərəfli inkişafına, demokratik proseslərin gücləndirilməsinə öz töhvələrini verməyə çağırmışdı (7).

Bu gün Azərbaycanda artıq 170-ə qədər uşaq və gənclər təşkilatı qeydiyyata alınmışdır (12). Gənclər təşkilatlarını şərti olaraq iki qrupa ayırmaq olar. Birinci qrupa siyasi partiyaların gənclər təşkilatlarını daxil etmək olar. Hal-hazırda Azərbaycanda 10-dan çox siyasi partiyanın gənclərdən ibarət bölmələri fəaliyyət göstərir.

Onların əksəriyyətinin fəaliyyəti yalnız kağız üzərindədir və gənclər arasında kifayət qədər nüfuza malik deyillər. Bu baxımdan YAP Gənclər Birliyi istisna təşkil edir. YAP-ın üzvlərinin 40%-ni gənclər təşkil edir (16). Ölkəmizin ictimai-siyasi həyatında YAP-çı gənclər yaxından iştirak edirlər.

İkinci qrupa isə gənclərin ictimai birliklərini aid etmək olar ki,onlar əsasən gənclərin problemlərinin həlli, asudə vaxtlarının təşkili və s. istiqamətdə iş aparırlar. Lakin gənclər təşkilatlarının əksəriyyətinin maddi imkanları məhduddur, onların əksəriyyəti əsasən Bakıda fəaliyyət göstərirlər. Yerlərdə öz bölmələri olan gənclər təşkilatları isə çox azdır (6, № 4, s. 6-7).

2006-cı ilin avqustunda Beynəlxalq gənclər günü münasibətilə ARGTMŞ-nın dəvəti ilə müxtəlif ölkələrin gənclər təşkilatlarının nümayəndələri Bakıda Milli Məclisdə, Nazirlər Kabinetində, ARGİN-də, eləcə də müxtəlif gənclər təşkilatlarında olmuş, Azərbaycanda həyata keçirilən gənclər siyasəti ilə yaxından tanış olmuşlar (2).

2006-cı ilin noyabrında Bakıda GUAM ölkələri Gənclər Forumunun I konqresini xüsusi qeyd etmək lazımdır. Bu forumun yaradılması ideeyasını Azərbaycan gəncləri irəli sürmüşlər.

Azərbaycan gənclərinin beynəlxalq əlaqələrində İslam ölkələri gəncləri ilə əməkdaşlıq xüsusi yer tutur. Məhz Azərbaycan gənclərinin təşəbbüsü və Azərbaycan hökumətinin dəstəyi ilə 2004-cü ilin dekabrında Bakı şəhərində İslam Konfransı Təşkilatı (İKT) Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu təsis edilmişdir. Forumun təşkilatlanma prosesini gücləndirmək məqsədilə Azərbaycan dövləti təşkilatın büdcəsinə 100 min ABŞ dolları köçürmək haqqında qərar qəbul etmişdirdir (11).

Azərbaycan GTMŞ-nın həyata keçirdiyi son böyük tədbirlərdən biri də 2007-ci ilin aprelində Bakıda Avropa Gənclər Forumunun üzvlərinin iclasının keçirilməsi oldu. İclasda 44 ölkənin 75 beynəlxalq gənclər təşkilatının 150 nümayəndəsi iştirak etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forum iştirakçılarına təbrik teleqramı göndərmişdi. Forum çərçivəsində AGF-nın, Azərbaycan-Avropa xüsusi layihəsinin icrasına başlanılmış, AGF ilə İKT GF arasında xüsusi memorandum imzalanmışdır (1).

Gənclərimiz Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı əlaqələrin yaradılmasında da fəal rol oynayırlar. Azərbaycan-Amerika Gənclər Birliyi, Azərbaycan-Böyük Britaniya gənclərinin Açıq Dostluq Cəmiyyəti və b. təşkilatların bu sahədə xüsusi xidmətləri vardır. Xaricdə təhsil alan tələbələrimiz də təhsil aldıqları ölkələrdə dostluq cəmiyyətləri təsis edərək Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fəal iştirak edirlər (15).

2002-ci ildən başlayaraq «Gənclər günü»nə həsr edilmiş kinofestivallar, gənc rəssamların sərgiləri keçirilməyə başlanmışdır (8, s. 31).

2002-2003-cü illərdə GİTN və Azərbaycan MOK tərəfindən «Nə? Harada? Nə vaxt?» oyunu üzrə I və II Dünya çempionatları Bakıda keçirilmiş və Azərbaycanın gənclərdən ibarət komandası «Breyn-rinq» yarışları üzrə Dünya kubokunun sahibi olmuşdur. Yaradıcı gənclərin müxtəlif layihələri həyata keçirməsi məqsədi ilə konkret tədbirlər görülür (9, s. 39-49).

Muxtar Respublikanın qabaqcıl ali təhsil məktəbində keçirilən son tədbirlərdən biri 2007-ci ilin yanvarında «İlham Əliyev və Azərbaycan gəncliyi» mövzusunda konfransın keçirilməsi oldu (3).

Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizi, ana dilimizi, adət-ənənələrimizi qoruyub yaşadan, eyni zamanda ümumbəşəri ideyaları mənimsəyərək dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan gənc nəsil yetişmişdir və o Azərbaycanın möhkəmləndirilməsi naminə var

qüvvəsi ilə fəaliyyət göstərir.

## ƏDƏBİYYAT


1. Avropa Gənclər Forumunun üzvlər şurasının iclası. «Azərbaycan» qəz., 2007, 28 aprel; 2006, 16 avqust.
2. «Azərbaycan» qəz., 2006, 16 avqust.
3. «Azərbaycan müəllimi» qəz., 2007, 26 yanvar.
4. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin fəaliyyəti haqqında arayış. Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. İnformasiya bülleteni. Bakı: Elm, 2000, №6, s. 50-90.
5. Azərbaycan Prezidentinin gənclərlə görüşü. Bakı: Sabah, 1997, 103 s.
6. Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. İnformasiya bülleteni. Bakı: Elm, 2000, №4, 81 s.
7. İlham Əliyev. Azərbaycan gənclərinin IV Forumunda nitq. «Azərbaycan» qəz., 2005, 15 oktyabr.
8. Azərbaycan gəncliyi Azərbaycanın gələcəyi. Bakı: Azərnəşr, 2003, 143 s.
9. Forumdan foruma. Bakı: Azərbaycan, 2003, 64 s.
10. Gələcək gənclərindir. Bakı: Azərbaycan, 2004, 496 s.
11. İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin gəncləri dünyada gedən mütərəqqi proseslərdə fəal iştirak etməlidirlər. «Azərbaycan» qəz., 2006, 5 sentyabr.
12. 2008-2013-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi sahəsində «Proqramın hazırlanması» haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. «Azərbaycan» qəz., 2007, 28 aprel.
13. Qarayev Ə. Müstəqil Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. «Dirçəliş – XXI əsr», 2004, №72, s. 59-69.
14. Naxçıvan MR Gənclər və İdman Nazirliyinin Cari Arxivi (GİNCA).
15. Şahverdiyev R. Azərbaycanın qazandığı hər bir uğur bizi sevindirir. «Xalq» qəz., 2007, 11 yanvar.
16. YAP Gənclər Birliyinin II konfransı. «Azərbaycan» qəz., 2005, 3 iyun.



**Гамза Джафаров**


## УЧАСТИЕ МОЛОДЁЖИ В ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ И СОЦИАЛЬНО-КУЛЬТУРНОЙ ЖИЗНИ РЕСПУБЛИКИ В ГОДЫ НЕЗАВИСИМОСТИ


Автор в статье проанализировал участие молодёжи в общественно-политической и социально-культурной хизни республики в годы независимости, международные отношения молодёжи, зарождение и развитие в стране молодёжного движения и различных неправительственных молодёжных организаций, оказание государством им необходимой заботы и помощи, а также указал на неотценимую роль IV Форума молодёжи Азербайджана в организации и развитии молодёжного движения, в оказании

им содействия в участии общественно-политической и социально-культурной хизни страны, сделав соответсвующие обобщения.

**Hamza Jafarov**

## PARTICIPATION OF YOUTH IN THE SOCIAL-CULTURAL AND POLITICAL LIFE OF REPUBLIC IN THE YEARS INDEPENDENTCE

The author in this article has researched and analysed participation of Youth in the life social-cultural and political life of republic, in international relations, in creation different Non Government Organization, the state attention and care for them, the development of Youth movement in the years of independentce. The author has also noted the great role of the IV Forum of the youth of Azerbaijan in the development of youth movement.

***Rəyçilər: Tarix e.n., dosent İ.Zeynalov, tarix e.n. İ.Kəngərli.***

***Naxçıvan Dövlət Universitetinin «Ümumi tarix» kafedrasının 15 dekabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 08).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**EMİN ARİF (ŞIXƏLİYEV)**
AMEA Naxçıvan Bölməsi

# ERMƏNİ ALİMLƏRİNİN NAXÇIVANLA BAĞLI İDDİALARI

Bu, bir həqiqətdir ki, tarixi faktlar müxtəlif istiqamətlərə çəkilməkdə, elmi obyektivlik adından çıxış edən alimlərin böyük əksəriyyəti əsl həqiqətdə tarix elminə zərbə vurmaqdadırlar. Məhz bunun nəticəsidir ki, tarixi həqiqətlər təhrif edilməkdə, elm aləminin bəzi nümayəndələri öz mənsub olduğu ölkənin tarixini obyektiv materiallar əsasında deyil, fərdi münasibətlərinə uyğun olaraq yazmaqdadırlar.

Bu da həqiqətdir ki, gerçəklik yalnız onun öz səbəbləri ilə aşkara çıxa bilər. Lakin səbəblər çox vaxt təcrübədə postulat kimi qəbul edilir, ondan zəruri nəticəni almaq və bu nəticəyə bəraət qazandırmaq üçün istifadə olunur. Nəticədə fərdi münasibət tarixi həqiqətləri üstələməyə başlayır və faktlar istər-istəməz dəyişdirilir. Tarix elminə saysız fəlakətlər gətirmiş metodların mahiyyəti bunlardan ibarətdir. Tarix bu metoda korkoranə tabe olaraq, yalnız ondan umulanları açıb göstərir. Məhz bunun nəticəsidir ki, dünyanın hər yerində tarix elminə olan şübhələr çoxalmaqdadır və günümüzdə bu elm özünü tamamilə rüsvay etmişdir. Daha doğrusu, tarix elmini saxtakar tarixçilər rüsvay etmişlər ki, bu, elmi saxtakarların başında da qeyd-şərtsiz erməni alimləri gəlir.

Uzun illərdir ki, ermənilər ənənəvi olaraq Azərbaycana, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etməkdədirlər. Bu ənənə tarixin genişmiqyaslı və hərtərəfli saxtalaşdırılmasından ibarətdir. Çox sayda erməni alimləri məsələ ilə bağlı iddialar irəli sürürlər, ancaq məqalənin həcmi onların hər birini ayrı-ayrılıqda təhlil etməyə imkan vermir. Bu səbəbdən də biz bu araşdırmamızda yalnız bəzi erməni alimlərinin Naxçıvanla bağlı iddialarına diqqət yetirəcəyik.

İlk olaraq qatı millətçi fikirləri ilə tanınan ideoloq Zori Balayanın "Ocaq" adlı kitabına nəzər salaq. Müəllif yazır: *"...Naxçıvanı qədim ermənilər "Naksuana" adlandırırdılar... Bəzi fars və erməni tarixçiləri onun əsasının eramızdan əvvəl 1539-cu ildə Ermənistan çarı Tiqranın sərəncamı ilə qoyulduğunu yazırlar..."* (2, s. 14).

Göründüyü kimi, Zori Balayan oxucuya təlqin etmək istəyir ki, Naxçıvan eramızdan əvvəl XVI əsrdə Ermənistan çarı Tiqranın sərəncamı ilə salınıb. Halbuki eramızdan əvvəl XVI əsrdə Ermənistan çarlığından və onun çarı Tiqrandan söhbət gedə bilməzdi.

Naxçıvanı "Böyük Ermənistanın müqəddəs şəhəri" elan edən Balayan öz kitabında, hər bir erməninin tarixi Ermənistan ərazilərini qarış-qarış gəzmək üçün başlanğıc olaraq Naxçıvana baş çəkməsinin vacib olduğunu qeyd edərək, öz arzusunu da dilə gətirmişdir: *"...Səyahət rəsmi olaraq Mehri rayonundan başlanır... Amma mənim üçün o, artıq başlanıb. Axı artıq mən yoldayam. Mehriyə çatmaq üçün mən Bibliya torpağı (Naxçıvan-E.A) ilə getməli, daim sağ tərəfimdə Arazı hiss etməliyəm... Mən vətənin tarixini və coğrafiyasını yaxşı öyrənmişəm..."* (2, s. 16).

Kitabda Naxçıvan tarixi Ermənistan elan edilir. Müəllifin arqumentləri ondan ibarətdir ki, Naxçıvanı ermənilərin əlindən tatarlar, yəni azərbaycanlılar alıblar və hal-hazırda onun Azərbaycanın tərkibində olması faktı tarixi ədalətsizlikdir. Halbuki Naxçıvanın tarixi türk torpağı olduğunu təsdiqləyən çox sayda faktlar mövcuddur.

İ. Şopenə müraciət edək: Naxçıvan şəhərinin əhalisi 5470 nəfər, 3261-i azərbaycanlı, 1829-u erməni. Ermənilərin 719-u yerli olub, 1110 nəfəri buraya Türkmənçay müqaviləsindən (1828-ci il) sonra köçürülüb (4, s. 38).

Müəyyən demoqrafik şişirtmələr olsa da, hər halda Şopenin tərtib etdiyi cədvəl olduqca əhəmiyyətlidir. Naxçıvan əyaləti: 17138 azərbaycanlı, 2690 yerli erməni, 10679 İrandan və Türkiyədən köçmə ermənilər. Ordubad mahalı: 7247 azərbaycanlı, 2388 yerli erməni, 1340 gəlmə erməni. İrəvan əyaləti: 49875 azərbaycanlı, 20073 yerli erməni, 45207 gəlmə erməni (4, s. 38-39).

Biz yerli ermənilərin olmasını əsla qəbul etmirik. Çünki Naxçıvanda yerli ermənilərin olması məsələsindən söz gedə bilməz. Ancaq yenə də, Şopenin tərtib etdiyi cədvəldən də göründüyü kimi, azərbaycanlıların sayı istər yerli olsun, istərsə də gəlmə ermənilərdən qat-qat çox idi. Nümunələrin sayını artırmaq mümkündür. Bəziləri, yəni qeyri-azərbaycanlılar, hətta ermənipərəst alimlər düşünə bilərlər ki, bölgədəki yerli ermənilərin sayının az olması müxtəlif dövrlərdəki etnik miqrasiyaların və siyasi hadisələrin nəticələridir. Elə isə biz də sırf erməni alimlərinin öz tədqiqatlarına müraciət etməyi məqsədəuyğun sayırıq.

Erməni alimlərindən Raffi, özünün "Samvel" adlı əsərində yazır: *"...Bizim tariximizdə xalq tamamilə unudulmuşdur. Biz erməni şinakanının (kəndlisinin) necə yaşadığını, öz ağaları ilə hansı münasibətdə olduğunu, nə yeyib nə içdiyini, nə cür qiyafətlər geydiyini, necə sevindiyini və şadlandığını bilmirik. Erməni sənətkarlarının hansı işlərlə məşğul olduqlarını, erməni tacirlərinin hansı ölkələrlə ticari əlaqələr qurduqlarını, yaxud erməni çobanının hansı heyvanlar otardığını bilmirik. Bizim tariximiz bütün bunlar barəsində*

*susur... Bizim tariximizdə hətta xalqımızın ən əzəmətli güvvəsi olan qadınlarımız haqqında da heç bir məlumat yoxdur..."* (4, s. 15).

Daha sonra o, *"...beləliklə, bizim tariximizin quruca salnaməsi tədqiqatçıya çox az məlumat verir. Tarixin bu səhvlərini bədii əsərlər düzəldə bilərdi, əgər heç olmasa onlar olsaydı. Amma bizdə Esxilin və Sofoklun faciələrinə, Homerin və Vergilinin qəhrəmanlıq poemalarına oxşar əsərlər də olmayıb. Bizim qədim ədəbiyyatımız kilsə yazılarından o yana gedə bilməyib… bizim qədim ədəbiyyatda həyat tərzlərinin, adət-ənənələrin, ailənin və ictimai münasibətlərin təsviri yoxdur..."*, deyə yazır (4, s. 16).

Göründüyü kimi, erməni tarixində bir müəmmalıq, bir ziddiyyətlik vardır. Həqiqətən də, erməni tarixinin incələnməsi və araşdırılması asan deyil. Bu tarix uzun, qarmaşıq, qismən qaranlıq və ümumiyyətlə mübahisəlidir. Erməni tarixi demək olar ki, tamamilə ermənilər tərəfindən yazılıb. Çünki öz tarixini yazan bir şəxs və ya o millətin ziyalı təbəqəsi onu təbii ki, böyüdəcək və ululaşdıracaq, eyni zamanda onun mübahisəli cəhətlərini obyektiv şəkildə olduğu kimi araşdırmaqdan yan keçəcəkdir. Ermənilərdə bu vəziyyət xüsusilə görülməkdədir.

Beləliklə, belə bir məqamla qarşılaşırıq: Yazılı tarixin qəbul etdiyi, elmi metodologiyanın guya sənədlərə əsaslanaraq isbat etdiyi "Böyük Ermənistan Dövləti" də mövcud olmamışdır. Bu mənzərə qarşısında tarix boyunca nə müstəqil bir Ermənistan, nə də erməni millətinin varlığından bəhs etmək tarixi həqiqət olaraq göstərilə bilməz. Belə bir vəziyyətdə nəinki Naxçıvan tarixi erməni torpağı olmasından, hətta erməni dövlətinin tarixindən söz gedə bilməz. Bütün bu deyilənləri onsuz da çox gözəl bilən Zori Balayan olduqca təhlükəli bir vasitədən istifadə edərək, "Bibliya" sözünü sevə-sevə tez-tez təkrarlayır və onu "Ararat", "Ermənistan", "Naxçıvan" ifadələri ilə birləşdirmişdir (2, s. 14). Müəllif kitabında, "xristianlıq" və "sivilizasiya" anlayışlarını eyniləşdirməklə xristianlığa sitayiş edən xalqlar birliyini İslama sitayiş edən xalqlar birliyinə qarşı qoymağa çalışmışdır. Son dövrlərdə Naxçıvana qarşı iddiaların siyasi olmaqla birlikdə dini mövqedən təbliği də bunun ən bariz nümunələrindən biridir.

Naxçıvana qarşı əsassız iddialar "Ermənistan Naxçıvanı və ya təhrif olunmuş Naxçıvan" adlı kitabın müəllifi Avo Katerciyan tərəfindən də önə sürülməkdədir. Elmi obyektivlikdən xeyli uzaq olan bu kitabda Naxçıvan indiki Azərbaycan idarəçiliyində tarixi Ermənistan ərazisi kimi tanıtdırılmış, guya bölgədəki erməni abidələrinin Stalin zamanından dağıdılmağa başlandığı qeyd olunmuşdur (5). Halbuki müəllif xülyalara qapılmaqla unudur ki, əgər Stalinin ermənipərəst siyasəti olmasaydı, bu gün tarixi Azərbaycan torpağı olan Zəngəzur Ermənistanın sərhədləri içərisində olmaz və ermənilər də bundan ilham alaraq günümüzdə Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etməzdilər.

Kitabda Naxçıvan yalan sazişlərin qurbanı kimi göstərilir və eyni zamanda guya erməni mədəni irsinin azərbaycanlılar tərəfindən həvəslə dağıdılması, daş xaçlara qarşı edilən vəhşiliklər qeyd olunmuşdur.

Diqqət yetirin: *"Erməni mədəni irsi və xaçqarlar"!* Sual olunur: Yəni həqiqətən də erməni mədəni irsi olmuşmu və ya Naxçıvanda erməni abidələrinin mövcudluğu nə dərəcədə realdır?

Erməni tarixçisi Manuk Abekyan, ermənilərin kim olduqlarını və harada təşəkkül tapdıqları barədə yazır ki, *"...erməni xalqının mənşəyi nədir, necə və nə vaxt, haradan və hansı yollarla buralara gəlmişlər, erməni olmazdan əvvəl və sonra hansı xalqlarla əlaqələr qurmuşlar, onun dilinə, etnik mənsubiyyətlərinə kimlər necə təsir göstərmişdir? Bizim əlimizdə bunları isbatlayan açıq və dəqiq məlumatlar yoxdur..."* (1, s. 11).

Mənşəyi, sosial, siyasi, ictimai münasibətləri olmayan bir millətin mədəni irsi necə ola bilər? Cavab aydındır: Bu irs mədəni oğurluq üzərində qurulmuşdur. Heç təsadüfi deyildir ki, ermənilər yer üzünün ilk xristian milləti kimi gülünc obrazlarla dünya ictimaiyyətinin beynini qarışdıraraq Naxçıvanda və Azərbaycanın digər bölgələrindəki abidələri tarixi erməni abidələri şəklində tanıtdırmaqda və bu surətlə reallıqları saxtalaşdıraraq, bunları qonşu ölkələrin torpaqları üzərindəki ekspansional əməllərinə vasitə etməkdədirlər.

Naxçıvanla bağlı digər bir iddia isə Arqam Ayvazyanın ingilis dilində nəşr etdirdiyi "Jugha" adlı əsərində öz əksini tapmışdır. Müəllif yazır: *"...Önəmli bir yaşayış məskəni kimi, eyni zamanda əhalisi bütövlükdə ermənilərdən ibarət olan Cuğanın erməni tarixində müstəsna rolu vardır...*

*...Cuğanın çiçəklənməsində və tərəqqisində, beynəlxalq ticarətdə körpü rolunu oynamasında bilavasitə erməni tacirləri əsas rol oynamışlar..."*

Daha sonra o, yazır: *"...1603-cü ildə Persiya hökmdarı I Şah Abbas Cuğanı yerli erməni əhalisinin köməyi ilə Osmanlılardan xilas etdi, ancaq sonra o, "xilaskar erməniləri" imperiyanın daha uzaq guşələrinə köçürülməsinə qərar verdi..."*(6)

Müəllifin iddiasına görə, XVII əsr erməni salnaməçisi Arakel Vardapet Davrizetsi guya bu məcburi deportasiyanın şahidi olmuşdur. Bir mənbə kimi onun uydurmalarına istinad edən Arqam Ayvazyan, ermənilərin bu əmrə riayət etmədikləri təqdirdə üç gün içərisində qətliama məruz qalacaqlarını da yazmaqdadır. Müəllifə görə, digər bir şahid isə Naxçıvan yepiskopu Auqusut Badjetsidir. Arqam Ayvazyan onun da uydurmalarına istinad edərək yazır: *"...Persiyalılar erməni kəndlərinə daxil olaraq, oranın yerli əhalisi olan erməniləri qılıncdan keçirdilər. Yazıq ermənilər bütün mallarını və var-dövlətlərini öz torpaqlarında qoyaraq yurd-yuvalarından qovuldular. Ermənilərin ah-naləsi göylərə yüksəldi. Təxminən 3 min erməni ailəsi Cuğadan deportasiya edildi və çox sayda insan Araz çayını keçərkən suda boğuldu...*

*...Ermənilərin ikinci deportasiyası 1606-cı ildə baş verdi. Deportasiya edilənlər İsfahan yaxınlığına köçürüldülər ki, bu ad da sonradan Yeni Culfa (və ya Yeni Cuğa) olaraq tarixə keçdi...* (6)

Belə çıxır ki, ermənilər Yeni Cuğanı qədim Cuğanın xatirəsini yaşatmaq üçün inşa ediblərmiş!

Bu cür saxta və həqiqətdən uzaq məlumatlara Arqam Ayvazyanın ingilis dilində nəşr olunan "Nakhjivan Book of Monuments" (Abidələrin

Naxçıvan kitabı), K. Patkanyanın hələ 1884-cü ildə yayınladığı “Choice Selections from Armenian Chronicles” (Ermәni salnaməçilərindən seçmələr) adlı əsərlərində, İsveçrə-Ermənistan Parlament Qrupunun 2006-cı ildə Berndə nəşr etdirdikləri “The destruction of Judja” (Cuğanın dağıdılması) adlı kitabda rast gəlmək mümkündür (6).

Ümumiyyətlə, biz bu kitabları ayrı-ayrılıqda təhlil etmək niyyətində deyilik. Qısaca olaraq onu deyə bilərik ki, bu və ya bunun kimi müxtəlif dillərə tərcümə edilən yüzlərlə kitab vasitəsilə ermənilər iddia etdikləri ərazilərə siyasi, inzibati-ərazi baxımından deyil, həmçinin qədim mədəniyyət baxımından da sahib olduqlarını sübut etməyə çalışırlar.

## ƏDƏBİYYAT


1. Абекян Манук. История древнеармянской литературы. Ереван: Издательство Академии Наук Армянской ССР. Т. I, 1948, 524 с.
2. Балаян Зорий. Очаг. Ереван: Советакан грох, 1984, 421 с.
3. Раффи. Самвел. Ереван: Издательство Аястан, 1971, 480 с.
4. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб.: В типографии Императорской Академии Наук, 1852, 1231 с.

5 .hrach@emirates.net.ae<mailto:hrach@emirates.net.ae>

6. http://www.mytrips24.com/index.php?vc=3&visilex_key=Julfa%2C_Azerbaijan_%28city%29_04da.html



**Эмин Ариф (Шихалиев)**


## ПРЕТЕНЗИИ АРМЯНСКИХ УЧЕНЫХ В СВЯЗИ НАХЧЫВАН

Почти около ста лет армяне претендуют земли от Азербайджана, в том числе и Нахчывана. Это традиция формировалась за счет скопления фальшивых и выдуманных материалов вокруг историю армянского народа, которые отражают одни мифы и сказок. В этом направлении многие материалы армян, которые не соответствуют истиной. На этом статье мы только коснулись более важным проблемам по этому направлению. В результате исследовании выявлены, что земельные претензии армянских ученых не обосновываются ни наукам, и ни античным историческим сообщениям.

**Emin Arif (Shikhaliyev)**

## THE ARMENIAN SCHOLARS' ALLEGATIONS TOWARDS NAKHCHIVAN

There have been several years that Armenian scholars have made territorial claims against Azerbaijan and its inseparable part, Nakhchivan. This tradition continues at the expense of massive corruption of history. There are so many Armenian scholars who are making so many false claims related to this issue but this article is limited to analyze all of these allegations. Because of that reason this research brings attention to some of these allegations which were made by some Armenian scholars.

***Rəyçilər: Tarix e.d. prof., H.Səfərli, AMEA-nın müxbir üzvü, tarix e.d. V.Baxşəliyev.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ZƏHMƏT ŞAHVERDIYEV**
Naxçıvan Dövlət Universiteti

# ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIM TARİXİNDƏN: 1905-1906-cı İLLƏR, NAXÇIVAN

Soyqırım, yaxud ümumi terminologiyaya uyğun olaraq genosid (yunan dilində genos – say, qəbilə və latın dilində caedo – öldürürəm sözlərindən ibarətdir) tarixi qədim zamanlardan başlasa da onun beynəlxalq hüquqi aspektləri İkinci Dünya müharibəsindən (1939-1945) sonra diqqət mərkəzinə çıxmışdır.Anti-hitler koalisiyasına daxil olan dövlətlərin yaratdığı Beynəlxalq hərbi tribunların nizamnaməsi və hökmündə bəşəriyyətə qarşı cinayət və ona görə məsuliyyət prinsipi müəyyən edilmişdir (1, s. 384). Nurinberq prosesinin sənədlərində "genosid" anlayışı tətbiq edilməsə də milli və irqi əlamətə görə mülki əhalinin kütləvi şəkildə məhv olunmasından bəhs edilirdi. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1946-ci il 11 dekabr (I) Qətnaməsində artıq genosid anlayışı tətbiq olunmuşdur. Genosid haqqında əsas sənəd isə BMT-nin 1948-ci il dekabrın 9-da qəbul edilmiş genosid cinayətinin qarşısının alınması və ona görə cəza haqqında konvensiyadır. Sonralar genosid barədə digər beynəlxalq hüquqi sənədlər qəbul edilmişdir. Azərbaycan 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra milli qanunvericilikdə də bu problemə yer ayrılmışdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsi soyqırım cinayətinə həsr edilmişdir. Azərbaycan Respublikası Prezidenti 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman vermişdir. Fərmanda ermənilərin Azərbaycan xalqına qarşı törədilmiş tarixi cinayətləri siyasi hüquqi baxımdan təhlil edilərək soyqırım kimi qiymətləndirilmiş, Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə 31 mart azərbaycanlıların soyqırım günü kimi elan edilmişdir (2).

Soyqırımların daim yad edilməsi hər bir Azərbaycanlının ən müqəddəs vəzifələrindən biridir. Bunun üçün Azərbaycanlıların soyqırımlarının mükəmməl tarixi yaradılmalıdır.

Azərbaycanlıların soyqırım tarixinin öyrənilməsi obyektin inkişaf mərhələsinə çatanadək mürəkkəb və ziddiyyətli yol keçmişdir. 1905-1906-ci illər azərbaycanlı soyqırımına M.S.Ordubadi və M.M.Nəvvabın əsərlərində (3; 4), əsasən, düzgün qiymət verilmişdir. 1918-1920-ci illər hadisələri də öz dövründə milli qırğın kimi qiymətləndirilmişdir. Sovet dövründə bu hadi-

sələrin mahiyyəti köklü şəkildə dəyişdirildi. Yalnız 1990-cı illərin əvvəllərində həqiqət bərpa olundu. Soyqırım və ya genosid termini tətbiq edilməyə başladı (5, s. 118-119). Azərbaycanlıların soyqırımı haqqında 1998-ci il 26-mart fərmanı bu sahədə tədqiqatlara əsaslı təkan verdi. Fərmanda doğru olaraq göstərildi ki, Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi hüquqi qiymətini almamış soyqırım da tarixin açılmamış səhifələrindən biridir. Fərmandan sonra soyqırımın nəzəri, hüquqi-siyasi problemləri azərbaycanlıların soyqırım tarixinin öyrənilməsi xüsusi elmi istiqamətə çevrildi.

Ermənilərin azərbaycanlılara qarşı soyqırım tarixi 1905-1906-cı illər qırğınları ilə başlayır.

1905-1906-cı illərdə Naxçıvanda baş verən hadisələr 1906-cı ilin fevralında keçirilən Tiflis sülh danışıqları zamanı ermənilər tərəfindən ortaya atılmış və onun mahiyyəti təhrif olunmuşdur. Erməni nümayəndələri bütün günahları azərbaycanlıların üzərinə atmağa, ermənilər arasındakı itkilərin sayını şişirtməyə çalışırdılar (6, s. 35).

1905-1906-cı illərdə Naxçıvanda baş verən qırğınların tarixi bəzi ədəbiyyatlarda əksini tapmışdır (7, s. 183-185). Onların nəzərdən keçirilməsi göstərir ki bu işlər M.S.Ordubadinin “Qanlı illər” əsərinin müvafik hissəsinin təkrarından ibarətdir. Burada mövcud faktik material təhlil əvəzinə, sadəcə olaraq təsvir edilmişdir.

Naxçıvanda 1905-1906-cı illərdə baş vermiş milli qırğınların tarixinə dair mənbələr də bir sıra xüsusiyyətlərə malikdir. Azərbaycan üzrə soyqırım tarixinin mənbələri içərisində rəsmi təhqiqatın-Senator Kuzminskinin 1905-ci ildə Bakı şəhəri və quberniyasında keçirilən təftiş materialından geniş istifadə edilir (9). Naxçıvan bölgəsinin daxil olduğu İrəvan quberniyasında belə bir rəsmi təhqiqat aparılmamışdı. Bu baxımdan azərbaycanlıların soyqırımının Naxçıvanda gedişi M.S.Ordubadinin və Mir Möhsün Nəvvabın əsərlərindəki faktik material əsasında öyrənilir. Onlar tarixi əsər olmaqla bərabər, qaynaq kimi də çıxış edir.

1905-1906-cı illər milli qırğınları ermənilərin azərbaycanlılara qarşı ilk soyqırım aktı olduğundan onun səbəblərinin hərtərəfli araşdırılması zəruridir. Bu hadisələrin səbəbləri elə həmin dövrdə diqqət mərkəzinə keçmişdi. Bolşevik partiyası öz sənədlərində başlıca səbəb kimi çar hökumətini göstərirdi (10, s. 99-110).

1905-ci il soyqırımının səbəbləri 1906-cı ilin fevralında keçirilən Tiflis sülh danışıqları proqramının birinci maddəsini təşkil edirdi. Onun müzakirəsi zamanı ermənilər əsas günahkar kimi hakimiyyət orqanlarını, azərbaycanlılar isə Daşnaksütunu və digər gizli erməni təşkilatlarını irəli sürmüşdü. V.Mayevski isə demək olar ki, bu problemə həsr edilmiş “Qafqazda erməni-tatar nifaqı” adlı yazısında hakimiyyət orqanlarını müdafiə edir, Daşnaksütunun günahkar olduğunu əsaslan-dırırdı (6).

1905-ci il “erməni-müsəlman davasının” tarixinə dair geniş faktik material toplayan M.S.Ordubadini də hadisələrin səbəbi düşündürmüş,

onun haqqında belə yazmışdır: "Bu hadisələrin baş verməsi və səbəbi haqqında Rusiya və Qafqaz mətbuatı ilə yanaşı, Avropa və Amerika mətbuatı qızğın-qızğın canfəşanlıq etməkdə idilər. Bunu da bilməlidir ki, xarici mətbuat səhifələrində müzakirəyə qoyulmuş məqalələrin hamısı bir-birinə zidd, təzadlı fikirlərlə qarşı-qarşıya durmaqda idilər. Bunlardan hansının haqlı, hansının haqsız olduğunu deməyə ehtiyac olsa da, hələlik bu kiçik səhifələrdə yerin və vaxtın azlığından təfsilatdan vaz keçib, bu hadisələrə səbəb dörd mühüm cəhəti deməklə kifayətlənəcəyən" (3, s. 7). Təəssüf ki, M.S.Ordubadi o vaxt mətbuatda olan fikirlərə münasibətini bildirmiş, "Fəqət, məlumat və qüdrətim qədərincə bu ixtişaşa səbəb dörd şeydirdeyib, isbatdan da geri durmayacağam" yazır (3, s. 8). M.S.Ordubadinin göstərdiyi səbəblərə bəzi tədqiqa-tçılar da toxunmuşdur (11, s. 155-156). Lakin onlar, hələlik, hərtərəfli təhlil edilməmişdir.

M.S.Ordubadi göstərdiyi dörd səbəb içərisində birinci yerə Daşnaksütün partiyasının fəaliyyətini qoyur. İkinci səbəb kimi məhəlli hökumət məmurlarının müharibə zamanı etinasızlığı qeyd edilir. Üçüncü səbəb kimi müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmaları qeyd edilir. "Dördüncü səbəbə gəldikdə ermənilərin avtonomiya-idarə muxtariyyəti həvəsində olmalıdır" (3, s. 8-11).

Göründüyü kimi dörd səbəbdən ikisi ermənilərin, biri hökumətin, digəri isə azərbaycanlıların mövqeyi ilə əlaqələndirilir. M.S.Ordubadinin 1905-ci il soyqırı-mının səbəbləri ilə bağlı fikirləri maraq doğursa da, problemi tam əhatə etmir.

Amerikan tarixçisi T.Svietoxovski da 1905-ci il "tatar-erməni müharibəsi"nin səbəbləri üzərində dayanır. Onun fikrincə bu iki etnik qrup arasında düşmənçilik uzun müddət ərzində davam etmiş, bu dövrdə isə dini ziddiyyətlər və adi nifrət çərçivəsindən kənara çıxmışdı. Svietoxovski burada yaşayan ermənilərin böyük hissəsinin İran və Türkiyədən köçürüldüyünü, ermənilərin Rusiyanın himayəsi altında müsəlmanlara nisbətən daha surətlə inkişaf etməsini, iqtisadi həyatda güclü mövqe qazanmasını qeyd edirdi. Mədəni-dini ziddiyyətlərlə birgə Azərbaycan burjuaziyasının dağıdıcı rəqabətdən narazılığı, qeyri ixtisaslı azərbaycanlı fəhlə və sahibkarlarla tacir ermənilər arasındakı toqquşmaları da ön plana çəkir (12, s. 99). Burada iqtisadi faktora geniş yer ayrılsa da, ikili standart tətbiq edilir.

1905-1906-cı illər hadisələri ermənilərin ilk hazırlığından sonra 1905-ci il fevralın 6-da başlandı və geniş əraziyə yayıldı. Əvvəlcə M.S.Ordubadinin "Qanlı illər" əsəri əsasında soyqırımın gedişini ümumi xranologiyasına nəzər salaq:
Bakı-1905, 6-10 fevral; Naxçıvan-5-12 may; İrəvan-23 may-3 iyun; Eçmiədzin-3-9 iyun; Cəbrayıl-16 iyun; Şüşa-16-21-avqust; yenidən Bakı-20 avqust-14 sentyabr; Cavanşir qəzası-26 sentyabr-27 noyabr; Gəncə-19-24 noyabr; Tiflis-20-21 noyabr; yenidən Naxçıvan-26-30 noyabr; Qazax-1905, noyabr 1906, yanvar; Tiflis sülh danışıqları 1906, fevral; Zəngəzur-29 iyul-15 avqust. Hadisələrin bu tarix və coğrafiyada baş verməsi təsadüfü idimi? Bu

sual da tədqiqatlarda ayrıca nəzərdən keçirilməmişdir. Ona bir başqa cavab versək qeyd edə bilərik ki, o təsadüfü səciyyə daşımamışdır. Bu baxımdan M.S.Ordubadinin aşağıdakı fikri maraq doğurur: "Əvvəlinci faciələrdə ermənilər yalnız hiylə və siyasətlə iş tutub bir ovuc könüllü əsgərlə müsəlmanların qüvvəsini əzmək istəyirdilər. Belə ki, Bakıda sülh edib müsəlmanları yatırtmaqla Şuşada müharibəyə başlayır. Şuşada sülh edib Gəncə quberniyasının sair yerlərini yandırmağa və dağıtmağa təşəbbüs edirdilər. Müsəlmanlar isə əvvəlcə bunları bilməyib sonralar gözlərini açdılarsa da, ermənilər Türkiyədən və İrandan əsgər yığıb müsəlmanları əzməyə çalışırdılar (3, s. 9).

Bakıdan sonra ermənilərin hücumuna Naxçıvan bölgəsi məruz qalmışdı. Bu Naxçıvanın strateji mövqeyi ilə bağlı idi. "Naxçıvan şəhəri Sisyan mahalının əhəmiyyətli bir keçidi, hər saatda əsgər toplanışına əlverişli olduğundan, ermənilər lazımi qədərində Naxçıvanda milli partiyalardan saxlamışdılar. Erməni əsgərləri əsla dinc oturmayıb, müsəlmanları hər saatda müharibəyə çağırırdılar" (3, s. 18). Bu fikir bizim üçün ciddi əhəmiyyətə malikdir. Buradan aydın olur ki, ermənilər hücum üçün əlverişli şərait gözləyirdilər. Belə olduğu halda Svietaxovskinin müsəlmanları "bütün mövcud məlumatlara uyğun olaraq", adətən hücum edən tərəf kimi təqdim etməsi yanlışdır (12, s. 100).

Ermənilərin Naxçıvanda törətdikləri vəhşiliklər iki mərhələdən ibarət olmuşdur: 1905-ci il 5-12 may və 26-30 noyabr.

Əvvəlcə, 1905-ci il 5-12 mayda baş vermiş hadislər üzərində dayanaq. Faktlar bir daha sübut edir ki, ermənilər ciddi hazırlıq görərək, çoxlu silah-sursat toplamış və müsəlmanları qırmaq üçün hücum xətti seçmişdilər: "may ayının 5-də gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini – müsəlmanlar ermənilərin daha çox köçürüldükləri Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanırlar". Digər bir fakta görə "may ayının 7-də Tumbul adlı müsəlman kəndini keçdikdə bir müsəlmanı vurub öldürdülər". Müsəlmanların mövqeyi ondan ibarət olur ki, bu işlərə qarşı qanuni tədbirlər görülsün. M.S.Ordubadi də bu hala xüsusi diqqət yetirərək yazmışdır: "May ayının 8-də İrəvan vitse-qubernatoru Baranovski İrəvandan şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana daxil oldular. Onların gəlməsini eşitdikdə camaat qapıya tökülüb ermənilərin bu işindən şikayətə başlayırlar". Bu arada şikayətlərin məzmunu və nəticəsi bəzi mühüm mülahizələrə əsas verir. Müsəlmanlar faktik olaraq ermənilərlə barışığı can atır və hökumətdən mühafizə arzu edirdilər. Hökumət isə heç bir tədbir görməmişdir. Bunun nəticəsi idi ki, ermənilər cinayətlərini davam etdirir. Bu dəfə cinayətlər daha amansız şəkil alır. Bir fakta görə "ayın 11-də Kültəpə adlı erməni kəndinin varlısı erməni fədailəri tərəfindən ailəsilə qətlə yetirildi. Ermənilər bunu da müsəlman camaatına nisbət verdilər. Lakin axırıncı təftişdə yuxarıda adı çəkilmiş partiya (Daşnaksütun-Z.Ş). tərəfindən cəzalandığı məlum oldu". Deməli, öldürülən varlı Xaçatur ermənilərin özləri

tərəfindən cəzalandırılmışdır. Onun qətlində də azərbaycanlılara qarşı istifadə etməyə çalışırdılar. Mayın 12-də ermənilərin hücumu zamanı törətdikləri cinayət, vəzifə borcunu yerinə yetirməli olan polisin qızışdırıcı rolu ilə daha kəskin şəkil alır. M.S.Ordubadi yazırdı: "Müharibə vaxtı polis qulluqçusu naçalnik Angil qətlə mane olmayıb "Tez vur, oğlum! Tez ol oğlum!" deməklə könüllü cavanları cinayətə təşviq edirdi. Talan vaxtı "Tez olunuz! Tez aparınız!" deyib camaatı qızışdırırdı" (3, s. 20). Əgər 5-12 may hadisələri zamanı naxçıvanlılar özlərinin müəyyən qədər müdafiə etməyə nail ola bilmişdilərsə, 26-30 noyabr hadisələri fəlakətli miqyas almışdı. M.S.Ordubadi hadisələri belə təsvir edir. "Noyabrın 26-sı gecəsi müsəlmanlara böyük müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirirdi. Həmin gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırılmışlar. Həqiqətəndə o gecə atəşli, ürəkdağlayan yanğınlı bir gecə idi... Camaat evlərindən çıxıb bazara getmək istəsələr də, kazaklar hər tərəfdən atəş açır mane olurdular". Beləliklə, kazaklar ermənilərlə əlbir olub müsəlman bazarını qarət edib, ona od vurmuşdular. Noyabrın 29-da erməniləri müdafiə edən kazaklar şəhərin ikinci hissəsində bir müsəlman evini atəşə tutmuşdular. Noyabrın 30-da isə Cəhri kəndi onlar tərəfindən yandırıldı. Beləliklə, 26-30 noyabr hadisələri zamanı hökumət qüvvələri ermənilərin tərəfinə keçmiş, nəticədə naxçıvanlılara qarşı qırğın daha geniş miqyas almışdır (3, s. 21-22).

Mir Möhsün Nəvvab da öz əsərində Naxçıvan hadisələrinə yer vermişdir. Burada da ermənilərin dinc sakinlər üzərinə hücumu, onları qətlə yetirməsi təsvir edilmişdir. Lakin burda çox maraqlı bir epizod verilir. Özlərini müdafiə edən müsəlmanlar Böyük Badamlı kəndinə yaxınlaşdıqca "həmin kəndin bütün erməniləri-gənc və qoca, böyük və kiçik öz külfətləri ilə müsəlmanların qarşısına çıxdılar. Müsəlmanlar onları sevinclə sakitləşdirib, böyük ehtiramla oradan geri qayıtdılar". Bu hadisə hakimiyyət dairələrində böyük təşviş yaradır. İrəvan qubernatoru ora gedərək onlara hədə qorxu gəlir. "Yeni İslam dinini qəbul etmiş ermənilər cavab verdilər ki, bizi heç kəs zor və hədə qorxu ilə müsəlman etməyib. Əksinə biz özümüz könüllü olaraq, öz razılığımız və rəğbətimizlə islam dinini qəbul etmişik" (4, s. 22-23).

Ermənilərin Naxçıvanda 1905-ci ildə törətdikləri soyqırımdan bəhs edərkən yuxarıda bəhs edilənlərə bu və ya digər dərəcədə toxunulmuşdur. Lakin Oxcu-Səbadək, yaxud Qapan dərəsi hadisələrinin Naxçıvan, konkret olaraq Ordubadla bağlı çox ibrətamiz səhifələri də nəzərə alınmalıdır. Zəngəzura həsr edilmiş tədqiqatlarda geniş yer tutan bu hadisələr (13, s. 197-214) göstərilən istiqamətdə də araşdırıla bilər.

M.S.Ordubadi "Qanlı illər"də "Zəngəzurda Oxcu-Səbadək, yaxud Qapan dərəsi hadisələrinə dair" adlı bölmə vermişdir (3, s. 126-140). Ermənilərin 1906-cı ilin iyul-avqust aylarında Zəngəzurda törətdikləri vəhşiliklər misilsiz həddə çatdı. Ermənilər bir sıra kəndləri ələ keçirdikdən sonra "Zəngəzuru bir nişana almış məqamında duran Oxcu, Səbadək, Purdavud,

Atqır köyləri ermənilərin həyati mülkiyyətlərini dəhşətə salmağa (terrora) başlamış idi. Zira Oxcu və ətraf köylərin islamları ən cəsur, ən şücaətli adamlar olduğundan əlavə, biri-birinə bağlı köylərin camaatı islamın ən müqəddəs əsəri olan ittifaq üzrə yaşamaqda idilər. Ermənilər 1906-cı il avqustun 9-da bu kəndlərə hücum çəksə də üğur qazana bilmir. Avqustun 14-də isə ermənilər daha böyük qüvvə ilə hücuma keçdilər, Müsəlmanlar Saqqarsuya çəkildi. Ermənilər burada da əhaliyə divan tutur. Belə bir vəziyyətdə " sağ qalan islam və islamələr... çır-çılpaq Ordubad və mahal köylərinə pənah aparmışdılar Ordubad camaatı isə son dərəcə qonaqpərvər olduqlarından, xüsusən başları belə müsibət çəkmiş bu adamlara xüsusi qayğı göstərdilər". Beləliklə, Zəngəzurun erməni soyqırımından sağ qalan və Ordubada pənah gətirmiş əhalisinin sonrakı taleyində ordubadlılar mühüm rol oynadı. Onlar həmin insanlara qayğı göstərməklə qalmayıb, Səbadək səfərləri zamanı müsılman kəndlərinin azad edilməsində iştirak etmişdilər.

Ermənilərin 1905-1906-cı illərdə azərbaycanlılara qarşı törətdikləri soyqırımlar ağır nəticələr verdi. Müsəlman əhali böyük itki verdi. Qırğının ilk dövründə, əsasən, bitərəf qalan çar hökuməti may ayından etibarən ermənilərin tərəfinə keçdi, onlarla ittifaq möhkəmləndirildi (12, s. 101). Ermənilər azərbaycanlılar əleyhinə düşmən təbliğat kampaniyasını da genişləndirdilər.

1905-1906-cı illər hadisələri azərbaycanlılar üçün də izsiz keçmədi. Siyasi oyanış, milli birlik ideyaları gücləndi. Naxçıvan bölgəsində ermənilərin törətdikləri vəhşiliklərə qarşı mübarizə və Oxcu-Səbadək hadisələri zamanı ordubadlıların qəhrəmanlığı da müəyyən təcrübə yaratdı.

1905-1906-cı illərdə istədiklərinə nail ola bilməyən ermənilər yeni soyqırım aktları törətməyə başladılar. Qafqaz canişini Voronsov-Daşkovun ermənipərəst siyasəti onların mövqelərini gücləndirdi. Birinci dünya müharibəsi, xüsusilə Osmanlı ordusunun Sarıqamışdakı məğlubiyyəti, rus ordusunun Osmanlı ərazisindəki işğalları ermənilərin açıq-aşkar soyqırımına başlanmasına təkan verdi. 1917-ci ildən başlayan soyqırım aktları 1918-1920-ci illərdə daha amansız şəkil aldı. Bu dövrdə də Naxçıvan bölgəsi hadisələrin mərkəzində olmuşdu (14). Ermənilərin bütün ciddi-cəhdlərinə baxmayaraq Naxçıvanı Azərbaycandan qoparmaq səyləri boşa çıxdı. Bu gün Naxçıvanın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi qalması, onun blokada şəraitində olmasına baxmayaraq dinamik inkişafını davam etdirməsi Azərbaycan xalqının ümummilli ilderi Heydər Əliyevin siyasətinin qələbəsidir.

## ƏDƏBİYYAT


1. Нюрнбергский процесс. Сб материалов в семи томах. Т. л, с. 140-141, т. VII, с. 384.
2. «Azərbaycan» qəz., 27 mart 1998-ci il.

3. Ordubadi M.S. Qanlı illər. Bakı, 1991 (ilk nəşri. Bakı, 1911)
4. Nəvvab Mir Möhsün. 1905-1906-cı illər erməni müsəlman davası. Bakı, 1993.
5. Şükürov K. Azərbaycan ermənişünaslığı: xüsusiyyətləri, tarixi və dövrün tələblərinə dair // Qarabağ: dünən, bu gün və sabah. Bakı, 2006, s. 118-119.
6. Маевский В. Армяно-татарская смута на Kавkазе, kak один из фазисов армянсkого вопроса. Baky, 1993, с. 35.
7. Наджафов Б. Личио врага. История армянсkого национализма в Закаф-казие в kонче XIX- начале XX в. л. Баkу, 1993, с. 183-185.
8. Kazımov İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007, s. 119-133.
9. Всеподданнейший отчет сенатора Kузминсkого о ревизии города Баkу и Баkинсkой губернии (Баkу, 1906).
10. Pабочее движение в Баkу в годы первой руссkой революции. Доk. я мат. Баkу, 1956, с. 99-110.
11. Axundov Y. "Qanlı əsrlərin ibrət dərsi və ya tarix təkrar olunur" Azərbaycan, 1990, № 6, s. 155-156.
12. Свиетоховсkий Т. Руссkий Азерbайджан. 1905-1920 // Хазар, 1990, № 1, с. 99.
13. Musa Urud. Zəngəzur, elmi-publisistik nəşr. Bakı, 1995, s.197-214.
14. Paşayev A. XIX-XX əsərlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyaları (arxiv sənəd və materialları əsasında), DDA. Bakı, 2007; Abışov V. 1917-1918-ci illərdə erməni millətçilərinin Azərbaycan xalqına qarşı soyqırımı siyasəti. NDU. Bakı, 2007; Əliyev Ə. Əlincə yaddaşı. Bakı, 2004; Əliyev M. Qanlı günlərimiz (1918-1920. Naxçıvan). Bakı, 1993; Kazımov İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1922). Bakı, 1996; Hacıyev İ. Ermənilərin Naxçıvana qarşı ərazi iddalarının əsassızlığı // Naxçıvan: tarixi gerçəklik, müasir durum inkişaf perspektivləri. Naxçıvan, 2006, s. 33-47; Маkkарти Дж., Маkkарти K. Туурki i армуане. Baky, 1996; Свиетоховсkий Т. Руссkiy Азервауджан. 1905-1920 // Хазар, 1990, № 1, 2; Fahrettin Kırzıoğlu. Kars ili və çerçivesində erməni mezalimi. Ankara, 1970; İbrahim Ethem Atnur Muhtariyyet Erefesinde Nahçıvan. Nahçıvan, 1999; yenə onun, Erməni məsələsinin Nahçıvan boyutu // Hayali Ermənistan və soyqırım hekayəsi. Uluslararası Tarih Sempozyumu. Kars, 2001; Nurhan Aydın. Qars ətrafənda və Naxçıvanda erməni vəhşilikləri. Naxçıvan, 2006, s.300-322; Veysəl Ünivar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan, 2006 və b.

**Захмат Шахвердиев**

## ГЕНОЦИД, ПРИЦИНЕННЫЕ АРМЯНАМ ПРОТИВ АЗЕРБАЙДЖАНЦЕВ (1905-1906 гг)

В статье исследовано геноцид, прициненные армянам против азербайджанскому народу в 1905-1906 гг. Отмечается, что корни этого геноцида основаны в начале XIX века, когда армяны переселены в Азербайджан. Политика геноцида в 1905-1906 гг. особенно было трагическим в Нахчыване.

**Zakhmat Shahverdiyev**

## THE PROCREATING GENOCIDE BY ARMENIANS AGAINST TO AZERBAIJANIS (in 1905-1906$^{th}$ YEARS)

In this article have been given information about the procreating genocide by Armenians against to Azerbaijanis in 1905-1906$^{th}$ years. It has been specified that, in reality these genocides has happened after moving to Azerbaijan of the Armenians from at the beginning of the 19$^{th}$ centure. The procreating genocide by Armenians against to Azerbaijanis had been more tragical in Nakhchivan.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. V.Baxşəliyev., tarix e.n. E.Zamanov.***

***Naxçıvan Dövlət Universitetinin «Azərbaycan tarixi» kafedrasının 25 dekabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 04).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**FƏXRƏDDİN CƏFƏROV**
Naxçıvan MR Arxiv İdarəsi

# MÜSTƏQİL DÖVLƏTÇİLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ NAXÇIVAN POLİSİNİN ROLU

1991-ci ilin axırlarında muxtar respublikada müvəqqəti sabitlik olsa da bəzi qruplar, xüsusi ilə Şərur və Sədərək (Sədərək 1990-cı ildən rayon adlandırılıb) rayonlarında olan müdafiə dəstələri və başqa qruplar sabitliyi pozmağa çalışırdılar. Həmçinin hüquq qanunlarını pozaraq polis əməkdaşlarını təhqir edərək ölümlə hədələyirdilər. Bu faktlarla əlaqədar Sədərək rayon Daxili İşlər Şöbəsinin şəxsi heyəti Naxçıvan MR Ali Məclisinin sədri H.Əliyevə, həmçinin Naxçıvan MR Baş Naziri B.Fərzəliyevə, Naxçıvan MR Daxili İşlər Naziri M.Məmmədova və Naxçıvan Dövlət Müdafiə Komitəsinin sədri E.Abbasova 11 yanvar 1992-ci il tarixdə ümumi iclasda qəbul etdikləri müraciətlərini göndərmişlər. Müraciətdə deyilir: «Son illərdə muxtar respublikanın DİO-rı, o cümlədən Sədərək rayon DİŞ əməkdaşları erməni silahlı qüvvələrinin dəf edilməsində xüsusi fəallıq göstərmişlər. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, təkcə 1991-ci il ərzində Sədərək rayon DİŞ əməkdaşları erməni quldurlarını məhv etməklə onların texniki qüvvələrinə də ciddi zərbə vurmuş və qeyd olunduğu kimi erməni milli ordusu tərəfindən hazırlanmış hücum planının qətiyyətlə qarşısını almışdır. Həmin vuruşmalarda 4 milis nəfəri ağır yaralanmış, 2 milis nəfəri isə yüngül xəsarət almışdır. Həmin vuruşmalardan sonra DİŞ-nin əməkdaşları sərhəddə döyüş üçün əhəmiyyəti olan bütün mövqeləri ələ keçirərək həmin yerlərdə milis postları qoyulmuş və həmin postlar bu günə qədər əldə saxlanılmaqla vəziyyətə tam nəzarət edilir. Lakin milis əməkdaşlarının bu kimi fədakarlığı rayon ərazisində yaranmış bəzi qruplar tərəfindən lazımınca qiymətləndirilmir və ya qəsdən onların nüfuzunu xalq qarşısında aşağı salmağa səy göstərir. Hətta vəziyyət o yerə çatmışdır ki, erməni silahlı quldur dəstələri ilə üzbəüz dayanan milis postlarına arxadan müxtəlif odlu silahlarla atəşlər açılır. Fəal milis işçilərindən hissə komandiri milis kapitanı V.Həsənov və cinayət Axtarış Xidməti üzrə baş əməliyyat müvəkkili milis mayoru A.Seyidov həmin qüvvələr tərəfindən ölümlə hədələnmişdir.

Əlavə olaraq əldə olunan məlumata görə müəyyən adamlar gecə vaxtları naməlum istiqamətlərdən hərbi postlara da atəş açaraq hərbçilərlə milis işçiləri və xalq arasında narazılıq salmaq istəyirlər.

Hörmətli Heydər Əliyev, Sədərək rayon DİŞ-nin əməkdaşları sizin rəhbərliyiniz altında işləməyi özlərinə fəxr hesab etməklə, iqtisadi və fiziki çətinliklərə dözməklə sizin ideyalarınızın həyata keçirilməsi uğrunda ölümə belə hazırdırlar.

Buna görə də sizdən xahiş edirik ki, vəzifə səlahiyyətlərinizdən və ağsaqqallıq nüfuzunuzdan istifadə edərək rayon ərazisində bir qrup şəxslər tərəfindən yaradılan münaqişənin aradan qaldırılmasında öz müdrük fikrinizi irəli sürəsiniz.

Biz sizin müdrikliyiniz, ağsaqqallığınız və dahiliyiniz qarşsısında baş əyirik.

Hörmətlə: Sədərək rayon DİŞ-in şəxsi heyəti» (1, v. 74).

1992-ci il may ayına kimi Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə ermənilər tərəfindən əsaslı bir basqın olmadı. 1 may 1992-ci ildə sabitlik yenidən pozuldu. Erməni yaraqlıları muxtar respublikanın bütün sərhəd kəndlərini müxtəlif döyüş texnikasından və iri çaplı silahlardan atəşə tutdular.

Mayın 3-də Günnüt kəndində növbədə olan polis işçiləri hava telefonu ilə Şərur rayon DİŞ-in növbətçisinə bildirmişdilər ki, Ermənistanın Sovetaşen, Yelpin Areni kəndləri tərəfindən qalxan 2 vertalyot onların olduqları ərazidə müşahidə aparır və hərdən atəş açır. Məlumatda qeyd edilirdi ki, həmin gündən bu vertalyotlar polis postunun yerləşdiyi əraziyə və Günnüt kəndinin özünə 64 raket mərmisi atmış və xeyli dağıntı törətmişdir.

Mayın 5-də Günnüt polis postundan məlumat verildi ki, silahlı ermənilər yenə də kəndin yaxınlığında toplaşmışlar. Həmin yerdə 1 tank və 2 BTR-in olduğu da xəbər verildi. Cabbarov bildirdi ki, daşnakların bir hissəsi zirehli texnika ilə Günnüt kəndinə hücuma keçmiş və polis postunu zirehli texnika ilə güclü atəşə tutmuşdur (1, v. 19).

Ermənilərin Günnüt kəndinə basqını ilə əlaqədar oraya kömək göndərilir. Oraya gedən polis əməkdaşları oradakılarla birləşərək 21 nəfər zabit və sıravi polis işçisi erməni yaraqlıları ilə vuruşa-vuruşa dağlara çəkilmişdilər. Polis nəfəri Mərdan Abbasov yaralandığı üçün polis nəfəri Zakir Qənbərov onu UAZ maşını ilə mərkəzi xəstəxanaya gətirmişdir. Polis baş serjantı Rəhimov Asəf Bayram oğlu mərdliklə vuruşaraq bir addım da olsun geri çəkilməmiş, polis işçilərinə mühasirədən çıxmağa kömək göstərmiş, özü isə son anda mühasirədə qalmışdır.

Bu dəhşətli anı hiss edən Asəf Rəhimov silahında qalan yeganə güllə ilə özünü vurmuşdur. Onun igidliyi və dönməzliyi heç vaxt unudulmayacaq.

Onu da qeyd edim ki, 1992-ci il 6 iyunda milisin adı dəyişdirilmiş, o, 72 ildən sonra yenidən polis adlandırılmışdır (2, s. 7).

1992-ci ilin may-iyul aylarında erməni silahlı qüvvələrinin basqınları nəticəsində polis əməkdaşlarından şəhid olanlar və yaralananlar oldu. Xüsusən Sədərək, Havuş, Günnüt, Yuxarı Buzqov, Kərməçataq və Şada kəndləri ətrafında gedən ağır döyüşlərdə polis əməkdaşlarımızdan Əsgərov Əli

Şirzad (polis mayoru), Rəhimov Asəf Bayram oğlu (polis serjantı), Seyidov İlkin Mirnəzir oğlu (polis sıravisi), Kazımov İlham Cəbrayıl oğlu (polis serjantı), Seyidov İlkin Mirnəzir oğlu (polis serjantı), Hüseynov Etibar İslam oğlu (polis serjantı), Seyidov Mirəyyub Yusif oğlu (polis serjantı) və başqaları Naxçıvan MR-ın ərazi bütövlüyü və torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak oldular (3, v. 10-11).

Bu döyüşlərdə neçə-neçə polis əməkdaşlarımız ağır yaralandılar. Bektaşi Ağabala Hidayət oğlu (polis baş leytenantı), Əhmədov Rasim Əhməd oğlu (polis serjantı), Yusifov Əhəd Fərman oğlu (polis serjantı), Rəhimov Qulu Qəhrəman oğlu (polis serjantı), Ağayev Firdovsi Dostəli oğlu (polis serjantı), Novruzov Ənvər Novruz oğlu (polis serjantı), Novruzov Tofiq Məsimalı oğlu (polis serjantı), Musayev Oruc Sərtif oğlu (polis serjantı), Rəhimov İnşallah Xəlil oğlu (polis serjantı), Həsənov Fazil Cəlal oğlu (polis serjantı), Vəliyev Kərəm Səfər oğlu (polis serjantı), Rzayev Hüseyn Məmməd oğlu (polis serjantı), Vəliyev Kərəm Səfər oğlu (polis serjantı), Əliyev Eyvaz Ələkbər oğlu (polis serjantı), Zeynalov Qurban İslam oğlu (polis serjantı), Əliyev Eyvaz Ələkbər oğlu (polis serjantı), Sadiqov Nəsir Məmməd oğlu (polis serjantı), Abdullayev Vəzir Yusif oğlu (polis serjantı) və başqalarını qeyd etmək olar (3, v. 11).

Erməni hərbi birləşmələrinin 1992-ci il may ayında Şərur və Sədərək rayonlarına geniş miqyaslı hücumları dünyanın 60-dək ölkəsi tərəfindən təcavüz adlandırıldı. Elə buna görə də BMT-nin səlahiyyətli nümayəndələri baş vermiş hadisələri öyrənmək məqsədi ilə Naxçıvana gəldilər. Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev nümayəndə heyətini qəbul edib, onlara erməni birləşmələrinin Naxçıvan MR ərazisində törətdiyi ağır cinayətlər barədə geniş məlumat verdi. Nümayəndə heyətinin üzvləri bu məlumatı bütün dünya ictimaiyyətinə çatdırdı.

Erməni daşnaklarının basqınları çox böyük itkilərlə nəticələnsə də bu Sədərəyin, Günnütün, Havuşun, Kərməçatağın, Şadanın, ümumiyyətlə, muxtar respublikanın qeyrətli oğul və qızlarının iradəsini sarsıda bilmədi.

Sədərəklə Ermənistan sərhəddində belə gərgin vəziyyətin yaranması qonşu ölkələrin, Türkiyə və İranın başçılarını da narahat edirdi.

Ermənilərin Naxçıvana təcavüzləri ilə bağlı Süleyman Dəmirəl Ermənistan Prezidenti L.Ter-Petrosyan ilə telefonla əlaqə saxlamış və ondan təcavüzü dayandırmağı tələb edərək demişdir ki, əks təqdirdə acınacaqlı nəticələr baş verə bilər. ABŞ prezidenti C.Buş ilə də telefon danışığı olmuşdur. S.Dəmirəl erməni təcavüzü nəticəsində bölgədə yaranmış vəziyyəti ona izah etmişdir (4, s. 350).

Ermənilərin Şərur ərazisində, eləcə də Naxçıvanın sərhəd kəndlərində törətdikləri qırğınların qarşısını nə Azərbaycan hökuməti, nə də silah gücünə hakimiyyətə gəlmək istəyənlər ala bildi. Daha doğrusu, onlar bunu bacarmadılar. Şərur əhalisini bu fəlakətdən xalqın təkidi ilə Naxçıvan Ali Məclisinə sədr seçilmiş Heydər Əliyev cənabları xilas edə bildi. Onun dünya şöhrətli bir insan, müdrik siyasətçi olması, Ermənistan rəhbərləri ilə tez-tez

apardığı məqsədyönlü danışıqlar Şərurun sərhəd kəndlərinə basqınların qarşısına sipər çəkməklə, dağıntılara, nahaq qan tökülməsinə, quldurluğa, qarətçiliyə son qoyuldu.

Bu nəhəng siyasətçinin şərurlulara ən böyük köməyindən biri də bu oldu ki, başçılıq etdiyi Naxçıvan Ali Məclisi Sədərək kəndinin ayrıca rayon kimi fəaliyyət göstərməsi barədə qərar qəbul etdi (28 avqust 1990-cı il). Həmin qərarda Sədərək rayonunun ərazi bölgüsünə Sədərək, Dəmirçi, Kərki, Maxta, Qarabürc, Kərimbəyli və Axaməd kəndləri daxil edildi. Sədərəyin ayrıca rayon kimi fəaliyyət göstərməsinin əhəmiyyəti ondan ibarətdir ki, bu kənd müharibə zonasında rayon mərkəzi kimi qeydə alınmış, idarələrin, müəssisələrin və orada işləyən işçilərin sayı xeyli artmışdır. Nəticədə əhalinin başqa yerlərə köçüb getməsinin qarşısı alınmışdır (5, v. 1; s. 154).

Heydər Əliyevin Naxçıvan Ali Məclisinə sədrlik etdiyi dövrdə uzaqgörənliklə həyata keçirdiyi belə tədbirlər istər Azərbaycan Respublikasında hakimiyyətdə olan, istərsə də Naxçıvan MR yerli hakimiyyət orqanlarında möhkəmlənən cəbhəçilər tərəfindən heç də birmənalı qəbul edilmirdi. Ona görə də orada kəskin ziddiyyətlər yaranırdı. Heydər Əliyevin müdrikcəsinə apardığı siyasət onun nüfuzunu gündən-günə möhkəmləndirir, xalq tərəfindən daha da sevilməsinə, dəstəklənməsinə səbəb olurdu.

Təbii ki, bütün bunlar bəzi qüvvələri narahat edirdi. Ona görə də onlar yenə də meydanlarda mitinqlər keçirir, Heydər Əliyevin hakimiyyətinə qarşı çıxır və nəyin bahasına olursa olsun əhalini onun üzərinə qaldırmağa çalışırdılar. Bu hərəkətlər ən çox Naxçıvan və Şərur şəhərində idi. Lakin xalqın Heydər Əliyevlə, Heydər Əliyevin xalqla bağlılığı, onların bir-birinə sarsılmaz inamı, el arasında deyildiyi kimi bir çoxlarının «işqırığını» içində qoymuşdur.

1992-ci il oktyabr ayında Naxçıvan MR-də fəaliyyət göstərən cəbhəçilər silah gücünə Naxçıvan Dövlət Radio və Televiziya Şirkətini, Daxili İşlər Nazirliyini ələ keçirib, orada öz adamlarını yerləşdirə bildilər.

Hadisələrin qorxunc axarı qəti addım atmağı tələb edirdi.

Xalq Heydər Əliyevin qüdrətinə, Heydər Əliyev də xalqın ona arxa olacağına, arxasınca gedəcəyinə inanırdı, özünə inanan kimi inanırdı. Ona görə də son məqamda Heydər Əliyev xalqa üz tutdu, xalqı dövlətçiliyin, milli dəyərlərin qorunması yolunda birliyə və bu yolda qəti mübarizəyə səslədi.

Onun çağırışı ürəklərdə əks-səda verdi. Muxtar respublikanın hər yerindən Naxçıvan şəhərinə insan axını başlandı. Necə qüdrətliydi bu insan axını. Uzun yolları piyada keçib gələn, silah qabağına balta və dəyənəklə çıxan, ölümün gözünə dik baxan sadə xalq kütlələri, ziyalılar, qocalar və qadınlar, azyaşlı uşaqlar azadlıq naminə, Heydər Əliyev naminə hər şeyə hazır idi.

Hüqüq mühafizə orqanlarının işçiləri bu çətin, gərgin vaxtda hadisələrin mərkəzində idi. Onlar canları, qanları bahasına dövlətçiliyimizə, onun

qarantı olan Heydər Əliyevə öz yenilməz sədaqətlərini bir daha nümayiş etdirdilər.

H.Əliyev rəhbərliyi altında güc, silah işlədilmədən Naxçıvan Radio və Televiziya Şirkəti, Daxili İşlər Nazirliyi öz ahəngdar iş rejiminə qayıtdı. Xalq rahat nəfəs aldı.

## ƏDƏBİYYAT


1. Nax. MRDA. f. 613, siy. 13. iş. 28 v. 74.
2. E.Şahmar. Azərbaycan Polisi. Bakı: Dünya, 1999, 285 s.
3. Nax. MRDA. f. 235, siy. 1 iş. 65, v. 10-11.
4. N.Quliyev Şərur fəryadı. Bakı: Şur 1999, 366 səh.
5. Nax. MR DPA, (Partiya arxivi), f. 1, siy. 37, iş. 293 v.1; Naxçıvan Ensiklopediyası 2 c. Naxçıvan, 2005, 254 s.



**Фахраддин Джафаров**


## РОЛЬ НАХЧЫВАНСКОЙ ПОЛИЦИИ В УКРЕПЛЕНИИ НЕЗАВИСИМОЙ ГОСУДАРСТВЕННОСТИ


В статье говорится о первых годах независимости, о частых нападениях с целью захвата на Автономную Республику со стороны армян и храбрости сотрудников Нахчыванской полиции в оказании отпора захватчикам. В этих боях героически погибли десятки сотрудников полиции. Статья освещает деятельность органов внутренних дел в обеспечении стабильности, которую хотел нарушить ряд группировок.



**Faxraddin Djafarov**


## ROLE OF THE NAKHCHIVAN POLICE IN STRENGTHENING OF THE INDEPENDENT STATEHOOD


Attacks and fight in their prevention by manliness of the police employees have been reflected of the armenians to some region of the Autonomous Republic in the article in the first years of the independence. Tens of police associates died a hero's death in these fights. Activities of the Internal Affairs Organs in providing stability which some groups wanted to break have alzo been sovered.



***Rəyçilər: Akademik İ.Hacıyev, tarix e.d., prof. H.Səfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**MUSA QULİYEV**
AMEA Naxçıvan Bölməsi

# KONSTANTİN NİKOLAYEVİÇ SMİRNOV VƏ ONUN ŞƏXSİ ARXİVİ

Ömrünün çoxunu şərq tarixinin, o cümlədən Naxçıvan tarixinin öyrənilməsinə, tədqiqinə sərf edən rus şərqşünaslarından biri də Konstantin Nikolayeviç Smirnovdur.

Əvvəlcə onu deyək ki, bu hərbiçi şərqşünasla bağlı xeyli axtarışlarımız olub. Buna əsas səbəb Konstantin Nikolayeviç Smirnovun XX yüzilliyin otuzuncu illərinin ortalarında Naxçıvana uzunmüddətli ezam olunmasından sonra 500 illik tarixi olan Kəngərli arxivinin Tiflisə aparılması ilə bağlıdır. Hələ axtarışlarımızdan öncə bu haqda yazmışdıq. O vaxtlar bir sıra fikirlərimiz mülahizələr şəklində söylənmişdi. Ancaq 2005 və 2006-cı illərdə Konstantin Nikolayeviç Smirnovun Tbilisidəki şəxsi arxivi ilə tanışlıq, orada aparılan tədqiqatlar bu mülahizələrimizi, nəinki doğrultdu, hətta bəzi faktlar bizi təəssüfləndirdi və heyrətləndirdi...

Gəlin birlikdə qədim Naxçıvanımızın maraqlı və zəngin tarixi bir səhifəsi olan Kəngərli arxivini tapıb Tiflisə aparan ensiklopedik bilikli şərqşünas alim, gözəl tərcüməçi, kəşfiyyatçı polkovnik Konstantin Nikolayeviç Smirnovun həyat yoluna qısaca nəzər salaq və tariximizin parlaq səhifələri saxlanılan şəxsi arxivinə ekskurs edək. Çünki onun taleyində və məşhur olmasında Naxçıvan tarixi əvəzsiz rol oynayıb və oynamaqdadır.

Konstantin Nikolayeviç Smirnov 30 aprel 1878-ci ildə Dağıstan vilayətinin Temirxanşura (sonralar Buynaksk) şəhərində doğulmuşdur. Özünün yazdığı tərcümeyi halına görə hərbiçi ailəsində doğulub. Onun qohumlarının əksəriyyəti Asiya ölkələrində hərbi xidmətdə olmuşlar. O, orta təhsilini Tiflisdə kadet korpusda almış, sonralar Peterburqda Mixaylovsk Artilleriiya məktəbində xüsusi hərbi təhsilini tamamlamışdır. O, həmçinin burada Xarici İşlər Nazirliyi nəzdində olan zabitlər üçün təşkil olunmuş şərq dilləri üzrə də xüsusi ali təhsil almış və 1893-cü ildə həmin kursları bitirmişdir. Eyni zamanda, Sankt-Peterburq Arxeologiya İnstitutunu bitirmiş və ona bu institutun həqiqi üzvü olması haqqında sənəd də verilmişdir. Oxuduğu illərdə İstanbulda və Trabzonda təcrübə keçmişdir.

1903-cü ildən 1917-ci ilədək hərbi şərqşünas kimi Tiflisdə, Qafqaz Hərbi Dairəsinin Qərargahında Türkiyə və Persiyanı (İranı) öyrənən şöbədə işləmişdir.

1904-cü ildə staps-kapitan rütbəsində Osmanlı İmperiyasının ərazisində ezamiyyətdə olmuşdur. Bəyazid, Bitlis, Muş, Xınıs, Karakilis, Ərzurumda olmuş, bununla bağlı 1904-cü ildən üzvü olduğu Coğrafiya Cəmiyyətinin xəbərlərində xeyli yazılar çap etdirmişdir.

1904-cü ildən 1914-cü ilə qədər Qafqaz Hərbi Dairəsinin Qərargahının "Xəbərlər" toplusu ilə əməkdaşlıq etmişdir.

1906-cı ildə Qafqaz hərbi dairəsinin qərargahı nəzdində yaradılmış kəşfiyyat şöbəsinin rəis köməkçisi işləmişdir. Sonralar Ali Qərargahın Baş İdarəsini Türkiyə və İran haqqında xəbərlərlə və məlumatlarla təmin edən şöbənin kuratoru vəzifəsini icra etmişdir. Ancaq orada çox işləməmişdir.

1907-ci ilin əvvəlində Hərbi Nazirlik onu Tehranda işə başlamağı tövsiyə etmişdir.

O, 1907-ci ildən 1914-cü ilədək Tehranda rus səfiri N.Q.Qartviqin yanında işləməklə bərabər İran şahının oğlu, vəliəhdi Sultan Əhməd Mirzənin tərbiyəçisi və müəllimi olmuşdur. Rusiya səfirliyi Məhəmmədəli şahla bu haqda xüsusi müqavilə də bağlamışdır. Arxivdəki sənədlərdə bu müqavilənin mətni haqqında məlumatlar da vardır.

Konstantin Nikolayeviç Smirnov 24 iyul 1907-ci ildə vəliəhdlə birinci məşğələsini keçirmişdir. Sonralar vəliəhdin kiçik qardaşı Məhəmməd Həsən Mirzə də onun şagirdi olmuşdur. Həmin ilin Ramazan ayında (sentyabrın axırı-oktyabrın yarısı) məzuniyyət götürən Konstantin Nikolayeviç Smirnov Tiflisə qayıtmış və burada Kseniya Karlovna Kester ilə ailə qurmuşdur.

O, sonra yenidən Tehrana qayıtmış və 1914-cü ilədək orada işləmişdir. 1914-cü ildə yeni səfir İ.J.Korastoveç onun daha İranda qalmasını məqsədəuyğun saymamışdır.

14 sentyabrda tələbəsi Sultan Əhməd şah Smirnova vida ziyafəti vermiş və bildirmişdir ki, İran hökuməti ona təqaüd təyin etmişdir. Bir neçə gündən sonra İranı tərk edən staps-kapitan Smirnov dərhal Tiflisə qayıtmış və Qaf-qaz ordusunun Baş komandanının sərəncamına göndərilmişdir.

1914-1915-ci illərdə o, Baş Komandanlığın Qərargahında məsul işçi olmuşdur. 1915-ci ildə isə Bəyaziddəki rus qoşunlarının komandiri, 1915-ci ilin noyabrından 1916-cı ilin sentyabrınadək general-leytenant Baratovun ekspedisiya korpusunda qərargah zabiti kimi fəaliyyət göstərmişdir.

1907-ci ildən 1914-cü ilədək "Kavkaz" qəzetinin daimi müxbiri olmuşdur. 1914-cü ildən 1918-ci ilə qədər Qafqaz Baş Komandanlığının xüsusi tapşırıqlarını yerinə yetirən hərbi şərqşünas İqdır, Kəmərli, Makı, Bəyazid, Diyadin, Ərdəbil, Trabzon, Rize, Ordu, Ənzəli, Qəzvin, Həmədan, Kirmanşah, Qəsri-Şirin və digər yerlərdə olmuş və missionerlik etmişdir.

10 sentyabr 1916-cı ildə ona kəşfiyyat polkovniki hərbi rütbəsi verilmişdir. Həmin ilin 22 dekabrında Trabzonda Qara Dəniz Sahili üzrə kəşfiyyatın rəhbəri təyin edilmiş və 1918-ci ilin əvvəlinədək həmin vəzifədə qalmışdır.

1917-ci ilin oktyabr çevrilişi Konstantin Nikolayeviç Smirnovun həyatını tamam dəyişdirdi. Hərbi zəfərləri ilə öyünən kəşfiyyatçının hərbi

karyerası qurtardı.

1918-ci ildə ordudan tərxis edilən hərbi şərqşünas bir müddət Tbilisidəki hərbi arxivdə işlədi. 1921-1923-cü illərdə Batumdakı qərargahda tərcüməçi işləmiş, amma 10 iyun 1923-cü ildə Mahincauridəki bağ evində həbs olunub. Onun arxivini, fotoşəkilləri, "Şir və Günəş" ordenini müsadirə edib Qafqaz Əmək Ordusunun fövqəladə şöbəsinə apardılar. 10 sentyabr 1923-cü ildə yenidən azadlığa buraxılır.

Tiflisdə Zaqafqaziya Dövlət Siyasi İdarəsində 3 aylıq həbsdən sonra o, təqib edilir. 1923-cü ilin oktyabrından 1928-ci ilin yanvarınadək Tiflis arxivində məsləhətçi işləyir. 1925-ci ilin oktyabrından 1926-cı ilədək redaktor və tərcüməçi kimi çalışır. Həmin ilin dekabrında onu Qafqaz Qızıl Ordusuna tərcüməçi kimi işə aparırlar. O, bu müddətdə hərbi mütəxəssisləri kəşfiyyatçı şərqşünaslar kimi hazırlayan yeganə mütəxəssis sayılırdı. Qərargahın bütün elmi-tədqiqat işlərində iştirak edirdi, ona ehtiyac var idi.

1932-ci ildə o, Gürcüstan SSR-in elmi işçisi adı ilə qeydiyyatdan keçir. 1924-cü ildən "Zarya Vostoka (Şərqin şəfəqi") qəzetinin xarici şöbəsinin əməkdaşı olmaqla bərabər, həm də Zaqafqaziya Ticarət palatasında işləyir. 1933-cü ildən şərqşünaslar assosiyasında işə dəyişdirilir, SSRİ Elmlər Akademiyasının dil, tarix və maddi mədəniyyət İnstitutunun Gürcüstan filialının elmi əməkdaşı kimi fəaliyyət göstərir. Və bu vaxtdan etibarən onu Naxçıvana elmi ezamiyyətə hazırlayırlar.

Gürcüstan Elmlər Akademiyasının elmi arxivində Konstantin Nikolayeviç Smirnovin 100 səhifəlik şəxsi işi saxlanılır. Mənim xahişimlə akademiyanın prezidenti göstəriş verdi ki, həmin işin üzü tamamilə köçürülüb mənə bağışlansın. O işdən istifadə edərək yuxarıdakı bioqrafik məlumatları sizlərə çatdırdım. Ancaq obyektiv səbəblərə görə indinin özündə belə oradakı məsələlərinin çoxunu açıqlamağı məqsədəuyğun saymadıq.

Bütün yazılan məlumatlar göstərir ki, 1933-cü ildən sonra Naxçıvana elmi səfərə hazırlaşan Konstantin Nikolayeviç Smirnov çox yüksək hazırlıqlı, şərq ölkələrinin tarixini, ərəb, fars və fransız dillərinin əlahiddə mütəxəssisi, bir sözlə hərbi şərqşünas və kəşfiyyat polkovniki imiş. Ona verilən hərbi xasiyyətnamələrdə göstərilir ki, o, Qafqazda əvəzedilməz mütəxəssisdir. Konstantin Nikolayeviç Smirnovun Naxçıvanda axtarışları haqqında əvvəllər yazdığımız üçün təkrar etmək fikrində deyilik. Təkcə onu demək istəyirik ki, o, Naxçıvana təzə gələnlərdən deyildi. Onun şəxsi işini öyrənəndə aydın olur ki, Smirnov Tehrana gedəndə dəfələrlə Naxçıvanda olub. Və sovet hakimiyyəti illərində artıq o hərbi forma geyinmirdi və hətta dövlət məmurları da onun kəşfiyyatçı olduğunu bilmirdi, təkcə Siyasi İdarənin məxfi şöbəsindən savayı. Əsasən Kəngərli arxivinin Tiflisdəki taleyindən danışmaq istəyirik. Konstantin Nikolayeviç Smirnovun şəxsi arxivi olan fondda (№39) Naxçıvan tarixi ilə bağlı təxminən 200-ə yaxın səhifə iş saxlanılır. Naxçıvandan qayıdan alim şərqşünasın verdiyi məlumata görə gətirdiyi sənədlər (300-dən çox) çox qiymətlidir. O, qeyd edir ki, bu sənədlər əsasında Naxçıvan ölkəsinin xarici, daxili siyasətini, onun inzibati ərazi vahid-

ləri və idarə sistemi, hərbi qoşunları, Kəngərli tayfasının Şeyx Səfidən başlayaraq bu günədək olan tarixindən və Naxçıvan diyarının idarə edilməsindən və sair haqqında geniş elmi-tədqiqat işləri aparmaq mümkündür. Onun şəxsi arxivində "XVII-XIX əsrlərdə Naxçıvanın əlyazma sənədləri" mövzusunda məruzəsi saxlanılır. O, Naxçıvandan qayıdandan sonra işlədiyi institutun rəhbər şəxsləri qarşısında məruzə edib. Bu haqda akt da var.

Konstantin Nikolayeviç Smirnovun apardığı sənədlər Naxçıvanın nəinki tarixi, həm mədəniyyət, həm də ədəbiyyat tarixi baxımından da çox əvəzsiz mənbələrdir. O, özü apardığı sənədlər haqqında yazdığı iki monoqrafiyada da bu barədə dönə-dönə məlumat vermişdir.

Onun yazdığı "Ön Asiya sənədlərdə Naxçıvanın əlyazmalar abidələri" I kitab 1936-cı ildə çap edilib (139 səhifədir). Həmin kitab bu gün də bizim üçün bütün mənbələrdən qiymətlidir. (Çünki mətnlərin, yəni sənədlərin fotoşəkli də verilib, cəmi 25-ə qədər sənəd). Yəni bu sənədlər artıq əlimizdədir. Bu kitaba görə Konstantin Nikolayeviç Smirnovun, Cahangir Hüseyn Əfəndi oğlu Qayıbovun və Mirzə Həsən Qənizadənin adı Naxçıvan tarixində həmişə yaşayacaq.

II kitab da çapa hazır vəziyyətdə qalıb arxivdə. Çox təəssüf ki, o kitabı nədənsə 1999-cu ildə Bakıda tələm-tələsik çap ediblər. Bizcə müəlliflərin yazdıqları formada kitabın adını yazmaq daha düzgün olardı. Və bu kitab hökmən izahlarla nəşr olunmalıdır. Çünki burada mübahisə doğuran səbəblər də var. Hələ Azərbaycan alimləri 1937-ci ildə bu kitabın içərisindəki bəzi məsələlərə qəti etiraz ediblər. Hətta Bakı alimlərinin düzəliş etdiyi variant da əlimizdədir. Yəqin gələcəkdə onun çap edilməsinə çalışacağıq. Təəssüflər olsun ki, kitabda orijinal sənədlərin və tarixi mədəniyyət abidələrinin, həmçinin arxeoloji abidələrin foto şəkillərini çap etdirməyi müəllifə qadağan ediblər. Bu haqda da məlumat vardır. O fotoşəkillərin hamısı Konstantin Nikolayeviç Smirnovda olub. Demək olar ki, ömrünün son illərində o, ancaq Naxçıvan tarixi ilə məşğul olub. Onun faciəli məhv edilməsindən, arvadının vəfatından sonra sahibsiz qalan arxivi əldən-ələ keçib. Dediyimiz kimi, onu köhnə hərbiçi polkovnik dostlarının xanımı gətirib Əlyazmalar İnstitutuna təqdim edib. Çünki Konstantin Nikolayeviç Smirnov 1959-cu ildə bəraət almışdı. 1960-cı ildə isə arxivini üzə çıxarıblar. Çox maraqlıdır: nə üçün İrina xanım özüylə bağlı heç bir bilgi verməyib?

İşi çətinləşdirən əsas məsələ həmin illərdə Konstantin Nikolayeviç Smirnovun işlədiyi Qafqazşünaslıq İnstitutunda (sonralar onun işlədiyi institut belə adlanırmış) rəhbərlərin demək olar ki, əksəriyyətinin ermənilər olmasıdır. Naxçıvandan gətirilən əlyazma sənədləri onların dərkənarı ilə Smirnova qaytarılırmış. Və onlar II kitabı orijinalsız çapa məsləhət görüblər.

4 may 1937-ci ildə Konstantin Nikolayeviç Smirnovu işdən azad edirlər. 1938-ci ilin yanvarınadək özünə iş axtaran hərbi şərqşünası 13 yanvarda yenidən həbs edirlər. Qeyd edək ki, azərbaycanlı ərəbşünas Cahangir Qayıbov da Smirnovla birlikdə həbs edilir. Onlar ikisi də həmin institutda

işləyirmişlər.

Naxçıvan tarixi ilə bağlı sənədlərin axtarışı bizi qədim Tiflisə, indiki Tbilisiyə gətirib çıxarır. Saburtalo şəhərin ən gözəl yerlərindən biridir. Burada yaşıllıqlar içində Gürcüstanın K.Kekelidze adına Əlyazmalar İnstitutu yerləşir. 28 dekabr 1960-cı ildə İrina Kolomeyceva adlı bir qadın Konstantin Nikolayeviç Smirnovun şəxsi arxivini gətirib bu instituta təhvil verib. Amma özü haqqında heç bir məlumat qoymadığından, onunla bağlı hələlikdə əlavə heç nə öyrənmək olmadı.

Konstantin Nikolayeviç Smirnovun şəxsi arxivi olan fondda 156 qovluq saxlanılır. Bunlar hamısı beş qrupa ayrılıb.

Birinci qrupda onun bioqrafik materialları toplanılıb. İkinci qrupda alimin yazdığı əsərlər diqqəti özünə artıq dərəcədə cəlb edir. Burada Naxçıvanla və İrəvənla bağlı çox zəngin materiallar vardır.

Üçüncü qrupda, onun məktublaşmaları (bunlar Şərq siyasi tarixində əvəzsiz materiallardır) yerləşdirilib.

Məsələn buradakı məktublardan biri V.F.Minorskiyə aiddir. Minorski də dünya şöhrətli iranşünas alim olub, Tehranda işləyib. Naxçıvandan aparılan XVII-XIX əsrlərə aid sənədlərlə bağlı onun Konstantin Nikolayeviç Smirnova yazdıqları tədqiqatçı üçün çox vacibdir.

Dördüncü qrupda müxtəlif işlər toplanıb.

İran tarixçisi Cəmil Quzanlının 1826-1828-ci il Rusiya-İran müharibəsi haqqında yazdıqları, farsdilli sənədlərin fotosurətləri, həyat yoldaşının 104 səhifəlik gündəliyi və sair toplanılıb.

Əlavə materiallar adı altında çapa hazırlanmış bir kitabın hazır mətnləri var: “Ön Asiya sənədlərdə. II kitab. Naxçıvan ölkəsinin tarixi və etnoqrafiyası materialları” (118 səhifə).

Konstantin Nikolayeviç Smirnovun fondunda çoxlu fotoşəkillər də vardır. 1923 və 1938-ci illərin ÇK və NKVD orqanlarının axtarışları zamanı xeyli maraqlı materialların müsadirə olunması təəssüf doğurur. Onun həyat yoldaşının yazdığına görə axtarışlar çox pis, kobud formada aparılırmış. Ömrünün sonuna kimi Ksenya Karlovna ərinə məktub-gündəlik yazıb, və öyrənə bilməyib ki, şərqşünasın başına nələr gəlib. Onun ümidi 1938-ci ilin 11 aprelində tamamilə yox olub. O yazır: “...Sonra sən itdin, səni NKVD-də və həbsxanada tapa bilmədim”.

Konstantin Nikolayeviç Smirnovun heç bir elmi dərəcəsi yoxdur. Amma onun elmi maraqlarının dairəsi və yazdıqları adamda heyrət doğurur. İstedadlı insan, öz işini ürəkdən sevən zabit, kəşfiyyatçı, tədqiqatçı, gözəl tarixi əsərlərin (bəzi qüsurlarına baxmayaraq) müəllifi, dostu və silahdaşı C.Qayıbovla birlikdə vəhşicəsinə məhv edilib.

Və yəqin ki, Gürcüstan Təhlükəsizlik İdarəsinin arxivlərində də onun və C.Qayıbovun şəxsi işləri saxlanılır. Çox maraqlıdır: Naxçıvandan “əsir” aparılan Kəngərli arxivi, Tiflisdə müsadirə edilib haraya aparılıb?

O sənədlər bu gün bizə olduğundan da çox vacibdir. Məsələn, Smirnovun çap etdirdiyi bir sənəddə göstərilir ki, Naxçıvanın (ölkəsinin) şimal

sərhədi Bazarçaydan başlanır və sair.

Konstantin Nikolayeviç Smirnovun arxivində Hüseyn Cavidin I türkoloji qurultayda çıxışı və Azərbaycanla bağlı digər məsələlərə də aid məlumat var. Onun şəxsi arxivi və yazdığı 30-a qədər monoqrafiya o qədər maraqlı və zəngindir ki! Ona görə də qərara aldıq ki, bunların hamısını kitab kimi hazırlayıb oxuculara təqdim edək. Çünki müstəqilliyi müqəddəs bilən hər bir naxçıvanlı tədqiqatçının ən vacib işi bilərəkdən gizlədilmiş arxivimizin üzə çıxarılması olmalıdır.

## ƏDƏBİYYAT


1. Институт Рукописей имени К.Кекелидзе в Грузии фонд К.Н.Смирнова. Дело № 1-156.
2. Академия Наук Грузии. Научный архив. Личное дело К.Н.Смирнова (на 99 листьях).
3. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.



**Муса Кулиев**


## КОНСТАНТИН НИКОЛАЕВИЧ СМИРНОВ И ЕГО ЛИЧНЫЙ АРХИВ


В статье описывается биография известного русского этнографа, историка, ученого и полковника К.Н.Смирнова. Нахчыванская история занимает особый этап в научной деятельности К.Н.Смирнова.

В статье также исследуется приезд русского востоковеда К.Н.Смирнова в Нахчыван.



**Musa Kuliyev**


## CONSTANTIN NIKOLAYEVICH SMIRNOV AND ITS OWN ARCHIVES


In this article information about the famous Russian ethnographer, historian, scientist and colonel C.N.Smirnov’s biography havs been given. At the same time in this article the journey of Russian orientalist to Nakhchivan has been researched.



***Rəyçilər: Akademik İ.Hacıyev, AMEA-nın müxbir üzvü, tarix e.d. H.Səfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ADİL BAXŞƏLİYEV**
Sumqayıt Dövlət Universiteti

# XANBALIQ (ÇİN) İLƏ ORTA ŞƏRQ VƏ CƏNUBİ ASİYA ÖLKƏLƏRİ ARASINDAKI MÜNASİBƏTLƏRƏ DAİR

Bu yazıda Elxanlılar dövründə, daha dəqiqliklə, XIII yüzilin ikinci yarısında Xanbalıq (Çin) və Azərbaycan (İran) arasındakı münasibətlərə toxunulur. Bu münasibətlər məşhur İtaliya səyyahı Marko Polonun əsəri – «Kitab» [3] əsasında izlənilmişdir. Bu zaman «Kitab»ın iki nəşri – İ.P.Minayevin əski fransızcadan rus dilinə tərcüməsi və Həmdullah Səhihi tərəfindən hazırlanan farsca mətn [4] əsas götürülüb. Mövzu şərh edilərkən yeri gəldikcə hər iki nəşrin müqayisəsi aparılmışdır. Coğrafi yer və şəxs adlarının dəqiqləşdirilməsində, bəzi məsələlərin daha təfsilatlı göstərilməsində «Kitab»ın 1956-cı ildə rus dilində nəşr edilmiş tənqidi mətnindən (İ.P.Minayevin tərcüməsi) geniş istifadə edilmişdir.

Marko Polo (təxminən 1254-1324-cü illər) 1271-ci ildə atası Nikkolo Polo və əmisi Matteo Polo ilə birlikdə Venetsiyadan Çinə səyahətə çıxır [2, s. 38; 5, s. 26]. Bu səfərdə bir neçə Venetsiya tacirləri də onlara yoldaşlıq edirdi. Marko Polonun üç il yarım (1271-1275-ci illər) sürən bu səyahət yolu Fələstin, Kiçik Asiya, İraq, İran, Dağlıq Pamir və Mərkəzi Asiyadan keçərək Pekində (Xanbalıqda) başa çatır. Təxminən 17 il Çində yaşayan Marko Polo bu müddət ərzində monqol imperatorluğunun böyük xanı (kaan, kağan, xaqan) Xubilayın xidmətində olmuş, Çinin müxtəlif vilayətlərində onun tapşırıqlarını yerinə yetirmişdir. 1292-ci ildə dəniz yolu ilə vətənə yola düşən Marko Polo 1295-ci ildə İtaliyaya çatmışdır [2, s. 274]. Deyilənə görə, o, İtaliyaya döndükdən sonra Venetsiya ilə Genuya arasındakı savaşa qatılmış və 1298-ci ildə genuyalılar tərəfindən əsir alınaraq həbsxanaya salınmışdır. Bir müddətdən sonra həbsdən qurtularaq Venetsiyaya dönmüşdür [2, s. 289; 5, s. 121].

Marko Polo 1298-ci ildə həbsdə olarkən səyahətini təsvir edən yazını həbsxana yoldaşı Rustiçanoya diktə etmişdir [2, s. 196]. Rustiçano uzun səyahət haqqında yazını əski fransız dilində qələmə almışdı. «Kitab» adı ilə bilinən bu səyahətnamə tezliklə bir çox dillərə tərcümə edilərək böyük şöhrət qazandı. Marko Polonun bu əsəri Çin, Monqolustan, İraq, İran və Azərbaycan tarixinə dair çox dəyərli bir qaynaqdır. Ümumiyyətlə, İtalyan səyyahının «Kitab»ı Mərkəzi, Şərqi və Güney Asiya ölkələri haqqında Av-

ropanın tanış olduğu ilk qaynaqlardan biridir.

Marko Polonun şərqə səyahəti monqol dövlətinin böyük xanı Xubilayın hakimiyyəti dövrünə (1259-1260-1294-cü illər) təsadüf edir. Məlum olduğu kimi, onun kiçik qardaşı Hülakü xan (hakimiyyət dövrü: 1256-1265) Elxanlılar sülaləsinin hakimiyyətini qurmuşdu. Bu hakimiyyətə Azərbaycan, İran, İraq, Orta Asiya və Əfqanıstanın bir hissəsi və s. torpaqlar daxil idi [1, s. 123-124]. XIV yüzilin ortalarına qədər yaşamış olan Elxanlılar dövlətinin mərkəzi Təbriz şəhəri idi. Təbriz XIII yüzildən başlayaraq Yaxın və Orta Şərqin ən böyük şəhərindən biri idi. Marko Polo səfər zamanı Təbriz şəhərində olmuş, burada bir müddət qalmışdır. O, kitabında Təbrizin həyatına dair bəzi məlumatlara da yer verib. Ancaq səyyah yanlış olaraq Təbrizin İraq ölkəsində yerləşdiyini bildirir [3, s. 60; 4, s. 31]. Orta əsrlərdə Azərbaycan və İran bölgələri birlikdə həm də «İraqi Əcəm» adı ilə bilinirdi. Bu ifadə İslam fütuhatından sonra yaranmışdı. Ərəblər «Əcəm» ifadəsiylə iranlıları, ərəb olmayanları nəzərdə tuturdular. Marko Polonun yanlışlığı da buradan irəli gəlirdi. O dövrdə Təbriz əslində İraqi Əcəmlə qonşu olan Azərbaycanın ən mühüm şəhərlərindən idi. Marko Polo burada bir çox böyük və kiçik şəhərlərin olduğunu bildirir. Təbrizi isə bu böyük və kiçik şəhərlərin içərisində ən yaxşı, ən abad, əhalisi çox olan bir şəhər kimi təqdim edir.

Marko Polo Təbriz əhalisinin başlıca olaraq ticarət və sənətkarlıqla məşğul olduğunu deyir [3, s. 60; 4, s. 31]. O, bildirir ki, Təbrizdə olduqca bahalı olan qızıl sapla toxunmuş parçalar, ipək parçalar hazırlanır [3, s. 60]. Əlverişli yerdə yerləşən və alış-verişin qızğın olduğu Təbizə Hinbistan, Bağdad, Mosul, Hörmüz və bir çox digər yerdən mal gətirirlər [3, s. 60]. Əcənbi mallar almaq üçün buraya Avropa tacirləri də gəlirlər [3, s. 60]. Təbrizdə qiymətli daşlar da çoxdur və tacirlər bunları da alırlar. Marko Polo Təbrizdə böyük gəlir əldə etdiklərinə görə tacirlərin buraya gəldiklərini xəbər verir [3, s. 60].

Marko Polonun qeydlərindən aydın olur ki, XIII yüzildə (yüzilin II yarısında) müxtəlif dadlı meyvələrin yetişdiyi gözəl bağlar ilə əhatə olunan Təbrizdə müxtəlif dildə danışan və müxtəlif məzhəbə, dinə (başlıca olaraq islam və xristianlığa) itaət edən insanlar yaşayır, çoxluğu isə müsəlmanlar təşkil edirdi. Burada bir cəhətə də diqqət verməк lazımdır ki, italyan səyyahı Təbrizin müsəlman əhalisini «saratsinlər» [3, s. 60] adı ilə təqdim edir və müsəlman əhaliyə qarşı münasibətdə xristian təəssübkeşi kimi çıxış edir.

Məlumdur ki, orta əsrlər Avropasında ərəbləri və Yaxın Şərqin bəzi digər xalqlarını «saratsinlər» adlandırırdılar ki, burada – bu ifadədə bir xristianlıq təəssübkeşliyi özünü bildirirdi. Marko Polo müsəlman əhalinin bir çox tatarı öz dinlərinə çevirdiklərini də xəbər verir [3, s. 257].

Marko Polo Təbriz və Bağdadın təsvirindən sonra İrana (Persiyaya) keçir, İranın böyük ölkə olduğundan, bir vaxtlar daha böyük və güclü olan bu ölkənin indi tatarlar tərəfindən dağıdılıb qarət edildiyindən –

əzəmətinin silindiyindən danışır. Səyyahın burada bir məlumatı da maraq doğurur. Belə ki, Təbrizdən Persiyaya (İrana) 12 günlük yol olduğunu söyləməklə Təbrizi İrandan fərqləndirmişdir [3, s. 63; 4, s. 32].

Marko Polo İranın güneyindəki Hörmüz şəhəri (indi: Bəndər-Abbas liman şəhəri) haqqında da müəyyən məlumatlar verir. Hörmüz dəniz sahilində yerləşən böyük və gözəl bir şəhərdir [3, s. 68]. Səyyah Hörmüzün Okean dənizi sahilində, yəni Fars körfəzi sahilində yerləşdiyini bildirir. Bu gün Bəndər-Abbas adlanan bu şəhər Fars və Oman körfəzlərini birləşdirən Hörmüz boğazındadır. Səyyah hekayə edir ki, Hörmüz şəhərində gəmilərin yan alması üçün körpü vardır. Hind tacirləri öz gəmilərində buraya ədviyyat, dərman və qiymətli daşlar, inci, ipək və qızıl saplarla toxunmuş parçalar, fil sümüyü və başqa mallar daşıyıb gətirərək, başqa tacirlərə satırlar. Bu alıcı tacirlər də həmin malları satmaq üçün dünyanın başqa yerlərinə aparırdılar. Ümumiyyətlə, Hörmüz böyük ticarət mərkəzidir [3, s. 68].

Marko Polo Hörmüz əhalisinin müsəlmanlardan ibarət olduğunu, ətrafdakı bir sıra şəhər və qalaların ona tabe olduğunu bildirir. Səyyaha görə, bölgədə başlıca şəhər olan Hörmüzdə bölgənin hakimi oturur. Farsca mətndə bu hakimin adı Rüunəddin Əhməd kimi göstərilir və onun özünü həm də Kirman sultanı hesab etdiyi bildirilir [4, s. 44]. 1956-cı ildə nəşr edilmiş rusca tərcümə və tənqidi mətndən isə aydın olur ki, Marko Polo bu hakimin adını Ruemedan Akomat (Ruemedan Aeomat, Maymodi Akomat və ya Ryuomedam Akomet) kimi göstərir və Kirman şahına tabe olduğunu deyir [3, s. 68, 263]. Araşdırıcılar, o cümlədən, V.V.Bartold səyyahın Hörmüzə gəldiyi dövrdə yerli hakimin Fəxrəddin Əhməd olduğunu müəyyənləşdirmişlər. Onların ehtimalına görə, Marko Polo Hörmüz hakimi Fəxrəddin Əhmədi onun iki sələfindən (Rüknəddin Mahmud və Rüknəddin Məsud) biriylə səhv salmışdır [3, s. 68]. Farsca mətnə görə, Hörmüz hakimi ona tabe olan bölgədə dünyasını dəyişən hər hansı bir tacirin əmlakını zəbt edib, öz xəzinəsinə daxil edirdi [4, s. 45].

Uzun bir yolu qət edərək, nəhayət, Marko Polo və yoldaşları Şərqi Türküstanda Kaşqar vilayətinə – onun mərkəzi olan Kaşqar şəhərinə gəlib çatırlar. Marko Polo bildirir ki, əhalisi müsəlman olan Kaşqar ölkəsi bir vaxtlar müstəqil padşahlıq idi, indi isə böyük xanın (Xubilay xanın – müəllif) hakimiyyəti altındadır. Ölkədə bir çox şəhər və qəsəbələr vardır. Bunların arasında ən böyüyü və ən möhtəşəmi Kaşqar şəhəridir. Yerli əhali ticarət və sənətkarlıqla məşğul olur. Kaşqardan gedən tacirlər ticarət məqsədi ilə dünyanın bir çox yerlərini dolaşırlar. Burada gözəl bağlar, üzümlüklər və münbit, məhsuldar torpaqlar vardır. Xeyli miqdarda pambıq, kətan və çətənə yetişdirilir [3, s. 77, 270].

İtalyan səyyahı çox yeyib-içən bir xalq kimi tanıtdığı yerli əhaliyə qarşı mənfi münasibətdə olub, onların xəsis olduqlarını söyləyir [3, 77]. Əlbəttə, bunlar səyyahın subyektiv səbəblər üzündən söylədiyi fikirdir. Ona görə, şimal-şərqə və şərqə doğru uzanan Kaşqar ölkəsini beş günə qət

etmək mümkündür [3, s. 77].

Marko Polonun hekayəsindən aydın olur ki, o, Kaşqar ölkəsi adı altında heç də bütün Kaşqar məmləkətindən deyil, onun mərkəzi Kaşqar vadisində yerləşən qərb vilayətindən danışır [3, s. 270]. Kaşqar ölkəsi bütünlükdə müasir Çinin Sintsizyan bölgəsinin güneyini əhatə edir.

Marko Polo Kaşqar əhalisinin din və dil mənsubluğundan danışarkən burada müsəlmanlardan başqa, öz kilsə və qanunları olan xristian nestərianlarında yaşadıqlarını, yerli əhalinin xüsusi bir dildə danışdıqlarını bildirir [3, s. 77].

Səyyahın söylədiklərindən məlum olur ki, Monqol dövlətinin başında duran böyük xan (kaan, xaqan – müəllif) öz yanında 12 min atlıdan ibarət mühafizə dəstəsi saxlayırdı. Bu atlıları «kezitam» adlandırırlar. Bunun fransızca mənası hökmdara sadiq atlı deməkdir [3, s. 110]. «Kezitam» monqolca «keşikten» sözünün təhrif olunmuş şəklidir və göstərilən anlamı bildirmir. Belə ki, «keşik» sözünün anlamı «növbə, əvəz» deməkdir. Hər bir üç minlik atlı dəstəsi bütün il boyu növbə ilə xan sarayında üç gün və üç gecə qarovulda dururdular [3, s. 110-111].

Bilindiyi kimi, monqolların böyük xanı Xubilay Pekini özünə paytaxt seçmişdi. Buna görə də, bu şəhərə «Xan balık», yəni «Xan şəhəri» adını vermişdilər. Marko Polo bu şəhərin həyatını xüsusi diqqətlə təsvir etmişdir. Səyyah paytaxtın adını «Kambalu», «Kanbalu», «Kanbaluk» kimi ifadə edir. Onun söylədiyinə görə, Xanbalıqdan başqa, dünyanın heç bir şəhərinə bu qədər bahalı və zəngin mallar gətirilmirdi. Hinddən, Çindən və digər vilayət və ölkələrdən buraya olduqca qiymətli, bahalı daşlar və müxtəlif əşyalar gətirilirdi. Burada çox miqdarda mal alınıb satılırdı. Xanbalığa hər gün min araba yükündən çox ipək gətirilir, şəhərin özündə bahalı mahud və ipək parçalar toxunurdu. Paytaxtın ətrafında, ondan müxtəlif uzaqlarda 200 şəhər vardır ki, onlardan buraya alış-veriş üçün gəlirdilər. Ehtiyac duyulan bütün şeyləri burada tapmaq mümkün idi [3, s. 119].

Marko Polo burada tədavülə geniş miqyasda kağız pulların buraxılmasından məlumat verir. Böyük xan Xubilay kağız pulların dəyərdən düşməməsinə çox diqqət yetirir, bunun üçün müvafiq tədbirlər görürdü. Bu kağız pul cırılsa və ya xarab olsa, onu sikkəxanada üç faiz kəsrlə təzə pula dəyişirdilər. Hər hansı bir şəxs kağız pul verib sikkəxanadan qızıl və gümüş ala bilərdi [3, s. 121]. Kağız pulların tətbiqi ticarətin inkişafına təkan vermək məqsədini güdürdü.

Marko Polonun söylədiklərindən aydın olur ki, Xubilay xan poçt-nəqliyyat işinin yüksək səviyyədə təşkilinə böyük əhəmiyyət verirdi. Ümumiyyətlə, imperatorluqda poçt-nəqliyyat intizamlı bir qurum idi. Xanbalıqdan müxtəlif ölkə və vilayətlərə çoxlu yollar uzanıb gedirdi. Yolboyu hər 25 mildən (təxminən 40 km-dən) bir stansiyalar yerləşirdi. Bu stansiyalara burada yanb deyirdilər. Burada yolçuların, müsafirlərin istirahəti, atlarının dəyişdirilməsi üçün şərait yaradılmışdı. Başlıca vilayət yollarında hər 22-30 mildən bir stansiyalar yerləşir, hər stansiyada 300-400 at hazır vəziyyətdə

yolçuları gözləyirdi. Bütün stansiyalarda 200 mindən çox çapar atı vardı [3, s. 121]. Bütün bunlar poçt-nəqliyyatı işinin yüksək sürətini təmin edirdi. Marko Polo bildirir ki, dünyanın heç bir hökmdarında belə bir əzəmət yoxdur.

Marko Polo Xubilay xanın tapşırıqları ilə çapar kimi Xanbalıqdan qərbdə yerləşən Çin vilayətlərinə göndərilir. O, Qaramoran (Qaraqoran) adlandırdığı çayı keçib qərbdə iki günlük məsafədə yerləşən tanınmış Kaçian-fu şəhərinə gəlir [3, s. 129]. Əhalisi bütpərəst olan bu şəhərdə ticarət işi üstünlük təşkil edirdi. Səyyahın Qaramoran adlandırdığı çay Çindəki Xuanke («Sarı çay») çayı idi. Monqolca bu çay Xaramuren («Qara çay») adlanırdı ki, Marko Polonun işlətdiyi «Qaramoran» sözü monqolca adın təhrif olunmuş şəkli idi [3, s. 293].

Nəhayət, Marko Polo Zantan (Zaytem) adlandırdığı böyük liman şəhərə gəlib çıxır. Bu Çinin Funtszyan vilayətindəki sahil şəhərlərdən biri olan Cyuançcou şəhəri idi. XIV yüilin ərəb müəllifləri bu şəhəri «Zeytun», «Zaytun» adlandırırdılar [3, s. 313]. Orta əsrlərdə bu şəhər Çinin xarici ticarətində mühüm rol oynayan liman idi. İtaliya səyyahı xəbər verir ki, buraya Hindistandan gəmiylə müxtəlif qiymətli mallar, dəyərli daşlar, incilər gətirilirdi. Buradan da başqa yerlərə mallar aparılırdı. Ancaq gətirilən malların həcm və miqdarı aparılandan xeyli çox idi. Məsələn, İsgəndəriyyə (Misir) şəhərinə gətirilən istiotla Zeytun – Cyuançcou şəhərinə gətirilən istiotun miqdarı 1:100 nisbətində idi [3, s. 166]. Böyük xan bu limandan gömrük vasitəsilə böyük gəlir əldə edirdi. Hindistandan gələn gəmilər yükün on faizini ödəyirdilər [3, s. 166].

Marko Polonun əsərində Yava və Seylon adalarının təsvirinə də yer verilib. O, Yavadan danışarkən burada dörd müstəqil hökmdarın olduğunu bildirir. Ada hind qozu, istiot, mixək və başqa ədviyyatlar ilə zəngindir. Bütün dünyanın işlətdiyi ədviyyatın böyük hissəsi Yavadan ixrac edilirdi [3, s. 259; 4, s. 249]. Seylonda dünyada bənzəri olmayan ən bahalı, ən gözəl yaqut istehsal olunur. Burada göy yaqut (sapfir), sarı yaqut, ləl və s. kimi qiymətli daşlar da vardır [3, s. 182].

Marko Polo Hindistanın güneyində tarixi vilayət olan Maabar (Malabar) haqqında da müəyyən məlumatlar verir. Onun hekayətindən məlum olar ki, zəngin və abad olan bu vilayətdə də dörd padşah vardı. Seylonla Maabar arasındakı boğazda mirvari çıxardırdılar [3, s. 182; 4, s. 262].

Monqol imperatorluğunun qurucusu Çingiz xan (1206-1227) monqol hakimiyyəti altında olan və olacaq bölgələri hələ sağlığında 4 oğlu arasında 4 ulusa bölmüşdü. Bu 4 ulus dövlət kimi çıxış etsələr də, şərqdəki mərkəzi hakimiyyətə böyük monqol xanına (kaana) tabe idilər və müntəzəm şəkildə oraya vergi göndərir, böyük xanın fərmanlarına boyun əyirdilər. Çingizin müəyyən etdiyi Yasa-qanunlar qarşısında onlar tam məsuliyyət daşıyırdılar. Elxanlılar hakimiyyətinin qurucusu olan Hülakü xan Çingizin nəvəsi idi. Hülakünün qardaşı böyük xan Müngge (Möngke,

Mengü) 1259-cu ildə vəfat etdikdən sonra böyük qardaşı Xubilay Müng-genin yerinə keçdi, böyük xan (kaan) oldu. O, Çindəki (Qüzey Çin) Pekin şəhərini özünə mərkəz seçdi. Buna görə də Pekin, həm də Xanbalıq adını aldı. Xubilay xandan sonra gələn hökmdarlar sonralar çinliləşdi. Digər ulusların monqol hakimləri tezliklə müsəlman oldular və bu dövlətlər türk-müsəlman dövləti kimi fəaliyyət göstərdilər.

Monqol hakimlərinin poçt-nəqliyyat işinə diqqət yetirmələri bölgələr arasında, Yaxın və Orta Şərq ölkələri arasında müxtəlif əlaqələri gücləndirdi. Marko Polonun əsərində verilən zəngin məlumatlar bunu bir daha təsdiq edir.

## ƏDƏBİYYAT


1. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956.
2. Харт Г. Венецианец Марко Поло. Перевод с англ. Н.В.Банникова. М., 1956.
3. «Книга» Марко Поло. Перевод с старо французского текста И.П.Минаева; Редакция и вступительная статья И.П.Магидовича. М., 1956.
4. Səfərnameye Marko Polo. Tərcome: Həmdullah Səhihi. Tehran, h. 1350.
5. Шкловский В.Б. Земли разведчик. Марко Поло, М., 1969.



**Адил Бахшалиев**


## ОТНОШЕНИЯ МЕЖДУ ХАНБАЛЫГ (КИТАЙ), СТРАНАМИ СРЕДНЕГО ВОСТОКА И ЮЖНОЙ АЗИИ


В статье затрагиваются киатйско-иранских отношения второй половины XIII века на основе сравнения двух изданий «Книги» М.Поло. Отмечается, что население центра государства эльханидов – Тебриза в основном занималось торговлей и ремеслом; в городе проживали люди, говорившие на разных языках и служившие различным религиям; основную часть населения составляли мусульмане, особенно отличался Тебриз от Ирана. М.Поло, описывая важный торговый и портовый город Хормузд отмечает, что его его население в основном состояло из мусульман, город Кашгар являлся важным торговым и ремесленным центром Туркестана; кроме мусульман здесь также проживали христиане, поклонявшихся богу в христианских церквях, местное население говорило на специальном языке. В заключении описывается организация денежного обращения в империи, почтово-транспортного дела.

**Adil Bakhshaliyev**

## RELATIONS BETWEEN KHANBALIQ (CHINA) AND COUNTRIES OF CENTRA WEST AND SOUTH ASIA

In this article are shown Chines – Iranian relations in second part of XIII century on the basis of comparison of two editions of M.Polo's "Book". Elkhanids' state center – Tebriz's population is worked in trade and hack work, people living in this city spoke in different longuages and heard different religions, the main part of population in constitute Muslims, Christians had special churches, local population spoke in a special language. It also described the organization of monetary relations in empire and post-transport work.

***Rəyçilər: Tarix e.d., prof. V.Z.Piriyev, tarix e.d., prof. Ş.F.Fərzə-liyev.***

***Sumqayıt Dövlət Universitetinin «Azərbaycan tarixinin mənbəşü-naslığı və tarixin tədrisi metodikası» kafedrasının 21.01.2008-ci il tarixli iclasının qərarı ilə nəşri məsləhət görülmüşdür (protokol №07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**FƏRİDƏ ƏLİYEVA**
Bakı Dövlət Universiteti

# AZƏRBAYCAN ELLİNİZM DÖVRÜNDƏ DİGƏR ÖLKƏLƏRLƏ SİYASİ, İQTİSADİ VƏ MƏDƏNİ QARŞILIQLI ƏLAQƏLƏRDƏ

Azərbaycan çox qədim tarixə, zəngin maddi və mənəvi irsə malik ölkələrdən biridir. Xalqların tarixi, onların yaratdığı mədəniyyət təcrid olunmuş halda, mədəni dünyadan ayrılıqda deyil, onunla sıx əlaqədə yaranır, formalaşır və inkişaf edir. Arxeoloji qazıntılar nəticəsində əldə edilən maddi mədəniyyət nümunələri və numizmatik dəlillər sübut etmişlər ki, çətin kecilən dağlar, susuz səhralar, narahat dənizlər hec bir zaman dünya xalqları və ölkələrinin qarşılıqlı əlaqələrinə mane ola bilməmişdi. Hətta siyasi, iqtisadi və mədəni səviyyələrdəki müxtəliflik əlaqələrin yaranmasının qarşısını ala bilməmişdir. Bütün bunlar xalqların elmi və mədəni nailiyyətlərinin qarşılıqlı zənginləşməsinə gətirib cıxarmışdı ki, bu da öz növbəsində onların mədəni səviyyələrinin, təsərrüfat və ticarətlərinin inkişafına səbəb olmuşdur. Bu nöqteyi-nəzərdən ellinizm dövrü və bu dövrdə Azərbaycanın digər ölkələrlə qarşılıqlı əlaqələri böyük maraq kəsb edir.

Ellinizm – yalnız mədəniyyət sahəsində dəyişikliklər deyil, əhalinin həyatında ictimai, siyasi, iqtisadi, təsərrüfat və digər sahələrdə yerli elementlərlə ellin ünsürlərinin qarşılıqlı təsiri və uyğunlaşmasıdır. Ellinizm onun təsiri altına düşən ölkələrin mədəni, siyasi həyatına, məişətinə dərindən nüfuz etmişdir. Cənubi Azərbaycanda – Atropatena, şimalda isə Albaniya belə ölkələrdən olmuşur.Qafqaz Albaniyası e.ə. III-I əsrlər ərzində ellin dünyasının iqtisadi, siyasi və mədəni həyatı dairəsinə cəlb olunmuşdu. V.Leviatova görə, qədim Azərbaycan əhalisinin ticarət əlaqələrinin genişliyi onu antik müəlliflərə tanıtdı (4, s. 89).

Ellinist dövlətləri bir sıra yeni dövlətlərin yaranması və inkişafında böyük rol oynadılar. Azərbaycan da ellinist dövlətlərin təsir dairəsində idi. Antik müəlliflərin məlumatına görə, ilk dəfə atropaten və albanlar tarixi səhnədə e.ə. IV əsrdə peyda olurlar. Daha dəqiq desək, bu haqda eramızın II əsrinin tarixçisi Arrian özünün "Anabazis, yaxud İsgəndərin yürüşü haqqında" adlı əsərində danışır. Arrian məlumat verir ki, Qavqamela yaxınlığındakı döyüşdə III Dara tərəfindən İsgəndərə qarşı midiyalılarla yanaşı, parfiyalılar, hirkanlar, albanlar və sakasenlər də döyüşmüşlər (1, s. 77-78).

Strabon Şərqi yaxşı tanıyan bir neçə antik müəlliflərdən biri idi. Onun "Goğrafiya" kitabından görünür ki, Midiya-Atropatena haqqında danışanda, ümumiyyətlə, o, Midiyaya aid faktları gətirir, onunla yanaşı bəzi hallarda Strabon Midiya haqqında olan məlumatı ayrı-ayrı regionlara aid məlumatlara bölür (5, s. 386). O, məlumat verir: "Midiya iki hissəyə bölünür. Bir hissəni əsas şəhəri Ekbatana olmaqla Böyük Midiya adlandırırlar. İkinci hissə Atropatena Midiyasıdır. Öz adını Atropatın adından almışdır. O, bu ölkəni Böyük Midiyanın bir hissəsi kimi makedoniyalıların hakimiyyəti altına düşməyə imkan verməmişdi" (10, XI, 13, 1).

Bəzi qaynaqlarda Atropatın adının çəkilməməsi güman ki, Atropatın vəfat etməsi, onun yerinə Pifon Midiya satraplığına təyin edilməsi ilə bağlıdır. Pifon isə I Antiqon ilə döyüşlərdən birində öldürüldü. Bundan sonra Atropatena hadisələri barədə məlumat verilmir. Ehtimal etmək olar ki, Atropatena müstəqil siyasət yeridirdi, diodoxlar arasında hakimiyyət uğrunda gedən mübarizəyə qoşulmurdu və yerli hakimlər tərəfindən idarə olunurdu.

Ellin mədəniyyəti Albaniya ərazisində də yayılmışdı. Bunu Bərdə və Qəbələdə aşkar edilmiş pul dəfinələri, müxtəlif bəzək əşyaları, bullalar və s. də sübut edir. Hələ Mingəçevirdə aparılan qazıntılar zamanı torpaq qəbirlərdən boz və qara rəngli gil qab-qacaq əldə edilmişdi. Vazaların forması, dar dibli küplər və digər qablar bu ərazidə yerli mədəniyyətlə ellin mədəniyyəti arasında əlaqə olduğunu güman etməyə imkan verir.

Romalıların işğalları ellinizm dövrünün son mərhələsinə təsadüf edir. E.ə. II əsrin əvvəlindən Roma Şərq hadisələrində fəal iştirak etməyə başladı. Roma senatı xüsusi qərarla Lukulu Şərqə yolladı. E.ə. 66-cı ildə isə Roma senatı dövrünün görkəmli dövlət xadimi və sərkərdəsi Qney Pompeyi Lukulun yerinə Şərqə göndərdi. Pompey Ermənistandan alban və iberlərin sayca çoxluq təşkil etdiyi torpaqlara üz tutdu. Roma sərkərdəsi Ermənistandan şimaldakı və şimal-şərqdəki ölkələri Artaksatanı birləşdirən və Sevan gölünün yanından ötüb Dilican dərəsindən keçərək Qazax və Aqstafa yanında Kür çayına qədər uzanan yeganə rahat ticarət yolu ilə hərəkət edirdi. İlahə Anahitin məbəd vilayəti Qazax və Aqstafa rayonunda idi (2, s. 25). Məbədin yaxınlığı bir çox cəhətdən romalılara sərfəli idi. Qismən ona görə ki, müxtəlif əyləncələrlə müşayət edilən bayram yaxınlaşırdı. Albanlar əvvəlcə Roma sərkərdəsinə yol verməyə razı oldular, lakin Pompeyin qoşunu onların ölkəsinə qədəm basdıqda və romalıların hər il dekabr ayında qeyd etdikləri Kron (Saturn) bayramı başlandıqda təxminən 40 min alban çağırılmamış qonaqlara hücum etdi. Daha sonra Pompey albanlarla barışıq sazişi bağlamağa məcbur oldu. Dion Kassinin yazdığına görə, "Pompey albanlar ilə sülh sazişi, sonra isə elçilər vasitəsilə Kaspi dənizinə qədər Qafqazın bəzi başqa sakinləri ilə müqavilələr bağladı" (1, s. 94).

Ümumiyyətlə, Azərbaycan dövlətləri Makedoniyalı İsgəndərin yürüşündən sonra Ön Asiyada gedən müharibələr zamanı öz müstəqilliklərini

saxlaya bilmişdilər. Azərbaycan vaxtaşırı gah sələvkilərə, gah da parflara tabe olmuş, lakin çox zaman müstəqil idarə üsulunu saxlamışdı.

Sinfi cəmiyyətin göstəricilərindən biri şəhərlərin meydana gəlməsidir. Qərb və Şərqin şəhərləri fonunda Antik Azərbaycanın yaşayış yerləri böyük maraq kəsb edir. Onlar haqqında ilk geniş məlumatı Strabon verir. Yunandilli müəllifə görə, "Atropatena əhalisinin yay mərkəzi – Qazaka, qış mərkəzi isə Vera qalasıdır..." (10, XI, 13, 9).

Arxeoloji qazıntılar zamanı Naxçıvan, Qəbələ, Bərdə, Xınıslı və digər yerlərdən İsgəndər və onun canişinləri tərəfindən zərb edilmiş sikkələrin tapılması faktı həmin ərazidə ticarət və pul münasibətlərinin inkişafını göstərən əsas amildir. Atropatenadan Qərb ölkələrinə yun və ipək parça da ixrac olunurdu.Ümumiyyətlə, Atropatena digər ölkələrə görə ellin dövlətləri ilə daha sıx iqtisadi və siyasi əlaqədə olmuşdur.

Antik müəlliflərin məlumatlarına görə, Albaniyanın bu dövrdə sıx məskunlaşmış və geniş ərazisi var idi. Qədim yazılı mənbələrdə adları çəkilən Albaniyanın şəhərlərindən mütəxəssislər Qəbələ şəhərinə xüsusi diqqət ayırmışlar. Bu diqqətin əsas səbəbi e.I əsrində Qəbələnin Böyük Plini tərəfindən Albaniyanın əsas şəhəri kimi xatırlanmasıdır (6, IV, 26, 29).

Ptolemeyə görə, Albaniyada 29 şəhər və kənd məlumdur. Onlardan Albana, Niqa, İuna, Xabala və başqalarını göstərmək olar. Müxtəlif müəlliflər çox hallarda müxtəlif şəhər adları çəkirlər. Lakin Midayanın paytaxtı Ekbatana şəhərinin adı məsələsində antik müəlliflər əsasən yekdil çıxış etmişlər. Arxeoloji qazıntılar da antik Azərbaycan ərazisində çox sayda şəhərlər üzə çıxarmışlar. Məlumdur ki, İsgəndərin şərq yürüşləri ilə şəhərsalma işləri də geniş vüsət alır. Plutarxın məlumatına görə, İsgəndər 70 şəhərin əsasını qoymuşdu.

Bir sıra dövlətlərin Makedoniyalı İsgəndərin imperiyası çərçivəsində birləşməsi əmtəə mübadiləsi üçün əlverişli şərait yaratmışdı. Antik dünyanın müxtəlif ölkələri arasında ticarət və mədəni mübadilənin güclənməsi üçün böyük imkanlar açılmışdı. Bu dövrdə ticarət beynəlxalq xüsusiyyət kəsb etməyə başlayır.

Qədim Albaniya əhalisinin ellin dünyası ilə mütəmadi əlaqələri yaranır (8, s. 9). Strabon qeyd edirdi ki, adətən "İberiyadan Albaniyaya Alazan çayının sahili ilə - suyu qıt olan dərə-təpəli ərazidən Kambisenadan keçərək daxil olurlar" (10, XI, 4, 5). İberiyadan Albaniya hüdudlarına yalnız bu yolla, dərə-təpəlik Kambisenadan və Alazan çayının sahilindən keçməklə gəlib çıxa bilmişdilər.

Ticarət magistrallarının kəsişmə nöqtəsi Ekbatana şəhəri idi. Bu şəhər eyni zamanda malları yalnız qəbul etmək üçün deyil, həm də satmaq üçün münasib yer idi (2, s. 96). Şərqdən qərbə gedən baş ticarət magistralı Ekbatanadan keçirdi və buradan müxtəlif ölkələrin mallarını almaq olardı. Güman etmək olar ki, bundan əvvəl hərbi məqsədlərlə istifadə olunan qədim Albaniya tranzit yolu Xəzərin şimal sahilində yaşayan tayfalar ilə Atropatena əhalisi arasında ticarət magistralı olmaqda davam edirdi.

Ticarətin canlanması Ekbatanadan başlanan Qazakadan keçərək Artaksataya, oradan da şimala doğru uzanan ticarət yollarının daha da inkişaf etməsinə səbəb olurdu. Cənubda qədim quru ticarət yolları geniş Parfiya çarlığının ərazisi ilə qərbdən şərqə Dəclə çayının sahilindəki Antioxiyadan və Selevkiyadan Margianaya qədər uzanan böyük qədim şərq magistral yollarına çıxırdı.Bu magistrallar qərbə, Romanın tabeliyində olan ölkələrə və şərqə, Hindistan və Çinə aparır, başlıca olaraq Ekbatana yaxınlığında qovuşurdu.

Antik müəlliflər quru ticarət yollarından əlavə, dəniz və çay ticarət yollarından da bəhs edirlər. Strabon, ehtimal ki, Qara dəniz sahillərindən Xəzərə gələn yolun ümumi uzunluğunu nəzərdə tutaraq yazırdı ki, bu ərazi "Kür çayının mənsəbindən Kolxidaya qədər, Albaniya və İberiya daxil olmaqla, dənizdən dənizə təqribən üç min stadi uzanır, buna görə də onlar bərxəz şəklindədir" (10, XI, 1, 5). Pliniyə görə, Hindistandan yola düşəndən yeddi gün sonra Baktriyaya, Oks çayına tökülən Baktr çayının sahillərinə çatmaq olar. Hind malları bu çaydan Kaspiyə qədər, oradan da Kür boyunca quru yolla uzaq başı beş günə Ponta, Fasid yaxınlığına daşına bilər" (6, VI, 52). Aristobulun dediyinə görə, "tacirlər Hirkan dənizinə çoxlu hind malları gətirir, oradan Albaniyaya ötürür, Kür sahili ilə və bitişik ərazilərlə Evksinə çatdırırlar" (10, XI, 7, 3). Dəniz ticarət yolunun olması bəzi coğrafiyaçılarda şübhə oyadırdı. Melanın məlumatına görə, Kaspi dənizi "sərt və fırtınalı dənizdir, limanları yoxdur, hər tərəfdən fırtınalara açıqdır, başqa dənizlərə nisbətən burada daha çox dəniz yırtıcıları qaynaşır, odur ki, dənizçilər buraya başqa dənizlərə nisbətən daha az gəlirlər" (III, 5, 38). Görünür, fəal ticarətdə duz mühüm yer tutmaqda davam edirdi. Bununla əlaqədar olaraq, Strabonun Matiana gölündə "duzxanalar düzəldilmişdir"(10, XI, 14, 8) – deyə verdiyi məlumat olduqca qiymətlidir. Duzxanaların olması, görünür,ona sübutdur ki, həm Atropatenanın, həm də qonşu ölkələrin uzaq və yaxın rayonlarına duz ixrac edilirmiş. Midiya yağı haqqında xəbər, ola bilsin, Qədim Azərbaycanın ərazisi ilə bağlıdır. Kaspiana sakinləri Midiyanın mərkəzi rayonları ilə iqtisadi əlaqələr saxlayırdılar. Roma tacirləri Aralıq dənizi ölkələrini Hindistan və Çin ilə bağlayan Qafqaz yollarını öyrənməyə çalışırdılar. Parfiyanın iqtisadi həyatına qoşulmuş yerli tacirlər ticarətdə fəal rol oynayırdılar.

Beləliklə, Azərbaycanın ellin dövlətlərlə ticarət əlaqələrinin inkişafında ölkələrin əlverişli coğrafi mövqeyi, bu dövrdə onların iqtisadi inkişafı, zəngin təbii şəraiti, bu regionların qədim şərq mədəniyyət mərkəzlərinə yaxınlığı və s. mühüm rol oynayırdı. Deməli, buna həm də Atropatena və Albaniya ərazilərindən keçən və bu iki ölkəni ellin dövlətlərlə birləşdirən tranzit ticarət yolları da təkan verirdi. Bu barədə həm antik müəlliflərin yazılı məlumatları, həm də arxeoloji və numizmatik materiallar məlumat verir. Ə.Rəcəbli özünün "Azərbaycanın numizmatikası" adlı kitabında yazır: "Albaniyanın mühüm xarici əlaqələri cənub istiqamətində – Atropatena

vasitəsilə, oradan isə nəhəng ellin dünyası ilə mövcud olmuş və inkişaf etmişdir" (7, s. 12).

Ellinizm dövründə pul dövriyyəsi yüksək səviyyəyə çatmışdı və pul dövriyyəsi üçün uyğun iqtisadi bazası olan bir çox ölkələrə yayılmışdı. Tədqiqatçılar belə nəticəyə gəlmişlər ki, Albaniyada İsgəndərin pullarına bənzətmə artıq e.ə. III əsrdən başlamışdır. Belə pullar Makedoniyalı İsgəndərin pullarının Şərq ölkələri bazarlarında geniş yayıldığı dövrlərdə kəsilirdi. Məhz elə buna görə də bu pullar Qafqaz Albaniyasının ilk pullarının zərbində etalon rolunu oynamışlar (3, s. 48).

İ.Babayevin fikrinə görə, Albaniyada Makedoniyalı İsgəndərin draxma və tetradraxmalarına oxşar pulların zərbinə e.ə. III əsrin birinci yarısında, hətta ola bilər ki, e.ə. IV əsrin sonu-III əsrin əvvəllərində başlamışlar. Albaniya Makedoniyalı İsgəndərin Şərq yürüşü sayəsində əhəmənilərin zülmündən azad olub müstəqil dövlət olmuşdur. İlkin olaraq Albaniyaya çox sayda İsgəndərin pulları daxil olmuşdur və bununla da Albaniya ellinist dünyası ilə ticarətə cəlb olunmuşdur. Əhalinin artan tələbatını təkcə gətirilmə pullar ödəmədiyi üçün ölkədaxili ticarət də yüksək səviyyəyə çatmışdı.Buna görə də Albaniya hökmdarları özləri pul zərb etməyə məcbur oldular. Əvvəlcə bu pullar orijinala daha yaxın idi, lakin vaxt keçdikcə öz görünüşlərini dəyişirlər (3, s. 49). Güman etmək olar ki, Makedoniyalı İsgəndər və selevkilərin pullarının bir hissəsi Albaniyaya e.ə. IV əsrin sonlarında daxil olmuş və e.ə. III-II əsrlərdə burada əsas ödəmə vahidi rolunu oynamaqda davam edirmiş. Bunu, bir tərəfdən, məlum bir fakt sübut edir ki, ölümündən sonra Makedoniyalı İsgəndərin pulları Şərqdə olduğu kimi, Yunanıstanda da uzun müddət zərb olunurdu. Onlar əvvəlki kimi beynəlxalq valyuta vəzifəsini yerinə yetirirdilər. Digər tərəfdən,bu, sözü gedən pulların selevki, roma və parfiya pulları ilə birgə dəfinələrdə üzə çıxarılmasını təsdiqləyir ( 9, s. 93, 94).

Azərbaycanın ellinizm dövründə ticarət əlaqələrini arxeoloji qazıntılar zamanı üzə çıxarılmış çoxsaylı gətirilmə əşyalar da sübut edir. Ellin dünyası ilə Albaniyanın əlaqələri haqqında Mingəçevir, Şamaxıdan tapılmış möhürlər xəbər verir. Albaniya ərazisindən tapılmış Suriya mənşəli şüşə muncuqlar isə Albaniyanın Yaxın Şərq ilə münasibətləri haqqında məlumat verir. Dövlətin yaranması, şəhər mədəniyyətinin təşəkkülü beynəlxalq əlaqələrin genişlənməsinə zəmin yaradırdı.

Atropatenada olduğu kimi, Albaniyada da ellinizm dövründə şəhər mədəniyyəti, sinfi cəmiyyət inkişaf edirdi, yerli əhalinin qədim Şərq ölkələri, antik dünya ilə siyasi, iqtisadi, mədəni əlaqələri genişlənirdi. Makedoniyalı İsgəndərin Yaxın və orta Şərq ölkələrinə yürüşlərindən sonra yerli və yunan mədəniyyətlərinin sintezi baş verdi və ellin mədəniyyəti adlanan bir mədəniyyət formalaşdı. Beləliklə, arxeoloji tədqiqatların nəticələri Azərbaycanda ellin mədəniyyətinin geniş yayıldığını söyləməyə imkan verir.Yalnız yazılı mənbələr və arxeoloji materialların qarşılıqlı surətdə öyrənilməsi nəticəsin-

də Azərbaycanın ellinizm dövründə digər ölkələrlə qarşılıqlı əlaqələri mövzusunu tədqiq etmək mümkündür.

Ümumiyyətlə, ellinizm dövrünün ümumi mədəni irsi çox zəngindir və dünya mədəniyyətinin uğurlu inkişafında özünəməxsus yeri var.

## ƏDƏBİYYAT


1. Алиев К. Писатели античности об Азербайджане. С.-Петербург-Баку, 2001.
2. Алиев К., Алиева Ф. Азербайджан в античную эпоху. Баку,1997.
3. Бабаев И. Города Кавказской Албании. Баку, 1990.
4. Левиатов В. Азербайджан с V века до н.э. по III в.н.э. Известия АН Азерб. ССР, 1950, № 1.
5. Nadcafova İ. Strabon Atropatena haqqında: mənbə, tərcümə və şərhlər. Tatix və onun problemləri, 2008, 1-2.
6. Плиний Старший. Естественная история. Пер. В.В. Латышева. ВДИ, 1949, № 2.
7. Раджабли А. Нумизматика Азербайджана. Баку,1997.
8. Расулова М. Связи Кавказской Албании с античным миром в IV в. до н. э –III в.н.э. Автореф. канд.ист.наук Баку, 1969.
9. Расулова М. Торгово-экономические и культурные связи Кавказской Албании с античным и эллинистическим миром: IV век до н.э.-III в.н.э. Баку, 2008.
10. Страбон. География. Пер.Г.А.Стратановского, М., 1964.
11. Ямпольский З. Древняя Албания III-I вв. до н.э., Баку, 1962.


**Фарида Алиева**

## ПОЛИТИЧЕСКИЕ, ЭКОНОМИЧЕСКИЕ И КУЛЬТУРНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНА В ПЕРИОД ЭЛЛИНИЗМА

Политические, культурно-экономические связи играли важную роль во взаимообогащении народов достижениями во всех областях жизни. Эти связи, выраженные главным образом обменом и торговлей, оказывали существенное воздействие на экономическую, социальную, культурную и даже политическую жизнь народов. Эллинизм – это эпоха наивысшего развития торговли, экономики, а для Азербайджана – время, когда устанавливаются регулярные связи с окружающим миром.

Страна находилась на перекрёстке мировых транзитно-торговых магистралей. По этим маршрутам шли не только товары, но и распространялись идеи, религии, культура.В это время товарно-денежное обращение уже достигло большого развития. Товарно-денежное обращение предполагает, в свою очередь, дальнейший рост и расцвет городов, сельского хозяйства, ремесла. В результате длительных взаимоотношений

с эллинистическим миром население Азербайджана знакомилось с основными достижениями античной культуры, науки, техники.

**Feride Aliyeva**

## THE POLITICAL , ECONOMICAL AND CULTURAL RELATIONS OF AZERBAIJAN IN HELLENISM PERIOD

The political, cultural-economical relations played a significant role in interenrichment of nations by the achievement in all fields of life. These relations are expressed mainly by exchange and trade made essential influence to economical, social, cultural and even to the political life of peoples. Hellenism is an epoch of highest development of trade, economy, but for Azerbaijan it is the time when regular relation with surrounding world is established. The country was in cross-road of world transit –trade highway. By this rout came not only goods but at the same time the ideas, religious and culture is spreaded. At the same time the commodity – money circulation proposed in its turn future development and prosperity of cities, agriculture and handcraft . In consequence the prolonged interrelation with Hellinistic world of population of Azerbaijan got acquainted by main achievements of ancient culture, science and technique.

***Rəyçilər: Tarix e.d., prof. Ə.Dadaşov, tarix e.n. Y.Gözəlova.***

***Bakı Dövlət Universiteti Tarix fakultəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının 13 noyabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 02).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**İBRAHİM KAZIMBƏYLİ**
Naxçıvan Dövlət Universiteti

# ERMƏNİ XƏYANƏTİ TARİXİ FAKTLARIN DİLİ İLƏ

Erməni millətçiləri heç bir tarixi fakta, elmi əsaslara söykənmədən beynəlxalq ictimaiyyətin gözləri qarşısında Cənubi Qafqazın tarixi keçmişini saxtalaşdırmaqda davam edir. Lakin elmə yaxşı məlumdur ki, ermənilər Cənubi Qafqazın yerli əhalisi deyildir. Bunlar bu ərazilərə gəlmə etnosdur. Bu faktları qədim və ilkin orta çağ mənbələrinə əsaslanan tədqiqatçılar sübut etmişlər.

Ermənilərin əcdadları hesab olunan tayfalar təqribən e.ə. I minilliyin ortalarında Fərat çayının yuxarılarında peyda olmuşdur. Onlar bura Balkan yarımadasından köçüb gəlmişlər (12, s. 3).

Bölgənin (Cənubi Qafqaz nəzərdə tutulur İ.K.) aborogen sakinləri olan Azərbaycan türkləri bu ərazilərdə yüksək mədəniyyət formalaşdırmış, Arazın güneyində Manna və Atropatena, quzeyində isə qüdrətli Albaniya dövlətini yaratmışlar. Bu məsələlər ilə bağlı Azərbaycan tarixşünaslığında görkəmli tarixçilərimizin sanballı elmi əsaslara söykənən tədqiqatları mövcuddur. Buna görə də biz konkret olaraq erməni xəyanətinin əsas çalarları, səbəbləri, mahiyyəti və s. barədə tarixi faktlara söykənərək qısa da olsa, məlumat vermək istəyirik.

Tarixi faktdır ki, bu gün Cənubi Qafqazda başlıca gərginlik ocağı olan erməni dövləti yaradılması ideyasının əsası lap yaxın dövrdə – XIX əsrin əvvəllərində Çar Rusiyasının İran və Türkiyəyə qarşı apardığı işğalçılıq müharibələri dövründə qoyulmuşdur. Burada əsas məqsəd Rusiyanın özünə etibarlı dayaq yaratmaq və xristian faktından istifadə etmək idi. Rus Çarizmi Azərbaycanın Quzey hissəsini işğal etdikdən sonra ərazilərimizə, xüsusən, İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə İrandan və Türkiyədən kütləvi surətdə ermənilər köçürüldü. Bundan sonra zaman-zaman Azərbaycan torpaqlarında məskunlaşan ermənilər öz xislətlərində olan xəyanətkarlığı davam etdirməyə başladılar.

Tarixi faktların təhlilindən aydın görünür ki, ermənilər uzun illərdən bəri "İrəvan vilayəti"ndə etnik xəritəni dəyişdirməyə çalışmışlar. Bunun üçün soyqırım siyasətin qırğın və talanları, Azərbaycan türklərinin zorla bölgələrdən çıxarılmasını, bir sözlə, məqsədlərinə çatmaq üçün hər cür

vasitələri məqbul hesab edirdilər. Ermənilər hansı bölgəyə daxil olurdularsa, bu ərazilərdə etnik təmizləmə aparırdılar.

XX əsrin əvvəllərində, xüsusən, 1905-1907; 1917-1920-ci illərdə ermənilər Qafqazın müxtəlif yerlərində, İrəvan vilayətində Azərbaycan türklərinə qarşı qırğın siyasəti tətbiq etmiş gələcək Ermənistan üçün “boş torpaqlar” təşkil etməyə çalışmış, çox halda buna nail olmuşdular.

1813-1828-ci illərə qədər Azərbaycanın ərazisi təxminən 460 min kvadrat kilometr olmuşdur. Türkmənçay müqaviləsindən sonra Azərbaycan ərazisinin 280 min kvadrat kilometri Rusiyanın əsarəti altına düşmüşdür (1, s. 6).

Ərazilərimizin açıq və gizli işğalları sovetlər birliyi zamanında da baş vermişdir. Bəhs olunan dövrlərdə 27 min kvadrat km ərazi ermənilərin və gürcülərin nəzarətinə verildi. 1988-1994-cü illərdə 17.610 kvadrat km Ermənistan tərəfindən işğal edilmişdir.

Yuxarıda sadaladığımız faktların təsdiqi üçün müxtəlif tarixi dövrləri əhatə edən erməni xəyanətini əks etdirən sənədlərə müraciət edək.

II Nikolayın Qafqazdakı canişini İ.M.Vorontsov-Daşkovun ermənilərlə bağlı Rusiyanın siyasəti haqqında Çara göndərdiyi məktubunda yazılırdı: “1877-1878-ci illərin rus-türk müharibəsinədək bütün tarix boyu Qafqaz üzrə Türkiyə münasibətlərimiz indiki Batum və Qars vilayətlərinin bizim ərazilərimizə qatılması ilə başa çatıb. I Pyotrun hakimiyyətindən üzü bəri Rusiya siyasəti ermənilərə qarşı dönmədən xeyirxah münasibətlər ruhunda köklənib. Onlar da bizə borclu qalmayıblar, hərbi əməliyyatlar zamanı qoşunlarımıza fəal kömək göstəriblər” (10, RFDA, f. 1849, siy. 2, iş 19).

Həmçinin yazılır Türkiyə erməniləri ilə bağlı indi qədim rus himayəçilik siyasətinə qayıtmağın vaxtı gəlib çatıb və elə formalar axtarıb tapmaq lazımdır ki, bu siyasət indiki zamanda həmin formalarda öz əksini tapsın. Rus emisarları Azərbaycan Xalq Cumhuriyyətinə qarşı barışmaz mövqe nümayiş etdirirdilər. Azərbaycan ərazilərində yaşayan ermənilərin əsas məqsədləri daşnak təşviqatının səyləri ilə Azərbaycandan ayrılmaq yeni yaranmış Ararat Respublikasına birləşmək idi. Qəzalarda özbaşınalığın hökm sürməsi təşviqatçılara bu istiqamətdə sərbəst işləməyə tam imkan yaratdı. Yeni yaranmış Azərbaycan hökuməti ilk vaxtlar mərkəzi yerlərdə qayda-qanun yaratmaq üçün həddən artıq səy göstərirdi. Lakin bəzi qəzalara tam nəzarət etmək mümkün deyildi. Məsələn, Şuşa, Qaryagin, Cavanşir və Zəngəzur kimi qəzalarda baş verən hadisələr çox acınacaqlı idi. Azərbaycan hökuməti adları çəkilən qəzaların dağlıq hissəsində yaşayan ermənilərin böyük hissəsi tərəfindən tanınmadı və əlbəttə, həmin hökumətin tərəfdarı olan müsəlmanlara onların düşməncəsinə münasibəti daha da artdı. Andronikin Azərbaycan ərazilərində peyda olması vəziyyəti daha da ağırlaşdırdı. O, “yürüşünün” məqsədini açıq-aydın belə bildirirdi: “Azərbaycandan ayrılmaq və Ermənistana birləşmək” (4, ARDA, 894, siy. 9, iş 5, v. 13-14).

Başqa bir tarixi faktda qeyd olunur. Panislamist emisarlar adı altında öz adamlarınızı (Daşnaksütyunun qərarı-İ.K.) Qafqaza göndərin ki, təbliğat yolu ilə müsəlman əhalisini Rusiyaya qarşı qızışdırsın və üsyana qaldırsın. Bunun nəticəsində rus hökuməti tərəfindən repressiyalar olacaq və müsəlman kütlələri zəifləyəcək və beləliklə, "Daşnaksütyun" gələcəkdə Qafqazdakı işində müsəlmanların müqaviməti ilə qarşılaşmayacaq; bundan əlavə, ermənilərə qarşı Qafqaz müsəlmanlarının və Anadolu türklərinin birgə fəaliyyət göstərəcəkləri barədə təhlükə sovuşur (5, ARDA, f. 524, siy. 1, iş 58, v. 1-2).

Ermənilərin Avropada aktiv təbliğatı fəaliyyəti barədə ingilis jurnalisti Skomland-Fiddelin belə yazır: "Ermənilər dünyada ən yaxşı təbliğatçıdırlar. Bu təbliğat ardıcıl olaraq neçə-neçə illərdən bəri aparılır. Nə Rusiyada, nə Qafqazda elə adam tapmazsan ki, ermənilər barədə nəsə yaxşı bir söz desin. Rus, tatar (azərbaycanlı-İ.K.) və gürcülərin ermənilərdən zəhlələri gedir, onlara nifrət edirlər. Deyə bilmərəm bu fikir düzdür, ya yox, amma fakt budur ki, ermənilər mənfur irqdirlər. Ümumiyyətlə desək, tatarlar insaniyyət cəhətcə ermənilərdən qat-qat yüksəkdirlər və əlbəttə, daha comərd, daha cəsurdurlar (6. ARDA, f. 894, siy. 10, iş 103, v. 10-19). Tarixi məlumatlar ermənilərin onlara vəd edilən bölgədə müstəqil Ermənistan dövlətini qurmaq üçün bölgədəki müsəlmanları tamamilə məhv etmək məqsədini güddüklərini aşkar edir".

Türk qüvvələri tərəfindən əsir götürülmüş ərzincanlı bir erməni Tiqran Papazyan: "3-5 gün də keçsəydi, komitələrin aldıqları göstərişə əsasən Ərzincanı tamamilə yandırıb bütün müsəlmanları və əsir əsgərləri öldürəcəklərini, lakin buna vaxt tapmadıqlarını" soyuqqanlıqla etiraf etmişdi (8, s. 126).

Əslində Papazyanın bu etirafı yalandır. Məlumdur ki, Komitəçilər bu arzu olunmaz istəklərini geniş miqyasda həyata keçirmişdilər. Türk ordusu Ərzincana girdiyi zaman sağ qalan türklərin sayı çox az idi.

Həqiqəti danmağa çalışan A.İ.Xatisov və onun kimilər sonda tarixi faktların qarşısında aciz qalırdılar. Xatisovun sözlərinə görə, "Daşnaksütyun" və onun kimi təşkilatlar Türkiyə Ermənistanın da "ağır və dözülməz türk rejiminin zülmü altında inləyən ermənilərin insani hüquqları uğrunda mübarizə üçün" yaranmışlar.

S.İ.Qlinka yazır: "Amansız həqiqət" in yolverilməz surətdə təhrif olunması" nədir? Həqiqətən də, əksinə idi. "Daşnaksütyun" və onun kimi təşkilatların xadimləri zühr edən yerdə və onların süni surətdə yaratdığı qanlı toqquşmalar olan yerlərdə (Bakı, Şuşa, Naxçıvan və s.) məhz ermənilər hər cür "fədai"dən məhrum olurdular. Asiya Türkiyəsi hüdudlarında ermənilər Zaqafqaziyadakı qardaşlarından heç də pis yaşamırdılar (9, s. 100)

Daşnak partiyasının qızğın millətçilik siyasəti o dərəcəyədək genişlənmişdir ki, hətta şovinist telləri ilə sıx bağlı olan RSDF (m) P-nın Zaqafqaziya Ölkə Komitəsinin "Tiflis Əhalisinə" sərlövhəli müraciətnaməsində

deyilirdi: "Qafqazdakı bütün millətçi partiyalardan ən qüdrətlisi və məhz buna görə də ən zərərlisi daşnak partiyasıdır" (11, s. 9).

Yalnız bu partiyanın dağıdılması zəhmətkeş kütlələrin davamlı və həqiqi beynəlmiləl həmrəyliyinə nail olmaq üçün möhkəm zəmin yaradar(2, s. 35)

Başqa bir əsərdə göstərilir ki, Türkiyə və eləcə də Qafqaz erməni xalqının bədbəxtliyinin əsas mənbəyi Daşnaksütyun təşkilatıdır (11, s. 9)

Azərbaycan türklərinin qəddarlıqla qətlə yetirilməsində bilavasitə iştirak etmiş Tatevos Əmirovun qardaşı, Bakı XKS üzvlərindən biri olmuş A.Əmiryan 1917-ci il dekabrın 6 (19)-da "Cinayətkar siyasət" adlı məqaləsində yazırdı: "Daşnaksütyun" nə deməkdir? Bu ifrat erməni millətçilərinin partiyasıdır. Bu partiya öz varlığının 25 ili ərzində Sosializmə qarşı inqilabi ideyaların erməni xalq kütlələri içərisində yayılmasına qarşı mübarizə aparmışdır, bu partiya bütün qonşu xalqlara qarşı təcavüzkar, həyasız siyasət yeritmişdir. Biz bolşeviklər "Daşnaksütyun" partiyasına qarşı həmişə mübarizə aparmışıq. Lakin Qafqaz menşevikləri də ona qarşı ölüm-dirim mübarizəsi aparmışlar (3, s. 44)

Lakin bir müddətdən sonra Şaumyan, Əmirov və başqa erməni bolşevikləri erməni daşnakları ilə ittifaqa girərək (əslində onların hamısının məqsədi bir idi – Erməni dövlətini yaratmaq) Azərbaycan türklərinə qarşı soyqırım siyasətini həyata keçirərək, gələcək erməni dövləti üçün ərazilər hazırlamağa başlayırlar.

Erməni xəyanətinin miqyası çox geniş olduğundan bütün məsələlərə kompleks yanaşa bilmirik. Qısa da olsa, ərazilərimizdə yer-yurd adlarına qarşı həyata keçirdikləri xəyanətdən bəhs edərək erməni tarixçilərinin etiraflarını da qeyd etmək istəyirik.

Ç.Korkodyanın İrəvan şəhərində 1932-ci ildə erməni mənbələrinə əsaslanaraq yazdığı "Sovet Ermənistanın əhalisi" kitabında qeydə alınan 2310 yaşayış məntəqəsinin 2000-i azərbaycanlılalara aid olduğu göstərilir. Aydın olur ki, onlar özləri də etiraf edirlər ki, bu regiona erməni əhalisi köçmədir (7, s. 66).

Ermənilərin nəşr etdikləri bir sıra dövlət sənədlərində türk-azərbaycan toponimlərinin erməniləşdirilməsi öz əksini tapmışdır. İrəvan şəhərində 1971-ci ildə nəşr olunan "Ermənistan SSR-in inzibati ərazi bölgüsü" kitabında Ermənistan dövlətinin Azərbaycan toponimlərinin bütün mərhələlərdə planlı dəyişdirilməsi üzə çıxır. Məlum olur ki, 1935-1971-ci illər ərzində Ermənistanda Türk-Azərbaycan mənşəli 450 toponim dəyişdirilmiş, rəsmi sənədlərdən silinmişdir. Bu iyrənc proses sonrakı tarixi dövrlərdə də davam etdirilmişdir. Saysız-hesabsız arxiv sənədləri və digər mənbələr erməni xəyanətindən, Azərbaycan torpaqlarında zaman-zaman dinc əhaliyə qarşı törətdikləri ağlasığmaz vəhşiliklərdən xəbər verir. Təəssüflə qeyd etmək lazımdır ki, bu iyrənc vəhşi hərəkətlər bu gün də davam edir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəz. 7 fevral 2008-ci il, s. 6.
2. Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti. (XIX əsrin axırı, XX əsr) Bakı: Ozan, 1998, 146 s.
3. Armyano-Tatarskaya smuta na Kavkaze kak odin iz fazisov armyanskoqo voprosa. Baku: Universitet nəşriyyatı, 1993, 184 s.
4. ARDA, f. 894, siy. 9, iş 5, vər. 13-14.
5. ARDA, f. 524, siy. 1, iş 58, vər. 1-2.
6. ARDA, f. 894, siy. 10, iş 103, vər. 10-19.
7. Əliyev V. Zəngəzurda qalan izimiz. Bakı: Nurlan, 2004, 295 s.
8. Koçaş M. Sədi. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı: "Azərbaycan ensiklopediyası", NPB, 1998, 160 s.
9. Qlinka S.N. "Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri", Bakı: Azərbaycan nəşriyyatı, 1995, 128 s.
10. RFDA, f. 1849, siy. 2, iş 19.
11. Şirinoğlu V. 1918-20-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Bakı: Qartal, 2001, 176 s.
12. Vandalizm: tarixi adlara qarşı soyqırım. Bakı: Təhsil, 2006, 92 s.


**Ибрагим Казымбейли**

## АРМЯНСКОЕ ПРЕДАТЕЛЬСТВО В СВЕТЕ ИСТОРИЧЕСКИХ ФАКТОВ

Азербайджанский народ в течение нескольких веков подверчается политике геноцида. Борьба великих держав из-за Южного Кавказа привела к разрушению наших земель, тяжелому геноциду и депортации населения.

Данные из источников, принадлежащих разным народом подтверждают, что армяне на Кавказе насильно изменяют и армянизируюут исторические памятники, принадлежащие византийцам, грузинам и азербайджанцам, стараются приобрести все древности, которые попадаются им на глаза.

Мы неопровержимыми фактами подтверждает наши выводы: «Великая Армения» принявшая христианство в IV веке, в V веке потеряла политическую независимость, и в разные периоды была под властью персов, византийцев, Селджукских тюрков и др. Империй.

История армянского народа неопровержимо подтверждает, что у них не было умения создавать самостоятельное государство. Исторические факты доказывают, что с древнеищих времен этот народ не имел единого государства, территории и традиций государственности.

**Ibrahim Kazimbayli**

## ARMENIAN BETRAY WITH THE LANGUAGE OF HISTORICAL FACTS

For ages, Azerbaijani people undergo genocide. Their struggle for Caucasus resulted of destroying and ruining our territories, genocide and departation.

It has been mentioned in some sources that, Armenaians try to dispossess the monuments belongeing to bizantium, Georgions and Azerbaijani in the Caucasus.

It is indeniable fact that, Armenia which accepted the christianity in the IV century had lost its independence and was under the rule of persians, bizantium, saljug turks and others.

It had been proved that they didn't have any ability to create an independent state. It is known from the history that, they didn't have any common country and states hood tradition.

***Rəyçilər: Tarix e.d. prof. H.Səfərli, dosent Z.Şahverdiyev.***

***Naxçıvan Dövlət Universitetinin «Azərbaycan tarixi» kafedrasının 12 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 05).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**YAŞAR RƏHİMOV**
AMEA Naxçıvan Bölməsi

# XIX ƏSRDƏ NAXÇIVANDA TİCARƏT
## (rus mənbələri əsasında)

Azərbaycan tarixşünaslığında yeni istiqamət olan Naxçıvan tarixinin öyrənilməsi tarix elmi qarşısında duran mühüm problemlərdəndir. XIX əsrdə Naxçıvanda olmuş rus araşdırıcıları, tədqiqatçıları və səyyahlarının əsərlərində bölgə tarixinin bir sıra problemlərinə aid zəngin məlumatlar vardır. Həmin mənbələrdə – xülasə və toplularda bu dövrdə Naxçıvan ərazisində aparılan daxili, xarici və tranzit ticarət, karvan yolları, duz ticarəti, gömrük-karantin məntəqələri, ticarət əlaqələrinin səviyyəsi, ticarət mallarının çeşidi, növü, qiymətləri və s. haqqında maraqlı məlumatlar əldə etmək mümkündür.

Bu dövrdə İrandan Gürcüstana gedən əsas ticarət yolu əlverişli mövqedə yerləşən Naxçıvan şəhərindən keçirdi. Bura bir tərəfdən Qarabağa, digər tərəfdən Rusiyaya, yəni Cənubi Qafqazın şərq əyalətlərinə gedən ikinci əlverişli yolu da əlavə etsək, onda Naxçıvan bölgəsində ticarətin yüksək səviyyədə olması haqqında dolğun təsəvvür yaranar. Naxçıvan şəhər bazarı, dükanlar, böyük karvansara haqqında məlumat verən rus müəllifi V.M.Sısoyev şəhərin əsas ticarət yolları üzərində yerləşməsi və buradan keçən karvan yollarından ətraflı bəhs etmişdir (6, s. 88, 90). Lakin bir sıra amillər XIX əsrdə Naxçıvan ərazisində ticarətin çox məhdud şəkildə aparılmasına şərait yaratmışdır. Müasirlər bunu yerli kapitalın azlığı, emal müəssisələrinin zəifliyi və istehsal olunmuş məhsulların əsasən yerli bazarda satılması ilə əlaqələndirirlər (1, s. 95). Sənaye məhsulları istehsalının aşağı səviyyədə olması, ərazidə tacirlərin və iri alverçilərin azlığı, yerli istehsala olan güclü tələbat və b. amillər də bölgədə ticarətin inkişafına və genişlənməsinə mane olurdu.

XIX əsrin əvvəllərində baş verən birinci (1804-1813) və ikinci (1826-1828) Rusiya-İran müharibələri, Rüsiya-Türkiyə müharibəsi (1806-1812) və daxili münaqişələr nəticəsində bölgədə ticarət əlaqələri daha da zəifləmişdi. Regiondakı sosial-siyasi və hərbi vəziyyət ticarət əlaqələrinin səviyyəsinin xeyli aşağı düşməsinə səbəb olmuşdur.

Naxçıvan diyarında əkilib-becərilən kənd təsərrüfatı məhsullarının bir qismi satış üçün nəzərdə tutulurdu. Həmin məhsullar daxili bazarda

müxtəlif qiymətlərə satılırdı. XIX əsrə aid olan bir mənbədə Naxçıvan bazarında buğdanın bir batmanının qiymətinin 40 gümüş qəpik, arpanın bir batmanının qiymətinin 30 gümüş qəpik olduğu göstərilir. Başqa sözlə, yuxarıda adları çəkilən məhsulların qiymətində fərq 10 qəpiyə (gümüş pulla) bərabər idi. Ən ucuz dənli bitki darı, ən bahalı kənd təsərrüfatı məhsulu isə pambıq idi. Naxçıvan bazarında pambığın bir batmanının qiyməti 4 manat 50 qəpiyə bərabər idi (1, s. 97).

Naxçıvan şəhər bazarında satılan malların qiyməti bölgənin digər ərazilərində satılan malların qiymətindən fərqlənirdi. Mənbələrin müqayisəli təhlili dediklərimizi sübut edir. Ordubad bölgəsi ilə Naxçıvan bölgəsinin bazarlarında satılan kənd təsərrüfatı məhsullarının qiymətindəki fərq özünü qabarıq şəkildə göstərir. Tarixi mənbəyə istinad edib deyə bilərik ki, Ordubad bazarında pambığın qiyməti Naxçıvan bazarında eyniadlı məhsula qoyulan qiymətdən baha idi. Belə ki, bir batman pambıq Ordubad bazarında 5 manat 50 qəpiyə satılırdı. Bu isə eyniadlı məhsulun qiymət fərqinin 1 manata bərabər olduğunu göstərir.

Əhalinin tələbatını ödəmək üçün yerli bazarlara çıxarılan kənd təsərrüfatı məhsulları qonşu ölkə və ərazilərə də ixrac edilirdi. İxracatda və xarici ticarətdə Ordubad bölgəsi xüsusi rol oynamışdır. Bu bölgə tarixən öz dadlı və ətirli meyvələri ilə dünyada tanınmış bölgələrdən biridir. Ordubad bölgəsinin meyvə qurusu əsasən Tiflisə, meyvənin özü isə İrana və Qaradağ xanlığına aparılır və orada buğdaya dəyişdirilirdi (1, s. 197).

Ordubad şəhərində tacirləri I, II və III olmaqla dərəcələrə bölən V. Qriqoryev yazırdı ki, Ordubad tacirləindən 10 nəfəri topdansatışla, 30 nəfəri şəhərdə pərakəndə satışla, 4 nəfəri isə xırda alverlə məşğu olurdu(l, s. 192). Müəllif özünün «Naxçıvan əyalətinin statistik təsviri» (1833) adlı kitabının 201-ci səhifəsində Ordubad şəhərində yerli ticarətlə məşğul olanların əksəriyyətinin müsəlmanlar (azərbaycanlılar-Y.R.) olduğunu göstərir. Məlumatdan aydın olur ki, onların bir çoxu İran mallarını Təbriz bazarlarından alır, Avropa mallarını almaq üçün Tiflisədək gedib çıxırdılar (1, s. 199).

Ordubadın üzümü Gürcüstana və b. yerlərə, keyfiyyətli şərabı az miqdarda Naxçıvana, Qarabağa və digər qonşu ərazilərə ixrac edilirdi (1, s. 198). Mənbədə (1, s. 199) İrandan, Qarabağdan Ordubada satış məqsədilə xeyli taxıl gətirildiyi barədə məlumat verilir.

XIX əsrin ortalarında Naxçıvan, Ordubad, Culfa kimi şəhərlərin inzibati mərkəzə çevrilməsi, xarici hücumların dayanması həmin şəhərlərdə ticarətin inkişafı üçün əlverişli şərait yaratdı. Göstərilən dövrdə Culfa şəhərində yaşayan əhalinin başlıca məşğuliyyəti ticarət olmuşdur. Səkkiz min ailənin yaşadığı Culfa şəhərinin əhalisi «əkinə yararlı torpaq sahələri olmadığından özlərini ancaq ticarətlə saxlaya bilirdilər» (4, s. 868).

Ordubad bölgəsində istehsal olunan ipək məhsulu yerli bazara çıxarılırdı. Əldə edilən ipək keyfiyyət etibarılə müxtəlif olduğu kimi, onun bazar qiyməti də müxtəlif idi. Məsələn, birinci növ ipəyin qiyməti Ordubad

bazarında 12 tümənə və ya 48 gümüş manata, ikinci növünün qiyməti isə 7 tümənə və ya 28 gümüş manata idi (1, s. 202). Ən çox ehtiyac duyulan məhsul meyvə qurusu olmuşdu. Ordubadın quru meyvəsi yerli bazarda aşağıdakı qiymətə satılırdı: 1-ci növ əriyin bir batmanı 1 gümüş manata, 2-ci növ ərik 50 gümüş qəpiyə, bir batman albuxara 1 manat 60 qəpiyə idi (1, s. 197).

XIX əsrə aid olan bir mənbədə göstərilirdi ki, əvvəllər Ordubadda 6 karvansara və bir böyük bazar olmuşdur. İndi isə burada cəmi 2 karvansara və bazarın böyük bir hissəsi (cəmi 80 dükan) yararlı vəziyyətdədir. Məlumatdan aydın olur ki, bu karvansaraların yuxarı hissəsində bazara çıxarılacaq ticarət mallarını saxlamaq üçün anbar yerləşirdi (1, s. 194). Dağıdılmış dörd karvansaranın birində isə dulusçuluq emalatxanası fəaliyyət göstərirdi (4, s. 482).

Ordubad və Naxcıvan qadınlarının ev şəraitində toxuduqları ipək parçalara və saplara, ipliklərə xarici bazarda böyük ehtiyac duyulurdu. XIX əsrdə məhdud şəkildə olsa da, Naxçıvan bölgəsindən ixrac edilən mallar içərisində ipliklər, ağ və qırmızı bez, şərab, duz var idi. Xarici bazarda ən çox satılan Naxçıvanın qırmızı bezi olmuşdur. Bu bez parça çox zaman daha artıq ehtiyac duyulan Qarabağ və İrəvan xanlıqlarına satmağa aparılırdı (1, s. 95).

Bölgədə toxunmuş pambıq parçaları yerli tacirlər Türkiyə şəhərlərinə-Qarsa, Bəyazidə və Gürcüstana aparırdılar. Mənbədəki məlumata görə, bir ildə Türkiyənin Qars və Bəyazid şəhərlərinə Naxçıvan diyarından 15 min puda qədər pambıq aparılırdı (1, s. 96).

Ordubad şəhərində pambıq parçalarla yanaşı, xarici bazarda ən çox ehtiyac duyulan ipək parçalar da ixrac edilirdi (1, s. 202).

Yerli, xarici və tranzit ticarətlə əlaqəli olan dükanlar bazar meydanlarında yerləşirdi. Bu dövrdə Naxçıvan bazarında irili-xırdalı 138 dükan var idi (1,s.96). Naxçıvan şəhər bazarı üstü qamışla örtülmüş kiçik daş dükanlardan ibarət olmuşdur. Mənbədə (3, s. 332) rus işğalına qədər şəhər bazarının çox kiçik, ucuz və sadə olması göstərilir.

Bəhs olunan dövrdə bölgəyə gətirilən ticarət malları içərisində Avropa və İran malları xüsusi yer tuturdu. Naxçıvan ərazisinə gətirilən Avropa malları içərisində çit, mahud, çay, qənd, müxtəlif kağız məmulatları, rom və b., İrandan gətirilən mallar içərisində dərman preparatları, indiqo, ipək məmulatı və s. üstünlük təşkil edirdi (1, s. 95). Tez-tez baş verən quraqlıq illərində bölgədə məhsul qıtlığı yaranırdı. Məlumata görə bu quraqlıq illərində Naxçıvan İrəvan əyalətinin Şərur mahalından gətirilmiş məhsul və ərzaqla təchiz edilirdi.

Bu dövrdə Naxçıvan bölgəsində ticarətin əsas hissəsini ipliklər təşkil edirdi. Yerli tələbatı ödəməklə yanaşı, ipliklər müxtəlif yerlərə, o cümlədən Bəyazidə, Qarsa, Tiflisə, Qarabağa ixrac olunurdu. Mənbədə (1, s. 96) ixrac edilən ipliyin 15 min puda bərabər olması haqqında məlumat verilir. Bir batman iplik 4 gümüş manata satılırdı.

Ticarətlə əlaqəli olaraq bu sahədə istifadə edilən çəki, ölcü və uzunluq vahidləri haqqında bir neçə söz deməyi məqsədəuyğun hesab edirik. XIX əsr rus mənbələrində bu dövrdə Naxçıvanda istifadə edilən çəki vahidlərindən nuxud, misqal, stil, bisti, çərək, batman, xarvar və b. adları çəkilir. Batmanın özünün də bir neçə hissəyə bölündüyünü qeyd edən V.Qriqoryev yazırdı ki, batman yarımbatmandan (16 funt), çərəkdən (8 funt), hoqqadan (4 funt), bistidən (2 funt), tyaqadan (1 funt) və b. hissələrdən ibarət idi (1, s. 100-101). Ərzaq mallarının və digər məhsulların çəkisini müəyyənləşdirmək üçün daşlardan və kirlərdən də çəki aləti kimi istifadə edilirdi.

XIX əsrdə Naxçıvanda istifadə edilən ölçü vahidlərindən biri də arşın olmuşdur. Arşının 16 kirə, 8 siyaya və 4 çərəyə bərabər olduğu göstərilir (1, s.101). XIX əsrə aid olan digər bir mənbədə (2, s. 126) mşkan, ponza, siya, çərək və b. çəki vahidlərinin adları ilə rastlaşırıq. Yuxarıda adları çəkilənlərdən başqa, bəhs olunan dövrdə Naxçıvan ərazisində qrek, siya, qyaz, ağac adlı uzunluq vahidlərindən də istifadə edirdilər. Tədqiqatdan belə məlum olur ki, bazarlarda çəki, pul (İran və Azərbaycan pul vahidləri) və ölçü vahidlərinin müxtəlif olması bölgədə normal ticarət aparılmasına mane olurdu. Naxçıvan və Ordubad bazarlarında tez-tez baş verən mübahisə və münaqişələrin səbəbi də bununla izah olunmalıdır.

Tarixi mənbələr Ordubad dairəsində daha çox Əylis kəndinin sakinlərinin ticarətlə məşğul olduğunu xəbər verirlər. Bu barədə mənbədə belə yazılır: «Əylis kəndinin 30 nəfər sakini Rusiyanın mərkəzi şəhərləri olan Moskvada, Astarxanda və b. yerlərdə ticarətlə məşğul olur, aldıqları rus mallarını Təbriz, Rəşt və digər şəhərlərə apararaq orada satırdılar. Bu ticarətdən əldə etdikləri qazanca İrandan ipək, boyaq maddələri, dərman preparatları alıb, onları Rusiyaya gətirirdilər» (1, s 201). Tədqiqatdan və tarixi materiallardan aydın olur ki, Naxçıvanda olduğu kimi Ordubadda da yerli ticarət o dövrün tacirləri və iri alverçilərinin əlində cəmlənmişdi. Onlar əsasən Ordubad bölgəsinin kəndlərində məskunlaşmışdılar. Bir neçə fakta müraciət edək. 1859-cu ilin kameral təsvirinə istinad edən rus müəllifi K.N.Smirnov yazırdı ki, Aşağı Əylis kəndində yaşayan 5 nəfərin 100.000 manat, 10 nəfərin 30.000 manatadək kapitalı var idi (5, s. 64). Göründüyü kimi o dövr ücün böyük həcmli hesab edilən bu cür iri kapitala malik olan şəxslərin əksəriyyəti Aşağı Əylis kəndinin sakinləri olmuşdur.

Mənbələrin müqayisəli təhlili mövzu haqqında yeni və maraqlı faktları aşkara çıxarır. İ.Şopenin əsəri bu cəhətdən diqqəti cəlb edir. Naxçıvan şəhərində üstünlük təşkil edən tranzit ticarəti Tiflis və Təbrizlə məhdudlaşır, daxili ticarətdə şəhərin ticarət dövriyyəsi 160.000 gümüş manat, Ordubad şəhərinin ticarət dövriyyəsi isə 70.000 gümüş manat təşkil edirdi (4, s. 480, 483). İ. Şopenin fikrincə, İran hakimiyyəti zamanında Naxçıvan bazarında kapital dövriyyəsinin həcmi 80.000 tümənə bərabər idi. Onun Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövrünə aid məlumatlarından aydın olur ki, şəhərdə ticarət və sənətkarlıqla məşğul

olanların sayı 715 nəfərə çatırdı və bunların 400 nəfərdən çoxunu ancaq sənətkarlar təşkil edirdilər (4, s. 344). Göründüyü kimi, rus mənbələrində verilən fikir və məlumatlar müxtəlifdir.

Bəhs edilən dövrdə Ordubad bölgəsinin digər kəndlərində də ticarətlə məşğul olan tacirlər və iri alverçilər fəaliyyət göstərirdilər. Əsərindən istifadə etdiyimiz K.Smirnov XIX əsrin ortalarında Varakort (indi bu kənd dağıldığından onun adı passiv fonda keçmişdir-Y. R.) kəndində 50.000 manata sahib olan dörd nəfərin, 1.000 manatdan 10.000 manatadək kapitalın yiyəsi olan 25 nəfərin olduğunu təsdiq edir (5, s. 64).

Bölgənin iqtisadi həyatının əsasını təşkil edən yerli ticarətdə gömrük-karantin məntəqələri və duz ticarəti xüsusi yer tuturdu. Qeyd etməyi lazım bilirik ki, XIX əsrdə Naxçıvan ərazisində aparılan duz ticarəti və ticarət gömrük məntəqələri barədə AMEA Naxçıvan Bölməsinin jurnalında (bax: «Xəbərlər», 2006-cı il, № 4, s. 70-76 və 2007-ci il, № 3, s. 75-80) yazılar nəşr etdirmişik.

XIX əsrin 30-cu illərində Naxçıvanda olmuş rus səyyahı Feodor Korf Culfa keçid məntəqəsini rus torpağının sonuncu nöqtəsi adlandırır (7, s. 78). Həmin səyyah öz əsərində Naxçıvan bölgəsində ticarətin vəziyyəti, karvan yolları (7, s. 115) və Ordudad ərazisindən də ətraflı bəhs etmişdir (7, s. 291).

## ƏDƏBİYYAT

1. Григорев В. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, 263 с.
2. Никитин К.А. Город Нахичевань и Нахичеванский уездь. Сборник материалов для местностей и племен Кавказа. Тифлис,1882, 142 с.
3. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Ч. IV, СПб., 1836, 339 с.
4. Шопен И.Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, 1231 с.
5. Смирнов К. Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку-«Озан»-1999, 156 с.
6. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. АССР (отчет о поездке летом 1926 г). Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 87-121.
7. Корф Ф.Воспоминание о Персии 1834-1835 гг. СПб., 1838, 291 с.

**Яшар Рагимов**

## ТОРГОВЛЯ НАХЧЫВАНА XIX ВЕКА
## (На основе русских источников)

На основе исследований по русским источником было известно, что в XIX веке в крае торговым оборот был очень слабым. Войны начала XIX века и внутренняя междуусобица нанесла серьёзный ущерб проведённой здесь местной, внешной и транзитной торговли, вообще, развитию торговых отношений. Пришли к такому заключению, что в названный период на рынках Нахчывана и Ордубада разность единиц веса, денег и меры мешали проведению нормальной торговли в крае.

**Yashar Rahimov**

## THE TRADE OF NAKHCHIVAN IN THE 19 CENTURY
## (On the basis of Russian sources)

It has been defined from the investigation of the trade life of Nakhchivan on the basis of Russian sources in the $19^{th}$ centure that, trade turnover has been very weak in the region. Wars at the beginning of the $19^{th}$ century happening and inside strifes has struck a sepious blow to local, transit and foreign trade, generally, development of the commercial relations in the region. We come to a such conclusion that, in the trateding time different being weight, money and measure unique in the markets of Nakhchivan and Ordubad has prevented to taring away of normal trade in the region.

***Rəyçilər: Akademik İ.Hacıyev, tarix e.n. M.Məmmədov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**İLHAMİ ƏLİYEV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANDA İCTİMAİ VƏZİYYƏT
## (Səfəvilər dövrü)

1501-ci ildə tarix səhnəsinə çıxmış Səfəvilər dövləti Azərbaycan xalqının ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Tarixi torpaqlarının vahid türk-islam dövlətinin bayrağı altında birləşdirilməsi milli mədəniyyətin inkişafına və ölkə iqtisadiyyatının yüksəlişinə təkan vermişdir. Təbii ki, Səfəvilərin hakimiyyəti illərində ölkədə tərəqqi dövrü ilə yanaşı tənəzzül illəri də yaşanmışdır. Bu dövlət tərəqqi illərində Azərbaycan bölgələrinin inkişaf etməsinə geniş imkanlar yaratmışdır. Bu dövrdə ölkənin əhəmiyyətli bölgələrindən biri də qədim Naxçıvan diyarı olmuşdur.

Səfəvilər dövründə Azərbaycan ərazisi inzibati cəhətdən 4 iri vilayətdən, yəni bəylərbəyilikdən ibarət olmuşdur: Təbriz, Çuxursəd, Qarabağ və Şirvan bəylərbəyilikləri. Şah tərəfindən təyin edilən bəylərbəyilər hər biri öz vilayətinin qanuni hakimi sayılırdı. Onların inzibati hakimiyyətdən başqa həm də orduya, yaxud feodal dəstəsi "çerik"ə rəhbərlik etmək hüququ var idi (7, s. 11). Bu dövrdə Naxçıvan mahalı əvvəlcə Təbriz, sonra Çuxursəd bəylərbəyliyinin tərkibində fəaliyyət göstərmişdir. Tabe olduğu bəylərbəyiliyin tərkibində Naxçıvan "mahal" və yaxud da "ölkə" adlandırılırdı. Görkəmli şərqşünas-alim İ. P. Petruşevskiy öz əsərində göstərmişdir ki, "ölkə" inzibati-ərazi termini Azərbaycanda hələ Teymurilər dövründən mövcud olmuşdur (17, s. 102). Ölkə və ya o zaman deyildiyi kimi mahalların idarə edilməsində çox vaxt hakimlər yerli tayfaların nümayəndələrindən seçilirdi. Əksər hallarda hərbi şücaətinə görə fərqlənən şəxslərə üstünlük verilirdi. Bu hakimlər isə sultan və yaxud da xan titulu daşıyırdı. Səfəvilər dövründə Naxçıvan ölkəsi irsi olaraq Ustaclı-Kəngərli tayfalarının nümayəndələri tərəfindən idarə olunmuşdur (7, s. 113). 1603-cü ildə Osmanlı işğalından azad edildikdən sonra I şah Abbas tərəfindən Maqsud Sultan Kəngərli Naxçıvan hakimi təyin edilmişdi (12, s. 68-69). Buradan görünür ki, Kəngərli tayfa nümayəndələri şahın istəyi ilə seçilirdi. I şah Abbasın xələfləri dövründə Nadir bəy Rzaəddin xan (1647), Əliqulu xan (1668), Murad xan (1668-1669), Şərəf xan (1669-1678), Məhəmməd Rza xan (1678-1691) Kəngərlilər Naxçıvana hakimlik etmişdirlər (11, s.93). Yuxarıda qeyd etdik ki, ölkə hakimləri xan və yaxud sultan adlandırılırdı. Səfəvilər dövrünün əvvəllə-

rində mahal hakimləri üçün bu adların heç bir fərqi olmamışdır. Lakin XVI əsrin ikinci yarısından sonra xan sultan titulundan üstün hesab olunmağa başladı (7, s. 114). Həmçinin, bu vəzifələr Səfəvilər dövründə irsi deyildi.

Bir sıra tədqiqatçıların əsərlərindən və tarixi mənbələrdən aydın olur ki, Naxçıvan mahalı əhalisi, əsasən, azərbaycanlılardan ibarət olmuşdur (9, s. 51; 13, s. 49). Bundan əlavə müxtəlif ölkələrdən (Orta Asiya, İran, Əfqanıstan və s.) gələnlər isə əhalinin çoz az bir qismini təşkil etmişdir. Onlar müxtəlif peşə sahibləri-səyyahlar, tacirlər, sənətkarlar, alimlər və s. ibarət olmuşdur. Məhz buna görə E.Çələbi göstərir ki, Naxşıvanda müxtəlif dillərdə danışan adamlara rast gəlmək olur (2, s. 232).

Səfəvilər dövründə Naxçıvan əhalisinin etnik tərkibi haqqında dəqiq məlumat verən mənbələrdən biri İrəvan əyalətinin "icmal dəftəri" (1590-cı il) və Naxçıvan sancağının "müfəssəl dəftəri" (1727-ci il) sənədləridir (10, s. 37-360; 6, s. 276-393). Vergilərin toplanması məqsədilə Osmanlı idarəçiliyi zamanı tərtib edilmiş bu sənədlərdə ərazidə yaşayan əhali milli tərkibinə görə yox, dini mənsubiyyətinə görə bölünmüşdür. Hər iki mənbədən aydın şəkildə görünür ki, müsəlmanlar qeyri-müsəlmanlardan xeyli dərəcədə çox olmuşdur. Bu da, yuxarıda göstərildiyi kimi, "əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi" fikrinə əsaslansaq, dəftərdəki müsəlman əhalinin əksər hissəsinin Azərbaycan türkü olduğunu göstərir. Həmçinin, həmin sənədlərdə kənd, şəhər və s. yaşayış yerlərinin sakinləri adbaad siyahıya alınmışdır. Həmin sənədlərdən aydın olur ki, XVI əsrin sonunda qeyri-müsəlmanların sayı XVIII əsrin əvvəllərindəki ilə müqayisədə xeyli az idi. Bu artımın bir səbəbi də XVI-XVIII əsrlərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri olmuşdur.

Səfəvilər dövründə Naxçıvan mahalında yaşayan əhalinin ictimai tərkibi də müxtəlif idi. Belə ki, feodalizm quruluşunun hökm sürdüyü bu dövrdə yerli əhali əsasən bir neçə kateqoriyaya bölünmüşdür: 1. Feodallar, 2. Ruhanilər, 3. Tacirlər, 4. Sənətkarlar, 5. Kəndlilər, 6. Şəhər yoxsulları (7, s. 114).

Bu zaman feodalların əsas mülkiyyəti onların ixtiyarında olan geniş torpaq sahələri idi. Həmin torpaqlarda taxıl bitkiləri, bostan-tərəvəz məhsulları, müxtəlif pambıq növləri və s. yeişdirilirdi. Həmçinin yerli feodalların böyük meyvə bağları və üzümlükləri o dövr tarixçilərinin, səyyahlarının diqqətini çox cəlb etmişdir (8, s. 20). Feodalların torpaq sahibliyindən başqa, həm də əhali arasında güclü iqtisadi və siyasi nüfuzları var idi.

Yuxarıda qeyd etdiyimiz kimi, Səfəvilər dövründə Naxçıvan mahalının idarə olunmasında şah tərəfindən seçilmiş hakimlər yerli tayfa nümayəndələrindən, əsasən də, Kəngərli tayfasından olurdu. Mənbələrin verdiyi məlumatlarda göstərilir ki, feodallar arasında da bu tayfanın nümayəndələri üstünlük təşkil etmişdi. Lakin R.Məmmədov göstərir ki, XVII əsrin ortalarında daha böyük torpaq sahələri Kəngərli feodallarının deyil, digər nəslə mənsub feodalların əlində idi (7, s. 115). Ş.Fərzəlibəyli bu fikrə belə aydınlıq gətirmişdir: "24 saylı sənəddən məlum olur ki, o vaxtlar (sənəd

1648-ci ilə aiddir) Naxçıvanda məhşur Kəngərli mülkədarlarından başqa digər nəslin nümayəndələrindən olan mülkədarlar da olmuşdur, məsələn, Beyləqani, Zikri, Məfruzi və b.“ (5, s. 92). Deməli, buradan aydın olur ki, həmin dövrdə Naxçıvan mahalında feodallar Kəngərli tayfaları və digər yerli tayfaların nümayəndələrindən olmuşdur.

Səfəvilər dövründə feodal torpaq mülkiyyəti formasına əsasən "mülk" və "tiyul" torpaq sahibliyi daxil idi. Bu zaman feodalların əllərində olan torpaqların çox hissəsi mülk kateqoriyasına aid idi. Mülk irsi torpaq mülkiyyəti olub nəsildən-nəsilə keçir, sərbəst surətdə satılır, dəyişdirilir və vəqfə verilirdi (17, s. 237). Bütöv kəndlər, dəyirmanlar, suvarma mənbələri, evlər, dükanlar və s. mülk ola bilərdi. Yəni, torpaq sahələri həm də üzərlərindəki əmlakla bir yerdə mülkə aid edilirdi (7, s. 115).

Xüsusi mülkiyyət forması olan mülk XVII əsrdə yeni inkişaf mərhələsinə daxil olmuşdur. Belə ki, bu torpaqlar əvvəlki kimi azad alış və satış obyekti idi. Həmçinin, onların sahibləri mülkünü dini idarələrə vəsiyyət edə, yaxud öz xələflərinə verə bilərdi. İkinci halda vəsiyyət etmiş şəxsin xələfləri vəqf olunmuş torpaqları (əvvəlkindən fərqli olaraq) satmaq və ya bağışlamaq hüququna malik deyildi. Onlar yalnız torpaqlardan əldə olunmuş gəlirdən faydalana bilərdilər (1, s. 274). Deməli, mülk bu dövrdə də feodallara məxsus xüsusi mülkiyyət olmuşdur.

Tiyul torpaq mülkiyyəti orta əsrlərdə Azərbaycanda, xüsusilə də Naxçıvanda geniş yayılmışdır. Bu kateqoriyadan olan torpaqlar istər mülki, istərsə də hərbi xidmətdə seçilən dövlət qulluqçularına göstərdikləri əla xidmət müqabilində verilirdi. Lakin onlar irsi deyildi, satıla bilməzdi. Şahın xüsusi fərmanı ilə tiyuldar (tiyul sahibi) onu sata bilərdi. Mənbələrdən bu da aydın olur ki, Səfəvilər dövründə Naxçıvan ölkəsində tiyul feodal institutu geniş yayılmışdır (7, s. 115). Səbəbi Səfəvi hökmdarlarının mərkəzləşdirmə siyasətinə uyğun olaraq dövlətin sosial-iqtisadi dayaqlarını möhkəmləndirmək üçün tiyul torpaq institundan geniş istifadə etməsi idi (15, s. 74). Bu bir qayda olaraq dövlət qulluqçularının mərkəzi hakimiyyət orqanlarından asılılığını təmin edirdi. Tiyuldar kəndlilərdən bəhrə olaraq məhsulun onda üç hissəsini alırdı (5, s. 90).

Bu dövrdə əhalinin müəyyən qisminin daxil olduğu əsas kateqoriyalardan birini təşkil edən ruhanilər sinfi tutduqlari vəzifələrə və daşıdıqları titullara görə bir neçə yerə bölünürdülər. Bunlar şeyxül-islam, seyid, axund, üləma, qazi, molla, cümə məscidlərinin imamları, vaiz, müdərris, xanəgah və zaviyə(yəni ziyarətgah) şeyxləri, dərvişlər və b. idi (7, s. 115). Kəndlərdə məscid axundları və mollalar fəaliyyət göstərirdilər. Məscidlərdə ibadətdən başqa bir sıra şəriət məsələlərin həlli işlərinə baxılırdı. Bununla bağlı H.F.Səfərli göstərir ki, orta əsrlər zamanı Müsəlman Şərqində əhalinin toplaşdığı əsas sosial-siyasi ideoloji mərkəzlərdən biri də məscidlər idi (14, s. 247). Cinayət və mülki məsələlərin həll edilməsi işinə üç növ məhkəmələrdə baxılırdı: məhkəmeyi-ali, məhkəmeyi-şəriyyə və əsnaf məhkəmələri. Məhkəmeyi-şəriyyə daha çox fəaliyyət göstərirdi (3, s. 60). Çünki İslam dini

qanunlarının hökm sürdüyü ölkədə şəriət məhkəməsi daha üstün tutulurdu. Səfəvilər dövründə, əsasən, şiəliyin Cəfəri məzhəbinə üstünlük verilirdi. Bu zaman Naxçıvan ərazisində şiə təriqəti və onun Cəfəri, Heydəri məzhəbləri geniş yayılmışdı. Ruhanilərə "vəqf" torpaq mülkiyyəti verilirdi, yəni həmin torpaq aid olduğu dini müəssisənin ixtiyarında olurdu. Bundan əlavə Şah Təhmasib və onun varisləri dövründə ruhanilərə "soyurqal" torpaq mülkiyyəti də paylanırdı (15, s. 69). Vəqf torpaqları irsi deyildi.

Səfəvilər dövründə Naxçıvanda əhalinin müəyyən bir qismini də tacirlər zümrəsi təşkil edirdi. Tacirlər ölkədə hakim mövqe tutan feodallardan fərqli olaraq, aşağı təbəqənin istismarında vasitəli şəkildə iştirak etməklə ticarət kapitalının artmasına xidmət edirdi. Həmçinin onlar feodallar sinfi və feodal istehsal üsulu ilə sıx bağlı idilər. Belə ki, satdıqları yerli məhsulların əsas istehsalçıları feodallar idi və istifadə etdikləri satış mərkəzləri də onlara tabe ərazilərdə yerləşirdi. Bu dövrdə Naxçıvan tacirləri Yaxın və Orta Şərqin, həmçinin Avropanın bir sıra ölkələri ilə ticarət əlaqələri saxlayırdılar (7, s. 117). Bu fikri Əylisli Zəkəriyyə 1647 və 1664-cü illərdə getmiş olduğu ticarət səfərləri haqqında yazdığı "Gündəlik"də təsdiq edir. Əsərdə göstərilir ki, o, ticarət məsələləri ilə əlaqədar Osmanlı dövləti, Venesiya, Amsterdam, Frankfurt, Hollandiya, Portuqaliya, İspaniya, İtaliya, Yunanıstan kimi bir çox Avropa ölkələrində olmuşdur (16, s. 7). Tacirlər Rusiya ilə də ticarət əlaqələri qurmuşdular. Belə ki, rus hökumətinin özü Səfəvilərlə ticarətə daha çox üstünluk verirdi. 1667-ci ildə rus iş adamlarının Culfa tacirləri ilə bağladığı müqavilə onların buradan xam ipəyi alıb Moskvaya aparmasına rahat imkan yaradırdı (18, s. 185). Ümumiyyətlə, tacirlər Rusiya ilə ticarət əlaqələrini daha çox Həştərxan Moskva istiqamətində, digər Avropa ölkələrilə isə Osmanlı dövlətinin ərazisindən keçməklə edirdilər. Bu işdə onlara İstanbul liman şəhəri və dəniz yolu kömək edirdi. Səfəvilər dövründə Naxçıvanda olmuş əcnəbi səyyahların verdikləri məlumatlardan aydın olur ki, burada ticarət üçün geniş və zəngin satış bazarları olmuşdur. Həmin bazarlarda yerli və xarici tacirlər alış-veriş edirdilər.

Bu dövrdə Naxçıvanda tacirlər zümrəsi ilə yanaşı, orta təbəqədən olan əhalinin müəyyən hissəsini sənətkarlar təşkil edirdi. Sənətkarlar daha çox şəhərlərdə-insanların sıx yaşadığı yerlərdə fəaliyyət göstərirdilər. Şəhərlərin əsas istehsaledici qüvvəsi də məhz onlara məxsus idi. Ustalar müxtəlif peşələr üzrə bir neçə qrupa bölünürdülər. Məsələn, toxucular, dərzilər, memarlar, məişət əşyaları hazırlayanlar, silah düzəldənlər və b. Sənətkarlar da orta və aşağı təbəqənin nümayəndələri kimi vergilər verirdilər. Bu baxımdan onlar, əsasən, üç qrupa bölünürdü: 1) fərdi fəaliyyət göstərənlər; 2) xüsusi təşkilatlarda (əsnaflarda) birləşənlər; 3) iri feodal emalatxanalarına (karxanalara) mənsub olanlar (1, s. 282). Birinci və ikinci qrupda olan sənət sahibləri feodallardan hüquqi və şəxsi baxımdan asılı deyildilər. Sənətkarların hüquq və vəzifələri dövlət tərəfindən şəriət qanunları əsasında müəyyən edilirdi. Həmin qanunlar sənətkar təşkilatlarının hüquqlarını tənzimləyən risalələr şəklində hazırlanırdı. Şərqdə sexlərin yazılı nizamnamələrini

əvəz edən "risalə" əslində islam əxlaqı normaları çərçivəsində aşağı rütbəlilərin yuxarı rütbəlilərə tabe olması qaydası əsasında nəqib, ustabaşı, usta, şagird arasındakı işgüzar münasibətləri tənzimləyirdi (15, s. 119). Sənətkarlıq sahəsində qəbul edilmiş qanunlar bir növ istehsal münasibətlərini rəsmi şəkildə nizama salırdı.

Həmin dövrdə əhalinin əksər hissəsini təşkil edən aşağı təbəqələr haqqında mənbələrdə çox az bəhs edilir. Bunun səbəbi isə heç şübhəsiz ki, o dövrün tarixi hadisələrini qələmə alan tarixçilərin şah sarayına mənsub olması və hakimiyyəti vəsf etməsidir. Bu sahədə dövlət banisinin tədbirləri haqqında yalnız ümumi formada qızılbaş hökmdarlarının "fəzilətlərini" təriflərkən, onun "adiliyindən", "rəiyyət haqqında qayğısından" bəhs edərkən danışılır (4, s. 198). Yəni, aşağı təbəqələr haqqında məlumat onların hakim dairələrlə münasibətlərinə görə verilmişdir.

Bu dövrdə aşağı təbəqəyə aid olan kəndlilər rəiyyət, rəncbər və elatlara bölünürdü. Onlar əsasən əkinçilik və heyvandarlıqla məşğul olurdular. Rəiyyətlər icma torpaqlarından götürdükləri payı əkib-becərir, əldə etdikləri məhsulun onda birindən beşdə birinə qədərini vergi verirdilər. Torpağı və əmək alətləri olmayan rəncbərlər isə feodal təsərrüfatlarında çalışaraq qazanclarının üçdə birini vergi şəklində sahibkara ödəyirdilər. Heyvandarlıqla məşğul olan yarımköçəri elatlar isə yaylaq-qışlaq mövsümü ilə əlaqədar olaraq öz yerlərini dəyişməli olurdular. Kəndlilər əldə etdikləri məhsula görə bir çox vergilər verirdilər.

Sadalananlardan aydın olur ki, Səfəvilər dövründə Naxçıvan əhalisi, əsasən, müsəlman türklərindən ibarət olmuş və bir neçə təbəqəyə bölünmüşdür.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi (XIII-XVIII əsrlər). 7 cilddə, III c. Bakı: Elm, 1999, 584 s.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti, 1989, s. 230-238.
3. Əliyev F.M. XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri. Bakı: Azərnəşr, 1960, 136 s.
4. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
5. Fərzəlibəyli Ş.F. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər / Naxçıvan Muxtar Respublikası (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 79-94
6. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 1996, 184 s.
7. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.

8. Məmmədov R.A. Yaxın şərq və qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında // Azərbaycan SSR EA xəbərləri, 1962, № 4, s. 11-22
9. Mustafazadə T.T. Naxçıvan vilayəti XVIII yüzillikdə / Naxçıvan Muxtar Respublikası (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 38-62
10. Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z. Bünyadov və t.e.n. H. Məmmədov. Bakı: Elm, 2001, 376 s.
11. Nəcəfli T.H. Naxçıvan XVI-XVII əsrlərdə. Naxçıvan bu gün: İslahatlar perspektivlər / Naxçıvan, 2008, s. 86-95
12. Nəcəfov T.T. Səfəvi-Osmanlı müharibələri və Naxçıvan (XVI əsr XVII əsrin əvvəlləri) / Naxçıvan Muxtar Respublikası (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 62-72
13. Piriyev V.Z. Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı: Müəllim, 2004, 126 s.
14. Səfərli F.Y. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
15. Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2006, 400s.
16. Дневник Закария Акулисского. АРМФАН, Ереван, 1939, 139 с.
17. Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. Л.: Изд.-во ЛГУ, 1949, 384с.
18. Рахмани А.А. Азебайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 240 с.

**Ильхами Алиев**

## ОБЩЕСТВЕННОЕ ПОЛОЖЕНИЕ НАХЧЫВАНА ПРИ СЕФЕВИДОВ

В статье говорится об общественном положении Нахчывана, дается сведения о сочиальном и этническом состав насаления, а также анализируются результаты исследований, веденных в связи с занятиями людей. Приходится к заключению, что при Сефевидов этнический состав населения, живущего Нахчыване, с исключением пришлых, единых, этнических представителей, состоялся из азербайджанских турков.

**Ilhami Aliyev**

## THE PUBLIC SITUATION IN NAKHCHIVAN IN THE SAFAVIDS PERIOD

In the article it is dealt with the sosial situation of Nakhchivan in the Safavids period. Information of the social and ethnic composition of the popu-

lation is given and the investigated results, which are connected with employments of the people is analysed. It is clear from the investigation that in the Safavids time the ethnic composition of the population living in Nakhchivan, with the of exception the coming etnos representatives, consisted of the Azerbaijani Turks.

***Rəyçilər: Tarix e.d., prof. H.Səfərli, tarix e.n. M.Məmmədov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**SARA HACIYEVA**
AMEA Naxçıvan Bölməsi

# QƏBİRÜSTÜ XATİRƏ ABİDƏLƏRİ ÜZƏRİNDƏ SƏNƏTKARLIQLA BAĞLI TƏSVİRLƏRƏ DAİR

Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək qalan məzarüstü xatirə abidələri üzərində həkk edilən təsvirlər içərisində peşə və sənətkarlıqla bağlı rəsmlərə də rast gəlinir. Bu rəsmlər bizə orta əsrlər dövrünün peşə və sənət sahələri haqqında dəyərli məlumatlar verirlər. Bu qrup rəsmlər əsasən xalçaçılıq, dərzilik, aşıq sənəti və s. ilə əlaqədar olan təsvirlərdən ibarətdir. Ordubad rayonu ərazisində qalan qəbirüstü abidələr üzərində belə rəsmlərə daha çox təsadüf edilir. Ordubad şəhərindəki «Malik İbrahim» qəbiristanlığında qeydə alınmış bir başdaşı üzərində xalçaçılıq sənəti ilə bağlı olan alətlərin təsviri həkk olunmuşdur. Abidə üzərində iki ədəd həvə təsviri vardır. Birinci həvə təsvirində dişciklər dəqiq həkk edilmişdir. İkincidə dişciklər yoxdur. Bu təsvirlərə, etnoqrafik müşahidələrimizə və tədqiqatçıların fikirlərinə əsasən belə qənaətə gəlmək olur ki, başdaşı tipli bu abidə xalçaçılıq sənəti ilə məşğul olan və bu sahədə öz işinin ustası kimi tanınan bir şəxsin – xalçaçının xatirəsinə düzəldilmişdir. Xatirə abidəsi üzərində həkk edilmiş bu təsvirlərə əsasən demək olar ki, Azərbaycanda çox qədim tarixə malik olan xalçaçılıq orta əsrlər zamanı Naxçıvan bölgəsində də inkişaf etmişdir.

Azərbaycanda xalçaçılıq sənətinin kökü çox qədim dövrlərə gedib çıxır. Qaynaqların verdiyi məlumata görə, hələ e.ə. III-I əsrlərdə yun parçalar hazırlanırmış. Feodal münasibətlərinin yenicə inkişafı dövründə, yəni III-V əsrlərdə bədii sənət əşyalaranın istehsalı, o cümlədən də parça, xalçaçılıq belə xeyli inkişaf etmişdir (9, s. 6).

Sənətkarlıq istehsalının ən geniş yayılmış sahələrindən biri xalçaçılıq sənətidir. Bu sənət qədim tarixə malik olub, maldarlıqla məşğul olan köçəri, yarımköçəri və hətta oturaq əhalinin məişət fəaliyyəti ilə sıx bağlı olmuşdur (8, s. 91). Ordubadda, o cümlədən də Azərbaycanın bütün bölgələrində orta əsrlər dövründə xalçaçılıq sənəti yüksək səviyyədə inkişaf etmiş və böyük şöhrət qazanmışdı. I Şah Abbas dövrü Ordubada vergidə toxunulmazlıq hüququ verilmişdi. XVII əsrin başlanğıcında şəhər vacib ticarət, sənətkarlıq mərkəzi olmuş və şəhərdə toxuculuq inkişaf etmişdi. (11, s. 150)

L.Kərimov yazır ki, bütün təsviri sənətlərdə olduğu kimi, dekorativ tətbiqi sənət nümunələrində də xalqın həyatı, onun adət və ənənələri əks olunmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan xalçasılıq sənətində işlədilən bütün bəzək elementləri real mühitdən alınmış təsvirlərdən, heyvan, quş, bitki və məişət təsvirlərindən ibarətdir (6, s. 5). Xalçaçılıq sənəti də Azərbaycanın ən qədim dekorativ tətbiqi sənət növlərindən biri olmuşdur. Arxeoloji tədqiqatlar, ədəbi abidələr Azərbaycanda xalçaçılıq sənətinin çox qədim dövrlərdə yaranmasını sübut edir (3, s. 78). Tarixi inkişafın hər bir mərhələsində Azərbaycanın xalça ustaları zamanın ruhunu, kütlələrin əhval-ruhiyyəsini yüksək bədii səviyyədə ifadə etmiş, öz niyyətini, qayəsini parlaq, gözoxşayan estetik formalarda təcəssüm etdirmişlər (12).

Toplanmış etnoqrafik çöl materiallarından məlum olur ki, hələ ən qədim dövrlərdən başlayaraq qadınların mühüm məşğuliyyət sahələri toxuculuq və bədii tikmə sənəti olmuşdur. Toxuculuq və bədii tikmə sənətinin inkişafı əsasən qadın əməyinə əsaslanmışdır. Bu bir tərəfdən İslam dininin qayda-qanunları ilə, digər tərəfdən də fəsillərlə əlaqələndirilir. C.Mustafayev yazır ki, İslam dininin irəli sürdüyü qadağalara görə əməklərini evdən kənarda tətbiq etmək imkanı olmayan qadınlar vaxtlarının çoxunu ev işləri görməyə, eyni zamanda toxuculuğun müxtəlif sahələri ilə məşğul olmağa sərf edirdilər (8, s. 92).

Q.Qədirzadə isə qeyd edir ki, toxuculuq qadın peşəsi hesab edilməklə onların çöl-tarla işləri bitdikdən sonra, daha çox havanın soyuq vaxtlarında, ev şəraitində əsas məşğuliyyət sahələri idi (7, s. 97).

Diqqəti cəlb edən məsələlərdən biri də budur ki, orta əsrlər dövrünü xarakterizə edən məzar daşları üzərində həkk olunan təsvirlərlə, o dövr xalçaları üzərindəki rəsmlərin oxşar cəhətləri daha çoxdur. Lakin burada maraqlı və müxtəlif bir məna ifadə edən dünyagörüş də vardır. Bu isə insanların dünyagörüşündə özünə yer tapan fani və əbədi dünya ilə əlaqəlidir. Diqqət edildəndə aydın görmək olur ki, xalça nümunələri üzərində əks olunan rəsmlər daha çox real həyatla, məzarüstü abidələr üzərindəki təsvirlər isə, həm bu dünya, həm də mücərrəd düşüncə ilə dərk olunan axirət dünyası ilə bağlıdır.

Xalçaçılıq sənəti ilə bağlı olan rəsmlərə Zəngəzur rayonunun Urud qəbiristanlığındakı xatirə abidələri üzərində də rast gəlinir. Urud abidəsi üzərində xalça toxumaq üçün lazım olan bütün alətlər, o cümlədən hana təsviri də həkk olunmuşdur (10, s. 72).

R.Əfəndi yazır ki, orta əsr məzar daşları üzərində əks olunan insan, heyvan, quş, ağac təsvirlərini, xalçaçılıq nümunələri üzərində də görmək mümkündür. Bu qədim dövrlərdən mövcud olan bir adət idi. Lakin XVI-XVIII yüzilliklərdə belə səpkili təsvirlər ən yüksək səviyyədə inkişaf etmişdir (5, s. 19).

Azərbaycan xalça sənətində işlədilən bütün bəzək elementləri real mühitdən alınmış təsvirlərdən ibarət olmuşdur (6, s. 5). Xalçaçılıq sənətinin təkcə Azərbaycan türkləri yaşayan bölgələrdə deyil, bütün türk xalqları ya-

şayan ərazilərdə inkişaf etdiyi məlumdur. N.Diyarbəkirli Oktay Aslanapaya, xalçanı Türk sənətinin ən orijinal yaratmalarından biri hesab edərək onu dünya mədəniyyətinə türklərin bir hədiyyəsi kimi səciyyələndirir (4, s. 140).

Naxçıvan bölgəsində qeydə alınmış bəzi məzar daşları üzərində dərzilik sənəti ilə bağlı rəsmlərə də təsadüf edilir. Qayçı təsvirli məzar daşına Ordubad şəhərindəki «Malik İbrahim», Yuxarı Əylis kənd qəbiristanlıqlarında rast gəlinir. Həmçinin, Culfa rayonu Gal kənd qəbiristanlığında sənduqə formalı, boz daşdan hazırlanmış məzar daşı üzərində əlcək, qayçı və ulduz təsvirləri vardır. Əlcək rəsmi olan məzar daşına Şahbuz rayonunun Məzrə kənd qəbiristanlığında sənduqə formalı abidə üzərində də rast gəlinir.

Qayçı təsvirinin məzarüstü daşlar üzərində həkk olunması, xalq inamına görə onun bəd ruhları qovması ilə əlaqəli ola bilər. Lakin abidələr üzərində qayçı təsvirinin həkk edilməsi ən çox dərzilik və toxuculuq sənəti ilə əlaqəlidir.

Azərbaycanın müxtəlif bölgələrində insanlar dəfn edilərkən məzarlar üstünə müəyyən əşyaların qoyulması adəti mövcud olmuşdur. Qədim Azərbaycan torpağı olan Göyçə mahalında yaşayan Qaraqoyunlu tayfasının adətinə görə məzarlar üstünə qayçı, güzgü, bıçaq kimi əşyalar qoyularmış (2, s. 15). Ölünün üzərinə bıçaq və ya dəmir əşya qoymaq kimi adətlər əski Şamanizmdə də mövcud olmuşdur (13). Bu cür adətlərin Naxçıvan ərazisində də mövcud olduğu etnoqrafik materiallardan və müxtəlif ərazilərdə olan məzar daşları üzərindəki təsvirlərdən aydın görünür.

Tədqiqatlar zamanı məzarüstü qəbir abidələri üzərində digər sənət sahəsi olan saz rəsminə də rast gəlinir. Saz və qılınc rəsmli abidələr Azərbaycan ərazisində geniş yayılmış və çox uzaq keçmişlərə aid olan aşıq sənətindən (xalq müğənnilərindən) xəbər verir.

Məlumdur ki, aşıq sənəti sazla-sözün vəhdətindən yaranmış, müdrik xalq düşüncəsinə, el adətinə əsaslanan peşə sahəsidir. Bu sənətin inkişafı ilə hələ XVI-XVII əsrlərdən Azərbaycanda görkəmli aşıqlar (xalq müğənniləri) meydana gəlmişdir. Məlumdur ki, XVI əsrin böyük qəhrəmanlıq dastanı olan «Koroğlu» dastanında sazla-sözün, qılıncın kəsəri eyniləşdirilmiş və təbliğ edilmişdir. Dastanda Koroğlu həm qəhrəman kimi ecazkar qılınca sahib olmuş, həm də saz-söz sənətkarı kimi aşıqlıq istedadına malik olmuşdur. Bu baxımdan yanaşıldıqda ehtimal etmək olar ki, məzardaşları üzərində sazın və qılıncın birgə rəsm edilməsi dəfn olunan şəxsin qəhrəmanlığından, döyüşkən həyatından və saz-söz (aşıqlıq) istedadı olduğundan qaynaqlanaraq həkk etdirilmişdir.

Culfa rayonunun Kırna kənd qəbiristanlığında rast gəlinən bir məzarüstü abidə üzərində isə sənət aləti olan balta (dəhrə) təsviri vardır. Arxeoloji materiallar təsdiq edir ki, qədim zamanlarda, o cümlədən tunc dövründə baltalardan qəbilə üzvlərinin maddi təlabatlarını ödəmək üçün təsərrüfatın və sənətkarlığın müxtəlif sahələrində, məişətdə geniş istifadə

olunmuşdur. Tədqiqatçılar balta tapılan qəbir abidələrinin əksəriyyətini varlı şəxslərə, yaxud tayfa başçılarına aid edirlər. Tayfa üzvləri arasında tanınmış şəxslərə və ya varlı qəbilə üzvlərinə, sərkərdələrə məxsus olmuş və ölərkən «hakimiyyət rəmzi» kimi onlarla birlikdə qəbirə basdırılmışdı (1, s. 57). Burada adət-ənənələrimiz, inamlarımız, həyat tərzimiz və s. kimi milli dəyərlərimiz özünü göstərməkdədir.

Naxçıvan ərazisində olan məzar daşları və yaxud bu abidələr üzərindəki müxtəlif tipli təsvirlərin tarixi ən qədim dövrlərə gedib çıxmaqla insanların təsərrüfat həyatı, dini-mifoloji inam tərzi, məişəti ilə əlaqəli olmuş, həmçinin, bir sıra qonşu, xüsusən türk xalqlarının mədəniyyəti ilə ümumi cəhətlərə malik olmuşdur. Bu təsvirlər xalqımızın qədim inanclarının, həyat tərzinin, ətraflı öyrənilməsinə imkan verən tarixi qaynaqlardandırlar.

## ƏDƏBİYYAT


1. Aslanov Q. Azərbaycanın tunc təbərzin baltaları (son tunc-ilk dəmir dövrü). Bakı: Elm, 1982, 65 s.
2. Azərbaycan folklor antologiyası (Qaraqoyunlu folkloru). 12 cilddə, 7-ci kitab, Bakı: Səda, 2002, 464 s.
3. Azərbaycan Xalçası. Bakı: Yazıçı, 1985, 230 s.
4. Diyarbəkirli N. Hun Sanatı. İstanbul: Milli Egitim Basım evi, 1972, 243 s.
5. Əfəndiyev R. Azərbaycan İncəsənəti. Bakı: Çaşıoğlu, 2001, 312 s.
6. Kərimov L. Azərbaycan xalçalarının naxış elementlənindən nümunələr Bakı: Elm 1983, 130 s.
7. Qədirzadə H.Q. Cəhriçay vadisi M.Ö.IV minillikdən günümüzədək (tarix-etnoqrafik araşdırma). Naxçıvan: Qızıl-dağ, 2007, 160 s.
8. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.
9. Tərlanov M. Əfəndiyev R. Azərbaycan Xalq yaradıcılığı nümunələri. Bakı: Qızıl Şərq mətbəəsi, 1959, 51 s.
10. Неймат М. С. Корпус эпиграфических памятников Азербайджана. Т. III. Bakı: Yeni nəşrlər evi, 2001, 216 s.
11. Сафаров Ф.Y. Арабо-персойзычные надписи нахичеванской АССР (XIX вв) как историко-култырные памйатники. Диссертачий на сосискание ученой степени канд. ист. наук. НАИИ НА Азербайдъана. Инв, № 8383 с, Баку, 1987, с. 179.
12. http:www.azmaison.fr./az/ index-az.Shtml? landuase=1: Section=4: section2=2:seq=2c=1
13. http:// www.mezartaşları.com/ sayfala.asp? nereye=yazıoku &iD=80

**Сара Гаджыева**

## К ИЗОБРАЖЕНИЯМ НА НАДГРОБНЫХ ПАМЯТНИКАХ, СВЯЗАННЫМ С ПРОФЕССИЯМИ

В статье изучаются изображения на надгробных памятниках, связанные с профессиями. Рисунки на надгробных памятниках, связанные с ремеслами кавромкачества и портняжничества, ашугским искусством, анализируются в отдельности. В результате исследования установлено, что рассматриваемые надгробные рисунки связаны с принадлежностью похороненных людей к определенной профессии.

**Sara Hajieva**

## CONCERNING TO DESCRIPTIONS CONNECTED WITH HANDICRAFT ON THE MONUMENTS OF GRAVE

This article was dedicated to descriptions connected with handicraft on the monuments of memory grave. In these descriptions was analyzed separately each of the drawings connected with carpet-making, tailoring ashug art. It has been specified that, these drawings reflect profession and employment of the buryed man.

***Rəyçilər: Tarix e.d., prof. H.Səfərli, tarix e.n. M.Məmmədov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitu-tunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**RZA TALIBOV**
Bakı Dövlət Universiteti

# SƏHİYYƏ VƏ İDMAN SAHƏLƏRİNDƏ YAPONİYA-AZƏRBAYCAN ƏLAQƏLƏRİ

Azərbaycanda səhiyyə sahəsinin inkişaf etdirilməsində və müasirləşdirilməsində də Yaponiya ilə əlaqələrin mühüm rolu müşahidə olunur. Səhiyyə sahəsində Yaponiyanın Azərbaycandakı səfirliyinin vasitəsi və dəstəyi ilə həyata keçirilən tədbirlər aşağıdakı istiqamətləri əhatə etmişdir:

1.Səhiyyə müəssisələrinin yenidən qurulması və təmirinə yardım göstərilməsi

2.Səhiyyə sahəsində yeni texnologiyanın tətbiqi

3.Səhiyyə maarifçiliyinin təşkili

Aparılmış təhlillər göstərir ki, Yaponiya hökuməti ölkəmizdə 1999-2001-ci illərdə daha çox səhiyyə müəssisələrinin yenidən qurulması və təmir edilməsi məsələlərinə diqqət yetirmişdir. 2001-2005-ci illərdə səhiyyə sahəsində maddi-texniki bazanın möhkəmləndirilməsi işinə köməklik göstərilmişdir. 2006-cı ildən sonrakı mərhələdə isə səhiyyə üzrə Yaponiya ilə əlaqələrdə yeni texnologiyaların tətbiqinə üstünlük verildiyi müşahidə olunur.

Qeyd olunduğu kimi, Yaponiya dövləti Azərbaycanda səhiyyə müəssisələrinin – xəstəxanaların, uşaq evlərinin, qadın məsləhətxanalarının və poliklinikaların əsaslı şəkildə yenidən qurulmasına və təmir edilməsi sahəsində Azərbaycan Respublikasında dövlət səviyyəsində aparılan tədbirlərin daha da genişləndirilməsini diqqət mərkəzində saxlamışdır. Gəncə şəhərindəki Qadın məsləhətxana-poliklinikasının, Sumqayıt şəhərindəki Psixonevroloji dispanserin, Bakı şəhərinin Türkan qəsəbəsindəki Əlil uşaqlar evinin, Ramana qəsəbəsindəki uşaq evinin, Bakı şəhərindəki 2 saylı uşaq evinin əsaslı təmiri, lazımi avadanlıqlarla təchiz edilməsi, istilik sisteminin yenidən qurulması Yapon dövlətinin Azərbaycan səhiyyəsinin inkişafına göstərdiyi qayğını əks etdirir.

Səhiyyə sistemində maddi-texniki bazanın möhkəmləndirilməsi baxımından da Yaponiya ilə əlaqələr mühüm əhəmiyyət kəsb edir. Bu sahədə həyata keçirilən tədbirlər əsasən Yaponiya dövlətinin ayırdığı qrant layihələri hesabına səhiyyə müəssisələri üçün tibb avadanlıqlarının alınması məsələlərini əhatə edir. Qeyd etmək lazımdır ki, Yaponiyanın qrant layihələri əsasında yenidən qurulmuş və ya təmir edilmiş səhiyyə müəssisələrinin ha-

mısına həm də müəyyən tibbi avadanlıqlar da alınmışdır. Bununla belə, bir sıra səhiyyə ocaqlarında müəyyən edilmiş qrant layihəsi xüsusi olaraq yeni tibbi cihazların və avadanlıqların alınmasına yönəldilmişdir. Yaponiya 1999-cu ildə Azərbaycan elmi-tədqiqat Fizioterapiya və Pulmonologiya İnstitutuna müasir avadanlıqların alınmasına 2 milyon ABŞ dolları həcmində qrant ayırmışdır(1).

Sonrakı illərdə Yaponiya dövləti tərəfindən ayrılmış 4,2 milyon ABŞ dolları hesabına Bakı şəhərindəki Ş.Ələsgərova adına 5 saylı Doğum evi, 1 saylı Bakı şəhər xəstəxanası, Abdulla Qarayev adına Uşaq kliniki xəstəxanası ən müasir tibb avadanlıqları ilə təchiz edilmişdir. Bundan başqa, Bakı şəhərindəki Ş.Ələsgərova adına 5 saylı Doğum evində qadınların süni mayalandırılması üçün nəzərdə tutulmuş xüsusi laboratoriyanın yaradılması təmin edilmişdir. Həmin laboratoriyanın təşkili və fəaliyyəti üçün Yaponiya dövlətinin ayırdığı 2 milyon ABŞ dolları həcmində olan qrant layihəsi əsasında laboratoriya ən müasir avadanlıqlarla təchiz edilmiş, bu laboratoriyada çalışan həkimlərə treyninqlər keçirilmişdir. Eyni məqsədlə müəyyən olunmuş 2 milyon dollarlıq qrant vasitəsilə Azərbaycan Ciyər xəstəlikləri xəstəxanasında yeni tibb avadanlıqları quraşdırılmışdır. Bundan başqa, A.Qarayev adına Uşaq xəstəxanasında da 2 milyon ABŞ dolları həcmində yeni laboratoriya yaradılmışdır(2). Respublikanın səhiyyə müəssisələrinə ən müasir tibb avadanlıqlarının alınması, yeni laboratoriyaların təşkili bu sahənin müasir tələblər səviyyəsində yenidən qurulmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir. Bu isə Azərbaycandan xarici ölkələrə xəstə axınının qarşısının alınmasını təmin etməyə imkan vermişdir. Bütün bunlar son nəticədə Azərbaycanda səhiyyə sisteminin dünya standartlarına yaxınlaşdırılması yollarında mühüm addımlara çevrilmişdir.

Yaponiya tərəfindən ayrılmış qrant layihələrinin bir hissəsi səhiyyə maarifçiliyi sahəsinə yönəldilmişdir. Bu yolla Azərbaycan həkimləri Yaponiyanın ölkəmizdəki səfirliyi vasitəsilə Bakıda keçirilən treyninqlərə cəlb olunmuş, yaxud Yaponiyada stajirovka keçmişlər. Aparılmış səhiyyə maarifçiliyi respublikamızda yeni texnologiyaya bələd olan, elmin son nailiyyətlərinə yiyələnmiş yüksək ixtisaslı tibb kadrlarının formalaşdırılması prosesinin daha da sürətləndirilməsinə təkan vermişdir.

Məlum olduğu kimi, Yaponiya dünyada həm də fərqli idman ölkəsi kimi tanınır. Bir çox oyun növlərinin vətəni yalnız Yaponiyadır. Buna görə də Yaponiyanın idman ənənələrini öyrənməyə beynəlxalq aləmdə böyük maraq vardır. Bundan başqa, Yaponiya dünyada idmanı dəstəkləyən ölkə kimi tanınır. Yaponiya – Azərbaycan əlaqələrində idman sahəsinin də müəyyən yer tutması bütün bunlarla bağlıdır.

Əvvəla, Yaponiya dövlətinin səhiyyə-sağlamlıq sahəsində apardığı tədbirlər həm də idmanın inkişafı ilə üzvi surətdə əlaqəlidir. Bununla belə, konkret olaraq Yaponiya dövlətinin Azərbaycanda idmanın inkişafına yönəltdiyi tədbirlər də müşahidə olunmaqdadır. Digər sahələrdə olduğu kimi, idman sahəsində də Yaponiya daha çox ölkəmizdə idman kompleks-

lərinin yeni avadanlıqlarla, müasir texnologiya ilə təmin olunmasına köməklik göstərməyə üstünlük verir. Yaponiyanın 1999-cu ildə Azərbaycanda idman kompleksinin inkişaf etdirilməsinə 49,3 milyon yen (450 min ABŞ dolları) həcmində yönəltdiyi maliyə vəsaitinin əsas hissəsi ən zururi yeni texnologiyanın və avadanlıqların alınmasına sərf edilmişdir. Həmin layihə əsasında Bakıdakı ən mühüm idman mərkəzləri yeni texnologiya baxımından yenidən qurulmuş və müasir avadanlıqlarla təchiz olunmuşdur. Eyni zamanda, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi də yapon qrantı əsasında idman və yanğın təhlükəsizliyi avadanlıqları ilə təmin edilmişdir (5).

Yaponiya dövləti ölkəmizdə Şərq yönlü idman növlərinin daha da inkişaf etdirilməsində maraqlıdır. Cüdo, əlbəyaxa döyüş, karate tipli idman oyunları Yaponiyada da geniş yayılmışdır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Yaponiyanın respublikamızdakı səfirliyi arasında 1999-cu ildə bağlanmış müqaviləyə əsasən ölkəmizdə Şərq əlbəyaxa döyüşü idman növünün genişləndirilməsinə və inkişaf etdirilməsinə 400 min ABŞ dolları miqdarında maliyə vəsaiti ayrılmışdır. Həmin maliyə vəsaiti Bakıda Şərq əlbəyaxa döyüşü idman növünün təşkilinə xidmət edən müasir tipli idman bazasının yaradılmasına, mövcud idman müəssisələrinin yeni avadanlıqlarla təchiz olunmasına, yarışların keçirilməsinə xərclənmişdir. Nəticədə Azərbaycanda idmanın bu sahəsinə maraq daha da artmış, həmin çətin idman növünə gənclər daha çox qoşulmuş, müsbət nəticələr əldə olunmuşdur.

Azərbaycan idmançıları Yaponiyada geçirilən idman yarışlarında da fəal iştirak edirlər. Cüdo idman növünün banisi Ciqaro Komonun şərəfinə 2008-ci ilin dekabr ayında Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilmiş xatirə turnirində baş məşqçi Ağayar Axundzadənin rəhbərlik etdiyi Azərbaycan yığma komandasının iştirakı idman sahəsindəki əməkdaşlığın yeni mərhələdəki uğurlu bəhrəsi sayılmağa layiqdir. İdmançılarımızdan 81 kiloqram çəki dərəcəsində Zaur Paşayevin, 66 kiloqram çəki dərəcəsində isə Sərxan Əhmədovun cüdoçuların Tokio görüşlərində əldə etdikləri müsbət nəticələr Azərbaycan idmanının beynəlxalq aləmdə tanınması baxımından daha bir əhəmiyyətli addıma çevrilmişdir(4). Bir sözlə, Yaponiya-Azərbaycan idman əlaqələri ölkəmizdə idmanın daha da inkişaf etdirilməsinə və respublikamızın idman söhrətinin dünyada təbliğinə uğurla xidmət edir.

Göründüyü kimi, humanitar sahədə Yaponiya-Azərbaycan əlaqələri ictimai həyatın əksər sahələrini əhatə etməklə səciyyələnir. Humanitar sahədəki əlaqələr və birgə əməkdaşlıq qarşılıqlı şəkildə ölkələrin və xalqların bir-birlərini daha yaxından tanımalarına şərait yaradır. Dünyanın qabaqcıl ölkələrindən olan Yaponiya ilə əməkdaşlıq layihələrinin həyata keçirilməsi Azərbaycanın müstəqil bir dövlət kimi dünyada tanıdılmasına geniş üfüqlər açır. Eyni zamanda, humanitar sahədə ölkələrimiz arasında genişlənməkdə olan əlaqələr mədəniyyət, təhsil və turizm üzrə Yaponiya təcrübəsinin Azərbaycana axınına imkan verir.

## ƏDƏBİYYAT

1. Abbasov S.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolları. Bakı: Elm, 2004.
2. Azərnews, Bakı, iyul 2001.
3. «Gələrsən-görərsən» jurnalı, Bakı, mart-aprel 2008.
4. Yaponiyaya yollanan heyət. «İki sahil» qəz., 4 dekabr 2008-ci il, № 230 (4789).
5. Тураев В.А. Глобальные вывозы человечности. М., 2002.


**Рза Талыбов**

### ЯПОНСКО-АЗЕРБАЙДЖАНСКИЕ СВЯЗИ В ОБЛАСТИ ЗДРАВООХРАНЕНИЯ И СПОРТА

В статье говорится о роли и значении Японско-Азербайджанских связей в области здравоохранения и спорта. С этой целью анализированы осуществленные со стороны правительства Японии грантовый проекты, тренинги и другие меры сотрудничества в направлении здравоохранения и спорта.

**Rza Talibov**

### AZERBAIJAN-JAPAN RELATIONS IN THE FIELD OF HEALTH AND SPORT

The place, role and significance of Azerbaijan-Japan ties in the field of health and sport are touched upon in the paper. For this purpose, grant projects, trainings and other collaboration measures in the field of health and sport have been involved in analyses.

***Rəyçilər: Akademik İ.Hacıyev, AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**QAHİRƏ HÜSEYNOVA**
Bakı Dövlət Universiteti

# «ŞƏRQ QAPISI» QƏZETİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ, ELMİ VƏ MƏDƏNİ HƏYATININ İŞIQLANDIRILMASI (1992-ci il)

Ötən əsrin 90-cı illərin əvvəllərində mürəkkəb blokada şəraitinə baxmayaraq Naxçıvan Muxtar Respublikasında elmi-mədəni həyata böyük diqqət yetirilirdi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikada dövlət quruculuğu, elm, təhsil və mədəniyyətin inkişafı sahəsində mühüm işlər görüldü.

Ulu öndər respublikamız üçün yüksək ixtisaslı kadrların hazırlığına xüsusi önəm verirdi. O, hələ Azərbaycana rəhbərlik etdiyi 70-ci illərdə Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin aparıcı ali məktəblərində təhsil almaq üçün minlərlə azərbaycanlı gənc göndərmişdi. Bu gənclər Azərbaycanın gələcək inkişafı üçün qüdrətli kadr potensialı idi. Ümummilli lider Naxçıvanda çalışdığı dövrdə də bu mühüm işi həyata keçirirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikası hökumətinin dəvəti ilə 1992-ci il mart ayında Türkiyədə olarkən naxçıvanlı gənclərin Türkiyə Respublikasında təhsil alması məsələsini razılaşdırmışdır. Bu təşəbbüsü alqışlayan muxtar respublika Ali Məclisi və Nazirlər Kabinetinin orqanı olan "Şərq qapısı" qəzetinin «Gənclərin təhsilinə qayğı» sərlövhəli məqaləsi Türkiyə Respublikasında təhsil almağa yola salınan tələbələrlə muxtar respublika rəhbərliyi və Naxçıvan şəhər ictimaiyyəti nümayəndələrinin görüşünə həsr olunmuşdur. Yazıdan məlum olur ki, Türkiyənin Naxçıvana gəlmiş Yüksək Öyrətim Seçim Qurumunun səlahiyyətli nümayəndələri tərəfindən ilk dəfə test üsulu ilə seçim aparılmış və təhsil almaq arzusunda olan 357 gəncdən 75 nəfəri Türkiyənin müxtəlif universitetlərinə qəbul olunmuşdur (7). Ümummilli lider Heydər Əliyev Türkiyəyə təhsil almağa gedən tələbələri təbrik etmiş və onlara uğurlar arzulamışdır: «Bir şeyi bilmək lazımdır ki, əgər hər hansı bir xalq inkişaf etmək istəyirsə, o, gərək bəşəri mədəniyyətə, bəşəri elmə yiyələnsin. Mən 20 il bundan öncə də, indi də çox arzusunda olmuşam ki, azərbaycanlı balaları Türkiyədə, İranda, Rusiyada, Almaniyada, Ərəbistanda, İtaliyada, İngiltərədə, Amerikada, Fransada və hətta Hindistanda, Çində təhsil alsınlar» (7).

Ulu öndərin arzuları artıq həyata keçib. Hazırda azərbaycanlı gənclər dünyanın 20-dən artıq ölkəsində müxtəlif ixtisaslara yiyələnir.

Milli genofondun, ideologiyanın təşəkkülü və inkişafı intellektual potensialın gücündən asılıdır və demək olar ki, bunun da əsasını elm və təhsil sistemi təşkil edir. Elm və təhsil ilk növbədə ölkəmizin müstəqilliyinə, onun ümumbəşəri sivilizasiyaya inteqrasiya etməsinə xidmət etməlidir. Naxçıvanın təhsil ocaqları da bunu nəzərə alaraq Azərbaycanda elm və təhsilin inkişafına öz töhfəsini verir. Bu mənada ölkəmizin ali məktəbləri ailəsində Naxçıvan Dövlət Universitetinin öz yeri və mövqeyi var.

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamışdır. Az sonra Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevin 12 iyun 1972-ci il tarixli fərmanı ilə həmin filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılmışdır. Müstəqil ali məktəbin yaradılması regionun elmi-mədəni inkişafında, burada ziyalı potensialının artmasına, maarifçilik hərəkatına müsbət təsir göstərmişdir. Pedaqoji İnstitut sonralar – 29 dekabr 1990-ci ildə Naxçıvan Dövlət Universitetinin təşkili üçün böyük baza funksiyasını yerinə yetirmişdir (8, s. 11).

1992-ci il noyabr ayında Naxçıvan Dövlət Universiteti özünün 25 illik yubileyini qeyd etdi. Yubileydə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin iştirakı və onun nitqi universitet kollektivi qarşısında mühüm vəzifələr qoydu: «Artıq bundan sonra sizin hazırlayacağınız ali təhsilli kadrlar gərək daha yüksək kriteriyalara, yüksək tələblərə uyğun olsunlar. İndi artıq siz keçmiş Sovetlər İttifaqının çərçivəsində olan təcrübəni yox, bütün dünya təcrübəsini gərək mənimsəyəsiniz, ondan səmərəli istifadə edəsiniz və ali təhsil işinin təşkilini daha müasir səviyyədə təşkil edəsbniz» (8, s. 20).

Bu sözlərin böyük əhəmiyyəti "Şərq qapısı" qəzetində dərc olunmuş «Dörddə bir əsrlik yol» (2), «Əsrin dörddə biri» (4) sərlövhəli məqalələrdə bir daha xatırladılır. Məqalələrdə 25 il ərzində böyük inkişaf yolu keçərək müstəqil, klassik bir universitet səviyyəsinə qalxmış Azərbaycanın tanınmış, nüfuzlu ali məktəbləri ilə bir cərgədə duran Naxçıvan Dövlət Universitetinin nailiyyətlərindən bəhs edilir

Hazırda 4 mindən artıq tələbəsi olan və 34 ixtisas üzrə mütəxəssis hazırlayan Naxçıvan Dövlət Universiteti dünyanın bir çox ölkələrinin ali təhsil ocaqları ilə – ABŞ-ın Çikaqo, Fransanın Strasburq, Türkiyənin Ankara, İstanbul, Van, Ərzurum, Qars, İran İslam Respublikasının Təbriz və Mərənd universitetləri ilə sıx əlaqə saxlayır.

«Naxçıvandan Ərzuruma elmi körpü» adlı məqalə məhz Naxçıvan Dövlət Universiteti ilə Ərzurum Atatürk Universiteti arasındakı elmi əlaqəyə həsr olunub. Məqalədə bildirilir ki, Naxçıvan Dövlət Universitetinin bir qrup əməkdaşı Türkiyədə olmuş, orada təhsilin vəziyyəti ilə maraqlanmış, əlaqələrin bundan sonra da genişlənməsi üçün fikir mübadiləsi aparmışlar (10).

Qeyd etmək yerinə düşər ki, Ərzurum Atatürk Universitetinə gedənlər arasında o zaman universitetin prorektoru vəzifəsində çalışan hazırda NDU-nun rektoru, akademik İsa Həbibbəyli də vardı. O, universitetin kitabxanasında olarkən Veysəl Ünüvərin 1948-ci ildə İstanbulda çap olunmuş «Bolşeviklərlə səkkiz ay» kitabı ilə tanış olmuşdur. Kitabda türk generalının 1919-1920-ci illərdə Naxçıvanda iştirakçısı olduğu hadisələr barədə müşahidə və mülahizələri qələmə alınmışdır.

Qeyd olunan dövrün Azərbaycan tarixşünaslığında yeni öyrənilməyə başlandığını nəzərə alaraq İ.Həbibbəyli «Tariximizin naməlum səhifələri» sərlövhəli (9) məqalə ilə çıxış etmiş və adı çəkilən kitabdan bir parça oxuculara çatdırmağı məqsədəuyğun bilmişdir. Ermənilərin vəhşiliyi və haqsız ərazi iddialarına həsr olunmuş əsərin bu hissəsi «Araz Türk hökumətinin istiqlal mübarizəsi» (6) adı ilə "Şərq qapısı"nda dərc olunub.

İqtisadi böhran və blokadanın doğurduğu digər çətinliklər içərisində yaşayan Naxçıvan Muxtar Respublikasında Azərbaycan ədəbiyyatının, mədəniyyətinin təbliğinə də qayğı göstərilirdi. O ağır günlərdə dahi Azərbaycan şairi, dramaturq və böyük mütəfəkkir Hüseyn Cavidin anadan olmasının 110 illik yubileyi bilavasitə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1992-ci il oktyabrın 23-də qeyd olundu. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət musiqili dram teatrında keçirilən yubiley ulu öndərin qeyd etdiyi kimi, Hüseyn Cavid bayramı idi.

XX əsr Azərbaycan ədəbiyyatının parlaq simalarından olan Hüseyn Cavid «daim həqiqət, ədalət, səadət axtarmaq yollarında çırpınan romantik qəhrəmanlarının bir çoxu kimi, özü də həmişə axtarışlarla dolu mürəkkəb, dolğun, iztirablı bir həyat keçirmişdir» (13, s. 351). Onun «Peyğəmbər», «Topal Teymur», «Knyaz», «Səyavuş», «Xəyyam», «İblisin intiqamı» əsərləri Cavid sənətinin böyüklüyündən xəbər verir.

"Şərq qapısı" qəzetində şairin yubileyi ilə əlaqədar dərc edilən «Nurihəqq daima yanar, sönməz» sərlövhəli məqalədə göstərilir ki, Cavid irsi, Cavid sənəti özünün yüksək mənəviyyatı, əxlaqi-etik keyfiyyətləri, fəlsəfi mündəricəsi ilə dünya ədəbiyyatının klassikləri ilə birgə addımlayır (17). Qeyd edək ki, 1982-ci ildə böyük mütəfəkkir, şair və daramaturqun 100-illik yubileyi geniş qeyd edlmişdir. O zaman Azərbaycan Respublikasına rəhbərlik edən H.Əliyevin xüsusi səyləri nəticəsində H.Cavidin nəşi Sibirdən gətirilərək doğma Naxçıvanda dəfn edilmişdir, 1997-ci ildə isə qəbri üzərində möhtəşəm məqbərə ucaldılmışdır.

Azərbaycan xalqının istiqlal şairi Əhməd Cavadın anadan olmasının 100 illiyi ərəfəsində "Şərq qapısı" qəzetində «Ə.Cavad-100» rubrikası açılmışdı.Bu rubrika altında dərc olunan «Əzabkeş şair» başlıqlı yazıda Ə.Cavadın keçməkeşli həyat yolundan bəhs edilir (5). «Azərbaycanın istiqlal şairi» sərlövhəli məqalədə isə Naxçıvan Dövlət Univeristenin dosenti Eynulla Mədətli şairin yaradıcılığı haqqında oxuculara geniş məlumat vermişdir. Məqalənin ilk cümləsi sovet rejiminin törətdiyi haqsızlığa bir üsyandır. Burada oxuyuruq: «İlk dəfə yubileyi, özü də 100 illiyi keçirilən milli şairi-

miz, istiqlal mübarizi Əhməd Cavad! Qanlı sovet rejiminin səsini boğmağa müyəssər olmadığı, mənfur ideologiyasına xidmət etməyə məcbur edə bilmədiyi, buna görə də millətin ağrılarını duyan və bu ağrıları yaşayan minlərlə soydaşı kimi imperiya zindanlarında uzun işgəncələrdən sonra qətlə yetirilən Əhməd Cavad» (11). Bu cümlədən sonra məqalə müəllifi şairin gənclik illərindən söz açır, 1914-cü ildə yazdığı və bütün türk dünyasında məşhur olan «Çırpınırdı Qara daniz» şərqisindən nümunə gətirir:

Dost elindən əsən yellər
Mənə şeir, salam söylər.
Olsun bizim bütün ellər
Qurban türkün bayrağına.

Türk bayrağını salamlayan bu şərqi hazırda türk dünyasının ən sevimli nəğməsidir.

Əsl şəhid ömrü yaşayan Əhməd Cavad Azərbaycanın bugünkü müstəqilliyini görmədi, lakin o, azadlıq mücahidlərinin apardığı mübarizənin hədər getməyəcəyinə, istiqlalın qələbə çalacağına inanaraq bu misraları yazmışdı:

Mən bir aşiqəm ki, bu
Çaldığım saz
Dumanlı dağlara səs
Salacaqdır.
Ağlatdığım teldə
İnləyən avaz
Elin xatirində çox
Qalacaqdır.

Əhməd Cavad yanılmamışdı, onun çaldığı saz Azərbaycanın qeyrətli oğul və qızlarını ayıltdı və nəticədə ölkəmiz qan bahasına olsa da öz müstəqilliyinə qovuşdu.

Qeyd edək ki, «Şərq qapısı» qəzetinin 28-ci sayında dərc edilmiş bir elan da blokada şəraitinin yaratdığı çətinliklərlə mübarizə aparmaq məcburiyyətində qalan muxtar respublikada zəngin Azərbaycan ədəbi irsinin qorunaraq gələcək nəsillərə çatdırılması məsələsinə önəm verildiyini söyləməyə əsas verir. Həmin elanda Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsi nəzdində şair İslam Səfərlinin ədəbi irsinin toplanılması məqsədilə yaradılan komissiya haqqında məlumat verilir və şairi yaxından tanıyanlara, dost və qohumlarına müraciət olunaraq İ.Səfərli ilə bağlı yazışmaları, şəkilləri və digər sənədləri komissiyaya təqdim etmək xahiş olunur (3).

«Şərq qapısı» öz səhifələrində qardaş Azərbaycan və türk xalqlarının sənət əlaqələrinə geniş yer ayırırdı. Bu baxımdan teatrşünas Cəlil Vəzirovun qəzetin 2 yanvar tarixli sayındakı böyük ədib Nazim Hikmətin əsərlərinin Naxçıvan teatrında səhnələşdirilməsi tarixinə həsr edilən məqaləsi xüsusilə diqqəti cəlb edir (16). Müəllifin «Türk dramaturgiyasından yarpaqlar» rubrikası altında «Əziz Nesin yenidən Naxçıvan səhnəsində» adlı yazısında isə bu görkəmli türk yazarının hekayələri əsasında Naxçıvan Dövlət musi-

qili dram teatrının səhnəsində yeni qoyulan «Ölən adam» tamaşası haqqında məlumat verilir (15).

Milli mədəniyyətimizin, musiqi sənətimizin qorunaraq bütün dünyada tanıdılması və xarici ölkələrdə təbliğini vacib məsələlərdən hesab edən «Şərq qapısı» «Bulaq» Avropada və Amerikada alqışlanır» başlığı ilə dərc etdiyi yazıda Naxçıvan-Türk mədəniyyət və sənət mərkəzində fəaliyyət göstərən folklor musiqi kollektivinin Fransada keçirilən beynəlxalq folklor festivalında iştirakı və ABŞ-a yaradıcı səfərindən söz açılır. Müsahibə janrında təqdim edilən bu materialda kollektivin üzvləri üçhəftəlik səfərləri ərzində iştirak etdikləri tədbirlər, konsertlər, keçirdikləri görüşlərdən bəhs edərək milli musiqimizin xarici dinləyiçilər tərəfindən hərarətlə qarşılandığını qeyd edirlər (1).

Qeyd edək ki, tulum, zurna, saz kimi milli musiqi alətlərimizin yaşadılması, bu alətlərdə ifa sənətinin gənc nəsl tərəfindən davam etdirilməsi məsələləri də mütəmadi olaraq «Şərq qapısı» tərəfindən gündəmə çıxarılır, bu mövzuda müxtəlif janrlı materiallar təqdim edilirdi. Buna misal olaraq «Sənətinin vurğunu» (12), «Urmiya: gördüyüm kimi» adlı oçerkləri gətirmək olar (14).

Göründüyü kimi, qeyd edilən dövrdə «Şərq qapısı» qəzeti digər aktual məsələlərlə yanaşı öz səhifələrində elm, təhsil və mədəniyyət sahələrinə də yer ayırmış, muxtar respublikanın elmi-mədəni həyatında baş verən əlamətdar hadisələri əks etdirməyə çalışmışdır.

## ƏDƏBİYYAT


1. «Bulaq» Avropada və Amerikada alqışlanır. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 28 avqust.
2. Dörddə bir əsrlik yol. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 7 noyabr
3. Elan. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 25 fevral
4. Əsrin dörddə biri. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 18 noyabr
5. «Əzabkeş şair», «Şərq qapısı» qəzeti, 2 yanvar 1992-ci il.
6. General Veysəl Ünüvər. Araz-Türk istiqlal mübarizəsi. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 28 may.
7. Gənclərin təhsilinə qayğı. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 7 oktyabr
8. Həbibbəyli İ. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. Naxçıvan, Qeyrət, 2002, 78 s.
9. Həbibbəyli İ. Tariximizin naməlum səhifələri. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 28 may.
10. İmanov R. Naxçıvandan Ərzuruma elmi körpü. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 27 iyun.
11. Mədətli E. Azərbaycanın istiqlal şairi. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 7 aprel.
12. Məmmədov C. Sənətinin vurğunu. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 25 fevral.
13. Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, «Maarif»,

1982, 428 s.
14. Urmiya: gördüyüm kimi. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 25 fevral
15. Vəzirov C. Əziz Nesin yenidən Naxçıvan səhnəsində. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 28 avqust.
16. Vəzirov C. Nazim Hikmətin əsərləri Naxçıvan səhnəsində. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 2 yanvar.
17. Vəzirov C. Nuri-həqq. «Şərq qapısı» qəz., Naxçıvan, 1992, 28 oktyabr.

**Каира Гусейнова**

**ОСВЕЩЕНИЕ ОБЩЕСТВЕННОЙ, НАУЧНОЙ И КУЛЬТУРНОЙ ЖИЗНИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В ГАЗЕТЕ «ШАРГ ГАПЫСЫ» (1992 г.)**

В статье исследуются публикации газеты «Шарг гапысы», посвященные актуальным вопросам науки, культуры и образования Нахчыванской Автономной Республики в 1992 году. На основе анализа материалов, опубликованных в «Шарг гапысы», автор отмечает, что, несмотря на трудные условия блокады, в Нахчыванской АР уделялось внимание развитию науки, образования и культуры. В статье на основе конкретных примеров подчеркивается, что газета «Шарг гапысы», используя различные формы и жанры подачи материалов, подробно освещала на своих страницах важные события научно-культурной жизни автономной республики.

**Cahira Huseynova**

**ILLUMINATION OF A PUBLIC, SCIENTIFIC AND CULTURAL LIFE OF NAKHICHIVAN AUTONOMOUS REPUBLIC IN THE NEWSPAPER "SHARQ QAPISI" (1992)**

In clause are investigated the publications of the newspaper «Şarq qapısı» adout public, sciences, cultures and formations questions of Nakhichevan Autonomous republic in 1992. On the basis of the analysis of the materials published in «Şarq qapısı», the author marks, that, despite of difficult conditions of blockade, in Nakhichevan AP the attention was paid to development of a science, education and culture. In clause on the basis of concrete examples it is emphasized, how the newspaper «Şarq qapısı», using various forms and genres of submission of materials, in detail shined on the pages the important events of a scientifically-cultural life of the autonomous republic.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. V.Baxşəliyev, AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**VƏLİ BAXŞƏLİYEV**
AMEA Naxçıvan Bölməsi,
**CATHERİNE MARRO**
Fransa Ulusal Araştırma Mərkəzi,
**SƏFƏR AŞUROV**
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

# OVÇULARTƏPƏSİNDƏ ARXEOLOJİ QAZINTILAR

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 6 dekabr 2005-ci ildə «Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və qoruması işinin təşkili haqqında» verdiyi sərəncam Naxçıvan ərazisində olan arxeoloji abidələrin öyrənilməsində yeni mərhələnin başlanğıcını qoymuşdur. Sərəncamdan irəli gələn vəzifələrin ye-




**Şəkil 1**. Ovçulartəpəsinin Eneolit keramikası

rinə yetirilməsi nəticəsində Muxtar Respublika ərazisində olan tarix və mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış və onların genişmiqyaslı tədqiqinə başlanmışdır. Geniş tədqiqatlarla öyrənilən abidələrdən biri də Şərur rayonunda Dizə kəndi yaxınlığında yerləşən Ovçulartəpəsi yaşayış

yeridir. Tədqiqat işlərinə xarici ölkə alimlərinin dəvət edilməsi işlərin səmərəliliyini daha da artırmışdır. Araşdırmalara arxeoloqlarla yanaşı topoqrafiya, paleobotanika, geofizika, geomorfologiya ilə məşğul olan tədqiqatçıların cəlb edilməsi yaşayış yerinin meydana gəlməsi və inkişafı ilə bağlı prosesləri bütöv şəkildə təsəvvür əldə etməyə imkan vermişdir.




**Şəkil 2.** Ovçulartəpəsinin Eneolit keramikası

Yaşayış yerində 2006-2007-ci ildə Fransanın Ulusal Araşdırma Mərkəzinin əməkdaşları ilə birgə aparılan arxeoloji qazıntılar(8, s.111-116) 2008-ci ildə davam etdirilmişdir. Əvvəlki sahələrdə aparılan tədqiqatlarla yanaşı dörd yeni qazıntı sahəsi açılmış, qazıntının ümumi sahəsi 1225 kv.m-ə çatdırılmışdır. Araşdırmaların gedişində Eneolit və Erkən Tunc dövrünə aid tikinti qalıqları, müxtəlif maddi mədəniyyət nümunələri, o cümlədən dən daşları, keramika məmulatı, metal əşyalar aşkar edilmişdir. Arxeoloji materialların əksəriyyəti keramika məmulatından ibarətdir.

Araşdırmalar göstərir ki, yaşayış binaları bir-birinin yaxınlığında, təpənin yamacında düzəldilmiş səkilərdə salınmışdır. Evlər başlıca olaraq daş təməl üzərində çiy kərpicdən inşa olunmuşdur. Eneolit evləri dördkünc, bəzən isə küncləri dəyirmiləşdirilmiş dördkünc formada olmuşdur. Qazıntılar zamanı müəyyən edilmişdir ki, əvvəllər Eneolit evləri düzgün olmayan memarlıq xüsusiyyətlərinə malik olmuş, daha sonra təkmil yerüstü evlər meydana çıxmışdır. Yeddinci qazıntı sahəsində aparılan araşdırmalar Eneolit dövründə düzgün olmayan dördkünc planlı yarımqazma tipli evlərdən də istifadə olunduğunu göstərir. Evlərin içərisində döşəməyə basdırılmış təsərrüfat küpləri, dən daşları, həvənglər və digər məişət əşyalarının olduğu müəyyən olunmuşdur. Ocaqlar divarların dibində, bəzən isə qapı girişinin yaxınlığındakı küncdə yerləşdirilmişdir. Evlərin qapısının örtülməsində dabana daşlarından istifadə edilmişdir. Bəzi evlərin içərisində ərzaq ehtiyyatlarını saxlamaq üçün təsərrüfat quyuları qazılmışdır. Bu quyuların divarları çiy kərpiclə hörülərək bərkidilmişdir. Bununla bərabər birinci kvadratda

aşkar olunan çoxotaqlı evin özünə məxsus təsərrüfat binası olmuşdur. Uzunsov anrbardan ibarət təsərrüfat binasının döşəməsinə ərzaq ehtiyyatı saxlamaq üçün iri küplər basdırılmışdır. Araştırmalar göstərir ki, Ovçulartəpəsindəki binalar ayrıca təsərrüfat-məişət kompleksi olmuşdur. Birinci kvadratdakı binaların içərisindəki ocaqlar başlıca olaraq dairəvi formalıdır. Araştırmalar bu ocaqların tez-tez yer dəyişdiyini və onlar arasındakı təbəqənin çox incə olduğunu göstərir. Böyük ehtimalla, evlər bəlli zamanlarda tərk edilmiş və yenidən məskunlaşdırılmışdır.

Ovçulartəpəsində aşkar olunan çoxotaqlı və təkotaqlı evlər cəmiyyətdə müəyyən sosial differensasiyanın yarandığını göstərir.




**Şəkil 3.** Ovçulartəpəsinin Eneolit keramikası

Tədqiqatlar zamanı altıncı kvadratda Erkən Tunc dövrünə aid dairəvi formalı bina aşkar olunmuşdur. Bina daş təməl üzərində çiy kərpiclərdən inşa olunmuşdur. Builki tədqiqatlar zamanı binanın içərisində uşaq skeletinin qalıqlarına rastlandı. Tədqiqatların davam etdirilməsi nəticəsində dairəvi formalı evin içərisində Eneolit dövrünə aid dördkünc formalı evin qalıqları aşkar olundu. Şübhəsiz ki, uşaq skeletinin qalıqları da Eneolit dövrünə aid olmuşdur. Ümumiyyətlə, indiyədək Ovçulartəpəsində bir neçə qəbir abidəsi aşkar olunmuşdur. Məhrumların küplərin içərisində dəfn edilməsi adətinə də rastlanmışdır. Lakin qeyd etmək lazımdır ki, qazıntının böyük sahəni əhatə etməsinə baxmayaraq qəbir abidələri olduqca azdır. Ehtimal ki, yaşayış yerindən kənarda da dəfnlər aparılmışdır.

Tədqiqatlar zamanı 12-ci kvadratda qurğuşun filizinin qalıqları aşkar olundu. Filiz qalıqları dairəvi fomalı Eneolit binasının yaxınlığında aşkar olunmuşdur. Şübhəsiz ki, filiz qalıqları yaxınlıqdakı Gümüşlü yatağından gətirilmişdir. Bu kvadratdakı qazıntılar zamanı Eneolit dövrünə aid qızıl boyunbağının da tapılması diqqətəlayiqdir. 2007-ci ilin araşdırmaları zamanı səkkizinci kvadratda aşkar olunan Eneolit dövrünə aid dördkünc

formalı evin yaxınlığında xeyli miqdarda mis filizinin qalıqları da aşkar olunmuşdu. Yeddinci kvadratda aparılan araşdırmalar zamanı isə üzəri yaşıl mis oksidi ilə örtülmüş metal iynələrin parçaları əldə edilmişdir. Filiz qalıqlarının və hazır metal əşyaların aşkar olunması qədim sakinlərin metal emalı ilə yaxından tanış olduqlarını göstərir.




**Şəkil 4.** Ovçulartəpəsinin Eneolit və Kür-Araz keramikası

2008-ci ildə aparılan araşdırmalar zamanı Erkən Tunc dövrünə aid xeyli maddi-mədəniyyət nümunəsi aşkar edilmişdir. Tədqiqatın gedişində müəyyən edilmişdir ki, Kür-Araz tayfaları Ovçular təpəsində yeni binalar inşa etməklə bərabər, Eneolit binalarından da istifadə etmişlər. Bu bəzən hər iki dövrə aid maddi-mədəniyyət nümunələrinin qarışmasına səbəb olmuşdur. Ovçulartəpəsində aparılan araşdırmalar zamanı Eneolit dövründən Tunc dövrünə keçid mərhələsinə aid xeyli keramika nümunələrinə rastlanmıştır. Bu tip keramikada həm Eneolit dövrünün xüsusiyyətləri( saman qatqı, daraqvari alətlə naxışdama), həm də Kür-Araz mədəniyyətinin özəllikləri (qara və ya boz rəngli cila, çəhrayı rəngli astar) izlənməkdədir. Bu keramikanın istehsalı Kür-Araz mədəniyyətinin ən erkən dövrünə aiddir.

Ovçulartəpəsində Eneolit dövrünün müxtəlif mərhələlərdən keçdiyi həm tikinti qatlarında, həm də keramika məmulatında izlənmişdir. Yeddinci tikinti qatında stratiqrafik dəlillərə əsasən üç mərhələnin olduğunu söyləmək olar. Lakin birinci tikinti qatında da üç tikinti mərhələsinin olduğu müəyyən edilmişdir. Keramika məmulatında hələlik iki mərhələ izlənmişdir. Aşkar olunan keramika məmulatı Eneolit dövrünün orta və son mərhələlərinə aiddir. Son mərhələyə aid keramika daha çox Norşuntəpənin 37-31-ci layları, Arslantəpənin VIII təbəqəsi ilə yaxınlıq təşkil edir. Arslantəpənin VII təbəqəsi üçün verilən C 14 tarix e.ə. 3943-3096, Norşuntəpə

üçün isə e.ə. 4467-3799-cü illər arasındadır (16, s. 82-83).Ovçulartəpəsinin Eneolit keramikası Azərbaycan, Cənubi Qafqaz və Yaxın Şərqin, xüsusilə Şərqi Anadolunun keramika məmulatı arasında özünə geniş bənzərlər tapır. Lakin Ovçulartəpəsinin orta mərhələyə aid Eneolit keramikası özünəməxsus xüsusiyyətlərinə, forma və naxışlanmasına görə, Mesopotamiya və Anadolu keramikasından fərqlənir. Bəzi bənzərliklər yalnız Norşuntəpə və Bademçağı keramikasında (17, s. 57) izlənmişdir. Məməsikşəkilli çıxıntılarla naxışlama Cənubi Qafqaz abidələrində geniş yayılmışdır (1, s. 289; 18, s. 21-40; 19, s. 178-179). Qabartma ilanabənzər rəsmlərə I Kültəpə (1, s. 291, Xalac (4, s. 12) və Şulaverisqorada (18, s. 30) rastlanmışdır. Ovçulartəpəsindən aşkar olunan gil qabların bənzərlərini I Kültəpənin «1a» və «1b» təbəqələrindən (2, 54-83, şəkil 20-24), Sədərəkdən (10, s. 61-67) Əliköməktəpədən (12 , s. 188-190, şəkil 10-12), Böyük kəsikdən (13, s. 190, XVIII tablo), Qurudərədən (18, s. 39, şəkil 13), Leylatəpədən (14, s. 88), Şomutəpə, Toyrətəpə və Babadərvişdən(18, s. 35, şəkil 10), Tell el Oueilinin Uruk dövrünə aid təbəqəsindən (9, s. 178-179, tablo V,50, 52, s. 182-183, tablo VII, 69 ) və digər abidələrdən məlumdur.

Bütöv olaraq götürüldükdə demək olar ki, Ovçulartəpəsinin Eneolit keramikası yerli zəminində inkişaf edən müstəqil istehsalın məhsuludur.

Ovçulartəpəsinin keramikası məməcikşəkilli çıxıntılar sırası, ilanabənzər qabartma ornamentlə naxışlanmışdır. Bu naxışlar və onların çəkilmə texnikası Şimali Mesopotamiya və Şərqi Anadoluda heç rastlanmır. Bütöv olaraq götürüldükdə demək olar ki, Ovçulartəpəsinin Eneolit keramikası yerli zəminində inkişaf edən müstəqil istehsalın məhsuludur. Kömür analizlərinin nəticələri məlum olmadığına görə yaşayış yerini hələlik e.ə. V-III minilliklərə aid etmək olar.

Ovçulartəpəsi sakinlərinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Tədqiqatlar zamanı səkkizinci kvadratda aşkar olunan Eneolit dövrünə aid dördkünc formalı evin içərisində döşəmə üzərində bir yerə toplanmış gil qablar və iribuynuzlu heyvanın kükək sümüyündən hazırlanmış toxa aşkar olunmuşdur. Yaşayış yerindən aşkar olunan dən daşları, arpa, buğda, darı və digər bitkilərin qalıqları əkinçiliyin qədim sakinlərin həyatında müəyyən yer tutduğunu göstərir. Araşdırmalar zamanı xeyli miqdarda balıq sümüyünün aşkar olunması təsərrüfatda balıqçılığın da müəyyən rol oynadığını göstərir.

İndiyədək aparılan araşdırmalar zamanı arxeologiya elmində belə bir fikir formalaşmışdır ki, Qafqaz mədəniyyətləri Mesopotamiyanın təsiri ilə inkişaf edib formalaşmışdır. Lakin aprarılan araşdırmalar e.ə. VI-IV minilliklərdə zəngin təbii ehtiyyatlara malik olan Naxçıvan ərazisində inkişaf etmiş mədəniyyətlərin formalaşdığını və bu mədəniyyətin öz növbəsində qonşu Cənubi Qafqaz və Şərq ölkələrinə təsir etdiyini göstərir.

Ovçulartəpəsi yaşayış yerinin araşdırılması arxeologiya elmində mübahisəli olan daha bir problemə aydınlıq gətirməyə imkan verir. Ovçulartəpəsində Kür-Araz mədəniyyətinin bütün mərhələləri izlənmişdir (1, s. 81-




**Şəkil 5.** Ovçulartəpəsinin Kür-Araz keramikası

100; 3, s. 43-81; 6, 23-28; 15, s. 45-125). Bu Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı olan məsələdir. Məlum olduğu kimi, bu mədəniyyətə aid ilk abidələr Kür-Araz çaylarının arasında aşkar olunduğu üçün belə adlandırılmışdır. Hazırda bu mədəniyyət dünya arxeoloji ədəbiyyatında Cənubi Qafqaz mədəniyyəti (Transkafkasya) kimi adlandırılmaqdadır. Odur ki, bu mədəniyyətin mənşəyi tədqiqatçılar tərəfindən Cənubi Qafqaz abidələrində axtarılır. Bəzi alimlər Kür-Araz mədəniyyətinin mənşəyini Şərqi Anadolu, Ermənistan və Gürcüstan ərazisi ilə bağlamağa cəhd göstərirlər. Lakin arxeoloji araşdırmalar göstərir ki, Kür-Araz mədəniyyəti abidələri ilk dəfə Kür və Araz çaylarının arasında tapılsa da bu mədəniyyyətin yaranma ocağı Azərbaycan ərazisi olmuşdur. Xüsusilə Naxçıvanda və Urmiya hövzəsi aşkar olunan abidələr bunu açıq şəkildə dəsdiq edir. Bu regionda yerləşən abidələrdə Kür-Araz mədəniyyəti Eneolit təbəqəsinin üzərində yerləşmişdir. Digər tərəfdən bu regionda yerləşən abidələrdə mədəni təbəqənin qalınlığı Kür-Araz mədəniyyəti tayfalarının burada uzun müddət oturaq həyat sürdüyünü təsdiq edir. Ovçulartəpəsi yaşayış yerində aparılan tədqiqatlar zamanı Eneolitdən Kür-Araz mədəniyyətinə keçidin izlənməsi Naxçıvanın bu mədəniyyətin əsas vətənlərindən biri olduğunu təsdiq edir. Bu il aparılan araşdırmalar zamanı Eneolit mədəniyyətindən Kür-Araz mədəniyyətinə keçid Şərur rayonunda yerləşən Ərəbyengicə abidəsində də açıq şəkildə izlənmişdir. Son illər Azərbaycan ərazisində aşkar olunaraq tədqiq edilən Böyük-kəsik, Soyuq bulaq, Alxantəpə, Poylu və digər abidələr(5, s. 52-53; 16, s. 82; 14, s. 9-79) Azərbaycan ərazisində Eneolit mədəniyyətindən Kür-Araz mədəniyyətinə keçidi öyrənmək üçün olduqca dəyərli materiallar vermişdir. Araşdırmalar təsdiq edir ki, Cənubi Qafqazda formalaşan qədim mədəniyyətlərin əsas beşiyi Azərbaycan ərazisi olmuşdur. Əlverişli coğrafi mövqeyə

və təbii şəraitə malik olan Naxçıvanın bu proseslərdə rolu böyük olmuşdur. Şübhəsiz ki Naxçıvanın arxeoloji abidələrinin gələcəkdə tədqiqi qədim tariximizin öyrənilməsi üçün daha dəyərli nəticələr verəcəkdir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Абибуллаев О.А. Археологические раскопки в Кюльтепе. Баку, Изд-во АН Азерб. ССР, 1959, 134 с.
3. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: Elm, 2002, 158 s.
4. Алиев Н.Г. Сведения об энеолитическом поселении Халадж // Тезисы. докл. конф. Великий Октябрь и развитие археолог. и этнограф. науки в Азербайджане. Баку: Элм, 1988, с. 12.
5. Ахундов Т. Материалы к изучению Переднеазиатской миграции на Кавказ // Археология, этнология, фолклористика Кавказа. Баку: Нурлан, 2005, 52-53.
6. Bahşaliyev V. Archaeology of Nahchivan. İstanbul: Arkeoloji ve Sanat 1997, 128 s.
7. Baxşəliyev V. Naxçıvanın Kür-Araz mədəniyyəti / AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2007, № 1, s. 54-60.
8. Baxşəliyev V., Catherine M., Aşurov S. Ovçulartəpəsi yaşayış yerində arxeoloji qazıntılar/ AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2008, № 1, s. 111-116.
9. Calvet Yves. Un niveau de la period Uruk a Tell El' Oueili. Oueili travaux de 1985. Sous la direction de Jean-Louis Huot. Paris: Editions Recherch sur les Civilisations, p. 159-209.
10. Əliyev V.H. Sədərək Eneolit yaşayış yeri / Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1985, № 2, s. 61-67.
11. Гулиев Ф. Урукская керамика Южного Кавказа // Археология, этнология, фолклористика Кавказа. Баку: Нурлар, 2005, с. 82.
12. Махмудов Фарман. Культура Юго-Восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку: Нафта-пресс, 2008, 216 с.
13. Müseyibli Nəcəf. Böyük kəsik Eneolit yaşayış məskəni. Bakı: Nafta-press, 2007, 226 s.
14. Нариманов И.Г., Ахундов Т.И., Алиев Н.Г. Лейлаткпе. Баку, 2007, 128 с.
15. Seyidov A.Q. Naxçıvan VII-II minillikdə. Bakı: Elm, 2003, 334 s.
16. Gian-Maria di Nocera. Radiokarbon datings from Arslantepe and Norşuntepe: The fourth-third millennium absolute chronology in the upper Euphrates and Transcaucasion region. Chronologies des pays du Caucase et de l'Euphrate aux IV$^{e}$-III$^{e}$ millenaires. Edites par Catherine Marro et Harold Hauptmann. Paris: İnstitut Français d'etudes Anatoliennes d'İstanbul, 2000,

p. 73-94.
17. Gülsün Umurtak. The datings of new groups of pottery from Bademçağı hüyük. Anatolia Antiqua, XIII, Paris: İnstitut Français d'etudes Anatoliennes Georges-Dumuzel İstanbul, 2005, p. 53-69
18. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Л.: Наука, 1970, 190 с.
19. Чиковани Г. Глиняный сосуд с седьмого погребения из раннеземледельческого поселения Арухло I //Археология, этнология фольклористика Кавказа. Баку: Нурлан, 2005, с. 178-179.

**Вели Бахшалиев, Catherine Marro, Сафар Ашуров**

## АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ В ОВЧУЛАРТЕПЕСИ

Поселениие Овчулартепеси исследуются совместной Азербайджано-французкой экспедицией. Во время раскопок обнаружены круглые и четырехугольные помещения, относящиеся к эпоху энеолита и ранней бронзы. В седмом квадрате были обнаружены полуземлянки, а в первом многокомнатные дома. Помещения строены из сырцового кирпича на каменной фундаменте. Исследование показывает, что каждое помещение в Овчулартепеси было индивидуальный культурно-экономический комплекс. Керамические изделия относятся к среднему и позднему периоду энеолита. Энеолитическая керамика изготовлена с примесью мякины и украшен гребенчатым инструментом. Кроме того имеются украшения в виде штампа, рельефных змееобразных линий, сосчевидных выступов и другие орнаменты. В керамических изделиях позднего периода пролеживаются элементы Северной Месопотамии и Восточной Анатолии. Однако орнаментация керамики среднего периода в Северной Месопотамии и Восточной Анатолии встречается мало. Во время раскопок обнаружена керамика характерная переходному периоду от энеолита к ранней бронзы. У них прослеживаются особенности энеолита(примесь мякины, гребенчатый орнаменть) и ранней бронзы (серое и черное лощение, красная подкладка).

**Veli Bakhchaliyev, Catherine Marro, Safar Ashurov**

## ARCHAEOLOGICAL EXCAVATIONS IN OVCHULARTEPESI

The settlement of Ovchulartepesi is investigated by the joint Azerbaijani-French archaeological expedition. During the excavations the round quadrangular buildings of Chalcolithic and Early Bronze Age were revealed. In the seven square were uncovered half dug houses. At the end of the Chalcolithic Age multiroomed houses also were used. Investigations show that the houses were built of mudbricks on stone foundation. Buildings in Ovchu-

lartepesi were individual economy cultutal complex. The ceramics of Chalcolithik belonges to the late period. It is made out of the admixture of adobe and has mainly comb-shaped ornament. Besides there are ornaments in the form of stamp, as well as serpentine relief ornaments. Ceramics belonged to two stages, Middle and Late Age of the Chalcolithic. In the ceramics of the Late Age there are characteristic features of Northen Mesopotamia and Eastern Anatolia. But the early examples of the ceramics late stage are also known from middle stage of Ovchulartepesi. During investigations in Ovchulartepesi ceramic samples belonging to the transmission stage from the Chalcolithic to the Early Bronze Age. In this type of ceramics either the properties of Chalcolithic Age (chaff mixture, designing with a comblike tool) or the properties of Kur-Araz culture( black or grey coulor polich, pink coulor inside).

***Rəyçilər: Tarix e.d., prof. A.Seyidov, tarix e.d. T.Axundov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**RƏSUL BAĞIROV**
Naxçıvan Dövlət Universiteti

# QIZILBURUN YAŞAYIŞ YERİ

Naxçıvan ərazisində yaşayan tayfaların ictimai-siyasi,sosial və təsərrüfat həyatında e.ə III minilliyin ikinci yarısında dəyişikliklər baş verir, Kür-Araz mədəniyyəti öz yerini Orta Tunc dövrünə verirdi.

Naxçıvanın Orta Tunc dövrü abidələrindən biri də Qızılburun yaşayış yeridir. Qızılburun yaşayış yeri Naxcıvan şəhərindən cənubda – Araz çayının sol sahilində yerləşir. 1895-ci ildə bu ərazidə torpaq işləri görülərkən bir neçə daş qutu qəbri dağıdılmış, qəbirlərdə maddi-mədəniyyət qalıqları tapılmışdır. Yerli əhali tərəfindən abidələrin dağıdılmasının qarşısı alınmışdır. Sərhəd gözətçi dəstəsinin rəisi H.B.Fyodrov Qızılburun yaşayış yerində qazıntı işləri aparmış və materiallar toplamışdır. 1904-cü ildə Qızılburun yaşayış yerində daş qutu qəbri açılmışdır. Qəbirlərdən qırmızı rəngli küpələr aşkara çıxarılmışdır. A.A.Spisin materialları dərc edilmişdir (4, s. 7).

XX əsrin 20-ci illərində Azərbaycanı öyrənən və tədiq edən cəmiyyət Naxçıvan ərazisinə arxeoloji ekspedisiya təşkil etmişdir. Ekspedisiya kəşfiyyat işlərini qurtardıqdan sonra dağıdılmış daş qutu qəbirləri təmizlənmiş və toxunulmamış bir qəbir öyrənilmişdir.

1926-cı ildə Zaqafqaziya MİK yanındakı elmi cəmiyyət Qızılburun yaşayış yerinə ekspedisiya göndərilmişdir. Qısa müddətli qazıntı nəticəsində iki daş qutu qəbir açılmışdır. Bu qəbirlərdə bəzək əşyaları, sadə və boyalı gil qablar, tunc xəncər, ox ucları, dəmir bıcaqla bilərziklər, obsidian ox ucları tapılmışdır.

T.S.Pasyek və B.A.Latınının «Şimali Azərbaycanın qədim tarixinə dair oçerklər» əsərində Qızılburun abidələrinin adı çəkilmiş, ilk tədqiqatlardan bəhs edilmişdir.

İ.İ.Meşşaninovun «Çinin qədim boyalı qabları» əsərində Qızılburun boyalı qablarının yaxın şərqin boyalı qabları ilə əlaqəsindən qısa da olsa bəhs edilmişdir.

B.A.Kuftin «Trialetidə arxeoloji qazıntılar» (1941) adlı əsərində Qızılburun materialları üzərində xüsusilə dayanmış, H.B.Fyodrovun, T.İ.Meşşaninovun və A.A.Millerin materiallarını müqayisəli şəkildə təhlil etmişdir. O, Qızılburun materiallarını ardıcıl olaraq bir-birini əvəz edən üç qurupa bölmüşdür (4, s. 10-11).

Görkəmli İngilis alimi K.Şeffer öz əzərində Qafqazın qədim abidələrindən bəhs etmiş və bu əsərdə Qızılburun materiallarının ayrıca öz əksini tapmışdır.

B.B.Piotrovski öz əsərində Qızılburun tapıntılarına geniş yer vermişdir. Qızılburun boyalı qablarını üç tipə bölmüş, oxşar Şərq materialları əsasında düzgün tarixini müəyyən edə bilmişdir.

İ.M.Cəfərzadə əsərində Qızılburunda açılmış yeddinci qəbir haqqında ətraflı məlumat vermişdir (3, s. 104-105).

Qızılburun yaşayış yerində arxeoloji qazıntı işləri 1969-cu ildə O.H.Həbibullayev və V.H.Əliyev tərəfindən aparılmışdır. Qazıntı işləri iki sahədə aparılmışdır. Yaşayış yeri Şərq və Şimali Şərq tərəfdən alçaq qayalıqlara, Qərbdə isə əkinçilik və maldarlıq üçün əlverişli düzən ərazi ilə əhatə olunmuşdur (6, s. 20).

Qızılburun yaşayış yerinin salamat qalmış sahəsi 2 ha-dır. Birinci sahədə 3x3,5 m ölçüdə aparılan qazıntı kəşfiyyat xarakterli olmuşdur. Bu sahədən boz və çəhrayı rəngli keramika monoxrom boyalı qab parçaları, quraşdırma oraq dişləri aşkar edilmişdir (6, s. 133).

İkinci qazıntı sahəsində işlər 10x/10 sahədə aparılmışdır. 3 metr qalınlığında mədəni təbəqənin daha yaxşı qaldığı müəyyən edilmişdir.

Abidədə tikinti qalıqları, bəzək əşyaları, daş, keramika, sümük məmulatı, və əksəriyyəti xırdabuynuzlu heyvanlara aid sümük qalıqlarından ibarət maraqlı materiallara təsadüf olunmuşdur (4, s. 20).

Qazıntılar zamanı 1-1,6 metr dərinlikdə Orta Turc dövrünə aid dörd künc formada otaq qalıqları aşkar edilmişdir. Binanın divarları yonulmamış bərk cinsli daşla, gil məhlulla tikilmişdir. Salamat qalmış divarların hündürlüyü 30-60, qalınlığı 60-65 sm-dir.

Araşdırma zamanı qazıntılardan az miqdarda daş məmulatı, tuftan dən daşları, çaxmaq daşından quraşdırma oraq dişləri və süzgəclər, obsidian ox ucları, toppuzlar və s. əldə edilmişdir.

Keramikaya sadə və boyalı qab qırıqları daxildir. Tapıntılar başlıca olaraq qırmızı, qismən isə boz rəngli keramika ilə təmsil olmuşdur. Çəhrayı rəngli keramika arasında narıncı-sarı, ya da krem rəngli fonda qırımızı rəngli enli xətlərlə naxışlanan qablara da rastlanmışdır. Gil qablar forma və bəzəmə stilinə görə nekropoldakı nümunələri xatırladır (1, s. 9).

Qızılburun sakinləri təsərrüfat və məişətdə küpə, kosa, bodya, çölmək, xeyrə, çaynik, baza və s. gil qablarından istifadə etmişlər. Kasaları iki qrupa ayırmaq olar. Birinci qrup kasalar konus gövdəli yastı diblidir. İkinci qrupdakı boz rəngli kasalar naxışlıdır. Çölməklərin bir qrupu boyalıdır. Küpələr çəhrayı və boz rəngli olmaqla iki qrupa ayrılır. Çaynik tipli qablar geniş ağızlı kürə gövdəlidir (1, s. 10-11).

Bəzək əşyaları tuncdan hazırlanmış eynək şəkilli asma bilərzik, üzük, əqiq və muncuqlarla təmsil olunmuşdur (1, s. 11).

Naxçıvan ərazisində ilk metal əşyalar tapılan abidə Qızılburun adlı yer olub (7, s. 15).

Sümük məmulatlarına az miqdarda rast gəlinir. Buraya xırdabuynuzlu heyvan sümüyündən hazırlanmış bizlər daxildir. Qızılburun yaşayış yerinin materialları Kültəpənin, eləcədə Naxçıvan ərazisində indiyədək məlum olan bir çox başqa abidələrinin materialları ilə çox yaxın oxşarlıq təşkil edir. Arxeoloji materiallara əsasən demək olar ki, Qızılburun yaşayış yeri Orta Tunc dövründə Azərbaycanın başlıca istehsal mərkəzlərindən biri olmuşdur (2, s. 129).

Qızılburun yaşayış yerində həyat tərzi II minilliyin sonlarından Erkən Orta Dəmir dövrünün əvvəllərinə qədər davam etmişdir. V.H.Əliyev Qızılburun nekropolunun orta tunc dövrü materiallarını e.ə. XVII-XIV əsrlərə aid edir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
2. Baxşəliyev V.B. Azərbaycan Arxeologiyası (ali məktəb tələbələri üçün). Bakı: Elm, 2007, 240 s.
3. Cəfərzadə İ.M. Naxçıvan MSSR-də aparılmış arxeoloji işlər haqqında qısa məlumat Azərbaycan SSR EA Xəbərləri , № 5, 93-112 s.
4. Əliyev V. H. Azərbaycanın Tunc dövrü boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.
5. Əliyev V.H. Tarixin izi ilə. Bakı: Elm, 1975, 77 s.
6. Seyidov A.Q. Naxçıvan e.ə VII-II minilliklərdə. Bakı: Elm, 2003, 339 s.
7. Seyidov A.Q., Həsənova Ə. M. Naxçıvanın qəbim metalı. Bakı: Elm, 2005, 315 s.


**Расул Багиров**

## ПОСЕЛЕНИЕ ГЫЗЫЛБУРУН

Одним из археологических памятников долины Нахчыванчай является населенное место Гызылбурун, где были обнаружены первые металлические предметы и на основании исследования археологических материалов выявлено, что оно относится периоду срдне-бронзовому к.

**Rasul Bagirov**

## SETTLEMEN OF GIZILBURUN

One of the archeological monuments of the Nakhchivanchay valley is Gizilburun living place. From this living place first metal things were found. According to the analysis archeological materials this living place belongsto the middle Bronze Age.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. V.Baxşəliyev, tarix e.n. M.Əliyev.***

***Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin «Ümumi tarix» kafedrasının 25 dekabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 09).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**TOĞRUL XƏLİLOV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANDAKI SON TUNC VƏ ERKƏN DƏMİR DÖVRÜ ABİDƏLƏRİN AZƏRBAYCAN ARXEOLOGİYASINDA YERİ VƏ ƏHƏMİYYƏTİ

Naxçıvandakı Son Tunc və Erkən Dəmir dövrü arxeoloji abidələrin Azərbaycan arxeologiyasında yeri və əhəmiyyətini aydınlaşdırmaq üçün qeyd olunan məsələyə bir neçə kontekstdən yanaşmaq olar. İlk öncə bu dövr arxeoloji abidələrin yaranmasını şərtləndirən amillərə fikir vermək, orada məskunlaşmış tayfaların yaşayış tərzini öyrənmək lazımdır.

Arxeoloji mənbələrə nəzər salsaq görərik ki, Son Tunc və Erkən Dəmir dövründə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da yarımköçəri yaylaq maldarlığı ən yüksək inkişaf mərhələsində olubdur (1, s. 216). Bunun nəticəsində maldarlıq əsas təsərrüfat sahəsinə çevrilib, insanların məişət və təsərrüfat həyatında bir sıra dəyişiklər yaranıbdır. Yarımköçəri yaylaq maldarlığı ilə məşğul olan tayfalar əsasən dağlıq və dağətəyi yerlərdə məskunlaşaraq orada öz təsərrüfatları ilə məşğul olubdurlar. Təsərrüfatın inkişafı, heyvanların sayca artmasına səbəb olub sürüləri daimi yemlə təmin etmək zərurəti yaratmışdır. Bu hal isə qədim maldar tayfaları öz heyvan sürülərini yaşayış məskənlərinin yaxınlığında deyil, bir qədər uzaqlarda, çoxlu yem ehtiyyatına malik yerlərdə (əsasən dağlıq və dağətəyi zonalarda) otarılmasına səbəb olub, maldar tayfaların yarımköçəri həyat tərzi keçirməsinə gətirib çıxarıbdr. Yarımköçəri yaylaq maldarlığı ilə məşğul olan maldar tayfaların əsasən dağlıq və dağətəyi yerlərdə məskunlaşması həmin ərazidə onlarla bağlı arxeoloji abidələrin yaranmasına səbəb olmuşdur. Dağlıq və dağətəyi yerlərdə məskunlaşmış tayfaların mövsümi həyat tərzi keçirməsi nətiçəsində oradakı arxeloji abidələrdə (Sarıdərə, Kolanı, Qumluq, Dəmyələr və s.) aran ərazidəki yaşayış yerləri ilə müqayisədə çox az mədəni təbəqə toplanılmış, mədəni təbəqələşmə prosesi zəif getmişdir. Yaşayış yerlərindəki tikinti qalıqlarının təbii aşınmaya məruz qalması nəticəsində onların bir çoxunun düzgün planlı tikint qalıqları aşkar olunmamış, bəzilərində nisbətən salamat qalmışdır. Onlar ölçülərinə və tikinti texnikasına görə bir-birlərindən müəyyən qədər fərqlənsə də, əsasən oxşarlıq təşkil etmişdir. Bu fakt Son Tunc və Erkən Dəmir dövründə Azər-

baycanın bütün bölgələrində məskunlaşmış maldar tayfaların tikinti texnikası sahəsində oxşar mədəniyyətə malik olduğunu göstərmişdir.

Naxçıvandakı Son Tunc və Erkən Dəmir dövrü qəbir abidələrinin (nekropolların) müqayisəli şəkildə öyrənilməsi onu göstərmişdir ki, bu dövrə aid yaşayış yerləri kimi nekropollar arasında da oxşar və fərqli cəhətlər olmuşdur. Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da, bu dövrə aid nekropollar daş qutu, torpaq və kurqan tipli olmaqla üç böyük qurupa bölünmüşdür. Yarımköçəri yalaq maldarlığı ilə bağlı yaranmış nekropolların (Boyəhməd, Sarıdərə, Kolanı, Qumluq, Dəmyələr, İlikliqaya və s.) bir çoxunun yaşayış yerləri aşkar olunsa da, bəzilərinin (Zeyvə, Aşağı Daşarx (23, s. 163, 177), Haqqıxlıq, Batabat (22, s. 57, 67) yaşayış yerləri tapılmamışdr. Qəbir abidələrinin quruluşu, tapılan maddi-mədəniyyət nümunələrin oxşarlığı onu göstərmişdir ki, tarixin müxtəlif dövlərində olduğu kimi SonTunc və Erkən Dəmir dövründə də, qədim əkinçi-maldar tayfaların məişət və təsərrüfat həyatında, dini ideoloji görüşlərində bağlılıqlar olmuşdur.

Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da, Son Tunc və Erkən Dəmir dövrü qəbir abidələri skletli və skletsiz olmaqla iki qurupa bölünmüşdür (16, s. 64; 17, s. 85; 4, s. 50; 19, s. 6). Boş qəbirlər skletli qəbirlərlə müqayisədə azlıq təşkil etmişdir (Şahtaxtı, Qarabağlar).

Qəbir abidələrindən müxtəlif heyvan sümükləri iribuynyzlu (Bos taurus), dələ (Martes foina), quş (Aves gen), qoyun (Ovis), keçi (Capra), cüyür (Capreolus capreolus), maral (Cervus sp.) və s. (7, s. 135) köpək kəlləsinə aid çənə sümüyü tapılmışdır (22, s. 51). Bu heyvanlardan bir qismi ilə dəfnetmə adəti yalnız lokal xarakter daşımayıb, daha geniş yayılma arealına malik olmuşdur. İtlə və atla bağlı dəfnetmə adəti bu cür arxeoloji materiallardan olmuş Azərbaycanın bir çox bölgələri (Gədəbəy, Qalakənd (16, s. 66, 134), Xanlar, Dağlıq, Qarabağ (15, s. 117), Mingəçevir (2, s. 96), Tovuzçay (20, s. 5-30) ilə yanaşı, Cənubi Qafqaz (16, s. 134-137), Anadolu (9, s. 51), Altay (18, s. 232) və s. abidələrində rast gəlinərək Cənübi Qafqazdan, Sibir-Altay bölgəsinə, Aralıq dənizinə qədər olan ərazidə eyni mədəniyyətə, eyni inanclar sisteminə malik etnosun yaşadığını sübut etmişdir (16, s. 233).

Arxeoloji abidələrdən tapılan maddi mədəniyyət nümunələri içərisində gil qablar çoxluq təşkil etmişdir. Bu fakt isə onu göstərmişdir ki, Son Tunc və Erkən Dəmir dövründə insanlarn məişət və təsərrüfat həyatında gil qablardan daha çox istifadə olunub, dulusçuluq inkişaf etmiş sənətkarlıq sahələrindən birinə çevrilibdir. Qədim əkinçi-maldar tayfalar tərəfindən həmin qablardan təkcə yemək hazırlamaq üçün deyil, süd və süd məhsullarının saxlanılmasında, daşınmasında istifadə edilibdir. Qabların üzərinin müxtəlif ornamentlərlə naxışlanması dülusçuların bu sahədəki bacarıq və vərdişlərindən asılı olubdur.

Aparılan müqayisələrdən məlum olur ki, Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da, Son Tunc və Erkən Dəmir dövrü arxeoli abidələrindən aşkar olunmuş keramka nümunələri boz, çəhrayı və qara rəngli olmaqla forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənsə də, onlar arasında bəzi oxşar cəhətlər də olmuşdur. Qabların bir çoxu sadə düzəldilərək sığallanmış, bir qismi isə boyalı olmuşdur. Boyalı qabların hazırlanmasında Şumer-Elam mədəniyyəti ilə bağlılıq müşahidə edilmişdir. Son Tunc dövrünə aid qablar həm polixrom, həm də monoxrom rəngli olsa da, Erkən Dəmir dövründə qablar yalnız monaxrom rəngli hazırlanaraq əsasən qırmızı rənglə naxışlanmışdır (14, s. 63, 75). Qabların bəzədilməsində basma, cızma, çərtmə üsullarından, müxtəlif həndəsi ornamentlərdən istifadə edilmişdir. Onların bir qismi yerli sənətkarlığa xas xüsusiyyətlər daşıyaraq «Ş», «T» şəkilli ornamentlərlə bəzədilib (15, s. 70). Bəziləri yuvarlaq qabartmalarla, konnelyur ornamentlərlə naxışlanaraq Mingəçevir, Gəncəçay, Xaçbulaq abidələrindən tapılan Xocalı Gədəbəy mdəniyyəti qabları ilə oxşarlıq təşkil edərək həmin mədəniyyətin Naxçıvanda yayılmasını sübut edibdir (19, s. 53).

Xocalı Gədəbəy mədəniyyətinə aid xüsüsiyyətlərin çaynik tipili qablarda müşahidə olunması isə yerli mədəniyyətlərin (Naxçıvan və Xocalı Gədəbəy mədəniyyəti) Yaxın Şərq mədəniyyəti ilə bağllığını göstəribdir. Çünki, arxeoloji mənbələrə nəzər salsaq görərik ki, çaynik tipli uzun lüləkli qablar yalnız Naxçıvan və Azərbaycanın digər bölgələri üçün deyil, Urmiya zonası üçün də xarakterik olubdur (12, s. 37). Qabların bir çoxunda konnelyur ornamentlərin bir-biri ilə oxşarlıq təşkil etməsi, bəzilərində fərqlənməsi isə onların hamısının eyni istehsal ocaqlarında deyil müxtəlif sənətkar emalatxanalarında düzəldilməsi ilə bağlılq təşkil edibdir.

Naxçvandakı Son Tunc və Erkən Dəmir dövrü arxeoloji abidələrin müqayisəli şəkildə öyrənəilməsi zamanı həmçinin məlum olur ki, bu dövr arxeoloji abidələrdən yuxarıda qeyd etdiyimiz maddi mədəniyyət nümunələri ilə yanaşı müxtəlif daş və metal əşyalar da tapılmışdır. Onlar da digər maddi-mədəniyyət nümunələri kimi elm əhəmiyyət daşımşdır. Arxeoloj abidələrdən (III Sarıdərə, Kolanı, Haqqıxlıq, Qızılburun, Şahtaxtı, Qumluq, Dəmyələr və s.) tapılan əqiq, pasta, serdoliq muncuqlar, daş əmək alətləri, ox ucları, bəzək əşyaları və silahlar, Kolanıdakı üzəri oyma üsulu ilə işlənmiş qəbir daşları (5, s. 36), gil əyircək (22, s. 10) bu çür arxeoloji materiallardan olmuşdur. Əldə edilən maddi-mədəniyyət nümunələrinin tədqiqi onu qeyd etməyə asas vermişdir ki, Naxçıvandakı Son Tunc və Erkən Dəmir dövrünə aid arxeoloji qazıntılar zamanı tapılan gil qablar kimi silahlar və bəzək əşyaların da bir çoxu yerli sənətkarlığa xas olmuşdur. Bəziləri isə Ön Asiya, Yaxın Şərq, Xocalı Gədəbəy mədəniyyətinə aid xüsusiyyətlər daşıyaraq, həmin mədəniyyətlərin Naxçıvanda yayıldığını göstərmişdir. Qızılburundan, Şahtaxtıdan, Çalxanqaladan, Qalacıqdan tapılan üzəri şirlə örtülmüş pasta muncuqlar (3, s. 189), müxtəlif formalı silindirik möhürlər, şüşə muncuqlar (Dərəbadar, Şahtaxtı, Qızılburun nekropolundan tapılıb),

Xocalı Gədəbəy və Ön Asiya tipli xəncərlər (Boyəhməd, Кolanı, Dərəbadar, Qızılburun abidələrindən tapılıb) əldə olunmuş bu tip maddi-mədəniyyət nümunələrdən olmuş, Cürcüstan, Xaçbulaq, Şamxor, Cəlilabad (13, s. 74), Dovşanlı, Xocalı, Borsunlu, Bəyimsorov (11, s. 50) abidələrindən tapılan şüşə muncuqlarla, Gəncəçay, Xaçbulaq (10, s. 160), Mingəçevir (2, s. 121) şirli qabları ilə, tunc xəncərlərlə oxşarlıq təşkil etmişdir.

Sonda onu qeyd etmək olar ki, Naxçıvandakı Son Tunc və Erkən Dəmir dövrü arxeologi abidələrin Azərbaycan arxeologiyasında tutduğu yer böyük olmuşdur. Bu dövrə aid arxeoloji abidələrdən Xocalı Cədəbəy, Yaxın Şərq mədəniyyətinə aid maddi-mədəniyyət nümunlərin tapılması onu göstərmişdir ki, tədqiqatçıların qeyd etdiyi kimi Son Tunc və Erkən Dəmir dövründə Naxçıvanda qonşu tayfaların mədəniyytlərinin yayılması nəticəsində mədəniyyətlərin bir-birinə inteqrasiyası baş vermişdir (9, s. 37). Naxçıvandakı əkinçi-maldar tayfaların Azərbaycanın Şimalında və Cənubunda məskən salan tayfalarla, Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrində qədim köç yolları mühüm əhəmiyyət daşımışdır.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
2. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Деревний Мингечаур. Баку: Издво АН Азерб. ССР, 1959, 191 с.
3. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
4. Агайев Г.Г Шахтахты в эпохи поздней бронзы и раннего железа. Баку-Москва: Агрыдаг, 2002, 200 с.
5. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
6. Baxşəliyev V.B. Dəmyələr nekropolu Erkən Dəmir dövrünün yeni abidəsidir. AMEA Xəbərlər, № 4, Naxçıvan: Tusi, 2006, s. 84-89.
7. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
8. Baxşəliyev V.B. Gəmiqaya təsvirlərini poetikası. Bakı: Elm, 2002, 128 s.
9. Bahşeliyev V.B. Nahçıvan arkeolojisi. Arkeoloji ve Sanat yayınları, İstanbul, 1999, 140 s.
10. Cəfərov H.T. Azərbaycan e. ə. IV minilliyin sonu axırı-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzəsinin materialları əsasında). Bakı: Elm, 2000, 187 s.
11. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии и эпохи бронзы и раннего железа. Баку: Элм, 1984, 106 с.
12. Əliyev V.H. Tarixin izi ilə. Bakı: Gənclik, 1975, 77 s.
13. Əhmədov Q.M. Bu günə necə gəlib çıxmışıq. Bakı: Az SSR EA, 1989, 118 s.
14. Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 163 s.

15. Həbubullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR EA nəşriyatı, 1959, 134 s.
16. Xəlilov C.Ə. Qərbi Azərbaycanın Tunc dövrü və Dəmir dövrünün əvvəllərinə aid abidələri. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1959, 171s.
17. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкенсанского района. Баку: Агрыдаг, 1999, 179 с .
18. Qədilzadə H.Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003, 368 s.
19. Гусейнова И. К. Керамика Восточного Закафказья поздней бронзы и раннего железа XIV-IX вв. до н. э. Баку: Элм, 128 с.
20. Müseyibli N.Ə. Qədim Azərbaycanda itlərdən istifadə və it kultu/ Azərbaycan. arxeologiyası və etnoqrrafiyası, Bakı: Nafta-Press, 2008, s. 5-30.
21. Müseyibli N.Ə. Qədim Sədərək. Bakı: Nafta-Pres, 2003, 104 s.
22. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsnin arxeorloji abidələri. Bakı: Elm, 1992, 144 s.
23. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı: Elm, 1993, 181 s.

**Тогрул Халилов**

## МЕСТО И ЗНАЧЕНИЕ ПАМЯТНИКОВ НАХЧЫВАНИ В ЭПОХИ ПОЗДНЕЙ БРОНЗЫ И РАННЕГО ЖЕЛЕЗА В АЗЕРБАЙДЖАНСКОЙ АРХЕОЛОГИИ

В статье изучаеться место и значение памятников Нахчывани, относящися эпохи Поздней Бронзы и Раннего Железа в Азербайджанской археологии. Найденные археологические материалы систематизированы и сравнялись. Выяснена, что археологические памятники Нахчываны эпохи Поздней Бронзы и Раннего Железа имеют важное научное значение в изучении Азербайджана.

**Togrul Khalilov**

## THE PLACE AND IMPORTANCE OF LATE BRONZE AND EARLY IRON AGE MONUMENTS OF NAKHCHIVAN IN AZERBAIJAN ARCHAEOLOGY

İn the artcle has been defined the place and importance of Late Bronze and Early İron Age of Nakhshivan in Azerbaijan archeology. The cultural examples found are sistemized and compared. İt has been defined that, the Late Bronze and Early İron Age monuments play a great role in the study of the monuments in Late Bronze and Early İron Age in Azer-baijan archeology.

***Rəyçilər: Tarix e.n. R.Bağırov, tarix e.n. Ə.Bədəlov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ZEYNƏB QULİYEVA**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANIN ERKƏN TÜNC DÖVRÜ MƏDƏNİYYƏTİNİN MƏNŞƏYİ VƏ XRONOLOGİYASI

Qədim və zəngin mədəniyyətə malik olan Naxçıvan diyarı tarixin bütün inkişaf dövrlərindən keçmişdir. Daş dövründən başlayaraq müasir dövrə qədər bütün tarixi mərhələləri əks etdirən arxeoloji materiallar içərisində Erkən Tunc dövrünə aid olanlar mühüm yer tutur. Elmi ədəbiyyatda Kür-Araz mədəniyyəti kimi tanınan Naxçıvanın Erkən Tunc dövrünü abidələri çoxtəbəqəli yaşayış yerləri ilə fərqlənir. Bölgədəki I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, Ərəbyengicə, Xələc yaşayış yerləri, Dizə, Qarabulaq, Plovdağ və Xornu nekropolları əsas tədqiqat obyekti olmuşdur. Bəzi abidələrdə Erkən Tünc dövrü yaşayış yerlərinin Enoilit məskənləri üzərində salınması bu iki mədəniyyətin bir-biri ilə bağlılığını göstərir. I Kültəpə, II Kültəpə, Sədərək, Xələc və Ovçulartəpəsi kimi abidələrin timsalında bu əlaqəni aydın görmək olar. Erkən Tunc dövrünün mənşəyinin özündən əvvəlki yerli Eneolit mədəniyyəti əsasında formalaşması arxitektura qalıqları, keramika məmulatı, metallurgiya, əhalinin məşğuliyyəti və məişəti, o cümlədən inanclarında əks olunmuşdur.

I Kültəpənin Erkən Tunc dövrünün ilk mərhələsinə aid edilən dairəvi evləri quruluşununa görə Eneolit evlərini xatırladır. Abidənin stratigrafiyası Erkən Tunc dövrünə aid yaşayış məskəninin Eneolit təbəqəsi üzərində salındığını göstərir ( 1, s. 80-81; 8, s. 45-125). Alt qatlardakı evlər dairəsi planlı,üst qatlarda isə dairəvi formalı və dördbucaqlı artırmalı quruluşa malik olub, çaydaşı, çiy kərpic və möhrədən hörülmüşdür. Bu tip evlər Erkən Tunc dövrü təbəqəsindən də aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, düzbucaqlı tikintilər Eneolit dövrünün son mərhələsində meydana çıxmış və Erkən Tunc dövründə də istifadə edilmişdir. Bu Erkən Tunc mədəniyyətinin Eneolit mədəniyyətindən qaynaqlandığının sübut edən dəlillərdən biridir. Eneolit mədəniyyətinin arxitekturası ilə Kür-Araz mədəniyyətinin arxitekturası arasındakı bənzərlik Azərbaycanın bir sıra abidəllərində Azərbaycanda, o cümlədən Ovçulartəpəsi, Babadərviş, Mingəçevir və digər abidələrdə rastlanır (5, s. 112-113).

II Kültəpənin alt təbəqəsindən Erkən Tunc dövrünə aid dairəvi evlər və dördkünc artırmalı dairəvi evlər aşkar edilmişdir. Eyni quruluşlu, daş

təməl üzərində çiy kərpicdən hörülmüş tikinti qalıqları 1988-89-cu illərdə V.Əliyev və S.Aşurov tərəfindən Maxta Kültəpəsində də qeydə alınmışdır (7, s. 38-40). Bu evlər, şübhəsiz ki, Eneolit arxitekturasından bəhrələnmişdir. Bu baxımdan Ovçulartəpəsi yaşayış yeri daha diqqətəlayiqdir. Bu yaşayış yerində 2006-2008-ci illərdə V.Baxşəliyev, C.Marro və S.Aşurov tərəfindən aparılan qazıntıların stratiqrafik dəlilləri Eneolit dövrünə aid 3 tikinti qatının olduğunu üzə çıxarmışdır (6, s. 111-112). Evlər yarımqazma, yerüstü və dairəvi formalıdır. Birinci kvadratda aşkar olunan evlər dairəvi və dördkünc formalıdır. Altıncı kvadratda isə Kür-Araz mədəniyyətinə aid dairəvi binanın qalığı aşkar olunmuşdur.

Erkən Tunc dövrünün birinci mərhələsinin keramika məmulatında Eneolit dövrü üçün xarakterik olan kobud formada hazırlanmış və qeyri-bərabər bişirilmiş qablara rast gəlinir. I Kültəpənin Erkən Tunc dövrünə aid olan II təbəqəsindən tapılan keramika qum qarışığı olan gildən hazırlanmış və qeyri-bərabər bişirilmişdir. Bu cür qablara I Kültəpənin Eneolit təbəqəsində də təsadüf olunur. II Kültəpənin alt laylarında və Ovçulartəpəsində Kür-Araz mədəniyyətinə qabların tərkibində saman qarışığına rastlanır.

Eneolit qabları çəhrayı, bəzən də boz və qara rəngdə bişirilmişdir. Erkən Tunc dövrü keramikası buna bənzər olsa da bir qədər təkmilləşdirilmişdir. İlk vaxtlar üçün keyfiyyətli bişirilmiş və yaxşı anqollanmış çəhrayı, boz və qara rəngli qablar, ikinci mərhələ üçün çəhrayı astarlı boz və qara rəngli yaxşı cilalanmış qablar,üçüncü mərhələ üçün yüksək səviyyədə bişirilmiş nazik divarlı,xarici səthinə qara boya çəkilərək cilalanmış qablar xarakterikdir (3, s. 43-71). Eneolit dövründə kobud hazırlanmış və səliqəsiz naxışlanmış qablar Erkən Tunc dövründə daha səliqəli üsulla istehsal edilmiş, ağzının kənarı relsşəkilli və yaxud xaricə doğru kvadratşəkilli çıxıntılarla təmin edilmişdir. Son dövr üçün qabların ağzı ilə gövdəsinin yuxarı hissəsini birləşdirən ilgəkşəkilli qulplar xarakterik olmuşdur. Araşdırmalar bu qulpların Eneolit qulplarından törədiyini deməyə əsas verir.

Eneolit mədəniyyətindən Kür-Araz mədəniyyətinə keçid özünü Ovçulartəpəsi yaşayış yerində daha aydın göstərir (2, s. 31; 6, s. 115-116). Ovçulartəpəsinin Erkən Tunc dövrü keramikası samanqarışığı olan gildən hazırlanması, daraqvari naxışlarına görə Eneolit keramikasını xatırlatsada keyfiyyətinə və formasına görə fərqlidir.

Ovçulartəpəsi Erkən Tunc dövrünün mənşəyini dərindən öyrənmək, Naxçıvanın Mesopotamiya və Şərqi Anadolu ilə əlaqələrini araşdırmaq baxımından mühüm tədqiqat obyekti hesab olunur. I Maxta Kültəpəsindən aşkar edilən keramika nümunələri əsasən çəhrayı və boz rəngdə bişirilmiş gil qab sınıqlarından, ocaq qurğularından ibarət olub, Erkən Tunc dövrü tayfalarının dulusçuluqda əldə etdiyi nailiyyətlərinin ən yaxşı göstəricilərindən hesab edilir. Bu dövrün ilk mərhələsinə aid materiallar Eneolit materialları ilə analogiya yaradır, sonrakı inkişaf səviyyəsi Eneolit mədəniyyətinin uzunmüddətli tərəqqisi sayəsində yaradılmışdır. Erkən Tunc dövrünə

aid bikonus formalı, yuvarlaq, silindirik boğazlı çölmək, banka, küpə tipli qablar formaca Cənubi Qafqazın və qədim Şərqin Eneolit keramkasına bənzəyir. Belə qabların ilk nümunələri I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, Göytəpə və Yanıqtəpənin Eneolit təbəqəsində aşkar olunmuşdur (2, s. 43-64; 8, s. 45-125). Konusvari gövdələr, vazatipli və bankatipli qablar quruluşuna görə Eneolit keramikası ilə sıx bağlıdır.

Bu əlaqə özünü metallurgiyanın inkişafında da göstərir.Naxçıvan dünyanın ilk qədim metalişləmə ocaqlarından biri kimi tanınmışdır (9, s. 30-43). Metal emalı ilə bağlı kürələr e.ə IV minilliyin ortalarında dağmədən işinin və metallurgiyanın bir-birindən ayrıldığını göstərir. II Kültəpənin ilk Tunc dövrü təbəqəsindən aşkar olunan metaləritmə kürəsinin və metalişləmə emalatxanasının qalıqları bu sahənin ayrıca peşə sahəsinə çevrildiyini göstərir. I Kültəpədən e.ə.VI-V minilliklərə aid mis əmək alətləri və bəzək əşyalarının bəzisinin süni arsen qarışığından hazırlanması, hələ Eneolit dövründə tunc metallurgiyasının əsasının qoyulduğunu göstərir. Erkən Tunc dövründə metalın təkrar emalı üçün kürələr meydana çıxır. I Kültəpədən tapılan tunc baltalar və nizə ucluqları, metal əmək alətləri, II Kültəpədən aşkar olunan bıçaq, xəncər və nizə ucluqları Naxçıvanda metallurgiyanın yerli zəmində inkişaf etməsi ilə yanaşı, Cənubi Qafqaz və Şərq ölkələri ilə qarşılıqlı əlaqədə olduğunu göstərir. Beləliklə, əsası Eneolit dövründə qoyulan Naxçıvanın metallurgiyası Erkən Tunc dövründə qonşu ölkələri hazır metal məmulatı ilə təmin edən istehsal mərkəzlərindən biri hesab olunur. Ovçulartəpəsində 8-ci kvadratdan tapılan Eneolit dövrünə aid mis filizinin qalıqları, metal iynələrin parçaları Naxçıvanda metalişləmənin əsasının Eneolitdə qoyulmasını, Tunc dövründə isə əsas məşğuliyyət sahələrindən birinə çevrildiyini təsdiq edir (6, s. 112).

Erkən Tunc dövrü mədəniyyətinin xronologiyası ilə bağlı müxtəlif fikirlər olmuşdur. Bir vaxtlar bu mədəniyyətin e.ə. III minilliyi əhatə etdiyini irəli sürən tədqiqatçıların (B.A.Kuftin, B.B.Piotrovski, O.H.Həbubullayev) fikirlərindən fərqli olaraq R.M.Munçayev I Kültəpə, Babadərviş, Şulaveri, Amiranisqora və digər yaşayış yerlərin strategiyasına əsaslanaraq Erkən Tunc dövrü mədəniyyətini e.ə. IV-III minilliklərə aid edilmişdir. Q.S İsmayılov da bu fikri eynilə təsdiq edir. V.Baxşəliyev arxeoloji materiallara əsaslanaraq gil məmulatlarının hər üç inkişaf mərhələsini təhlil edərək Erkən Tunc dövrünün ilk mərhələsini e.ə. IV minilliyin ortaları və III minilliyin ortalarına aid etmiş və Erkən Tunc dövrünün e.ə. IV minilliyin əvvəlindən başlandığını qeyd etmişdir (5, s. 115). Naxçıvanda Erkən Tunc dövrü mədəniyyətinin ilk mərhələsi I Kültəpə və II Kültəpənin alt qatlarının materialları ilə səciyyələnirdi. Lakin Ovçulartəpəsi və Ərəbnungicə yaşayış yerlərinin tədqiqi yeni materiallar üzə çıxarmış və Naxçıvanda Erkən Tunc mədəniyyətinin Eneolitdən qaynaqlandığını deməyə imkan vermişdir. Qeyd etmək lazımdır ki, Erkən Tunc dövrünün erkən formalaşdığı ərazi Naxçıvan-Urmiya bölgəsi olmuş, buradan Cənubi Qafqaz, Şərqi Anadolu və Azərbaycanın digər rayonlarına yayılmışdır. Bu dövrdə Naxçıvanda məs-

kənləşən qədim tayfalar Azərbaycan xalqının etnogenezinin formalaşmasında da mühüm rol oynamışdır. Erkən Tunc dövrü mədəniyyətinin vətəni Naxçıvandır (4, s. 28). Çünki bu dövrün ən tipik, zəngin və çox təbəqəli abidələri olan I Kültəpə və II Kültəpə, I Maxta Kültəpəsi, Ovçulartəpəsi, Daşarx və başqaları Naxçıvanda aşkar edilmişdir. Bu dövrün mənşəyinin Eneolit dövrü ilə bağlılığını Naxçıvandaki I Kültəpə, II Kültəpə, Şərurda I Maxta Kültəpəsi, Ovçulartəpəsi, Ərəbyengicə, Xələc yaşayış yerlərində aparılmış tədqiqatlar sübüt edir. Erkən Tunc dövrünün arxitekturası Eneolit memarlığının davamı olaraq dairəvi və dördkünc planda möhrə və çiy kərpicdən hörülmüşdür. Evlərin interyeri, ocaq yerləri, təsərrüfat quyuları, sütunlar, döşəmənin gillə suvanması Eneolitdən Erkən Tunc dövrünə keçidin xarakterik xüsusiyyətlərindəndir. Lakin yeni dövrdə bəzi dəyişikliklər nəzərə çarpır, birhissəli ocaqlar, ikihissəli ocaqlarla əvəz edilir, keramika sahəsində samanqarışığı, qum qarışığı ilə əvəz edilir qulplar yarımşarşəkilli forma alır. Qablar daha yaxşı bişirilməsi, keyfiyyətli hazırlanması ilə fərqlənir, daraqşəkilli naxışların yerində zərif həndəsi ornamentlərə malik cilalanmış qablar meydana çıxır. Erkən Tunc dövrü tayfaları metallurgiya sahəsində döymə, tökmə üsulları ilə qəliblərdə müxtəlif tipli əmək alətləri,bəzək əşyaları, silahlar hazırlamaqla Eneolit dövründəki sələflərini xeyli geridə qoyurlar. Əkinçi-maldar tayfalar, sənətkarlar Eneolit dövründə əldə etdikləri nəaliyyətləri təkminləşdirərək Erkən Tunc mədəniyyətini yaratmışdılar.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar. Bakı: Nafta-Press, 2003, 120 s.
3. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: Nafta-Press, 2002, 158 s.
4. Bahşaliyev V.B. Nahçıvan arkeolojisi // Archaeology of Nahchivan. İstanbul, 1997, 128 s.
5. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı: Elm, 2007, 240 s.
6. Baxşəliyev V.B., Catherine M., Aşurov S.H. Ovçulartəpəsi yaşayış yerində arxeoloji qazıntılar/ AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2008, № 1, s. 111-116.
7. Əliyev V., Aşurov S. Maxta Tunc dövrü abidələri. Azərbaycanda arxeologiya və etnoqrafiya elminin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1992, s. 38-40.
8. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minillikdə. Bakı: Elm, 2003, 339 s.
9. Бахшялиев В.Б. Металлургия и металлообработка на территории Нахичевани. Баку: Элм, 2005, 120 с.

**Зейнеб Кулиева**

## ГЕНЕЗИС И ХРОНОЛОГИЯ КУЛЬТУРЫ ЭПОХИ РАННЕЙ БРОНЗЫ НАХЧЫВАНА

Исследования памятников энеолита и ранней бронзы показывают, что раннебронзовая культура Нахчывана развивалась на базе энеолитической культуры. Переход от энеолита к ранней бронзы особенно хорошо прос-леживается в керамике.

**Zeyneb Kuliyeva**

## THE ORIGIN AND CHRONOLOGY OF EARLY BRONZE CULTURE OF NAKHCHIVAN

Researches monuments of Chalcolithic and Early Bronze Age show, culture of Early Bronze of Nakhchivan has arisen from Chalcolithic culture. It affirms the rests of architecture, ceramics and other is material-cultural rests. Transition from энеолита to early bronze is very well traced in ceramics.

***Rəyçilər: Tarix e.n. S.Aşurov, tarix e.n. F.Quliyev.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**HACI QADİR QƏDİRZADƏ**
AMEA Naxçıvan Bölməsi

# DUZDAĞ VƏ DUZLA BAĞLI BİR NEÇƏ SÖZ

Tarixi məlumatlara, qədim maddi mədəniyyət nümunələrinə və etnoqrafik mənbələrə söykənərək demək olar ki, insanlırın məskunlaşmasında təbii-coğrafi şəraitlə bərabər onların gündəlik tələbatlarının ödənməsi şərtləri də əsas amillərdən sayılmışdır. İlkin insan məskənlərini araşdıranlar hər şeydən öncə təbii sığnaqlara, mağara və zağalara böyük önəm verirlər. Bu dövr mədəniyyəti araşdırıcılar tərəfindən müxtəlif adlarla təqdim edilir. Bizcə bunun ən mükəmməl adı mağara mədəniyyətidir. Özlərinin təhlükəsizliyini təmin etmək, təbii amillərdən və iqlim şərtlərindən qorunmaq məqsədi ilə hələ kollektiv halında yaşamaqdan özgə çarəsi olmayan, ikili ailənin formalaşmadığı, uşaqların fiziki və mənəvi tərbiyəsində, mağara məişətinin qorunub saxlanmasında anaların payının üstün olduğu bir mərhələdə mağara mədəniyyətindən kənara çıxmaq mümkün deyildi. Başlıca şərt lazım olan gündəlik qidanı təmin etmək, mağara kollektivini, müəyyən qohumluq bağları olan insanları qorumaq və uşaqları tərbiyə etmək idi. Təbii ki, bu digər canlıların birlik formasına məxsus olan fiziki və maddi təminat oxşar idi. Lakin Allahın yüksək şərtlər daxilindən yaratdığı, müxtəlif bilik və bacarıqlar verdiyi insan düşüncə mənbəyi, yenilik etmək, rast gəldiyi hər bir hadisəni, əhatə olunduğu mühiti öyrənmək, bir-birləri ilə qarşılıqlı yardımda və təmasda olmaq qabiliyyətinə görə dəyişir və inkişaf edirdi. Onlar zaman-zaman mağarada formalaşdırdıqları mədəniyyətlər məcmununu təbii-coğrafi şəraitə uyğunlaşdıraraq ətrafa yaymağa başladılar. Beləliklə, digər yerlərdə olduğu kimi Naxçıvanda da insanlar yeni yaşayış məskənləri, məşğuliyyətlərinə uyğun yerlər seçdilər. Min illər boyu mağarada formalaşmış mədəniyyət inkişaf edərək təbii-coğrafi şəraitə, əhalinin məşğuliyyətinə uyğun olan yeni yaşayış məskənlərinə, oradan şəhərsalma və dövlət qurmaya yüksəldi.

Tarixi dəlillərə söykənərək demək olar ki, Naxçıvanda mağaradan şəhərə, oradan dövlətə, hətta müasir sivilizasiyaya qədərki inkişaf qırılmayan xətt üzrə davam etmişdir. Bu kiçik başlanğıcı verməkdə əsas məqsədimiz ondan ibarətdir ki, Naxçıvanda elmi cəhətdən araşdırılmış və araşdırmaların davam etdiyi Qazma mağarasından (bizcə ərazimizdə belə mağaraların sayı bir neçədir, yəqin ki gələcək araşdırmalar nəticəsində onlar aşkar

ediləcəkdir) başlayan mədəniyyəti babalarımız inkişaf etdirmiş, nəsillərdən-nəsillərə ötürərək yaşatmış və bugünkü varislərinə çatdırmışlar. Həmin mədəniyyətin ilkin sahibləri də, eyni soydan gələn insan birliyindən etnik birliyə və nəhayyət türk adlı milli birliyə yüksəldən də bizlərik.

Bu birliyin və mədəniyyətin formalaşmasında bir çox amillər ciddi rol oynamışdır ki, onlardan ayrı-ayrı müəlliflər geniş bəhs etmişlər. Bu yazımızda biz həmin məsələlərdən biri – duz və onun yerləşdiyi Duzdağdan bəhs etmək niyyətindəyik.

Tarixi mənbələrdə Duzdaqla bağlı o dərəcədədə geniş məlumat yoxdur. X1X əsrin ikinci yarısından başlayaraq burada çalışan bir sıra mühəndislər qədim duz mağaraları, oradan aşkar edilmiş daş alətlərlə maraqlanmışlar. 1870-ci ildə burada çalışan Bayer bir neçə daş balta tapmışdır. K.A.Nikitinin məlumatından aydın olur ki, o tapdığı baltalardan ikisini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını Tiflis və Peterburq muzeylərinə göndərmişdir (8, s. 115). Sonrakı dövrlərdə İ.S.Polyakov və P.N.Nadejdin buradan bir neçə daş balta və digər tapıntılar əldə etmişlər. Duzdağ mədənlərinin arxeoloj cəhətdən tədqiqi keçən əsrin 70-ci illərində yenidən başlanmışdır. Bunlar da təsadüfi tapıntılarla bağlı olmuşdur. 1967-ci ildə uçqun zamanı və 1976-cı ildə Duzdağda qazma işləri apararkən qədim şaxta aşkar edilmişdir. Həmin vaxt şaxtada ilkin araşdırmalar aparmaq məqsədilə arxeoloq V.Əliyev məni və Q.Ağayevi də ora apardı. Xatırımda qaldığı qədər Vəli müəllim ilkin tədqiqatla bağlı «Elm və həyat» jurnalında, sonra isə Az. SSR EA «Xəbərlər» ində məqalə nəşr etdirmişdir (3). Buradakı araşdırmalar zamanı mənim diqqətimi daha çox salonların quruluşu cəlb etmişdi. Şaxtacı fanarlarının işığında sanki büllur saray canlanırdı. Hər yer almaz kimi parlayan duz kristalları idi. Bizim üçün şərti olaraq başlanğıc hesab edilən salondan sonra bir-birindən xüsusi tağlar vasitəsi ilə ayrılan 2 salona da keçə bildik. Salonlar elə qazılmışdı ki, möhkəmliyi qoruna bilsin. Keçid xarakterli tağlar xüsusi memarlıq işini xatırladırdı. Axtarışlar zamanı aşkar edilmiş heyvanat ifrazatı, qamçı tipli qalıntı, araba izləri və s. buradan uzun müddət duz çıxarıldığını sübut edir. Biz 3-cü salondan sonra gedə bilmədik. Arxada 4 salon görünsə də qabaq tərəf uçub tökülmüşdü. Bizimlə həmin yerə girmiş mühəndis bildirdi ki, ora keçmək qorxuludur, titirəyişdən hər an uçqun ola bilər. Geri qayıdarkən qeyri ixtiyari mühəndisdən soruşdum ki, bu nə məftildi tavandan sallanır? O cavab verdi ki, bu məftil deyil, sadəcə min illər boyu sıxılaraq təbii formada yaranmış duz axınıdır.

Mən həmin vaxt belə düşünürdüm ki, bu salonlardan həm tibbi, həm də hərbi məqsədlə istifadə etmişlər. Xalq arasında bura ilə bağlı müxtəlif rəvayətlər hələ də yaşamaqdadır. Deyirlər ki, guya Qaşın altı bütövlükdə boşdur, Duzdağdan Qaraquca (Qaravuşa) qədər yeraltı yol var. Guya keçmişdə məlum məsafədən havalanma üçün xüsusi bacalar açılmışdır. Bu həm də işıqlandırma rolunu oynamışdır.

Duzdağ ərazisində geniş tədqiqat işləri 2006-2008-ci illərdə, Vəli Baxşəliyev və Katiri Marronun rəhbərliyi ilə aparılmışdır. Araşdırmalar nəticəsində buradan müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı Eneolit, Erkən Tunc, Dəmir dövrlərinə və Orta əsrlərə aid keramika materialları əldə olunmuşdur (2, s. 88-90). Həmin tapıntılara söykənərək demək olar ki, Duzdağda həyat, duz çıxarılması işi Daş dövründən günümüzə qədər davam et-miş dir.

Duzdağ, buradan duz çıxarılması ilə bağlı ümumi və statistik məlumatlara K.A.Nikitinin (8), V.Qriqoryevin (7) əsərlərində rast gəlirik. Naxçıvanda duz istehsalı, onun satışı və digər məsələlərlə əlaqəli Z.Şahverdiyevin kitabında (6), Y.Rəhimovun məqaləsində (5, s. 75-79) geniş məlumat verilmişdir. Yuxarıda göstərilən məndələr daha çox Duzdağın qədim dövrünə aid tarixi-iqtisadi məsələləri, statistik məlumatları əhatə edir. Ümumiyyətlə bizim məlumat xarekterli yazımız (4, s. 43-45), R.Babayevin məqaləsi (1, s. 144-146) istisna olmaqla Duzdağ və duzla bağlı məsələlər folklor və etnoqrafik baxımdan tədqiqata cəlb edilməmişdir. Mövcud boşluğu nəzərə alaraq biz problemin etnoqrafik cəhətdən araşdırılmasını qarşıya məqsəd qoymuşuq.

Tarixdə Naxçıvan və Duzdağ, Naxçıvan duzu xüsusi yer tutur. Duzdağ Allahın, tarixi Naxçıvana, bütövlükdə onun duzunun çatdırıla bildiyi insanlara ən böyük bəxşişidir. Dərələyəz dağ silsiləsindən cənuba, Araz çayına qədər uzanan Duzdağ dağ silsiləsi tarixi Naxçıvan ərazisinin mərkəzi olmaqla sanki onun tənbölənidir. Min illər boyu dörd istiqamətə gedən karvanlar yükünü bu dağın cənubundan, indi xalq arasında Duzdağ kimi bilinən yerdən tuturdu. Hələ karvanların yola düzülməsindən, tarixlərin yazılmasından min illər öncə, mağara sakinləri və oradan çıxıb yeni yaşayış məskəni salan insanlar Duzdağa yaxın olmağa çalışırdılar. Milyon illər boyu duzla örtülmüş bu ərazidə daimi məskən salmaq zor idi. Nə qədər zor olsa da insanlar bura duz çıxarmağa, çölün vəhşiləri, qoyun-keçi sürüləri duz yalamağa gəlirdilər. Bu tarixdən əvvəlki, İlahi nizamın pozulmadığı zaman idi.

Duzdağın Cəhri kəndi və qərb istiqamətindəki əraziləri Şorakət adlanır. Burada bitən çoxlu şorangah bitkiləri heyvanların şorunu alması üçün yetərli idi. Cəhri kəndinin heyvandarları deyirlər ki, Qaşın otu (Cəhri kəndində Qaravuşdan başlamış Duzdağa qədər uzanan dağ silsiləsi – Duzdağ silsiləsi belə adlanır) yağlı və şor olduğundan orada otlayan heyvanların əti və südü dadlı olur. Bir zamanlar Naxçıvan ərazisində dadı ilə seçilən Cəhri kəndinin ətin dadının sirri bundadır. Heyvanlar həmişə Şorakətə aparılmazdı. Daha çox payızda, sürülər arxaca yendiriləndə buralara gələrdilər. Çünki yayda heyvanlar yaylağa qaldırılırdı. Digər tərəfdən isti vaxtlarda bu ərazidə içməli su problem idi. XIX əsrdə Naxçıvanda olmuş bir sıra müəlliflər Duzdağın ətrafında yaşayış məskənləri və içməli su olmadığını qeyd edirlər. K.A.Nikitin yazır ki, bura içməli su Naxçıvan şəhərindən 12 verst aralı olan ərazidən gətirilmişdir (8, s. 138).

Toplanmış etnoqrafik məlumatlara və arxeoloji materiallara söykənərək demək olar ki, qədim dövrlərdən başlamış ilk orta əsrlərdə, bir az da ondan sonrakı dövrlərdə Duzdağın indi duz çıxarılan ərazisinin şimal-şərqində, tarixə açıq üsulla duz çıxarılan yerlərin şərqində, Cəhri kəndi ərazisində Qoşatəpə, Əyriarx, Tülkütəpəsi, Binətəpə kimi yaşayış məskənləri mövcud olmuşdur. Kəsə yolla Duzdağın 2-3 km-də yerləşən Qoşatəpə yaşayış yerinə isə su başlanğıcını Cəhriçayından, Çalxandağının ətəyindən götürən və el arasında Xaraba Peşov, Peşov və Orta arxlar vasitəsi ilə gətirilmişdir. Bunlarla yanaşı hazırda el arasında Arxacqabağı adlanan yerin yaxınlığından çıxan və «Qamışlıq» adlanan bulağın suyundan da istifadə edilmişdir. Duzdağa içməli su bu istiqamətlərdən gətirilmişdir. Digər su mənbəyi bu yaxınlarda yol-tikinti işləri zamanı Duzdağın sağ tərəfindən aşkar edilmiş köhnə kəhriz sistemi olmuşdur.

Bütövlükdə Duzdağda içməli su məsələsinə gəlincə, burada içməli suya geniş tələbat olmamışdır. Çünki keçmişdə duz çıxarmaq daha çox fərdi xüsusiyyət daşıyırdı. İşləməyə gələnlər at, ulaq vasitəsi ilə özlərinə su gətirirdilər. Yəni, burada içməli su problemi olmamışdır. Gətirilmiş sular səhənglərdə duz lağımlarına qoyulurdu. Yayda lağımlar sərin olduğundan su yaxşı saxlanırdı. Mövsümü iş zamanı buradakı müvəqqəti yaşayış yerlərində-qazmalarda yaşayanlara isə su digərləri tərəfindən gətirilirdi.

Duzdağ el arasında müqəddəsdir. O qorunmuş, insan ömrü onunla müqayisə edilmiş, dua, alqış yerinə çevirilmişdir: «Səni görüm ömrün Duzdağına dönsün» Naxçıvanda söylənir bu alqış, istək. Burada edilir bu dua. Görəsən qarşısındakına nə diləyir dua edən!? Niyə Duzdağına, nədən ondan hündür, əzəmətli olan Ağrı dağına, ətrafdakı digər dağlara deyil, məhz Duzdağına dönməsini istəyir. Bu bir hikmətdir, el hikmətidir. Hər kəsə, hər yetənə belə dua etməzlər. O adamlara edərlər ki, onlar həyatlarını dost-tanışın, qohum-əqrabanın, elin xeyrinə, haqqa, ədalətə sərf edər, əldən tutar, faydalı ömür yaşayarlar. Ətrafda heç bir dağ insanların, heyvanların faydası üçün öz ömrünü, varlığını ortaya qoymayıb. Neçə on min illərdir ki, Duzdağın ömru kəsilir. O bitib tükənmək bilmir. İnsanlarla birgə ömür yaşayır Duzdağ. Buna görə də onun varlığı insan ömrü ilə müqayisə edilir. İnsanlara da Duzdağ kimi faydalı və uzun ömür arzulayırlar.

Duzdağ əzəmətinə, hündürlüyünə görə dağ adlanmır. Ətrafında ondan hündür, onunla eyni səviyyədə olan yerlər təpə adlanır. Duzdağ sərvət dağıdır, bərəkət hündürlüyüdür. Elmi ədəbiyyatda Ələyəz dağlarında ayrılıb cənub istiqamətinə uzanan silsilə Duzdağ silsiləsi adlanır. Lakin el arasında bura Qaş, Cəhrinin qaşı deyilir. Duzdağ isə onun cənub hissəsini, təşkil edir.

Xalq arasından toplanmış materiallara əsaslanaraq demək olar ki, qədim zamanlardan Duzdağdan duz çıxarılması Cəhri kəndinin nəzarətində olmuşdur. Tarixi mənbələrə əsaslanaraq Z.Şahverdiyev yazır ki, XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə istisnasız olaraq Cəhri kəndinin sakinləri məşğul olmuşlar. Lakin Kalbalı xanın vaxtında, XIX əsrin

əvvəllərində cəhrililər bu işdən kənarlaşdırılmışdır (6, s. 84). Rəsmi göstərişə baxmayaraq Cəhri kəndinin sakinləri XX əsrin 30-cu illərinə qədər Duzdağ ərazisindən duz çıxarmaqda davam etmişlər.

Duz çıxarılmasında lom, külüng, dəmir guppanla bərabər qədimdə olduğu kimi daş alətlərdən də geniş istifadə olmuşdur. Bunlar içərisində çəkisi 2-3 pud olan daş guppanlar diqqəti daha çox cəlb edir. Ucları sivri düzəldilmiş guppanlardan duz uçqunu yaratmaq üçün istifadə olunurdu. Ortasındakı kan yerindən ip bağlanaraq müəyyən hündürlükdəki mıxdan asılı olan guppan ortasına bağlanmış ip vasitəsi ilə geri çəkilib buraxılırdı. Ağır zərbə ilə duz layına dəyən alət duz sallarını qırıb tökürdü.

Təbii ki, daş alətlərdən istifadə olunması daş dövründən başlamışdır. Lakin Duzdağda istifadə edilən alətlərin müəyyən hissəsi sonrakı inkişaf mərhələlərində yerli ustalar tərəfindəndə düzəldilmişdir. Yəni, alətin daşdan olması o demək deyil ki, onun hamısı daş dövrünə aiddir. Lakin daşla duz çıxarılması ənənəsi ibtidai insanlardan bizə qalan mirasdır. Buna görə də buradan aşkar edilmiş alətləri dövrləşdirərkən tarixilik məsələsinə xüsusi diqqət verilməlidir. Cıxarılan duz bir necə formada olurdu: Sal duz, Xınc və Narın duz.

Məişətdə narın duzdan daha geniş istifadə edilmişdir. O bir neçə üsulla hazırlanırdı. Hələ Duzdağda olarkən duz sallarının ən təmiz, gili az olanı ayrıca yığılırdı. Həmin sallar həyətlərə gətirildikdən sonra yuyulub qurudulur, müəyyən daş və ya çəkiclə əzilərək xınc formasına salınırdı. Əzilmiş, xırdalanmış duzlar müxtəlif ölçülü dibək daşlarında döyülürdü. Dibək daşının döyən, əzən, əldə tutulan hissəsi də (əl daşı) daşdan düzəldilirdi. Döyüldükcə dibəyin içərisindəki duz çevrilirdi ki, o tam narınlaşsın. Toplanmış materiallara əsaslanaraq demək olar ki, tutumuna və böyüklüyünə görə dibək daşları bir-birindən fərqlənmişdir. Şəxsi həyətlərdə olan dibək daşları kiçik olmaqla yığcam idilər. Lakin hər məhəllədə, mərkəzi meydanın kənarında böyük dibək daşları olurdu. Bu daşları götürüb aparmaq, yerini dəyişmək çətin olduğündan məhəllə sakinlərinə lazım olan duz orada döyülərdi.

Duz qış ruzisi sayılmaqla hələ yaydan onu döyüb hazırlayırdılar. Böyük ailələrdə duz çox istifadə edildiyindən onu dibəkdə döyüb çatdırmaq çətin olurdu. Buna görə də duzu kir-kirədə (dəstər, əl dəyirmanı) çəkirdilər (üyüdürdülər). Kirkirədə duz çəkmək çətin olduğundan bu işdə qadınlara evin kişiləri  xüsusən oğlan uşaqları da yardım edirdilər. El arasında deyirdilər ki, hər adam kirkirədə duz çəkə bilməz. Çünki, onun qaydasını bilməyənlər daşı sürtdürə bilərlər. Beləliklə, daş ovulub duza qarışar. Eyni zamanda kirkirə dişəkdən düşər. Məlum olduğu kimi belə daşlar xüsusi adamlar tərəfindən dişənir. Yəni xüsusi alətlə daşı çopurlaşdırılır (onda kiçik çıxıntılar oyulur). Daş hərləndikdə həmin çıxıntıların (dişəklərin) arasında qalan duzlar un kimi üyünür. Bilindiyi kimi kirkirədə təkcə duz çəkilmirdi. Burada yarma, qovud çəkilir, bir sıra toxumlar üyüdülürdü. Dişəkdən düşmüş kirkirə üyüdmək xüsusiyyətini itirirdi. Qeyd edək ki,

kirkirə hər evdə olmazdı. Buna görə də ev sahibi onda kənar adamların duz üyütməsinə icazə vermirdi. Etnoqrafik materiallara söykənərək demək olar ki, kəndlərdə bu işlə məşğul olan adamlar var idi. Onlar kirkirəni duz üyütməyə (çəkməyə) verərkən əvəzində pul və ya natura formasında nə isə alırdı. Lakin bu çox az halda olardı. Xalq arasında belə alətlər «ehsanlıq» adlanmaqla qohum və qonşular arasında ücrətsiz istifadə olunardı.

Ağ duz xüsusi qaydada hazırlanırdı. Duz xınc halına salındıqdan sonra onu isti suda həll edirdilər. Tam bulanıq məhlul adlanırdı. Alınmış məhlulu müəyyən müddət bir qabda saxlayırdılar. Duzun gili, qarası çökürdü qabın dibinə, sonra qatı duzlu məhlulu ayrı bir qaba süzüb qaynadırdılar. Xalq arasında deyirlər ki, ağlığına baxmayaraq belə duzların dadı olmur.

Narın duz ayrıca qablarda-duz çuvallarında saxlanırdı. Duz çuvalları müxtəlif ölçülü və naxışlı olmaqla xüsusi qaydada toxunur və ya palaz materialından tikilirdi.

Duz çuvalları evin bir küncündə, su toxunmayan yerdə saxlanılar və çox nadir halda yerindən tərpədilərdi. Bunun təsiridir ki, evdə çox oturmağa məcbur edilən qız-gəlinlər «Mən duz çuvalı deyiləm ki, evin bir küncündə qalam» - deyərdilər. Duza böyük inam olduğundan duz çuvalı, duz qabı ciddi şəkildə qorunardı.

Məişətin digər sahələri ilə yanaşı duz heyvandarlıqda geniş istifadə edilirdi. Buna görə də heyvanlar yaylağa qaldırılarkən həll edilən əsas məsələlərdən biri də duzla təminat idi. Etnoqrafik çöl materiallarına söykənərək demək olar ki, bütün yurd yerlərinin ətrafında böyük qayalarda yonulmuş dibəklər və duz daşları olurdu. Döyülmüş duz yastı və hamar daşların üzərinə səpilər, sonra heyvanları duz yalamağa ötürərdilər. Uzun illər yalandığından belə daşlar çox hamar olmaqla oba camaatı tərəfindən «duz daşı» kimi bilinirdi. Heyvanlara bu qaydada duz verilməsi daha çox xırdabuynuzlulara aid idi. İribuynuzlu mal-qara üçün duz sal şəklində müəyyən yerlərə qoyulur. Bütün bunlar duzun ayaqlanıb zibilə qatılmaması üçün edilirdi. İlin soyuq fəslində axur və qalotlara sal duz qoyulur.

Yaylaqda duzdan təkcə heyvanlara verilmək üçün deyil, həm də heyvanat məhsullarının hazırlanmasında geniş şəkildə istifadə edilirdi. Xüsusən pendirin duzlanması, şorov hazırlanması, motal və eymələrdə qurd əmələ gəlməsinin qarşısını almaq üçün ondan geniş istifadə edilirdi.

Heyvandarlıqda duzla bağlı adətlərdən biri də yeni doğulmuş balaların duzlanmasıdır. Peşəkar heyvandarlar söyləyirlər ki, bala doğulan kimi onun üstünə duz səpirlər. Bu ananın balanı yalamasına, südlü və balacanlı olmasına təsir göstərir. Duzlanmış balalar qotur və digər xəstəliklərə çətin tutulurlar.

Beləliklə, duz heyvandar üçün həyatı məsələ idi. Heyvandarlıqda geniş istifadə edildiyi üçün ilin isti fəsillərində Qarabağın elat əhalisi tarixi Naxçıvan ərazisindəki yaylaqlara gələn vaxtlarında duz çıxarılması, duz ticarəti nəzərə çarpacaq dərəcədə artırdı. Bununla bağlı yazılı mənbələrdə

də məlumatlar vardır. V.Qriqoryev yazır ki, ilin yay aylarında Qarabağdan gələn köçlərin Salvartının, Əriklinin, Dərələyəzin yurdlarında yerləşməsi duza olan tələbatı daha da artırırdı (7 , s. 17-18).

Duz yaylaqlara, dağ və dağətəyi kəndlərə, hətta Kəlbəcər, Laçın, Gorus, Dərələyəz və Sisiyanın kəndlərinə qatır və ulaqlar vasitəsi ilə daşınırdı. Bir xalq deyimində duzun daha çox at və ulaqla daşındığı bəlli olur: «At axurda, eşşək naxırda, duz Duzdağda». Bu ifadəni o vaxt işlədirlər ki, görüləcək hər hansı bir işə başlamamışdan öncə onun ağırlığından, çətinliyindən giley edilir. At və öküz arabalarının gedə biləcəyi kəndlərə duz onlarla daşınırdı.

Tarixin müəyyən mərhələsində Naxçıvandan çıxan karvanların əsas yükü duz olmuşdur. Hələ indi də birini xoşugəlmədiyi yerə çağıranda gileylənərək bu ifadəni işlədir: «Dəvəyə dedilər ki, səni qonaqlığa çağırırlar cavab verdi ki, öpməli dodağım yox, qucmalı belim, məni ya Naxçıvana duza göndərəcəklər, ya da Bərşükata düyüyə. Bu deyimin bir tərəfi Naxçıvandan duz aparmaqdırsa digər tərəfi Bərşükatdan düyü gətirməkdir. Bəli, Naxçıvandan aparılan duzun əvəzindən qayıdanda heyvanat məhsulları, toxuculuq məmulatı, burada az tapılan mallar gətirilirdi. Deməli, Naxçıvan duzu ən yaxşı mübadilə vasitəsi idi. Amma bu iş çox çətin sayılırdı. Xalq arasında duz yükü ən ağır iş, yük sayılırdı. Görünüşü yüngül sonrası ağır olan işlər haqqında «Hələ duza gedir, tamaşa qayıdandadır» deyilir. Cünki duz gətirməyə və ya çıxarmağa gedən adam boş cuvalları, lazım olan əşyaları götürüb minəklə yola düşür. Qayıdanda isə yorğun və minəksiz gəlir.

## ƏDƏBİYYAT


1. Babayev R. Folklorda «duz yükü» məsələsi (Naxçıvan materialları əsasında) // AMEA Naxçıvan Bölməsi, Xəbərlər, № 2, Naxçıvan, 2006, s. 144-146.
2. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
3. Əliyev V. Naxçıvanın qədim duz mədənləri // Az. SSR EA Xəbərləri, 1983, № 4.
4. Qədirzadə H.Q. Cəhriçay vadisi: m.ö. IV minilliklərdən günümüzədək (tarixi etnoqrafik araşdırma). Naxçıvan, 2007, 160 s.
5. Rəhimov Y. XIX əsrdə Naxçıvan duz sənayesi (rus mənbələri əsasında) // AMEA Naxçıvan Bölməsi, Xəbərlər, № 3, Naxçıvan, 2007, s. 75-79.
6. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 204s.
7. Григорьев В.Г. Статистическое описание Нахичеванской провинции. СПб, 1833, 263 с.
8. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд. СМО МПК. Тифлис, 1882, вып. 2. отдел 1. с. 109-142.

**Гаджи Гадир Гадирзаде**

**НЕСКОЛЬКО СЛОВ СВЯЗАННЫЕ С ДУЗДАГ И СОЛЬЮ**

В статье исследованы народные способы добычи, производства, приготовления и сохранения соля. На основе исторических источников и археологических материалов было доказано, что с древнейших времён, точнее, в эпоху энеолита люди добывали соль из Дуздага Нахчыванской АР. Это подтверждено керамикой, каменными орудиями и рудными Галереями, обнаруженными из Дуздага.

В результате исследований было выявлено, что соль из Дуздага вывозили не только в отдельные районы Азербайджана, такими как Карабах, Даралагез, Кялбаджар, а также и в другие районы, в том числе странам Кавказа и в Передней Азии.

**Haji Kadir Kadirzade**

**A FEW WORDS CONNECTED WITH SALT AND DUZDAGH**

In this article was researched taking out, production, preparing and usage of the salt on the basis of folk methods. It has been proved on the basis of historical sources and archaeological sources that, people have used Duzdagh since the Stone Age. Stone tools found from salt mines prove this.

It has been specified in the result, Nakhchivan salt was taken away to not only Azerbaijani regions, but also to the sountries of the Caucasus.

***Rəyçilər: Akademik İ.Hacıyev, tarix e.d. H.Səfərli.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**TÜRKAN QƏDİRZADƏ**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANDA XIDIR- NƏBİ, XIZIR İLYAS BAYRAMI VƏ ANADOLU TÜRKLƏRİ İLƏ QARŞILAŞDIRMALAR

Tarixi-etnoqrafik mənbələr sübut edir ki, qədim türklər arasında keçirilən bayram və marasimlər müəyyən inamlar və düşüncə tərzi ilə bağlı olmuşdur. Türk dünyasında müxtəlif adlarla; Xıdır-Nəbi, Xızır-Nəbi, Xızır-İlyas, Xıdır-Zində, Hıdırellez və s. adlarla bilinən bayramlar qədim tarixə malik olmaqla onlarla əlaqəli adət və inamlara günümüzdə də əməl olunur. Bayramın keçirilməsi ilə bağlı xalq arasında müxtəlif inamlar mövcuddur. Əldə olan çox saylı mənbələrdən məlum olur ki, bayram Xızır (ə.s.) və İlyas (ə.s.) peyğəmbərlərlə bağlıdır. Ədəbiyyat materiallarının araşdırılması sübut edir ki, Xızır (ə.s.)la İlyas (ə.s.) qardaşdır, Xızır (ə.s.) istilik, yaşıllıq, İlyas (ə.s.) isə su hamisidir. Türkdilli xalqlar arasında olan rəvayətə görə, İlyas (ə.s.)ın qəbiləsi yolunu azdığından insanlar arasında küfr hökm sürürmüş. Belə bir vəziyyəti görən Hz. İlyas (ə.s.) şəhəri tərk edir. Allah-Təala ona: «Filan şəhərə get, filan gün şəhərin qurtaracağında olan atın üstünə min» – deyir. İlyas (ə.s.) şəhərin qurtaracağında oddan bir at görür ona minib gözdən qeyb olur. Allah-Təala İlyas (ə.s.)a qiyamətə qədər ömür verir və suyun hamisi təyin edir (15, s. 59). Bu hadisədən sonra 2 qardaş bir-birindən ayrı düşür.

Xalqın inamına görə, Xıdır-Nəbi bayramı Xızır (ə.s.) və İlyas(ə.s.)ın şərəfinə keçirilir. Buna istiliyin çağrılması, təzə ilin yağışlı, bol məhsullu olması üçün əməl edilir. İnsanlar daima çıxılmaz vəziyyətdə qalanda, boz atlı Xızırı (ə.s.) arzulamış, peyğəmbər isə öz köməyini əsirgəməmiş, onlara yol göstərmişdir. Naxçıvanda kiçik çillənin ilk 10 günlüyündə, qışın soyuq dövründə yanacağın və mal-heyvanın yem ehtiyatının azaldığı vaxt Xızır Peyğəmbərin çağırılması onun köməyinə olan ehtiyacla bağlıdır. Xızır (ə.s.) yaşıllıq, istilik, İlyas (ə.s.) su hamisi olduğundan bir-birindən ayrı düşən iki qardaş fevralın 9-da yer üzündə görüşürlər. Naxçıvanda da həmin gün Xıdır-Nəbi adı ilə bilinən mərasim çox təntənə ilə keçirilir. Bəzi bölgələrdə isə Kəngərli rayonunun Çalxanqala və Təzəkənd kəndlərində Xıdır-Nəbi mərasimi 3 dəfə – fevralın 5-i qış yarı olduğu, fevralın 9-u kiçik çillə yarı olduğu, fevralın 15-də isə Xızır (ə.s.)ın anadan olduğu gün kimi qeyd edilir. Anadolu türklərində isə Xıdır-Nəbi, Xızır-İlyas bayramı, Hıdırellez adı ilə

bilinməkdədir. Bizdən fərqli olaraq Anadolu türklərində isə bayram mayın 6-da keçirilir. İnama görə, Xızır (ə.s.) və İlyas (ə.s.) həmin gün yer üzündə görüşür, xalq da bunu bayram edir (4, s. 11). Bu barədə məlumatlar Kemal Timurun da əsərlərində öz əksini tapmışdır (13, s. 28).

Zaza türklərində isə yanvar ayının son həftəsi ilə fevral ayının ilk həftəsində «Xızır həftəsi» adlı bayram keçirilir. Xızır həftəsində 3 gün oruc tutar, hər kəs öz ölüsünü yad edər, onların ruhuna Fatihə oxuyarlar. Evlərdə «Xızır loxması» bişirib yaxın qohum və qonşulara paylayarlar (8, s. 176). Qazax türklərində isə erkən yazda Hıdırellez və «Kızır-Ata» gecələri adı ilə bilinən mərasim keçirilir.

Xalq arasında olan inama görə, Xızır (ə.s.) üç gün boyunca atla gəzər, insanlara qismət paylayar. Xızır (ə.s.) cübbəsini qaldırdığı zaman qarlar əriyər, onun keçdiyi ərazilər bərəkətlənərmiş. Digər inama görə, hər bir insan həyatı boyu üç dəfə Xızır (ə.s.)la qarşılaşar, amma insanlar onu tanımazlar. Xızır (ə.s.) tanıyan adamların xoşbəxt olacağına inanırlar (7, s. 192). Ədəbiyyat materiallarına əsaslanaraq demək olar ki, keçmişdə cavanlar ruzi-bərəkətləri bol olsun deyə bayram günü ağ və ya boz at minərmişlər (3, s. 104). Naxçıvanda bayrama bir neçə gün qalmış evlərdə hazırlıq işləri görülür, ev-eşik, həyət-baca təmizlənir, müəyyən yeməklər, şirniyyatlar hazırlanır. Xalq arasında olan inama görə, Xızır (ə.s.) təmizlənməmiş həyətlərə, evlərə gəlməz və onu bərəkətləndirməz.

Naxçıvanda Xıdır-Nəbinin əsas simvolu qovurulmuş buğda (qovurğa) və qovut hesab edilir. Bayramda buğda qovurulması ilə bağlı müxtəlif inamlar vardır. Topladığımız bir rəvayətə görə, Xızır (ə.s.) yaxın yoldaşları ilə birlikdə «zülmət daşına» gedir. «Zülmət daşı» bərəkətli hesab olunur. Xızır (ə.s.) yoldaşlarına yeyəcək üçün qovurulmuş buğda və qovut götürmələrini tapşırır. Onlardan bəziləri qovurulmuş buğda və qovut götürmür. «Zülmət daşına» çatanda kim nə qədər daş istəyir götürüb evlərinə qayıdırlar. Çatanda hər kəs götürdüyü daşları yerə tökür. Özləri ilə qovurulmuş buğda və qovut götürənlərin «zülmət daşı»ndan götürdükləri daş qızıla çevrilir. Elə o vaxtdan səfərə çıxdıqları günü bayram kimi qeyd edirlər və həmin gün buğda qovurub, qovut çəkirlər (11, s. 13). Qovurğa dəstərdə (buna xalq arasında kirkirə, əl daşı da deyirlər) çəkilir və qovut hazırlanır. Bayram axşamı çəkilmiş qovutdan evdə yükün üstünə, pəncərələrə, məscidlərə qoyurlar ki, Xızır (ə.s.) gəlib ona əlini və əsasını vuracaq. Kimin qovutunda əl və əsa izi olsaydı həmin evdə qurban kəsib paylayardılar. İnama görə, əl basılmış qovut «tütiyə» sayılmaqla bütün kənd camaatına verilərdi. Digər inama görə, bayram günü qadınlar bişirilmiş südü mayalamadan qatıq çalarlar. Xalq arasında olan inama görə, süd maya tutarsa, demək Xızır (ə.s.) evə gəlib südü mayalayıb.

Xıdır-Nəbidə noxud, mərcimək, qoz, fındıq, püstə, badam, çətənə, şabalıd, küncüd qovurulur. Qovurulmuş toxumları buğda ilə qarışdırırlar. Qarışığa iydə, kişmiş, mövüz, xurma və başqa çərəzlər də qatılır.

Anadolu türklərində bayramda bütün evlərdə «Hıdırellez çörəyi» bişirilər və doğramadan süfrəyə qoyular. Bu ailə üzvlərinin sağlam və bir-birinə mehriban olması ilə bağlıdır. Həmin gün evlərdə qağrıdalı qaynadılar, dolma bişirilər. Qağrıdalı qaynatmaqda əsas məqsəd bərəkətin bol, dolma bişirməkdə isə ailə üzvülərinin bir-birinə mehriban olmasıdır. Eyni zamanda soğan qabığı ilə yumurta boyanır və o «Hıdırellez yumurtası» adlanır (9, s. 274). Qazaxlarda da həmin gün süfrəyə bərəkətlərinin bol olması üçün qağrıdalı, buğda və düyü qoyarlar (14, s. 342).

Naxçıvanda Xıdır-Nəbi günü oğlan evindən nişanlı qızlara, ata evindən təzə gəlinlərə pay aparmaq adəti vardır. Bəzi bölgələrimizdə isə bunun əksinə olaraq qız evindən nişanlı oğlanlara, təzə evlənən oğlanlara «Xıdır payı» aparırlar. Bunu bayramın kişilərə məxsus olması ilə izah edirlər. Bu adət Cəhriçay hövzəsi kəndlərdə (Cəhri, Didivar, Buzqov, Payız) daha geniş yayılmışdır (12, s. 305). Bayram hər kəsdən çox uşaqların sevincinə səbəb olur. Hava qaralan kimi uşaqlar qapılara gedib torba (papaq) atır, «Xıdır payı» istəyib aşağıdakı nəğməni oxuyurlar.

Xıdıra-Xıdır deyərlər,
Xıdırın payın verərlər.
Pay verənin oğlu,
Verməyənin bir cüt qızı olsun.

Nişanlı oğlanlar öz nişanlılarının evinə gedib, içində xoruz olan torbanı evin bacasından içəri salırlar. Ev sahibi onun içinə müəyyən pay (isti corab, dəsmal) qoyaraq geri qaytarır.

Bəzi bölgələrdə mal-heyvanının yemi qurtaranlar yem ehtiyatı olanların evinin bacasından ip sallayır. Ev sahibi bilir ki, ip atan adamın mal-heyvanının yemi qurtarıb. Adətən ipə bir bəlim ot bağlayıb bacadan eşiyə qoyub deyir ki, gəl otu apar. Bəzi kəndlərdə isə (Culfa rayonunun Ləkətağ kəndi) toyuğu olmayanlar ipin ucuna lələk bağlayıb, toyuq-cücəsi çox olanların evinin bacasından içəri sallayırlar. Ev yiyəsi həmin adamın toyuq istədiyini bilir, torbaya toyuq qoyub geri verirlər.

Azərbaycanın bəzi bölgələrində bayram günü evlərdə xonça bəzənər, yaşıllıq hamisi olan Xızır (ə.s.) şərəfinə yumurtalar yaşıl boyanar (6, s. 177). Evində kiçik uşağı və nəvəsi olanlar soğan qabığı ilə də yumurta boyayarlar. Etnoqrafik materiallardan məlum olur ki, Şahbuz rayonunun Keçili, Kükü, Şərur rayonunun Yuxarı Yaycı kəndlərində bayram günü cavan qız gəlin əllərinə, yaşlı qadınlar isə saçlarına xına qoyarmışlar. Xıdır-Nəbi günü doğulan oğlan uşaqların adını Xıdır, Eylaz, İlyas və ya Eyvaz, Nəbi qoyurlar.

Ordubad rayonunun Kələki kənd sakini Usubova Ballı Məmmədəli qızının verdiyi məluma görə, son dövrlərə qədər bayram günü Xızır (ə.s.) şərəfinə ehsan verilirmiş. Yaxın qohum və qonşulara, uşaqlara 7 cür çərəz, meyvə (qoz, fındıq, badam, püstə, qovurulmuş buğda, alma və nar) paylanarmış.

Xalq arasında olan inama görə, Xızır (ə.s.) həmin gün evlərə ruzi, bərəkət, cavan qızlara qismət paylayır, insanlara sağlamlıq gətirir. Ona görə də qapıların, pəncərələrin qırağını açıq qoyurlar ki, o gəlib evlərini, ərzaqlarını bərəkətləndirsin. Anadolunun Sarıqamış bölgəsində isə bayram günü ərzaqlarının bərəkətlənməsi üçün evdə olan yeyəcəklərdən bir torbaya yığıb barlı ağaca asarlar (5, s. 371).

İnama görə, Xızır (ə.s.) özü ilə xız (istilik) gətirəcək, az da olsa soyuq hava yerini isti havaya verəcək. Bunu folklor nümunələrində də görmək mümkündür.

Xızır, Xızır, Xızır İlyas,
Bitdi çiçək, oldu yaz.

Xalqın inamına görə, Xıdır-Nəbidən sonra sular tam buzlamaz. Deyirlər ki, Xıdır-Nəbi günü havanın günəşli olması yazın bol, bərəkətli olmasına işarədir. Xızır (ə.s.) həmin gün Günəş şüası ilə yerə enir və insanlara bol, bərəkətli il gətirir.

Xıdır-Nəbidə icra olunan ayinlərdən biri də yumurtlamayan toyuqların qorxudulmasıdır. Səhər tezdən yaşlı bir kişi toyuqları torbaya yığıb dəyirmana aparır. Yolda bir nəfər ondan soruşur hara gedirsən? O deyir – «Bu toyuqlar yumurtlamır onları dəyirmana, üyütməyə aparıram». Həmin adam deyir ki, bu il toyuqları üyütmə, Xıdır-Nəbidə qovurulan buğdadan bunlara ver, yumurtlayacaqlar, mən şahid dururam. Sahibi toyuqları gətirib həyətə ötürür. Qovurulan buğdadan toyuqlara səpib deyir:

Mən sizə Xıdır- Nəbi buğdası verirəm,
Siz də mənə bayram yumurtası verin.

Meyvə verməyən ağacları da Xıdır-Nəbi günü və ya Novruz bayramında qorxutmaq adəti vardır. Səhər tezdən bir nəfər əlinə balta alıb ağacın altına gedib, balta ilə yavaş-yavaş ağacı vuraraq deyir ki, ay qonşu, bu ağac bar vermir, ağacı kəsmək istəyirəm. Qonşu yaxına gələrək baltanı onun əlindən alıb deyir: «Bu ağacın meyvə verməsi üçün, dibinə Xıdır-Nəbi buğdası tök, budaqlarına qırmızı və ya yaşıl rəngli parça bağla bol meyvə verər».

Xıdır-Nəbidə cavan qız-gəlin öz aralarında müəyyən əyləncəli oyunlar keçirər, dilək tutub, niyyətlər edərlər. Onlar bir evə yığışar, xəşil bişirib yeyərlər. Sonra hərə öz payından bir az götürüb həyətdə olan ağacın budağının üstünə qoyar. İnanırmışlar ki, qarğa və ya başqa quş gəlib onu götürüb hansı istiqamətə aparsa qız o tərəfə ərə gedər.

Digər niyyətə görə, duzlu kökə yeyib su içmirlər. Gecə yuxuda hansı küçədən keçsələr qismətlərinin orada olduğuna inanırlar (1, s. 142).

Anadolu türkləri arasında keçirilən Hıdırellez mərasimi də bir sıra inamlarla zəngindir. Mərasim başlamadan əvvəl hər kəs öz olüsünü yad edər, onların ruhuna Fatihə oxuyarlar. Xalq arasında olan inama görə, ruh həmin gün öz yaxınlarını qəbirstanlıqda gözləyir, ona görə də onları yad etmək lazımdır. Bayram günü hər kəs tezdən su kənarına, bulaq başına gedər, əl-üzünü yuduqdan sonra bulaqdan su götürüb evə gələr. Qadınlar

40 cür gül, çiçək və yaşıl yarpaq yığıb gətirər, götürdükləri suyun içinə tö-
küb qaynadırlar. Suyun içinə bir yumurta da qoyulur, həmin su ilə bütün ailə üzvləri yuyunarlar. İnama görə, yuyunan zaman elə etmək lazımdır ki, suyun içində olan yumurta qırılmasın. Bu ailənin gələn il bu vaxta qədər sağlam olması ilə bağlıdır (9, s. 275).

Hıdırellez bayramında hər kəs təzə paltar geyinər və ağızlarına şirniyyat qoyarlar ki, gələn il bu vaxta qədər ağızları şirin olsun. Evdə olan yaşlı qadın ailə üzvlərinə bir fincan süd verər. Bütün bu inamlara əməl etdikdən sonra hər kəs hazırladığı yeyəcəkləri götürüb təyin olunan yerə, çəmənliyə toplaşar. Mərasim axşama kimi davam edər. Cavanlar öz aralarında müəyyən oyunlar keçirərlər (9, s. 276).

Azərbaycanın bəzi bölgələrində bayrama bir neçə gün qalmış evlərdə Xızır (ə.s.)ın şərəfinə səməni göyərdirlər (2, s. 252).

Etnoqrafik materiallardan məlum olur ki, Xızır (ə.s.)ın paltarı rəngli, gül-çiçəkli hesab olunur. Xalq arasında belə bir inam vardır ki, erkən yazda Xızır (ə.s.) gəlib bütün çəmənləri gəzəcək və onun ayaq basdığı yerlərdə güllər, çiçəklər açacaqdır. Həmin gün müəyyən xəstəliyi olanlar yaşıl ot üstündə o tərəf bu tərəfə çevrilərək sağalacaqlarına inanırlar. Elə bu məqsədlə niyyət edib yaşıl budaqlara əski bağlayaraq Xızır (ə.s.)dan şəfa diləyirlər (4, s. 11). Xızırın (ə.s.) xəstələrə şəfa verməsi, darda olanların köməyinə çatması ilə bağlı məlumatlara qədim türk dastanı olan «Kitabi-Dədə Qorqud»dastanında da rast gəlinir. «Dirsə xan oğlu Buğac bəy boyunun»da Buğac yaralandıqda boz atlı Xızır (ə.s.) onun yarasını üç kərə sığallayıb: «Sana bu yaradan, qorxma oğlan, ölüm yoxdur» – deyir (10, s. 39).

Müqayisəli araşdırmalar göstərir ki, Anadolu və Balkan türklərində hər il may ayının 6-da təntənəli şəkildə qeyd olunan Hıdır-Ellez // Xıdır-İlyas bayramı Naxçıvanda qeyd olunan Xıdır-Nəbi bayramı ilə eyni mənbədən qidalanmışdır.

Yuxarıdakılara yekun olaraq demək olar ki, Xızır Peyğəmbərlə bağlı inamlar və mərasimlər ümumtürk xarakteri daşımaqla Azərbaycan türkləri ilə yanaşı digər türk xalqları arasında da geniş yayılmışdır. Bu ümumilik Azərbaycan türklərinin Naxçıvan ərazisində çox qədimdən yaşadıqlarını sübut etməklə ortaq türk mədəniyyəti sferasına daxil olduğunu göstərir.

## ƏDƏBİYYAT

1. Azərbaycan mifoloji mətnləri. Bakı: Elm, 1988, 196 s.
2. Azərbaycan folkloru antologiyası. 2 cilddə, I c., Bakı: Kommunist, 1968, 290 s.
3. Azərbaycan uşaq folkloru kitabxanası, 1-ci kitab (Mərasimlər, adətlər, alqışlar). Bakı: Gənclik, 1993, 352 s.
4. Abdulla G. Roman və türk halklarının ilk yaz şenlikleri V MTHKK Gelenek, Görenek, İnamlar Seksiyonu bildirileri / Ankara: Kültür Bakanlığı

Yayınları, 1997, s. 9-12.
5. Aydın N. Her yörüyle Sarıkamış. Erzurum: Okyanus, 2006, 273 s.
6. Babayev T. El ocaq başına yığışar. Bakı: Azərnəşr, 1998, 204 s.
7. İbrayev Ş. Kazak folklorunda Nevruz / TDNİBŞB. Ankara: Atatürk Kültür Merkezi, 1996, s. 189-198.
8. Kalafat Y. Kuzey Azerbaycan-doğu Anadolu ve Kuzey Irakda eski türk dini izleri (dini folklorik tabakalaşma). Ankara: Kültür Bakanlığı, 1998, 240 s.
9. Kartal N. Kocacıkta Hıdırellez gelenekleri / V MTHKK Gelenek, Görenek, İnamlar Seksiyonu bildirileri. Ankara: Kültür Bakanlığı Yayınları, 1997, s. 272-281.
10. «Kitabi Dədə Qorqud». Bakı: Yazıçı, 1988, 265 s.
11. Qədirzadə T. İslamaqədərki adətlər, inamlar və mərasimlər (Naxçıvan materialları əsasında). Bakı: Nafta-Pres, 2006, 120 s.
12. Qədirzadə H. Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003, 368 s.
13. Timur K. «Arnavutlar- Solyotlar» romanında Hıdırellez günü ve Nevruz bayramı // HBVAD. Ankara: Teknikokullar, 2004, bahar sayısı № 29, s. 27-32.
14. Turan A. Kazakların milli bayramı ve Nevruz / TDNİBŞB. Ankara: Atatürk Kültür Merkezi, 1996, s. 341-344.
15. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.

**Туркан Кадирзаде**

## ВЗАИМООТНОШЕНИЕ С АНАТОЛИЙСКИМИ ТЮРКАМИ ПРАЗДНИКА ХЫДЫР НЕБИ-ХЫДЫР ИЛЬЯС

В статье были широко исследованы взаимоотношение праздника Хыдыр Неби-Хыдыр Ильяс с праздником Хыдыреллез Анатолийских тюрок, а также проведение и генезис обычаев и верований, связанный с этими праздниками. Эти верования и обычаи исследованы на основе взаимных сравнений с верованиями других тюркских народов. Исследования показывают, что праздник Хыдыр Неби имея древние корни, занимает особое место в истории Азербайджанских и Анатолийских тюрок.

**Turkan Qadirzada**

## THE HOLIDAYS OF KHIDIR NABI, KHIZIR ILYAS IN NAKHCHIVAN AND COMPARISONS WITH ANADOLU TURKS

This article deals with the interrelations of the holidays of Khidir Nabi, Khizir Ilyas in Nakhchivan Khidirelles Anadolu of Turks, celebration of those

holidays, genesis and beliefs connected with those holidays. These beliefs and habits were investigated in comparison with other Turkish peoples.

The investigation shows that the holiday of Khidir Nabi has an old history and played an important role in the history of the Nakhchivan and Anadolu Turks.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, AMEA-nın müxbir üzvü, tarix e.d. V.Baxşəliyev.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ASƏF ORUCOV**
AMEA Naxçıvan Bölməsi

# ÜZÜMÇÜLÜKLƏ BAĞLI TƏQVİM ADƏTLƏRİ

Naxçıvan bölgəsində təsərrüfatın mühüm sahələrindən biri də üzümçülükdür. Burada üzümün yetişməsi və inkişafı üçün əlverişli coğrafi şərait olmuşdur. Uzaq keçmişdə Azərbaycan ərazisində meşələrin əksəriyyətində çoxlu cır üzüm olmuş və ibtidai insanlar başqa meyvələrlə yanaşı cır üzümdən də istifadə etmişdir (3, s. 109). Ərazidə yabanı üzüm növlərinin olması bu təsərrüfat sahəsinin qədim tarixi olduğunu təsdiq edir. Digər bir fakta görə, ərazidə (Qıvraq kəndində) üzüməzən daşlarının mövcudluğu bu bölgədə üzümçülüyün əski tarixə malik olduğunu göstərir (3, s. 116). Ərazidə tapılmış daşlaşmış üzüm yarpağı da bunu subut edən əsas amil-lərdən biridir (1, s. 130).

K.A.Nikitin qeyd edir ki, Naxçıvan ərazisi qiymətli üzüm növlərinin yetişdirilməsinə görə Azərbaycanın ən zəngin bölgələrindəndir. XIX əsrdə burada üzümün 60 növü olduğu məlumdur. Qafqaza çox az yer olar ki, Naxçıvanda olduğu qədər çoxlu və bol üzüm olsun (11, s. 134). R.Məmmədov yazır ki, XIII əsrdə yazılmış, müəllifi məlum olmayan «Əcaib əd-dünya» əsərində qeyd edilir ki, Naxçıvan üzümü kimi dünyada ləziz və xeyirli üzüm yoxdur (10, s. 54).

Deməli, üzümçülük ərazidə həm qədim təsərrüfat sahələrindən biri olmuş, həm də xalqımızın iqtisadi həyatında mühüm rol oynamışdır. Bunu nəzərə alaraq yazıda üzümçülük təsərrüfatına aid ənənəvi xalq üsullarından, onunla bağlı təqvim adətlərindən bəhs edəcəyik. Üzümçülüklə bağlı xalq təqvimi aşağıdakı dövrlərə bölməklə görüləcək işlərə uyğun adlar verilmişdir. 1.Bağın açılma zamanı; 2.Bağın budama zamanı; 3.Bağın belləmə zamanı; 4.Bağın suvarılma zamanı; 5.Üzümün yığım zamanı. Onu da qeyd edək ki, bu dövrlər havanın necə keçəcəyindən asılı olaraq müəyyən edilmişdir. Ancaq bir qayda olaraq görüləcək işlər bütün təsərrüfat sahələrində olduğu kimi dağlıq və aran ərazisi üzrə 10-15 gün fərq etmişdir. Hər bir təsərrüfat sahəsində olduğu kimi üzümçülükdə də əsas işlər Novruz bayramından sonra görülür. İlk növbədə iş bağın açılmasından başlanır. Üzümçülüklə məşğul olan yerli əhali bir qayda olaraq Naxçıvan ərazisində bağı xalq təqviminə görə Novruz bayramından və ya «qərinin mərdindən» (qarı borcu da deyilir) (30 mart -10 aprel) sonra açarlar. İnformatorların

verdiyi digər məlumata görə, üzüm bağlarını Novruzdan sonra «quşboranı» keçdikdə (xalq arasında həm leylək boranı, həm də sağsağanın yumurtasının çatlayan dövrü (Culfa rayonun Gal kəndi) və qarqa boranı(Culfa rayonunYaycı kəndi) adlanır) açılır. Culfa, Babək bölgəsinin bəzi kəndlərindən isə topladığımız etnoqrafik-çöl materiallarına görə, İlanlı dağın başında öküzün qaşqası boyda qar varsa, bağı açmazlar. Bağın açılmasından 3-5 gün keçdikdən sonra kəsilmə prosesi həyata keçirilir. Kəngərli rayonun Şahtaxtı kəndində (aran zona ) üzüm bağını martın 21 keçməyincə kəsməzlər. Xalq arasında buna «bağın budanma zamanı» deyilir.

Bağı kəsəndə ağlayar, əgər bağ ağlasa deyərlər ki, onun sahibi gülər. Ordubad rayonun Yuxarı Əylis kəndində üzümün kəsilməsinə arıtmaq deyilir. Üzüm kəsiləndə, artıq qollar (şivlər) vurulur. Bar verməsi üçün salamat gözlər saxlanılır. Göz qoyarkən üzümün növləridə nəzərə alınmalıdır. Bəzi üzüm növlərinə 4, Hənəqırna, Xəlili, Kişmişiyə isə 6 göz qoyarlar. Gözlərin məsafəsi 4 barmaq enində olmalıdır. Bu zaman həm də bağın yaşı nəzərə alınmalıdır. Yaşlı bağ kəsilərkən adətən az göz qoyulur ki, yaxşı məhsul vermək üçün gücü çatsın. Üzüm tənəklərinin budanmasında işlədilən əmək alətləri *bıçaq, bıçqı (buşqu), qayçı (mev qayçısı) və dəhrə*dən ibarətdir. Bu dövrdən sonra isə bağ belləmə zamanı başlayır. Naxçıvan Muxtar Respublikası ərazisində bu iş aprel ayının 20-ə qədər qurtarmalıdır. Bağı kəsib qurtardıqdan sonra suvarma işinə başlayarlar. Qeyd edək ki, Naxçıvan ərazisində üzümçülük suni suvarmaya əsaslanmışdır. Daha doğrusu, düzən və dağ ətəyi ərazilərdə yerləşən üzümlüklərdə suvarma demək olar ki, həlledici rol oynayır (8, s. 22). Ümumi götürdükdə bağa 4 cür su verərlər. 1-ci «buşqu» və ya «qayçı» suyu, 2-ci suya «qora» suyu deyilir ki, bu sudan sonra üzüm başlayır qora qoymağa. 3-cü su «şirə» və ya «xal», 4-cü su isə «don» suyu adlanır. Onu da qeyd edək ki, əhali bağın suvarılması üçün uzunmüddətli müşahidə aparmış, bu işi həyata keçirərkən xalq təqviminə əsaslanmışdır. Yazdan bir ay keçəndə deyərlər ki, bağa «qayçı» suyu, 2-ci su olan «qora» suyunu isə yazın bitməsinə 5-10 gün qalmış verilməlidir. 3-cü su isə «şirə» suyudur ki, avqustun əvvəli (avqustun 5-nə yəni, «quyruq doğduya» qədər) verilir ki, üzümün gilələri artıq şirələnməyə başlayır. Ordubad rayonunun Dəstə kəndində isə üzümə verilən 3-cü su «gilə» suyu adlanır. Üzümə son olaraq «don» suyu payızın axırıncı ayı verilir ki, bundan sonra su vermə prosesi dayandırılır. H.Q.Qədirzadə yazır ki, üzüm bağları üçün payızın sonlarında donuşluqda verilən su çox önəmlidir. Bu su yüz suya bərabər sayılmışdır. Bu suyu verməklə yerdə olan eyni zamanda soyuğun təsiri ilə ağacın dibinə enmiş bir sıra zərərvericilər məhv edilir (7, s. 76). Bildirmək istərdik ki, yayın sonu payızın əvvəlləri bağa su verməzlər ki, cavan şivlər əmələ gəlməsin. Onu da qeyd edək ki, üzümə gül vaxtı da su verməzlər, su verilsə, mövün çiçəyi tökülər.

Xalq arasında olan inama görə, üzüm bağının çiçəklənmə dövründə saqqallı adam bağa girərsə, onun saqqalının yeli bağı vurar, bağ məhsul verməz. Oxşar inama görə, yapıncılı adam da bağa girsə, bağın qorxmasına

səbəb olar. Üzümçülüklə bağlı xalq təqvimində may ayına «yarpaq yığılan ay» deyilir. Bu dövrdə mövün yarpaqlarından süfrələrimizin bəzəyi olan «yarpaq dolması» bişirilir. Bundan əlavə möv yarpaqlarını yığıb yarpaq şorabı da qoyurlar. Şoraba qoyarkən yarpağın üzərinə bir az da arpa atılır ki, möv yarpaqları sarı olsun. Qoyulan şorabadan Novruz bayramında istifadə etmək üçün saxlanılır. Üzümçülüklə bağlı xalq təqvimində «yarpaq yığılan» aydan sonra «yarı gül, yarı qora» ayına qədəm qoyulur. Bu, iyun ayının əvvəli iyul ayının ortalarına qədərki dövrü əhatə edir. Bundan sonrakı dövr isə «abı-qora» adlanır. Bu dövrdə qoralar sulu olduğu üçün bu cür adlandırılmışdır. Xalq təqvimində bu dövrə həm də «qora döyən» ayı deyilir. İlin bu vaxtından başlayaraq qoralar yığılıb döyülür (əzilir) abqora adlandırılan içki düzəldilir. Çox guman ki, ad da buna uyğun verilmişdir. Üzümçülüklə bağlı xalq təqvimində əsas aylardan biri, bu gündə yaşlı nəsillərin dilində işlədilən «qora bişirən» (iyulun 15-dən avqust 15-nə qədər olan dövr, yayın orta ayı) aydır. Bu aydan başlayaraq üzüm qoraları artıq xallanıb yavaş-yavaş yetişməyə başlayır. İnformatorların verdiyi məlumata görə, Ordubad bölgəsinin bəzi kəndlərində Kəmki dağının başında qar qurtaranda artıq bu kəndlərdə üzüm yetişər. Bəzi üzüm növləri var ki, (təkcə Naxçıvan bölgəsində becərilir) «Sahibi yeməz», «Ağa görməz» bunlar artıq iyul ayından yeyilməyə başlayır. Bu üzüm növləri ona görə belə adlandırılmışdır ki, tez yetişdiyindən bağban dərib yeyər sahibinə, ağasına qalmaz. Yüz illərin təcrübəsi nəticəsində xalqımız yerli üzüm növləri yetişdirmişdir. Kişmişini, Aldərəni, Pişik üzümünü, Hənəqırnanv və Ağ üzümünü buna misal göstərmək olar. Elə üzüm növləri var ki, ilk əkənin adı ilə tanınır. Məsələn, Əsgəri, Mələyi və başqalarını göstərmək olar. Bəzi üzüm növləri isə yer adlarına uyğun olaraq adlandırılmışdır. T.Babayev qeyd edir ki, Ağ aldərə üzümünün vətəni Ordubadın keçmiş Aldərə kəndi idi (2, s. 168). Bundan əlavə Ordubad bölgəsində Şəfehi üzüm növü vardır ki, müəyyən xəstəliklər zamanı istifadə edilir və mənası da şəfa sözündəndir.

Mənbələrə və etnoqrafik materiallara əsalanaraq demək olar ki, bu bölgədə becərilən çox sayda üzüm sortlarımız bədxah qonşularımız olan ermənilər tərəfindən özününküləşdirilmiş və adlarında dəyşikliklər edilmişdir. 1947-ci ildə Ermənistan SSR Nazirlər Sovetinin xüsusi sərancamı ilə adları erməniləşdirilərək Gülabı – Vardabuyr, Naxçıvan tayfısı – Araratı, Ətxərci – Vaskaet, Naxçıvan qızılüzümü – Karmir Koxana, Ağ xəlili – Ağ şateni, Hərnəqırna – Aravik, Qırmızı kişmişi – Eravani rozovıy, Əsgəri – Nazeli, Mələyi – Areni çernıy, Qara xəlili – Arakseni çernıy və.s adları ilə tanınırlar (9, s. 460).

Sentyabr ayına üzümçülükdə üzümün son ayı deyirlər. Bu dövrdə artıq tənəklərdəki üzümlər yığılıb qurtarılır. Ancaq topladığımız çöl etnoqrafik materiallara görə, Naxçıvan bölgəsində yanvar ayına qədər üzümü dərməmiş, tənəklərin üstündə saxlanma qaydası mövcuddur. Bunun üçün tənəyin altında bir çala qazıb üzüm salxımını tənəyin üstündə çalaya qoyu-

lur. Bu zaman diqqət yetirilməlidir ki, üzüm torpağa dəyməsin, çünki belə olduqda xarab olar. Çalaya qoyduqdan sonra üzəri saman, küləşlə örtülür. Belə halda üzümü dərməmiş soyuqdan qorumaqla qışa saxlamaq olar. Üzümü qışa saxlamaq üçün xalq arasında geniş yayılmış «*milağ*» üsulundan istifadə edilmiş, bu gündə edilməkdədir. Bunun üçün qalın qabıqlı üzüm növlərindən olan Aldərə, Hənəqırna payız fəsilinin sonuna kimi tənəkdə saxlayırlar. Soyuqlar düşdükdən sonra üzümü yığıb normal temperaturda (su donmayan yerdə) olan bir otaqda bir-birindən aralı vəziyyətdə asırlar. Xarab olmaması üçün salxımın ucundan 3 gilə qoparıb, bu gilələrdən birini üzümün saplağına taxarlar ki, üzüm salxımı oradan şirə çəksin. Bundan başqa üzümü arpanın içərisində uzun müddət saxlamaq mümkündür.

Üzümçülük təsərrüfatından bəhs edərkən tənəklərin becərilmə üsuluna da diqqət yetirək. Ayrı-ayrı regionların, etnoqrafik zonaların təbii coğrafi şəraitinə, torpaq və iqlim quruluşuna müvafik olaraq əhali bir sıra əlavə tədbirlər sistemi görməyə məcbur olmuşdur. Beləki, Naxçıvan bölgəsinin sərt qışı və şiddətli küləyi burada tənəklərin qışda torpağa basdırılmasına səbəb olur (4, s. 79) və ya üstü örtürülür. Azərbaycanda təkcə Naxçıvan bölgəsində bu üsuldan istifadə edilir. Naxçıvanda daha çox üzümlüklər arx üsulu ilə əkilir. Peşəkar bağbanlar deyərlər ki, arx üsulu yerli şəraitə uyğundur. Çünki onların su və nəm saxlaması uzunmüddətlidir (7, s. 75).

Digər üsula görə isə tənəklər ağacların gövdəsinə sarılıb qalır və ya tənəklər bir-biri ilə əlaqəli yerə basdırılmış payalara qaldırılır ki, buna xalq arasında talavar, mollaçəpəri deyilir ki, bu üsul əsasən Gəncə bölgəsi üçün xasdır (6, s. 54). Son dövrlərdə üzümçülükdə tənəyin məftillə şpalyerə qaldırılması üsulundan geniş şəkildə istifadə edilir. Q.Cavadov yazır ki: Bu üsul ilk dəfə Azərbaycanda alman kolonistləri tərəfindən tətbiq edilmişdir (5, s. 343).

Üzüm tənəklərini artırıb çoxaltmaq üçün bir neçə üsuldan istifadə edilir. Əsas üsullardan biri şitil üsuludur. Bu üsula görə, üzüm şivlərindən 5-6 ədəd gözü olanı qayçı ilə kəsib, sonra həmin şivləri 5-10 gün suya qoyurlar. Bu müddət keçdikdən sonra yerdə çala qazıb (xalq arasında buna ocaq deyirlər) onu basdırırlar. Çalaya peyin də tökürlər ki, şivlərin dibini yumşaq saxlasın. Şivlərin 2-3 gözü yerə basdırılır, bir o qədər gözü isə bayırda saxlanılır. Bir ildən sonra yerə basdırılan gözlərdən cil verər. Torpağın üstündə qalan gözdən isə pöhrə əmələ gələr.

Başqa bir üsul isə tənəkdən uzun bir şivi yerə uzadıb orta hissəsində göz olan yeri torpağa basdırır, uc tərəfini isə eşikdə qoyurlar. Buna «gúdara» etmək deyilir. Bir il keçdikdən sonra torpağın altında qalan hissə kök verməyə başlayır. Eşik tərəfdə qalan ucundan isə pöhrə verir. Bundan sonra ana mövdən gələn şivi kəsib ayrırlar. Həmçinin yeni bir növ əldə etmək üçün peyvəst üsulundan istifadə edilir. Bu üsul xalq təqviminə görə peyvəst dövründə həyata keçirilir. Yuxarıda göstərdiyimiz üsullarla xalqımız təsər-

rüfatın bağçılıq (üzümçülük) sahəsini inkişaf etdirmiş və indi də etdirməkdədir.

Üzümçülüklə bağlı «kimi dağı ilə kimi bağı ilə tanınar» deyib atalarımız. Çox təəssüf ki, bu günlərdə sözügedən təsərrüfat sahəsinə az diqqət yetirilir. Orta əsrlərdə Naxçıvanda mövcud olan üzüm növləri isə artıq müasir dövrümüzdə yox dərəcəsindədir. Bizcə, əgər mütəxəssislərimiz bu işlə maraqlansalar, bəlkə də, bu növləri yenidən qaytarmaq mümkündür. Eyni zamanda bu sahə ölkəmizin iqtisadi həyatında da mühüm rol oynaya bilər.

## ƏDƏBİYYAT


1. Babayev T. El ocaq başına yığışar. Bakı: Azərnəşr, 1998, 204 s.
2. Babayev T. Ənənəvi əkinçilik və müasirlik / Naxçıvan bu gün: islahatlar perspektivlər. Bakı: Nurlan, 2008 s. 163-173.
3. Bünyadov T. Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair. Bakı: Azərb. SSR. EA. Nəşriyyatı, 1964, 152 s.
4. Cavadov Q. Əkinçilik mədəniyyətimizin sorağı ilə. Bakı: Azərnəşr, 1990, 168 s.
5. Cavadov Q. Azərbaycanın az saylı xalqları və milli azlıqları. Bakı: Elm, 2000, 440 s.
6. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 256 s.
7. Qədirzadə Q. Cəhriçay vadisi: M.Ö. IV minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). Naxçıvan: Qızıl Dağ, 2007, 160 s.
8. Quliyev Ş. Naxçıvanda ənənəvi suvarma əkinçiliyi // AEM, V buraxılış. Bakı: Elm, 1985, s. 18- 47.
9. Quliyev V. Naxçıvan Muxtar Respublikasının üzümçülüyün inkişaf perspektivləri / Naxçıvan bu gün: islahatlar perspektivlər Bakı: Nurlan, 2008 s. 458-463.
10. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158s.
11. Никитин К.А. Город Нахичеван и Нахичеванской уезд. Сборник материалов для местностей и племен Кафказа. Тифлис, 1882, 142 с.


**Асеф Оруджов**

## КАЛЕНДАРНЫЕ ОБЫЧАИ, СВЯЗАННЫЕ С ВИНОГРАДАРСТВОМ


В статье Нахчыван, как один из первых родина виноградарского хозяйства было подтверждено в результате взаимного сравнения этнографических полевых и литературных материалов.

На ряду с ним были исследованы обычаи, верования и другие задачи, связанные с этом областью хозяйства. А также были широко исследованы и изучены работы, проведённые соответственно с народным

календарём в области виноградарства. Было доказано, что каждая из этих работ стала возможным в результате многолетных опытов нашего народа. В то же время было уделено внимание методам выращивания всходов.

**Asef Orujov**

## CALENDAR HABITS CONNECTED WITH WINE-GROWING

In this article has been given information about Nakhchivan – one of the regions of the vine-growing economy and it was proved in the result of the mutual comparison of materials of ethnographical field and literature. And in this article was researched the work be done according to calendar connected with wine-growing area. It was proved that, each of this work has been possible owing to perennial experience of our people. At the same time in this article methods of cultivating of grapvevines were investingated.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, tarix e.d. H.Q.Qədirzadə, tarix e.n. E.Şıxəliyev.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şürasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

## AZƏRBAYCAN DİLİ

**ƏBÜLFƏZ QULİYEV**
AMEA Naxçıvan Bölməsi

# NİZAMİ «XOSROV VƏ ŞİRİN»İNİN TÜRKCƏYƏ İLK TƏRCÜMƏSİ (XIV ƏSR) VƏ ƏSƏRİN BƏZİ DİL XÜSUSİYYƏTLƏRİ*

Qızıl orda dövləti türk dövlətçiliyi tarixində önəmli bir yer tutur. Monqol mənşəli olmasına, yaradacısının Çingiz xanın nəvəsi Batu xan olmasına baxmayaraq bu dövlət idarəçiliyi və adətləri baxımından türkləşmiş və türk mədəniyyətinin inkişaf etməsinə xidmət göstərmişdir. Böyük bir əraziyə sahib olan bu dövlət Göy orda ve Ağ ordaya ayrılmış, sonralar Ağ Orda, Qızıl orda deyə adlandırılmışdır. Özbək xanın zamanında bu dövlət çiçəklənmə dövrünü yaşamışdır. Bu dövrdə Qızıl orda ərazisində türk dili və ədəbiyyatının inkişaf etdiyi görünməkdədir. Rəsmi dil türkçə işlənmiş olub yarlık adı verilən hökmdar fərmanlarında, sikkələrdə dil həmişə türkcədir.

Qızıl orda dövlətinin böyük bir qismi Dəşti-qıpçaq ərazisindən ibarət idi (1, s. 372). Qıpçaq türklərinin Qızıl ordanın siyasi, sosial və mədəni həyatına güclü təsiri olmuşdur. Qıpçaq türkləri monqollar ilə qaynaşaraq eyni bir dövlətin sərhədləri içərisində böyük bir mədəniyyət yaratmışlar. Berkə xanın islamı qəbul etməsi ilə bu ölkə tam mənasında türk-islam dövləti halına gəlmişdir (1, s. 373; 2, s. 2). Qıpçaqların çoxluq təşkil etdiyi Qızıl Orda Berkə xanın dövründə Böyük monqol xaqanlığından ayrılıb müstəqil bir dövlət olaraq tarix səhnəsində yerini almışdır. XIII və XIV əsrlərdə Qızıl Orda xanlığı çiçəklənmə dövrünü yaşamışdır.

Türk dili tarixi mövzusunda yazılan əsərlərdən bəllidir ki, türkcə yazılı olaraq XIII əsrə qədər tarixi inkişaf şərtlərindən irəli gələn bəzi səs və şəkil ayrılıqlarına rəğmən tək bir yazı dili halında inkişaf etmişdir. XIII əsrdən etibarən Qaraxanlı türkcəsinin yazı formasını Xarəzm və ətrafını əhatə edən Xarəzm türkcəsi davam etdirmişdir. Xarəzm türkcəsi də ərazi xüsüsiyyətlərinə görə iki qola ayrılır: bir tərəfdən Qaraxanlı-Xarəzm qolu, digər tərəfdən Qıpçaq-Oğuz ünsürlərinin çoxluq təşkil etdiyi Xarəzm-Qıpçaq qolu. Siyasi cəhətdən Qızıl orda xanlığına bağlı olan Xarəzm bölgəsin-

*Məqalə müəllifin 14-16 aprel 2007-ci il tarixdə İstanbulda «Altın Orda və varisleri» mövzusunda keçirilmiş beynəlxalq konfransda etdiyi məruzə əsasında hazırlanmışdır.

də inkişaf edən dil Qızıl Orda ərazisini də təsiri altına almışdır. Bu səbəblə təbii olaraq Xarəzm Türkcəsinə bağlı olan Qızıl Orda əarazisində meydana gətirilən əsərlər Qıpçaq türkcəsi ilə yazılmışdır.

Qütbün "Xosrov və Şirin"i, Xarəzminin "Məhəbbətnamə"si, Hüsam Katibin "Dastani-Cümcümə Sultan"ı, anonim "Orta Asiya "Qur"an" təfsiri" və Mahmud ibn Əli Əs-Sarayinin "Nəhcül-Fəradis"i Qızıl Orda ərazisi haqqında məlumat verən ən önəmli qaynaqlardır. Bu əsərlərin ortaya çıxması ilə bu sahədə yaranan türk dilinin orijinallığı daha yaxşı bir şəkildə təsdiq edilə bilmişdir.

XVI əsrdə üzü köçürülmüş "Sirac-əl-kulub" (Könüllər çırağı) (1553) məsnəvisi də XIV əsr Qızıl Orda əsərləri ilə səsləşməkdədir.

E.Nəcibin göstərdiyi kimi Xarəzminin "Məhəbbətnamə"si istisna olmaqla bu əsərlər eyni bölgədə, eyni yazı dilində olmuşlar. Eyni zamanda adı keçən əsərlərdə əski uyğur – Qaraxanlı yazı ənənələrinin xüsüsiyyətləri daha çox təsirlidir. Bu səbəblə adı keçən əsərlərdə arxaik, leksik, fonetik və morfoloji ünsürlər tez-tez gözə çarpmaqdadır (3, s. 34).

Yuxarıda qeyd etdiyimiz kimi XIV əsrdəki Qızıl Orda sahəsi türk ədəbiyyatının ən dəyərli əsərlərindən biri Qütb Xarəzminin "Xosrov və Şirin" məsnəvisidir. Gəncəli Nizaminin əvəzsiz məsnəvisindən sonra bilavasitə onun təsirilə bu mövzuda fars və türk ədəbiyyatında altmışa yaxın əsər meydana gəlmişdir. "Xosrov və Şirin" mövzusunda Nizaminin təsirində farsca əsər yazan şairlərin bəziləri bunlardır: Əmir Xosrov Dəhləvi (1253-XIII 25) "Xosrov və Şirin", Arif Ərdəbili (1268-I368) "Fərhadnamə", Asəfi (XV əsr), Hacə Şihabüddin (XVI əsr), Hatifi (XVI əsr) "Şirin və Xosrov", Ahi (XVI əsr), Qasimi (XVI əsr), Vahşi (XVI əsr), Urfi (XVI əsr) "Fərhad və Şirin", Şərəfi İsfahani (XVI əsr), Kövsəri (XVI əsr), Şapur (XVI əsr), Mir Möhsün "Şirin və Xosrov ("XVI əsr), Asəf Xan (XV əsr), Şərif Kaşi (XVI əsr), Ruh-ul Əmin (XVII əsr) və s.

Faruk Timurtaş əski türk ədəbiyyatında bu mövzuda iyirmidən çox əsər qələmə alındığını təsbit etmişdir (4, s. 484). Bu şairlərdən bəziləri bunlardır: Qütb Xarəzmi (XIV əsr), Şeyxi (XIV əsr), Əlişir Nəvai (XV əsr), Əhməd Rıdvan (XV əsr), Muidi (XV əsr), Sadri (XV əsr), Həyati (XV əsr), Hərami (XVI əsr), Ahi (XV əsr), Cəlali (XVI əsr), Lamii (XIV əsr), Arif Çələbi (XVI əsr), Şani (XVI əsr), İmamzadə Əhməd (XVIII əsr), Mustafa Ağa Nasir (XIX əsr), Nakam (XIX əsr) və s.

Qədim türk ədəbiyyatında tərcümə mövzusundan söz açılmışkən bunun iki növünün işləndiyi gözə çarpmaqdadır: 1. Hərfi Tərcümə, 2. Sərbəst tərcümə. Hələ VIII-IX əsrlərdə ərəblərdə meydana gələn tərcümə sənətinin inkişafı daha sonrakı zamanlarda şərq müsəlman dünyasında tərcümə sənətinin inkişafı ilə qurtarır. Hərfi tərcümə zamanı əsl mətn olduğu kimi tam şəkildə tərcümə edilir, hətta onun cümlə quruluşu eyni ilə saxlanılır (5, s. 60). Sərbəst tərcümədə isə əksinə, əsl mətinin özünün tərcümədə sərbəst şəkildə ifadəsinə üstünlük verilirdi. Bu tərcümə formaları çox zaman nəzm

əsərlərinin tərcüməsi zamanı istifadə edilirdi. Sərbəst tərcümə ənənəsinə görə orijinal mətndə tərcümə zamanı bəzi dəyişikliklər etməyə icazə verilirdi.

Mahmud Şəbüstərinin "Gülşəni-raz" (XIII əsr) məsnəvisini də XV əsrdə Əlvan Şirazi əski Anadolu türkcəsinə, Şeyx Sədinin "Gülüstan" əsərini isə əslən Qızıl orda paytaxtında anadan olmuş Seyf Sarayi (XIV əsr) qıpçaq türkcəsinə rəngli bir şəkildə çevirmişdi.

Bu tip tərcümə əsərlərindən biri olan Qütb Xarəzminin Gəncəli Nizamidən tərcümə etdiyi "Xosrov və Şirin" məsnəvisi üzərində xüsusi olaraq dayanmaq istəyirik. Aşağıdakı misralardan da bəlli olur ki, qıpçaq əsilli Qütb yerli olmamış, başqa ölkədən, böyük ehtimalla Xarəzmdən gəlmişdir.

Velikin bar umınçım andın oş kim
Bilik kadrin bilürin yakşı bildim
Bilikligni ağırlar biligi bar tep
Garibni asrayur kim köngli tar tep
Ne haçetlığ kelür bolsa tapuğda
Muradını tapar oşbu kapuğda (QXŞ 191)

Şair əsərinin qəhrəmanını, yəni mədh etdiyi xanı Xosrova bənzədir, ölkəni idarə etməyi Xosrov ondan öyrənməlidir deyə söz edir:

Ni Husrev kim bu kün hem Husrav için
Kerek öğrense padişahlıknı sindin
Kaçan Husravda bar irdi bu siret
Melek tig kayda ol şirinde suret
Tümen Husrev kulung bolsa yarar kim
Bu Şirin şahs birle sen mülazim (QXŞ 192)

Şair eyni zamanda Ağ orda hökmdarı Teni bəy xanın arvadı Məlikə xatunu da tərifləyir:

Melike birle hoş işret kılıngız
Köre bilmez kişi bağrın tilingiz (QXŞ 193)

F.Köprülünün də bildirdiyi kimi şairin Teni bəyin zövcəsinə belə bir məhəbbət romanı ithaf etməsi də islam mədəniyyəti təsirlərinə rəğmən qövmi ənənələrini saxlayan sərbəst bir türk mühitində qəbul edilə bilərdi. Ibn Battuta buradakı türk qadınlarında **təsəttür** olmadığını və qadınlara yüksək hörmət edildiyini təəccüblə qeyd edir ki, Qütbün əsəri xatuna ithaf etməsi də bunu təsdiqləməkdədir (6, s. 305). Yeri gəlmişkən Qütbün əsərindəki başlıqlardan birinin "Məlikə mərhumə xan məlik mədhi rəhmət illah" şəkilində adlandırılmasından bəlli olur ki, mərhumə sözü əsərə katib Bərkə Fakih tərəfindən əlavə edilmişdir. Şairin həyatı ilə bağlı xüsuslardan biri də bundan ibarətdir ki, iki il Ağ orda hökmdarı olmuş Tini Bey və xatunu Göy orda hökmdarı Canı bəy tərəfindən Saray şəhərindən göndərilmiş qatillər tərəfindən qılıncdan keçirilmiş ki, bunu nəzərə alaraq Bərkə Fakih əsərə mərhumə kəlməsini əlavə etmişdir.

E.Nəcibin güman etdiyi kimi, böyük ehtimalla taxt savaşı zamanı öldürülən Teni bəyin tərəfdarları içərisində Qütb də olmuşdur (3, s. 40). Qütb Xarəzminin 1341-ci ildə qələmə aldığı bu məsnəvini 1383-cü ildə Mi-

sirdə Bərkə Fakih tərcümə etmiş və bu tək əlyazma nüsxəsi günümüzə qədər gəlib çıxmışdır. Yeri gəlmişkən Bərkə Fakih digər bir **fiqhə** aid "İrşadül mülük vəssəlatin" adlı tərcümə əsərini də türk dilinə çevirmişdir. Bu əsəri Prof. Dr. Rəcəb Toparlı nəşr etdirmişdir (7, s. 83; 7a). "Xosrov və Şirin"in Bərkə Fakih tərəfindən tərcümə edilmiş tək nüsxəsi Paris milli kitabxanasında saxlanılmaqla polşalı elm adamı Ananiazs Zayaçkovski tərəfindən faksimle və transkripsiya şəklində lüğət əlavəsi ilə üç cild olaraq 1958-1961-ci illər arasında nəşr etdirilmişdir (8). Türkiyədə əsərin transkripsiyasından ibarət mətni və dil xüsusiyyətləri kitab şəklində Nəcməddin Hacıəminoğlu tərəfindən nəşr etdirilmişdir (9).

Qütbün yazdığı bu əsərin nəzirə, yoxsa tərcümə nümunəsi olduğu türkologiyada uzun zaman mübahisə obyekti olmuşdur (10). N.Hacıəminoğlunun bildirdiyi kimi bu səhvlərin Qütbə aid olduğuna heç bir ehtimal yoxdur. Nizamini Türk dilinə tərcümə etmək qüdrətini və qabiliyyətini özündə görən və ortaya qoyduğu əsərdə bunu sübut edən Qütbün bir sıra vəzn xətaları etməsi qətiyyən mümkün deyildir. Bu kimi xətaların əsərin üzünü köçürən katibə aid olduğunu demək olar. Eyni zamanda kitabın sonuna katib tərəfindən əlavə edilmiş olan qismin vəzn baxımından göstərdiyi səhvlər bu təxminimizi qüvvətləndirəcək mahiyyətdədir (9, s. 8). Nizamidə əsər 6150 beyt olduğu halda, Qütb qısaldaraq məsnəvini 4730 beyt etmişdir. Nizamidə fəsillərin, başlıqların sayı 102, Qütbdə 91-dir. Nizami əsərini tovhid, minacat, nəət, Toğrul Aslanın, Məhəmməd Cahan Pəhləvanın və Qızıl Arslanın mədhindən ibarət olan fəsillərlə başlamışdır. Qütb isə tovhid, minacat, nəət qismindən sonra digər hissələri buraxaraq əsərə 271 beyt əlavə etmişdir. Bu əlavə edilmiş hissələrdə dörd sahabə, şahzadə Teni bəy, onun xanımı Məlikə xatunun mədhi, eyni zamanda kitabın yazılma səbəbi verilmişdir. Şair əsəri Nizamidən tərcümə etməsini belə açıqlayır:

Kazan tig kaynap uş sevda bişürdüm
Nizami balıdın halva bişürdüm
Hanım atınga uşbu parsi tilni
Çevürdüm tüzdüm üş nazm özre kılnı (QXŞ 195)

Burada şair eyni zamanda özünü təsvir edir, sözə Nizami kimi sahib olmaq gərəkliyini deyir:

Evan iy Kutb terkin kiç bolur bil
Ne bilgeyler sini sözletmeseng til
Nizami nazmı yanglığ tüz sözüngni
Anın belgüt hanıngğa bu özüngni
Hanım birle Melike atınga bir
Kitabı kılğuka kıl tidi tedbir (QXŞ 195)

Adətən şair Nizamidəki ruhu qoruyaraq bəzi şəxs isimlərini buraxmış, yerli dil və ifadə vasitələrinə üstünlük vermişdir. Məsələn, Nizami çox zaman özünə xitab edir. Bu yerə Qütb öz adını qoymuşdur.

Nizamidə:
Allah beni sesleyip dedi:

Ey Nizami bu bütlerin fitnesine uyma
Qütbdə:
Bu hayret kim tınglandurdı dinni
İnayet ündedi Kutbı hazinni
Bu munça nengge bakma sen taşınğa
Kim anlar hod tapunmaz öz başınğa (QXŞ 184)
Və ya
İlahi Nizaminin (düyün) işini aç (165)
Qütbdə
İlahi Kutb işin aç barça yandin (QXŞ 190).

Eyni zamanda bəzi bənzətmələri Qütb Nizamidən fərqli olaraq istifadə etməməyi tərcih etmişdir. Məsələn,
İlahi Nizaminin (düyün) işini aç (165)
Qütbdə:
İlahi Kutb işin aç barça yandin (QXŞ 190).
Nizamidəki
O Yemen kumaşından əlini çıkarasan (165)
misrasındakı xüsusi adı Qütb buraxmışdır və ya Nizamidə
Sanki Mısrın Yusufu idi (585)

Qütbdə:
Yüzin körgen bu Yusuf tiyü saknur (QXŞ 198)

Yenə Qütbdə "Şavur Husravka Şirin hikayətin kılqan sürəti" hissəsində Nizamidəki hekayə qısaldılmış, təsvir sadələşdirilmiş, Arran, İsfahan, Bərdə, Muğan, Semira kimi xüsusi adlar buraxılmışdır. Nizamidəki
Qoşun dağıdan büt Şebdizin belinde
Çeld suvari idi.
Ele ki atı kızıştırdı
İleri geçib ayrı düştü
kimi iki beyti Qütb qısaldaraq belə vermişdir:
Urup Şebdizge kamçı ol büt-i çin
Yüz urdu yolğa adrıldı bulardın (QXŞ 226)

Eyni zamanda şair əsərin məzmununu dəyişməməklə, onu olduğu kimi köçürməklə yanaşı Nizamidən fərqli olaraq yerli şəraitlə səsləşən bənzətmələrdən, təsvir vasitələrindən istifadə etməyə çalışmış, türk milli ruhunu göstərən rəngli bir üslubla düşüncələrini ifadə etməyə səy göstərmişdir. Bununla bağlı olaraq şair Nizami mətninə sanki bir tənqidçi gözü ilə baxmış, Nizamidə bir anlayış üçün istifadə edilmiş uzun-uzadı beytləri qısaltmış, beləcə uzun deyil, konkret anlatma formasını seçmişdir. Məsələn, "Şavur Şirinni Medayinka isteyü barğan sıfatın beyan kılur" başlıqlı bölümündə Məhinbanunun özündən getməsini Nizami:
Mehin banu bu haberi duyduğunda
Aklını kayıb etmiş gibi dili tutuldu
Toprak gibi yere serildi

Bağırarak yürekden nale çekti

şəklində təsvir etdiyi halda, Qütb bunu aşağıdakı kimi özünəməxsus şəkildə vermişdir.

Mehin banu bu sözni kim işitti
Sevünmekdin başındın aklı gitti
Yüzinge saçtılar suv boldı agah
Başın kötürdi aydı kim ey şah (QXŞ 247)

Və ya Qütb "Husrav Rumqa barıp kaysardan çerig alıp Behram Çubin birle uruşkanı" başlıqlı bölmədə Nizamidəki türk kəlməsini də ataraq ondan tamamilə fərqli təsvir, bənzətmə ünsürlərinə yer vermişdir. Bu məqsədlə Qütbün istifadə etdiyi aşağıdakı beytlərin məzmununa diqqət edək:

Topuzlar zahmıdın kalkan uşandı
Uşol heybetde atlar kan kaşandı
Ecel çanlar songınça yigrü yitti
Telim başlar ol uruş bile yitti
Yapurğak kim niteg töklür hızanda
Töküldi gevdesinden başlar anda
Akıp boldı irenler kanı Çeyhun
Kıyamatdın nişan belgürdi uşol kün
Hisabı yok halayık ol kün öldi
Körügli köz tangırkap hayra kaldı (QXŞ 284).

Qütbün tərcüməsinin bir fərqli xüsusiyyəti də ondan ibarətdir ki, şair Nizamidəki atəşpərəstlərlə bağlı qismi buraxmış, tərsümə etməmişdir.

Şair əsərini 15 beytdən ibarət «Neçe söz hatimet kitabda aytur ustad» adında bir bölümlə qurtarmışdır. Burada şair ömrün qısa olduğundan, bu əsəri yazmaq üçün böyük əmək sərf etdiyindən bəhs etmişdir:

Kalemning közindin bu bağrım kanı
Akıttım bitikde tapup bu kanı
Kümüş tig bu ak yır öze tarıdım
Munı ma biçigli tarığçı kanı
Adın köp kıssalar yazılmış telim
Olarnıng katında bu çevher sanı (QXŞ 456)

E.Necipin bildirdiyinə görə bu hissədən sonra ərəbcə mətn gəlməkdədir və qıpçaq əsilli Bərkə ibn Birakaz ibn Kandud ibn Adqu tərəfindən səfər ayının 25-də (il göstərilmir) köçürməni qurtardığını göstərmişdir (3, s. 40).

Məsnəvi müstənsih Bərkə Fakihin əsərə əlavə etdiyi 51 beytlə qurtarmaqdadır.

O, 1383-cü ildə istinsah etdiyi məsnəvini bu beytlə qurtarmışdır:

Kitabnıng songında bu bir kaç kelam
Yazıp tezkire kıldım senga vesselam.

Bu hissədə Berkə Fakih özü haqqında məlumat verir, Misir hökmdarı Altun Boğanı tanıdır, onun sarayında yaşadığını, bu yazdığı nüsxəni

hökmdarın sifarişi, əmri ilə istinsah etdiyini, özünün Misirdə bir fəqih olaraq böyük şöhrət sahibi olduğunu bildirmişdir.

Müstənsih əsəri başdan sona qədər gözdən keçirdiyini, tapdığı səhvləri düzəltməyə çalışdığını da bildirmişdir.

Müstənsih bu işarə ilə əsərin orijinalını bildirdiyini açıq şəkildə göstərir. Amma bu düzəlişlərin nə dərəcədə faydalı olub olmadığı bəlli deyildir.

Qütb Xarəzminin "Xosrov və Şirin" məsnəvisi qədim türk şeirinin inkişafında önəmli rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Rene Grousset. Bozkır ımparatorluğu, Istanbul: Enderun kitabevi, 1993, 580 s.
2. Melek Özyetgin A. Qızıl Ordu, Kırım ve Kazan sahasına ait yarlık ve bitiklerin dil ve üslup incelemesi. Ankara: TDK yayınları, 1996, 294 s.
3. Naçip E. Istoriko-sravnitelnıy slovar tyurkskih yazıkov XIV veka, M.: Nauka,1979, 320 s.
4. Timurtaş F. Makaleler, Ankara: TDK yayınları, 1997, 620 s.
5. Nağısoy M. Şirazinin Gülşen-i Raz tercümesi, Bakı: Nurlan, 2004. 310 s.
6. Köprülü F. Türk Edebiyatı Tarihi. İstanbul, Ötüken yayınları, 1950, 490 s.
7. Neçip E. A.g.e. s. 40.
8. Najip E. Issledovaniya po istorii tyurkskih yazıkov XI-XIV vv. M.: Nauka, 1989; Toparlı R. Irşadül mülük ves selatin. Erzurum, 1994.
9. A.Zayaçkovski. Najstarsza wersya Tureçka Husrav u Şirin Qutba 1. Warszawa, 1958; III Warszawa, 1961.
10. Necmettin Hacıeminoğlu. Kutbun Husrev ü Şirini ve dil hususiyetleri, Ankara: TDK yayınları, 2000.
11. Bertels E.Y. Navoi i Djami. M., 1965, s. 149-150; E. Nadjip. A.g.e. s. 142; s. Alizade. Orta esrlerde Azerbaycan yazı dili. Bakü, 1985. s. 132-133.
12. Kolliyate Hamse. Hekim Nizami Gençevi, Tahran,1370.


## QISALTMALAR

QXŞ-.Qütb."Xosrov və Şirin". Nümunələr N.Hacıəminoğlu nəşrindən götürülmüşdür.

**Абулфаз Кулиев**

## ПЕРВЫЙ ПЕРЕВОД НА ТЮРКСКИЙ ЯЗЫК (Х1У ВЕК) «ХОСРОВ И ШИРИН» НИЗАМИ И НЕКОТОРЫЕ ЕГО ЯЗЫКОВЫЕ ОСОБЕННОСТИ

Поэма «Хосров и Ширин» великого азербайджанского поэта Низами Гянджеви имеет обширное известие на Востоке. Первый перевод этого памятника на тюркский язык сделал поэт XIV века Кутб Хорезми. Несмотря переводных свойств этого труда, автор создал подлинно превосходное произведение тюркской поэзии.

**Abulfaz Quliyev**

## THE FIRST TURKISH TRANSLATION OF NIZAMI'S “KHOSROV AND SHIRIN” AND SOME LANGUAGE FEATURES OF IT.

The greatest poet of Azerbaijan Nizami Ganjavi's poem “Khosrov and Shirin” is famous in the East. The first translation of this poem into Turkish belongs to Qutb Kharazmi the greatest poet of Gizil Orda who lived in XVI century.

In ıpite of translation features the poet has created one of the most beautiful works of the Turkish poetry.

***Rəyçilər: Filologiya e.d. A.Bağırov, filologiya e.n. F.Rzayev.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ADİL BAĞIROV**
AMEA Naxçıvan Bölməsi

# İSLAM SƏFƏRLİNİN YARADICILIĞINDA ONOMASTİK VAHİDLƏRİN ÜSLUBİ İMKANLARI

İstedadlı şair İslam Səfərlinin şeirlərinin mövzusu müxtəlif həyat hadisələrindən götürülmüş və bədii dil sistemində xüsusi adların-onomastik vahidlərin zəngin bir layı özünə yer tapmışdır. Müəllif onomastik vahidləri lirik düşüncəsinə uyğun seçmiş, bu adları bədii vasitə obyektinə çevirmiş və obrazlı düşüncə üçün zəmin yaratmışdr. O, onomastik vahidləri şeirə gətirməklə şerin xəlqiliyini, sadəliyini artırmış, tərənnüm obyektinə çevirdiyi ərazinin konkret ünvanını dəqiqləşdirmişdir. Bu baxımdan şairin "Bakı, sabahın xeyir!"adlı seçilmiş əsərləri (Bakı, 2004) onomastik mənbə kimi diqqəti cəlb edir. Bu mənbədə xeyli miqdarda antroponim, toponim, hidronim və ktematonimlərə aid zəngin materiallar vardır ki, bu adların sistemə salınıb öyrənilməsi poetik onomastikamız üçün əhəmiyyətli məsələdir.

**Antroponimlər.** İ.Səfərlinin onomastik leksikasında kifayət qədər şəxs adları vardır. Müəllif bədii əsərin üslubi imkanlarından məharətlə istifadə edərək bu adlardan bədiilik yaradan komponent kimi istifadə etmiş, şeirlərinin ahəngdarlıq və sadəliyini, eləcə də onomastik fondunu artırmışdır.

a) Şair klassik poeziyamızda məhəbbət aşiqləri kimi tanınan Məcnun, Leyli adlarından müəyyən üslubi məqamlarda istifadə etmişdir.

Yalnız bu sözləri dedi Ələsgər:
-- ***Məcnunam***, gəzirəm ***Leyli*** çölünü (1, s. 308).

b) İ.Səfərli klassik və müasir ədəbiyyatımızın N. Gəncəvi, M. Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M. P.Vaqif, M.Ə.Sabir, N.Nərimanov, H.Cavid, M.Müşfiq, C.Cabbarlı, M.Cəlil, S.Vurğun, M.Şəhriyar və s. kimi nümayəndələrinin adlarını böyük iftixar və məhəbbət hissi ilə çəkmiş, onların sənət dünyasını yüksək qiymətləndirmişdir: ***Vaqifin, Ələsgərin //*** Hər sözü el malıdır// ***Füzuli, Sabir kimi //*** **Vurğun** da, qalmalıdır (1, s. 24). Türbənə yay gül ətirli səsimi //Əsrlərin söz sərrafı ***Nəsimi...*** (1, s. 221).

c) Şəxs adları şair üçün fikrin ifadə vasitəsidir. Odur ki, müəllif müraciət etdiyi hər bir şəxs adını mövzu ilə əlaqələndirmiş, bu adları obraza münasibət fonunda işlətmişdir: İncə pərdə, zərif xal // Həzin mizrab hardadı? // ***Həqiqətin, Bülbülün //*** Xoş səsi bu tardadır (1, s. 300).

c) Müəllifin şeirlərindəki adlar obrazın daxili aləmini, xarakterini, fəaliyyət istiqamətini açmağa xidmət edir.

Deməyin ***Nəriman*** getdi dünyadan,
O, Şərqdə ən böyük havadar oldu.
Onun heykəlini göyə ucaldan
Sehrkar barmaqlı ***Qaryağdı*** oldu (1, s. 289).

d) İslam Səfərli fikrini təbii və inandırıcı vermək üçün real şəxs adlarına daha çox müraciət etmiş, müasiri olduğu, dostluq etdiyi, sənət və peşəsi, insani keyfiyyətləri ilə tanınan Rəşid Behbudov, Bülbül, Qara Qarayev, Tahir Salahov, Səməd Vurğun, Həqiqət Rzayeva, Şövkət Ələkbərova, Cəlal Qaryağdı, Möhsün Sənani, Sabit Rəhman, Mir Mehdi Seyidzadə, Qurban Pirimov və onlarca tanınmış şəxs adlarını şeirə gətirmiş, onları peşə və sənətinə görə xarakterizə etmişdir: Əziz ***Qaram! /*** Sənin əsil surətini // Çəkdi ***Tahir // Tahir*** rənglər çalarıdır// Çünki // Mahir fırçalıdır (1, s. 290). ***Möhsün,*** dostlar kimi açıq ürəklə // Səni təbrik edir, alqışlayıram (1, s. 298). ***Mir Mehdi,*** qolunu keçir qoluma // Əsrin son gününə bərabər gedək (1, s. 291).

e) İslam Səfərlinin şeirlərində məşhur teatr xadimləri, müxtəlif səhnə əsərlərindəki obrazlar da poetik dillə tərənnüm olunur: Mənim teatrım! Təmiz eşqimi // Sənə bağlamışam, mənə gərəksən // ***Abbas Mirzə*** kimi, ***Ülvilər*** kimi // Odlu sənətkarlar yetirəcəksən! (1, s. 292). ***Elxanı, Yaşarı, Almazı*** sevən // ***Sevili*** sevdirən ***Cəfərim*** mənim (1, s. 269). Gah ***Mirzə Qərənfili***, Gah ***Mindilini //*** Gah ***usta Segahı*** dilə salmısan... (1, s. 295).

**Toponimlər.** İslam Səfərli şeirlərinin onomastik coğrafiyası genişdir. O, toponimləri şerinin canına hopduraraq fikrin tərkib hissəsinə, bir komponentinə çevirmişdir. Şairin poetik duyğusunun ilham mənbəyi doğma Azərbaycandır. Onun hər misrası öz gücünü, hikmətini Azərbaycanın təbii gözəllikləri, insanı vəcdə gətirən dağları, dərələri, yaylaqlarından alır, şeirləri bu torpağın ətri ilə mayalanır: Mənim ana yurdum, doğma məkanım // Ətəyi bəhərli, başı vüqarlı // Ürəyi baharlı, ***Azərbaycanım!*** (1, s. 23).

İ.Səfərli Azəraycanın şəhər və kəndlərini tərnnüm obyekti seçir. O, Bakı, Abşeron, Naxçıvan, Gəncə, Qarabağ, Şuşa, Mingəçevir, Daşkəsən, Bərdə, Kəlbəcər, Mərəzə, Bilgəh, Suraxanı, Masallı, Quba, Şahbuz, Şərur, Ordubad, Badamlı və bu kimi onlarca yaşayış məntəqə adlarını poetik dillə vəsf edir ki, bu adların da əksəriyyəti tayfa, qəbilə, tirə adları əsasında əmələ gəlmişdir: İslamın xəyalı gəldi cövlana // İlk dəfə hüsnünü görəndə, ***Bərdə!*** (1, s. 316). Gəl gəzək əncirli cərgə bağları, Yolumu gözləyir ***Bilgəh bağları*** (1, s. 325).

Müəllif "Azərbaycanım" şeirində doğma respublikamızı tanıtmaq üçün bədii üslubi imkanlardan istifadə edir. O bu şeirində Azərbaycan, Bakı, Xəzər, Muğan, Mil, Kür, Araz, Şirvan, Naxçıvan, Qarabağ, Şəki, Quba, Astara, Lənkəran, Sumqayıt kimi toponim və hidronimləri bir mətn daxilində nəzmə çəkir, oxucuda vətənə, torpağa məhəbbət hissini artırır: ***Muğandan*** keçib // ***Mili*** dolaşdım // ***Şirvan*** boyunca // eli dolaşdım // Mənə ***Naxçıvan -*** buyur, gəl – dedi // Gözəl ***Qarabağ*** şərqilər dedi (1, s. 9).

Bu baxımdan şairin “Bakı bir Bakıdır ki...”, “Abşeron”, “İstisu”, “Laçın dağlarında” və s. şeirləri də xarakterikdir.

Azərbaycanın dağları İ.Səfərlinin qürur mənbəyidir. Onun şeirlərində dağ adlarının zəngin leksikası yaranmışdır. Şair doğma yurdun Qoşqar, Kəpəz, Salvartı, Dəlidağ, Bozdağ, Şahdağ, Pətəkli quzey, Qara yal, Gəlin qaya, Sağsağan dağ, Mil düzü, Muğan düzü kimi oroqrafik obyekt adlarını poetik söz düzümünə gətirir, şeirin onomastik çalarını zənginləşdirir. Sevdi ***Mil*** düzünü, sevdi ***Muğanı*** // Sevdi qara gözlü gözəl ceyranı (1, s. 249). ***Şah dağına*** hər tutduqca ayna sən // «Qız bənövşə» qəlbim kimi qana sən (1, s. 70).

Dilimizin oronimlər sistemindən belə məharətlə istifadə etməsi onun poetik dilinin üslubi imkanının genişliyi ilə bağlıdır.

İslam Səfərlinin şeirlərində işlənən yer-yurd adlarının xeyli hissəsini Naxçıvan ərazisindəki toponimlər təşkil edir. Şair doğulub boya-başa çatdığı Naxçıvan ərazisini qarış-qarış gəzmiş, bu diyarı bütünlüklə tərənnüm obyektinə çevirmişdir:

Göllərindən keçən mənəm,
Söz qoşmamış keçəmmənəm.
Sularından içən mənəm,
Mənim barlı ***Naxçıvanım,***
Xoş baharlı ***Naxçıvanım***. (1, s. 84).

Şair Naxçıvanla bağlı şeirlərində bir rəssama çevrilir, fırçasının rəng çalarları ilə sanki Naxçıvanın onomastik xəritəsini çəkir, doğma yurdun təbiət abidələrinin adlarını bədii materiala çevrir, Naxçıvanı oxucuya olduğu kimi tanıdır.

Bulaqların bir səmtədir axarı,
*“**Salvartı**”*nın xoş görünür baharı,
***Biçənəkdən*** at səyirdib yuxarı,
Yalmanına yata-yata gəlmişəm,
Mərcan gözlü ***Batabata*** gəlmişəm (1, s. 99).
Yaxud:
***Vayxır çeşməsinin*** suları bumbuz,
Buluddan ay çıxdı, taladan ulduz.
Bir az da aşağı düşdü yolumuz,
Gəldi qulağıma quşların səsi,
*A*, ***Xal-xal meşəsi, Xal-xal meşəsi*** (1, s. 101).

İ. Səfərli şerin üslubi imkanlarından bacarıqla istifadə edərək, dünyanın əksər ərazilərindəki ölkə, şəhər, kənd, dağ, dərə, meşə adlarını poetik nizama düzür, şeirinin mövzu dairəsini genişləndirir: ***Hindistan! //*** Əfsanəvi // Gözəlliklər diyarı (1, s. 280). Qarlı ***Fin*** torpağına // Odlu nəğməylə getdin // ***Uzaq Şərqin // Tayqa meşələrində //*** Bir çinar kimi bitdin // ***Moldav*** gözəllərinə// Güldən çələng toxudun (1, s. 283).

İ.Səfərlinin şeir dilində ***qodonimlərdən*** (şəhər daxili prospekt, küçə, yol adları) istifadə məqamı da maraq doğurur.

***“Puşkin küçəsi”*** ylə Tatyana gedir,
Sağında-solunda ayna səkilər.
***“Vurğun küçəsi”*** ni Humay seyr edir,
Gülür gözlərində qızıl bir səhər (1, s. 91)
Yaxud:
Bakı –
***Azərbaycan prospekti,***
Gündəlik iş yolumdur.
Bu yol adi yol deyil,
Bir yüksəliş yoludur (1, s. 15).

Şair müxtəlif şeirlərində “Moskva prospekti”, “Nərimanov küçəsi”, “Əliabad yolu”, “Hacıkınd yolu”, “Yaşıl küçə”, “Meşə yolu” və s. kimi qodonimləri də fikrin ifadə vasitəsinə çevirir.

**Hidronimlər.** İ.Səfərlinin şeir dilindəki hidronimlər aşağıdakı növləri ilə təmsil olunur.

**a)** *Dəniz və göl adları.* İ.Səfərlinin onlarca şerində Xəzər dənizinin adı xüsusi vurğu, xüsusi intonasiya, məhəbbət və ilhamla poetikləşdirilir. Sahilində işıqlar qızıldır // Yel dəydi, göy könəyin sızıldı // Suların çin-çin oldu, ***Xəzərim*** // Ləpən göyərçin oldu, ***Xəzərim!*** (1, s. 311). Bakı büründü zərə // Mahnı dedim ***Xəzərə*** (1, s. 217 ).

b) *Çay və şəlalə adları.* İslam Səfərli şeirlərində Kür çayı, Araz çayı, Arpaçay, Naxçıvançay, Ağ çay, Qara çay, Qudyalçay, Payız çayı, Şada çayı, Viləş çayı, Niaqara şəlaləsi və s. kimi su obyekt adlarını tərənnüm obyektinə çevirərək şeirin üslub əlvanlığını artırır. Şair Kür və Araz çay adlarını daha məhsuldar şəkildə işlədir: ***Kürüm-Arazım*** // Qoşa çayımdır //Azərbaycanım,günüm-ayımdır (1, s. 10 ).

***Araz*** bir qolumdur,
***Kür*** bir qolumdur.
Əmr et keşiyində mətin dayanım,
Sənə qurban canım Azərbaycanım (1, s. 6 ).

c) *Bulaq adları* İ.Səfərlinin şerlərində zəngin dil xüsusiyyətləri ilə fərqlənir və tərənnüm obyektinə çevrilir.

Ay yüksəlir,
Seyrə gəlir
Bizim ***“Qızlar bulağı”*** na... (1, s. 86 )
Otlar üstə izim qaldı,
Gah dirsəyim, dizim qaldı,
Min çiçəkdə gözüm qaldı,
***Turşsu üstü, “Çarıq bulaq”***
Mənə qalan bu olacaq (1, s. 75 )
Daşar ***Narzan bulaqları,***
Bizim dağlarda-dağlarda (1, s. 312 )

**Ktematonimlər.** İ.Səfərlinin dilində maddi-mədəniyyətlə bağlı adların zəngin leksikası mövcuddur. Şair dilimizdə ktematonimik fondu zənginləş-

dirən bədii əsər, şeir və poema adları, musiqi əsərləri, xalq və bəstəkar mahnıları, muğam və təsnif adları, opera və balet əsərlərinin adlarını çox böyük ustalıqla poetikləşdirir, bu adların mədəniyyət tariximizdəki rolunu yüksək qiymətləndirir.

a) *Dram və komediya adları.* İdeonimlərin tərkib hissələrindən biri olan bədii əsər adları zəngin dil xüsusiyyətlərinə malikdir. Bu əsərlər janrına görə müxtəlif növlərə ayrılır. Şairin dilində "Arşın mal alan" (Ü.Hacıbəyov), "Almaz" (C.Cabbarlı), "Toy", "Nişanlı qız", "Xoşbəxtlər", "Aydınlıq" (S.Rəhman), "Vaqif" (S.Vurğun) kimi əsərlər tərənnüm obyektinə çevrilir.

***"Xoşbəxtlər"*** yüz dəfə açdı pərdəni,
***"Aydınlıq"*** aydınlıq gətirdi bizə... (1, s. 295 ).

b) *Muğam adları.* Milli musiqi sənətimizi yüksək qiymətləndirən İ.Səfərli ideonimlərin üslubi imkanlarından istifadə edərək bir çox muğam adlarını şeirin tərkib hissəsinə daxil edir: Oxu... // Oxu axsın səsin... // Ata yurdun Şuşada // Min zəngulə bərqərar // Ürəklərdən süzülür //***"Rahab",// "Segah" //, "Şur" //, "Qatar"*** (1, s. 279 ). Soruşur el-elatın: // Hanı ***"Çoban bayatı"***n? (1, s. 299 ).

c) *Opera və balet əsərlərinin adları.* İ.Səfərli böyük bəstəkar Q.Qarayevə həsr etdiyi "Səslər zirvəsi" adlı şerində bəstəkarın "Yeddi gözəl", "İldırımlı yollarla" baletlərinin adlarını da poetikləşdirir: Bəstələnmiş // Odlu qəlbi daim vurar // ***"Yeddi gözəl!"*** // Yeddi gəzər // Yüz il yaşar, min il durar (1, s. 272 ).
***"İldırımlı yollarla"*** keç! // Hamar yola // Yoxdur aram // Əziz Qara (1, s. 273).

Nəticə olaraq qeyd edək ki, İ.Səfərlinin şeirlərində işlənən onomastik vahidləri bir məqalə daxilində tədqiq etmək imkan xaricindədir. Ona görə şairin dilindəki xüsusi adları daha ətraflı sistemləşdirib öyrənmək çox maraqlı və faydalı olar.

## ƏDƏBİYYAT

1. Səfərli İ. Bakı, sabahın xeyir! Seçilmiş əsərləri, Bakı: Ziya-Nurlan, 2004, 347 s.

**Адил Багиров**

## СПОСОБЫ ВЫРАЖЕНИЯ ОНОМАСТИЧЕСКИХ ЕДИНИЦ В ТВОРЧЕСТВЕ ИСЛАМ САФАРЛИ

В статье исследуется способы выражения ономастических единиц как антропоним, топоним, гидроним, ктемотоним и их место в творчестве Ислама Сафарли. Все это привлечен к исследование как объект ономастического материала.

Из исследовании выявлень, что анализирование этого система в творчестве поэта имеет научное значение и охарактеризует языковых, ономастических единиц.

В результате выявлены много научные новизны.

**Adil Baqirov**

## STYLISTIC OPPORTUNITIES OF ONOMASTIC UNITS IN THE CREATIVE ACTIVITY OF ISLAM SAFARLI

The article deals with the place of the onomastic units in the creative activity of Islam Safarli, the frequency of use and stylistic opportunities of anthroponyms, toponyms, hydronyms, quematonyms are investigated. The author arrives at the conclusion that the systematic study of the use of proper names in the creative activity of the poet would be useful for our language.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.d., prof. M.Cəfərli.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**FİRUDİN RZAYEV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANDA SAK, SUBİ, MAQ TÜRKLƏRİ İLƏ BAĞLI ETNOOYKONİMLƏRDƏ YAZIYAQƏDƏRKİ DÖVR TÜRK DİLİ ELEMENTLƏRİ

Xalqımızın qədim və ən qədim dövr etnogenezi, dili və tarixinin izləri bu gün də Naxçıvanın yer adları-oykonimlərdə qorunmaqdadır. Hər hansı bir xalqın dili, etnogenezi, tarixi və coğrafiyası kimi problem məsələlərin həllində yer adlarının müqayisəli tədqiqi artıq beynəlxalq səviyyədə qəbul olunmuş tədqiqat üsuludur. Bu diyarın qədim tayfa və toponimlərinə dair məlumatlara Strabon, İ.Flavi (17, s. 20, 23), K.Ptolemey, M.Xorenli və b. yazılarında (13 s. 18-19), Suriya, Ərəb, Gürcü mənbələrində rast gəlirik. Burada 5 min illik dil vahidlərini qoruyan **sak, subi maq** türkləri ilə bağlı xeyli yer adı mövcuddur. Bu tayfalardan biri **Su, Subi** türk boyları Mitan, Manna, Matay və digər türk dövlətlərinin ərzilərində avtoxton sakinlər olmuş, e.ə. III minilliklərdə kuti, lulubi, kaşşu, türükkülərlə Assur, Urartu yazılarına daxil olaraq (10, s. 141, 157, 173), e.ə. IX əsrdə **Zamua, Sabua, Zamri** kimi şəxs və toponim adlarında (29, s. 45-46), Cənub Azərbaycanda isə Həsənulu, Zaviyə, Sakuz yurdlarında A.R.Qirşman, R.D.Barnet, S.İ.Rudenko kimilərin «skif stilinə» aid etdikləri arxeoloji nümunələrdə öz izlərini qorumuşlar ( 3, s. 28-29; 31, s. 23-28; 52, s. 2-15). Bu tayfa Naxçıvanda **Zebil, Zeyvə, Sebran, Sabarçı, Sibirdərə** kimi adlarda Şərur, Zebil, Əlincə nahiyələrində qalmış (21, s. 178-183) «Zeyvə» sözü isə (13, s. 76) ***«guşə», «künc»*** mənasında ərəb-fars dilinə aid edilmişdir (14, s. 207). Biz bir məqaləmizdə yad dillərlə izah edilmiş toponimlərin qədim türk-Azərbaycan sözləri olduğunu yazmışdıq (53, s. 85-94). Əgər zahiri oxşarlığı nəzərə alsaq onda ərəb, fars dilindəki **kam-*ağız,*** **kaş-*təəssüf,*** **masədəq-*uyğun*** kimi sözləri türk tayfaları **kas**, **massaget, qam-şamanlara** və s. aid etməliyik (14, s. 272, 326). Biri-birindən əsaslı şəkildə fərqlənən **Zeyvə** və **Zaviyyə** adlarında **«zeyvə»** sözünün ərəb dilində olması fikri yanlışdır. Biz z-s, v-b-f, ə-i, y-s fonetik hadisəni nəzərə alsaq (58, s. 41, 80; 28 s. 8) söz **saspir, sisbi** kimi türk tayfasının adındandır və buradakı **bə/pi** komponenti türk və şumerlərdə **«bəy, cənab»** mənasında titul ifadə etməklə (6, s.73-78; 22, s. 56; 38, s.12-24), **kaspi, lulubi, silbi**, **kambi** (54, s. 97), **syanbi** (39, s. 36), **Tuba** (50, s. 17), **tatabi** (24, s. 98-108) Orta Asiya, Altay xakas, göytürk və hun türk boylarının adı ilə eyni

kökü təkrarlayacaqdır. İ.M.Dyakonovda Zibia qala adı Mannada İzribia-Uzbia şəklində II Sarqo və Aşşurbanapal dövründən xatırlanır (10, s. 247; 36, s. 12). Azərbaycanın cənubunda Zaviyə yer adı Sakaz-Sak Uz türklərinin ərazisində yerləşirdi. R.Dayson ərazidəki əşyaları e.ə. II minilliyin sonu I minilliyin əvvəlləri skif, oğuz stili (31, s. 13), B.Piotrovski isə Şimali Qara dəniz və Kuban mədəniyyəti kimi təqdim etmişdir (48, s. 225) ki, bu da fars tarixi və mədəniyyətinə aid deyildi.

Bu tayfa adı Q.Qeybullayev (22, s. 56,), A.S.Sumbatzadə (57, s. 82-83), Y.Yusifov (60, s. 33), F.Kırzıoğlunun yazılarında (35, s.13-21) e.ə. I minilliyin əvvəllərində Albaniya və cənub ərazilərimizdə **«subər»** formasında qeydə alınır (1, s. 83). Beləliklə **subilərlə** bağlı **Zeyvə** adı «zaviyyə»-**«məscid»** kimi «məqsədyönlü» siyasətlə ərəbləşdirilmiş, oykonimin tarixi itirilmişdir.

E.ə. VIII-VI əsrlərdə Avesta, Bisütun və qədim qaynaq yazılarına düşən türk **Sakların** (4, s. 47-51; 39, s. 156) da Naxçıvanda yaşam tarixi nədənsə «köçlə» bağlanmışdır. Herodot və Strabonun yazıları T.A.Trofimov, K.Əliyev, E.E.Kuzmina, Y.B.Yusifov, L.M.Levina kimilərin tədqiqatları isə bu fikrin doğruluğunu rədd etmişdir (2 s. 49; 27, III, 93; 57, s. 6-11; 59, s. 233; 61, s. 182). Qaynaqlara görə ərazimizdə saklarla bağlı Şakaşena, Sisakan, Şəki, Gənzək adlarının olması (25, s. 86-92; 46, s. 35-48), M.Xorenlinin Kolton əyaləti-Ordubad əhalisini Qelamın oğlu Sisak nəslindən sayması (41, s. 91), N.V.Fedorovda Naxçıvandan tapılan sak əşyalarının e.ə. II minilliyə aidliyi (40 s. 17-18) Naxçıvanın 5 min illik tarixini gerçəkləşdirmişdir. XVI əsrdə ərazimizdə **sak** türkləri ilə bağlı Şiqad, Şikəm, Ərəfsaq kimi 53 məntəqə, Əlincə, Ağsaklı, Sisakan adlı 3 mahal qeyd olunur (21, s. 60-61,159). Cənub və Qərb Azərbaycanda Meşkin, Təbriz, Miyan, Göyçə, Vedi və s. ellərin yüzlərlə Şəkərli, Gəncəli, Arsaq kimi adlarını da bura əlavə etsək (18; 24, s. 66-73) Bütöv Azərbaycanda 6 mahal, 4 nahiyə 243 məntəqə **sakların adını daşıyırdı.** İşğallardan sonra bu adlar iyrənc siyasətlə dəyişdirilmişdir (44, s. 36-38).

Türk saklar **sakay**, **saka**, **sakiş** və s. boylar kimi türkmən, qazax, özbək, noqay, qırğız, xakas, yaxalarına, Orxon-Yenisey yurdlarına (24, s. 18-19) qədər yayılmış, Naxçıvanda 7 «Gənzək» oykonimi sakların bir qolu olmuş, **Gənzək-Sak** birliyi m.ö. qazax, qırğız, başqırd, türkmən türk yurdlarına qədər yayılmış «gənzə» şəklində yer adları yaratmışlar (26, s. 135). Bu adlarda **ər** «kişi», (22, s. 84) kökü **kimmer, xəzər, subər** və b. türk tayfa adlarında da təkrarlanmış, qədim Xınzirək mahalında **Kəngənə, Ağsaqlı, İrmələi, Ağrılı kimi və s. Kəndlərinin əhalisi isə XVIII əsrdə belə özlərini saqiabad-sak soyu hesab etmişlər** (21, s. 46-47). İndi isə Sak – gənzəklərlə bağlı yer adlarındakı arxaizmlərə nəzər salaq.

**Nq.** «Sağır nun» qovuşuq samiti oğuz dil qrupunda **tenqiz**-dəniz, **tenqir**-tanrı sözlərində (13, s. 279; 19, s. 30-31), Naxçıvanda **Yengicə, Səng, Vəng (**bu ad türk sözüdür və ermənilərlə heç bir əlaqəsi yoxdur. F.R.) kimi adlarda qalmışdır. Yengicə adında **«yenq»** tərkibi saklarla bağlı olub türk dillərində s≈y fonetik hadisəsi ilə **«çıraq»**-*yıraq*», fəsil **«yay»**-***say*** kimi uyğur,

yakut, və b. dillərdə (38, s. 2001-2005) işlənməklə – **nq** qovuşuq səsi ilə yazılmışdır.

**İzi, izir**. «Yengicə» və «Çağazur» adlarındakı «azur», «icə», leksik vahidi türk və şumerlərdə **ici, izi, isi,** şəklində (38, s.12-24) «isti» «işıq», mənası daşımaqla adlarda **«işıqlı, od sakları»** mənalarını verir. **«İzir»** tərkibi m.ö. III minillikdə türk kasların **Mirizir-** İldırım tanrısı adında, bu gün isə Günay, Ərgün, Günel kimi adlarda eyni mənada əski oda inancımızı tamamlayır.

**Ti. «Ti»-«tikmək»** fel kökü olub Şumer və elamlarda (22, s. 80-82, 87), eləcə də **İzirti, Armaiti, Zakruti,** kimi Manna, Midiya şəxs adlarında, Naxçıvan MR- da 7 **Dizə** (21, s. 179; 42, 11 list; 45, s. 31), XIII əsr Zəkəriyyə Qəzvinidə isə Dizək qala adında eyni feli təkrarlamışdır (12, s. 43). **«Dizək»** və **«dizə»** sözləri yalnız «k» samiti ilə fərqlənməklə dilimizdə «k» samiti artırmı ilə **«tik»** şəklində «Saklar tikən», i≈a səsəvəzlənməsi ilə (58, s. 8) **ta** şəklində isə «saklara tay» mənasını daşımaqla Arsita, İzirta və s. Manna, Midiya adlarında da işlənmişdir (22, s. 78). Müasir dilimizdə **«de»-** ***danış,*** **«ta»-** ***daha*** kimi minlərlə birhecalı sözlər əski söz yaradıcılığının əlamətidir.

**Ur.** Çağazur adında **izir** tərkibini **ur** kimi də qəbul etsək söz «sak varisi» mənasında olacaq. Şumer, Manna, Midiya, Skif türklərində **ur/uru** ***«oğul, varis», «qurmaq» «qur»*** feli kimi işlənmiş, skiflərdə Qnur, Ckilur, saklarda Paruyr (41, s. 143-153), albanlarda Urbat, (22, s. 137-141; 38, s.12-24) və İrik adlarında təkrarlanmış, Y.Cəfərov isə İriki Çri kimi oxumuşdur (15, s. 210). «Bilqamıs» dastanında Uruk həm qala, həm də şəhər (7, s. 8), Pazırık «baş Uruk» isə Altayda, Yan Ulağan çayı vadisində yurd yeri idi. L.N. Qumilyov, R.Özdəkin yazıları (50, s. 125), «Ərgənəqon» dastanında isə ***«Nüküzün və Qiyat ailələri bir Uruq idi»*** ifadəsi fikrimizin doğruluğunu təsdiq edir.

**Dan/tan**. **Danzik** yer adında **tan** komponenti qədim şumer və türk dillərində **tön** şəklində ***«təpə»*** (23, s. 19), elam dilində **tan** yazılışında ***«dan yeri»*** (11, s. 27), **tanq** şəklində «Kitabi-Dədə Qorqud»da **«dağ»** (32, s. 42, 49), t≈d səsdəyişimində isə ***«düzən»*** mənaları verməklə (23, s. 19; 49, s. 1616; 55, s. 607) Orxon yazılarında **Tan tutuq, Tanu, Tün** və s. adlarda işlənmişdir (24, s. 139). Məntəqə adı «Sak dağı» mənasında **«Danzak», «Dakzid»** şəklində məxəzlərə düşmüş (21, s. 57; 45, s. 34) 30-37-ci illərdə bu adda 2 kənd «Qızıl» kənd «Sabir» kənd adlandırılmışdır (43, 48 listdə). Şübhə yoxdur ki, adlar erməni, fars, ərəb dillərində deyildi, əks təqdirdə onlar dəyişdirilməzdi.

**Zik.** Bu tərkib **Sak** etnos adından başqa «nq» qovuşuq samiti ilə (56, s. 76; 13, s. 247) «sinq», «sanq» şəklində **«çətin alınan zirvə»** anlamı daşımış, **zik, sok, soku,** və s. kimi özbək və qazaxlarda «zirvə» mənası bildirmişdir (55, s. 618, 626). Yəqin ki, bu gün dilimizdəki «cıqqa», «cik durmq» kimi ifadələr həmin mənaları yaşadan leksik vahidlərdir (-F.R).

**Əm. Şikəm** yer adındakı bu tərkib **«əm», «əb», «əv»** yazılışlarında qazax, qırğız, uyğur, türkmən və s. dillərdə **«ev»** mənasında olub (33, s. 228,

229) **«sak ev»i** kimi oykonimi formalaşdıran yazıyaqədərki dövr kök dili şəklidir.

**Si.** Sənədlərə «Siyahqut», «Siyaqut» kimi düşmüş (21, s. 168; 46, s. 328; 47, s. 160-170) gah sak türklərinə, gah da **«siyah»** kimi farslara aid edilmiş (20, s. 77-80) oykonimin ilk tərkibidir. Addakı **«si»** sözü qədim türk Sak çarlığının Siyunik əyalət adında, Çin yazıları və Q.Qeybullayev, F.Kırzıoğlu, Y.Yusifovun və b. tədqiqatlarında izlənilir. Müəlliflər **«si»lərin** türk boyu olduğunu, **Sisyan** sözünün isə buradan gəldiyini yazırlar (34, s. 73, 91; 23, s. 90). Biz bu konsepsiyanı doğru saymaqla başqa faktlara da nəzər salmaq istərdik. Qədim Göyçə gölü-Sevan **si+bi+an** «silərə məxsus», Azərbaycanda Siyəzən **si+ezən**, «güclü silər», Səbayil **si+bay+il** «Si bəylərinin eli», Orta Asiya və Altayda Suzan, **si+san** «şanlı silər», başqırdlarda Sibay **si+bay** «si bəyləri» (37, s. 55-56) Si türklərinin adını daşıyır. **Tərəfimizdən ilk dəfə verilən bu izahlar** ermənilərin «Sisakan»-«Si sakları» sözünə sahiblənmələrini də qətiyyətlə rədd edir. Yəqin ki, onlar Orta Asiya, Altaylara qədər «dövlət» qurmamışdır.

**Ut/at.** «Cəmlik» ifadə edən **-at, -ut, -t** şəkilçisi qədim türk Sarmat, Oriyat, Tanqut, Başqurt və b.tayfa adlarında «çoxluq» bildirmiş, əsasən Hun (13, s. 87), Göytürk, Başqırd (5, s. 13, 17), Abakan, Xakas türklərində (19, s. 17) işlənmiş, türklərdən isə fars ərəb dillərinə də keçmişdir (bax.14, 13-14).

**Yak.** Burada **s-y** səsəvəzlənməsi (**yay-*say***, **yabı-*sabı***, **yağmur-*samır*** və s.) baş vermiş, bu dil prosesi M.Seyidov tərəfindən geniş araşdırmışdır (56, s . 38, 55-57). Bu halda «siyaqut» sözündəki «yak» tərkibi «sak» şəklində «si sakları» mənasındadır və fars, dili ilə heç bir əlaqəsi yoxdur. **Si, Sak** ittifaqı onaların böyük güc olduğunu, Si tayfalarının isə saklardan öncə, ən azı e.ə. III minillikdə türk kaslarla eyni dövrdə yaşadıqlarını da sübut edir.

**Ovit.** Sinqovit adındakı **«ovit»-yurd, məkan** tərkibi sözdə «Sak yurdu, məkanı» mənasında olub **ovat/obat/bat** formasında Pisuauvat, Ordubad, Kızıl Arbat, Aşqabad, Astabad kimi adlarda qorunur. Yuxarıdakı yer adlarında **in/an** mənsubluq şəkilçisinə (13, s. 160-161) **ni-** ***«verdi bağışladı»*** (22, s. 80), il- ***«el, yurd»*** qədim türk komponentlərinə də rast gəlirik. Biz F.Rəşidəddinin «Oğuznamə»sində **«il»**, ***«il arasında», «il oldu»*** ifadələrinə söykənib (16, s. 13, 64) **Sinq + ovit/abat** sözünü «Sak yurdu» kimi qəbul edirik.

Naxçıvanda qədim türklər olan **manqlarla** bağlı **Muğanlı, Muğancıq (2 kənd), Maxta, Muğaral, Məngik** və s. etnooykonimlər də günümüzə qədər gəlmişdir. Təəssüflə qeyd edək ki, Herodotun yazdığı və qaynaqlara düşən Midiyadakı 6 **manq, arizant, budi, bus, partagen, struxat** tayfa ittifaqı (28, I, 101) və bu bölgədə e.ə. III minilliklərə aid **Aratta, Mitan** türk dövlət və çarlıqlarının tarixi və etnogenezi hələ də tam öyrənilməmişdir (60, s. 235, 331-332).

Türk manqlar Azərbaycan, Şimali Qafqaz, Orta Asiya, Altaylara qədər yayılmış, e.ə. 843-cü il (e.ə. IX əsr) Assur, Urartu mənbələrində Manna, Mana kimi qeyd olunsa da (10, s. 144) Q.A.Melikişvili, İ.M.Dyakonov,

İ.Əliyev və E.A. Qrantovskinin əsərlərində irandilli hesab edilmişlər (1; 10; 54). Lakin L.N.Qumilyev, Q.Qeybullayev, A.M.Məmmədov, V.Budaqov və b. bu yanlış fikrə əsaslı elmi təkziblər vermişdir (22, s. 33; 38, s. 19). Naxçıvanda **Muğancıq** adlı 2 oykonimə qoşulan **«mehrab»**-***namaz üçün oyuq*** və **«müslüm»** -***müti, itaətli*** ərəb sözləri (14, s. 332, 430) maq/muğ türk adına İslam dini ilə bağlı yamanmış və bu proses xilafətin gücləndiyi, sasanilərin isə zəiflədiyi dövrlərdə baş vermişdir (54, s. 86-92). Tərəfimizdən onu deyə bilərik ki, hazırda tunqus-mancur adında **«man»** və **manqa**, Altay, qırğız, Tuvada **monquş**, **mansu, menqi** tayfaları onların bir türk olduğunun canlı sübutudur (30, s. 34).

**Ta/tau.** Maxta oykonimindəki bu tərkib türklərdə ***tau, tou, tu*** şəklində «dağ», t≈s fonetik hadisəsi ilə «su» anlamını ifadə etmişdir (8, s. 72, 73; 9, s. 17-19). Tərkib türk ləhcələri lüğətində uyğur, özbək, başqırd, kazak və b. xalqlarda ***taq, tö, tağ*** şəkilli yazılışlarla öz əksini tapmış (33, s. 142-143), 1873-cü ilə aid xəritədə Amu və Sır dərya hövzələrində 20-dən yuxarı Kibe tau, Burlu tau kimi dağ adlarında işlənmişdir (34, 1, 2, 3 list).

**-An.** Bu şəkilçi (15, s. 160-161) Muğanlı, Muğan, Muğancıq Gilan, Qazan kimi türk tayfa adı və oykonimlərdə, Orta Asiya, Altay, Sibirdə Kazarman, Namanqan, Qazançı, Kazan, Kuban və s. yüzlərlə toponimlərdə (37, s. 55-56), yakutların ulu tayfası Kurikan adında, Kənü Tarban, Kadırkan, Amağı Kurgan və s. Orxon-Yenisey yazılarında (51, s. 387, 390) «mənsubluq» bildirmişdir.

**Sud/şat.** Bu qədim söz kökünə XVI-XVIII əsr Naxçıvana aid sənədlərdə Maqsutlu oykonimində rast gəlirik (21, s. 38, 163). Məntəqə Maq tayfa adı və sud/şad- «şahzadə» qədim söz kökündən formalaşmaqla Urmasat, Pirşat, Şatibarzan, Xarmeşant, Oktamasat, Sato, Satnik kimi Manna, Midiya, skif, Albaniya şəxs adlarında (22, s. 76, 105, 143, 183), Kür Şad, Ulun Şad, kimi Orxon-Yenisey yazılarında təkrarlanmışdır (24 s. 57-63, 93-96, 115-121).

Nəticə olaraq deyə bilərik ki, m.ö. III-II minillikdə yaşamış **subi, sak, maq türkləri** Naxçıvanda qədim kök dilləri üslubunda, dil qanunlarımıza uyğun yer adları yaratmış, dilimizin sonrakı inkişafına da istiqamət vermişlər. Bu türk boyları əskilərdən günümüzə Naxçıvanda məskun olmaqla, qonşu fars, gürcü və s. xalqların yer adlarında izlərini saxlamış, onların dilinə də təsir etmişlər. Oykonimlərin tədqiqi m.ö IV-III minilliklərdə ortaq türk dili mövcudluğunu ehtimal etməyə, dilimizin tarixi təkamülünü izləməyə də əsas verir.

## ƏDƏBİYYAT


1. Алиев И.Г. История Мидии. Баку: Элм, 1960, 317 с.
2. Алиев К. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.
3. Артаманов М.И. Происхождение скифского искусства // Советская археология. М., 1968, № 4, с. 28-29.

4. Артаманов М.И.Киммерийцы и скифы. Л.: Наука, 1974, 156 с.
5. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: ADU nəşr, 1989, 328 s.
6. Bağırov A. «Naxçıvanda oğuz tayfa adları əsasında yaranan oykonimlər» // Azərbaycan omastikası problemləri. X. Bakı, 2002, s. 73-79.
7. Bilqamıs dastanı. Bakı: Gənclik, 1985, 104 s.
8. Dəmirçizadə Ə. 50 söz. Bakı: Gənclik, 1968, 104 s.
9. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1972, 308 s.
10. Дьяконов И.М. Языки древней Передней Азии. М., 1967, 277 s.
11. Дьяконов И.М. История Мидии (от древнейших времен до конца IV в. до н. э.) М.-Л.,1956, 485 с.
12. Əhmədov İ. Üsyan. Bakı: Gənclik, 1998, 310 s.
13. Əhmədov T. Azərbaycan toponimikasının əsasları, Bakı: Universitet, 1991, 312 s.
14. Ərəb və fars sözlüyü lüğəti. Bakı: Yazıçı, 1985, 1026 s.
15. Əsgərov N. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2005, 485 s.
16. Fəzlullah Rəşidəddin. Oğuznamə, Bakı: Azərnəşr, 1992, 72 s.
17. Hacıyev İ., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
18. Hacıyeva Q. Azerbaycanın doğusundakı yer adları. İstanbul, 2001, 187 s.
19. Hacıyev T.İ. Azərbaycanın paleoonomastikasından // Azərbaycan onomastikası problemləri. II, Bakı: APİ, 1988, s. 130-135.
20. İmanlı A. Şərur düzünün toponimləri. Bakı: Nurlan, 2008, 116 s.
21. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
22. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994,278 s.
23. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Elm, 1992,138 s.
24. Quliyev Ə.A. Orxon-Yenisey abidələrində toponim və etnonimlər. Bakı: Nurlan, 2004, 128 s.
25. Гейбуллаев Г.А. К этногенезу азербайджнцев. Т. I, Баку: Элм, 1991, 548 с.
26. Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку: Элм,1986, 192 с.
27. Геродот. История. М.: Наука, 1972, 600 с.
28. Гукасян В.Л. Взаимоотношение азербайджанского и удинского языков. АДД. Баку, 1973, 248 с.
29. Гумилев Л.Н. Древние тюрки. М.: Наука, 1967, 542 с.
30. Гумилев Л.Н. Тысячелетие вокруг Каспия. Баку: Азернешр,1991, 548 с.
31. Кашкай С.М. Из истории Маннейского царства. Баку: Элм,1977,112 с.
32. «Kitabi-Dədə Qorqud». Bakı: Yazıçı, 1988, 265 s.
33. Karşılaştırmalı Türk Lehçeleri Sözlüğü. I-II c., Ankara: Başkanlıq Basım evi, 1992, 1183, 502 s.
34. Каулбарс А.В. В низовях Аму-Дарьи и Сыр-Дарьи. Атлас Проморьев. С.-Петербург, 1833, 3 лист.

35. Kırzıoğlu Fahrettin. Kars Tarihi. I c., İstanbul, 1953, 179 s.
36. Кузмина Е.Е. Бронзовый шлем из Самарканта. – Советская археология. М.,1958, № 4, с. 120-126.
37. Малый атлас мира. М.: Картография ГУГК, 1985, 331 с.
38. Məmmədov A.M. Azərbaycan dilinin erkən tarixinə dair materiallar. 1. Şumer-türk leksik paralelləri // Azərbaycan filologiyası məsələləri. Bakı, 1983, s. 12-24.
39. Məmməd Hüseyn Vəliyev (Baharlı). Azərbaycan. Bakı: Azərnəşr, 1993, 192 s.
40. Məmmədov R. Naxçıvan şəhərinin tarix oçerki. Bakı: Elm, 1977, 157 s.
41. Moisey Kalankatuklu, Alban tarixi., Mixtar Qoş Alban salnaməsi. Bakı: Elm, 1993, 272 s.
42. Naxçıvan MR MDA, f. 32, siy. 1, arxiv 44/62, iş № 18, 11 list.
43. Naxçıvan MR MDA, f. 40, siy. 1, arxiv 348/38, iş № 16, 48 list.
44. Naxçıvan MR MDA, f. 32, siy. 1, arxiv 9, iş № 87, 16 list.
45. Naxçıvan MR MDA, f. 40, siy. 2, arxiv 25/133, iş № 9, 28 list.
46. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, 336 s.
47. Описание Нахичеванской провинции. С.-Петербург. 1833. Нах. МР, ЦГА, ф. 23, с. 2, д. 43/44,1874, 11 лист.
48. Пекарскя Г.К. Словарь якутского языка. М., 1959, 643 с.
49. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. III, ч. II, М.: Госиздат, 1898, 639 с.
50. Rəfiq Özdək. Türkün qızıl kitabı. I-II c., Bakı: Yazıçı, 1992-1993, 184, 232 s.
51. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri Bakı: Yazıçı, 1993, 400 s.
52. Руденко С.И. Искусство Алтая и Средней Азии. М., 1961, 321 с.
53. Rzayev F.H. Ərəb, fars, erməni mənşəli hesab edilmiş bəzi türk toponimləri // Azərbaycan onomastikası problemləri. Bakı, 2002, № 10, s. 85-94.
54. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 242 s.
55. Севортян Э.В. Этимологический словарь тюркских языков. Т. I, М.: Наука, 1974, 777 с.
56. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
57. Сумбатзаде А.С. Азербайджанцы-этногенез и формирование народа. Баку: Элм, 1990, 303 с.
58. Şirəliyev M.Azərbaycan dialektologiyasının əsasları. Bakı: Maarif, 1967, 420 s.
59. Трофимов Т.А. Приаральские саки // Материалы Хорезмской экспедиции. Вып. 6/12, М.,1963, с. 233.
60. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Universitet, 1993, 496 s.
61. Юсифов Ю.Б. Киммеры, скифы и саки в древнем Азербайджане / Кавказско-

ближневосточный сборник, Тбилиси, 1988, № 8, с. 91-95.

**Фирудин Рзаев**

## ТЮРКОЯЗЫЧНЫЕ ЭЛЕМЕНТЫ ДОПИСЬМЕННОГО ПЕРИОДА СВЯЗАННЫМИ С ТЮРКАМИ САК, СУБИ, МАГ В НАХЧЫВАНСКИХ ЭТНООЙКОНИМАХ

В статье исследуется тюркоязычные элементы дописьменного периода в Нахчыванских этноойконимах. Исследование этногенеза данного региона выявлены, что еще с III тысячелетия до н.э. на этой территории жили тюркские племена кассы, трукки, суби, саки, маги, буди, бусы, а далее скифы, огузы, киммери и др. Их ветви тысячелетиями были здесь местными населениями. Нет сомнения, что этноойконимы носившие названия этих племен образованы их языковыми единицами.

В результате лингвистических, экстралингвистических анализов, исторических и языковых сопоставлений обнаружены многие языковые элементы нашего народа относящие дописьменного периода. Эти элементы сегодня встречаются в среднеазиатских, уйгурских, алтайских и др. языках и говорах как архаизмы. Опираясь этим научным результатам, можем сказать, что в дописьменном периоде одновременно существовал и общетюркский язык.

**Firudin Rzayev**

## THE TURKISH LANGUAGE ELEMENTS PRE – WRITING PERIOD CONNECTED WITH TURKS, KASES, SAKS, MAGS IN THE NAKHCHIVAN ETNOOYCONIMS

In this article was researched till write age the Turkish language elements in the Nakhchivan etnooyconims. Exploration of the ethnogeny proves that, it was existed turk, kas, turukki, subi, skiph, oghuz, kimmer and so on kins in this region in the 3rd millennium BC. There is no doubt that, Nakhchivan etnooyconims was arisen on the basis of language elements of these kins.

It has been specified in the result, being discovered the language elements till write has arisen in the archaic form in the Kazakh, Kirgiz, Turkman, Altay language groups at present. This scientific result affirms that, it has existed companion Turkish language in the ancient times.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.d. A.Bağırov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ŞİRMƏMMƏD QULUBƏYLİ**
Naxçıvan Dövlət Universiteti

# MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ İSMİN HAL KATEQORİYASINA DAİR

İctimai ehtiyac nəticəsində meydana gəlib insanlar arasında ən mühüm ünsiyyət vasitəsi olmaq etibarilə eyni səciyyə daşıyan dünya dilləri öz fonetik və leksik sistemləri, eləcə də, qrammatik quruluşlarına görə bir-birlərindən bu və ya digər dərəcədə fərqlənir. Bu fərqlənmə özünü qrammatik kateqoriyalarda, o cümlədən, ismin hal kateqoriyasında da göstərir. Belə ki, iltisaqi və flektiv dillərə xas olan hal kateqoriyası ismin hallarının ifadə vasitələri, halların miqdarı və ifadə etdiyi məna növlərinin kəmiyyətinə görə müxtəlif dünya dillərində az və ya çox dərəcədə fərqlənir. Məsələn, müasir tat, talış dillərində ismin iki, beluc, kabardin dillərində üç, alman, adıgey dillərində dörd, indiy dilində beş, gürcü, rus dillərində altı, eskimos, mari dillərində yeddi, çeçen, buryat dillərində səkkiz, çukot, meqri dillərində doqquz, kalmık, osetin dillərində on, erziyan, vene dillərində on bir, ijor dilində on iki, kareliya dilində on üç, eston dilində on dörd, udmurt dilində on beş, çaxur, inquş, xınalıq dillərində on altı, komi dilində on yeddi... Dağıstan dillərindən biri olan tabasaran dilində qırx altı hal vardır (10, s. 232). Professor Yusif Seyidovun göstərdiyi kimi, görünür, bir çox dillərdə halların miqdarı müəyyənləşdirilərkən qrammatik kateqoriyaların mövcudluğu meyarları dəqiq nəzərə alınmamışdır.

Hal nədir? Bizi əhatə edən aləmdəki əşyalar, hadisələr, işlər, keyfiyyətlər arasındakı əlaqələr öz ifadəsini ismin hal kateqoriyası vasitəsilə tapır. Hal nitqdə adların başqa sözlərə münasibətini ifadə edir. Hal formalarında zaman, yiyəlik, səbəb, məqsəd və başqa mücərrəd əlaqələrin məna çalarlarını ifadə edən çoxlu qrammatik kateqoriyalar birləşir (3, s. 167).

İsmin hal kateqoriyası formaca morfoloji, qrammatik məna etibarilə sintaktik səciyyə daşıyır. Başqa sözlə, hər hansı bir dildə adların hallanması sintaktik tələblərdən irəli gəlib, morfoloji yolla həyata keçirilir. Çünki hal kateqoriyasının mövcud olduğu dillərdə isimlər cümlədə müəyyən cümlə üzvü vəzifəsində çıxış edərkən bu və ya digər halda işlənir.

Qeyd etmək lazımdır ki, qohum olmayan dillərin hal sisteminn müqayisəli – tipoloji aspektdə tədqiqi bu kateqoriya ilə bağlı bir çox özəlliklərin aşkar olunmasına imkan yaradır. Bunu türk dilləri ailəsinə mənsub

olub, tipoloji cəhətdən iltisaqi səciyyə daşıyan Azərbaycan dilinin hal kateqoriyası ilə Hind-Avropa dilləri ailəsindən olan analitik quruluşlu ingilis dilinin hal kateqoriyasının tipoloji müqayisəsindən aydın şəkildə görmək olar.

Bütün türk dilləri, o cümlədən, Azərbaycan dili üçün ən səciyyəvi qrammatik kateqoriyalardan olan hal kateqoriyası tarixi inkişaf prosesində elə bir əsaslı dəyişikliyə uğramamışdır. Belə ki, "Kitabi-Dədə Qorqud" dastanlarında olduğu kimi, müasir dilimizdə də hal kateqoriyası söz köklərinə müvafiq şəkilçilərin artırılması ilə ifadə olunur. Hal şəkilçiləri qədim dövrlərdən sabitləşərək dəyişilməz qalmışdır. İstisna hal kimi keçmiş əsrlərdə yerlik hal mənasının yönlük hal şəkilçisi ilə də ifadə oluna bilməsi faktını göstərmək olar:

Padşah Qazan oğlu Uruzun sağ yanına ona yer göstərdi (Kitabi-Dədə Qorqud).

Yaxud: Bu ağzıma gər olaydı yüz dil,
Hər dilim əgər olaydı min dil (Xətai) (6, s. 46).

Yuxarıdakı misallarda "yanına" sözü "yanında", "ağzıma sözü isə" "ağzımda" mənalarını verir.

Lakin ismin hal kateqoriyası ilə bağlı bu sabitliyə baxmayaraq, müxtəlif əsərlərdə fərqli məlumatlara rast gəlmək olur.

1924-cü ildə yazılmış "Türkcə sərf-nəhv" kitabında ismin hallarına xüsusi adlar verilməsə də, hal formaları müəyyənləşdirilmişdir. Bu kitabda ismin səkkiz halı qeyd olunur, çünki burada ismin indiki halları ılı bıərabər ilə (-la, -lə) və üçün (çün) qoşmaları ilə düzələn formalar da nəzərdən keçirilir.

1934-cü ildə yazılan orta məktəb dərsliyində üçün (çün) qoşması ilə işlənən forma hallar sırasından çıxarılmış, ismin yeddi halı nəzərdən keçirilmiş və hallara müvafiq adlar verilmişdir. Bu adlardan altısı müasir dilçilik ədəbiyyatında işlənən terminlərdir. Yeddinci hal kimi ilə qoşması ilə verilmiş forma götürülmüş və ona "birgəlik halı" adı verilmişdir.

1939-cu ildə yiyəlik və birgəlik halları ismin hal sistemindən çıxarılmış və beş hal saxlanılmışdır. Nəhayət, 1944-cü ildə yiyəlik halı yenidən ismin hal sisteminə qaytarılmış və beləliklə həmin ildən etibarən indiki qrammatika kitablarında bəhs olunan ismin altı halı sabitləşmişdir (4, s. 54).

Ümumiyyətlə, türk dillərinin oğuz qrupunda ismin forma və mənaca fərqlənən altı halı qəbul edilmişdir: adlıq, yiyəlik, yönlük, təsirlik, yerlik, çıxışlıq (8, s. 17). Bununla belə, bəzi türk dillərində digər kəmiyyətlər də göstərilir. Məsələn, qaraçay-balkar, karaim, qazax, tuvin, şor dillərində ismin yeddi, çuvaş, yaqut, xakas dillərində səkkiz halı olduğu göstərilir (10, s. 231). Görünür, ismin hallarındakı bu fərq qrammatik kateqoriyaların mövcudluğunun əsas meyarının – qrammatik məzmun və formanın vəhdəti prinsipinin nəzərə alınmaması ilə bağlıdır.

Müasir Azərbaycan dilinə dair dilçilik ədəbiyyatında hal kateqoriyasının məzmun və ifadə planları ilə bağlı əsaslı fikir ayrılığı yoxdur. "Söz

birləşməsi və cümlə daxilində isimlərin fel, qoşma və bir sıra adların tələbinə görə müxtəlif formalara düşməsi" kimi şərh olunan bu dil hadisəsi ismin əsas qrammatik kateqoriyalarından biri kimi səciyyələndirilir (7, s. 48-49). Bu kateqoriyanın sintaktik məqsədlərə xidmət etdiyi xüsusi vurğulanır. Professor M. Hüseynzadə qeyd edir ki, isimlər cümlə daxilində daşıdığı müəyyən vəzifələri həyata keçirmək üçün, hər şeydən əvvəl, xəbərlər, xüsusən feli xəbərlərlə sintaktik əlaqə bağlamalı, fellərin və onlardan əmələ gələn sözlərin tələbi ilə öz şəkillərini dəyişməlidir. İsimlər müəyyən yiyəlik məzmunu ifadə etmək üçün də formasını dəyişməli olur (4, s. 53). Beləliklə, alim haqlı olaraq bu kateqoriyanın həm morfologiya, həm də sintaksislə bağlı olduğunu qeyd edir.

Hal kateqoriyası ilə bağlı tədqiqatların diqqət çəkən məqamlarından biri də bu kateqoriyanın universal xarakter daşımasının xüsusi vurğulanmasıdır. Belə ki, hal şəkilçiləri isimlərlə bərabər sifətə, saya, əvəzliyə, feli sifətə və məsdərə də qoşula bilir (7, s. 49). Əlbəttə, bu kateqoriya məhz ismə aid olan bir dil hadisəsidir və digər nitq hissələrinə xas olan formalar məhz isim funksiyasını yerinə yetirəndə, yəni substantivləşəndə müvafiq hal şəkilçilərini qəbul edə bilir. İsmi çıxmaq şərti ilə digər nitq hissələri özlərinə xas olan sintaktik mövqedə işlənərsə, məsələn, sifət, say, əvəzlik, feli sifət isimdən əvvəl gəlib onu təyin edərsə, hallana bilməz (10, s. 229). Məsələn: ağıllı tələbə, ağıllı tələbənin, ağıllı tələbəyə, ağıllı tələbəni və s.

Müasir Azərbaycan dilində ismin hal kateqoriyasının araşdırılması zamanı hallar qrammatik və məkani – qrammatik olmaqla iki qrupa bölünür. İlk dəfə N.K.Dmitriyevin istifadə etdiyi bu bölgü ciddi nəzəri əhəmiyyət daşımasa da, müəyyən praktik önəm kəsb edir. Lakin bu bölgüdə "məkani hallar" deyil, "qrammatil-məkani hallar" terminindən istifadə olunması zəruridir.

Müasir ingilis dilində ismin hal kateqoriyası nəzəri qrammatikanın ən mübahisəli problemlərindən biri olmuşdur və olaraq qalır. Bu mübahisəli vəziyyətin əsas səbəbləri ingilis dilinin keçirdiyi tarixi inkişafla əlaqədardır. Belə ki, qədim ingilis dili sintetik dil idi və hal kateqoriyası qədim ingilis dilinin iki əsas qrammatik (morfoloji) kateqoriyasından biri idi (ikincisi kəmiyyət kateqoriyası idi). Qədim ingilis dilində ismin qrammatik yolla ifadə olunan dörd halı var idi:

1. Nominative case - adlıq hal
2. Genitive case - yiyəlik hal
3. Dative case - yönlük hal
4. Accusative case - təsirlik hal (9, s. 93).

Lakin keşməkeşli tarixi inkişafın nəticəsi olaraq müasir ingilis dili öz tipoloji quruluşu etibarilə analitik dildir və ismin hal kateqoriyası əsaslı dəyişikliklərə uğramışdır. Müasir ingilis dilində ismin hal kateqoriyasına dair müxtəlif fikirlər irəli sürülmüşdür. Fərqli meyarlar əsasında formalaşmış həmin fikirləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. İsmin halları ikidən çoxdur.

2. İngilis dilində hal kateqoriyası mövcud deyil.

3. İsmin iki halı var.

Birinci fikri irəli sürən dilçilər göstərirlər ki, ismin halları yalnız morfoloji yolla deyil, sözönülər və söz sırası vasitəsi ilə də əmələ gəlir. Beləliklə, həmin dilçilər analitik halların ingilis dilinə xas olması fikrini irəli sürürlər. Bizcə, sözönülər və söz sırasının ismin hal kateqoriyasının ifadə vasitələri olması ideyasına əsaslanan bu baxışla razılaşmaq məqsədə uyğun deyildir. Sözönülər, söz sirası və ismin hal kateqoriyası arasındakı münasibətə dair R. Budaqovun fikri olduqca maraqlıdır: "Hər hansı bir qrammatik kateqoriya nəinki müəyyən mənaya malikdir, həm də onun öz müəyyən ifadə forması vardır. Əgər sözönülər və sözlərin sırası cümlədə öz vəzifələrinə görə halları xatırladırsa, öz formasına görə onlar hallardan fərqlənir" (2, s. 41). Ümumiyyətlə, müəllif göstərir kı, ismin hallara görə dəyişmədiyi dillərdə qrammatik hal kateqoriyası yoxdur, yalnız sözönülər və sözlərin sırası vasitəsilə ifadə olunan oxşar sintaktik əlaqələr mövcuddur. Buradan aydın olur ki, müasir ingilis dilində eyni sintaktik əlaqə həm hal kateqoriyası, yəni, morfoloji əlamətlə, həm də sözönülər və söz sırası vasitəsilə, başqa sözlə, analitik yolla, sintaktik vasitələrlə ifadə edilir. Bu xüsusiyyət isə ingilis dilinin keçirmiş olduğu tarixi inkişafla bağlı olub, qədim ingilis dilinin sintetik, müasir ingilis dilinin isə analitik səciyyə daşıması və bu dil tiplərinin hər ikisinə xas olan əlamətlərin dilin müasir vəziyyətində təzahür etməsi ilə əlaqədardır. Ümumiyyətlə, R. Budaqovun göstərdiyi kimi, "Ayrı-ayrı dillərin tarixində, hallar, sözönülər və sözlərin sırası arasındakı əlaqə tədricən dəyişə bilər. Xüsusən, müəyyən bir dövrdə hallarla ifadə olunan qrammatik mənalar başqa bir dövrdə sözönülərlə ifadə edilə bilər və əksinə" (2, s. 170).

Ingilis dilində hal kateqoriyası ilə əlaqədar olaraq geniş yayılan ikinci fikir, yəni bu dildə hal kateqoriyasının mövcud olmaması fikri bu dildə halın yeganə morfoloji əlaməti olan – 's şəkilçisinin xüsusiyyətləri ilə əlaqədardır. Bu fikrin tərəfdarlarından olan prof, B. İliş göstərir ki, – 's şəkilçisi artıq klassik mənada hal şəkilçisi deyildir. Belə ki, bu şəkilçi artıq təkcə isimlərlə deyil, başqa nitq hissələri, o cümlədən söz birləşmələri ilə də işlənə bilir (5, s. 43).

Bizcə, belə bir fikirlə razılaşmaq məqsədəuyğun deyildir. Ümumi dilçilik prinsipləri nöqteyi-nəzərindən bu ideya özünü doğrultmur. Belə ki, məsələn, müasir Azərbaycan dilində hal şəkilçiləri istisnasız olaraq bütün substantivləşmiş nitq hissələrinə artırıla bilir, lakin bu universallıq onların qrammatik hal şəkilçiləri olmalarına qətiyyən mane olmur.

Ümumiyyətlə, bu təkzibolunmaz faktdır ki, ingilis dilində ismin hal kateqoriyası əsaslı dəyişikliklərə uğramış və uğramaqdadır. Təsadüfi deyildir ki, indi – 's şəkilçisinin daha çox cansız isimlərə artırıla bilməsi meyli özünü göstərir. Bu kateqoriya ilə bağlı prosesin nə ilə qurtaracağını, şübhəsiz, dilin gələcək inkişafı göstərəcəkdir. Başqa sözlə, ingilis dilinin indiki

vəziyyətində ismin hallarının qrammatik kateqoriya predmeti olmadığını iddia etmək məqsədəuyğun deyil.

İngilis dilində hal kateqoriyası ilə bağlı üçüncü fikir, yəni bu dildə ismin iki halının olması ideyası (ümumi hal və yiyəlik halı) əksər dünya dilçiləri tərəfindən qəbul olunur (1, s. 65-66). Fikrimizcə, ingilis dilinin indiki vəziyyətində iki hal sistemindən ibarət qrammatik hal kateqoriyasının qəbul olunması ən düzgün variantdır.

Nəticə olaraq demək olar ki, müxtəlif dil ailələrinə aid olan bu iki dildə ismin hal kateqoriyasının müqayisəli-tipoloji tədqiqi müəyyən nəzəri əhəmiyyət kəsb edir. Eyni zamanda, Azərbaycan dilindəki hal mənalarının ingilis dilində ifadə vasitələrinin modelləşdirilməsi sistemi digər dil hadisələrinin araşdırılmasında tətbiq oluna bilər.

## ƏDƏBİYYAT


1. Blokh M.Y. A course in theoretical English grammar. M.: Vyssaja skola, 1983, 384 p.
2. Budaqov R.A. Dilçiliyə dair oçerklər. Bakı: Azərnəşr, 1956.
3. Виноградов В.В. Русский язык. М.: Учпедгиз, 1947.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Baki: Maarif, 1973, 359 s.
5. Ilyish B.A. The structure of modern English. M.-L., 1971.
6. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikasi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1990, 376 s.
7. Müasir Azərbaycan dili. II c.. Morfologiya. Bakı: Elm, 1980, 512 s.
8. Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası. II hissə. Morfologiya. Bakı: Elm, 1986, 135 s.
9. Rastorguyeva T.A. A history of English. M.: Vyssaja skola, 1983, 348 p.
10. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı: Bakı Universiteti nəşriyyatı, 2000, 403 s.



**Ширмаммад Гулубайли**


## О КАТЕГОРИИ ПАДЕЖА В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ


Статья посвящена сопоставительно-типологическому анализу грамматической категории падежа в современном азербайджанском и английском языках. Обобщая мнения разных лингвистов автор статьи приходит к выводу, что хотя количество падежей неодинаково в исследуемых языках, это лингвистическое явление функционирует в качестве грамматической категории как в азербайджанском так и в английском языке.

Выявлено, что резултаты анализа этой микроструктуры на основе типологической лингвистики могут быть полезными при исследовании других микроструктур.

**Shirmammad Qulubayli**

## ABOUT THE CATEGORY OF CASE IN MODERN AZERBAIJANI AND ENGLISH

This article deals with the comparative-typological analysis of the grammatical category of case in the modern Azerbaijani and English languages. General sing opinions of different linguists the author of the article comes to conclusion that though the number of the cases is different in the investigated languages the studied linguistic event functions as a grammatical category both in Azerbaijani and in English.

It was concluded that the analysis of this microstructure on the basis of typological linguistics may be useful for the investigations of other microstructures.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.d. A.Bağırov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**SƏYYAR MƏMMƏDOV**
AMEA Naxçıvan Bölməsi

# CULFA ŞİVƏLƏRİNDƏ SİFƏTİN DƏRƏCƏLƏRİ

Naxçıvan qrupu dialekt və şivələrinin tərkib hissəsi olan Culfa şivələrində sifətin dərəcələri ədəbi dilimizdəki eyniliklə yanaşı, səciyyəvi cəhətlərə də malikdir. Bu baxımdan tədqiq olunan şivələrdə sifətin dərəcələrinin ifadə olunmasını iki şəkildə izah etmək olar: 1) Culfa şivələrində işlənən bu və ya digər şəkilçi fonetik tərkibcə ədəbi dilimizdəki şəkilçidən fərqlənir; 2) Culfa şivələrində ədəbi dilimizdə olmayan dərəcə şəkilçiləri işlənir.

Burada sifətin aşağıdakı dərəcələri müşahidə olunur.

**1. Adi dərəcə.**
**2. Azaltma dərəcəsi.**
**3. Çoxaltma dərəcəsi.**

## 1. Adi dərəcə

Culfa rayonu şivələrində sifətin adi dərəcəsi heç bir morfoloji əlamət qəbul etmir; məs.: ***nırqız*** **(xəsis),** ***zırı*** **(böyük, iri),** ***nanay*** **(yüngül xasiyyətli),** ***səllimi*** **(sahibsiz),** ***xuduˇru*** **(boş, mənasız),** ***cod*** **(bərk),** ***tuxda*** **(saxta)** ***(B., Ə., Ş., Cul.ş., Əl.), dılğır*** **(xarab),** ***gəvəzə, zənəx'*** **(çox danışan),** ***dımıx*** **(kiçik quyruqlu),** ***dürrəx'*** **(tənbəl)** ***(S., Y., M., B.əhm., T., K., Ər., D., Gal), qart*** **(qocalmış),** ***ziver*** **(dözümlü)** ***(Ş., S., Cam., T., Ə.), bambəz*** **(astarı yun olan)** ***(ək.k.).***

Misallar: – ***Allahın da nırqız adamnan xoşu gəlmi:b (S.); – Mən gördüğüm çox zırı ayıydı əşi (Y.); – Uşa: indidən nanay xəsyət örgətmə (Cul.ş.); – Səllimi davarı qurt qırar (B.əhm.); – Cod saş dımıx qo:nun qu:ruğuna oxşu:r (B.); – At gessin ə:nə, tuxda şeymiş bı (Ə.); – Dılğır bi qaloşum va:rdı, onuncunu unnan quta:dım (K.); – Dürrəx' arvadın öhdəsinnən, əsdafullah, Allah da gələmmi:b, gə otu (T.); – Ə:, ağlın ma: getməsin e:, u ziver gədədi, naxadı sə:n əyər (Ər.).***

## 2. Azaltma dərəcəsi

Sifətin bu dərəcəsi Culfa şivələrində adi dərəcədə olan sifətlərə aşağıdakı morfoloji əlamətlərin əlavəsi ilə əmələ gəlir.

1. ***-artdax.*** Bu şəkilçi ***bozartdax*** və ***qızartdax*** sözlərində müşahidə olunur və sifətin adi dərəcədən aşağı olduğunu bildirir.

Misallar: – ***Bi bozartdax qəsdumum vardı, şumallıxda*** **(cavanlıqda)** ***qərəm*** **(daim)** ***unu gə:rdim (X.keş.); – Qızarmışdarın yığın da:, bala, qızartdax-***

*ların qo:n qalsın qızaranda yığarsĩ:z (Ər.).*

2. ***-alax; -arıx; -arax, -ərəx'; -rax, -rəx'.*** Ədəbi dilimizin əvvəlki dövrlərində çox işlənən **-raq, -rək** şəkilçisinin fonetik variantları olan bu şəkilçilərə Culfa şivələrində ***dazalax*** **(keçəl təhər)**, ***bozarax, bozarıx, gödərəx' // gödrəx', qızarıx, donqarax, xırdarax*** sözlərinin tərkibində rast gəlinir.

Azərbaycan dilinin Şəki dialektində (4, s. 104) və qərb qrupu dialekt və şivələrində də (2, s. 88) bu şəkilçilərlə sifətin azaltma dərəcəsi əmələ gəlir.

Misallar: – ***Qonşu:n ulağı bozarax eşşəx'di, ötü gessin (L.); – Gödərəx' ipə çatı də:rıx (Y.); – Məsələ, bi tayı qırmızı əriyə qızarıx ərix' də:llər (G. dərə); – A ki˘şi, donqarax atdan sa: nəf olmaz, əl çəx' bı söx'bətdən (Ər.); – Yumru, gödrəx', üzüyola ki˘şiydi, irəx'mətdix' (K.); – Sə:n də bi dazalax giyəvin var da: ta (D.); – Kip, xırdarax maşın də:ldi sən gəldığın (Ş.)?***

3. ***-umturax, -umturux.*** Ədəbi dilimizdəki **-mtraq** şəkilçisinin fonetik variantları olan bu şəkilçi tədqiq olunan şivələrdə **boz** sifətinə qoşularaq, əlamətin normadan az olduğunu bildirən azaltma dərəcəli ***bozumturax // bozumturux*** sifətlərini əmələ gətirir.

Misallar: – ***Babamın bi bozumturax pıça: varıydı, şi˘tənən kimin bizi unnan qəzillədip qorxudardı (Cam); – Yeməli alma bıdı, bozumturux olan (Ş.).***

4. ***-şin.*** Bu şəkilçi **qara, sarı** sifətlərinin tərkibində işlənərək rəngin adi dərəcədən az olduğunu bildirir; məs.: ***qaraşin, sarĩşin (Ər., L., S., B., Y.).***

Misallar: – ***Bınnar döndü oldu iki qaraşin adam (S.); – Sarĩşin alma qar yerə düşdü, gələx' yə:sən (Ər.).***

5. ***-umsurax.*** Bu şəkilçi Ərəfsə kənd şivəsində ***bozumsurax*** sözündə müşahidə olunmuşdur.

Misal: – ***No:ꞑlub, bozumsurax irəngin var?***

***-umsurax*** şəkilçisi qədim türk yazılı abidələrində **-sırak** formasında sifətlərə qoşularaq dərəcə məzmunu ifadə etmişdir; məs.: ***ak+sırak ordu*** (MÇ-20) **ağca ordu** (7, s. 100).

Culfa şivələrində sifətin azaltma dərəcəsi həm də sintaktik üsulla düzəlir ki, bu da sifətlərin əvvəlinə və ya sonuna bəzi sözlərin yanaşması ilə səciyyələnir.

Həmin sözlər aşağıdakılardır.

1. ***ala.*** Bu söz **boz, qırmızı, qaranlıq, mor, babat, bəzəx', yarımçıx** sözlərinin əvvəlində işlənərək əlamət və ya keyfiyyətin adi dərəcədən az olduğunu bildirən ***alaboz, alaqırmızı, alaqarannıx, alamor*** **(az qızarmış)**, ***alababat*** **(yaxşı təhər)**, ***alabəzəx', alayarımçıx (ək.k.)*** sifətlərini meydana çıxarır.

Misallar: – ***Alaboz çaydan mə:m dədəm əvinnən gətirdığım ce:zdi (Y.); – Bax, bı pami˘dora alaqırmızı da də:rıx, əmə ən çox da alamor pami˘dor deyi˘rıx (Cul.ş.); – Ə, həlalix' alababat qoy dursun, yaz açılanda ellix'cən köməx'ləşib düzəldərix' (L.); – Qabaxlar, mə:m yadĩma gə:r, gəli˘ni alabəzəx' atdarda, unnan sox'ra, alabəzəx' faytunnarda gətirərdilər bəy əvinə (T.); – Alayarımçıx iş ki˘şi əməli də:r (G.dərə).***

2. ***çilə.*** Bu söz də **boz** sözündən əvvəl işlənərək ***çiləboz*** sifəti kimi əlamətin adi dərəcədən az olduğunu ifadə edir.

Misal: – ***Unda gördüm bi çiləboz at boynun əyib qarnına ildırım kimi ça-yı addadı bı taya (B.əhm.).***

3. ***bığdayı.*** Yalnız **qara** sözünə qoşularaq, ***qarabığdayı*** şəklində işlənir.

Misal: – ***Bı ki˘şiyə gələndə bəsdəboy, qarabığdayı bi qızıdım (Q.).***

4. ***çalar.*** Bu söz bütün əsli sifətlərdən sonra işlənərək sifətin azaltma dərəcəsini bildirir. Bu zaman həmin sifətlər yönlük halın şəkilçisini **(-a², -ya²)** qəbul edirlər; məs.: ***qarıyaçalar, sarıyaçalar, göyəçalar, qırmızıyaçalar və s. (b.k.).***

5. ***dönər. sarıyadönər, bozadönər, abıyadönər (qəhvəyi rəngə oxşar) (Y., Ş., D., Gal, Cam., L., K.).***

Çənbərək-Karvansaray şivələrində də ***çalar*** və ***dönər*** sözləri vasitəsi ilə sifətin azaltma dərəcəsi ifadə olunur (5, s. 143).

**3. Çoxaltma dərəcəsi**

Bu dərəcə üstünlük və şiddətləndirmə kimi növləri özündə birləşdirir (3, s. 90).

Culfa rayonu şivələrində sifətin çoxaltma dərəcəsi aşağıdakı yollarla düzəlir:

**1) analitik üsul; 2) sintetik üsul.**

**1) Analitik üsulla.** Bu üsulla sifətin çoxaltma dərəcəsi sözlərin əvvəlinə **ən, lap // illap, çox, tüt // tünt, düm, zil, qət, qan, qır, lül** ədat və sözlərinin əlavəsi ilə ifadə olunur; məs.: ***ən pis // əm pis, lap yaxųı, çox zarafaçcıl, tüt göy, düm ağ, zil qara (b.k.), qət təzə, zil zənəx'*** **(həddindən artıq çox danışan)** ***(Y., S.), qan qırmızı, qır duz, lül kefli, lül qəmbər*** **(həddindən artıq spirtli içki içərək keflənmiş)** ***(L., Ər., K., Əl., Əbr., X.gah, X.keş., Ş.)*** və s.

Misallar: – ***Gəlmiyib, illap yaxųı da: tez işī: qutar, gəlsin həylə görsün (Əl.); – Ələsgər bi maşın gəti:b kin, qət təzə (Y.); – Sə:n kimin zil zənəx' adam ta:rix yetirmi:b ha: (S.); – Ayda-ildə bi qonağa yemәx' pi˘şi:sən, unu da qır duz (K.); – Ųöndüm kin, nə:, lül qəmbər, ta yeriyəmmir, bədbaxdın balası (X.gah).***

Türkmən dili dialektlərində də **zil** sözü sifətin çoxaltma dərəcəsini ifadə edir; məs.: ***зи:л са:ры*** (1, s. 89).

**2) Sintetik üsul.** Bu üsulla sifətin çoxaltma dərəcəsinin əmələ gəlməsi dörd formada özünü göstərir. Birincisi: sifətin ikinci hecasına **m, p, r** səslərindən biri əlavə olunur və sifət yenidən təkrar edilir; məs.: ***dumduru // dupduru, sopsoyux, dopdolu, şipşirin, tərtəmiz // tərtəmmiz, təptəzə (b.k.) // təmtəzə, göpgözəl (Gal, Cam., Ş., T.).***

İkinci forma isə sifətin birinci hecasının son samitinin **m, p, s** səslərindən biri ilə əvəzlənməsi və sifətin yenidən təkrar olunması ilə səciyyələnir; məs.: ***qıpqırmızı (b.k.), tumtuş, ipisdi, dosdoğru, dosdoğma // dopdoğma, sapsağlam, düpdüz (T., Ər., X.gah, G.dərə, S.).***

Bu üsulla əmələ gələn çoxaltma dərəcəsinin üçüncü formasında əlavə və ya əvəz olunan səslərdən sonra **-ba, -bə** hissəciyinin artırlması və sifətin yenidən təkrar olunması özünü göstərir; məs.: ***düpbədüz, sapbasağlam, dopbadolu, sopbasoyux (Y., Ş., Cam., Gal, Əl.).***

Çoxaltma dərəcəsinin bu cür ifadə olunması Şəki dialektində də özünü göstərir (4, s. 104).

Sonuncu forma isə çoxaltma dərəcəsini bildirən hissə ilə sifət arasına **-balam, -bələm** hissəciyinin artırılmasından ibarətdir; məs.: ***düpbələmdüz, göpbələmgözəl, tumbalamtuş (S., D., Gal, Cam., Y., B., Ə., Ş., Əl., T., X.keş.).***

Misallar: ***– Bı kəndin pütün bılaxları dumduru sudu, qoxma, iş gessin (T.); – Gilanarın başı elədi-elədi dopdolu (Cam.); – Təptəzə bi çadır almışam, adamım işdətməğə əlı gəlmir (Gal); – Ə u:n nəyə ye:rsən, tumtuşdu indi (X.gah); – Bı:n nəyidi ki, sapsağlam cavan düyədi da: (G.dərə); – Sara əmca:mın dosdoğma qardaşı qızıdı, sən bilmirsən (Ə.); – Gə lavaşīnan penir yə:x', təptəzə, ipisdi çörəx'nən ləzzətdi olur penir (G.dərə); – Hər dəfəm də gedəndə dopbadolu sumkalarınan getmişəm, indi ma: hül gəlir (Y.); – De:r "hər şey dəvə:n boynu kimin düpbələmdüzdü" (X.keş.); – Xanışın ikinci nəvəsi yaxüıdı, gədə eləbilginən gəpbələmgözəl qızdı (D.); – Bı payızın axır ayı yeməli o:r, indi tumbalabtuş tam verər (Əl.).***

Bunlardan başqa, bu şivələrdə ***-pər*** şəkilçinin yekə sözünə qoşulması ilə də əlamətin adi dərəcədən çox olduğunu bildirən ***yekəpər*** sifəti əmələ gəlir.

Misal: ***– Ə, neca:nı tanımadım, qarnıyoğun, yekəpər kiˇşidi Səfəralı (Q.).***

Nümunə və misallardan göründüyü kimi, Culfa rayonu şivələrində sifətin dərəcələrinin ifadə olunması üsulları digər dialekt və şivələrimizdən, eləcə də tərkib hissəsi olduğu Naxçıvan qrupu dialekt və şivələrindən fərqlənən səciyyəvi dialektoloji xüsusiyyətlərə malikdir.

Kənd adlarının ixtisarı: ***B.*** – Bənəniyar, ***B.əhm.*** – Boyəhməd, ***Cam.*** – Camaldın, ***Cul.ş.*** – Culfa şəhəri, ***D.*** – Dizə, ***Əbr.*** – Əbrəqunus, ***Əl.*** – Əlincə, ***Ər.*** – Ərəfsə, ***Ə.*** – Ərəzin, ***G.dərə*** – Göydərə, ***X.gah*** – Xanəgah, ***X.keş.*** – Xoşkeşin, ***K.*** – Kırna, ***Q.*** – Qazançı, ***L.*** – Ləkətaq, ***M.*** – Milaq, ***S.*** – Saltaq, ***Ş.*** – Şurud, ***T.*** – Teyvaz, ***Y.*** – Yaycı.

## ƏDƏBİYYAT


1. Аразкулыев С., Атаныязов С. ве башг. Түркмен дилинин гысгача диалектологик сөзлүги. Ашгабат: Ылым, 1977, 316 с.
2. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967, 283 s.
3. Hüseynzadə M.H. Müasir Azərbaycan dili. Morfologiya. III hissə. Bakı: Maarif, 1983, 320 s.
4. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1968, 275 s.
5. Kərimov Ş.M. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri. Bakı: Nurlan, 2004, 362 s.
6. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: ADTP Ədəbiyyatı, 1962, 424 s.

7. Şükürlü Ə.C. Qədim türk yazılı abidələrinin dili. Dərslik. Bakı: Maarif, 1993, 336 s.

**Сайяр Мамедов**

**КАТЕГОРИЯ СТЕПЕНИ СРАВНЕНИЯ ПРИЛАГАТЕЛЬНЫХ В ДЖУЛЬФИНСКИХ АКЦЕНТАХ**

В статье исследованы категория прилагательных в Джульфинских акцентах, и они сопоставлены с другими акцентами разных регионов. В статье разобраны уменьшительные и превосходные виды прилагательных, приведены множество примеров на основе богатейших материалов. При исследовании привлекает внимание и то, что архаические окончания **как *-арттах, -арах$^2$, -алах, -рах$^2$, -умсурах,*** кеоторые не употребляют в литееelement ратурном языке, а сегодня встречаются в акцентах, в собранных материалах.

При исследовании автором выявлены, что уменьшительные и превосходные виды прилагательных еще образуются синтаксическим способом и Джульфинские акценты в таком направлении имеют свою самобытность.

**Sayyar Mammadov**

**THE DEGREE OF ADJECTIVE IN JULFA ACCENTS**

As in our other dialects and accents the comparative and superlative degree of adjective in Julfa accents has their own features. The ways of formation these degrees are explained by the author on the basis of materials and facts.

With many materials and facts the researcher is proved that the suffixes ***-artdax, -arax$^2$, -alax, -rax$^2$, -umsurax*** which are not in use in our literary language are very active in investigated accents. At the same time the article deals with the syntactic way of forming comparative and superlative degrees.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.n. F.Rzayev.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**NURAY ƏLİYEVA**
AMEA Naxçıvan Bölməsi

# ŞAHBUZ ŞİVƏLƏRİNDƏ ADƏT-ƏNƏNƏ İLƏ BAĞLI TERMİNLƏR

Məlumdur ki, xalqımızın özünəməxsus adət-ənənəsi var. Bu adət və ənənələr əsrlərin sınağından keçib bu günümüzə qədər gəlib çatmışdır. Şübhəsiz ki, hər bir adət və ənənə sözlə ifadə olunur. Bu baxımdan dialektlərimizin lüğət tərkibinin maraqlı bir qatını da bu sahə ilə bağlı terminlər təşkil edir. Məqalənin həcmini nəzərə alaraq burada yalnız Şahbuz şivələrində özünü göstərən toy adəti ilə bağlı dialektoloji leksikaya müraciət edəcəyik. Şahbuz şivələrində toy adətləri ilə bağlı leksik vahidlər olduqca zəngindir. Burada həm sırf Şahbuz şivələrinə xas olan, həm də digər dialekt və şivələrimizdə, ədəbi dilimizdə işlənən sözlər vardır. Məs.: Ərgən (ə. ş.) <evlənmə vaxtı çatan gənc oğlan>. -*Səlimin oğlu tay yekəlib ərgən oğlan olub* (Badamlı).

Azərbaycan dilinin dialekt və şivələrində bu leksik vahid müəyyən fonetik dəyişikliklə eyni mənada qeydə alınmışdır: məs.: əri˘yən//əryən//ərgən (Tovuz, Qazax, Salyan) (3, s. 220); əryən (Çəmbərək, Gədəbəy, Qazax, Şəki, Tovuz) (2, s. 177); əryən <subay, yeniyetmə> (10, s. 244); əri˘yən <evlənmək həddinə çatmış subay oğlan> (5, s. 215); ərgən (Ağdam, Bərdə, Cəbrayıl, Daşkəsən, Kəlbəcər, Qarakilsə, Salyan, Zəngilan) (2, s. 176). Şahbuz şivələrində ərgən sözü ancaq oğlanlara aid edilir. Bu leksik vahidlə bağlı ərgənnix' sözünün mənası da oğlana aiddir. Ərgənnix' (ə. ş.) <qardaşlar ayrılarkən evli qardaşların ərgən (subay) qardaşa verdikləri əlavə pay>. -*Əvli qardaşdar ərgən qardaşa əvlənməx'dən yana öz paylarınnan ona mal, pul verəllər, də:llər bı da sə:n ərgənniyin* (Kolanı). Ərgənnix' sözü eyni mənada Qazax (3, s. 221) dialektində də işlənir. "Kitabi-Dədə Qorqud" dastanlarında ərgənlik sözü "qızın nişanlısına göndərdiyi hədiyyə" (11, s. 164) mənasında izah edilmişdir. -*Adaxlısından ərgənlik bir qırmızı qaftan gəldi* (11, s. 52).

Deyix'li (ə. ş.) <oğlan və qız kiçik yaşlarında olarkən iki ailə arasında gələcəkdə evlənmələri arzu olunan oğlan və qız>. -*Deyix'lilix' yaxcı şey dəyil, yekələnnən sohra ya oğlan qızı bəyəmmir, ya da qız oğlanı. Beləlöri çox olub* (Kolanı). Dialektoloji lüğətlərdə deyix'li (Gəncə) //de:x'li (Qazax) <uşaqlıqdan adaxlanmış qız və ya oğlan> (3, s. 178); deyix'lı (Qazax) <nişanlı> (2, s. 129) mənalarında qeydə alınmışdır. Şahbuz şivələrindəki məna

ilə göründüyü kimi Gəncə və Qazax dialektlərindəki məna arasında fərq vardır. Belə ki, Şahbuz şivələrində adaxlanma və ya nişanlı sözlərinin leksik anlamı tamam fərqlidir. Deyix'li sözünün ifadə etdiyi anlam "Kitabi-Dədə Qorqud" dastanındakı "beşik gərtmə yavuqlu" söz birləşməsinin ifadə etdiyi məna ilə eyniləşir: -*Bəylər, Allah taala mana bir qız verəcək olursa, siz tanıq olun, mənim qızım Baybura bəyin oğluna beşik gərtmə yavuqlu olsun – dedi* (11, s. 43). Şahbuz şivələrində göbək kəsmə nişanlı termini də bu mənada işlənir. Lakin burada eyni gündə doğulan oğlan və qız nəzərdə tutulur.

Söz almax (ə. k.) <qız evindən razılıq almaq>. -*Söz almağa üş-dörd ağsaqqalımız, ağbirçəyimiz gedəllər* (Kolanı).

Ad eləməx' (ə. k.) <qız evinin razılığını almaq və qıza kizik hədiyyə vermək>. -*Ad eləməyə ya bir yaylıx, ya bir üzüx' aparıllar* (Biçənək).

Bu mənanı Gəncə dialektində addandırmax, Qazax dialektində ad (eləməx') (3, s. 23) sözləri ifadə edir.

Adaxlı (ə .k.) <nişanlı>. -*Adaxlı qızdarı hər bayramda ağır əziz edərix'* (Nursu). Bu leksik vahid də qədim sözlərimizdən olub, "Kitabi-Dədə Qorqud" dastanlarında eyni mənada işlənmişdir: -*Adaxlısın ayrıqlar alırkən tutub alan* (11, s. 147).

Bəlgə (ə. k.) <oğlan evindən qıza verilən əşyalar>. -*Nişannan əvvəl qıza bəlgə aparrıx* (Keçili). Dialekt və şivələrimizdə bəlgə eyni mənada qeydə alınmışdır. Bu söz Kəlbəcər şivəsində (3, s. 70) bəlyə; Şəki dialektində (3, s. 70) bəli˘yə (10, s. 236) formasında işlənir.

Sözkəsdi (Kolanı, Biçənək, Aşağı Qışlaq, Ağbulaq, Nursu) <toy haqqında oğlan evinin qız evi ilə məsləhətləşməsi>. -*Söz kəsdidə qız əvi oğlan əvinnən başdıx nə alacax onu də:r, gəlinin nə vaxt aparacaxlar, nə zaman paltar bişdi olacax onnarı danışallar* (Aşağı Qışlaq).

Başdıx (ə. k.) <oğlan evinin qız evinə verəcəyi hədiyyə və toy xərci>. -*Əvvəllərdən oğlan əvi qızın qahım-qardaşına pal-paltar alardı, qız toyunun xərcini-ətini çörəyi˘ni verərdi, amancax indi pul verillər* (Külüs).

Azərbaycan dilinin dialekt və şivələrində də bu leksik vahid eyni mənada qeydə alınmışdır. Bu mənanı Şəki dialektində atalıx (10, s. 235) sözü bildirir. Şahbuz bölgəsində də Azərbaycanın digər bölgələrində olduğu kimi, kəndin xeyir-şərində hamı iştirak edir. Hər kəs çalışır ki, kiminsə xeyir-şərində görünsün, yadda qalsın. Şahbuz toylarında da kənd sakinləri hamılıqla iştirak edir. Toya hazırlığın müxtəlif mərhələlərində toy sahibinə mənəvi kömək etmək üçün müxtəlif adət-ənənələrdən istifadə edilir ki, bunlar bu gün də saxlanılır və bu ənənələrin ifadəçisi olan dialekt sözlər özünü göstərməkdədir. Məs.: təli˘fçi (ə. k.) <adamları toya dəvət edən şəxs>; çörəx' üstü (ə. k.) <toy çörəyi bişirilən zaman gələn adamların gətirdiyi hədiyyə, şirniyyat və ya pul>; üzüx' taxma (ə. k.) <nişan üzüyünü taxana (bu işi bəyin bacısı və ya yaxın qohumlarından olan gənc qız icra edir) verilən hədiyyə>; toy toxlusu//toy toğlusu (ə. k.) <oğlan evindən nişanlı qıza aparılan bəzədilmiş erkək qoyun>; toy xərci (ə. k.) <toya xərclənən

pul>; aşşabaş (ə. k.) <toyda oynayanların əlinə verilən pul>; toyçu (ə. k.) <toyda iştirak edən çalğıçıların məcmusu>; toybəyi <toyu idarə edən şəxs>; qazan ağzı (açmaq) <toy xörəyi bişirən aşbaza verilən pul>; qəçi-kəsməz <gəlinə paltar tikənə verilən pul>; tel kəsmə <gəlini bəzəyənə verilən pul>; qapı kəsdi//qəpi kəsdi <gəlinin çıxdığı qapını kəsənə verilən pul>; xonça <tabaq>; bəy dürməyi <bəy tabağına qoyulan yemək>; gəlin atdandı <vağzalı>; cilavdar <gəlin minən atın cilovunu çəkən>; papax aparmax <gəlini gətirən dəstədə oğlan evinə birinci çatan – muştuluqçu>; şirinnix' <oğlan evinin həyətində gəlinin başına tökülən meyvəcat və ya şirniyyat>; bəy alması <bəyin gəlinə atdığı alma>; xinə gecəsi//xına gecəsi <toydan əvvəl gəlinə bəy evindən gətirilən xınanın gəlinin və toy adamlarının əlinə qoyulması>; haquşqa//hak'uşqa <xına gecəsində oxunan mahnı janrı>.

Toy adəti ilə bağlı bir sıra terminlər də işlənir ki, bu terminlərin ifadə etdiyi məna Şahbuz şivələrində fərqlənir. Məs.: Süd pulu <oğlan evinin qız anasına verdiyi pul>. Bu mənanı Gəncə dialektində anayolu (3, s. 36; 2, s. 15) termini ifadə edir.

Əyəğaşdı//əyağaşdı <yeni nişan qoyulmuş oğlanı qız evinin qonaq çağırması>. Ə:ğaşdı (3, s. 213; 2, s. 166) Ağsu şivələrində "ərə getmiş qızın toyundan sonra ilk dəfə atası evinə qonaq gəlməsi" mənasında qeydə alınmışdır.

Başyoldaşı <həyat yoldaşı>. Şahbuz şivələrində kişi arvadına, qadın da ərinə başyoldaşım deyir. Dialektoloji lüğətlərdə isə başyoldaşı (3, s. 62; 2, s. 37) Kürdəmir, Qazax, Şamaxı, Şəmkir dialekt və şivələrində arvad mənasında qeydə alınmışdır. Bizim fikrimizcə Şahbuz şivələrindəki məna daha doğru və məntiqidir. Belə ki, ədəbi dilimizdə işlənən həyat yoldaşı termini hər iki şəxsə – həm kişiyə, həm də qadına aid olduğu kimi, başyoldaşı leksemi də həm kişiyə, həm də qadına aiddir.

Boygörümü//boygörüncəyi (ə. k.) (Biçənək, Kolanı, Yuxarı Qışlaq, Kükü) <gəlini görmək istəyən yaxın qohumların gəlinə bağışladığı hədiyyə>. Bu leksik vahid boygörmə (3, s. 85) şəklində Naxçıvan dialektində "gəlinin görüşünə getmə"; Basarkeçər və Naxçıvanda 1. Toydan sonra təzə gəlini görmək mərasimi (Naxçıvan); 2. Təzə gəlinə toydan sonra verilən hədiyyə (Basarkeçər); boygörməsi şəklində Daşkəsən, Gədəbəy, Qazaxda boygörmənin hər iki mənasında; boygörüncəyi (2, s. 58-59) şəklində Ağdam, Bərdə, Kürdəmir, Şuşa bölgəsində də eyni mənalarda qeydə alınmışdır. Şəki dialektində üzgörümceyi (10, s. 258) toyun səhəri günü oğlan evində gəlini görmək münasibətilə olan yığıncaq, şənlik mənasında izah edilmişdir. Şahbuz şivələrində isə bu mənanı duvaqqapba//duvax leksemləri ifadə edir. Duaxqapba (2, s. 155) Basarkeçər, Cəbrayıl, Zəngilan şivələrində də eyni mənada işlənir.

Qardaşdığ (Kükü, Yuxarı Qışlaq, Quzey Qışlaq, Badamlı) <sağış-soldış>. Bu termin qərb qrupu dialekt və şivələrində də (5, s. 204; 3, s. 117) eyni mənada qeydə alınmışdır.

Dizdəyağı (ə. k.) <gəlinin gəlişinə qaynata və qaynananın ona verdi-

yi hədiyyə>. -*Gəli˘ni bəy otağına gətirəndə, də:llər kin gəlin otumur, dizdəyağı istir, qaynana, qaynata ona hədiyyə verəllər, bına dizdəyağı də:rix'* (Nursu). Ağdaş keçid şivələrində duzə:ğı (12, s. 44) sözü “gəlini qonaq çağırdıqda həyətə birinci dəfə qədəm qoyması münasibəti ilə verilən hədiyyə” mənasında qeydə alınmışdır. Göründüyü kimi, hər iki mənada yaxınlıq semantik baxımdan var. Yengə (ə. k.) <gəlini oğlan evinə gətirən, adətən yaşlı qadın>. -*Yengə gəlin gedən qızın xalasınnan, bibisinnən biri olar* (Kolanı). Dialektoloji ədəbiyyatlarda yengə sözünün iki mənada işlənməsi (1. Qardaş arvadı, əmi və ya dayı arvadı; 2. Toy günü gəlini oğlan evinə aparan qadın (3, s. 246; 5, s. 219)) qeydə alınmışdır. Şahbuz şivələrində bu sözün ancaq ikinci mənası (gəlini oğlan evinə gətirən qadın) işləkdir. Yengə sözü “Kitabi-Dədə Qorqud” dastanlarında qadınlardan yumorlu xarakterə malik olanların ayaması kimi işlənmişdir. Məs: -*Məgər Qısırca Yengə deyirlər (di) bir xatun vardı... – Mərə, Qısırca yengə! Dur sən oyna!... Qısırca yengə durdu, aydır* (11, s. 63). Qeyd edək ki, yengə sözü haqqında dialektoloq M.İslamov daha ətraflı məlumat vermişdir.

Nəmər (Nursu, Mahmudoba, Məzrə, Keçili) <1. Toy sahibindən yaxın adamlara toydan sonra verilən hədiyyə. 2. Nağıl və ya dastan söyləyən aşığa verilən pul>. - *Qabaxlar nəmər verərdilər gəlinə, üzüx' olsun, parça olsun, bö:ün hər şey pulnandı* (Nursu) -*Aşıx dasdanın şirin yerində görərdin əyləşdi çay içməyə, məylis sahabı bir sini götürüb nəmər yığardı, hərə beş-üş ma:at atardı siniyə* (Mərəlik). Bu leksik vahid qərb qrupu dialekt və şivələrində (5, s. 230) də eyni mənada qeydə alınmışdır.

Əlöpmə (ə. k.) <gəlin köçən qızın atası evinə gəlməsi münasibətilə keçirilən məclis>. -*Bu kətdə əlöpmə toydan bir-iki gün sohra olur* (Quzey Qışlaq).

Bu söz birləşməsinin semantik mənası valideynə – ata-anaya, böyüyə – qayınata və qayınanaya hörmət bəsləməkdir. Toy mərasimi ilə bağlı olan bu adət İraqda yaşayan azərbaycanlılar arasında, müasir Türkiyədə də yaşamaqdadır. Yeznə (ə. k.) <kürəkən>. -*Vallah, bı kətdərdə yeznə də:llər, aşşağı kətdərdə kürəkən də:n də var* (Keçili). Yeznə Ordubad dialektində “bacının əri” mənasında qeydə alınmışdır. Musa İslamov Şəki dialektində yeznə sözü ilə paralel olaraq “göy” sözünün işləndiyini göstərir. O, göstərir: “Göy sözünə müxtəlif fonetik variantlarda, demək olar ki, bütün türk dillərində rast gəlmək mümkündür” (10, s. 183). M.İslamov fikrini qədim türk dillərinə aid yazılı abidələrdən gətirdiyi nümunələrlə əsaslandırır.

Toyçular (ə. k.) <1. Toyu idarə edən musiqiçilərin məcmusu>. -*Qabaxca toyçu olardı üş nəfər, indi azınnan dörd-beş nəfər olullar* (Kolanı). 2. Toyçu <nağaraçı>.

Şahbuz şivələrinin özünə məxsus olan leksik vahidlərlə yanaşı toy və nişan ilə bağlı ədəbi dildə mövcud olan leksik vahidlər də burada işlənməkdədir.

Göstərilən terminlərin müəyyən hissəsi eynilə və ya fonetik dəyişikliklərlə Azərbaycan dilinin müxtəlif dialekt və şivələrində və ədəbi dilimizdə

özünü göstərir. Bir qrup terminlər isə Şahbuz şivələri üçün xarakterikdir və məhz bu şivələrdə müşahidə olunur.

Verilən misallardan da görünür ki, Şahbuz şivələrinin lüğət tərkibi olduqca zəngin və maraqlıdır. Bu materiallar dil tarixi, ədəbi dilin zənginləşməsi məsələlərində müəyyən əhəmiyyət daşıya bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962, 326 s.
2. Azərbaycan dilinin dialektoloji lüğəti. 2 cilddə, I c. Ankara: Kılıçaslan Matbaacılık, 1999, 661 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1964, 480 s.
4. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, I c. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1966, 595 s.
5. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967, 283 s.
6. Behbudov S. Azərbaycan dili şivələrinin omonimlər lüğəti. Bakı: Nurlan, 2003, 206 s.
7. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1982, 216 s.
8. Əhmədov M. Naxçıvan şivələrinin lüğəti. Bakı: Atilla, 2001, 167 s.
9. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2003, 579 s.
10. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1968, 276 s.
11. Kitabi-Dədə Qorqud. Bakı:Yazı, 1988, 263 s.
12. Vəliyev A. Azərbaycan dialektologiyasına aid materiallar (Göyçay keçid şivələrinin leksikası). Bakı: ADU, 1960, 120 s.


**Нурай Алиева**

## ТЕРМИНЫ СВЯЗАННЫЕ С ТРАДИЦИЯМИ В ШАХБУЗСКИХ АКЦЕНТАХ


В статье всесторонные исследованы свадебные термины Шахбузского акцента. Путем сопостовлении анализированы значения этих терминов и они сопоставлены другими диалектами и литературными языками, выявлены их характерные черты и разновидности.

В результате выявлены автором, что Шахбузские акценты богата своими значениями в связи с языковыми напровлениеми.

**Nuray Aliyeva**

## THE TRADITION TERMS IN SHAHBUZ ASSENTS

The terms of wedding party traditions in Shahbuz accents are investigated in the article. The mean of these terms were explained, their similar and different features with literary language and the other dialects were shown by then autor. It is noticed that there are many terms of wedding party in Shahbuz accents.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.d. A.Bağırov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ZÜLFİYYƏ İSMAYIL**
AMEA Naxçıvan Bölməsi

# BABƏK ŞİVƏLƏRİNDƏ TOXUCULUQ TERMİNLƏRİ

Azərbaycan xalqının ən qədim və maraqlı peşələrindən biri də toxuculuqdur. Toxuculuq insanlar üçün həmişə zəruri bir sənət olmuşdur. Ona görə ki, insanlar özlərini əvvəlcə soyuqdan, küləkdən, qardan qorumaq üçün toxunmalardan istifadə etmək zərurətini duymuşlar. İnsan cəmiyyəti, insan təfəkkürü inkişaf etdikcə toxuculuq peşəsi də həm gündəlik geyim tələbatını ödəmək üçün, həm də zövq oxşayan, insan arzu və istəklərini əks etdirən sənət nümunələri yaratmaq meyli yaranmış və həyati zərurətə çevrilmişdir. `

Toxuculuğun inkişafı toxuculuq üçün lazım olan xammalın,xüsusən, yunun, pambığın və baramanın çoxluğu ilə bağlıdır. Bu baxımdan Babək rayonunda qoyunçuluğun və baramaçılığın inkişafı burda toxuçuluğu daha da sürətləndirmişdir. Burada toxuculuqla, demək olar ki, bütün kəndlərdə, evlərdə məşğul olunmuşdur.

Babək rayonunun əksər kəndlərində bu gün də qədim toxuma nümunələrinə rast gəlmək olur. Bu kəndlərdə naxışlı corablar, xurcunlar, xalçalar toxunmuş və toxunur. Beləliklə, toxuculuğun qədimliyi və geniş yayılması toxuculuqla bağlı terminlərin də Babək şivələrində zənginliyi üçün əsas zəmin yaratmışdır. Bu terminlərin bir qismi Azərbaycan dilinin başqa dialekt və şivələrində, bir qismi isə ancaq Babək şivələrində işlənir. Toxuculuq terminləri lüğəti olmadığından, toxuculuq terminləri ayrı-ayrı dialekt və şivələrimizdə ayrılıqda öyrənilmədiyindən biz bu terminlərin əksəriyyətindən bəhs etməyi məqsədəuyğun bildik.

Bu sahəyə aid olan terminlərdən bir qismi ədəbi dilimizdən çıxmış, yalnız Azərbaycan dilinin dialekt və şivələrində, o cümlədən Babək şivələrində də qalmışdır. Digər bir qisim terminlər isə bu gün də ədəbi dilimizdə işlənməkdədir. Xalça, palaz və keçəçiliyə aid bir sıra terminlər «Kitabi-Dədə Qorqud dastanları»nın dilində işlənmiş və bu gün də ədəbi dilimizdə işlənir.

Başqa bir qrup terminlər isə ədəbi dildən fərqli xüsusiyyətlərə malikdir. Onlardan nümunə üçün aşağıdakıları göstərmək olar:

Toxunmanı hazır edənə qədər toxuculuq üçün xammal olan yun müxtəlif proseslərdə şəkildən-şəklə düşür. Bu prosesdə müxtəlif alət və dəz-

gahlardan istifadə edilir.

Yun darağı / darax – yunu təmizləmək üçün, daramaq, əlçimləmək üçün alət. *Yun darağıynan yunu dararıx(Ala.).*

Yun darağının hissələrini bildirən terminlər də var: darax dişi, darax qoynu, dişdix'/darağın dişləri-simləri sancılan sümük, dizaltı / darağın oturacağı.

Tifdix' darağı – keçilərdən tifdix' daramaq üçün hazırlanmış daraq. *Tifdix' darağı iri dişdi olur, əlinən keçilərin qəzilini darıyıb tifdix' çıxarırıx (Bad.).*

Cəhrə – əyirici alət. *Bizdərdə cəhrəsiz əv tapılmaz, cəhrəynən ip əyirərix' (Neh.).*

Babək şivələrində cəhrənin ayrı-ayrı hissələrini bildirən aşağıdakı adlara təsadüf olunur: top – cəhrənin fırlanmasını təmin edən hissəsi; cağ – cəhrənin girişini bir-birindən aralı saxlayan çubuq; ox, bılacax / qulp – cəhrəni işlətmək üçün lazım olan hissəsi: gəlinqonan, cəhrə daşı, keşəvəl – topu birləşdirən enli parça, yaxud ərkən, taxalax, taxalax keçən, iy, qulax və s.

Kiriş – cəhrəni işlədən ip. *Kirişi qırammasan, mumlamasan cəhrəni çox çətin işdədər (Ba.q.).*

Kiriş Quba (7, s. 146), Qazax (3, s. 76) şivələrində, türkmən ədəbi dilində, qədim lüğətlərdə eyni mənada işlənmişdir.

İy – cəhrənin bir hissəsi olub, yun əyirmək üçün cihazdır. *Ay bala, apar bı iyi Allahverən əmin düzəltsin, gök gəl (Kər.).*

Bu sözü özbək dilində jiq, türkmən dilində ik, müasir türk dilində iğ (5, s. 675) şəklində işlənir.

Qulaxlıx- iyi cəhrə ilə birləşdirən hissə. *Uşaxlara yalvarmışam davşanalmasınnan (ağac adıdır) bir qulaxlıx qırıb kəssinnər, qalmışam məhətdəl (Neh.).*

Qırdərisi-kiriş qırlamaq üçün lazım olan dəri parçası. *Qırı sürtərix' dəriyə, sora onnan kirişi qırarıx, olur qır dərisi (Neh.).*

Teşi – əyric, peleyin – əldə əyirmək üçün xüsusi alət. *Teşiynən piləni pambığı yunu əyir (Ba.q.).*

Teşi eyni mənada Bakı dialektində (2, s. 201) və Quba (7, s. 144 ), Qazax (3, s. 127 ) şivələrində işlənir. Teşe şəklində türkmən (5, s. 974 ) ədəbi dilində və qədim lüğətlərdə qeydə alınmışdır.

Cağ – corab mili. *Gör şə:rə gedən olsa, de pas kağızı alsınnar, cağları təmizdiyim, corab toxuyacam (Kər.).*

Qazax rayonu şivələrində də cağ sözü eyni məna daşıyır.

Yay – keçə salmaq üçün işlədilən alət. *Yay xarab olub nədi, yunu yaxşı atmır (Neh.).*

Yaykirişi – heyvannın acı bağırsağından düzəldilən kiriş. Bu cür kirişlər çox davamlı olur. *Toxmağın qabığında yaykirişindən başqa heç nə dayammaz (Neh.).*

Toxmax – keçə salmaq üçün lazım olan ağac alət. *Bı toxmaxdar ət toxmaxdarınnan xeylax tavautdudu, bınnar ancax keçə salmaq üçün lazımdı (Neh.).*

Səfgil – keçə salmaq üçün lazım olan alət. Bu leksik vahid çəpərən formasında da işlənir. *Səfgilinən yunu karxananın üstünə nizamla səpib, sora oxa sarıyıllar. Səfgil də dəllər, çəpərən də dənimiz olu (Kər.).*

Əlix' – balaca teşi. *Teşi yekə olar, ancaq əlix' balaca, xırdaca düx'cə əyirməx' olar əlix'də (Kər.).*

Karxana- üzərində keçə salmaq üçün yun səpilən bez. Karxananı 12-16 metrdən çox davamlı parçadan hazırlayırlar. *Keçə salmağdan ötrü yunu yayla atılar, sora atılmış yunu lazım olan ölçüdə karxana üstə səpib karxananı oxa bükür, başdıyıllar keçəni döyməyə (Cəh.).*

Babək şivələrində toxumaları iki cür dəzgahda toxuyurlar. Bunlardan biri yer hanası, ikincisi isə göy hanası adlanır. Hər bir hananın (dəzgahın) özünə aid hissələri və həmin dəzgahda (hanada) işlənən alətlər vardır. Bu dəzgahların hissələrinin adını bildirən terminlər də maraqlıdır.

Göy hanası – xalça, kilim toxumaq üçün düzəldilmiş hana – dəzgah. Bu dəzgahın yan ağacları torpağa basdırılır. Dəzgahda müxtəlif ölçüdə xalçalar toxunulur. *Göy hanasını qışda əvlərdə qurarıx (Ba.b.).*

Yannıx – hananın yan ağacları. Bəzi şivələrdə yannıxla yanaşı ana sözü də işlənir. *Meşədən iki analıx kəsmişəm, vaxtım olmur, gətirəm qəyitdirəm (Sir.).*

Ox – hananın yanlarını birləşdirən hissə. *Ox gərəx' ağaşdan ola, yoxsa hananın ağzı düz gəlməz ömründə (Sir.).*

Hər bir dəzgah üçün iki ox olur. Bunlardan birinə alt ox, birinə isə üst ox deyirlər.

Gücü ağacı- hanada ərişlə gücü ipini birləşdirən ağac. *Gücü ağacı erkəx' ərişlə, dişi ərişi bir-birinnən ayırır, arqac keşməyə köməx' edir (Kər.).*

Gücü çubuğu - gücü ağacı ilə birlikdə işlədilən gücü ağacı boyda çubuq. *Yaxçı kücü çubuğu kərməşovdan olar (Kər.).*

Vərəngalan /varangalan – ərişi tənzimləyən ağac. Bu ağac arqacı keçmək üçün ərişi aralı saxlayır. *Varangalan törpülənməsə ərişi qırar, gərəx' yaxçı-yaxçı törpüləsinnər onu (Neh.).*

Ləlix'/ leləx' – oxun uc hissəsi. *Alt oxumuzun lələyi çürüyüb, zəhlə də gücə düşsə qırılacax (Neh.).*

Zəhlə – hananın yan hissələrində ox üçün açılmış deşiklər. *Bı hananın zəhləsi dar açılıb, oxun lələyi yaxçı işdəmir (Neh.).*

Tavqı – hananın yan hissələrində ox üçün yer açılanda həmin ağac parçalanmasın deyə, simlə bir neçə yerdən bağlayırlar, həmin simlərə tavqı deyirlər. *Yannara tavqı verməsən, hananı pazdıyanda yannar cır çıxar başa (Kər.).*

Çilix' – *Çilix' lələyi aşağı yenməyə qoymaz, ərişdər tarım durar (Sir.).*

Kırtız – ipi əldə hamarlamaq, naziltmək üçün işlədilən polad çubuq. *Kırtızınan ipin pıtırrarın allıx, ip nəzix' olar(Sir.).*

Sülü – ağacdan düzəldilən mil. *Çobannar düzəldər sülünü nəzix' yemişan quru çubuğlarınnan, keçilərini darıyıb onnan əlcəx' toxuyallar (Ala.).*

Sülü – corab toxuyan iynə mənasında Quba (7, s. 211) və Bakı (8, s. 227) dialektlərində də işlənir.

Pa:z – böyük çiv. *Bir-iki gubban vır bı pa:zdara bəlkə ərişdər bərkiyə birəz (Sir.).* Pa:z sözü türkmən dilində pənha (5, s. 843), uyğur türkcəsində pana (5, s. 844) şəklində işlənir.

Babək şivələrində pa:z sözü ilə bağlı olaraq pa:zdamaq feli də işlənir.

Qoltuğağacı – gücü ağacını yanlardan aralı saxlamaq üçün düzəldilən ağac. *Qoltuğağacı istədiyin ağaşdan olar, onunku odu kin, gücünü anadan aralı saxlasın (Ala.).*

Həvə – toxuculuq aləti. *Kətdə kimnən desən tapılar həvə, həcətdi da, lazım olur gəbə, garbıt toxuyanda (Cəh.).*

Kirkit/Girgit – dəmirdən hazırlanmış bir neçə dişli toxuculuq aləti. *Girgid arğacı yedizdirir, yaxcı girgid əməsən arxadan arqacın dişi görsənər (Sir.).*

Kirkit sözü eyni mənada Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində də işlənir.

Çatma – yer hanasının bir hissəsi. Çatmanı üç ağacı baş-başa bağlayıb düzəldirlər. *Çatma gücü ağacını yuxarıda saxlayır (Ba.q.).*

Qılış /qılıc – arqacı bərkitmək üçün taxtadan hazırlanmış xüsusi toxuculuq aləti. *Qılışınan arqacı bərkidərix' yer hanasında, göy hanasında, əmə arqacı həvə bərkidər (Cəh.).*

Çəkəcəx' – yer hanasını bərkitməx' üçün sicimə salınıb burulan ağac. *Çəkəcəx' olmasa, hana bərkiməz (Cəh.).*

Yer hanasının bir çox hissələri göy hanası ilə eynidir. Yer hanasında da gücü ağacı, gücü çubuğu, dal ağacı, vərəngalan və s. vardır.

Toxuculuqda daha çox iştirak edən alətlərdən biri də iynədir. Babək şivələrində iynənin növlərini bildirən bir sıra terminlər bu gün də işlənməkdədir.

Təbənə – çuval, xaral ağzı tikmək üçün işlədilən iri iynə növü. *Qonşulardan rakimdəsə vardı təbənə lazım olanda alırıx (Ba.q.).*

Qazax dilində tiben şəklində işlənir.

Qullaba – palan tikmək üçün xüsusi iynə. *Palanduzdar işlədərdi qullabanı (Neh.).*

Qıyığ – iynə növü. *Bizdərdə dəllər iynə batına qıyığ batırram ( Neh.).*

Çuvaldız – çuval, xaral, palaz tikmək, gözəmək üçün işlədilən iynə. Çuvaldız sözü çuval sözü ilə bağlıdır.

Yorğan iynəsi – yorğan-döşək sırımaq üçün işlədilən iynə. *Yorğan iynəsi hər əvdə olar, yorğan-döşəx' salanda onnan sırıyırıx (Cəh.).*

Barmaxcıl / barmaxcıq – corab toxuyanda barmağa geyilən dəri. *Barmaxcığı özümüz tikərdix' dəridən, corab toxuyanda, köynəx' toxuyanda geyərix' barmağımıza (Cəh.).*

Burğac/ burğaş – sözü Bakı (8, s. 89) və Quba (7, s. 121) dialektində ipi və ya zənciri çəkib bərkitmək üçün ağac və ya dəmir mənasında işlənir. Göründüyü kimi hər iki məna bir-birinə çox yaxındır. Burğac sözü düzəltmə söz olub, burmaq felindən əmələ gəlmişdir.

Üysüy – əksər şivələrdə üsküx' – oymaq. *Mən üysüysüz tikiş tikə bilmərəm.*

Çırpacaq– yun çırpan nazik çubuq. *Elə bı hində yun çırpırdım, çırpacağım qırıldı (Ba.b.)* Çırpacax Ordubad dialektində çurpacux kimi işlənir.

Babək şivələrində işlənən terminlərdən bir qrupu da toxuma ip növlərini bildirir. Bu terminlərin də bir çoxu qədim türk sözləridir. Onların bir qismi ifadə etdikləri əşyalarla birlikdə unudulmuşdur. Məlumdur ki, dilimizdə arxaizmlərin əmələgəlmə səbəblərindən biri də həmin sözün ifadə etdiyi əşyanın təsərrüfatdan, məişətdən çıxmasıdır. Bu baxımdan toxunma ip növlərinin bir çoxu indi məişət və təsərrüfatımızdan çıxmışdır, işlənmir. Lakin Babək rayonunda hələ də bu terminlərə təsadüf etmək olar. Bunlardan örkən, sicim daha qədimdir. Sicim sözünə «Kitabi-Dədə Qorqud dastanları»nda da rast gəlirik:

*«Gəlin, Dirsə xanı tutalım, ağ əllərin ardına bağlayalım, qıl sicim ağ boynuna taxalım, alıbanı kafir ellərinə yön alalım»* (6, s. 25).

Örkən sözü bir sıra qədim lüğətlərdə qeydə alınmışdır.

Babək şivələrində ip adları bunlardır: catı, irəşmə, qatma, bağ, gözəx və s. Bu iplər də işləndiyi sahənin adı ilə işlənə bilər və bunlar bir-birindən müxtəlif əlamətinə görə fərqlənirlər. Məsələn, çatı sözü ümumi ip mənasını bildirirsə, sənəx' çatısı bızov çatısı terminlərinin ifadə etdiyi çatılar arasında fərq vardır. Belə ki, sənəx' çatısı çox qısa və hər iki ucu qotazlı olur,müxtəlif rəngli iplərdən toxunur. Bu çatı-ip səhəngi kürəyə bağlamaq üçün işlədilir. Buzov çatısı isə ondan uzun olur. Buzovu sağım zamanı inəyin qabaq ayaqlarını onunla bağlayırlar.

Bu baxımdan çatının, bağın müxtəlif növləri var. Məs.: bağ növləri: çarıx bağı, cambağı, xurcunbağı, belbağı, tumanbağı və s.

Toxuculuqla bağlı toplanmış termin səciyyəli sözlər göstərir ki, Babək rayonu şivələrinin lüğət tərkibində işlənən sözlərin bir qrupu həm Azərbaycanın ədəbi dilində, həm də digər türk xalqlarının ədəbi dilində eyni fonetik tərkibdə, eyni mənada işlənməkdədir. Bir qrup terminlər isə Azərbaycan dilinin müxtəlif dialekt və şivələrində işlənir. Digər bir qrup terminlər Babək rayonu şivələrinin ancaq özünəməxsus olan sözləridir. Belə sözlərin tarixi-müqayisəli metodlarla araşdırılması Babək rayonu şivələrinin lüğət tərkibinin zənginliyini, eyni zamanda qədimliyini göstərir.

Kənd adlarının ixtisarı: Ala. – Alagözməzrə, Bad. – Badaşqan, Ba.q – Babək qəsəbəsi, Cəh. – Cəhri, Kər. – Kərimbəyli, Qah. – Qahab, Vay. – Vayxır, Neh. – Nehrəm, Sir. – Sirab.

## ƏDƏBİYYAT


1. Azərbaycan dialektoloji lüğəti. 2 cilddə, I c., Ankara: Kılıçaslan Matbaacılık Ltd, 1999, 374 s.
2. Azərbaycan dilinin Naxcıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962, 326 s.
3. Hüseynov Ə.A. Qazax dialektində heyvandarlığa aid bəzi qeydlər // ADU Elmi əsərləri. (Dil və Ədəbiyyat seriyası) № 4.
4. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Baki: Azərb. SSR EA

nəşriyyatı, 1968, 273 s.
5. Karşılaştırmalı türk lehceleri sözlüğü. 2 cilddə, I c., Ankara: Başbakanlık Basımevi, 1992, 1183 s.
6. “Kitabi-Dədə Qorqud dastanları”. Bakı: Azərb. SSR Dövlət nəşriyyatı, 1962, 175 s.
7. Rüstəmov R.Ə. Quba dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1961, 284 s.
8. Şirəliyev M.Ş. Bakı dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı,1957, 226 s.

**Зульфия Исмаил**

**ТКАЧКИХ ТЕРМИНОВ В БАБЕКСКОМ ИХ АКЦЕНТАХ**

В статье исследуются диалектные термины, употребляемые в Бабекских районе и связанные с ткацким делом. А именно, приводятся примеры диалектизмов, обозначающих текстильные изделия, названия украшений и орнаментов и раскрывается их терминологическое значение. Также проводится сравнение их со словами, употребляемыми в диалектах азербайджанского языка и в диалектах других тюркских языков.

**Zulfiya İsmayil**

**THE TERM OF TEXTİLE İN BABEK ACCENTS**

İn the article dialectal terms used in the Babek district and connected with the weaving are investigated. To be exact, examples of the dialect words meaning textile products, names of ornaments and patterns are cited and their terminological meaning is shown. Also their comparison with the words used in the dialects of the Azerbaijan language and other Turkic languages is made.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.n. F.Rzayev.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

## ƏDƏBİYYAT VƏ FOLKLOR

**İSA HƏBİBBƏYLİ**
Naxçıvan Dövlət Universiteti

# ƏDƏBİ NÖVLƏRİN TƏSNİFATINA FƏRQLİ ELMİ YANAŞMA

Ədəbiyyatın ədəbi növlərə və janrlara bölünməsi haqqında elmi təlimin dünyada ilk yaradıcısı bizim eradan əvvəl yaşayıb-yaratmış dahi yunan mütəfəkkiri Aristotel olmuşdur. Bu görkəmli alim ilk dəfə olaraq ədəbiyyatı növlərə və şəkillərə bölmüşdür. Aristotel «Poetika» adlı traktatında antik yunan ədəbiyyatını təhlil edərək aşağıdakı üç ədəbi növü müəyyən etmişdir: epik növ, lirik növ və dramatik ədəbi növ.

Sonrakı mərhələlərdə uzun əsrlər ərzində dünya ədəbi-nəzəri fikri bu bölgüdən çıxa bilməmişdir. Orta əsr fransız maarifçisi Onore-Depero de Bualo, XIX əsr alman sənət nəzəriyyəçisi Lessinq ədəbi növlərdən bəhs edərkən Aristotelin müəyyən etdiyi həmin üç ədəbi növü qeyd etməklə kifayətlənmiş, yalnız mövcud ədəbi növlərin təhlili və dəyərləndirilməsinə özlərinin zəruri əlavələrini etmişlər. Görkəmli rus tənqidçisi və ədəbiyyatşünası V.Q.Belinski (1811-1848) də özünün «Ədəbiyyatın növlərə və şəkillərə bölünməsi» adlı məşhur əsərində o vaxtadək məlum olan ədəbi növləri və janrları geniş təhlil etmiş, sistem halında araşdırıb dəyərləndirmişdir. Bundan başqa, V.Q.Belinski XIX əsr rus ədəbiyyatının təcrübəsini əsas götürərək ədəbiyyatda bu üç növdən başqa, daha iki növün didaktik və epiqrammatik (satirik) istiqamətlərin də ədəbi növə çevrilməkdə olduğunu hiss etmişdir. Bununla belə, ədəbiyyatda qeyd edilən növlərə dair bədii əsərlər həmin dövrdə yetərincə olmadığı üçün görkəmli rus tənqidçisi yeni ədəbi növlər haqqında qəti hökm çıxara bilməmişdir. Sonralar ədəbiyyat maarifçilik dövrünü yaşayıb başa vurduğu üçün didaktik ədəbiyyat müstəqil ədəbi növə çevrilmək imkanlarını itirmişdir. Əksinə, didaktika bütün ədəbi növlərdə və həmin ədəbi növlərə aid olan janrlarda yazılmış əsərlərdə yaşamışdır. Daha doğrusu, didaktika, tərbiyəvilik ümumiyyətlə, ədəbiyyatın, bədii əsərin əsas prinsiplərindən birinə çevrilmişdir. Lakin V.Q.Belinskinin qeyd etdiyi epiqrammatik ədəbiyyat, yəni satira XIX əsrin ikinci yarısından etibarən slavyan xalqlarının ədəbiyyatında, eyni zamanda Azərbaycanda və Orta Asiya ədəbi fikrində böyük inkişaf yolu keçmiş, zəngin ənənələrə malik olmuşdur. Buna baxmayaraq, ədəbiyyat nəzəriyyəsində mövcud model-

dən kənara çıxılmamış, satiradan ədəbi növ kimi bəhs edilməmişdir. Ədəbiyyat nəzəriyyəçilərinin təqdimatında satira və yumordan bədii yaradıcılığın xüsusiyyətlərindən biri səviyyəsində söz açılmışdır. Satira ədəbiyyatda ifşaedici, öldürücü, şiddətli gülüş forması kimi təqdim edilmişdir. Yumordan bəhs edənlər isə onu bədii gülüşün yumşaq, islahedici, tərbiyəedici qolu, istiqaməti, yaxud forması səviyyəsində mənalandırmışlar. Beləliklə, ədəbiyyat nəzəriyyəsində satira və yumor ədəbiyyatın xarakterik keyfiyyəti, xüsusiyyəti kimi öz yerini möhkəmləndirmiş, vaxtilə V.Q.Belinskinin irəli sürdüyü ehtimal zaman keçdikcə unudulmuşdur.

Bununla belə, müxtəlif vaxtlarda ayrı-ayrı ədəbiyyatşünasların əsərlərində «satirik-yumoristik janrlar» ifadələri işlədilmişdir. Hətta ədəbiyyatşünas alimlər bəzən satirik-yumoristik janrların konkret olaraq adlarını da göstərmişlər. Məsələn, slavyan xalqlarının ədəbiyyatşünaslığında təmsil, alleqoriya, epiqramma, şarj, felyeton və parodiyadan satirik-yumoristik janrlar kimi söz açıldığına dair mülahizələr göstərmək mümkündür. Eyni zamanda, Azərbaycan ədəbiyyatşünasları təmsil, alleqoriya və felyetonla yanaşı, lətifə, meyxana, acıtma, şarj, taziyanə kimi satirik-yumoristik janrlardan da danışmışlar. Deməli, əslində satirik-yumoristik janrların mövcudluğu etiraf olunmuşdur. Bu isə o deməkdir ki, məntiqi mənada satiranın ayrıca ədəbi növ olması qəbul edilmişdir. Çünki ədəbi növ üçün ən zəruri şərtlərdən biri konkret janrlar qrupuna malik olmaqdan ibarətdir.

Görkəmli ədəbiyyat nəzəriyyəçisi professor Leonid İvanoviç Timofeyev bir qədər ehtiyatla olsa da özünün «Ədəbiyyat nəzəriyyəsinin əsasları» adlı dərsliyində (1971) satiranın ədəbi növlərdən birinə çevrilməkdə olduğunu nəzərə çarpdırmışdır (5, s. 397). Lakin digər ədəbiyyat nəzəriyyəçiləri satira və yumordan hələ də ədəbiyyatda bədii gülüşün formaları kimi bəhs etməkdə davam edirlər. İlk dəfə olaraq biz 2008-ci ildə əvvəlcə «Ədəbiyyat qəzeti»ndə, daha sonra isə Naxçıvan Dövlət Universitetinin «Elmi əsərləri» jurnalında «Satira ədəbi növ kimi» adlı məqalə çap etdirməklə (4, s. 3-6) konkret olaraq satiranın ayrıca ədəbi növ olduğunu əsaslandırmağa çalışmışıq.

Biz satiranı ədəbi növlərdən biri olduğu fikrini irəli sürdükdə aşağıdakıları əsas kimi qəbul etmişik.

1. Araşdırmalar göstərir ki, qədim yunan filosofu Aristotel satiranın ədəbi növ əmələ gətirmək xüsusiyyətlərini təsəvvür etmişdir. Belə ki, tədqiqatçıların fikrincə Aristotel özünün dünyada ədəbiyyat nəzəriyyəsinə dair qiymətli mənbə kimi qəbul edilən «Poetika» əsərində zarafatdan, yəni satiradan və onun şəkillərindən də bəhs etmişdir. Lakin dövrümüzə qədər gəlib çatmış «Poetika» əsərində bu barədə heç bir məlumat yoxdur. Böyük ehtimal ki, perqament (dəri – İ.H.) üzərində yazılmış «Poetika» əsərinin «uzun müddət gizli və nəm yerdə saxlanılmış» (1, s. 13) vərəqlərindən itən, yaxud keyfiyyətini itirərək sıradan çıxan səhifələri arasında zarafata, yəni satiryaya həsr olunmuş hissələr var imiş.

2. Orta əsrlərin görkəmli sənət nəzəriyyəçisi Nikola Bualo Depreo «Poeziya sənəti» adlı traktatında satirik xarakterli janrlarda bir çox əsərlərin meydana çıxdığını bəyan etməklə məntiqi mənada satiranın ədəbi növ olduğunu qəbul etmişdir. O, satirik əsərlərin «qılınc qədər kəskin», «alovlu və yandırıcı» xüsusiyyətləri ilə seçildiyini, lakin «kin və qəzəb» (3, s. 42-43) doğurduğunu bildirmişdir.

3. Görkəmli rus tənqidçisi V.Q.Belinski «Ədəbiyyatın növlərə və şəkillərə bölünməsi» adlı çox dəyərli əsərində epiqrammatik, yəni satirik ədəbiyyatın xarakterində ədəbi növə məxsus keyfiyyətlərin mövcudluğuna diqqət yetirmişdir. V.Q.Belinski yazmışdı: «Bizdə epiqrammatiklik (satirik – İ.H.) ədəbiyyatı varmış... Keçən əsrdə epiqramma ədəbiyyatın digər növləri arasında görkəmli bir yer tuturdu. Bəzi şairlər o zaman epiqramma yazmaqla məşğul olurdular. İndi bu, ya şairin şıltaqlığı, ya da başqalarının üzünə vurduğu bir sillədir» (2, s. 85).

Böyük tənqidçi satirik ədəbi növdə yazılan əsərlərin xüsusiyyətlərini aşağıdakı kimi izah etmişdir: «Satira noqsanlara və zəif cəhətlərə istehza deyil, nəcib bir qəzəbin şimşək və ildırımı olmalıdır» (2, s. 64).

4. Ədəbiyyat nəzəriyyəsinə həsr olunmuş və müxtəlif dillərdə yazılmış, ayrı-ayrı ölkələrdə nəşr edilmiş dərsliklərin və monoqrafiyaların əksəriyyətində müəlliflər satirik-yumoristik janrların mövcudluğunu ifadə etmişlər. Bu da öz növbəsində satiranın ədəbi növlərdən biri olduğunu etiraf etmək deməkdir.

5. Tanınmış ədəbiyyatşünas L.İ.Timofeyevin «Ədəbiyyat nəzəriyyəsinin əsasları» adlı dərsliyində satiradan ədəbi növlərdən biri səviyyəsində ehtimallar öz əksini tapmışdır. Onun fikrincə, «ədəbi növlər və janrlar haqqındakı təlim hələ özünün tam inikasını tapmamışdır». Bu baxımdan L.İ.Timofeyev satiranın ədəbi növlərə malik xüsusiyyətlərinin olduğuna dair mülahizələrini irəli sürmüşdür.

6. Başqa bir ədəbiyyatşünas Y.Elsberq «Satiranın nəzəri məsələləri» monoqrafiyasında satirik ədəbi növün mövcudluğunu daha açıq və konkret şəkildə bəyan etmişdir: «Biz satiraya gerçəkliyin əks etdirilməsinin xüsusi bədii prinsipi və ədəbiyyatın növü kimi baxmalıyıq» (7, s. 33).

7. Digər ədəbi növlər kimi, satirik ədəbi növ də törədicilik xüsusiyyəti ilə diqqəti cəlb edir. Satira qətiyyən janr deyildir, əksinə özünəməxsus janrlar törətmək imkanlarına malikdir. Bu mənada satira anlayışı janr anlayışından qat-qat genişdir.

8. Satiradan bədii təsvir vasitəsi kimi bəhs etmək də doğru sayıla bilməz. Metafora, metonomiya, hiperbola, litota və sair kimi bədii təsvir və ifadə vasitələri konkret ifadələr və ya fikirlər əsasında təzahür edir. Satirik əlamət isə əsərdəki ayrılıqda götürülmüş bir cümlə, yaxud seçilmiş hər hansı söz, ifadə ilə bəlli ola bilməz. Satira həyatın və ya insan xarakterinin mahiyyətindəki komikliyin, tənqidin və ya gülüşün bədii dərkindən ibarətdir.

9. Epik, lirik və dramatik ədəbi növlər kimi, satirik ədəbiyyatın da yalnız ona məxsus olan janrlar qrupu mövcuddur. Dünya ədəbiyyatında, o

cümlədən, slavyan xalqlarının ədəbiyyatında geniş yayılmış təmsil, parodiya, pamflet, epiqramma, felyeton, şarj və sair kimi janrlar ədəbi növlər içərisində daha çox satirik ədəbi növə aiddir. Bu janrlardan bəziləri türk-müsəlman xalqlarının ədəbiyyatında da özünə vətəndaşlıq hüququ qazanmışdır. Məsələn: təmsil və felyeton. Eyni zamanda, hər xalqın ədəbiyyatında satirik ədəbi növə aid orijinal janrlar da mövcud ola bilər. Azərbaycan ədəbiyyatında özünə möhkəm mövqe qazanmış həcv, qaravəlli, taziyanə, bəhri-təvil, hərbə-zorba, lətifə, meyxana, acıtma və sair kimi janrlara Avropa, yaxud slavyan xalqlarının ədəbiyyatında rast gəlmək çətindir.

Ümumiyyətlə, satiranın ədəbi növə çevrilməsi son iki yüz ildən artıq bir dövrdə satirik ədəbiyyatın keçdiyi böyük inkişaf yolu ilə əlaqədardır. Aristotelin, hətta V.Q.Belinskinin yaşadığı dövrlərdən fərqli olaraq, satira XIX əsrin ikinci yarısından etibarən xüsusi vüsətlə inkişaf etmişdir. XIX əsrdə satira ümumən dünya ədəbiyyatında geniş yer tutmuş, zəngin ənənələr qazanmışdır. Dünyada maarifçilik hərəkatının və demokratiyanın, azad sözün inkişafı satiranın meydanının daha da genişləndirilməsinə səbəb olmuşdur. Bütün bunlar isə satiranın Aristotelin zamanındakı zarafat səviyyəsindən, V.Q.Belinskinin dövründəki «qafiyələnmiş kəsərli söz»dən inkişaf edərək xüsusi və müstəqil ədəbi növ səviyyəsinə gəlib çatmasını təmin etmişdir.

Beləliklə, satiranın timsalında ədəbi növlərin sırasına yeni bir ədəbi növ də daxil olmuşdur. Bundan sonra ədəbi növlərdən danışarkən indiyədək olduğu kimi, yalnız epik, lirik, dramatik ədəbi növlərdən bəhs etməklə kifayətlənmək olmaz. Artıq satira da ədəbi növlərin sırasında bərabərhüquqlu mövqe tutur. Ona görə də fikrimizcə, ədəbiyyat nəzəriyyəsi elmində ədəbi növ məsələsinə yenidən qayıtmağa, bu problemə dünya ədəbiyyatında gedən proseslərin fonunda yanaşmağa ehtiyac vardır.

Ədəbi növlər məsələsinə yenidən baxarkən mütləq nəzərə almaq lazımdır ki, ədəbiyyatdakı müxtəlif növlərin arasında Çin səddi qurmaq mümkün deyildir. Ədəbi növlərdən hər birinin fərqli özünəməxsusluqları, konkret prinsipləri, müəyyən sərhədləri olsa da, onların arasında müəyyən yaxınlıq, oxşarlıqlar, müştərək əlamətlər də mövcuddur. Belə məqamlarda ədəbi növləri və janrları müəyyən edərkən konkret əsərdəki dominantlığı, aparıcı xüsusiyyətlərin çoxluğunu, üstünlüyünü əsas götürmək lazımdır. «Satirik» sözünün ayrı-ayrı janrların əvvəlinə yazılması heç də həmin əsərin satirik ədəbi növə aid olması demək deyildir. Məsələn, «satirik hekayə» - satiranın da müəyyən səviyyədə iştirak etdiyi hekayə kimi başa düşülməlidir. Burada dominant cəhət hekayəçilikdir ki, bu da əsasən epik ədəbi növə aid xüsusiyyətdir. Epik, dramatik, yaxud lirik ədəbi növə aid janrların taleyində satira iştirak etdiyi kimi, satirik ədəbi növdə yazılan əsərlərdə də digər ədəbi növlərdən gələn xüsusiyyətlərin olması tam məqbul haldır.

Göründüyü kimi, hazırkı mərhələdə ədəbi növ məsələsinin sərhədləri genişlənmişdir. Hətta bəzi mənbələrdə ədəbi tənqid də ədəbi növlərdən biri, hətta dördüncü ədəbi növ kimi təqdim olunur (6, s. 55-56). Fikrimcə, bütün

bunlar ədəbiyyatın və ədəbiyyat haqqında elmin inkişafından doğan qənaətlərdir. Əlbəttə, biz ədəbi tənqidi ədəbi növlərdən biri kimi qəbul etməyin əleyhinəyik. Bizə görə ədəbi tənqidə bədii yaradıcılıq faktı kimi baxmaq da doğru deyildir. Ədəbi tənqid ədəbiyyatşünaslıq elminin şöbələrindən biridir. Yəni ədəbi tənqid elm sahəsinə aid anlayışdır. Doğrudur, ədəbi tənqidin mahiyyətində çox hallarda bədiilik elementləri də iştirak edir. Lakin ədəbi-tənqidi əsərlərdə elmliyin yeri bədiiliyin payından çox olmalıdır. Ədəbi tənqid ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi ilə birlikdə ədəbiyyatşünaslıq elminin tərkib hissəsini təşkil edir. Əgər ədəbiyyatşünaslığı elm sahəsi kimi qəbul ediriksə (ədəbiyyatşünaslıq həqiqətən mötəbər və əhəmiyyətli bir elmdir – İ.H.) onda həmin elm sahəsinin tərkib hissələrindən hər birinə, o cümlədən ədəbi tənqidə də elm faktı kimi baxmalıyıq.

Bütün bunlar indiki halda ədəbi növlər mövzusunun ədəbiyyatşünaslıq, konkret olaraq ədəbiyyat nəzəriyyəsi elmi üçün xüsusi aktuallıq kəsb etdiyini göstərməkdədir. Yeni ədəbi növlər haqqında elmi ideyaların meydana gəlməsi bu problemə yenidən qayıtmağı zəruri məsələlərdən biri sırasına çıxarmışdır. Bundan başqa, ədəbiyyatların inkişafı ilə əlaqədar olaraq mövcud ədəbi növlərin – lirik, epik və dramatik ədəbi növün də xüsusiyyətlərinə yeni cizgilər əlavə olunmuşdur. Həmçinin qeyd olunan klassik ədəbi növlərdən hər biri istiqamətində yeni janrlar da meydana çıxmışdır. Yaxud da satiranın ədəbi növə çevrilməsi ilə bir sıra janrların hansı ədəbi növə aid olmaq baxımından təyinatı dəyişmişdir. Məsələn, satiranı ədəbi növ kimi qəbul etdiyimiz halda indiyə qədər olduğu kimi təmsildən epik növün, parodiyadan, meyxanadan lirik ədəbi növün faktı kimi bəhs etmək doğru sayıla bilməz. Ona görə də fikrimizcə, ədəbi növlərin və janrların yeni yanaşma əsasında elmi-nəzəri cəhətdən araşdırılıb öyrənilməsinə ciddi ehtiyac yaranmışdır. Bu istiqamətdə qaldırdığımız məsələlər, irəli sürdüyümüz mülahizələr, apardığımız axtarışlar, gəldiyimiz qənaətlər ədəbi növlərin və janrların bölgüsünün yenidən müəyyən edilməsi zərurətini ortaya qoyur. Ümid edirik ki, geniş mənada bu problem ədəbiyyat nəzəriyyəçilərinin diqqətini cəlb edəcək, ədəbi növlər və janrlar haqqında XXI əsrin elmi-nəzəri düşüncəsi meydana qoyulacaqdır.

## ƏDƏBİYYAT


1. Aslanov A. Aristotel və onun «Poetika»sı. Bax: Aristotel. «Poetika» (müqəddimə), Bakı: Azərnəşr, 1974, s. 13.
2. Belinski V.Q. Seçilmiş məqalələr. Bakı: Uşaqgəncnəşr, 1948, s. 85.
3. Bualo. Poeziya sənəti. Bakı, Azərnəşr, 1969, s. 42-43.
4. Həbibbəyli İ. Satira ədəbi növ kimi. NDU-nun elmi əsərləri, № 4, 2008, s. 3-6.
5. Timofeev L.İ. Ədəbiyyat nəzəriyyəsinin əsasları. M.: Просвещение, 1971, s. 397.
6. Рудалов А. В ожидании критики // Вопросы литературы, 2007, № 4, с.

55-56.
7. Эльсберг Я. Вопросы теории сатиры. М., 1957, с. 33.

**Иса Габиббейли**

## ИНОЙ ПОДХОД К КЛАССИФИКАЦИИ ЛИТЕРАТУРНЫХ РОДОВ

В статье рассматривается вопрос о расширении границ и рядов литературных родов, включающих до сех пор лирический, эпический и драматический. Автор впервые обосновывает положение о включении сатиры в ряд литературных родов как отдельный род. В статье представлена группа жанров, включаемых в сатирический род.

Кроме того, автор выступает против тех, кто считает критику литературным родом. В статье обосновывается мысль о том, что литературную критику целесообразно отнести не к литературе, а к науке о литературе, ибо она является одним из разделов литературоведения. В статье также находят свое отражение некоторые соображения автора о взаимосвязях литературных родов.

**Isa Habibbayli**

## A DIFFERENT SCIENTIFIC APPROACH TO THE CLASSIFICATION OF LITERARY KINDS

In the article is dealt with the extension of boundaries and lines of lyric, epic and dramatic kinds of literature. The author scientifically grounds the satire as a separate literary kind for the first time. In the article is also represented a group of genres included in the satirical literary kind.

Furthermore, the author is against those who consider literary criticism as one of the literary kinds. As literary criticism is one of the branches of the science of history of literature, it is more expedient to consider it as a part of science on literature than art literature. Some considerations on mutual relation of literary kinds also find their reflection in the article.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.n. F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**FƏRQANƏ KAZIMOVA**
AMEA Naxçıvan Bölməsi

# ƏLİQULU QƏMKÜSAR YARADICILIĞINDA ƏDƏBİ DİL MƏSƏLƏSİ
## (Şairin vəfatının 90 illiyi münasibəti ilə)

Ədəbi dil məsələsi Azərbaycan ədəbiyyatında, onun görkəmli nümayəndələrinin yaradıcılığında həmişə diqqət mərkəzində olmuşdur. Xüsusilə Cəlil Məmmədquluzadə və onun yaratdığı "Molla Nəsrəddin" ədəbi məktəbinin yetirmələrinin yaradıcılığında, eləcə də ictimai-siyasi fəaliyyətində öncül mövqe tutmuşdur. İlk nömrəsindən başlayaraq "türkün açıq ana dilində" (4) yazmağa başlayan "Molla Nəsrəddin" jurnalı və onun ətrafında toplaşan realist yazıçılar ana dilinin varlığı və saflığı, təmizliyi uğrunda mübarizəyə qoşuldular. "Molla Nəsrəddin" özü ilə birlikdə yeni bir üslub yaratdı, canlı xalq dilinin normaları əsasında aydın yazı tərzini seçdi, ərəb-fars və osmanlı kəlmələrindən təmizlənmiş sadə, son dərəcə aydın bir üslubda yazmaq yolunu seçdi (1, s. 121). Başda Cəlil Məmmədquluzadə olmaqla Əli Nəzmi, Əliqulu Qəmküsar, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Salman Mümtaz və digər molla nəsrəddinçilər bu jurnal vasitəsilə dilimizin saflığını, sabitliyini, müstəqilliyini təhlükə altına alan, onun ruhuna, daxili qanunlarına zidd, hər cür zərərli, yad təsirlərə qarşı yorulmadan mübarizə aparmış, öz əsərlərində, satira və felyetonlarında ədəbi dilimizin qanunlarına əməl edərək onun gözəlliklərini, saflığını qorumağa çalışmışlar.

Ədəbi dilimizin varlığı və təmizliyi uğrunda mübarizədə Cəlil Məmmədquluzadənin "huşyar yoldaşlarından" (6, s. 150) biri, 1913-1914-cü illərdə "Molla Nəsrəddin" jurnalında məsul redaktor kimi çalışan və bu illərdə jurnalın bütün ağırlıqlarını Mirzə Cəlillə birgə paylaşan, 90 ildir dünyasını dəyişməsinə baxmayaraq Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus dəsti-xətti olan nakam şairimiz Əliqulu Qəmküsarın da xüsusi yeri və rolu vardır. 1919-cu ilin martında qətlə yetirilən şair ana dilimizin varlığı üçün həqiqi bir vətənpərvər, millətçi kimi çıxış etmişdir. 1907-ci ildə "Molla Nəsrəddin" jurnalının 4 noyabr tarixli 41-ci sayında dərc etdirdiyi "Qatışbulaş" felyetonu (5) "Molla Nəsrəddin"in dilimizi qorumaq çağrışına cavab idi. Felyetonda şair öz dilinə xor baxan, dilimizi əcnəbi sözlərlə qəlizləşdirən nankor insanları acı gülüşlə tənqid atəşinə tutmuşdur: "Sərkər Molla

əmi, özümü tərif etmək olmasın, mən tamam üç dilə: türk, fars, və ərəb dillərinə aliməm. İndi sənin əqlincə mən bu üç dillərin hansı birisində məqalə yazsam mənin üçün fəzilət artıq olar...

...Yaxşısı odur ki, mən məqalədə bu üç dili bir-birinə qatış-bulaş edəm"...camaat başa düşər düşsün, düşməz düşməsin. Mənə deyən gərək camaat ilə nə işin, sən öz fəzilətinə çalış... (5)

Göründüyü kimi Əliqulu Qəmküsarın tənqid hədəfi ana dilini korlayanlar, bu dildə danışmağı və yazmağı özünə yaraşdırmayanlar, xalqı düşünməyənlərdir.

Ədəbi dil uğrunda mübarizədə sadəliyi əsas götürən digər molla nəsrəddinçilər kimi Əliqulu Qəmküsar da xalqı qəflət yuxusundan oyatmaq üçün ona öz dərdlərini sadə, aydın, canlı xalq dilində açıb göstərmiş, onu öz azadlığı uğrunda mübarizəyə səsləmişdir.

Şair dərin məzmunlu, kəskin satirik ruhlu şeirlərində, eləcə də felyeton və məqalələrində ana dilimizi qəliz əcnəbi sözlərlə dolduranlara, təhsil almaq üçün digər ölkələrdə bir neçə il yaşayıb öz dilini bilərəkdən unutmağa çalışanlara qarşı mübarizə aparmış və onları böyük ustalıqla ifşa etmişdir. "Gərək olsun" rədifli şeirində şair bu cür əqidəsiz cavanları öz satirası ilə qamçılamışdır:

Hər kəs ki, rus dilini qılmağa təhsil,
Az-maz qonuşur türki lisanın bir-iki il,
Bəs ki, qarışır bir-birinə sonra bütün dil,
Kim zənn edəcəkdir bu müsəlman gərək olsun. (3, s. 30)

Şair doğma ana dilində yazmağı, danışmağı özləri üçün əskiklik hesab edən, dilimizi yerli-yersiz əcnəbi sözlərlə kökləməyi sevən məsləksiz, əqidəsiz ziyallıları, din xadimlərini də daim ifşa etmişdir:

Bir rübaidə dörd qələt buraxır,
Barakallah bizim müsəhihlər
Belə getsə, çərayidi-Qafqaz
İşləri büsbütün tamam eylər (3, s. 86)

və yaxud şairin digər bir kiçik şeir parçasında:

Bir mühərrir ki, eybü nöqsanı
Yazdığı cümlədə pədid olsun,
Qanmasın hər sözün həqiqətini,
Anlamaq şəninə bəid olsun... (3, s. 90)

– deyərək dövrün ziyalılarını ədəbi dilimizin qayda-qanunlarına əməl etməyə çağırmışdır.

Əliqulu Qəmküsarın istər dil, istərsə də siyasi və milli maraqlar baxımından diqqəti cəlb edən yazılarından biri də 1911-ci ildə yazdığı "İrəvan səyahətim" adlı felyetonudur. Bu yazıda şair Azərbaycanın qədim şəhəri olan İrəvanın ictimai-siyasi, mədəni-məişət həyatından bəhs edərək, ürək ağrısı ilə xalqın dolanışığını, avamlığını, çəkdiyi zilləti təsvir etmiş, xalqı cəhalətdə saxlayan din xadimlərini, mollaları tənqid atəşinə tutmuşdur.

Şair öz dilini unudan, özünü avropalılara bənzədən, milli mənsubiyyətini danan, xalqın taleyini düşünməyən dırnaqarası intiligentlərə acı-acı gülmüş, bu insanlarda millət yanğısı olmadığını vurğulamış, ermənilər tərəfindən qədim tarixi abidələrimizin söküldüyünü göstərərək həyəcan təbili çalmışdır:

"Xülasə İrəvan nə İrəvan: tərif etməklə başa gəlməz. Maşallah olsun, o qədər itilget və arpazavonnı adamlar var ki, hamısı başdan-ayağa qraxmala qərq, manjetli, əldə trost, gözdə açgi səhərdən axşama kimi bulvarda vargəl edirlər və urusca elə vıdır-vıdır ötürlər ki, urusun babası da elə danışa bilməz.

Bunların hamısı keçəndən sonra, bunların şayani-heyrət təəssübləri və millətpərəstlikləri vardır. Belə ki, İrəvanda asarı-ətiqədən ki, bir Sərdar imarəti və bir Sərdar məscidi var, darmadağın edib ayaqyolu qayırıblar ki, məhv olub getsin" (3, s. 116).

Göründüyü kimi Əliqulu Qəmküsar öz xalqına xor baxanları, fəziləti üçün çalışmayanları satira hədəfinə çevirmişdir.

1913-1914-cü illərdə Bakıda nəşr olunan "Şəlalə" jurnalı Azərbaycan xalqının ədəbiyyatına, ana dilimizə qarşı çıxışlar edir, hətta bu dilin varlığını inkar edirdi. Bu jurnala qarşı mollanəsrəddinçilər kəskin hücuma başlamış, onun redaktoru Xalid Xürrəm Səbribəyzadəni ifşa etməyə qərar vermişlər.

Əliqulu Qəmküsar "Şəlalə" məcmuəsinin xalq üçün anlaşılmaz dilini "Qana bilmədim"adlı satirasında kəskin tənqid edərək yazmışdır:

Oxudum "Şəlalə"ni hər qədər
Budu müxtəsər qana bilmədim
Bu çalışmağım, bu vuruşmağım,
Bütün oldu hədər qana bilmədim
Necə bisavad idi mərhəba,
Onu nəsrə, nəzmə çəkən kişi
Deyil anlamaq o məcəlləni
Dəxi hər yetən-ötənin işi.
Ərəbidi, farsidi, türkidi-
Qatıb eyləyib həlim aşı
Məni qıldı mat o siğələr
O ibarələr qana bilmədim. (2, s. 70-71)

Əliqulu Qəmküsar kimi onun məslək dostları da bu jurnala qarşı kəskin çıxış edərək onun bağlanmasına nail oldular. Xalqın dilində yazmayan bu məcmuə təbii ki, onun rəğbətini qazana bilmədi və bağlandı. Onun baş mühərriri X.X.Səbribəyzadə qaçmağa məcbur oldu. Bu qaçışı dərin istehza ilə qələmə alan Əliqulu Qəmküsar "Şəlalə ədəd 3" başlıqlı şeirində:

Sən ki getdin, deməli, vay bizim halimizə
Kimdi yazsın o gözəl şeirləri bir də bizə?
Heyf, səd heyf o gözəl müntəxəbatə, o sözə,
Qal bizə sadə ibrətləri andır, getmə! (3, s. 66)

– deyərək Səbribəyzadə kimi üzdəniraq ziyalılara rişxənd etmiş, dilimizin təmizliyini, saflığını qorumağa səy göstərmişdir.

Əliqulu Qəmküsar "Kəlniyyət məcmuəsinin ruhuna", "Qələm arqadaşım Kefsizə", "Müxəmməsçilər" satiralarında, eləcə də "Niyə qəzetə və məcmuə satılmır?", "Kablayılar", "Senzor" felyetonlarında əsasən ədəbiyyat məsələlərinə toxunsa da, burada digər məsələlərə, o cümlədən ədəbi dil məsələsinə də yer vermiş, özünü millətpərəst adlandırıb xalqa qənim kəsilən dırnaqarası tərəqqipərvər mətbuatı və onun intiligent yazarlarını ifşa edərək dilimizə hörmətlə yanaşmağa çağırmışdır.

Əliqulu Qəmküsarın dil haqqındakı şeirləri öz dövrünə görə xüsusi əhəmiyyətə malikdir. O, Azərbaycan dilinin təmizliyi və sadəliyi, xalqın başa düşəcəyi bir tərzdə yazmaq ideyasını müdafiə edərək "Molla Nəsrəddin"in dil və üslubuna sadiq olduğunu bir daha nümayiş etdirmişdir.

## ƏDƏBİYYAT


1. Hüseynov F.Ə. Nəzmi. Bakı: Gənclik, 1970, 202 s.
2. Hüseynzadə L.Ə. Qəmküsar (həyat və yaradıcılığı) namizədlik dissertasiyası. Bakı, 1949, 200 s.
3. Qəmküsar Ə. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1959, 167 s.
4. Molla Nəsrəddin jurnalı. 1906, 7 aprel, № 1.
5. Molla Nəsrəddin jurnalı. 1907, 4 noyabr, № 41.
6. Zamanov A. Əməl dostları. Bakı: Yazıçı, 1979, 368 s.



**Фаргана Казымова**


## ВОПРОС ЛИТЕРАТУРНОГО ЯЗЫКА В ТВОРЧЕСТВЕ АЛИГУЛУ ГЯМКЮСАРА


В статье рассматривается вопрос литературного языка, занимающий важное место в литературном творчестве и общественно-политической деятельности выдающегося мастера сатиры Алигулу Гямкюсара. Последавательная и целенаправленная борьба поэта за функционирование и чистоту нашего литературного языка освещается на материале из его творчества. В работе высоко оцениваются стихи поэта о языке и его деятельность за чистоту литературного языка.



**Fargana Kazimova**


## THE LITERARY LANGUAGE IN THE CREATION OF ALIQULU QAMKUSAR


In the article the literary language was drawn into research work, which took the leading position in the literary creation and social-political

activity of the prominent satirist, master Aliqulu Qamkusar. The systematic and expedient struggle of the poet in the way of the creation and pureness of our literary language was researched on the basis of the examples of his creation. The poet's activity in the way of the pureness and cleanness of our literary language and his poems dealing with the language was highly appreciated.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.n. F.Rzayev.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ƏSGƏR QƏDİMOV**
Naxçıvan Dövlət Universiteti

# «MOLLA NƏSRƏDDİN» JURNALI VƏ TÜRKİYƏ

XX əsrin əvvəllərində mətbuat aləminə gələn «Molla Nəsrəddin» jurnalı Azərbaycan satirik mətbuatının əsasını qoymuş, cəhalət və mövhumata qarşı mübarizə aparmaqla yanaşı, Yaxın və Orta Şərq xalqlarının oyanışı və öz milli varlıqlarını dərk etmələri yolunda yorulmadan çalışmışdır. Jurnal dünyada baş verən siyasi hadisələrə də müdaxilə edir, öz səhifələrində siyasi problemlərlə bağlı satirik yazılar dərc edirdi. Xüsusilə qonşu İran və qardaş Türkiyənin siyasi həyatında baş verən hadisələr «Molla Nəsrəddin»i daha çox maraqlandırırdı. Şərq ölkələrinə düşmən münasibət bəsləyən və hər addımda Şərqə qarşı düşmənçilik mövqeyində dayanan İngiltərə, Amerika, Fransa, Almaniya, Avstriya, İtaliya, Yaponiya və başqa imperialist dövlətlərin törətdikləri qəsbkarlıq müharibələri «Molla Nəsrəddin» jurnalının səhifələrində öz tənqidini tapırdı. Jurnal Şərqlə bağlı siyasi hadisələri öz səhifələrində satirik karikaturalar vasitəsi ilə də işıqlandırır, onların satirik tənqidini verirdi. Bu məsələlər jurnalın daha çox 1908-ci il saylarında verilmişdir. 1908-ci ildə «Molla Nəsrəddin» jurnalı Avropanın, xüsusilə də İngiltərə, Almaniya və Fransanın dünyanı yenidən bölüşdürmək üçün qəsbkarlıq müharibələrinə hazırlaşması siyasətlərini ardıcıl olaraq öz səhifələrində ifşa edirdi. Avropanın bu mürtəce siyasətini ifşa etmək məqsədilə jurnal öz səhifələrində «Avropa və Osmanlı» adlı bir karikatura dərc etmişdir. Bu karikaturada dörd mənzərə diqqəti cəlb edir. Birinci mənzərədə İblis şəklində çəkilmiş avropalı təsvir olunur. Bu avropalı osmanlıya deyir ki, «gəl yuxulayaq». İkinci mənzərədə təsvir olunur ki, osmanlı yuxulamışdır və bundan istifadə edən iblis qiyafəli avropalı osmanlının başındakı fəsini götürür. Üçüncü təsvirdə osmanlı ayılır və artıq anlayır ki, başının papağını avropalı götürüb. Dördüncü təsvirdə osmanlı papağını götürdüyü üçün avropalıya göz ağardırsa da, avropalı heç bir şey olmamış kimi yenə də özünü yuxuluğa vurur. Bu, Avropanın osmanlıya olan iblisvari siyasətinin satirik təsviri idi.

Jurnalın 1-ci sayında verilmiş «İslam hökümətləri» adlı bir karikatura da Avropanın Şərq siyasətini anlamaq üçün daha əhəmiyyətlidir. Bu karikaturada təsvir olunur ki, təlatümlü bir dəryada islam hökumətlərinin gəmiləri batırlar. İranın qayığının yarısı batıb, yarısı suyun üzündədir. La-

kin bu yarıbatmış qayıqda iki molla bi-biri ilə çomaqla vuruşur. Misirin qayığı isə parçalanıb, suda təkcə bayrağı görünür. Osmanlının isə iki gəmisinin dor ağacı əyilmişdir. Hindistanın beşiyi dalğaların içində yırğalanır. Əfqanıstanın qayığını «Kitay» naqqasının ağzı ilə Yaponiya udmaq istəyir. Ərəblər suya bata-bata bir-birini qırırlar. Yuxarıda isə ingilis hərbi gəmisinin üzərində dayanan qəsbkar bu mənzərəni sakitcə seyr edir. O gözləyir ki, daxili düşmənlər bir-birini əzib zəiflətsinlər, o da öz istəyinə nail olsun.

«Molla Nəsrəddin» bu karikaturaların vasitəsilə Avropanın gələcək Şərq siyasətini oxuculara çatdırır, Şərq ölkələrini, xüsusilə İran və osmanlını Avropanın, o cümlədən İngiltərənin mürtəce siyasətinə aldanmamağa çağırırdı. Bu münasibətlə «Molla Nəsrəddin» jurnalı öz səhifələrində satirik şeirlər də çap edir, osmanlını ayıq olmağa səsəyirdi. M.Ə.Sabirin:

Osmanlılar! Aldanmayın, Allahı sevərsiz!
İranlı kimi yatmayın, Allahı sevərsiz!

şeiri bu məsələyə həsr olunmuşdur.

1905-ci il inqilabının təsiri ilə İranda və Türkiyədə milli azadlıq hərəkatı güclənmişdi. İran azadlıq hərəkatının başında Səttarxan,Türkiyədə isə «Gənc türklər» dayanırdı. İran və Türkiyənin mürtəce qüvvələri mütləqiyyəti hakimiyyətdə saxlamaq istəyir və üsyançılara qanlı divan tuturdular. Bu hadisələri mollanəsrəddinçilər xüsusi maraqla izləyir, özlərinin satirik şeir və felyetonlarında «Molla Nəsrəddin» jurnalının səhifələrində işıqlandırırdılar.

Bu dövrdə dövri mətbuat, eləcə də «Molla Nəsrəddin» jurnalı daha çox Türkiyə həyatından yazırdı. Sultan Əbdülhəmid rejimi Türkiyəni aclığa, səfalətə sürükləmişdi. Ölkənin xarici borcları gündən-günə artırdı. Belə bir siyasi gərginlik şəraitində 1889-cu ildə Türkiyədə «Gənc türklər» hərəkatı başlanmışdı. «Gənc türklər» hərəkatı burjua inqilabı olsa da, onlar Sultan Əbdülhəmid rejimini devirmək və yeni konstitusiyalı dövlət yaratmaq istəyirdilər. Bu məqsədlə Sultan Əbdülhəmid saraydan qovulmuş və Salonik adasına sürgün edilmişdi.

Bu münasibətlə «Molla Nəsrəddin» jurnalında bir siyasi karikatura verilmişdir. Bu karikaturada saraydan qovulan sultan və onun ardınca gedən bir dəstə qadın təsvir olunurdu. Bu qadınlar gənc türklər tərəfindən azad edilən bədbəxt insanlar idi. Sultan Əbdülhəmidin bu macəraları «Molla Nəsrəddin» jurnalında M.Ə.Sabirin satiralarında da ifşa olunurdu. Lakin M.Ə.Sabir Sultan Əbdülhəmidin aqibətini İranın mürtəce şahı Məhəmmədəlinin aqibəti ilə müqayisədə verirdi. Sabirin «Mənimki belə düşdü» satirasında Sultan Əbdülhəmid öz həmməsləki olan İran şahı Məhəmmədəliyə məsləhətlər verir. Məhəmmədəli şaha məsləhətlər verən Sultan Əbdülhəmid yumor dili ilə həm özünü, həm də Məhəmmədəli şahı ifşa edir. M.Ə.Sabir satirada Sultan Əbdülhəmidin İran şahı Məhəmmədəliyə nəsihətini belə verirdi:

Məzlumların tutdu məni ahı axırda,
İncitdi xəyanətlərim Allahı axırda,

Oldum Səlanik qələsində rahı axırda…
Mənfalar ara türklərin şahı axırda
Məcburi sukun oldu, mənimki belə düşdü,
İqbal zəbun oldu, mənimki belə düşdü!
Qaç, Məmdəli, durma,
Çox sinənə vurma,
Məndən götür ibrət,
Sülh eylə, qudurma!...
Fərman gedər əldən,
Saman gedər əldən
Yalnız nə ki Tehran,
İran gedər əldən (2).

M.Ə.Sabir «Molla Nəsrəddin» jurnalının 1909-cu il 18 yanvar 3-cü sayında «Əbunəsr Şeybani» imzası ilə yazdığı «Arzu» satirasında da Sultan Əbdülhəmid rejiminə tənqidi münasibətini bildirir və yazırdı:

Nə Türkiyədə bu qanun-əsasi nəşr olunaydı,
Nə biədəb yeni türklərdə bunca cürət olaydı.

M.Ə.Sabir Sultan Əbdülhəmid rejiminə tənqidi münasibət bəsləməklə yanaşı, «Gənc türklər» hərəkatının da satirik tənqidini vermişdir. Şair özünün «Molla Nəsrəddin» jurnalında çap olunmuş «Qaç, at basdı» satirasını «Gənc türklər»in tənqidinə həsr etmişdir. Bu satirada Sabir ikinci Sulltan Əbdülhəmidin taxtdan salınması münasibətilə gənc türklərin lovğalığına istehza edərək yazırdı:

Çəkil, yol ver, at bağrı çatlatmışıq,
Vurub yıxmışıq, tutmuşuq, atmışıq,
Çapıb qovmuşuq, qan-tərə batmışıq,
Yığıb milləti bir yerə qatmışıq.
Musavat, ədalət, üxüvvət gəlir!
Qaç oğlan, qaç, at basdı, millət gəlir!

M.Ə.Sabir Türkiyə yazarlarının şeirlərinə də bir sıra bənzətmələr yazmışdır. «Füyuzat» jurnalının 1907-ci il 3 mart tarixli 11-ci sayında türk yazarı Namiq Kamalın belə bir şeiri çap olunmuşdur:

Amalımız, əfkarımız iqbali-vətəndir,
Sərhəddimizə gələ bizim xaki-bədəndir.
Osmanlılarız, zinətimiz qanlı kəfəndir,
Qovğadə şəhadətlə bütün kam alırız biz,
Osmanılarız, can veririz, nam alırız biz!...(6)

Namiq Kamalın «Füyuzat»da çap olunmuş bu şeirinə M.Ə.Sabir özünün aşağıdakı bənzətməsini yazmışdır:

Amalımız, əfkarımız ifnayi-vətəndir,
Kinü qərəzü irs bizə zinəti-təndir.
Əfal yox, ancaq işimiz lafi-dəhəndir,
Dünyadə əsarətlə bütün kam alırız biz,
Qafqazlıyız, yol kəsiriz, nam alırız biz (7).

«Molla Nəsrəddin» jurnalı M.Ə.Sabirin türk şairi Abdulla Cövdət bəyin şeirinə yazdığı bir nəzirəsini də çap etmişdir. Abdulla Cövdət bəyin şeiri bu misralarla başlayır:

Bir yanımda yari-məhzun, bir yanımda kainat,
Olmaz olsun böylə suzişli, fəlakətli həyat!
Pişgahi-çeşmi-canimdə vətən eylər vəfat,
Olmaz olsun böylə suzişli, fəlakətli həyat.

Abdulla Cövdətin bu şeirinə Sabir yeni satirik məzmun verərək özünün aşağıdakı nəzirəsini yazmışır:

Bir cibimdə əskinasım, bir cibimdə ağ manat,
Olsun, olsun, qoy çox olsun böylə ləzzətli həyat!
Pişgahi-çeşmi-canımda vətən etsə vəfat,-
Olsun, olsun, qoy çox olsun böylə ləzzətli həyat! (1)

M.Ə.Sabir böyük türk satiriki Əşrəfin əsərləri ilə də yaxından tanış idi. O, aşağıdakı satirasında dövri mətbuatda türk şairi Əşrəfdən oğurluq edib şeirlər çap etdirən şeir oğrularını tənqid edərək yazırdı:

Qurulubdur yenə meydani-həyayi-süxən,
Yazılır şeir, açılır pərdeyi-mənayi-süxən;
Şair olmaq hünərindən başı bibəhrə ikən,
Girişib oğurluğa Mirzəli – ağayi-süxən
Əşrəfin gündə birər danə rübaisi ilə
Özünüədd ediyor şairi-danayi- süxən…

Türkiyə ədəbiyyatşünası Selim Refik Refi oğlu İstanbulda nəşr olunan «Azərbaycan yurt bilgisi» jurnalının 1932-ci il 1-ci sayında dərc etdirdiyi «Son dövr azəri ədəbiyyatı» adlı məqaləsində M.Ə.Sabirə yüksək qiymət verərək yazmışdır:

«Molla Nəsrəddin» ədəbiyyatı iftixarla yad edəcəyimiz Sabiri yaratdı. Sabir də «Molla Nəsrəddin» ədəbiyyatını yaratdı. Sabir kəndini böyk bir sənətkar olmaqdan ziyadə böyük bir islahatçı olaraq tanıtdı. Lakin bu onun şairlik qüdrətinə mane olmadı. Şeirdə istedadını göstərən Sabirin ictimai həyatımızda adətən təmas etmədiyi sahə qalmadı. Fikirlərini kəndinə məxsus bir dil ilə nəzmin qalıbları arasına sığışdırdı. Azəri ədəbiyyatına bir «Hophopnamə» bəxş edən Sabir Əli Nəzmi kimi şairlərin yetişməsinə də müyəssər oldu. Əli Nəzmi, Qəmküsar və başqa yazıçıları kəndi ətrafına topladı.

«Molla Nəsrəddin»in lisanı xalq lisanıdır» (8).

Türkiyədə M.Ə.Sabir haqqında Məmməd Fuad Köprülü, İbrahim Alatay Qövsü, Hüseyn Kazım Qədri, Vahab Yurtsevər və başqaları da fikir söyləmiş, bu mollanəsrədinçi şairə yüksək qiymət vermişlər.

M.Ə.Sabirin «Molla Nəsrəddin»də çap olunmuş satiraları orta Asiya xalqlarının oyanışına da xüsusi təsir göstərmişdir. Qazax, özbək, qırğız və tatar şairləri M.Ə.Sabirin şeirlərinə bir sıra parodiyalar yazaraq satirik mətbuatda çap etdirmişlər. «Molla Nəsrəddin»in təsiri ilə Orta Asiyada «Yaltyult», «Tokmak» və s. satirik jurnallar nəşrə başlamışlar. Bu jurnallar

da Yaxın və Orta Şərq xalqlarının həyatını demokratik mövqedən öz səhifələrində işıqlandırmışlar.

«Molla Nəsrəddin» jurnalında M.Ə.Sabirlə yanaşı, digər şairlər də Türkiyə mövzusuna tez-tez müraciət edirdilər. Jurnal öz səhifələində Əli Nəzminin, Əli Razi Şəmçizadənin Türkiyə həyatı ilə bağlı satirik şeirlərinə də geniş yer verirdi.

Jurnal özünün 29 noyabr 1909-cu il 48-ci sayında «Dabanı çatdaq xala» imzası ilə yazan Əli Razi Şəmçizadənin «Türklər» adı satirik şeirini çap etmişdir. Bu şeirdə məşrutə hərəkatı zamanı İran və Türkiyədə baş qalldıran siyasi hərəkata və milli oyanışa satirik münasibət bildirilir:

Ol qoçaq iranlılar,
Ol igid osmanılar...
Aləmə səs saldılar,
Məşrutəni aldılar,
Bir-birini çaldılar,
Qırılıb azaldılar.
Rüstəmdilər, Zaldılar
Qırmızı fəsli türklər,
Qara qotazı türklər.

Şeirdə Türkiyədə siyasi və milli intibahın qarşısını almağa çalışan Türkiyənin mürtəce hakim dairələrinin nümayəndələrinə də kəskin satirik münasibət vardır. Məşrutə hərəkatı zamanı öz milli istiqlalını dərk edən türk qadını öz çadrasını başından atıb üzüaçıq gəzir. Bunu görən polis türk qadınının bu azadlığını mənfi qiymətləndirib bundan dəhşətə gəlir. Şair bu səhnəni şeirdə belə təsvir edir:

İstanbulda bir arvad,
Üzündən atıb çarqat,
Polis görcək qalıb mat,
Deyib ay alçaq, bədzat,
Üzə niqabını at,
Arvadlar üçün heyhat,
Verə bilməz müsavat.
Qırmızı fəsli türklər,
Qara qotazlı türklər(3).

Şair kinayəli şəkildə yazırdı ki, məşrutə Türkiyədə bəylər, xanlar, mollalar, nadanlar üçündür. Bu məşrutənin yoxsul kəndlilərə və qadınlara heç bir xeyri yoxdur:

Məşrutə mərdan üçün,
Verildi oğlan üçün,
Nəinki nisvan üçün,
Molla və bəy, xan üçün,
Nəinki dehqan üçün,
Bir neçə nadan üçün.
Qırmızı fəsli türkər,

Qara qotazlı türklər (3).

«Məşədi Sıjımqulu» imzası ilə yazan Əli Nəzmi də satirik şeirlərində İran və Türkiyə məşrutəsinə satirik münasibətini ifadə edir, «Molla Nəsrəddin» jurnalında dərc olunmuş satiralarının müəyyən bir qismini bu istiqamətə yönəldirdi. Şair «Bu nədir?» adlı şeirində İranda və Türkiyədə azadlıq hərəkatına başçılıq edən Səttarxan və Ənvər paşanın milli istiqlal uğrundakı mücadilələrini alqışlayır və mənfi tipin dili ilə hakim dairələri narahat edən bu siyasi vəziyyət haqqında yazırdı:

Ya rəbb! Bu dərdi-nagəhan, bu zəxmi-bidərman nədir?
Bu kirdari-xakiyan, bu zülm, bu tüğyan nədir?
Bu məclisi-Osmaniyan, bu məhfili-İran nədir?
Məşrutə, hürriyyət, filan, Ənvər və Səttərxan nədir?
Axır təmamən bənədəgan etdikləri üsyan nədir?
Rəftari-millətpərvəran, güftari-bipayan nədir?
İstər bütün növməsləkan, hürriyyəti-nisvan nədir?
Məktəb və təhsili-zənan, övrət nədir, meydan nədir?
Göndər bəla, məhv et haman, bu qövmi-biiman nədir? (4)

Əli Nəzminin «Molla Nəsrəddin» jurnalında çap olunmuş «Xüdahafiz» adlı satirasında da İranda və Osmanlı Türkiyəsində həyata keçirilən istiqlal alqışlanılır, Məhəmmədəli şahın və ikinci Sultan Əbdülhəmidin irticaçı rejiminə son qoyulması rəğbətlə qarşılanırdı. Bu münasibətlə Əli Nəzmi «Xüdahafiz» şeirində yazırdı:

Veribən əl-ələ xüdahafiz!
Eylədik bu ilə xüdahafiz!
Bu il Osmanlı zülm təhtindən,
Çıxdı köhnə libasi-rəxtindən,
Endirildi Həmid təxtindən,
İzzətə, Kamilə xüdahafiz,
Eylədik bu ilə xüdahafiz.
Qopdu İranda da haman tufan,
Tazələndi hökuməti-Tehran,
Gərçi ixrac olundu Mədəli xan,
Bitmədi məsələ, xüdahafiz!
Eylədik bu ilə xüdahafiz (5).

Mollanəsrəddinçi şairlərlə yanaşı, Cəlil Məmmədquluzadənin özü də «Molla Nəsrəddin» jurnalında çap olunmuş məqalə və felyetonlarında Türkiyə mövzusuna, xüsusilə Sultan Əbdülhəmid rejimi ilə bağlı mövzulara geniş yer verirdi. O, özünün «Molla Nəsrəddin»də çap etdirdiyi «Aşina sədası», «İrşad», «Batdağ», «Çuval», «Dua», «Təməllük» adlı felyetonlarında Türkiyənin parçalanması məsələsini gündəmə gətirmiş, Sultan Əbdülhəmidin qanlı terrorunu ifşa etmişdir. Odur ki, 1907-ci ildə «Molla Nəsrəddin» jurnalının nəşri Türkiyəinin siyasi işlərinə müdaxilə etdiyi üçün senzura tərəfindən dayandırılmışdır.

Cəlil Məmmədquluzadə təkcə «Molla Nəsrəddin» jurnalında deyil, Zaqafqaziyada nəşr olunan rusdilli mətbuat orqanlarında da Türkiyənin siyasi həyatı ilə bağlı məqalələr dərc etdirirdi.

1906-1914-cü illərdə Tiflisdə «Sakartvelo» («Gürcüstan») adlı gürcü sosialist-federalist inqilabçılar partiyasının mətbu orqanı kimi nəşr olunan «Zakavkazye» qəzeti özünün ideya məramına görə Cəlil Məmmədquluzadə və mollanəsrəddinçilərə daha yaxın idi. Bu qəzet mollansərəddinçilərin qaldırdığı qadın azadlığı ideyasını öz səhifələrində cəsarətlə müdafiə və təbliğ etmiş, Cəlil Məmmədquluzadənin yazılarına da arabir yer vermişdir. Qəzet C.Məmmədquluzadənin «Türkiyə konstitusiyasının keçmişindən» (9) adlı məqaləsini dərc etmiş, rus oxucularını Türkiyənin siyasi həyatı ilə tanış etmişdir (Bax: 10). C. Məmmədquluzadə bu məqaləsində Türkiyə tarixinin ən maraqlı səhifələrini xatırlatmaqla Türkiyəni o zamankı ağır siyasi və iqtisadi vəziyyətə gətirib çıxaran əsas səbəbləri açıb göstərir, ölkənin hərbi və iqtisadi geriliyini lk növbədə mütləqiyyət üsuli idarəsinin törətmiş olduğu acınacaqlı şəraitlə izah edirdi. Müəllif Türkiyədə Midhət paşanı islahatçılıq təşəbbüslərinə ruhlandıran görkəmli ədib Namiq Kamalı «dahi türk şairi və sosialisti» adlandırırdı. C.Məmmədquluzadənin Namiq Kamal yaradıcılığına bu qədər yüksək qiymət verməsi o dövr üçün olduqca əhəmiyyətli idi. Doğrudan da, Sultan Əbdülhəmidin hakimiyyəti dövründə, onun qanlı terroru şəraitində və sonrakı illərdə də Türkiyənin demokratik fikirli qabaqcıl ziyalıları mütləqiyyətə, terrora və hər növ irticaya qarşı etiraz səslərini ucaldırdılar.

Deyilənlər təsdiq edir ki, «Molla Nəsrəddin» jurnalı və onun əməkdaşları öz yaradıcılıqlarında Yaxın və Orta Şərqin, xüsusilə qardaş Türkiyənin milli istiqlalı problemini qoymuş və bu problemi axıradək böyük prinsipiallıqla müdafiə və təbliğ etmişlər.

## ƏDƏBİYYAT


1. Ədəbiyyat. «Molla Nəsrəddin» jurnalı, 13 aprel, 1908, № 15, s. 6.
2. Əbunəsr Şeybani. Mənimki belə düşdü. « Molla Nəsrəddin» jurnalı, 3 may, 1909, № 18.
3. Dabanı çatdaq xala. Türklər. « Molla Nəsrəddin» jurnalı, 29 noyabr, 1909, № 48, s. 5.
4. Məşədi Sıjımqulu. Bu nədir? « Molla Nəsrəddin» jurnalı, 20 dekabr, 1909, № 51, s. 7.
5. Məşədi Sıjımqulu. Xudahafiz. «Molla Nəsrəddin» jurnalı, 27 dekabr, 1909, № 52, s. 4.
6. «Füyuzat» jurnalı, 3 mart, 1907, № 11.
7. M.Ə.Sabir. Hophopnamə. I c. 1962, s. 85.
8. Selim Refik Refi oğlu. Son dövr azəri ədəbiyyatı. « Azərbaycan yurt bilgisi» jurnalı, İstanbul, 1932, № 1, s. 24-34.
9. «Zakavkazye» qəzeti, 13 iyul, 1907, № 137.
10. Əsgər Qədimov. Qardaş ədəbiyyatların dostluğu. Azərbaycan «Biliuk»

Cəmiyyəti nəşri, Bakı, 1981, s. 22.

**Аскер Гадимов**

## ЖУРНАЛ «МОЛЛА НАСРЕДДИН» И ТУРЦИЯ

В статье анализируются материалы журнала на сатирические темы, посвященные общстенно-политической жизни Турции, фельетоны и сатирические стихотворения поэтов-молланасреддиновцев. Далее рассматриваются сатирические карикатуры журнала «Молла Насреддин», посвященные политической жизни Турции, пародии М.А.Сабира, написанные на турецких поэтов, также мысли и соображения турецких литературоведов о журнале и М.А.Сабире.

**Asker Gadimov**

## THE MAGAZINE «MOLLA NASRADDIN» AND TURKEY

In the scientific article the satirical topics dedicated to socio-politcal life of Turkey in the magazine «Molla Nasraddin» and the topical satires and satirical poems of mollanasraddinloving poets on this topic at the beginning of XX century are analysed.

In the article are valued.satirical on the political life of Turkey published in the magazine «Molla Nasraddin», parodies by M.A.Sabir to the Turkish magazine and opinion of Turkish «literary critics on that magazine and opinions of Turkish literary critics on the magazine «Molla Nasraddin» and M.A.Sabir are also analysed.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, filologiya e.d., prof. Ə.Quliyev, filologiya e.d., prof. M.Cəfərli,***

***Naxçıvan Dövlət Universitetinin Azərbvycan ədəbiyyatı kafedrasının 13 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol 08).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**HÜSEYN HƏŞİMLİ**
Naxçıvan Dövlət Universiteti

# POEZİYADA ANJAMBEMAN

Anjambeman dünya xalqlarının poeziyasında geniş yayılmış stilistik, poetexnik vasitələrdən biridir. Şeir dilinin ənənəvi normativ standartlardan nəsr sərbəstliyinə doğru yönəlməsində, poeziyada prozaikliyin təşəkkülündə onun özünəməxsus rolu vardır. Avropa xalqları poeziyasında formalaşan anjambeman «məntiqi və ritmik pauzaların üst-üstə düşməsi» halıdır (1, s. 300). Bir termin olmaqla anjambeman sözünün (fransızca «enjanbement») hərfi mənası «köçürmə», yaxud keçirilmə anlamına uyğundur. Mövcud ədəbiyyatşünaslıq lüğətində bu barədə oxuyuruq: «Anjambeman – misranın, yaxud bəndin məna və ritm quruluşlarının üst-üstə düşməməsidir. Bu zaman cümlə şeir sətrinə sığışmır və növbəti misranın da bir hissəsini tutur (misra üzrə keçid), yaxud cümlə bəndin hüdudlarına sığışmır və növbəti bəndə keçir (bənd üzrə keçid)... Çox nadir hallarda isə heca üzrə keçidə rast gəlinir – sözün bir hissəsi ayrılır və bu hissə növbəti sətrə keçirilir» (2, s. 108). Göründüyü kimi, anjambemanın Avropa xalqları poeziyasında üç əsas təzahür forması vardır: 1) Sözün hecalara bölünərək iki misraya səpələnməsi; 2) Cümlənin bir misrada bitməyərək növbəti sətirdə tamamlanması; 3) Bəndin axırında cümlənin tamamlanmayaraq sonrakı bənddə bitməsi. Aşağıdakı nümunə rus poeziyasında anjambeman heca keçidi tipinə uyğundur:

Баловался **гази** –
**рованной** водой.
Ни электро, ни **физиопроце** –
**дуры** не излечили меня (3).

Əvvəlinci və üçüncü misraların sonlarındakı sözlərin bir hissəsinin növbəti sətrə keçməsi heca anjambemanıdır. Tanınmış rus şairi F.İ.Tütçevin (1803-1873) «Fontan» şeirindən götürülmüş aşağıdakı nümunədə isə anjambemanın misra keçidi növü ilə rastlaşırıq:

Лучом поднявшись к небу, **он**
**Коснулся** высоты заветной (4).

Göründüyü kimi, ilk sətirdə fikir bitmir, daha doğrusu, yeni fikir başlayır və davamını ikinci misrada tapır.

Ədəbi-nəzəri fikirdə anjambemanın bir başqa təsnifi də vardır: 1) Frazanın sonu misranın (...yaxud bəndin) axırında deyil, bir qədər sonra tamamlanır – bu, «rejet» («keçid») adlanır; 2) Fraza misranın sonundan əvvəl tamamlanır – buna «contre-rejet» («əks keçid») deyilir; 3) Bir fraza misranın daxilində tamamlanır, ardınca başlanan növbəti fraza isə sonrakı misrada bitir- bu isə «double-rejet», yəni «ikiqat keçid» sayılır (bax: 5, s. 274).

Tanınmış alman şairi İ.P.Bexerin (1891-1958) sonetlərini struktur-stilistik təhlilə cəlb edən ədəbiyyatşünas İ.A.Bisko onun bu janrdakı şeirlərində misralararası anjambemanı «kiçik kontekst hüdudlarındakı keçid», bəndlərarası anjambemanı isə «böyük kontekst hüdudlarındakı keçid» adlandırmaqla haqqında danışılan üslubi vasitənin iki əsas növünə diqqəti yönəldir (6, s. 10). Bu fikirdəyik ki, anjambemanın heca, misra və bənd keçidi növləri üzrə təsnifi daha məntiqli və əhatəlidir.

Qərb ölkələrinin ədəbiyyatında geniş yayılan anjambeman XIX əsrin sonları, XX əsrin əvvəllərindən etibarən Şərq xalqları poeziyasında da işlənməyə başlayır. Avropa ilə artan ədəbi-mədəni əlaqələr, Qərb şeir sənəti ilə tanışlıq XX əsrin əvvəllərindən başlayaraq anjambemanın Azərbaycan poeziyasında da yayılmasına gətirib çıxarır. Bəllidir ki, klassik Şərq, o cümlədən Azərbaycan poeziyası daha çox iki struktur vahidi üzərində qurulurdu: 1) beyt əsasında (qəzəl, qitə, qəsidə və s.); 2) bənd əsasında (mürəbbe, müxəmməs, müsəddəs və s.). Şərq poeziyasında rəngarəng bədii təsvir və ifadə vasitələrindən istifadə olunsa da müəyyən bir fikrin ifadəsi kimi cümlənin beyt, yaxud bəndin sonunda tamamlanması vacib sayılırdı, yəni cümlənin bir beytdən və ya bənddən digərinə keçməsinə yol verilmirdi. Avropa xalqları poeziyasının təsiri ilə XX əsrin əvvəllərindən etibarən Azərbaycan şeirində də anjambemanın təzahürü özünə yer tapır. Sərbəst şeirin təşəkkülünə rəvac verən amillərdən biri kimi anjambeman heca və əruz vəznlərində yazılmış şeirlərdə də özünü göstərir, fikrin daha sərbəst, rahat və təbii ifadəsinə şərait yaradır.

Onu da deyək ki, XIX əsrin sonları, XX əsrin əvvəllərindən başlayaraq Osmanlı poeziyasında da anjambemandan istifadə olunmuşdur. Türk ədəbiyyatşünası Seyid Kamal Karaalioğlu bu barədə yazır: «Serveti-fünun»dan sonrakı şiirimizde anjambeman vardır. Anjambman – ulantı. Bir misrada anlam tamamlanmadığı zaman onu tamamlayıcı kelimelerin diger misralara buraxılmasıdır. «Serveti-fünun»çulardan Tefvik Fikret ve Cenab Şehabettin bunu ustalıqla şeirlerinde kullanırlar» (7, s. 534). Məsələn, T.Fikrətin (1867-1915) «Mart» adlı sonetinin ikinci və üçüncü bəndləri arasında anjambeman əlaqəsi vardır:

Kuşlar, zavallı yavrucağızlar bu cilveden
Sersemlenir, tahassun ederler saçaklara.

Her  lahza bir tahavvüli-baridle manzara
Bir lahza önce aldanaraq inkişaf  eden

Ezhara dehşetaver olur; şimdi mübtesim
Bir nazra, şimdi giryeli bir çehreyi melal:
Bir ani ferd içinde meserretü infial (8, s. 259).

Göründüyü kimi, nümunə gətirilən ilk bəndin sonuncu misrasında cümlə tamamlanmamış, növbəti bəndin ilk sətirində bitmişdir, yəni anjambemanın «bənd keçidi» növündən istifadə olunmuşdur.

Ümumiyyətlə, türk xalqları poeziyasında anjambemanın misra keçidi və bənd keçidi növləri daha geniş yayılmışdır, heca anjambemanına çox az təsadüf olunur. Təsadüfi deyil ki, bir sıra tədqiqatçılar türk xalqları ədəbiyyatında anjambemandan istifadəyə toxunarkən yalnız misra və bənd keçidindən danışırlar. Müasir türkmən şairi A.Atacanovun poeziyasındakı anjambemandan analoji qaydada bəhs olunması bu baxımdan səciyyəvi faktdır (9).

Azərbaycan şeirində anjambemanın müxtəlif növlərindən istifadə olunsa da biz burada başlanğıc mərhələdə klassik ədəbi kanonların daha ciddi pozulması faktı kimi dəyərləndirilə bilən bənd keçidindən, müəyyən qədər də misra keçidindən qısa şəkildə söz açacağıq.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının yeni təkamül mərhələsində, xüsusən Avropa mənşəli bir sıra janrlarla (sonet, mənsur şeir və s.) zənginləşməsində özünəməxsus rol oynayan «Füyuzat» dərgisi (1906-1907) səhifələrində anjambemandan uğurlu istifadəyə də rast gəlirik. Səciyyəvi nümunə kimi romantik şair Səid Səlmasinin (1887-1909) «Xəyali-mənfur» sonetinin ikinci katreninə və tersetlərinə ardıcıl olaraq nəzər salaq:

Danışma, sus, diyorum, istəməm, yəmin etmə!
Gəlirmi yadına, bir şəb başın sinəmdə ikən
O Almalıq  denilən yerdə biz oturmuşduq.
Ağacların arasından qüruba qarşı enən

Qəmər üful ediyorkən dərin-dərin bir ah
Çəkib, yapışdın əlimdən! O dəm dedin: «Eyvah
Sabah yaxlaşıyor, məncə, sizdən ayrılmaq

Təhəmmüli-bəşərin xaricində nikbətdir!»
Şu sözlər, ah, yalanmış, bu, bir cinayətdir.
Çəkil! Çəkil! Bəni aldatma, istəməm, mütləq (10, s. 316).

Birinci bəndin ikinci və üçüncü, ikinci bəndin isə birinci və ikinci misraları arasında anjambemanın misra keçidi növündən istifadə olunmuş, yəni cümlə iki misraya səpələnmişdir. Nümunə gətirilən bəndlər arasında

isə anjambemanın bənd keçidi növü müşahidə edilir. Yəni ilk bəndin son misrasında başlanan cümlə sonrakı bənddə davamını tapır. Öz növbəsində nümunədəki ikinci bəndin sonuncu-üçüncü misrasındakı fikrin sintaktik yekunu sonuncu tersetin ilk misrasına düşür. Aydınlıq naminə nümunədəki bənd keçidlərini mətndən ayıraq və nəsr formasında yazaq: Birinci bənd keçidi: «Ağacların arasından qüruba qarşı enən qəmər üful ediyorkən dərin-dərin bir ah çəkib yarışdın əlimdən!» İkinci bənd keçidi: «Sabah yaxlaşıyor, məncə, sizdən ayrılmaq təhəmmüli-bəşərin xaricində nikbətdir». Yəni şeir asanlıqla nəsrə çevrilir və təbii ki, bu, poeziyanı prozaikləşdirən anjambemanın təsiridir. Azərbaycan poeziyasının ötən əsrin əvvəllərindəki novatorluq axtarışlarında fəal iştirak edən S.Səlmasi sonet, marş kimi yeni janrlarda diqqətəlayiq əsərlər yazmaqla bərabər, şeirin strukturunda, ifadə tərzində, sintaktik düzümündə də yeni meyllərə biganə qalmamışdır.

XX əsrin əvvəllərində ustad sənətkar Hüseyn Cavidin (1882-1941) şeirlərində misra keçidi ilə yanaşı, bənd keçidinə də təsadüf olunur. Məsələn, «Elmi-bəşər» şeirinin birinci və ikinci bəndləri arasında belə əlaqə vardır:

«Kəsbi-ürfan için, fəzilət için
Durma, yüksəl!» deyirsən... İştə mənim
Ən böyük, ən sevimli amalım,
Qayeyi-məqsədim budur. Lakin

Nə için gizlənmək gərək, yetişir...
Nə qədər pürümidü biaram
Gecə-gündüz çalışsam, uğraşsam
Yenə ən son nəticə heçlikdir (11, s. 37).

Göründüyü kimi, ilk bəndin axırıncı misrasının sonunda «Lakin» sözüylə başlanan cümlənin davamı növbəti bəndin birinci sətrində tamamlanır, bu, bənd anjambemanıdır. Eləcə də ilk bəndin ikinci misrasında «İşdə mənim» sözləri ilə başlanan cümlənin davamının sonrakı sətirlərdə tamamlanması sintaktik və ritmik vurğuların bir-birindən fərqli yerlərdə təzahürünə, bu dəfə misra anjambemanına gətirib çıxarmışdır.

Ümumiyyətlə, XX əsrin əvvəllərindən etibarən bir sıra Azərbaycan şairlərinin yaradıcılığında anjambemana təsadüf olunur. Əruz və heca vəznli poeziyada ilk təzahürü qeydə alınan anjambeman sərbəst şeirin poeziyamızda təşəkkül tapıb möhkəmlənməsi ilə əlaqədar daha da geniş yayılır, xüsusən misra keçidi kütləviləşir. Anjambemanın bir qədər əvvəldə haqqında danışdığımız «keçid», «əks keçid» və «ikiqat keçid» kimi formalarından istifadəyə ayrı-ayrı şairlərin yaradıcılığında geniş rast gəlinir. Dramatik poeziyada, başqa sözlə deyilsə, mənzum dramların dilində anjambemandan istifadə təbiiliyi, axıcılığı, dialoqların canlı danışıq dilinə, nitq intonasiyasına yaxınlığını təmin etmək baxımından əhəmiyyətli üslubi bir

vasitəyə çevrilir.

Deyilənlərdən aydın olur ki, XIX əsrin sonu, XX əsrin əvvəllərindən etibarən Azərbaycan poeziyası Avropa mənşəli bir sıra yeni janrlarla zənginləşdiyi kimi, poetik sistemin daxili strukturunda da Qərb ədəbi ənənələrindən gələn rəngarəng xüsusiyyətlər vətəndaşlıq hüququ qazanmışdır. Çağdaş Azərbaycan poeziyasında bir sıra hallarda nəzm-nəsr sərhədlərinin itməsi, Ç.Əlioğlu, Xanəmir, S.Babullaoğlu, Q.Agsəs və başqalarının yaradıcılığında prozaik şeirin uğurlu nümunələrinin ortaya çıxması digər vasitələrlə yanaşı, anjambemanın artan rolunun təzahürüdür. Bu mərhələnin səciyyəvi əlamətlərindən biri kimi, arabir heca anjambemanından istifadə də nəzərə çarpır. Beləliklə, çağdaş Azərbaycan sərbəst şeiri anjambemanın geniş bədii imkanlarını nümayiş etdirir.

## ƏDƏBİYYAT


1. Введение в литературоведение. Под редакцией Г.Н.Поспелова. М.: Высщая школа, 1976, 422 с.
2. Краткий словарь литературоведческих терминов (редакторы-составители Л.И.Тимофеев, С.В.Тураев). М.: Происвещение, 1985, 208 с.
3. Http://rifma.com.ru/Lito-3.htm
4. Http://dic.academic.ru/dic.nsf/ruwiki/337283
5. Литературный энциклопедический словарь. М.: Советская энциклопедия, 1987, 752 с.
6. И.А.Бисько. Некоторые структурно-стилистические особенности сонетов И.Бехера (повторы и стиховые переносы). Автореферат кандидатской диссертации. Л., 1973, 16 с.
7. S.Karaalioğlu. Resimli, motivli türk edebiyyatı tarihi (tanzimattan cümhuriyyete). 2-ci cilt. İstambul, İnkilap və AKA kitabevleri, 1982, 798 s.
8. K.Akyüz. Batı tesirinde türk şiiri antolojisi. 8.baskı. İstambul: İnkilap Kitapevi, 1985, 1032 s.
9. Http: //www.turkmenhost.com/documents/Atacanov/USDEL.htm
10. S.Səlmasi. Xəyali-mənfur. «Füyuzat» jurnalı, 1907, № 20.
11. H.Cavid. Əsərləri. 4 cilddə, I c., Bakı: Yazıçı, 1982, 321 s.



**Гусейн Гашимли**


## АНЖАМБЕМАН В ПОЭЗИИ


В статье рассматриваются сущность и типы анжамбемана как стилистическое средство, также его место в мировой литературе. Анализируются факты его использования в азербайджанской литературе.

**Huseyn Hashimli**

**ANJAMBEMAN IN POETRY**

In the article the essence, types and the position of anjambeman in the world literature as a stylistic device are investigated and its use in the Azerbaijan literature is analysed.

***Rəyçilər: Akademik İ.Həbibbəyli, filologiya e.d., prof. S.Vəliyev.***

***Naxçıvan Dövlət Universitetinin Azərbvycan ədəbiyyatı kafedrasının 13 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol 08).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**FƏRMAN XƏLİLOV**
AMEA Naxçıvan Bölməsi

# MİRZƏ ƏLİ MÖCÜZÜN AİLƏ MÜHİTİ VƏ TƏHSİLİ

M.Ə.Möcüzün ailəsi haqqında ilk məlumata Q.Məmmədlinin 1945-ci ildə şairin «Seçilmiş əsərləri»nə yazdığı müqəddimədə rast gəlirik: «Möcüzün ... ulu babası Hacı Mirzə Baba vaxtilə Şəbüstərin hakimi olmuşdur. Atası Hacı Ağa İstanbulla əlaqədar olan şəbüstərlilərdən idi. Hətta onun iki böyük oğlu Həsən və Hüseyn əfəndilər İstanbulda yaşamış və orada vəfat etmişlər» (9, s. 3). O, bu məlumatı verərəkən heç bir rəsmi sənədə istinad etməmişdir. Sonralar Möcüzdən yazan müəlliflər də şairin ailəsindən söz açarkən həmin məlumatı sadəcə olaraq təkrarlamaqla kifayətlənmişlər. Əldə etdiyimiz bir sıra rəsmi sənədlər, mənbələr və digər tədqiqat materiallarında isə Möcüzün ailəsi haqqında Q.Məmmədlinin yazdıqlarından fərqlənən daha dəqiq, dolğun və inandırıcı məlumatlara rast gəlirik. Əvvəla, qeyd edək ki, Q.Məmmədlinin Möcüzün ulu babası adlandırdığı Hacı Mirzə Babanın şəxsiyyəti və vaxtilə Şəbüstər qəsəbəsinin hakimi olmasını təsdiq edən hər hansı bir sənəd və fakt hələ bu günədək aşkara çıxarılmamışdır. Ona görə də Q.Məmmədlinin bu barədəki fikri fərziyyə olaraq qalmaqdadır.

Möcüzün ailə üzvləri haqqında qismən geniş məlumat verən ilk və hələlik əlimizə gəlib çatan yeganə rəsmi sənəd 29 iyul 1928-ci ildə Şəbüstərdə şairə verilmiş şəxsiyyət vəsiqəsidir. Farsca yazılan bu sənədin mətni belədir: «Adı – ağayi-Əli, Şöhrəti (Soyadı – F.X.) – Möcüz, Doğum yeri – Şəbüstərin Sisbəy məhəlləsi, Doğum tarixi – 7 hut (isfənd) 1252 ş., Atasının adı – Hacı Ağa mərhum,Anasının adı – Zəhra mərhumə, Həyat yoldaşının adı – Səriyyə» (13, s. 3).

Şairin ailə üzvləri ilə bağlı möcüzşünaslıq üçün tamamilə yeni olan digər məlumatlar isə hazırda Şəbüstərdə yaşayan Möcüzün bacısı nəvəsi 70 yaşlı Yaqub ağa Möcüzə məxsusdur. 2003-cü ildə (12 avqust) Şəbüstərdə Yaqub ağanın şəxsən bizə verdiyi məlumata görə Möcüzün Fatimə adlı bir bacısı, Rübabə adlı bacısı qızı (Yaqub ağanın anası – F.X.) və Haşım adlı cəmi bircə qardaşı olmuşdur. Haşım İstanbulda ticarətlə məşğul olmuş və orada da vəfat etmişdir. Möcüzün yaxın qohumu olan Yaqub ağanın «Haşım dayı» adlandırdığı şəxsin şairin yeganə qardaşı olmasını deməsi Q.Məmmədlinin Hacı Ağanın «iki böyük oğlu Həsən və Hüseyn əfəndilər

İstanbulda yaşamış»dır fikrinin həqiqətə uyğun olmadığını göstərir. Rza Pəhləvinin hakimiyyətinin ilk illərində İranda vətəndaşların şəxsiyyətini təsdiq edən doğum şəhadətnaməsi və pasport qeydiyyatı işlərinin təşkili zamanı Möcüzün qürbətdə yaşayan cəmi bir qardaşının həyat yoldaşı üçün (1257 şəmsi ilində Təbrizdə anadan olan Rüqiyyə Hacı Əmiraslan qızı üçün) 29 iyul 1928-ci ildə vəsiqə alması da (16) onun İstanbulda bir qardaşının yaşadığını təsdiq edən faktdır. Beləliklə, aydın olur ki, Möcüzün uşaqlıq və yeniyetməlik illəri (1874-1890) atası Hacı Ağanın himayəsində anası Zəhra xanım, bacısı Fatimə və qardaşı Haşımla birlikdə kiçik bir kəndli ailəsində keçmişdir. Möcüzün Şəbüstərdə yaşadığı Sisbəy məhəlləsində yerləşən bir balaxana, bir qəhvəxana və iki otaqdan ibarət olan evinin tavanındakı dirəklərə yazılmış və naqis şəkildə olsa da, bu günədək qalan Quran ayələrindən nümunələr və «Qəm məxor, cana, ke qəm xorəd ...» («Qəm yemə cana, ki qəm yeyər ...») misrası ilə başlayan şeir parçasından aydın olur ki, bu ocaqda dini dəyərlərə və poeziyaya hörmət və məhəbbət hökm sürmüşdür.

Möcüzün atasının adına əlimizə çatan üç mənbədə rast gəlirik: şairin öz əli ilə yazdığı «tərcümeyi-hal»ında (8, s. 164), şəxsiyyətini təsdiq edən vəsiqədə (13, s. 3) və qəbrinin başdaşında (7, s. 17). Bu mənbələrin hamısında onun adı Hacı Ağa kimi göstərilmişdir. Şairin yazdığına görə atası «Şəbüstər tacirlərindən biri olmuşdur» (8, s. 164). İstanbulda ticarətlə məşğul olan Hacı Ağa bir çox həmyerliləri kimi ömrünün çoxunu qürbətdə keçirən və vətənə qonaq kimi gəlib-gedən tacirlərdən idi. İndiyədək Möcüzdən yazan müəlliflərin diqqət yetirmədiyi, lakin tədqiqat üçün son dərəcə əhəmiyyətli olan şairin «Mən **hacızadə** necə batman beli şişlim yerə» (11, s. 68) misrası isə Hacı Ağa haqqındakı məlumatımızı bir qədər də genişləndirir. Həmin misradan aydın olur ki, şairin atası hər bir müsəlman üçün vacib sayılan Həcc ziyarətinə getmişdir. Əldə olan faktları nəzərə alsaq, mükəmməl təhsil üzü görməsə də, Hacı Ağanı savadsız və məlumatsız bir şəxs kimi səciyyələndirmək olmaz. O vaxt Türkiyənin paytaxtı olan İstanbulun qaynar, mürəkkəb və ziddiyyətli mühitində yaşaması, ticarət işlərini müstəqil şəkildə idarə etməsi, müsəlmanlıq borcunu yerinə yetirərək Həccə getməsi onun müəyyən maddi imkana və bacarığa, həmçinin Şəbüstər mühitində yaşayan həmyerlilərindən daha geniş dünyagörüşünə malik olmasını göstərir.

Möcüz uşaqlıq, xüsusilə yeniyetməlik illərində Şəbüstər mühitinin ümumi təsiri altında yaşasa da, məhz atasının səfər təəssüratlarının bu ailəyə gətirdiyi yeni abü hava sayəsində Şərq və Qərb ölkələri ilə ilk qiyabi tanışlıq imkanı əldə etmiş, bu ölkələrin əhalisinin yaşayış tərzi, məşğuliyyəti, adət-ənənələri, inam və əqidələri və başqa xüsusiyyətləri haqqında məlumatlanmışdır ki, bu da onun maraq dirəsinin genişlənməsində əhəmiyyətli rol oynamışdır.

1874-1890-cı illər Möcüzün Şəbüstərdə keçən uşaqlıq və yeniyetməlik illəri Nəsrəddin şahın hakimiyyəti dövrünə düşür. Bu illərdə İranda, o cümlədən Cənubi Azərbaycanda bir tərəfdən «Qacar şahzadələrinin istibdadı» (18, s. 253), digər tərəfdən isə dövlət məmurlarının soyğunçuluğu (3,

s. 39) əhalinin canını boğazına yığmışdı. Ona görə də 1848- ci ildə Seyid Əli Məhəmmədin (Babın) rəhbərliyi ilə İranda başlanan «ictimai xarakteri etibarı ilə ... feodallara, ali ruhanilərə və xarici kapitala qarşı çevrilən» (3, s. 42) babilər hərəkatı 1852-ci ildə Nəsrəddin şah tərəfindən amansızcasına yatırılsa da, 1870-1890-cı illərədək narazı əhalinin babiliyə rəğbətinin sönməsinə imkan verməmiş, əksinə, bu rəğbətin artaraq 1896-cı ildə Nəsrəddin şahın öldürülməsi ərəfəsində İranda babilərin sayının iki milyonu aşmasına (3, s. 45) gətirib çıxarmışdır. Möcüzün atası Hacı Ağa da təbii ki, «tacir təbəqəsinin də mənafeyini müdafiə edən» (3, s. 42) babilər hərəkatına rəğbət bəsləmiş və böyük ehtimalımıza görə ailədaxili söhbətlərində bu hərəkatın səbəbi və gedişatından söz açmışdır. Belə məzmunlu söhbətlərin isə yeniyetmə Əlinin qəlbinə cəmiyyətdəki haqsızlıqlara qarşı nifrət və etiraz toxumlarını səpməsi şübhəsizdir. Sonralar özünü «babi» adlandırması (11, s. 86) və keçmiş günləri yada salaraq xatirə xarakterli bir şeirində Nəsrəddin şahı və onun dövrünü «nə daxil ilə işi vardı, nə xariclə ... sarayı mərkəzi-nisfani-mahmənzər idi ... duayi-müftəxoran hifz edərdi sərhədi ... zəban dəhanda müqəffəl, qələm qələmdanda, o günkü gündə danışmaq məgər müyəssər idi?» (11, s. 120) kimi xarakterizə etməsinin kökündə də məhz uşaqlıq illərindən şairin hafizəsində dərin iz buraxan həmin nifrət və etiraz hissləri dayanır.

Möcüzün anası Zəhra xanım o dövrün savadsız, dindar, başı yalnız məişət işlərinə qarışan, əri çox vaxt qürbətdə olduğu üçün ailənin idarə olunmasında əsas yükü çiyinlərində daşıyan zəhmətkeş və qayğıkeş bir qadın olmuşdur. Şübhəsiz ki, Möcüzün sonralar yazdığı şeirlərində qadınların mənəvi dünyasını və duyğularını, məişət şəraitini əks etdirərkən, daha dəqiq desək, XIX əsrin sonu, XX əsrin əvvəllərində Cənubi Azərbaycanda yaşayan anaların ümumiləşdirilmiş obrazını yaradarkən uşaqlıq və yeniyetməlik illərində öz anasının üzərində apardığı müşahidələrinin də güclü təsiri olmuşdur. Böyük qardaşı Haşımın ticarət üçün İstanbula gedib orada qalması və atasının uzunmüddətli səfərləri nəticəsində ailə təsərrüfatının bəzi problemləri ilə məşğul olmaq məcburiyyətində qalması Möcüzü hələ yeniyetmə yaşlarında həmyerlilərinin şəxsi işlərindəki çətinliklərlə yaxından tanış olmağa və ətrafındakı müxtəlif peşəli və müxtəlif xasiyyətli insanlarla münasibətləri tənzimləmək haqqında düşünməyə vadar etmişdir. Biz belə bir qənaətdəyik ki, sonralar şairin şeirlərində şəbüstərlilərin məişət tərzi və birgəyaşayış şəraitində qarşılıqlı münasibətlərinin incəliklərinədək əks etdirilməsinin rişələri onun uşaqlıq və yeniyetməlik illərindəki ailədaxili və ailəətrafı canlı müşahidələrinədək gedib çıxır. Çünki «uşaqlıq xatirələri hafizədə o qədər möhkəm yer tutur ki, uzun illər onu silib yox edə bilmir» (17, s. 7).

Möcüzün öz dediyinə görə «Molla Əli adlı bir şəxsdən dərs oxuyub». Bu fakt haqqında ilk dəfə mətbuatda Ə.Naxçıvani məlumat vermişdir (12, s. 2). Sonralar həmin fakta əsaslanaraq «Möcüz ilk təhsilini Molla Əlidən almışdır» fikrini dönə-dönə təkrarlayan möcüzşünasların heç biri təəssüf ki,

ilk təhsil illərinin şairin dünyagörüşünə təsiri və mənəvi təkamülündəki rolu məsələsini tədqiqat predmetinə çevirməmişlər. Bu, şübhəsiz ki, kommunist ideologiyasının hökm sürdüyü Sovet dövründə mollaxanaları «xalqın zehniyyətini sxolastika ilə zəhərləyən» və «feodal-ruhani mənafeyinə xidmət edən» «dini ... təbliğat mərkəzləri» (1, s. 21, 22, 25) kimi damğalanması ilə əlaqədar idi. Düzdür,vaxtilə M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Şahtaxtlı, M.Ə.Sabir, A.Şaiq və başqa görkəmli şəxsiyyətlər də mollaxananın bir sıra qüsurlarını kəskin şəkildə tənqid etmişlər. Elə Möcüzün özü də mollaxanalardakı çətin tədris üsuluna və təlim kitablarında «bir nəf» (11, s. 275) olmadığına öz mənfi münasibətini bildirmişdir:

Dedim on ildə nə öyrənmisən? Dedi ki: «Buyur,
Ərəbcə cəmi «həmər», müfrədi «himar» oldu» (11, s. 54).

Lakin bütün bunlar o demək deyil ki, müəyyən qüsurlarına görə uzun əsrlər boyu uşaqların, o cümlədən sonralar məşhurlaşan bir sıra görkəmli şəxsiyyətlərin ibtidai təhsilində mollaxananın rolu və əhəmiyyəti tamamilə inkar edilməlidir. Əsla! Uzağa getməyək, elə «mollaların həsirli, bitli-sirkəli məktəblərində üç-dörd il avara olduğunu» (10, s. 101) yazan C.Məmmədquluzadənin və mollaxanaya getməkdən imtina etdiyi üçün anası tərəfindən «çubuqla döyülən» (2, s. 235) H.Cavidin taleyində molla məktəbinin müsbət roluna dair tədqiqatçıların mülahizələrini (5, s. 54; 6, s. 4) nəzərə alsaq, mollaxanaların fəaliyyətinin üzərindən qara bir xətt çəkməyin nə dərəcədə qeyri-elmi və lüzumsuz olduğu aşkara çıxar. Məhz buna görə də Möcüzün əxlaqi-mənəvi tərbiyəsinə və dünyagörüşünün formalaşmasına güclü təsir göstərən bütöv Şəbüstər mühitinin tərkib hissəsi olan ailə mühiti ilə yanaşı, mollaxana mühitinin də rolu və təsirini tədqiq etmək zəruridir.

Azərbaycanın bir çox şəhər və kəndlərində olduğu kimi XIX əsrin 70-90-cı illərində «Şəbüstərdə də ... ya evlərdə, ya da məscidlərdə dərs keçir və bu yerləri məktəbxana (mollaxana) adlandırırdılar» (15, s. 430). Möcüz də o dövrün ənənələrinə uyğun olaraq 8-9 yaşlarında mollaxanada təhsilə başlamış və bir neçə il «Molla Əlidən dərs oxumuşdur» (12, s. 2). Möcüzün sonralar tez-tez adını çəkdiyi və fikrini əsaslandırmaq, yaxud hər hansı bir məsələyə münasibətini bildirmək üçün istinad etdiyi «Cameyi-Abbas», «Əbvab», «Nisab», «Möcəm», «Vəssaf», «Nəmuzəc», «Təsrif», «Əvamil», «Sərfi-mir», «Kafi» kimi kitablar onun Molla Əlidən «dərs oxuduğu» illərdə Şəbüstər mollaxanalarında əsas tədris vəsaitləri idi (15, s. 431). Şairin mollaxanada oxuduğu illərdə qazandığı bilik və məlumatlar haqqında daha ətraflı və aydın təsəvvür əldə etmək üçün təlim aldığı təkcə iki kitabın məndəricatı ilə tanış olmaq kifayətdir:

1. Əbu Nəsr Fərahi. «Nisabül-sibyan» (4). Ərəb dilində nəzmlə yazılan ensiklopedik xarakterli dərslikdir. Kitabda əvvəlcə ərəb dilində olan bir sıra mühüm dini terminlərin fars dilində izahı verilir. Sonra əruz vəzninin bəhrləri aydınlaşdırılır. Kitabda Quranın surələri, ayələri, dualar və həzrəti-Məhəmməd peyğəmbər, həmçinin imamlar haqqında da ətraflı şəkildə bəhs

olunur. 12 ayın ərəb, yunan və türkçə adları, bürclərin adı, müxtəlif planetlərin hansı bürclərdə yerləşməsi və bəzi tarixi hadisələr haqqındakı məlumatlar dərsliyin ən maraqlı səhifələridir.

2. Məhəmməd Rəfiəddin. «Əbvabül-cinan» (14). Fars dilində nəsrlə yazılan kitab əsasən dünya, insan və həyat haqqında fəlsəfi düşüncələr, insanların müxtəlif əxlaqi-mənəvi keyfiyyətləri və davranışlarına dair ibrətli rəvayətləri özündə birləşdirir. Şərq klassiklərindən farsca şeirlər və hədislərdən ərəbcə nümunələr kitabda verilən nəsihətləri tamamlayır və əyanilәşdirir.

Mollaxanalarda «ənənəyə uyğun olaraq «Çərəkə» üzrə ərəb əlifbası, «höccə» deyilən ... yolla «əbcəd» və ərəbcə kiçik mətnlərin oxudulması və əzbərlədilməsi» (1, s. 22) də Möcüzün ibtidai təhsilinin tərkib hissələrindən idi.

Beləliklə, göstərilən faktlar mollaxana mühitinin Möcüzə təsirinin aspektlərini müəyyənləşdirməyə və aşağıdakı ümumiləşdirilmiş nəticələrə gəlməyə əsas verir.

Möcüz mollaxanada:

1. Fars dilini və qismən ərəb dilini (xüsusilə dini terminləri) öyrənmişdir.
2. Ərəb əlifbasi ilə yazı vərdişlərinə yiyələnmişdir.
3. İslam tarixi və mədəniyyəti haqqında ilkin məlumatlar əldə etmişdir.
4. İlk dəfə olaraq nəzm və nəsrlə yazılan bədii materiallarla tanış olmuşdur.
5. Əruz vəzninin bəhrləri haqqında müəyyən nəzəri məlumatları öyrənmişdir.
6. İnsanların ümumi davranış normaları haqqında təsəvvürlərini genişləndirmiş, əxlaqi qənaətlərini müəyyənləşdirməyə başlamışdır.

Deyilənlərdən aydın olur ki, Möcüzün uşaqlıq və yeniyetməlik illərində dünyagörüşünün formalaşması, əxlaqi keyfiyyətlərinin müəyyənləşməsi və ümumiyyətlə, mənəvi təkamülündə ailə və mollaxana mühitinin böyük rolu və əhəmiyyəti olmuşdur.

## ƏDƏBİYYAT


1. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1966, 332 s.
2. Cavid M. Cavidi xatırlarkən/ Cavidi xatırlarkən (məqalələr və xatirlər). Bakı: Gənclik, 1982, s. 235-265.
3. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Bakı: Elm, 1985, 316 s.
4. Fərahi Ə.N. Nisabül-sibyan. Tehran, 1250 hicri-qəməri.
5. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, 684 s.
6. Xəlilov F. H. Cavidin həyatının Naxçıvan mərhələsi// «Sovet Naxçıvanı» qəz., Naxçıvan, 28 dekabr 1983.
7. Xəlilov F. Mirzə Əli Möcüz. Biblioqrafiya. Bakı: Nurlan, 2007, 148 s.
8. Xəlilov F. Mirzə Əli Möcüzün «tərcümeyi-hal»ının mətni ilə bağlı bəzi təhriflər və həqiqətlər// AMEA Naxçıvan Bölməsinin Xəbərləri (ictimai və

humanitar elmlər seriyası). Naxçıvan, 2007, № 3, s. 160-167.
9. Məmmədli Q. Şəbüstərli Mirzə Əli Möcüzün tərcümeyi-halı (müqəddimə). Möcüz M.Ə. Seçilmiş əsərləri. Təbriz: 1945, 252 s.
10. Məmmədquluzadə C. Tərcümeyi-halım. Əsərləri. 4 cilddə, IV c. Tərtib edən və izahların müəllifi İ. Həbibbəyli. Bakı: Öndər nəşriyyat, 2004, s. 99-104.
11. Möcüz M.Ə. Əsərləri. Toplayanı, tərtib edəni, izahların müəllifi Q.Məmmədli. Bakı: Yazıçı, 1982, 350 s.
12. Möcüz Şəbüstərlinin şərh-halı// «Azərbaycan» qəz., I dövrə, Təbriz, 22 fevral 1942.
13. Niqabi M. Şəbüstərli Mirzə Əli Möcüz// «Ərk» qəz., Təbriz, 27 iyun 1992.
14. Rəfiəddin M. Əbvabül-cinan. Təbriz, 1257 hicri-qəməri.
15. Səlimi Ə.F. Neqahi-be tarixo-coğrafiyaye-Şəbüstər, Təsuc-Sofyan. Tehran: Sibe-sorx, 1382 ş. (2003), 590 s.
16. Sicilli-əhval idarəsinin (Vətəndaşların Vəziyyətinin Qeydiyyatı İdarəsinin – F.X.) Rüqiyyə Hacı Əmiraslan qızına verdiyi şəxsiyyət vəsiqəsinin mətni. F. Xəlilovun şəxsi arxivi.
17. Şaiq A. Əsərləri (xatirələr, məktublar). 5 cilddə, V c., Bakı: Yazıçı, 1978, 502 s.
18. Şəmim Ə. İran dər doreye-səltənəte-Qacar. Tehran, 1342 şəmsi.

**Фарман Халилов**

**СЕМЕЙНАЯ СРЕДА И ОБРАЗОВАНИЕ МИРЗА АЛИ МОДЖУЗА**

В статье впервые описываются формирование мировоззрения М.А.Моджуза в детские и отроческие годы, роль и значение семьи и моллаханы (школа при мечети) в его идейном совершенствовании.

Выяснено, что усилиями отца Гаджи Аги М.А.Моджуз познако-мился с культурой стран Востока и Запада, а в моллахане изучал арабский и персидский языки, историю и культуру ислама.

**Farman Khalilov**

**MIRZA ALI MOJUZ'S FAMILY ENVIRONMENT AND EDUCATION**

The article firstly deals with the formation of M.A.Mojuz's view during his childhood and teenage years, definition of his moral quality and in general, the role and importance of the family and Moslem ecclesiastical school environment in his spiritual evolution.

It is clarified that thanks to his father Haji Aga, Mojuz began to study the Eastern and Western countries in his absence but learned Persian and partial Arabian languages in Moslem ecclesiastical school. Besides, he possessed the writing habits and gained information about the history and culture of Islam.

***Rəyçilər: Filologiya e.d. Ə.Qədimov, filologiya e.n. N.İsmayılova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**LÜTVİYYƏ ƏSGƏRZADƏ**
AMEA Naxçıvan Bölməsi

# ŞEYX MƏHƏMMƏD RASİZADƏNİN TALEYİ VƏ YARADICILIĞI

Şeyx Məhəmməd Rasizadə... Azərbaycanın işiqlı şəxsiyyətlərindən biri... Böyük sənətkar Hüseyn Cavidin qardaşı və onun “Cavidləşməsində” ən çox əməyi olan insan... Şeyx Məhəmməd haqqında hələ 1910-cu ildə Cavid İstanbuldan Qurbanəli Şərifzadəyə göndərdiyi məktubunda “fəzilətpərvər qardaşım” deyə bəhs edirdi. Lakin Şeyx bu gün bizə ən gözəl şəkildə oğlu Tahirin təsnifatından boylanır;

Olduqca qayğısız, olduqca laqeyd,
Rindanə xislətli, həm laubali.
Fəqət kim diqqətlə baxsaydı ona
Geniş və qabarıq alnında zəka,
Yorğun gözlərində dərin bir məna
əsəri duyardı şübhəsiz hər an.
“Şərqli bir filosof” deyilən əlan (3, s. 17).

Oğlu Tahirin şeirindən də göründüyü kimi, Şeyx Məhəmməd zahirən qayğısız, laqeyd, rindanə xislətli, laubali, sadə bir din adamına bənzəsə də, “geniş və qabarıq alnında zəka, yorğun gözlərində dərin bir məna” daşıyan, əsl “Şərqli bir filosof” idi.

1878-ci il mart ayının 15-də dünyaya gəlmiş Şeyx Məhəmməd hələ kiçik yaşlarından oxumağa maraq göstərmiş, ilk təhsilini mollaxanada almış, ali təhsilini Tehranda davam etdirmişdir. Adının qarşısındakı “Şeyx” titulunu da ruhani təhsilini aldıqdan sonra qazanmışdır. O, uzun illər “zöhdə dalaraq könlünü din, fəlsəfə və elmi hikmətdən” başqa heç nəyə bağlamamış, eyş-işrətdən tamamilə uzaqlaşmışdı. Lakin nə olmuşsa, 10 il ruhani təhsili almış Şeyx sonradan yolunu dəyişmiş, dünyəvi təhsil vermək yolunu tutmuş, müəllimliklə məşğul olmuşdur. Şeyx Məhəmməd hətta 1917-ci ildə İrəvan Maarif İdarəsində kurs bitirmişdir. Onun haqqında ilk dəfə Əli Sultanlı Cavid barəsində yazdığı yazıda bəhs etmişdir: “Cavidin böyük qardaşı Məhəmməd Rasizadə mükəmməl təhsil görmüş bir vaiz idi. Vaizlikdən ziyadə müəllimlik və mühərrirliklə məşğul idi. Naxçıvanda sovet hakimiyyəti yarandıqdan sonra Naxçıvan Pedoqoji Məktəbinin dil və ədəbiyyat müəllimi olmuşdur” (1, s. 87). O, həqiqətən də, 1906-cı ilin yanvarından başlayaraq Naxçıvandakı üsuli cədid məktəbində və “Məktəbi-xeyriyyə”də

lisan müəllimi kimi çalışmağa başlamış, Naxçıvan sovetləşdikdən sonra da müxtəlif orta məktəblərdə, pedoqoji və kənd təsərrüfatı texnikumlarında bir sıra görkəmli şəxsiyyətlərə; ümummilli lider Heydər Əliyevə, akademiklər: Yusif Məmmədəliyev, Məmmədcəfər Cəfərov, Həsən Əliyev və Abbas Zamanov, Lətif Hüseynzadə kimi alimlərə dil-ədəbiyyatdan dərs demişdir. 1 oktyabr 1996-cı ildə Naxçıvanda Cavid məqbərəsinin açılışında iştirak edən Heydər Əliyev müəllimi haqqında demişdir: "O, mən uşaq ikən dördüncü-beşinci siniflərdə müəllimim olub. Xatirimdədir, çox ciddi müəllim idi. Bizi yaman sıxışdırardı. Amma dili də çox yaxşı öyrədirdi" (6).

Bu Azərbaycan dili dərslərini uzaq 30-cu illərdə Şeyx Məhəmməddən alan Heydər Əliyevin ustadının iki cəhətini; tələbkarlıq və biliyini vurğulayaraq verdiyi qiymətdir. Deməli, məsləki "öyrənmək və öyrətmək" olan Şeyxin müəllimliyi mükəmməlmiş və ən çətin şəraitdə belə o, ədəbiyyatın, mədəniyyətin, geniş mənada savadın, zövqün yüksəlişi naminə çalışıb. Lakin o, müəllimliklə yanaşı həm də şair və jurnalist idi. XX əsrin əvvəllərindən "Şərqi-Rus", "Həyat", "İrşad", "Tazə həyat", "Təkamül", "İqbal", "Füyuzat", "Açıq söz", "Hürriyyət" kimi qəzet və jurnallarda, sonralar isə sovet mətbuatında, xüsusilə, "Şərq qapısı" qəzetində xalqı maarif, elm və mədəniyyətə səsləyən şeirlər dərc etdirmişdir. "Yeddi qız", "1914-cü il" adlı kiçik poemaları da var. Şeirlərinin bir qismi sevdiyi klassiklərə; 2 şeiri M.Qorkiyə, 1 şeiri M.Fətəlinin 50 illiyinə, 1 şeiri isə Sabirə həsr olunub.

Fars dilini mükəmməl bilən Şeyx Məhəmməd bu dildə də şeirlər yazmış, böyük İran şairi Firdovsiyə şeir və poema həsr etmiş, onun "Şahnamə"sindən parçaları ("Sultan Mahmuda həcv" və s.) dilimizə çevirmişdir. O, Firdovsini çox sevmiş, bununla əlaqədar görkəmli şərqşünas Konstantin Smirnovla məktublaşmış, onun haqqında müfəssəl tədqiqat aparmışdır.

Ümumiyyətlə, Şeyx Məhəmməd orta çağ Şərq tarixi və ədəbiyyatına böyük maraq göstərmişdir ki, bunu təsdiq edən dəlillərdən biri də şərqşünas alim Konstantin Smirnovun Tiflisdən ona farsca yazdığı məktublarıdır. Məsələn, o, "Məktublardan birində professor Marla olan əməkdaşlığından bəhs edir, tədqiqatçı Cahangir Qayıbovla İrana getdiyini, qədim əlyazmaları araşdırmaqla məşğul olduğunu, Ermənistandakı bir muzeydə gördüyü İrəvan xanının məktubları toplusu tipində Naxçıvan xanının məktubları məcmuəsinin varlığını yazaraq həmin nüxsə ilə bağlı xahişlər edir. Eyni zamanda Gürcüstan, Şirvan tarixi, XVI əsrdən XIX əsrin əvvəlinə qədərki Qafqaz ədəbiyyatı, Əfşar, Səfəvi tarixi ilə bağlı əlyazmalarla da maraqla-dığını, bu qəbil əlyazmaları almaq istədiyini, Şeyx Məhəmməddən yardımçı olmağı rica edir" (2, s. 467). Sözsüz ki, Şeyx Məhəmməd bu barədə öz tədqiqatları ilə onlara köməklik göstərib.

1934-cü ildə Ə.Firdovsinin 1000 illik yubleyi Bakıda qeyd edilərkən qardaşı Hüseyn Cavid həmin ilin iyulunda "Şahnamə" motivləri əsasında "Səyavuş" faciəsini, Şeyx Məhəmməd Naxçıvanda "Şahnamə" vəznində və mütəqarib bəhrində poema yazmışdır. 1934-cü il iyunun 1-dən başlayıb so-

nunda bitirdiyi bu poemaya yazdığı müqəddimədən də göründüyü kimi, bu yalnız bədii təxəyyülün məhsulu olan bir əsər deyildi, onun ardında "inadlı aramalar", çoxlu məxəzlər dayanırdı. Poemanın "O kimdir?", "Onun şahnaməsi", "Qissədən hissə", "Ona Sultan Mahmudun mükafatı" fəsillərindən sonra Şeyx Məhəmmədin Firdovsi irsindən etdiyi tərcümələri gəlirdi. O, çevirmələrdən birini - Firdovsinin "Sultan Mahmuda" Ş. M. "təqribi", "Rüstəm zalın bir qovğada oğlu Söhrabı öldürdükdən sonra üzərindəki təəssüf və tələhhüfü" parçasını "eynən tərcümə" adlandırır. Firdovsinin 1000 illik yubileyi ərəfəsində bu hissə ilk dəfə Mikayıl Müşfiq, Mir Mehdi Seyidzadə tərəfindən tərcümə edilərək "Gənc işçi" qəzetində, Şeyx Məhəmmədin tərcüməsi isə Naxçıvanda "Şərq qapısı"nda çap olunmuşdur. Lakin bu iki tərcümə arasında böyük fərq var, bu fərq də ondan ibarətdir ki, Şeyx Məhəmməd Rasizadə orjinalın vəznini saxlayıb ki, bu da tərcümədə vacib məsələlərdəndir.

Onu da qeyd etmək yerinə düşər ki, ilk dəfə Şeyx Məhəmmədi bir şəxsiyyət kimi ədəbiyyat aləminə gətirən, onun həyatı və yaradıcılığını tədqiqat obyektinə çevirən məhz görkəmli ədəbiyyatşünas Rəfael Hüseynov olmuş, "Cavidin şair qardaşı" adlı məqaləsində Şeyx Məhəmmədə şair, pedaqoq, tədqiqatçı və maraqlı bir ədib kimi yaşarlılıq qazandırmış, tədqiqatçılara isə maraqlı mövzu bəhs etmişdir» (7).

Şeyx Məhəmməd jurnalistika və ədəbiyyat aləminə müqəddəs bir amalla, qələmin vəzifəsini dərk edərək, xalqın savadını bu yolda bir qədər artıra bilmək naminə gəlmişdi. Təəssüf ki, jurnalistika və ədəbiyyat aləminə müqəddəs bir amalla qədəm basan Şeyxin ilk şeiri maaşının gecikdirilməsi ilə əlaqədar yazdığı satirik bir qitə olub; "Şikayətnamə". Ümumiyyətlə, vaxtdan və zamanından asılı olmayaraq şikayətnamə sözünü eşidən kimi yada ilk düşən zəmanəsindən şikayət yazan Füzuli olur. Şeyxin də qitəsinə nəzər salanda görürük ki, o, maaşının vaxtında verilməməsindən dolayı bu şeiri yazmışdır. Düşünürsən; bu bir təsadüfdürmü? Fikrimcə, yox. Əksinə, onun yaradıcılığa "Şikayətnamə" ilə başlaması, sanki gələcəkdə başına gətiriləcəklərə bir işarə imiş. İki Məhəmməd; mövlana Məhəmməd, Şeyx Məhəmməd... İki, "Şikayətnamə". Hər ikisi də zəmanəsindən şikayətli. Nə üçün? – deyə düşünmək belə mənasız. Görünən dağa bələdçi nə lazım. Zamanın sərt üzünü görüb, acı həqiqətləri ilə üzləşmiş bu Məhəmmədlər başqa-başqa əsrlərdə yaşasalar da, oxşar taleyi paylaşıblar, biri XVI, biri XX əsrdə. Onların çəkdikləri yazdıqları "Şikayətnamə"lər də öz əksini tapır.

Nə idi onların dərdi? Nə istəyirdi onlar? Məgərsə, dərdlərinin ən böyüyü imiş onların dərdləri; "Başa düşülməmək", "Anlaşılmamaq". "Hamı dadır bu həqiqəti, lakin bir fərq var ki, hərə öz miqyasında, Füzuli öz çəkisində, Şeyx Məhəmməd öz çəkisində… Bəlkə Şeyx Məhəmmədin dərdi Füzulidən də böyük idi. Füzuli istədiyini yazırdı, Şeyx Məhəmmədin bu hüququ da yox idi. Onun yaşadığı "Qırmızı kabus" rejimi dünya diktatura təcrübəsində ən qorxunc və dəhşətlisi idi» (7). Bu baxımdan, Şeyxin faciəsi daha böyük idi və bunu onun yaradıcılığından hiss etmək olur.

"Onun əldə olan əlyazmaları içərisində irili-xırdalı çoxlu şeir "Firdövsi", "On dördüncü il", "Yeddi qız" poemaları; "Dəli Arslan", "Tərlan", "İlan balası qənim olsun" adlı hekayələri şeirlə yazılmış felyetonları var. Bu şeir və felyetonların bir qismi 1920-30-cu illərdə Naxçıvanda nəşr olunan "Şərq qapısı" qəzetində dərc olunmuşdur" (6). Bütün bunlar, yəni siyahıda adıçəkilənlər hamısı qorunub saxlanılmışdır. Lakin aydındır ki, bunlar Şeyxin məqsəd və məramını ifadə etmək üçün çox azdır.

Onun imzasına ən çox "Şərq qapısı"nda rast gəlmək olur. Çünki 1924-1929-cu illərdə qəzetin redaktoru Cavidin bacısı Xurşidin oğlu Abbas Gülməmmədov imiş və ictimai sistemlə barışmış Şeyx Məhəmmədin tez-tez sosializmi vəsf edən şeirləri qəzetin səhifələrini bəzəyirmiş. Zamanın çərxində fırfıraya dönən Şeyx Məhəmməd şeirlərindən də göründüyü kimi, sistemin tərəfində idi. Bu dövr elə bir dövr idi ki, hər kəsə özünü ifadə etmək imkanı verilmişdi. Şeyx də yazdığı şeirlərində özünü ifadə edirdi.

Ümumiyyətlə, onun yaradıcılığına nəzər salanda yaradıcılığının iki istiqaməti diqqəti çəkir; birinci yaradıcılığının məsuldar hissəsi, jurnalistliyinin davamı sayılan "publisistik poeziya", ikincisi isə onun ruhunu daha doğruçu ifadə edən klassik ədəbiyyatla bağlı motivlər, tərcümələri. Göründüyü kimi, birinci xətti dövr diqtə edirdi. Şeyx Məhəmməd də bu axına qoşulanlardan idi, Cavidin tənqidçilər "niyə kolxozdan, traktordan, pambıqdan yazmırsan?"- deyərək üzünə bozaranda, Şeyx üzünü bu səmtə tutmuşdu. O, "Kolxoz naxırı qayıdarkən", "Yeni kadrolar", "Yeni dünya", "Pambıq nübarı" kimi şeirləri ilə sosializmi vəsf edirdi. Bir sözlə, onun yazdığı şeirlərində yaşadığı o qorxunc illərin diqtəsi ilə yazdığı dövranın "nəbzi" vurur. Bunları yazdıqca Şeyxin faciəli həyatına, onun yaşadıqlarına, bir imanlı, elmli ziyalının salındığı vəziyyətə min dəfə təəssüflənirsən. Ağlamaq lazımdır, ya gülmək? – Bilmirsən. Yazıq, "dövranın oyuncağı"na çevrilmiş Şeyx kimi iki yol ayrıcında qalırsan. Ürəyindən keçənlər dilinə, dilinə gələnlər vərəqlərə süzülür, "Bir şeyxi necə döndərib sosializmin vəsfçisinə çevirə bilmişlər? Onu nə şeyxliyindən, nə də vəsfçiliyindən yarımağa qoymamışlar" (4). Onun şeirləri oxuyanda "insan insanı əlində oyuncağa çevirən dövrana, zamana lənət oxumaya bilmir" (4).

Aydındır ki, Şeyx Məhəmməd əsl şairin və şeirin necə olduğunu bilirdi, amma dövran onun gözünü elə qorxutmuşdu ki, bildiyini, duyduğunu, istədiyini yaza bilmirdi. Düzdür, o zamanlar bu şeirləri yazan tək Şeyx Məhəmməd deyildi, adlı-sanlı, sonralar "Xalq şairi" adını almış şairlər də yazırdı və əminik ki, Şeyx onu da bilirdi ki, əsil ədəbiyyat onun yazdığı yox, "Yüksələn məhv olar, amma enməz" sözlərini özünə şüar edən qardaşı Cavidin yazdıqlarıdır. Amma dövrana baş əyməyənlərin aqibəti də göz önündə idi. Bunu da yaddan çıxarmaq olmaz ki, o, çoxlarının ölümü axtardığı, dirilərin ölülərə həsəd apardığı bir dövrdə yaşayırdı. Məhz bu səbəbdən «üzdəniraq sosialist inqilabına qədər "Şeyx" təxəllüsü ilə yaşayan və yaradan Şeyx Məhəmməd bu şərəfdən imtina etdi, çünki adının qarşısındakı «Şeyx» sözü bir çox həqiqətləri bəyan edirdi. Tehranda ali ruhani təh-

sili almasını, dini elmlərə dərindən bələd olmasını sübut edirdi. Bu ad sübut edirdi ki, o ali təhsilli ruhanidir. «Ədəbiyyatımızın Allahsızlığı ilə fəxr etdiyi, Allahın lağa qoyulduğu, Peyğəmbərin söyüldüyü 30-cu illər bizim ədəbiyyatda Allahsızlığın zirvəsi sayıla bilər. Bədii ədəbiyyatda Allahın da, Peyğəmbərin də yerini Stalin tutmuşdu. Gerçək həyatda da bu beləydi. Bu da millətin faciəsi idi» (5). «Allahsız» qurulmuş bu yeni cəmiyyətə Şeyx lazım deyildi», bu quruluşa mədhiyyəçilər lazımdı. Buna görə də adının yanından "Şeyx" sözünü ataraq, "əqidəsindən və məsləyindən" (6) uzaqlaşmaqla səhvini düzəldirdi Şeyx. Lakin bu səhvini düzəltmək yeni həyata başlayan gündən onun "yolunu işıqsız bir səhraya salır" (6).

Belə ki, Şeyx Məhəmməd bu səhvini düzəltməklə çox şey itirib, lakin itirdiyi ən böyük şey adının önündəki "Şeyx" kəlməsi olub, məncə. Amma bir tərəfdən də, düşünməyə bilmirsən; "Allahsızlar cəmiyyətində Şeyxin nə işi ola bilərdi" (5). Bir sözlə, "təhsilcə ruhani, sənətcə vaiz" olan Şeyxin mənəviyyatı ilə real həyat kəskin paradoks təşkil edir. Şeyx Məhəmmədin dönüb Məhəmməd Rasizadə olduğu andan onun faciəsi başlayır. "Əqidə və məramından uzaqlaşan Şeyx sovet nə istəyirsə, verir" (2, s. 460), amma "sovetdən" bir şey ala bilmir, necə deyərlər, ondan da olur, bundan da. Dövranın əlində oyuncağa dönən Şeyx Məhəmmədin "Gah maaşı gec verilir, gah iclaslara çağırılıb danlanır, təhqir olunur, əsassız yerə işdən azad olunur, bir sözlə, dövrandan "Şikayətnamə" yazmağa onun haqqı çatır. Bu gün əsassız yerə 1933-cü ildə işdən azad olunub, yazmaq asandır, halbuki o dövrdə bu əsas çox ciddi, qorxunc idi; Şeyx Məhəmməd tələbələr arasında təbliğat işini yaxşı aparmadığına, ola da bilsin ki, məqsədli, pozucu şəkildə apardığına görə siyasi ittihamla işdən azad edilmişdi" (2, s. 460).

Atası Şeyx Məhəmmədin təhsilini mollaxanada almasını istəmişdi, istəmişdi ki, o, haqq yolunun yolçusu olsun. Təəssüf ki, zaman Molla Abdullanın bu istəyinin yerinə yetirilməsinə imkan vermədi, çünki zamanın çərxi tərsinə fırlanırdı və Şeyxə faciəsini yaşadırdı. Qardaşı Cavid əqidəsi və məsləyi uğrunda mübarizə aparanda, "böyük gələcək üçün bütün yaratdıqlarına nakam ömürləri bahasına əbədiyyət verərkən" (2, s. 475) o, ideolojinin istədiyini söyləyərək həyatını xilas etmişdi ki, bu da onun faciəsi idi. Çünki onlar "həm sovetin istədiyini dedilər, həm də ondan yarımadılar və sonucda ikiqat itirdilər"(2, s. 475). Bu baxımdan Şeyx Məhəmməd çox şey itirdi. O, Şeyx paltarını sovet müəllimi paltarına dəyişib, sovet şapkası qoysa da, bunlar onu bədxahların əməlindən uzaq tuta bilmədi.

Aydındır, hər kəs Cavidin yolunu seçə bilməz, hər kəs Cavidləşə bilməzdi bu qorxunc zamanda. Cavid bu qorxunc zamanı "Hey fələk, keçdi zaman dalğa kibi, öylə qorxunc, öylə bir əsəbi ki…" deyə ifadə edirdi. Bu dalğa kibi, qorxunc, əsəbi illərdə Şeyxin başı çox bəlalar çəkib. Onun böyük qızı Zəhranı əri Məşədi İsmayılla birlikdə uzaq Qazaxıstana sürgün ediblər. Qardaşı "xalq düşməni" elan olunub. Təbii ki, Şeyx tez-tez HKVD-yə çağrılıb, dindirilib. Bu da onu çox sındırıb. Deyirlər; "İgidi öldür, amma sındırma". Amma Şeyxin zamanında igidi nəinki öldürürdülər, öldürməmiş-

dən əvvəl mütləq sındırır, sonra öldürürdülər. Şeyxin qızı Rəna xanımla söhbətimiz zamanı o, anasının dilindən dedi: "Anam deyirdi ki, kişini heç ağlayan görməmişdim, amma sonralar tez-tez ağlayırdı". Bu ağlamalar sözsüz ki, Şeyxin gözünün qarşısında 13 yaşlı qızı Nəzifənin dünyasını dəyişməsi, öz əli ilə qızını kəfənləyib torpağa verməsi, siyasi dustağın qardaşı kimi işdən çıxarılması, övladlarının təqaüdlərinin kəsilməsi, ən ümdəsi isə, canla-başla qulluq etdiyi "sovet"in ona inamsızlığı, ən başlıcası isə sındırılan qüruru üçündü. Demək olar ki, bütün bunlar onu ən ağır xəstəliyə, xərçəngə düçar etdi. Bunu "əmim Cavidin tutulmasından sonra atamın çəkdikləri hələ də ürəyimi ağrıdır" – deyə Şeyxin qızı da təsdiqləyir; "əmimin həbsindən sonra atamı tez-tez yığıncaqlara dəvət edirdilər. Ya ona da söz verib «xalq düşməni" qardaşı haqqında danışmasını, ya da danışanları axıradək dinləməsini istəyirmişlər. Atam bu yığıncaqlardan çox qanıqara evə dönər, ən başdakı otağa keçər, ürəyini vərəqlərə, misralara tökürdü. Lakin yazdıqlarını da saxlamazdı, yandırıb külünü tökürdü Bazar çayına".

Rəna xanım çox şeylərin şahidi olub və unuda bilmədiyi şeylər də çoxdur. Atasının səhəri dirigözlü açdığı gecələri, hər keçirdiyi gecədən sonra əlini göyə qaldırıb "Şükür, bu gecə də gəlmədilər" – deyə keçirdiyi narahatlıqları. Bu günədək atasının nələr çəkdiyini və çəkdiyi dərdlərdən xəstəlik tapdığını bu yaşlı qadın böyük qüssə ilə xatırlayırdı.

Şeyx Məhəmməd Cavidin qardaşı idi. O, ölənə qədər qəlbində, canında Cavid adıyla böyük bir qürur gəzdirirdi, lakin bununla yanaşı, o, həm də bu adın ona, onun övladlarına gətirə biləcək faciələri də görürdü.

Şeyx Məhəmməd Rasizadənin ədəbi irsi Hüseyn Cavidin Bakıda və Naxçıvandakı xatirə muzeylərində saxlanılır. Təəssüf ki, o, yaradıcılığının böyük bir qisminin zəmanənin hökmü ilə məhv etmişdir. Bu gün onun sovetlərə sevgi və sədaqətini təsdiq edən "sovet gerçəkliyinin hay-küylü tərənnümündən" bəhs edən şeirləri qalıb. Heyif ki, qəzəlləri və digər şeirləri günümüzədək gəlib çatmamışdır.

## ƏDƏBİYYAT


1. Cavidi xatırlarkən. Bakı: Gənclik, 1982, 388 s.
2. Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007, 839 s.
3. Turan A. Rasizadə. Tahir Rasizadə. Bakı: Vektor, 2005, 94 s.
4. Hüseynov R. Cavidin şair qardaşı // AMEA Xəbərləri, 1998, № 1-2.
5. Nəbioğlu V. Azərbaycan.Yalanlar, həqiqətlər // 1992, № 5-6, s. 172-173.
6. Rasizadə H. Şeyx Məhəmməd Rasizadə və ya atam haqqında xatirimdə qalanlar. "Iki sahil" qəz., 3 iyul 1997.
7. Haşımova S. Şeyx Məhəmmədinin şəxsiyyəti və irsi. "Elm" qəz., 25 may, 1999, № 11-12.

**Лутвийе Аскерзаде**

## СУДЬБА И ТВОРЧЕСТВО ШЕЙХ МУХАММЕДА РАСИЗАДЕ

В статье исследуется судьба и творчество Шейх Мухаммеда Расизаде и следовательно изучается период превращение имя его к «воспевателем социализма».

При исследовании выявлены, что большинство рукописей своего творчества уничтожены руками самого Шейха. А дошедшие нам творчества этого писателя можно исследовать из двух направлений. К первому направлению можно относить его публицистические поэзии, которые написаны под диктовкой существующего периода. А второму направлению можно относить те группы творчества писателя, которые отражают духовный мир самого Шейха, связан-ными с классической литературой. Сюда можно входить и его переводы.

При исследовании автором выявлено, что судьба и творчество Шейх Мухаммеда Расизаде отличается со своими самобытностями и еще до конца не исследованы.

**Lutviyya Asgerzade**

## SHEYKH MUHAMMED'S RASIZADA'S FATE AND CREATIVE ACTIVITY

Sheykh Muhammed's life and creative activity is investigated in the article. His surviving works may be investigated in two directions. The first direction is characterized by the publicistik poetry direced by the period. The second direction involves the Sheykh's works connected with his spiritual world and the classical literature.

The author comes to conclusion that the fate and creative activity of Sheyk Muhammed are characterized by specific features and his life and literary activity have not been investigated properly.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.d., prof. M.Cəfərli.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**RAMİZ QASIMOV**
AMEA Naxçıvan Bölməsi

# CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA "KİÇİK" ADAM OBRAZLARININ DÜŞDÜYÜ SOSİAL ZÜLM VƏ İCTİMAİ ƏDALƏTSİZLİK PROBLEMLƏRİ

Mirzə Cəlilin zülmə və şərə qarşı yazılmış, zülmün intəhasızlığını , sadə "kiçik" adamların gördüyü sitəmlərin intəhasızlığını göstərən əsərləri sırasında "Xanın təsbehi", "Yan tütəyi" əsərlərinin, "Şeytana cavab" adlı felyetonunun xüsusi bədii çəkisi vardır. Ədib öz əsərlərində , öz realizmində zülm və idarəçilik üsullarını çox vaxt simvollaşdırır. Bu, eyni zamanda, Şərq aləmində , Mirzə Cəlilin təsvir etdiyi bədii məkanda zülmün ucuzluğu və idarəçiliyin primitivliyinə olan münasibət və rəy yaradır. "Əhvalatlarda" "zoğal dəyənəyi", "Danabaş kəndinin müəllimi" və "Dəli yığıncağı"nda "şallaq", "Xanın təsbehi"ndə isə "təsbeh" bu baxımdan simvollaşmış, zülmün və inzibati idarəçəliyin simvoluna çevrilmiş bədii üsullardır, "fərdi terror vasitələridirlər" (Y.Qarayev) .

"Xanın təsbehi"ndə təsvir olunan Qaradağ mahalı tipik zülm ocaqlarından biridir. Amma bu zülm də müxtəlif cür, müxtəlif növ, müxtəlif formalarda olur ki, Qaradağ mahalında, Gərmə-çataq kəndində bunların hamısı – zülmün bütün növbənövlüyü ilə vardır. Elə birincisi "xanların arasında neçə ildə bir dəfə vaqe olan toqquşma nəticəsində kənd əhalisi macal tapa bilmir öz məişətini elə hala gətirsin ki, asudəlikdə belə gözəl yerdə rahat yaşaya bilsin . Bir tərəfdən də neçə il bundan qabaq orda üz verən yatalaq azarı va aclığın səbəbindən camaatın yarısı və bəlkə də yarısından çoxu qırılıb qurtarıbdır. Odur ki, çox yerlərdə boş və sahibsiz evlər, qapı və pəncərəsiz binalar gözə sataşmaqdadır " (2, s. 232). Zülm və sadə adamlara etinasızlıq bu kənddəki həyatı iflic vəziyyətinə salıb. Gərmə-çataq kəndində sahibsizlik və xanların zülmü nəticəsində kənd adamsız, camaat güzəransız qalıb, nə açılan bir qapı, nə baxılan bir pəncərə var bu kənddə. Qaradağda baş verən zülm elə bir zülm, elə bir sitəmdir ki, "dünyada zülm və incitmək ibarət imiş Qaradağda xan fərraşlarının rəiyyət barəsində tutduqları rəftarlarından" (2, s. 233): "Sübh tezdən yuxudan oyanan kimi eşidirdik ki, rəiyyətin birinin evindən qilü-qal səsi gəlir. Məlum olardı ki, fərraş Əli Cəfər xanın evi üçün Kərbəlayı Musadan iki girvənkə yağ istəyir. Kişi evdə yoxdur. Arvad and içir ki, yağ yoxdur. Fərraş Əli Cəfər arvadı söyüb-ya-

manlayandan sonra qayıdıb gedir və dübarə qayıdıb xanın təsbehini gətirir. Di çarə yox, yer deşiyindən də olmuş olsa Kərbəlayı Musanın arvadı yağı tapıb fərraşı yola salır " (2, s. 233-234). Ədib təkcə zülm və zülmkarlığı göstərmir, həm də zülmün yaranmasına səbəb olan, zalımlığın meydan sulayıb at oynatmasına səbəb olan şəraiti də göstərir və bir-bir incələyir. Nəzərəli xan İkramüddövlənin əməli və görünüşü arasındakı təzadı araşdırır, nəticəni hasil edir: ən maraqlısı, ən qəribəsi budur ki, "Nəzərəli xan İkramüddövlə Qaradağ xanlarının ən insaniyyətli və ən tərbiyəli xanlarından hesab olunardı və xanın rəiyyətlərini danışdıranda da bir kəs tapıla bilməz ki, xandan bir zərrə qədər incimiş olsun.

Bununla bərabər xanın rəiyyətlərinə nisbət rəftarına baxanda, bizim kimilərə baxanda çox qəribə gəlirdi: Bir nəzər ilə baxanda haman rəftar başdan ayağa kimi zülm və sitəmdən ibarət idi. Amma bir tərəfə baxanda burada nə bir zülm, nə bir sitəm görsənirdi. Bir surətdə də ki, hələ bəlkə demək olar ki, rəiyyətlər asudə istirahətlə dolanırdılar" (2, s. 233). Bu qəribəlik və təzad özü həmin sosial mühit, şərait haqqında xeyli söz deyir. Zülmü əskik olmayan, zülmündən yer-göy inləyən zalımdan narazı olmayan mühitin özü bu qəribəliyin birincisidir. Ən qatı zalımla zülmə məruz qalmışların arasındakı bu münasibət, fikrimizcə, ilkin növbədə sosial mühitin, insanların o qədər avam, sadəlövh, üzüyola olmalarındandır ki, "dost və düşmənlərini tanıya bilmirlər". Nəzərəli xan kimi "zülm atasını" xalq içərisində göstərdiyi gülər üzə, sakit təbiətə görə çaş düşüb tanıya bilməyiblər. Onlar zülm törətməkdə Nəzərəli xanı yox, onun fərraşlarını günahkar və səbəbkar bilirlər. Çünki zülmə uğramışların qapısını döyən məhz həmin dərdə düçar etməkdə, çörəyinə baiskar olmaqda onlar birbaşa səbəbkardırlar. Ədib ictimai-inzibati idarə üsuluna da xüsusi nəzər yetirir: "Məmləkətdə bir müəyyən qanun görsənmirdi. Hökumətə oxşar bir idarə yox idi. Məmləkət həmin İkramiddövlədən başqa heç bir qeyri-hökumət tanımırdı.Təbrizdən və Tehrandan bir xəbər və əlaqə yox və Nəzərəli xan hər bir kəsi asıb-kəsə də bilərdi, əfv edib hər bir bəndənin ömrünü ona bağışlaya da bilərdi. Məhkəmə də özü idi, qəzavat da özü idi, şəriət də özü idi " (2, s. 233). Bu deyilənlərə əsasən Nəzərəli xan İkramiddövlə Gərməçataq kəndinin "Allah" idi. Dövlətçilik, hakimiyyətçilik, mütləqiyyətçilik hamısı bir nəfərin əlində toplanmış, onun kefi üzərində qu-rulmuşdu. Bu deyilən şəraitdə bütün bu yerin idarəçılıyı də onun kefindən asılı idi, "istəsə asıb-kəsə, istəsə əfv edə bilərdi". Ədibin: "Xan özü də çox xoşxasiyyət nəzərə gəlirdi ki, rəiyyətlərlə bunun arasında heç bir saxtalıq, bədməcazlıq mən görmədim" ifadəsinin əsil satirik məzmunu "Məhkəmə də özü idi, qəzavat da özü idi, şəriət də özü idi", "dünyada zülm və incitmək ibarət imiş Qaradağda xan fərraşlarının rəiyyət barəsində tutduqları rəftardan" ifadələrilə təzadlı münasibət və qarşılaşmasından sonra açılır. Xanın "xoşxasiyyəti" səbəbindəndir ki, fərraşlar rəiyyət qapısını əzrayıl kimi, cəllad kimi kəsir, onsuz da var-yoxdan məhrum, acından ölən yetim-yesir, dul-qoca, imkanlı-imkansız bilmədən "ver!", – deyə insanları təhdid edir, olan-olma-

yan yerin deşiyindən də olmalı olsa tapdırır, alıb, çalıb aparırlar. Gərmə-çataqdakı zülm və sitəm faktları , ədibin bədii məntiqi ilə birləşib, Nəzərəli xanın "xoşxasiyyətinin" məntiqi nəticəsi kimi ortaya çıxır. Belə "xam" yerdə "təsbehlə" sadə idarə etmək üsulunun olması da tam məntiqi nəticə və təbii qanunauyğunluq idi. İkramiddövlə hətta belə bir qanun qoymuşdu: "əgər rəiyyət verdi, verib, əgər vermədi, fərraş bir-iki şallaq çəkib qayıdırdı xanın üstünə və ikinci dəfə xanın təsbehini gətirərdi. Bu dəfə əgər o hökmə əməl olundu, olunub, olunmadı, dəxi fərraş ixtiyar sahibidir; yəni o qədər ixtiyar sahibidir ki, əgər xəncərin çıxarıb "yox" deyənin boynunu vursa, dəxi bilmirəm nə olar və yəqin də heç bir şey olmaz" (2, s. 234). Ədibin işarə etdiyi idarəçilik üsulunun əsil adı, ədibin özü dediyi kimi, "mütləqiyyətdir", "Şərq istibdadıdır", ayrı-ayrı şəxslərin kefləri üzərində qurulmuş idarəçılık və inzibatçılıq förmasıdır. Elə "Millət" adlı felyetonunda da ədib bu məqsədlə bu məsələ barəsində yazacaqdı ki, "... məhz bu səbəbdəndir ki, bizdə millət qurğuları şəxsi qurğular şəklində zühura gəlir, milli işlərimiz əvəzinə şəxsi dəstgahlar peyda olur. ...özümüz üçün bir azadlıq binagüzarlığı istəmişik eləyək – özümüzə öz içimizdən bir şəxsi sultan qərar vermişik və o sultandan izn hasil olmamış dinməyə və danışmağa ixtiyarımız olmayıb və bunun adını qoymuşuq azadlıq. ...o ki qaldı millət, – o da kənardan qalıb baxa-baxa; çünki kənardan baxmağa min illərlə adət edib" (3, s. 225 ). Gərmə-çataqdakı bu mövcud "idarəçilik mexanizminin ağırlığı" yetimlər anası, dul , yoxsul bir qadın olan Pəri arvadın da çiyinləri üzərinə düşür və eyni zamanda bu "vəhşi" xarakterli idarəçilik yoxsul Pəri arvaddan da bir şey istəməyə gəlir: Nəzərəli xanın vəziri Mirzə Sadıq Münşinin Pəri arvada "Allah-taala göstərdiyi yol ilə " siğə olunmaq təklifi Pəri arvadı elə bil ilan kimi sancır, abrından və ismətindən arvad dik atılır: "Mirzə Sadığın ağzından bu söz bəlkə hələ çıxıb qurtarmamışdı Pəri arvad elə atıldı geriyə, guya ayaqlarına od basdılar:

– Molla Sadıq Münşi, Molla Sadıq Münşi! O sözü danışma, o sözü danışma, o sözü danışma!..

Vaqeən Pəri arvad bu sözləri elə bir əl-qol ata-ata dedi ki, mən dik atıldım, istədim qaçam" (2, s. 235). İsmətinə , abrına boğulmuş Pəri arvadın bu hərəkəti namus və qeyrət düşkünü Zeynəb ananın Xudayara qarşı ultimatiumunu, üsyankarlıq və etirazını xatırladır. Abrından od alan Pəri arvad "dik atılanda" "xanın təsbehini" belə unutmuşdu. Namusa sədaqət hissi Pəri arvada Mirzə Münşinin vəzirliyini də unutdurmuşdu. Xanın təsbehi görünəndə Pəri arvad öz hesabını aparmış, etirazın ona nə bahasına başa gələcəyini bilmişdi. Bu təsbeh ki Nəzərəli xanın təsbehi idi, bu təsbeh o təsbeh idi ki, "... iki il bundan qabaq xanın fərmayişinə ağ olan dəyirmançı Mehdini ... qayadan dərəyə elə tulladı ki, uşaqları heç ölüsünü də tapmadılar. Bu haman təsbehdir ki, Orucəlinin evini yandırdı, uşaqlarını çölə dağıtdı" (2, s. 235). Bu sözləri eşidən dağ-daş belə aradan götürülərdi, nəinki yetim-yesir sahibi, dul bir qadın olan Pəri arvad. Allahdan başqa bir kimsənəsi olmayan Pəri arvad "Allah uzaq, fərraş yaxın" arşını ilə ölçüsünü

aparmış, ayaq altında əzilib canını tapşırmaqdan, rüsvay-caiz olmaqdan, uşaqlarını başsız qoymaqdan qorxmuşdu. Namusu, könlü istəməsə də, "Allahın göstərdiyi yol"la getməyə çar-naçar razı qalmışdı. Allahın da gücsüz qaldığı bu mühitdə Pəri arvadlar üçün zülmə boyun əyməkdən , zalımla barışmaqdan savayı çıxış yolu, çarə yeri yox idi. Yoxsulun və sahibsizin irz, namusuna təcavüzə qədər ayaq açan istibdad və zülm ixtiyarı yoxsul, avam, üzüyola və iradəsiz məzlum insanların xamlığı sayəsində at oynatmağa ixtiyar qazanır və cövlan edirdi. Bu baxımdan "ədib islam pərdəsi altında xalqı soyan, çapıb-talayan, ...heysiyyətinə toxunan" "istibdad mikroblarının" "bəd əməllərini pisləyirdi" (1, s. 296) Hökumətin, qanunun, idarəçiliyin olmadığı belə mühitdə qanun xanların, fərraşların keflərinin nə istəməsi, kef havaları ilə müəyyənləşən qanun idi, inzibati idarəçilik xanların və fərraşların kefləri necə istədi elədikləri idi, hökumət də məhz xanların və fərraşların iradəsindən asılı, kefləri istəyən idi. Ən pisi də bu idi ki, ədib özü demişkən , xalq da bu idarəçiliyə "min illərlə alışmış", öyrənmiş, adətkar olmuşdu. Gərmə-çataq kəndinin camaatı da elə bu məmur kefinin güdazına gedərək "yan tütəyi" axtarmaq dərdinə mübtəla olmuş, heç nədən zülm çəkməli olmuşdu. "Hökm. ...kazak qoşunun böyük əfsəri polkovnik Afanasyevin müziri-şəriflərinə əlli dörd dənə yan tütəyi (fleyta) camaatdan yığıb göndərəsən, ...haman yan tütəklərinə minib Kəvakir kəndinə yaylağa gedəcəklər və məbada-məbada bu işi təxirə salasan ki, məsuliyyət attına düşəsən, vəssalam.

İrəvan qəza naçalniki Petrov".

Bu hökm özü başdan-başa tragikomik bir bədii ünüsürdür, hakimiyyətin əhlikeflilik və başdanxarablıq sübutudur (və ya sosial-siyasi patologiyanın diaqnostik epiqrizidir). Bir kimsə niyə düşünməyib, cəsarət etməyib ki, axı rus kazaklarının nəyinə lazımdır yan tütəyi və onu necə minmək olar: "...yüzbaşı və kənd mirzəsi ki, camaat içində hamıdan çoxbilən imişlər, camaatı başa salırlar ki, yəqin qoşunların musuqi dəstəsinin çalğılarının xərcini hökumət istəyir kənd camaatının öhdəsinə qoysun" (2, s. 258). Bizim diqqətimizi burda bir məsələ xüsusilə çəkir, belə ki, "istibdad bayquşunun dəyənəkləri" olan yerli məmurlar – yüzbaşı və kənd mirzəsinin gəldiyi qənaət və davranış formaları bilavasitə xalqı zülmdən zülmə düçar edən əsas səbəb kimi daha çox nəzərə çarpır. "Fikri tütəyinin yanında olan" çar çinovnikinin göndərdiyi yanlış məzmunlu rəsmi məktubu "öz dayaz ağılları və şallaqlarının gücü" ilə başa gətirməyə çalışmaqla heç nədən xalqı dərdə salır, zülm içində boğur, işdən iş çıxartmaqla əzab çəkdirirlər. Çünki xalqa olmazı yerin deşiyindən də olsa tapdırmağa vadar edən bu "canlı şallaqlar" dayaz ağılları ilə inzibati gücdən bəhrələnməklə zülmə güc verirlər. Deməli, istibdadçı çar siyasətinin zülmü birdirsə, ağılsız, qorxaq, mazoxist yerli məmurların zülmü mindir.

Zülmün elə bir forması, elə bir dərinlik dərəcəsi yoxdur ki, ədibin qayğılarına qaldığı zavallı, məzlum insanlar məruz qalmasınlar və harın, əhlikef ağaların, əlidəyənəkli fərraşların sitəmindən inildəməsinlər. "Şeyta-

na cavab" adlı məşhur felyetonunda ədib kişili-qadınlı insanların necə ağır zülmə məruz qaldıqlarını belə təsvir edir: "Yadındadırmı (Şeytana müraciət edilir – R.Q.) bir dəfə Rəştin hakimi "Lotu Mehdi"gildə qonaq idi, adam göndərib Zeynəb adlı bir dul övrəti gətirdilər, sonra bu övrətin qardaşı da gəldi, sonra genə bir neçə övrət gəldi, axırı bilmirəm noldu" (3, s. 102). Ədibin təsvirindən, mətləbi ifadə məntiqindən və qələm ustalığından tutmamaq mümkün deyil ki, dul Zeynəb arvadın və digər qadınların Lotu Mehdigilə çağırılması ədibin həmişə kəskin tənqid etdiyi, əxlaqsızlıq kimi dəyərləndirdiyi sırf "siğə" məsələsilə bağlı idi. Ədibin lotu adlandırdığı Mehdi də, Rəşt hakimi də lotuluğun tipik obrazı olan Şeyx Nəsrullahdan geri qalmayan, hələ bəlkə onun protoobrazlarıdırlar. Biz ədibin, demək olar, bütün yaradıcılığında "siğə" məsələsilə insanların "başını piyləyib" özləri üçün şəhvət öldürən pozğun, namus, irz, din düşməni "şəriət və əxlaq lotularının" iyrənc əmllərilə tanış olmuşuq. İstər "Ölülər", istərsə də "Dəli yığıncağı", "Ər" əsərlərində şəriəti əxlaqsızlığa çevirən, dini qaydaları şəhvani mənafe ilə əyən "günün günorta çağının lotuları" ilə açıqdan-açığa tanış oluruq. Sosial nüfuzu əxlaqsızlıq və tərbiyəsizlik yaratmağa həsr edən "oğraşlığa uğramış", alçaqlığın ən alçağını etməkdən Allahdan, dindən, insandan utanmayan Lotu Mehdi kimi "əxlaqsızlar və oğraşlar atasına" ədib öz nifrət və qəzəbini namusu, ismətilə qeyrət nümunəsi göstərən, "şallaq altında əzilməkdən qorxmayaraq zülmkara boyun əyməyən namus və irz mücəssəməsi" Zeynəb arvadın çəkdiyi zülmdə ifadə etdirir: "...orası yadımdadır ki, Zeynəb övrəti və qardaşı Kərbəlayı Novruzu mollanın həyətində yıxdılar yerə və bacı ilə qardaşın ayaqlarını qoydular falaqqaya, yazıq övrətin çılpaq qıçlarına boynuyoğun kişilər yaş şıvkələrlə çırpırdılar, molla və hakimi-vilayət durub tamaşa edirdilər və gülürdülər və sən də gülürdün, şeytan qardaş" (3, s. 102). "BU ZÜLM YERDƏ QALARMI?" – ədibin bütün hissi və düşüncəsilə sanki bütün oxucularına vermək istədiyi, gətirmək istədiyi qənaət bundan ibarətdir. Axı nə vaxta qədər belə zorbazorluqlar, belə zülmlər davam edəcək, sadə, gücsüz, məzlum, iş yolu bilməyən avam insanlar bu sitəmlərə dözəcəklər? İstər-istəməz bədii fakt adama ilk növbədə bu sualları aşılayır, belə zülm, sitəm faktları əsasında dövrə, zamana, ictimai quruluş və haqsız, əxlaqsız hakimlərə qarşı kəskin nifrət yaradır, onu məhv etmək fikirləri ortaya qoyur.

Mətndən də göründüyü kimi, Zeynəb arvadın mollanın həyətində döyülməsi onun siğə olunmaq niyyətilə çağırılmasının izahı ola bildiyi kimi, artıq dini-şəri idarəçiliyin – ruhani hakimiyyətinin də xalqa, "xırda" adamların mənafeyinə heç bir qərar verə bilmək imkanında ola bilməməsinə, ağır bir zülm daşı kimi başlarına düşüb qan qusdurdurmasını təsdiqləyir və sonunun çatdığını elan edir. Biz başqa əsərlərdə də, xüsusilə, "Danabaş kəndinin əhvalatları"ndakı Zeynəb ananın və "Xanın təsbehi"ndəki Pəri arvadın timsalında da bu qadınları "siğə-kəbin" məqsədindən nə qədər zülm, işgəncə, hər cür təhdid və rüsvayçılığa məruz qaldıqlarının şahidi oluruq. Bu mənada taleləri bir-birinə oxşayan bu kimsəsiz, dul qadınların çəkdik-

ləri zülm və yaşadıqları faciələr timsalında ədibin məhkəmə qurub zəmanəni, bilavasitə bu faciələrə səbəb olan əmmaməli lotuları və qarnıyoğun, zırrama hakimləri ittiham etməsi onlara ÖLÜM FƏRMANI oxuyur. Bütün bu motivlərə görə: "...ictimai quruluşun eybəcərliyini, qoluzorluların hakimiyyət qudurğanlığını, qlava, katda, yasovul və qazıların əlbir olub kəndlinin namusuna, mal-mülkünə təcavüz etməsini, kəndli şüurunu zəhərləməsini, ...hakim təbəqə pozğunluğunun ictimai-siyasi və mənəvi köklərini güzgü kimi aydın göstərən, zülm siyasətinə arxalanan quruluşu iti qılınc kimi kəsən" əsərlərilə C.Məmmədquluzadə "XX əsr ədəbiyyatımızın sütunlarından birini təşkil edir" (4, s. 254).

## ƏDƏBİYYAT


1. Həbibbəyli İsa. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr,1990, 684 s.
2. Məmmədquluzadə Cəlil. Əsərləri. 4 clddə, I c. (Tərtib edən və on sözün müəllifi akad. İ. Həbibbəylidir). Bakı: Öndər, 2004, 664 s.
3. Məmmədquluzadə Cəlil. Əsərləri. 4 cilddə, II c. (Tərtib edən və on sözün müəllifi akad. İ. Həbibbəylidir) Bakı: Öndər, 2004, 584 s.
4. Mir Cəlal, Xəlilov Pənah. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1988, 254 s.



**Ramiz Кasumov**


## ПРОБЛЕМЫ ОБРАЗОВ «МАЛЕНЬКОГО» ЧЕЛОВЕКА ПОДВЕРГНУТЫМИ СОЦИАЛЬНЫМ НЕСПРАВЕДЛИВОСТЯМ И УГНЕТЕНИЯМ В ТВОРЧЕСТВЕ ДЖАЛИЛ МАМЕДКУЛУЗАДЕ


В статье говорится о социальной жестокости и несправедливости, оскорбляющих человеческих прав образов «маленького» человека, составляющая основную идейно-эстетичискую важность творчества Мирза Джалила.

В таких произведениях как «Тесбех хана», «Флейта», «Ответ сатане» критикуются жестокие и насильственные действия, угрожающие жизни беззащитных и простых людей и отражаются идеи борьбы против них.

**Ramiz Qasimov**

## THE IMAGES OF “LITTLE” MAN IN JALIL MAMMADQULUZADA’Z WORKS AND THE PROBLEMS CONNECTED WITH THEIR UNDERGOING SOCIAL INJUSTICE AND CRUELTY

The article deals with the images of “little” man in Jalil Mammadquluzada’z works and the problems connected with their undergoing social injustice and cruelty which proves to be the main goal in the esthetic views of Jalil Mammadquluzada.

In such works as “tasbehkhana”, “Flute” and “The answer to the Satan” the social injustice is criticized.

***Rəyçilər: Filologiya e.d., prof. M.Cəfərli, filologiya e.n. L.Əsgərzadə.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**FƏXRƏDDİN EYLAZOV**
AMEA Naxçıvan Bölməsi

# AMEA NAXÇIVAN BÖLMƏSİ ƏLYAZMALAR FONDUNDA SAXLANILAN NAXÇIVANLI MÜƏLLİFLƏRİN ƏLYAZMALARINA BİR BAXIŞ

Azərbaycan xalqı min illərlə ölçüyə, qiymətə sığmayan böyük mənəvi sərvət yaratmışdır ki, bugünkü və gələcək nəsillərin duyğu və düşüncəsinin, dünyagörüşünün formalaşması üçün ən əhəmiyyətli vasitələrdən biridir.

Bədii ifadə ilə belə bir deyiliş vardır ki, memarlıq abidələri bəşər mədəniyyətini nəsillərdən-nəsillərə sözsüz, kitablar isə sözlə ötürür. Dünyanın bütün xalqları bəşər dühasının yaratdığı əsas sərvəti yazılarda qoruyub saxlamış, bunu min illərlə əl ilə kağızdan-kağıza köçürərək, bugünkü nəsillərə gətirib çatdırmışdır. Dünyanın qədim mədəniyyət ocaqlarından biri olan Azərbaycanda da bu yolla yaranmış minlərlə əlyazma Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

Təməli ümummilli liderimiz H.Əliyev tərəfindən qoyulan AMEA Naxçıvan Bölməsi və onun tərkib hissəsi olan Əlyazmalar Fondu bu ənənəni davam etdirmiş və qısa zaman kəsiyində Fondun profilinə uyğun 269 adda əlyazma toplaya bilmişdir. Toplanılan əlyazmalar arasında Naxçıvanın tarixi və mədəniyyəti ilə bağlı bir sıra tədqiq olunmamış əlyazma, qədim kitab və məktublar daxildir ki, bunlardan Mirzə Məhəmməd Haşim ibn Müseyib Naxçıvaninin və Məhəmməd Həsən Ordubadinin əsərlərini göstərmək olar.

Müəlliflər barədə əlimizdə az qaynaq olduğundan onların həyatı barədə dəqiq məlumat vermək mümkün olmamışdır. Əsərlərin sonunda göstərilən tarixdən (hicri qəməri 1226 (1805)) və möhrdən bu qənaətə gəlmək mümkündür ki, Mirzə Məhəmməd Haşim ibn Müseyib Naçıvani XVII əsrinin ikinci yarısı, XVIII əsrin əvvəllərində yaşamış, dövrünün yaradıcı simalarından biri olmuşdur.

M.H.Naxçıvaninin Fondda saxlanılan əsərinin adı Həqaiqi-əl-tarix olduğu ehtimal olunur. Əsərin əvvəlində bir qədər düşdüyündən onun adını dəqiq müəyyən etmək çətindir. Əsər mövzu etibari ilə islam tarixini əhatə edir. Ərəb-fars dilində yazılmış bu əsərdə Şərq paqinasiya (vərəqləmə) üsuluna tam əməl olunmuş, yəni sonrakı vərəqin ilk sözü əvvəlki vərəqin aşağı

hissəsində yazılmışdır (bu cür vərəqləmə üsulu "kustod" adlanır) (1, s. 64). Mövcud əsərin həcmi 338 vərəq, mətnin yazılı hissə 23x13sm, vərəqin ölçüsü 28x20sm, hər səhifədəki sətrin sayı 23-ə bərabərdir.

Kitab 20 məclisdən ibarətdir. Başlıqlar qırmızı rənglə verilmiş, aşağısından xətt çəkilmişdir (2, s. 13). Nümunənin başlıqlarının tərcüməsi davam etdirilməkdədir. Bu haqda ətraflı məlumat digər məqalədə veriləcəkdir. İkinci əsərin daha maraqlı yönləri vardır. Araşdırmalardan bu nəticəyə gəlmək mümkündür ki, əsər hicri-qəməri 1281 (1860) tarixində yazılmışdır. Əsərin müəllifi Məhəmməd Həsən Ordubadinin Naxçıvanın dilbər guşələrindən biri olan Ordubad şəhərindən olduğu aşkarlanmışdır. Əsərin sonunda göstərilən tarixə əsasən Məhəmməd Həsən Ordubadinin XIX əsrin birinci yarısında, təqribən 1810-1860-cı illərdə yaşadığını və fəaliyyət göstərdiyini təxmin etmək olar. O bir alim, maarifpərvər ziyalı kimi öz dövrünün görkəmli şəxsiyyətlərindən biri olmuşdur. M.H.Ordubadi şərq dillərini öyrənmiş və bir sıra nəzər sahibləri ilə fikir mübadiləsi etmişdir. Müəllifin əlimizdə olan ərəb dilli, həcmi 73 səhifə, ümumi ölçüsü 21x15.5 sm, mətnin ölçüsü 14x8.5 sm, nəstəliq xətti ilə yazılmış bir əsəri əlyazma şəklində əlimizə gəlib çatmışdır. Əsərin həm əvvəlindən, həm də sonundan bir hissəsinin düşməsi səbəbindən onun adını müəyyən etmək mümkün olmamışdır. Eləcə də bu səbəbdən əsər bütöv deyil. Bununla belə müəllifin astrologiyadan (göy və səma cisimlərindən) bəhs edən bu əsəri istər öz dövrü üçün, istərsə də özündən sonrakı dövrlər və bu gün üçün əhəmiyyətli xarakter kəsb etməkdədir. Əsərin müqəddiməsindəki açıqlamadan məlum olur ki, həmin dövrdə Ordubad şəhərində Əl-Həqiqət adlı məşhur elm mərkəzi olmuşdur. Məhəmməd Həsən Ordubadi bu mərkəzin ən görkəmli aparıcı simalarından biri kimi fəaliyyət göstərmişdir. Tərtib olunmuş bu əsər isə həmin elm mərkəzində, təlim və tədris vasitəsi kimi nəzədə tutulmuşdur. Əsər mövzu baxımından dəqiq və hümanitar elmləri əhatə edərək Astronomiya, Həndəsi fiqurların fəza nəzəriyyəsi, Riyaziyyat və Coğrafiyanın müxtəlif sahələrinə aiddir. Müəllif müqəddimədə özündən əvvəl və dövrünün bir neçə aliminin adını çəkmiş, Ömər Xəyyam, Sufi Əbdulrəhman, Bəhmənyar, Əbu Əli Sina, Ptolomey və onların nəzəriyyələrinin qarşılıqlı təhlilindən bəhs etmiş, həmçinin özünün bu nəzəriyyələrə münasibətini bildirməklə obyektiv nəticə çıxarmağa çalışmışdır.

Əsər iki əsas bölmədən ibarətdir. Hər bir bölmənin müqəddiməsində məqalənin nədən bəhs etdiyi və neçə fəsildən ibarət olduğu açıqlanmışdır. Həmin məqalələrin müqəddiməsinin qısa məzmunu aşağıdakı kimidir.

Birinci məqalə: Kainatın quruluşu, göy cisimlərinin daxili və müstəvi hərəkətləri, ulduzlar barəsində bilgi, ulduzların hərəkət dairələri və bu hərəkətlərin mərhələləri haqqında. Bu məqalə beş fəsildən ibarətdir.

I fəsil: Kainatın göy cisimləri və onların sayı, onlara aid olan ulduzlar, ulduzların hərəkət hüdudları, rəsədxana tədqiqatları, Ptolomey cədvəlində təqribi və görünən 1520 ulduzun 300-nün Ptolomey tərəfindən kəşfi və

adlandırılması, Əbdulrəhman Sufinin Ptolomey cədvəlini qəbul etməsi, 1250 ulduzun təhqiqat nəticələri barədə.

II fəsil: Göy cisimlərinin hərəkət qanunları, ulduz bürcləri, göy cisimlərinin hərəkət istiqaməti və sürətləri barədə.

III fəsil: Göy cisimlərinin fəzada hərəkət trayektoriyası, bu trayektoriyalar haqqında fərziyyələr və hərəkət trayektoriyasındakı bəzi nöqtələrdə yubanmalar
və onun səbəbləri, bir nöqtə ilə digəri arasındakı əlaqələrin xarakteri.

IV fəsil: Hərəkət dairəsinin qövs bucağı və dairə sektorunun hesablanması, mərkəzləşmə qanunu.

V fəsil: Yeddi ulduz və onların peyklərinin hərəkəti, ulduzların qarşılıqlı münasibətləri, onların hərəkət istiqaməti, Günəş sistemindəki qarşılıqlı əlaqələri. Günəş sisteminin daxili hərəkətləri, Günəş və Ay tutulması. Ayın səhifələri, Ayın birinci işıqlanma dərəcəsi ilə ikinci işıqlanma dərəcəsi arasında müqayisəli təhlil, planetlərin fırlanma mərkəzinin təyin olunması və onların arasındakı əlaqənin elmi sübutu.

İkinci məqalə: Yer kürəsi və ona aid olan tədqiqatlar haqqında. Yer kürəsinin ölçüləri, yeddi iqlim və onun xassələri, hüdudları, başlanğıc və son nöqtələri. Bu məqalə üç fəsildən ibarətdir.

I fəsil: Yer kürəsinin ölçülərinin, iqlim qurşaqlarının təyin olunması və onların başlanğıc, orta və son sərhədlərinin müəyyən olunması.

II fəsil: Ekvator xəttinin uzunluğu, xüsusiyyəti, başlanğıc və son nöqtəsi, birinci yarımkürə ilə ikinci yarımkürə arasındakı oxşarlıq və fərqli cəhətlər, gecə-gündüz dəyişkənliyi.

III fəsil: Müştərək olmayan əmrlərin tədqiqi, Günəşin batma və çıxma bucağı, kölgənin əmələ gəlməsi, günorta vaxtının təyin olunması, gecə və gündüzün başlama saatının dəqiqləşdirilməsi, sübh zamanı və Günəş şəfəqinin görünmə saatlarının təyin olunması haqqında bilgilər (3, s. 11).

Fondda saxlanılan digər qiymətli əlyazma Məhəmməd Tağı Sidqi tərəfindən yazılmış məktubdur. Məktub həcmi 20 səhifədən ibarətdir, sadə, kərpici dəftər vərəqində, ərəb əlifbası ilə, nəstəliq xətlə, Azərbaycan dilində tərtib edilmişdir. Məktubun yazılma tarixini orijinalda olduğu kimi qeyd etmək istərdim. "Bədə ədayı vacib əleyna ümumi hüzzari məclisin xidməti valalarına ərz və izhar edirəm. Bu gün ki, tarix Məshiyyənin 1896-cı ilin may ayının 14-ü ki, tarixi-hicrət nəbəviyyənin 1313-cü ilinin zilhəccə ayının 13-cü gününə mütabiqdir" (4, s. 2). Məktubda toxunulan mövzular, məktəb və pedoqoji fikir tariximizi özündə ehtiva edən çox dəyərli qaynaqdır. Bir daha əlyazmaya müraciət edək. "Əlhasil məktəbdir ki, ətfali-xurdəsali ki, hədiqeyi millətin novnəhalı mənziləsindədir. Bağban tərbiy vasitəsilə abrəvan mərifətlə havayi insaniyyətində xaki adəmiyyətin pərvərişi ilə nəşvi-nüma etdirib sayədar və bari vər ağaclar kimi dərəceyi təkmilə yetirir.

Məktəbdir ki, sadə dil sibyanı vüqar-pudi daneş və bineşindən ari olan uşaqları ənvai ülum və rəngarəng fünunilə pornəqşi və nigar edib ləf-

fafe mərifətlə piçiləndirib bazari insaniyyətdə dükkani kəmalatın qəfəsinə qoyur!

Məktəbdir ki, insanı mayeyi-əl imtiyazi olan qüvveyi natiqəsi ilə cəhli-abad nadanlıqdan çıxarıb əncüməni-daniş əzalarından sayılan əşxasın cərgəsində əyləşdirir.

Məktəbdir ki, təlim yaftə şagirdin asar-i qələmiyyəsi öz həmcinslərinin təlim və tərbiyəsinə müvəccib olduğu surətdə bir bisavad adamın yol kəsib bəni növ bəşərin nahəqq qanını töküb əmvalını tarac edib əhli və əyalını fəqir və naqisə mübtəla etdiyi üçün bu babında olan nəhayətsiz təvafütü əlaviyyə nişan verir.

Məktəbdir ki, əsr-hazırımızda olan bu qədər tərəqqiyyatı əzimə və kəşfiyyatı qəribə və muxtəriyyatı əcibə və məsnuati ədidə və cədidəni kürreyi ərzin hər bir noqatında hər vəch əkməl və bətəriqi əshəll meydanı zühür və büruzə buraxmışdır.

Xülasə dovvəli müəzzimənin və meləli mütaməddinənin müəzzəm bələdlərində və paytaxt şəhərlərində hər bir elmə dair məxsusi məktəblər təşkil olunub. Məsələn, məktəbi ziraət, məktəbi sənaət, məktəbi ticarət, məktəbi tibb, heyət, hikmət, tərbiyyə, riyaziyyə, həndəsə, bəhriyyə, əsəkəryyə və hakəza hər elmin özünəməxsus müxtəlif lisanlarda mütəəddid məktəblər bina olunub və olunmaqdadır.

Be hər hal bizlər imdi ki, o qunə məktəblərin təsisindən məhrum və ülume məzkurənin təhsilindən binəsibik, pəs ümumən əhaliye müsliminə, xüsusən, Qafqaz qitəsində sakin olan müsəlmanlara təqazeye əsrə görə lazımdır ki, hər şəhərdə və bəlkə hər qəriyyədə "Məktəbi ədəb" namında yəni təhsili ədəbiyyat üçün be ibarət axırı təlim qəvaidi lisaniyyə üçün müntəzəm surətdə "Üsuli-cədid" üzrə milli məktəblər bina olunub, o məktəblərdə türki, farsi, ərəbi, rusi, dillərinin təhsil və tərbiyəsinə davam olunsun" (5, s. 5-7).

M.T.Sidqinin bu məktubu 1898-ci ildə Naxçıvan şəhərinin mötəbər, nüfuzlu qazisi Axund Hacı Molla Məhəmməd Naxçıvaniyə bir xatirə yadigar olaraq verilmişdir.

## ƏDƏBİYYAT


1. Nağısoylu M. XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə". Bakı: Nurlan, 2003, 192 s.
2. Naxçıvani M.H. Həqaiqi-əl tarix. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1805, 338 s.
3. Ordubadi M.H. Astronomiya. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1860, 73 s.
4. Sidqi M.T. Dilimiz və məktəbimiz haqqında. AMEA Naxçıvan Əlyazmalar Fondu, 1896, 20 s.
5. Yenə orada, 1896, 20 s.

**Фахраддин Эйлазов**

## ВЗГЛЯД НА РУКОПИСЕЙ НАХЧЫВАНСКИХ АВТОРОВ, ХРАНЯЩИХСЯ В ФОНДЕ РУКОПИСЕЙ НАХЧЫВАВАНСКОГО ОТДЕЛЕНИЯ НАНА

Каталогизация рукописей, находящихся в фонде, принесут огромную пользу для получения новых ценных источников в научной среде Нахичевани. С этой точки зрения были сделаны попытки распознания важных сведений с целью помощи в изучении рукописей «Агаиг-ат-таварих» Мухаммеда Гашима ибн Мусеиба Нахичевани, «Астрономия» Мухаммеда Гасана Ордубади и «О нашей языке и школе» Мухаммеда Таги Сидги, указанной в статье.

**Fakhraddin Eylazov**

## LOOK AT NAKHCHIVAN AUTHORS MANUSCRIPTS KEPT IN NAKHCHIVAN SECTION`S MANUSCRIPTS FOUNDATION OF THE NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN

The catalogue of manuscripts collected in foundation will open large chances to enter a new valueable sourse to scientific atmosphere of Nakhchivan. With this point of view was attemted to discerning important information for research manuscripts “Haqaiq at-tavarix” by Mirza Muhammad Hashim ibn Museyib Nakhchivani, “The astronomy” by Muhammad Hasan Ordubadi and “About our language and school” by Mahammad Tagi Sidqi.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.d., prof. M.Nağısoy.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**SƏBUHİ İBRAHİMOV**
AMEA Naxçıvan Bölməsi

# MƏHƏMMƏD NAXÇIVANİNİN HƏYATI VƏ “SƏHABƏD-DÜMU” ƏSƏRİ HAQQINDA

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı özünün dahi şəxsiyyətləri ilə öyünməyə mənəvi haqqı var. Çünki bu bir həqiqətdir ki, Azərbaycanı dünya səviyyəsində, xüsusən şərq aləmində tanıdan naxçıvanlı böyük şəxsiyyətlər, heç zaman tarix səhnəsindən silinməyən və həmişəyaşar yaddaşlarda əbədi yaşayırlar. Bunlar ilə xalqımız həmişə qürur hissi keçirmiş və fəxr etmişdir. Qədim Nuh torpağı deyilən müqəddəs Naxçıvan torpağının yetirdikləri ziyalıların əksəriyyəti XX əsrə qədər “Naxçıvani” təxəllüsü ilə adlarını dahiləşdirmişlər. O cümlədən haqqında danışılacaq böyük elm sahibi olmuş Məhəmməd Naxçıvani dövrünün alimi, arif və kamilliyə yetişmiş fəzilətli bir insanı olmuşdur. Öz dövrünün yaşadığı vaxtda yəni hicri-qəməri 1295-ci ildə (miladi ili 1870-ci il) Naxçıvan vadisində xurafat və dini üsyankarlığın tüğyan etdiyi bir vaxtda bu əsəri “beş pənc ali əba, əhləl kəsa” adına dərin düşüncə və bilik bacarıq nümayiş etdirərək, onların başına gələn müsübətlər haqqında, həmçinin əsaslı dəlillər gətirərək onlar barəsində “Səhabəd-dümu” (göz yaşları buludu) adı altında əvəz edilməz bir əsər yazaraq Məhəmməd Zaman oğlu el arasında Məşhədi Baba Naxçıvani kimi şöhrət taparaq tanınmışdır.

Onun həmişə yaşar əsərlərindən biri olan “Səhabəd-dümu” özünün füsünkarlığı ilə başqa əsərlərindən geniş mənada seçilir. İslam peyğəmbəri həzrəti Məhəmməd əleyhis-salamın qız nəvəsi olan imam Hüseynin və onun əhli-beytinin Kərbəla torpağında başına gələn analoqu olmayan faciədən, eyni zamanda əxlaq tərbiyəsi görən övladlarının qorxmaz igidlik şücaətindən bəhs edən əsər, dövrünün ən güclü mənimsənilən və cəlb edilən fundamental xüsusiyyətləri ilə seçilmişdir. Xüsusən bu günün özündə də müəyyən dini mərasimlərdə və qeyri məclislərdə istifadə olunan və araşdırılan qiymətli tədqiqat mövzusu tam bir aktual sahəni əvəz edir. Əsərin əlyazmasının bir hissəsi AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda saxlanılır. Ağ, saya vərəqlərlə nəstəliq xəttilə qara mürəkkəblə və müəyyən mövzuların başlıqları iri həriflərlə yazılmışdır. Bəzi nohə və qəsidələr kublet kimi verilərək nəzmə çəkilmişdir. Müəyyən xütbələr, dualar və mükalimələr

ərəb dilində verilmişdir. Ölçüsü isə 17x26 sm., həcmi: 46 vərəqdir. Əslində isə kitabın orijinal həcmi 492 vərəqdir.

Ümummilli Liderimiz 1998-ci ildə İslam Konfransı Təşkilatının tövsiyəsi ilə Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumdakı proqram xarakterli məruzəsində demişdir:

"... Azərbaycanda islamşünaslıq sahəsində XX əsr, demək olar, tam itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Bu məqsədlə Azərbaycan Milli Elimlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi-tədqiqat institutları həmin sahə üçün xüsusi təşkilatlar, orqanlar və elmi mərkəzlər yaratmalıdırlar. Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün hər cür şərait yaradacağam. Buna arxayın olun" (3, s. 208).

Elə bu baxımdan da araşdıracağımız bu əsərdə fəlsəfi fikirlərin önəmli olması ilə yanaşı, həmçinin islamşünaslıq elmi üçün dəyərli fəlsəfəsi kontekstində verilmiş və əsaslandırılmışdır. İslam aləmində "ilahi nur" hesab edilən əsas amil demək olar ki, əsərdə öz əksini tapmışdır. İnsan bəşəriyyəti yaranmamışdan çox-çox əvvəl onun nuru xəlq olunduğu iddia edilən anlayışlar rasionallıqla əsərdə verilmişdir. Əsasən sonuncu peyğəmbər həzrəti Məhəmmədin nuru çox önəm daşıyır. Bununla bərabər dünyanın yaranma prinsipini, onun mövcud quruluşunu və hərəkət mexanizmini müxtəsərdə olsa verilməsi böyük maraq doğurur.

Əsərdə peyğəmbər səhabələrindən olan Cabir ibn Abdullah Ənsaridən rəvayət edərək bildirilir ki, "Məhəmməd əleyhis-salamın və Əli əleyhis-salamın nurları cəmi məxluqatın, göyün, yerin, lövhün, qələmin, ərşin, kürsünün, behişt və cəhənnəmin xilqətindən beş yüz min il irəli yaradıldı" (1,s. 168). Digər rəvayətə görə "Cənnətül-Xəlud" kitabında "dörd yüz yirmi beş min il irəli xəlq olunması qeyd olunur"(1, s. 168). Başqa bir rəvayətə görə imam Cəfəri Sadiq əleyhis-salamın buyurduğunda belə deyilir. Allah Təala "Həzrət Rəsulun "nurunu" on iki hicab xəlq eylədi. Qüdrət hicabı, Əzəmət hicabı, Sünnət hicabı, Səadət hicabı, Rəhmət hicabı, Kəramət hicabı, Mənzilət hicabı, Hidayət hicabı, Rüfət hicabı, Nübuvvət hicabı, Məymənət hicabı, Şəfaət hicabı" (1, s.168). Digər bir rəvayətə görə "Təzkirətül-əimmə" kitabında həzrət Əli əleyhis-salamdan ki, peyğəmbər ona buyurdu: "Xudavənd aləm varıydı və heç bir məxluq yoxuydu sonra peyğəmbəri xəlq eylədi. Və Rəsulu Xudanın nuru mübarəkindən bu on iki hicabları xəlq eylədi" (1, s. 168).

Hicab ümumi mənada örtük anlamın bildirməklə onun çox geniş fəlsəfi fünksüyaları mövcuddur. Bu baxımdan əsərdə verilən hicab elmə məlum olmayan və ancaq Allah yanında bilinən bir anlayışdır. Əsərdə deyildiyi kimi sonra Allah o nuru öz iradəsi daxilində hərəkət etdirmiş və hansı hicabda neçə müddət qalaraq oranı tərk etməsi vurğulanmışdır.

Allah "Məhəmməd nuruna əmr eylədi ki, daxil ol Qüdrət hicabına. Məhəmməd nuru birinci Qüdrət hicaba daxil oldu. Orada on iki min il qalaraq bu təsbihi zikr etdi: "Sübhanə əl-əliyyül əla". İkinci Əzəmət hica-

bında on bir min il qalaraq bu zikr etdi: “Sübhanə alimüs-sirri vəl-əxfa”. Üçüncü İzzət hicabında on min il qalaraq dedi: “Sübhanə əl-məliki əl-mənnan”. Dördüncü Məymənət hicabında doqquz min il qalaraq dedi: “Sübhanə mən huvə ğəniyyun layəftəqri”. Beşinci Cəbərut hicabında səkkiz min il qalaraq dedi: “Sübhanə əl-kərimül əkrəm”. Altıncı Rəhmət hicabında yeddi min il qalaraq dedi: “Sübhanə rəbbikə rəbbil izzəti əmma yəsifun”. Yeddinci Mənzilət hicabında altı min il qalaraq dedi: “Sübhanə əl-əliyyul kəbir”. Səkkizinci Kibriya hicabında beş min il qalaraq dedi: “Sübhanə əl-əliyyul kərim”. Doqquzuncu Rüfət hicabında dörd min il qalaraq dedi: “Sübhanəllahul-əzim”. Onuncu Nübuvvət hicabında üç min il qalaraq dedi: “Sübhanə zil-məliki vəl-mələkut”. On birinci Səadət hicabında iki min il qalaraq dedi: “Sübhanə mən yəzillul əşyaə və la yəzul”. On ikinci Şəfaət hicabında min il qalaraq “Sübhanəllahu və bihəmdih” zikri demişdir” (1, s. 168).

Əsərdə maraqlı cəhətlərdən biridə odur ki bu silsilə şəklində gedərək davam etmiş və yeni-yeni ilahi hikmət elmləri yaranmışdır.

“Sonra Rəsulu Xudanın nuru ənvarından iyirmi dərya xəlq eylədi. Əmr eylədi nuru Məhəmmədi o dəryalara birbə-bir ğutəvər oldu ( ləpələndi, yayıldı). Sonra İlahidən vəhy olundu ey Məhəmməd, ey mənim Həbibim, ey mənim peyğəmbərlərimin yaxşısı, ey mənim məxluqu-əvvəlim, ey mənim peyğəmbərlərimin axırıncısı, sənsən qiyamət gününün şəfaət edəni. Sonra o nur səcdəyə düşdü eləki səcdədən qalxdı yüz yirmi dörd min qətrə tər ondan tərşih oldu (axdı). Sonra Xudavənd ələm o qətrələrin hər birindən bir peyğəmbər xəlq eylədi. Peyğəmbərlərin nurları onun ətrafında təvaf edib bu zikri deyirdilər. “Sübhanə mən huvə alimun la yəchəlu, Sübhanə mən huvə həliymun la yəcəlu, Sübhanə mən huvə ğəniyyun la yəftəqri”. Sonra O həzrətin nurundan bir cohəri xəlq eylədi və o cohərin nisfindən (yarısından) bir su xəlq eylədi. O biri nisfindən ərşi xəlq eylədi və ərşi o suyun üstünə qoydu. Sonra nur ərşidən kürsünü xəlq eylədi və kürsünün nurundan lovhi xəlq eylədi və lovhin nurundan qələmi xəlq eylədi. Sonra qələmə əmr eylədi yaz mənim tovhidimi. Qələm min il bu əmrdə mədhuş (huşsuz) oldu eyləki huşa gəldi ərz eylədi Pərvərdigara nə yazım. Buyruldu yazgilən “La ilahə illəllah, Muhəmmədən rəsulullah. Eləki qələm Məhəmməd adını eşitdi səcdəyə düşdü və dedi: “Sübhanəl vahidul qəhhar, Sübhanəl əzimul əəzəm”. Sonra başın götürüb şəhadəteyn yazdı sonra ərz eylədi Pərvərdigara Məhəmməd kimdi ki, onun adını öz adıva yaxın eylədin və onun adını öz adıva müqərrun eylədin. Xudavənd aləm vəhyi eylədi ey qələm əgər Məhəmməd olmasaydı səni xəlq eyləməzdim və sair məxluqatı xəlq eyləməzdim və xəlq eyləmədim cəmi məxluqatı məgər onun xatirinə bəs odur bəşarət verən və nur bəxş edən, torpağa ibadət, suya hidayət, və şəfaət edən mənim dostum. Sonra qələm o həzrətin nuru şərifindən, və həlavətindən dedi: “Əssəlamu əleykə ya Rəsuləllah”. O nuru ənvar cavab verdi: “Əleykəs-salam minni və rəhmətullahi və bərəkatu”. Sonra o gündən salam vermək sünnət və cavabı vacib oldu. Sonra qələmə əmr etdi ki, O

həzrətin osafini (təmiz,pak ülvülüyünü) lovhə səbt eylədi və Xudavənd aləm nuru Məhəmməddən behişti xəlq eylədi və dörd sifətilən behiştə ziynət verdi. Birinci təzim, ikinci səxavət, üçüncü cəlalət, dördüncü əmanət. Behişti öz dostları və əhli itaətlərindən ötrü müqərrər (qərar) eylədi. Sonra göyləri o sudan qalxan buxardan xəlq eylədi və onun kəfindən yerləri xəlq eylədi. Eləki yerləri xəlq eylədi yer kəşti (gəmi) kimi hərəkətdə oldu qərar tutmadı sonra dağları xəlq eylədi ta yerlər qərar tutdu və bir böyük öküz xəlq eylədi sonra bir böyük balıq xəlq eylədi ki, öküz onun dalında qərar tutdu balıq isə su üstündə qərar tutdu, su hava üstündə qərar tutdu, hava zülmət üstündə qərar tutdu, zülmətdən sonra olan elmi Allah yanındadır ki, nələr var. Sonra ümməti Məhəmmədi onun mominləri və rahiblərin xəlq eylədi. Sonra günü və ayı, ulduzları, gecəni və günüzü, işığı və zülməti və sair məlaikələri xəlq eylədi. Sonra Məhəmməd nurunu ərşin altında yetmiş üç min il sakin olandan sonra yetmiş min il O həzrətin nuru şərifini "sidrətul müntəhada" sakin oldu. Sonra O həzrətin nuru ənvarını yeddinci göyə, sonra altıncı göyə, bir-bir müntəqil (yerləşdirdi, nəql etdi) eylədi taki, birinci göyə müntəqil oldu. Sonra Xudavənd aləm iradə eylədi həzrəti Adəm əla nəbiyyina və əleyhis-salamı xəlq edə bəs eyləki həzrəti Adəmi xəlq eylədi O həzrətin nurunu müntəqil (yerləşdirdi, daxil etdi) eylədi həzrəti Adəmin sülbünə (nəslinə). Ondan sonra həzrəti Nuhun sülbünə həmçinin sülbüdən-sülbə müntəqil eylədi tainki cənabi Abdullahın sülbünə yetirdi. Ondan da Məhəmmədə, Əliyə, Həsənə, Hüseynə və beləliklə on iki imamın sülbünə daxil edildi (1, s. 168-169).

Müəllif kitabın sonunda Allaha həmd səna edərək öz şükrün bildirir ki, bu böyük əsəri yazaraq başa çatdırmışdır. Həmçinin əlyazmanın axır vərəqində öz ürək sözlərin belə izah edir: "Həmd Pərvərdigara ki, tofiq əta eylədi bu kitabı öz əlimlə tərcümə və təhrir etdim fi şəhri şəban sənəte 1295 hicri-qəməri" (1, s. 491).

Həqiqətən Naxçıvan alimlərinin yaratdığı əsərlər hər dövrün müasir mövzusu kimi həmişə böyük tədqiqat mənbəyinə çevrilmişdir. Milli-mənəvi dəyərlərimizi zənginləşdirən bu və ya bu kimi əsərlər xalqımızın dərin köklərinə aparan mühüm amillərdəndir. Xalqımızın Ulu Öndəri Heydər Əliyevin müqəddəs kəlamı ilə desək "Biz azərbaycanlılar – bu, sonralar gələcək bütün nəsillərə də tövsiyə olunur – heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq" (2, s. 81).

## ƏDƏBİYYAT


1. Hacı Molla Məhəmməd Naxçıvani. Səhabəd-dümu, əlyazması, 1295 h.q.
2. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997.
3. Qurbanov Ə.C. Beynəlxalq münasibətlərdə din-islam amili. Bakı, 2000.
4. Balayev M.A. Azərbaycanda islam dininin öyrənilməsi (1950-2000-ci illər). Bakı, 2005.

5. Bünyadov Z. Azərbaycan VII-X əsrlərdə. Bakı, 1989.
6. Əliyev H.Ə. Dinimiz Xalqımızın milli-mənəvi sərvətidir. Bakı, 1999.
7. Tahirov R. İslam tarixi. Bakı, 1994.

**Сабухи Ибрагимов**

**О ЖИЗНИ МУХАММЕДА НАХЧЫВАНИ И ЕГО ПРОИЗВЕДЕНИИ "САХАБАД-ДУМУ"**

Личности, известные под псевдонимом "Нахчывани", появились в истории летописи своими известными произведениями. Свое произведение "Сахабад-думу" Нахчывани посвятил в основном событиям в Кербелах.

**Sabuhi Ibrahimov**

**ABOUT MAHAMMAD NAKCHIVANI`S LIFE AND HIS WORK "SAHABAD-DUMU"**

The persons who are famous with the penname of "Nakhchivani" have been very famous in the history for there works. In Mahammad Nakhchivani`s work "Sahabad-Dumu" some items, including the event of Karbala, the creation of Mahammad light etc. have been explained in detail.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.n. F.Rzayev.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**MƏHƏRRƏM CƏFƏRLİ**
AMEA Naxçıvan Bölməsi

# MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİNDƏ MİFOLOJİ İZLƏR

Türk mədəniyyət tarixi bəşər mədəniyyət xəzinəsinin ən dəyərli incisidir. Gerçəklik aləmi türkün bədii təfəkküründə tamamilə orijinal şəkildə mənalanmış və dünyanı həmişə heyrət içində qoymuşdur. Bu cəhətdən türkün gülüşü də dünyanın ən orijinal və mənalı gülüşüdür. Elə bu səbəbdəndir ki, türk gülüşünün zirvəsi olan Molla Nəsrəddin lətifələri dünya gülüş fondunun ən qiymətli sərvətini təşkil edir.

Gerçəkliyi gülüş kodu ilə qavramanın orijinal səviyyəsi olan Molla Nəsrəddin lətifələrini fərqləndirən ən əlamətdar xüsusiyyət onların insanı güldürməklə bərabər, həm də düşündürməsidir. Başqa sözlə desək, Molla Nəsrəddin gülüşü təkcə fizioloji-anatomik gülüş yox, həm də intellektual-əqli gülüşdür. Bü gülüş təkcə hissləri, duyğuları deyil, həm də düşüncəni hərəkətə gətirir.

Molla Nəsrəddin lətifələrinin poetikası haqqında dünya alimləri, o cümlədən Azərbaycan alimlərinin xeyli araşdırmaları var (2; 5; 6; 7 və s.). Buna baxmayaraq, lətifələr bədii zövq, həm də intellektual axtarış mənbəyi kimi öz cazibədarlığını günü-gündən artırır. Çünki gülüş dünyanın bəzəyidir. İnsanlıq durduqca xoş sözə, incə, zərif və mənalı gülüşə ehtiyac həmişə olacaqdır.

Elmin inkişafı da dünyanın ehtiyaclarını ifadə edir. Bu cəhətdən lətifələrimiz, o cümlədən Molla Nəsrəddin lətifələri tədqiq edildikcə onun dərindən öyrənilməsinə olan ehtyac daha da artacaqdır.

Ümumiyyətlə, Molla Nəsrəddin lətifələrinin poetik dünyası, bədii-intellektual sirləri tədqiqatçıların diqqətini həmişə cəlb etmişdir. Belə hesab edirik ki, Molla Nəsrəddin lətifələrinin öyrənilməsi sahəsində yeni istiqamət mifoloji struktur məsələləri ola bilər. Çünki lətifələr tarixi-müqayisəli, müqayisəli-tipoloji və s. baxımdan çox öyrənilmiş və bu istiqamətdə lazım olan nəticələr əldə edilmişdir. Bu cəhətdən lətifələrin, o cümlədən Molla Nəsrəddin lətifələrinin mifoloji strukturunun öyrənilməsinə ehtiyac vardır.

Bu sahədə fikirlərimizi şərh etməmişdən qabaq diqqəti görkəmli Azərbaycan alimi, mərhum akademik Yaşar Qarayevin lətifələr haqqındakı fundamental bir fikrinə cəlb etmək istərdik. O yazırdı ki, «lətifə struktur-semantik tamlığına görə müstəqil «bədii miniatürdür», epik təhkiyə yolu ilə

söylənən nitq-dialoqudur, tipologiyasına görə xalq epizmindən, genezisinə görə ritualdan, mifdən, xalq oyun, tamaşa, söyləm, nəğmə örnəklərindən qaynaqlanır. Təkmilləşəndə onu yaradan və formalaşdıran köhnədən qopur, janr müxtariyyəti qazanır» (4, s. 20).

Belə hesab edirik ki, Y.Qarayevin lətifələr haqqındakı bu fikri, əslində, onların mifoloji strukturunun öyrənilməsi istiqamətinin nəzəri-metodoloji əsasını təşkil edir. Bu fikirdə lətifə janrının struktur poetikasının bütün qlobal əsasları şərh olunmuşdur. Fikri təhlil etdikdə lətifə janrını yaradan, hərəkətə gətirən, məzmununu və formasını təşkil edən bütün arxaik-mifoloji struktur elementlərini burada görə bilirik.

İndi isə lətifələrin mifoloji strukturuna dair fikirlərimizi əyani nümunələr əsasında təqdim etməyə çalışaq. Lətifələrdən birində deyilir ki, «Molla Nəsrəddin eşşəyini şəhər bazarında satıb kəndə piyada qayıtmalı olur. Yolun uzaqlığı və qaranlığın düşməsi Mollanı büsbütün çaşdırır. O bir də görür ki, yaşadığı kəndin kəndxudası atını karvansaradan çıxarıb evinə getməyə hazırlaşır. Molla ona yaxınlaşıb deyir:

– Ay, kəndxuda, zəhmət olmasa, mənim bu əbamı da al tərkinə, apar evə.

– Özün niyə aparmırsan, a Molla?

– Mən piyadayam.

– Yaxşı aparıb kənddə kimə verim?

– Özümə.

– Özünü haradan tapım?

– Elə mən də əbanın içində sənin tərkində olacağam da. Orada düşəndə verərsən özümə» (1, s. 434).

İndiki halında bu lətifə gülüş yaratmağa xidmət edən vasitədir. Hətta buradakı gülüş bir qədər zəif xarakter daşıyır. Başqa sözlə, Molla Nəsrəddin lətifələrinin klassik fonduna daxil olan məşhur gülməcələrdən deyildir. Ancaq bununla bərabər kəndxuda ilə dialoq üzərində qurulmuş bu mətn xalqın yaddaşında nəyinsə hesabana yaşaya bilmiş və günümüzədək gəlib çatmışdır. Məhz mifoloji struktur poetikası baxımından yanaşdıqda bu mətnin daxili yaşam gücünü, bu gücü hərəkətə gətirən mexanizmləri görə bilərik.

Bizim fikrimizcə, lətifənin təhlili nəticəsində aşağıdakı mifoloji struktur səviyyələrini aşkar etmək mümkündür:

- mifoloji dünya modelinin kosmoloji strukturu və onun elementləri;
- dünyanı yaradan mədəni qəhrəman və onun əksi olan antiqəhrəman;
- mifoloji dünya modelində kosmosla xaos arasında animistik mübadilə.

İndi isə bu dediklərimizi ardıcıllıqla şərh etməyə çalışaq. Birincisi, bu lətifədə biz arxaik-mifoloji dünya modelinin strukturunu aşkarlaya bilirik. Lətifədə iki tərəf biri-biri ilə qarşılaşdırılmışdır: Molla Nəsrəddin və kəndxuda. Bu, folklor dünya modelinin strukturunu özündə əks etdirir. Dünya modeli varlıq haqqında təsəvvürlərin sistemidir. Folklorda dünya modeli ikiliklər əsasında qurulur: sağ-sol, yuxarı-aşağı, işıq-qaranlıq, yaxşı-pis, şi-

rin-acı. Bütün bu ikiliklər kosmos və xaos qarşıdurması şəklində ümumiləşir. Bu cəhətdən lətifədə qarşı-qarşıya gələn Molla Nəsrəddin və kəndxuda kosmos və xaos qarşıdurmasını əks etdirir. Belə ki, lətifələrdə Molla Nəsrəddin həmişə müəyyən oppozisiyada durur. O, həmişə kimə və nəyəsə qarşıdır. Obrazın strukturundakı bu qarşıdurma onu daim ikili qarşıdurma qoşalığına daxil edir. Molla Nəsrəddinin, bir qayda olaraq, xeyiri, onun qarşı durduğu tərəfin isə şəri təmsil etdiyini nəzərə alsaq, bu, kosmos-xaos qarşıdurmasıdır.

İkincisi, Molla Nəsrəddin, sadəcə olaraq, lətifə qəhrəmanı deyildir. O, öz gülüşü ilə dünyaya nizam gətirir, varlıq aləminin pozulmuş strukturunu bərpa edir. Bu da öz növbəsində onun timsalında qurucu, yaradıcı başlanğıcı, yəni kosmoqonik qəhrəmanı görməyə imkan verir. Mifologiyada gülüş yaradıcı vasitələrdən biridir. Tədqiqatçı M.Kazımoğlunun yazdığı kimi, xalq düşüncəsində «gülüş doğum və həyatın mənbəyidir» (3, s. 19). Bu cəhətdən gülüş ilkin əcdadın mədəni qəhrəman kimi öz funksiyalarını yerinə yetirməsində əsas vasitələrdən biridir. Molla Nəsrəddin də gülüş yaradıcı obrazdır. Folklorda gülüş dünyanın yaradılışı ilə bağlı olub, kosmoqonik hadisədir. Başqa sözlə, gülüş mifologiyada dünyanın yaradılışının əsasında duran mifoloji hadisədir və kosmosun xaos üzərində qələbəsini təcəssüm etdirir. Mollanın kəndxuda üzərində qələbəsinin nəticəsi gülüşdür. Bu gülüş kosmosun xaos üzərində qələbəsini simvolizə etməklə Molla Nəsrəddin və kəndxuda obrazlarını ilkin mədəni qəhrəman və onun antipodu kimi bərpa etməyə imkan verir.

Üçüncü diqqət yetirilməli məqam Molla Nəsrəddinlə kəndxuda arasında mübadilə prosesidir. Burada ilkin kosmoqonik durumun bütün tərəf və elementləri yerindədir. Kosmosla xaos arasında həmişə bir keçid məkanı olur. Bu keçiddə at mediator obraz rolunu oynayır. Mediator kosmosla xaos arasında hərəkət edən, əlaqə yaradan obrazdır. Mifologiyadan məlumdur ki, kosmosla xaos arasında animistik mübadilə olur. Yəni, kosmoqonik qəhrəmanlar ölmüş insanların ruhunu bu dünyadan o biri dünyaya ötürürlər. Nəzərdən keçirdiyimiz lətifədə bu ruh əba obrazında qorunub qalmışdır.

Göründüyü kimi, lətifədə ilkin mifoloji struktur arxetipləri özünü qorumuşdur. Məzmun və forma müasirləşsə də, mifoloji strukturu təşkil edən model olduğu kimi qalmışdır. Molla Nəsrəddin bütün gülüşyaradıcı obrazlar kimi müsbət kosmoqonik başlanğıcı, buna uyğun olaraq onun antipodu olan kəndxuda isə mənfi xaotik başlanğıcı təmsil edir. Onların arasında kosmoqonik mübadilə baş verir. Mollanın kəndə yollamaq istədiyi əba onun prototipi – əcdadı olan şamanın o biri dünyaya yollamalı olduğu ölmüş insan ruhudur. Digər tərəfdən, Mollanın əbanın içərisində getmək istəməsinin özü də şamanların o biri dünyaya adlamaq üçün işlətdikləri hiylələri yada salır. Bu halda kəndxuda ruhların sakin olduğu yeraltı dünyanın sahibidir.

Digər bir lətifədə deyilir ki, «Molla Nəsrəddin bir boyaqxana dükanı açıb boyaqçılıq eləməyə başlayır. Bir gün birisi paltarlıq şal gətirib deyir:

– Molla, bunu boya.

– Nə rəngə boyayım?

– Elə rəngə boya ki, ondan dünyada olmasın.

– Necə yəni «dünyada olmasın?»

– Yəni nə qırmızı olsun, nə qara, nə göy, nə yaşıl, nə sarı, nə də ağ olsun. Aydındırmı?

– Kefin istədiyi kimi boyayaram.

– Yaxşı, nə vaxt gəlim aparım?

– Elə gün gəl ki, nə şənbə olsun, nə bazar, nə bazar ertəsi, nə tək, nə çərşənbə, nə cümə axşamı, nə də cümə günü (1, s. 436-437).

Bu lətifə hazırcavablıq üzərində qurulmuşdur. Müştəri boyaqçı dükanı açmış Molla Nəsrəddindən qeyri-adi xahiş edir və qeyri-adi də cavab alır. Məsələnin mifoloji kökü məhz bu qeyri-adiliklə bağlıdır. Məsələnin mahiyyətinə enə bilmək üçün burada gülüşü bir qırağa qoyub, Molla ilə müştəri arasındakı münasibətlərin epik-mifoloji mahiyyətinə diqqət vermək lazımdır.

Müştəri Molla Nəsrəddindən qeyri-adi bir işin icrasını tələb edir. Belə qeyri-adi tələblər sehrli nağıllar üçün xarakterikdir. Sehrli nağıllarda həmişə qəhrəmanın qarşısında qeyri-adi işlərin icrasından ibarət sınaq qoyulur və qəhrəman həmin işləri icra etmək üçün, bir qayda olaraq, xaos dünyasına enib oradakı qüvvələrlə, yəni yeraltı dünyanın şər qüvvələri ilə mübarizə aparmalı olur.

Diqqət verdikdə görürük ki, müştərinin xahişi və işin icrası bütün hallarda insanların deyil, sehrli qüvvələrin dünyası ilə bağlıdır. Müştəri paltarın yer üzündə olmayan rənglə boyanmasını istəyir. Şübhəsiz ki, bu tələb sehrli nağıl qəhrəmanının qarşısında qoyulsaydı, o, həmin paltarı götürüb, yeraltı dünyaya enəcək, qeyri-adi rəngi tapacaq və boyayıb qayıdacaqdı. Əslində, Molla Nəsrəddinin cavabında bu işin icrası vardır. Molla müştərini geri qaytarmır. Ancaq ona elə bir gün təyin edir ki, həmin gün yer üzündə yoxdur. Başqa sözlə, nə həmin paltarın boyanmalı olduğu rəng, nə də həmin işin icra olunduğu zaman yer üzünə aid deyil. Bu mifoloji-kosmoqonik məkan-zaman sistemidir. Demək, bu lətifənin əsasında mifoloji struktur durur. Mifoloji düşüncə epoxası başa çatdıqdan sonra mifoloji strukturlar ictimai şüurun din, fəlsəfə, epos və s. formalarına transformasiya etmişdir. Lətifədə də müştəri ilə Molla arasındakı münasibət kosmoqonik qəhrəmanın yerinə yetirdiyi vəzifələrdən biridir.

Ümumiyyətlə, Molla Nəsrəddin lətifələrinin bütün məzmun qruplarının başlanğıcında mifoloji strukturlar durur. Hətta mifdən son dərəcə uzaqlaşmış mətnlərdə də mifi bərpa etmək mümkündür. Lətifələrdən birində deyilir ki, bir gün xana bir eşşək bağışlayırlar. Xan Molla Nəsrəddini yanına çağırıb deyir:

– Molla, bu eşşəyi mən neyləyim?

Yoxsullaşmış Molla xanın bu sualından bir işıq yolu hiss edib tez cavab verir:

– Xan sağ olsun, bu eşşək çox ağıllı heyvana oxşayır. Əgər onu mənə versəniz, mən ona danışmaq öyrədərəm.

Mollanın sözündən maraqlanan xan deyir:

– Yaxşı, verərəm. Şərtini de görüm.

– Şərti bir az ağırdır. Bu iş çox zəhmətlidir. Gərək mənə beş il möhlət verəsən, min qızıl da pul.

Xan Mollanın şərtilə razılaşır. Molla da pulu alıb, eşşəyin noxtasından darta-darta evinə gətirir. Mollanın arvadı bunu görüb soruşur:

– Ay Molla, bu nədir, xeyir ola?

– Heç, səsini çıxartma, arvad, bu pulları xərclə, görək başımıza nə gələr, – deyib əhvalatı arvadına danışır.

– Ay, Molla, yəqin, sənin başına hava gəlib... Eşşək də danışarmı?...

... Molla bir qədər fikirləşib deyir:

– Heç fikir eləmə, arvad, bu pulları götür, bol-bol xərclə. Vaxtı gələndə ya eşşək ölər, ya da ki, xan (1, s. 431-432).

Bu lətifənin ilk baxışdan miflə heç bir əlaqəsi görünmür. Lakin mətnin strukturunu nəzərdən keçirdikdə burada mifoloji strukturları müşahidə etmək mümkündür. Burada diqqət verilməli əsas məsələ süjetin başlanğıcıdır. Süjetin finalı sırf lətifə xarakterlidir və sonradan əlavə olunmuşdur. Əvvəli isə epik-mifoloji xarakterlidir.

Xanın Molla Nəsrəddini yanına çağırıb, onun qarşısında qoyduğu məsələ əvvəlki lətifədə olduğu kimi, kosmoqonik qəhrəmanın qarşısında qoyulan çətin sınaqdır. Mifoloji qəhrəman, bir qayda olaraq, sehrli Vasitələrdən istifadə edib, sınağın öhdəsindən gəlir. Lətifədə isə sınağın yerinə yetirilməsi açıq-aşkar transformasiyaya uğrayaraq gülüşyaradıcı vasitəyə çevrilmişdir. Mifin məntiqinə görə isə qəhrəman yeraltı dünyaya səfər etməli və eşşəyi danışdırmalı idi.

Beləliklə, bu kiçik tədqiqatın özü belə göstərir ki, Molla Nəsrəddin lətifələrini mifoloji struktur baxımından təhlil etdikdə tamamilə yeni nəticələr əldə etmək mümkündür. Bu da öz növbəsində Molla Nəsrəddin lətifələrinin yeni təhlil istiqamətinin əsasını qoyur.

## ƏDƏBİYYAT


1. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. Xalq ədəbiyyatı, 20 cilddə. I c., Bakı: Elm, 1982, 510 s.
2. Fərzəliyev T. Azərbaycan xalq lətifələri. Bakı: Elm, 1971, 120 s.
3. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, 268 s.
4. Qarayev Y. Prototip şəkilidir, yaxud nəfəsdə zümzümə, tələffüzdə rəqs – Şəki şivəsi... – Azərbaycan folkloru antologiyası, IV kitab, Şəki folkloru, I c. Bakı: Səda, 2000, 498 s.
5. Mirəhmədov Ə. C.Məmmədquluzadə yaradıcılığında Molla Nəsrəddin surətinin təkamülü // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər,

V kitab, 1977, 21-33 s.
6. Sultanov M. Molla Nəsrəddinin prototipi kimdir? // Azərbaycan, Bakı: 1961, № 10, 17-20 s.
7. Təhmasib M.H. Müqəddimə – Molla Nəsrəddin lətifələri. Bakı: Öndər, 1960, 302 s.

**Магаррам Джафарлы**

## СЛЕДЫ МИФЫ В АНЕКДОТАХ МОЛЛА НАСРЕДДИНА

Статья посвящена о мифологической семантике анекдотов Молла Насреддина. Исследование подтверждает, что ряд анекдоты тесно связны с мифологией. Архаические мифологические элементы в этих анекдотах на всех уровнях содержит в себе все поэтические структуры этой идеи.

В статье "Молла как хозяин красильни", "Молла научит ослу разговаривать" и др. анекдоты всесторонне исследованы автором. В результате исследований выявлены, что мифологические структуры этих Анекдотов оканчивается новыми научными результатами, которые пригодны и доступны исследователям в этом направлении.

**Maharram Jafarli**

## MYTHOLOGICAL TRACES IN MULLAH NASRADDIN`S ANECDOTES

This article is dedicated to the investigation of mythological syntax of Mullah Nasraddin`s anecdotes. The research showed that Mullah Nasraddin`s anecdotes are closely connected with mythological views. Archaic mythological elements have survived in all the levels of poetic structure of these anecdotes.

In this article such anecdotes as "Mullah and kandkhuda", "Mullah as the owner of the dye-house", "Mullah teaches a donkey to speak" have been investigated form the point of view of mythological structure and quite new results have been gained.

***Rəyçilər: Fililogiya e.d. A.Bağırov, filologiya e.n. M.İsmayıl.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**MƏHSƏTİ İSMAYIL**
AMEA Naxçıvan Bölməsi

# ÇAYLARLA BAĞLI ƏFSANƏLƏRİN MİFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Azərbaycan folklor nümunələri xalqımızın minilliklərlə formalaşdırdığı mifik düşüncə və inanclar sisteminə əsaslanır. Belə nümunələr sırasında Asnı və Arpaçayla bağlı topladığımız əfsanələr xüsusilə seçilir. Asnı çayı ilə bağlı bir-birindən fərqli üç əfsanə qeydə alınmışdır. Asnı çayının qaynağı hazırda xalq tərəfindən müqəddəs pir kimi ziyarət olunur. Asnı piri su və çay müqəddəsliyinin ifadəsidir. Qeydə aldığımız əfsanələrin birində deyilir ki, Güney Azərbaycanda bir oğlan varlı bir adamın qızını istəyirmiş. Qızın adı Asnı imiş. Qızın da oğlana meyli varmış. Atası qızı başqasına vermək istəyəndə oğlanla qız qaçaraq Qarabağlar kəndi yaxınlığındakı Qalacıq adlı yerə gəlirlər. Hər tərəf meşə imiş. Onların yeməyi, suyu qurtardığından oğlan su axtarmağa gedir və meşədə azır. Qız sevgilisinin gəlmədiyini görəndə yanıqlı-yanıqlı ağlayır. Qızın göz yaşlarının töküldüyü yerdən su çıxır. Qız bir çobana rast gəlir. Çoban sevgilisini tapmaqda qıza kömək edir. Suyun çıxdığı yerin adı da Asnı qalır. Əfsanənin ikinci variantı Asnı çayının adı ilə bağlıdır. Əfsanəyə görə, zalım bir hökmdar olur. Hökmdarın ona itaət etməyən insanlara bərk acığı tutur. Qalacıqdan axan çay boyunca dar ağacı qurdurur. Şah acığı tutduğu adamları bu dar ağacından asdırır. Elə o vaxtdan da çayın adına Asnı deyirlər. Əfsanənin üçüncü variantına görə, bir kişi olan-qalan varını qızıla çevirib əsanın içinə doldurur. Dərələyəzdən olan bu kişi su içəndə əsası bulağa düşür və axıb gedir. Həmin su əsanı gətirib Qarabağlardan çıxardır. Bu əsanı bir çoban tapır. Çomağın sahibi axtara-axtara gəlib bu kəndə çıxır. Kişi baxır ki, əsası çobandadır. Əsanın əlamətlərini deyib onu çobandan alır. Belə bir sirli su qaynağı ilə bağlı motivə Elazığda Dibsiz göl adlandırılan kiçik gölə aid əfsanədə rastlanır. Göldə üç qaynaq varmış. Bu qaynaqlarda itən at çox uzaq bir yerdən çıxır (9, s. 407). Asnı əfsanələrinin variantları məzmunca bir-birindən fərqlənsə də, eyni bir inancla – çay inancı ilə birləşir. Asnı çayı ilə bağlı icra olunan mərasimlər də su kultu ilə bağlıdır. Piri ziyarətə gələnlər məhz «çayın gözəsində» qurban qanı axıtmaq lazım olduğuna inanırlar. İnama görə, Asnı əzəl daha çox sulu imiş. Çay bədniyyətli adamlar tərəfindən murdarlandıqdan sonra su azalmışdır. Əgər çaya qurban kəsilməsə quruyar. Uşağı olmayan qadınlar pirin yaxınlığında olan ağaca beşik asıb niyyət edərmişlər. Göründüyü ki-

mi, əfsanələrin inanc qaynağı onun orijinallığını formalaşdıran, qoruyan səbəblərdəndir. Əfsanələrdən biri ictimai motivli olub çayın adının yaranması səbəbini önə çəkir. Guya qəddar hökmdar çay boyunca dar ağacları qurdurub insanları asdırdığı üçün çay As=nı adlanmışdır. Digər variantlarda isə müqəddəs çayın mifoloji xüsusiyyətini mifoloji predmet- əsa, çomaq ortaya çıxarır. Çayın yaranması səbəbilə bağlı söylənən üçüncü əfsanədə isə qızın məsum göz yaşlarının töküldüyü yerdən – torpaqdan su çağlayıb axmağa başlayır. Bu motiv bulaq, göl, dəniz, çay kimi məfhumların yaranmasıyla bağlı əfsanələrdə də öz əksini tapmışdır. Fikrimizcə, əfsanənin inanc yeri ilə bağlılığı və orijinal ifadə tərzi, ümumtürk əfsanələri ilə çarpazlaşan mifoloji motivi bölgəmizin qədim türk yurdu, əfsanələrin isə əski yaddaşın məhsulu olduğunun ifadəsidir. Ümumtürk inanclar sisteminin bir qolu olan çaylar və çayların yaranması ilə bağlı söylənən əfsanələr sirli pərdənin arxasındakı gerçəkləri görməyə imkan verir. Əfsanənin bədii cəhətdən ifadəliliyi, mifoloji keyfiyyətləri və sosial problemlərə uyğunlaşdırılması onun real bir fikri ifadə etdiyi təsəvvürünü yaradır. Müxtəlif variantlarını topladığımız bu əfsanələrdəki müqəddəs çay anlayışı əski türk mifoloji düşüncəsindən süzülüb keçmiş, dastanlarımızda əks olunmuşdur. Sibir və Orta Asiya türklərinin müqəddəs çaylar haqqındakı düşüncələrinə görə, çaylar qaynağını dünyanın başlanğıcından alır. Dəniz isə onların sonudur. Çaylar başlanğıcını müqəddəs cənnətdən alır, yerə enərək bir müddət axır, sonra dənizə tökülərək yeraltı dünyada itir (10, s. 306-307). Yakut türklərinə görə, Lena çayı dünyanın ortasından keçən dünya çayıdır (10, s. 312). Dünyanın sonu isə Lena çayının Qüzey Buz dənizinə töküldüyü yerdir. Çayın dənizə töküldüyü yer böyük girdab əmələ gətirir. Bunu isə yer altına gedən qapı zənn edirlər (8, s. 25).

Yenisey türkləri də çayın qaynağının başlandığı dağları Göy dağı adlandırıb müqəddəsləşdirmişlər (10, s. 312). Avestada yer böyük çayabənzər okeanla əhatə olunan, dairə formasında düşünülmüşdür (7, s. 66). Bu mifoloji düşüncə Asnı çayı haqqında da mövcuddur. İbtidai şüurda meydana gələn mif ştrixləri çayla bağlı əfsanələrdə özünü aşkar şəkildə biruzə verir. Əfsanə motivlərinin inanclarla qarşılıqlı ortaqlığı mif süjetlərindən aydın görünür. Bunlardan hansının daha arxaik düşüncəni ifadə etməsi, ilkinliyi heç də əhəmiyyətli rol oynamır, müqəddəsləşdirilən çaya münasibətlə keçirilən ayin və mərasimlərin forma və məzmununda özünü göstərir. Qədim türklərin mifoloji inanclar sistemində çaylar xüsusi yer tutur. Müxtəlif variantlarda söylənən əfsanələr və icra edilən rituallar- qurbanın suyun başlanğıcında kəsilməsi, qurbanın qanının suya axıdılması kimi inamlar su kultunun izlərini daşımaqdadır. Çaylar və çay vadisi boyu yaşayan xalqların həyat tərzinin özünəməxsus spesifik özəlliklərini ifadə edən xeyli mifoloji mətnlər mövcuddur. Bildiyimiz kimi, qədim türklərin mifoloji düşüncəsində, etnik yaddaşında formalaşan təfəkkür tərzində şüurlu insan, canlı və cansız aləm vəhdət halında təsvir edilir. İnsanoğlu daim həyat uğrunda mübarizə etmiş, bu mübarizə əfsanələrdə ikili müxalifət halında əks olun-

muşdur. Su həyatverici olduğu kimi, həm də ölümgətiricidir. Asnı çayı əfsanələri də məhz bu yönüylə diqqətimizi çəkir. Çay inamı ilə bağlı xatırlatdıqlarımız və çayın adlandırılmasıyla bağlı söylənən əfsanələr belə mifoloji keyfiyyəti əks etdirir.

A.İnan türklərdə su kultunun geniş yayıldığını əsaslandırmaq üçün bir çox elmi mənbələrə istinad etmiş və XI yüzillikdə İrtış çayı boyunda yaşayan Kimek qəbiləsinin İrtış çayına tapındıqlarını, bunun qəbilə üzvləri tərəfindən «su Kimeklərin tanrısıdır» şəklində ifadə edildiyini yazır (5, s. 184). Ə.Fərzəlinin fikrincə hər bir axar çay öz xidməti ilə maddi məzmun qazanır. İrmaq sözü hərəkətlilik ifadə edir və yerin mayası-mayesi olan su yerin üst qatında göründükdə irmaq adlanır (3, s. 33). Beləliklə, yerin alt qatı daha canlı üst qatda təzahür etməklə dünyanı hərəkətləndirir. Axar çaylar, həmçinin insanın bir hissəsi-mayası olan su, yer altından həyat gətirir.

Naxçıvanda şifahi sözün ünvanlandığı Arpa çayı nümunələri də maraqlıdır. Bildiyimiz kimi Arpa çayı öz mənbəyini Qərbi Azərbaycandan götürür. Bu – çayların vadisində yaşayan insanların yaratdığı Arpa çayı əfsanələri – Sara əfsanələri ümumbəşəri düşüncə və hissləri fövqəladə dərəcədə gözəl, bədii ruhla ifadə etmişdir. Akademik İsa Həbibbəylinin «Arpa çayı daşa bilməz» sərlövhəli məqaləsində Arpa çayı üzərində yaranmaqda olan dəryaçanın tikintisinə ünvanlanmış bədii fikir olduqca maraqlıdır. Müəllif məqalədə qədim əfsanəyə dayanaraq müasir baxışla, obrazlı ifadələrlə əfsanənin mövzusu olan Arpa çayını, Saranı, Xançobanı bütün zamanlar üçün dindirir. Məqalədə deyilir: «Əsrlərin əfsanələr dərəsindən bir səs gəlir qulağıma. Bu bir çayın, ya zamanın qəm səsimi?» (4). Şərur rayonunun Arpa çayı vadisində yerləşən kəndlərində apardığımız toplamalar zamanı yerli sakinlərin əfsanəni sanki dünən baş vermiş bir hadisə kimi söyləmələri də xeyli maraq doğurur. İnformatorların söylədiklərinə görə, qonşu kənddə Sara adlı bir qız varmış. Günlərin bir günü Saranı qonşu kəndə ərə verirmişlər. Çay kükrəyib gəlini at qarışıq götürüb aparır. Saranın anası bayatı çəkib çay boyu ağlayırmış. Əfsanədə gözəl Sara və çay orijinal biçimdə, arxaik düşüncə üçün xarakterik şəkildə təsvir edilir. İnformator Saranın anasının dilindən bayatını nisgilli bir avazla ifa edir. Bu ifadan sonra dinləyicidə heç bir şübhə qalmır ki, hadisə yaxın keçmişi təsvir edir. Söyləyici də sanki hadisənin iştirakçısıdır.

Çayın daşqınlığı selə dönür. Çayların öz məcrasından çıxması və böyük bir daşqınlıq yaratması, adamların fəlakətlə qarşılaşmaları təbii hadisədir. Lakin bu daşma əfsanədə mifoloji məzmun qazanmışdır. Çay gəlin köçən Saranı qurban seçir. Həqiqətən də Sara qurbanmıydı? O, çay üçün seçilmişdimi? Mifoloji kontekstdən yanaşma və filoloji araşdırmalar bu epizodun dərin mifoloji məzmuna malik olduğunu göstərir. Fikrimizcə, bu epizodda insanların Su Tanrısına qurban verməsi mərasiminin izləri qalmışdır. M.Kaşqarlının «Divan-i lüğət-it türk» əsərində bir uşaq oyunu mifoloji məzmunu ilə diqqəti çəkir. Oyunda deyilir...uşaqlar çayın kənarında diz

çöküb oturur, ayaqlarının arasına yaş qum doldururlar, sonra əlləriylə quma vururlar. Uşaqlardan biri münğüz, müngüz (buynuz, buynuz) deyə soruşur. Birisi buynuzlu heyvanları sayır. Hamı da təkrar edir. Bu arada dəvə, eşşək kimi buynuzsuz heyvanların adı çəkilir. Əgər uşaqlardan biri bu heyvanın və ya başqa heyvanın adını söyləsə çaya atılır (2, s. 364).

S.Paşayevin "Bir əfsanənin izi ilə" adlı məqaləsində əfsanə və əsatir arasındakı əlaqədən bəhs edilmişdir. Qız qalaları və Sara əfsanəsi arasında mənəvi bağlılıq axtaran araşdırıcı hər iki əfsanə üçün xarakterik olan su və od mifləri üzərində dayanmışdır (11, s. 17-18). Əfsanənin tarixi qaynağı qədim şərq mifologiyasına bağlanır. H.Ciddi "Qız qalası" əsərində yazır: "Su ilahəsinə məxsus məbədlərin bir çoxunda hətta Nahidin qızıldan düzəldilmiş heykəlləri varmış" (1, s. 43-46). S.Paşayev zərdüştlük dövründə çayların, suların sahilində məbədlər ola biləcəyini, su, od ilahələrinin qızıldan düzəldilən heykəllərinin müqəddəsliyini, yadelli işğalçılardan qorumaq üçün onların suya atıla biləcəyi ehtimalını da irəli sürür. Əfsanələrlə bağlı araşdırmaların ümumiləşdirilməsi göstərir ki, əskidə Su Tanrısına qurban vermək adəti varmış. Bu adətin izləri istər Asnı, istərsə də Arpaçayla bağlı əfsanədə qorunub saxlanmışdır. Qeyd etdik ki, Asnı çayı əfsanələrində suyun çəkilməsi, azalmasıyla da bağlı xalq inancları əks olunmuşdur. Xalq inamına görə, müqəddəs, pak sular bəd nəfəs, murdarlıq götürmür. Asnı çayının əvvəl axan gur suları murdarlandığı üçün çəkilmişdir. Çayın suyunun bərpası üçün qurban verilməsi zəruridir. Ümumiyyətlə, əski inanclarda həyatdakı nizamın bərpası, insanların həyatının təmin olunması və davamı üçün Tanrıya qurban verilməsinin zəruriliyi əks olunmuşdur. «Kitabi-Dədə Qorqud» dastanında çayların quruması ilə bağlı belə bir fikir də diqqəti çəkir. Qanlı-qanlı suların soğulmuşdu, çağladı axır! (6, s. 66) Buradakı «soğulmuşdu» kəlməsini B.Ögəl də suların torpaq və ya quma sızması ilə azalmış olduğunu qeyd edir (9, s. 378). Asnı çayının suyunun azalması, yaxud azması mifoloji xüsusiyyətlərlə izah edilir. «Kitabi-Dədə Qorqud» dastanında «Qamən axan görklü suyun qurumasın» alqışı bu baxımdan təsadüfi deyildir. Folklor nümunələrindəki çaylar mifoloji ünsürdür. Çay, sel, göl, dəniz, bulaq, çeşmə – su məfhumları əfsanələrdə mifoloji təfəkkürü ifadə edir. Lakin ayrı-ayrılıqda bunların hər birinin işlənmə örnəyinə diqqət etmək bizcə daha məqsədəuyğundur. Şifahi xalq ədəbiyyatının yazılı nümunəsi olan «Kitabi-Dədə Qorqud» dastanında «çaylar» çox işlənən ifadələrdəndir. Hər bir ifadənin isə özünəməxsus mənası və əhəmiyyəti vardır. «Quru-quru çaylara su saldım» - ifadəsi su salmaq, çaya suyun ötürülməsi kimi düşünülə bilər. Ancaq türk ailə ənənələrinin araşdırıcısı A.İnan bunun «Sücü», yəni şirinlik mənasında olduğunu göstərmişdir. Bu ənənə əski türklərin su sayğısı, yaxud yeni gələn gəlinin ulu yurdun sularına ehtiram ifadə etməsi ilə bağlıdır (9, s. 377). Qədim türklərdə övlad istəmə, övlad istəyi ilə nəzir vermək geniş yayılmışdır. «Kitabi- Dədə Qorqud» dastanında deyilir: Qara donlu dərvişlərə nəzirlər verdim (6, s. 22). Övlad istəyilə dilək tutulub nəzirlər verilməsi əski bir türk ənənəsidir. Quru çaylara su salma bir anlam-

da insanların niyyətini, diləyini ifadə etməklə Tanrıya verilən qurbanın, nəzirin ifadəsidir.

Araşdırmalar göstərir ki, əfsanələrdə əks olunan mifoloji struktur onu formalaşdıran amillərlə sıx bağlı olmuşdur. Mifoloji düşüncəyə görə insanı, təbii aləmi yaradan ilahi qüvvə dünyanın hər bir ünsürünə ruh vermişdir. Bəşər övladı – şüurlu varlıq, əhatəsi isə ruhu, canı olan, onu yaşadan nəsnələrdən ibarətdir. İnsanlar onları əhatə edən canlı aləmi öz təxəyyülündən keçirmiş və öz məntiqi ilə dəyərləndirmişdir. Çayla bağlı əfsanələrin araşdırılması mifoloji motivlərin inkişaf dinamikasını, onların sosial məzmun qazanmasını izləməyə imkan verir. Belə nəticəyə gəlmək olar ki, çaylarla bağlı əfsanələrdə ümumtürk mifoloji düşüncəsi üçün xarakterik olan mifoloji dünya sistemi ikili müxalifət halında əks olunmuş, insanların təbii stixiyalara, sosial ədalətsizliklərə qarşı mübarizəsi əks başlanğıcların mübarizəsi şəklində ifadə olunmuşdur.

## ƏDƏBİYYAT


1. Ciddi H. Qızlar və Qız qalaları. Ulduz, 1968, № 8, s. 43-46.
2. Divanü lüğat-it-türk tercümesi. (çeviren: B.Atalay), III c., Ankara: TTKB, 1985, 452 s.
3. Fərzəli Ə. Dədə Qorqud yurdu. Bakı: Azərnəşr, 1989, 181 s.
4. Həbibov İ. Arpaçayı daşa bilməz. «Kommunist» qəz., Bakı: 1974, 24 mart.
5. İnan A. Eski türk dili tarihi. İstanbul: MEB, 1976, 256 s.
6. Kitabi-Dədə Qorqud. Bakı: Azərnəşr, 1962, 176 s.
7. Маковельский А.О. Авеста. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1960, 144 с.
8. Ögel B. Türk mitolojisi. I c., Ankara: TTKB, 1993, 644 s.
9. Ögel B. Türk mitolojisi. II c., Ankara: TTKB, 2002, 610 s.
10. Ögel B. Türk mitolojisi. II c., İstanbul: MEB,1971, 341 s.
11. Paşayev S. Bir əfsanənin izi ilə. Elm və həyat, 1976, № 8, s. 17-18.


**Мехсети Исмаил**

## МИФОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ЛЕГЕНД, СВЯЗАННЫЕ С РЕКАМИ

Исследования показывают, что мифологический структур, отраженный в легендах тесно связан с окружающей средой. Исследование легенд, которые связаны с реками позволяют следить динамику развития мифологических мотивов, а также приобретение им социальное содержание. На основе исследований можно выводить, что, в этих легендах мифологическая модель мира, характерная общетюркскому мышлению, отра-

жена в виде бинарной оппозиции и выражина борьбой противоположных начинаний.

**Mehseti Ismail**

## THE MYTHOLOGICAL CHARACTERISTICS OF THE LEGENDS CONNECTED WITH RIVERS

The investigations show the mythological structure reflected in the legends have been closely connected with the factors forming it. The people have passed through their imagination the world surrounding them and valued it with their logics. The investigations of the legends connected with rivers enables the researchers to follow the dynamics of development of mythological motifs and their gaining social content. In may be concluded that in the legends connected with rivers the mythological world system characteristic for all-turk mythological thought has been reflected in the form of a double opposition, the struggle of the people against the natural elements and social injustice has been expressed as the struggle of contrast beginnings.

***Rəyçilər: Filologiya e.d., prof. M.Cəfərli, filologiya e.n. F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**RAFİQ BABAYEV**
AMEA Naxçıvan Bölməsi

# MİF YADDAŞI: QARŞIDURMA VƏ TARAZLIQ
## (Naxçıvan materialları əsasında)

Bu mətnlərdə hər nə varsa sakral aləmin, mifoloji düşüncənin "iti nəzərləri altındadır"; dünya modelinin strukturu və elementləri mif yaddaşına etnik qədimliyin qüdrəti ilə yazılıb. Deyildiyi kimi, "mif, adətən, qarşıdurmalarla əməliyyat aparır və mediasiyaya, yəni onların tədricən aradan qaldırılmasına xidmət edir" (7, s. 201).

"Qarşıdurmalarla əməliyyat aparmaq" üçün mifin çox "sərrast baxışları" həyatdakı qoşalıqları "seçib", obrazlararası və obraziçi qarşıdurmalara beləcə "meydan yaranıb".

"İctimai kateqoriya və münasibətlərin ətrafdakı təbiət mühitinin "obrazları" vasitəsi ilə təqdim olunması" mifoloji metaforizmin mahiyyətini təşkil edən cəhətlərdən biri kimi dəyərləndirilir (9, s. 232).

Həmin obrazların təqdimində təbiətlə münasibətləri nizamlamaq, qaydaları müəyyənləşdirmək meyli həlledicidir. "Cin deyir ki, mən sənin çörəyini yemişəm, sizlərdən heç kimə dəymənəm" (3, s. 98) ifadəsinə tez-tez rast gəlirik.

Bir mətndə isə pişiyin ağasının nərinin, atının, özünün öləcəyini xəbər verməsi (3, s. 101) də, çörəyini yediyi arvada qır-qızıl gətirməsi kimi mifoloji dünyanın onun üçün müəyyənləşdirdiyi missiya ilə, firiştələrdən olması ilə əlaqədardır.

Mifoloji dünya cinlərə qarşı çox diqqətcil və həssasdır, çox sadə alqoritm saysız-hesabsız mətnlərdə vurulan bər-bəzək hesabına xariqüladə imkanlara və gücə çevrilir.

Naxçıvan nümunələrində cinlərin ailə qayğılarının adamların ailə qayğıları ilə eyniliyi kimi çox qəribə məqamlarla qarşılaşırıq.

"Bir cinin arvadı doğurmuş. Cin isə adam donuna düşür, gəlir kətdən bir mamaça götürür, aparır arvadının yanına. Yolda cin mamaçaya deyir ki, əgər oğlum olsa sənə özün ağırlığında qızıl verəcəyəm, yox, qızım olsa səni öldürəcəyəm" (3, s. 103).

Eyni motivlə, yəni kişilərin doğulan uşağın oğlan olması arzusu ilə nağıllarda, yazılı ədəbiyyat nümunələrində dəfələrlə rastlaşmışıq. Məhz bu, hadisələrə təsir göstərir. Bu mətndə isə görünməmiş iş olur: mamaça cini al-

dadır, doğulmuş qızı oğlan əvəzinə təqdim edir, Naxçıvanda deyildiyi kimi, bir təlis qızıl alır. Adicə adamın cinə kələk gəlməsi isə xariqüladə gücə malik bu varlığı gözümüzdə adiləşdirir, fağırlaşdırır, yazıqlaşdırır.

Heç nə edə bilməyən cin də mifoloji dünyadan gətirdiyi xariqüladə gücün hesabına ancaq mamaçaya verdiyi qızılı soğan qabığına çevirir.

Cin adi adamlar kimi sevə, əzab çəkə, hətta dərddən ağlaya bilir.

Mətnlərin birində bununla bağlı deyilir ki, cin gözəl bir qıza vurulur. Qız xəstə olduğundan heç kəsə ərə getmək istəmir. Qız ölür. Həmişə qızın otağından ağlamaq səsi gəlir. Demə, bu, qıza vurulan cin imiş. Hər gecə gəlib onu yerində görməyəndə ağlayırmış (11, s. 23).

Cinin bu halı rəhm, mərhəmət, hətta rəğbət hissi oyadır.

Naxçıvanda deyilir ki, cin xəstə adamların gözünə görünər. Qız da xəstə olduğundan, yəqin, cin onun gözünə görsənib, əzab verirmiş.

Mətnlər başqa bir postulatı da təqdim edir: Cin çobana zəfər toxundurur. Tas quran bu dəhşətli gücə malik varlığı çağırır, qorxudur ki, səni odda yandırıb, suda qaynadaram. Cin qorxur, çobanı bağışlayır.

Od da, su da, məlumdur ki, çox müqəddəsdir, deməli, şər qüvvəni müqəddəsliyin qüdrəti ilə qorxutmaq, diz çökdürmək olar. Ətraf aləmə münasibətdə, inanclarda çox qabarıq olan bu məsələ mətnlərdə öz geniş əksini tapıb.

Od və su həm də günahkarların aşkarlanması missiyasını daşıyır. Diqqəti "Oğlanqala, qızqala" əfsanəsinə çəkən professor M.Cəfərli yazır: "Oğlan özünü qaladığı tonqala atır. Amma vəfasız olmadığından odda yanmır. Ağ bir daşa dönür" (5, s. 77). Qədim türk inanışlarında kult olaraq müqəddəslik daşıyanlardan birisi də daşdır. Oğlanı od yandırmırsa, deməli, günahsızdır, hələ üstəlik daşa çevrilirsə, deməli, nəinki günahsızdır, həm də müqəddəsləşməyə layiqdir. Mif "öz əlləri" ilə öğlana bu "statusu" verir. Od və suyun günahkarları aşkarlaması motivinə böyük Hüseyn Cavidin "Səyavuş", İ.Məlikzadənin "Gümüşügöl əfsanəsi" əsərlərində rast gəlirik.

Cinlərin adamların paltarlarını oğurlayıb qonaqlıqlara getmələri, kiminsə onların toy şənliklərinə gəlib çıxması çox geniş yayılmış motivlərdir. Bu toy şənliyində onların tilsimlənmiş qazanlarını adamların götürüb öz kəndlərinə gətirməsindən də çox danışılır. "İndi həmən qazan Yuxarı Əndəmişdə qalır. Camahat xeyirdə-şərdə işlədir" (1, s. 43).

Mifoloji mətnlərdə cinlərlə bağlı iki məqam da diqqəti cəlb edir: onların sifətləri çox əcayib olsa da, adam kimi paltar geyər. Ancaq hər şeyi tərsinə edər: get deyəndə gələr, gəl deyəndə gedər.

Yazılı ədəbiyyatda bu əfsanəvi, vahiməli, qeyri-adi imkanlara malik varlıqdan sıx-sıx, ətraflı bəhs olunub. Naxçıvan nümunələrinə əsasən demək olar ki, yazılı ədəbiyyatda müəllif niyyətindən asılı olaraq, daha qeyri-adi, qorxunc təqdim olunan bu varlıq, mifoloji mətnlərdə daha adi, sadə və həyatidir.

Bizcə, bu, onu anlaşılmaz bir aləmdən, "qeyibdən" gələn qüvvə kimi yox, şər qütb, həyatın bir parçası kimi qəbul etmək meylindən irəli gəlir.

Bu baxımdan da əyələr və bizdən yeylərlə bağlı təsəvvürlər xüsusi maraq doğurur. Türkiyə türklərinə görə yardımçı və qoruyucu iyələr, ağ və qara iyələr var; ağ, qara iyələr mələk və cinlər, yardımçı iyələr isə mələklərdir.

Sibir və Altay türklərində də eyni inanc (hər şeyin sahibi var) mövcuddur. Bu, yakutlarda "iççə", digər türk xalqlarında "eçi", "yeçi", "yeyə" adlanır" (6, s. 69; 10, s. 5).

Naxçıvan nümunələrində isə bu bölgü yardımçı, qoruyucu ağ, qara iyələr şəklində yox, bizdən yeylər və əyələr kimi aparılır: "Əncax əyələrinən bizdən yeylərin arasında fərq var. Bizdən yeylər heş bir şeyin sahabı dəyil. Əncax əyələr nəyin əyəsidirsə, onun da sahabıdı, özü də onda yaşayır.

...Əncax bizdən yeylər hər yerdə yaşayıllar. İllah da qərənnix yerlərdə, ağaş altında, su başında yaşayıllar.

Bizdən yeylər həmişə insanın malın oğurruyur, qəzanın, paltarın, düyüsün, yağın aparır. Əncax əyələr çox xeyirxahdı. Əyər onnarın yanına gələndə səlam versən, sənnən xoşu gələcək, həmişə də sənə kömək eliyəcəh" (3, s. 51).

Müxtəlif xalqların mifologiyasında əyələrdən geniş bəhs olunur.

Qərbi Sibir tatarlarında meşə əyəsi piçen, piçan, peçan, enperi, urman iyase (8, s. 316), su əyəsi kazan, Qərbi Sibir tatarları və qazaxlarda su iyesi, tatarlarda kişi-su babası, qadın su anası adlanır (8, s. 474). Kazan, Qərbi Sibir tatarları, kamuklar suvanası, karaçaylılar sun anası adlarını da işlədirlər (8, s. 471).

Ağac və ot əyəsini ereke adlandıran yakutlar onu torpaq əyəsi An darxan xatunun övladı hesab edirlər (8, s. 669). Yakutlarda atəşin və ocağın sahibi "yiyəcəyi quru odun, yatağı qurumla qaralmış, yastığı köz, yorğanı kül olan" ağsaçlı bir qadındır.

Ağac, ot əyəsinin torpaq əyəsi An darxan xatunun övladı kimi, atəş, ocaq əyəsinin "yiyəcəyi quru odun, yatağı qurumla qaralmış, yastığı köz, yorğanı kül" ağsaçlı qadın kimi təqdimində təsəvvürlər reallıqlara əsaslanır, ilkinlik göz qabağındadır.

Naxçıvan nümunələrində deyilir ki, bı əyələrin içində hamısından üstünü su əyəsidi (3, s. 51).

Şübhəsiz ki, suyun hər şeyin başlanğıcı (lap qabaqlar allahdan başqa heç kim yoxmuş, yer üzü də başdan-başa suyumuş) olması su əyəsinə belə bir nüfuz, status qazandırıb.

Naxçıvanda Novruzun səhəri Qızlar bulağına gedilir. Suya inam müxtəlif formalarda üzə çıxır. Ordubad rayonunun Tivi kəndində Novruz bayramında keçirilən "su üstü" mərasimində hər kəsin suyun içindən kiçik daşlar götürüb evə gətirməsi, un çuvalına, qovurma küpəsinə və s. qoymaqla il boyu ruzunu, bolluğu təmin etməsi inamı da məhz bununla bağlıdır.

İnama görə, su əyəsi suda, bizdən yeylər isə suyun qırağında yaşayır.

Orası da maraqlıdır ki, Naxçıvan nümunələrində həm Çay qarısı, həm də Çay anası kimi iki ruhla qarşılaşırıq. Çay qarısı imansızdır, adamı

yoldan çıxarır, pis yola aparır. Çay anası isə xeyirxahdır, adamlara yaxşılıq edir, düz yola aparır.

Kazan, Qərbi Sibir türklərinə, karaçaylara görə, su anasına hörmətsizlik edilsə, quraqlıq olar, xəstəlik gələr. Müxtəlif xalqlarda eyni inancla qarşılaşırıq. Bu da su əyəsinə sonsuz ehtiramla bağlı mifin qoyduğu qanundur.

Naxçıvanda yayılmış mətnlərə görə, ev əyəsi balaca boy bir kişidi, ağac əyəsi isə gözə sarı qız donunda görünür. Çay nənəsi qoca arvad cildində olar.

Çən qarısı isə tərs qarı deməkdi. Onun "tərsliyi" Şəkidən toplanan bir nümunədə aşkarlanır: "Çən, çisək, qara duman hamısı Çən qarısınındı" (2, s. 49). Çən, çisək, qara dumanı təbiətin tərsliyi kimi qarşılayıb bütün bunları Çən qarısının xarakterik cizgiləri şəklində təqdim etmək də çox maraqlı haldır.

Bədii sözün mifoloji zamandan götürüb-gətirdiyi xeyirxah əyələr və şər qüvvə olan yeylərin keçdiyi yol dünyabaxışın ayrı-ayrı tərəflərini özündə əks etdirir.

"Əsli-Kərəm" dastanında çovğuna düşəndə Kərəm Sofiyə deyir:

-Amandı, Sofi qardaş, mənim sazımı ver. Deyəsən dağı rəhmə gətirməsəm, burda ölüb qurd-quşa yem olacağıq (4, s. 101).

"Dağı rəhmə gətirmək" üçün söylənilənlərdən:

1. Alt yanın bağ ilə bostan,
O bir yanın gül-gülüstan.

– Hər tərəfin "bağ-bostan", "gül-gülüstandır"; sən gözəlsən, ulusan, qüdrətlisən, gözəllik, bərəkət yetirənsən, həm də gül-çiçəklə xoş əhval yaradansan.

2. Ayırdılar məni dostdan.

– Təkəm, yalqızam, köməyinə möhtacam.

Həm də yalqızam, pis əhvaldayam. Burda "xoş əhval"-"pis əhval" qoşalıq kimi funksionallaşır.

3. Ötər qərib quşun sənin (4, s. 102).

– Çoxlu qərib quşlar səndən gəlib-keçər. Mən də onlardan biriyəm. "Xoş əhval" "Pis əhval" qarşıdurmasını ancaq sən aradan qaldıra bilərsən (mediasiya).

Dağ başından duman çəkilib gedir; deməli, dağ əyəsinin xoşu gəlir, onlara kömək edir.

Dastanın başqa bir yerində yenə qar-yağışa, duman-çiskinə düşürlər, ancaq bu dəfə Kərəm dağlara xoş söz söyləmir, "bir kimsənin dada yetmədiyindən" gileylənir, "dağlar, hümmət edin burda qalmayım" – deyir. Çox yalvarışdan sonra gördü qabağında bir nurani kişi zahir olub dedi:

– Qəm eləmə, Kərəm, darda qalmamısız. Yumun gözünüzü (4, s. 128).

Göründüyü kimi, əyələrə ehtiram təbiətə sevgi, məhəbbətlə bağlıdırsa, yeylərdən qorunmaq adamları yamanlıqlardan hifz etmək baxımından mifin yasaqlarıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası. I kitab. (Naxçıvan folkloru). Bakı: Sabah, 1994, 388 s.
2. Azərbaycan folkloru antologiyası. IV kitab. (Şəki folkloru). 2 cilddə, II c., Bakı: Səda, 2002, 495 s.
3. Azərbaycan mifoloji mətnləri (Tərtib edəni, ön sözün və şərhlərin müəllifi A.Acalov). Bakı: Elm, 1988, 196 s.
4. Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, 504 s.
5. Cəfərli M. Folklor və etnik-milli şüur. Bakı: Elm, 2006, 126 s.
6. Qədirzadə H.Q. Əshabi Kəhf: müqəddəslik, tarixilik və inancların genezisi. Bakı: Elm, 2002, 112 s.
7. Леви-Строс. Структурная антропология. М.: Наука, 1985, 536 с.
8. Мифы народов мира: Энциклопедия. В 2-х т. Т. 2. М.: Советская энциклопедия, 1988, 719 с.
9. Мелетинский Е. М. Поэтика мифа. М., 1976, 407 с.
10. Makas Z., Kalafat Y. Karşılaştırmalı türk halk inancları. Samsun: Eser ofset matbaaçılık, 1991, 118 s.
11. Naxçıvan folkloru (Tərtib edənlər M.Cəfərli, R.Babayev). Bakı: Nurlan, 2007, 248 s.

**Рафиг Бабаев**

### ПАМЯТИ МИФА: ПРОТИВОСОСТОЯНЕ И РАВНОВЕСИЕ
### (На основе Нахчыванских материалов)

В статье каснулся к проблеме противосостоянию и медиацию в мифологических текстах.

Исследование показывает, что противосостояние встречается не только в межобразных отношениях, оно одновременно встречается и при представлении мифических образов. Здесь основным аспектам является и упорядочение образов с природой.

**Rafik Babayev**

### MYTHIC MEMORIES: CONFRONTATION AND BALANCE
### (On the basis of Nakhchivan materials)

The article deals with the problem of confrontation and balance in mythological texts.

The investigation shows that confrontation exists not only in the rela-tions between images but also in the introduction of mythic images. Here re-gulation of images with nature serves as the main aspect.

***Rəyçilər: Filologiya e.d., prof. M.Cəfərli, filologiya e.n. F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**NAZİRƏ ƏSGƏROVA**
AMEA Naxçıvan Bölməsi

# "ARZU-QƏMBƏR" DASTANINDA VARİANTLIQ MƏSƏLƏSİ

Bayatılı dastanlar içərisində ən geniş yayılmış "Arzu-Qəmbər"dir. Bu dastanın Bakı, Naxçıvan, Gəncə, Kərkük, Türkmən, Özbək və s. kimi çoxsaylı variantı vardır. Variantlarda şəxs, yer-yurd adlarının fərqliliyi, bir sıra hallarda isə sonluğun müxtəlifliyi müşahidə edilməkdədir. "Arzu-Qəmbər" dastanının ümumi süjeti onun nağıl mənşəli olduğunu göstərir. Həm mənşə səciyyəsinə, həm bayatılı olmasına və üstəlik ümumtürk etnocoğrafiyasındakı çeşidli folklor areallarında bənzər biçimlərdəki məskunluq faktına görə bu dastanın orta çağ aşıq dastanlarından xeyli dərəcədə qədim olduğunu söyləmək mümkündür (1, s. 33).

Bu dastanın izinə "Əsli-Kərəm" dastanında düşməyimiz də dediklərimizi təsdiq edir. Kərəmin dilindən deyilən beş bəndlik "Olmadı" adlı qoşmanın üçüncü bəndi "Arzu-Qəmbər"in daha qədim olduğunu göstərir.

Xurşud öz Mahının dizinə yatdı,
Qəmbər Arzunun tozuna batdı.
Dünyada Şahsənəm murada çatdı,
Aşıq Qərib kimi gülən olmadı (3, s. 39).

"Arzu-Qəmbər" dastanına, onun qəhramanlarına həm Kərkük, həm də Azərbaycan bayatılarında təsadüf etməyimiz isə onun xalq arasında sevildiyini göstərir:

Arzular gedər,
Qəmbər Arzular gedər,
Bəslənən yad ördəgin,
Kərkük variantı — Vətən arzular gedər (6, s. 283).

Bu gələn Qəmbər ola,
Müşk ilə ənbər ola.
Səni mənə yetirən,
Azərbaycan variantı — Bəlkə Peyğənbər ola (6, s. 283).

Variantlarda şəxs, yer, yurd adlarının fərqliliyi, bir sıra hallarda isə sonluğun müxtəlifliyi müşahidə edilməkdədir.

"Arzu-Qəmbər"in Naxçıvan variantında da Gəncə variantında da eyni süjet xətti izlənməkdədir. Hər iki dastanda da onlar əmiuşağıdırlar və öz-

ləri də dərvişin verdiyi almadan əmələ gəlmişlər.

Uşaqların adlarını da həmin dərviş verir, bildirir ki, bunları bir-birindən ayırsanız, axırı yaxşı qurtarmayacaq. Deməli, dərviş sakral funksiyanı iki yolla yerinə yetirir:

1.Verdiyi almalarla qardaşlara övlad bəxş edir.

2.Gələcəkdən xəbər verir.

Kərkük variantında adsız təqdim olunan atalar doğulacaq uşaqları (biri oğlan, biri qız olarsa) evləndirəcəklərinə şərt kəsirlər. Bir oğlan, bir qız doğulur.

Hər üç variantda oxşar motivlər dastanın strukturunda aktivdir: Əmiqızı və əmioğlunun kəbinini göydə mələklərin kəsməsi; sevgililər mollaxanada; yarı görmək üçün bulağa getmə; çətin sınaqlar; haqq aşığının hifz olunması; haqq aşığının möcüzə göstərməsi; sevgili öz göbəkkəsməsinin toyunda; "Əğyarın" tanrı iradəsi ilə ölümü.

Doğrudan da, Naxçıvan variantında Qəmbərin atasının ölümü məsələsi, küp qarısı və qarı dastançıya lazım deyil, həmin hadisə və obrazları Əmir şahın zalımlığı və qəddarlığı əvəz edir. Onun üçün heç bir şərtin, gələcəkdən xəbər verməsinin əhəmiyyəti yoxdur. Mənim qızım padşah qızıdı. Padşah qızı padşah oğluna layiqdi (2, s. 350).

Məhz bu fikir süjetdə çoxlu fərqlilikləri formalaşdırır. Arzu ilə Qəmbərə görə mollaxanada qızları, öğlanları bir-birindən ayırırlar.

"Arzu-Qəmbər"in Kərkük və Azərbaycan variantlarında "Tahir-Zöhrə" dastanında olduğu kimi aşiqlər mollaxanada sevişirlər.

Kərkük variantında Qəmbərin ata-anası vəfat edəndən sonra əmisi onu öz evinə gətirir. Qardaşına verdiyi şərti, əhd-peymanı unutmur. Lakin Qəmbərin əmisi arvadı gözünün ağı-qarası olan yeganə qızını kimsəsiz, yetim bir oğlana vermək istəmir.

Qızını varlı-hallı, arxalı bir gəncə vermək arzusu ilə yaşayır, hər şey də buradan başlayır. Arzu ilə Qəmbəri məktəbdən çıxarırlar. Əmi arvadı bir-birini dərin məhəbbətlə sevən gənclərin görüşməsinə hər vasitə ilə mane olur. Ona görə də bir qarının məsləhəti ilə öz südünü dələməyə qatır ki, Qəmbər yesin. Arzu ilə bacı-qardaş olsunlar.

Məhəbbət dastanlarının obrazlar sistemində mənfi funksiyalı "qarı" obrazı süjet xətti boyunca hadisələrin kulminativ inkişafında, psixoloji gərginliyin güclənməsi prosesində fəal iştirak edir (4, s. 206).

Arzu oxun atıbdı,
Qoyun, quzu yatıbdı.
Ağzıya bir şey qoyma,
Nənəm südün qatıbdı (3. s. 368).
Qəmbər heç bir şey yemədi, dedi:
Həvişimidə için daş,
Gözlərimnən axır yaş.
Bir əmçəkdən əmmədin,
Olmarıq bacı-qardaş (3, s. 368).

Əmisi oğlunu dərin məhəbbətlə sevən qız buna mane olur, oğlanı qatığı yeməyə qoymur. Burada xalq arsında dərin kök salan, yaşayan, hamı tərəfindən riayət olunan həyat həqiqətindən söhbət gedir. İndinin özündə iki bacıdan birinin döşündə süd olmadıqda başqa bacı onun uşağını əmizdirir. Uşaqlar böyüdükdə onların evlənməsinə razı olmurlar. Çünki o uşaqlar xala oğlu, xala qızı yox, bacı-qardaş sayılır. Hətta yad bir ana da hər hansı uşağı əmizdirdikdə, döş verdikdə həmin uşaq onun övladları ilə o gündən bacı-qardaş olur. Bir sözlə süd bu işdə həlledici rol oynayır (5, s. 51).

Doğrudan da, "Arzu-Qəmbər"in Bakı və Kərkük variantları çox yaxındır. Hər iki variantda Arzunun anası yeməkdə zəhər vermək istəyir. Ancaq Naxçıvan variantında üzük əhvalatı var. Bunlarla bağlı dastanın bədii cəhətdən ən gözəl hissələrindən olan Arzu ilə Qəmbərin bayatılaşması səhnəsi çox maraqlıdır.

Gedim biləzgimi gətirim. Tez qaça-qaça getdi arx başına, biləzgini tapmadı. Baxdı Qəmbər quzuları yayırı.

Arzu dedi:

Tuluğumu doldurdum,
Çignim üstə qaldırdım
Qəmbər səniy eşqiydən
Biləzigim unutdum (3, s. 366).

Qəmbər dedi:

Ussular uyuq-uyuq,
Qızlar dolduru tuluğ.
Biləzikgiy tapanı
Nə verirsən muştuluq (3, s. 367).

Arzu deyir:

Ussular uluq-uluq,
Qızlar dolduru tuluq.
Biləzigim tapanı
Şirin canım muştuluq (3, s. 367).

Naxçıvan variantında mollaxanaya çatmamış məscidin tinində gizlənən Arzunu gördü. Qəmbərin dili tutuldu, nə deyəcəyini bilmədi. Hannan-hana özünə gəlib səhəngi yerə qoydu, belə dedi:

Su gələr burux-burux,
Çəkəllər tulux-tulux.
Üzüyün tapan oğlana
Nə verərsən muştuluq? (2, s. 351)
Su gələr burux-burux,
Çəkəllər tulux-tulux.
Üzük tapan oğlana
Məndən öpüş muştuluq (2, s. 351).

Naxçıvan variantında elçilərin boş qaytarılması motivi var. Arzunu Qərib padışahın oğluna nişanlayırlar. Kərkük variantında Arzunu tatın oğ-

luna nişanlayırlar. Hadisələr belə davam edir və vəziyyət daha da gərginləşir. Qəmbər Şahın yanına şikayətə gedərək, ondan imdad diləyir ki, sevgilisinə qovuşmaqda ona kömək etsin. Şah qoşun göndərir ki, Arzunu alıb Qəmbərə versinlər. Lakin hər iki variantda küpəgirən qarı hiylə işlədərək işləri korlayır.

"Qurbani", "Abbas-Gülgəz", "Əsli və Kərəm" və s. kimi məhəbbət dastanlarımızda olduğu kimi "Arzu-Qəmbər" dastanında qəhrəmanın haqq aşığı olub-olmadığı yoxlanılır. Qəmbər haqq aşığı olduğu üçün imtahandan çıxmaqla bərabər, onda qeyri-adi bir keyfiyyət də üzə çıxır. Nə desə yerinə yetir, bütün qarğışları həyata keçir.

Haqq aşığı kimi çətin sınaqlardan çıxan Qəmbər öz qarğışı ilə daha güclü şəkildə sakral qüvvələrə bağlıdır. Onun qarğışı ilə Arzulya evlənmək istəyən gənclər yıxılıb ölür. "Arzu-Qəmbər"i başqa dastanlarımızla birləşdirən, doğmalaşdıran oxşar cəhətlər çoxdur. Bu dastanda aşiqlər dara düşəndə Xıdır İlyası köməyə çağırırlar. Qəmbər çayda boğularkən Arzunun İlyasdan imdad diləməsi səhnəsi bu baxımdan səciyyəvidir.

Qərəz öləsən, qərəz
Yar, əlimdən düşdü saz.
Qəmbəri su apardı,
Yetiş, ya Xıdır İlyas (6, s. 288).

Folklorşünas M.Cəfərli M.Seyidova istinadən məlumat vermişdir ki, Xızırın aşiqlərə kömək etməsi məsələsi bir çox mifik inamlarla, təbiəti, həyatı, hətta insanların ailə quruluşunu dərk etməsi ilə də bağlıdır. Xızır həm gəncləri bir birinə sevdirir, həm də darda qalanlara kömək əlini uzadır (4, s. 165).

Arzunun yalvarışı ilə Xızır İlyas Qəmbəri sudan çıxarmağa gəlir, möcüzəli şəkildə diriltməyə yox. Dastanın sturukturunda hər iki gəncin ölümü planlaşdırılıb. Naxçıvan variantında iki sevgili qol-boyun olub özlərini dəryaya atdılar. Kərkük variantında gənclərin qəbirləri arasından qaratikan çıxır, axirətdə də onları qovuşmağa qoymur. Qaratikanı kəsirlər, yenidən göyərir (3, s. 378).

"Arzu-Qəmbər" dastanının hər iki variantında saf, ülvi məhəbbət daşa dəyir. Gənclər sevgilərinə qovuşa bilmir, vüsala yetmir, məhv olurlar.

Göründüyü kimi, "Arzu-Qəmbər" dastançılıq ənənələrimizi özünəməxsus şəkildə yaşadır.

"Arzu-Qəmbər" dastanının iki variantı arasında aparılan müqayisəli təhlil əski mifoloji süjet xəttini müəyyən edir. Dastanın Naxçıvan variantı zəif görünsə də qədim dastançılıq ənənəsinin izlərini yaşatmaqdadır. Dastanın Kərkük variantı isə öz orijinalığı ilə Kərkük və Azərbaycan türklərinin mənəvi, milli, genetik bağlılığını ifadə edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan dastanları. 5 cilddə, I c., Bakı: Lider, 2005, 390 s.

2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, 375 s.
3. Azərbaycan folkloru antologiyası. (İraq-Türkman cildi) Bakı: Ağrıdağ, 1999, 467 s.
4. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 265 s.
5. Paşayev S. Arzu-Qəmbər türk xalqlarının əski dastanıdır. // Folklor və Etnoqrafiya, 2007, № 3, s. 48-54.
6. Paşayev Q. Kərkük folklorunun janrları. Bakı: Elm, 2003, 315 s.

**Назира Аскерова**

## ПРОБЛЕМЫ ВАРИАНТНОСТИ В ЭПОСЕ «АРЗУ-КАМБАР»

В статье проведено сопоставление между двух вариантов эпоса "Арзу-Камбар". Установлено, что их соединяет одни мифологические Сюжеты. Языковые и методологические характеры Кяркюкского варианта эпоса совпадает с Нахчыванским вариантом. Не смотря на разновидности и дальности географической среды появления этих эпосов, азербайджанские и керкюкские тюрки объединили духовные, генетические, национальные и однокоренные характерные черты. Все это подтверждены исследованием вариантнтов эпоса.

**Nazira Asgarova**

## THE QUESTION OF VARIATION IN "ARZU-GAMBAR" EPOS

The comparative analysis carried out between two versions of "Arzu-Gambar" epos determines the ancient mythological plot line of the epos in the paper. The language and style features, expression way of Karkuk version corresponds just with Nakhchivan dialect. In spite of geographical differences and the distance the compa-rative analysis between versions proves the spiritual proximity, the identity of national peculiarities, genetic closeness.

***Rəyçilər: Filologiya e.d., prof. M.Cəfərli, filologiya e.n. M.İsmayıl.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

## İNCƏSƏNƏT

**ƏLİ QƏHRƏMANOV**
AMEA Naxçıvan Bölməsi,
**RƏFAİL KƏRİMOV**
Naxçıvan MR Mədəniyyət və Turizim Nazirliyi

# NAXÇIVAN RƏSSAMLIQ MƏKTƏBİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ

Naxçıvan dünya, ölkə və yerli əhəmiyyətli mədəni-tarixi abidələr diyarı olmaqla bəşər mədəni irsi tarixində özünəməxsus yer tutmuşdur. Tarixi mənbələrdən məlum olduğu kimi, baş verən mədəni-tarixi hadisələrin bir çoxu bu torpaqla bağlı olmuş və mədəniyyətimizin inkişafında Naxçıvan məfhumu, Naxçıvan varlığı mühüm rol oynamışdır.

Nuh peyğəmbərin gəmisinin burada lövbər salması və qəbrinin Naxçıvan şəhərində olması (11; 3), müqəddəs «Qurani-Kərim»də adı keçən «Əshabi-Kəhf»in (10) Naxçıvan şəhərinin təxminən 13 kilometrliyində, Gəmiqayada aşkar edilmiş qayaüstü rəsm əsərlərinin (1; 5; 12), müxtəlif dövrlərə aid nekropol və yaşayış məntəqələrinin (2; 4), 1160-dan artıq mədəni-tarixi abidələrin (13) Naxçıvan Muxtar Respublikasında günümüzədək qorunub saxlanılması dediklərimizə əyani sübutdur. Bəlkə də buna görədir ki, bir çox elm və sənət adamları burada dünyaya göz açmış və Azərbaycanda mədəni mühitin formalaşmasında müstəsna rol oynamışdır.

Əsrlər keçdikcə mədəni tariximiz Dədə Qorqud boylarında (7), folklor yaradıcılığında, aşıq və xalq dastanlarında, qədim xalçalarda (8), miniatür sənətində (9), misgərlərin əl işlərində(6), Əbubəkr Əcəmi Naxçıvaninin memarlıq incilərində (14), Nəsrəddin Tusinin riyazi hesablamalarında, şair və yazıçılarımızın əsərlərində, rəssamlarımızın tablolarında öz əksini tapmışdır.

Fikrimizi aydınlaşdırmaq üçün təkcə XIX əsrin ikinci yarısında Naxçıvanda doğulub boya-başa çatmış və Azərbaycanda yaradıcılıq dəstixəttilə sayılıb-seçilən naxçıvanlı sənət, söz ustadları və yaradıcı ziyalılarından Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Əliqulu Qəmküsar, Məmməd Tağı Sidqi, Bəhruz Kəngərli, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Kazım Ziya, Böyük xan Naxçıvanlı, Mirzə Cəlil Şürbi, Rza Təhmasib və başqalarının adını göstərmək kifayətdir. Mədəni tariximizin abı-

havasından bəhrələnən ziyalılar yaradıcılıq estafetini günümüzədək daşımış və yetişməkdə olan yeni nəslə təqdim etməyi bacarmışlar.

Belə şəxsiyyətlərdən biri də sənətilə Azərbaycanda, keçmiş SSRİ məkanında, xariçi ölkələrdə ad-san qazanmış, şöhrət tapmış gözəl rəssam, qayğıkeş müəllim Nadir Səfərəli oğlu Axundovdur. Onun sənəti və həyat yolu haqqında oxucu kütləsinin az məlumatı olduğunu nəzərə alaraq bu böyük sənətkarımız barədə ətraflı bəhs etməyi lazım bildik.

1925-ci ildə Naxçıvan şəhərində dünyaya göz açan, 3 yaşından ata-ana nəvazişindən məhrum olan balaca Nadir rahatlığı xalası Münəvvər xanımın ana laylalarında tapmışdır. Təsadüfi deyil ki, əli qələm tutandan son rəsm əsərlərinədək rəssamın «Ana» mövzusunda çəkdiyi əsərlərin hamısında Münəvvər xanımın surəti dayanır.

7 yaşlı balaca rəssam o gündən gördüklərini, xəyalında canlandırdıqlarını kağız üzərinə köçürməyə başlayır. Təəssüf ki, uşaqlıq əsərlərinin bir çoxu qorunub saxlanılmamış və ya sonralar müəllif tərəfindən məhv edilmişdir. 14 yaşında ikən sənəti üzrə təhsil almaq, peşəsinə dərindən yiyələnmək və peşəkar bir rəssam olmaq arzusu ilə yaşayırdı.

1938-ci ildə Nadir Bakıya oxumağa gedir. Amma tale onu o dövrün məhşur mədəniyyət mərkəzi olan Leninqrada (indiki Sankt-Peterburq) gətirib çıxarır. Burada o, Leninqrad Orta İxtisas Rəssamlıq Məktəbinə daxil olaraq dəzgah boyakarlığı və qrafika janrları üzrə sənətin sirlərinə yiyələnməyə başlayır. O zamanlar Nadirin ağlına belə gəlməzdi ki, illər ötəcək və onun adı Leninqradda təhsil alan ilk naxçıvanlı rəssam kimi tarixə düşəcək.

Yaradıcılıqla zəngin olan tələbəlik illəri bir-birini əvəz etdikcə gənc rəssam sənətini puxtələşdirir. O, rəssamlıq nəzəriyyəsinin, texnikasının sirlərinə dərindən yiyələnərək, bunları yaratdığı əsərlərdə tətbiq etməyə çalışır. Lakin qəfil başlanan müharibə gənc rəssamın yaradıcılıq planlarını yarımçıq qoyur. O, məktəbi bitirər-bitirməz rəssam fırçasını silahla əvəz etməli olur. 1941-ci ildə Leninqraddan cəbhəyə yollanan Nadir yalnız 1945-ci ilin sonunda ordudan təxris edilir, ağır keçən müharibə illərini bir az da olsa unutmaq məqsədilə ata ocağı Naxçıvana, doğma vətənə qayıdır.

Naxçıvanda yaşadığı qısa müddət ərzində Nadir Axundov yeni əsərlər üzərində işləməklə yanaşı rəssamlıq texnikasının sirlərinə daha da yiyələnməklə portret janrına müraciət edir. O, yaxın qohumlarının portretləri üzərində işləyərək obrazların daxili aləmini, psixoloji vəziyyətini, xarakterik xüsusiyyətlərini göstərməyə çalışır. Maraqlıdır ki, 1960-1980-cı illərdə respublikada portret ustası kimi şöhrət qazanmış rəssamın bu janra müraciət etməsi məhz 1945-1946 ci illərə təsadüf edir.

Yaradıcılıq uğurlarını davam etdirmək, sənət dostları ilə fikir mübadiləsi etmək, yenilikləri yaxından izləmək üçün Nadirə geniş yaradıcılıq mühiti və işgüzar şərait lazım idi. Bu məqsədlə rəssam 1946-cı ilin payızında yenidən Bakıya üz tutur. Onun buraya ikinci gəlişi artıq formalaşmaqda olan sənətkar gəlişiydi. Belə ki, rəssamın bu aləmdə kiçicik də olsa özünəməxsus yeri və sözü var idi. Qeyd olunmalıdır ki, ali təhsili

olmayan rəssam öz üzərində işləməklə əsl həyat və sənət məktəbi keçmişdir. Bu yolda əldə edilən nailiyyətlər, hər şeydən əvvəl onun iradəsinin, əzmkarlığının və prinsipiallığının nəticəsidir desək səhv etmərik.

Çox keçmir ki, rəssamın zəhməti öz bəhrəsini verməyə başlayır. Çəkdiyi əsərlərdən «Oğlan» (1948), «Mənim dostum» (1949), «Aftoportret» (1952), «Bibi» (1953), «Yuxu» (1957) və başqaları müxtəlif sərgilərdə nümayiş etdirilərək Nadir Axundova Azərbaycan miqyasında şöhrət qazandırır. Əsərlərin xarakterik cəhəti, onların paklığı, saflığı, həyat dolu yaşamı təcəssüm etdirməsindəydi. Tablolara baxdıqca insanın qəlbi rahatlıq, sakitlik tapmaqla yanaşı, xeyirxahlıq, mehribanlıq və sevgi hissilə dolur.

1950-ci illərin ikinci yarısından 1960-cı illərin sonunadək Nadir Axundov yaradıcılıqla yanaşı pedaqoji fəaliyyətlə də məşqul olur. O, Qaqarin adına Bakı pionerlər (məktəblilər) sarayında rəsm dərnəyinə başçılıq edərək gənç nəslin rəssamlıq sənətinə yiyələnməsi üçün xeyli əmək sərf edir. Dərs dediyi şagirdlərin əksəriyyəti bu sənətin davamçıları kimi Azərbaycan rəssamlıq məktəbinin inkişafına səmərəli xidmət göstərmişlər.

Yaradıcılığının çiçəklənən dövrünü yaşayan rəssam silsilə əsərlərilə pərəstişkarlarını sevindirir. 1950-ci illərin ortalarından Nadir Axundov Azərbaycanda, SSRİ-nin müxtəlif şəhərlərində və xarici ölkələrdə keçirilən sərgilərdə bir-birindən dəyərli və məzmunlu əsərlərlə təmsil olunur. 1960-1985-ci illər ərzində rəssam 20-dən artıq sərgidə onlarla əsərini nümayiş etdirir. Bu arada onun Bakıda, Gəncədə və Naxçıvanda fərdi sərgiləri də təşkil olunur. Sərgilərdə rəsm, qrafika, linoqravüra, boyakarlıq janrında işlənmiş əsərlərindən «Kitab oxuyan qız» (1952), «Qarpız yeyən oğlan» (1955), «Görüş» (1958), «Rəfiqələr» (1959), «Arx kənarında» (1961), «Şlyapalı avtoportret» (1966), «Çadralı qadınlar» (1967), «Ana» (1967 və 1972), «Violnçel çalan Pablo Kazals» (1970), «Füzuli» (1976), « Qoca bağban» (1976) müəllifə böyük uğur gətirir.

Müxtəlif vaxtlarda Leninqrad, Daşkənd və Tiblisidə təşkil edilmiş qrafika və linoqravüra əsərlərindən ibarət sərgilərdə N.Axundov «Çay süfrəsi» (1961), «Çoban qız» (1961), «Kənd musiqiçiləri» (1966), «Dəniz kənarında qala» (1966), «Köhnə Bakı» (1967), «Dənizdə neft buruqları» (1969), «İçərişəhər» (1971), «Dəniz kənarında» (1976) və digər əsərlərlə təmsil olunaraq Bəhruz Kəngərli və Əzim Əzimzadə kimi sənətkarların təməlini qoyduğu Azərbaycan rəssamlıq məktəbinin layiqli davamçısı olduğunu bir daha subut edir. Eyni zamanda rəssamın əsərləri Almaniya, Kuba, Əlcəzair, Çexoslovakiya, Macarıstan, İtaliya, Finlandiyada nümayiş etdirilir.

Rəssamın yaradıcılığında müxtəlif yazıçıların əsərlərinə çəkilmiş illüstrasiyalar xüsusi yer tutur. Belə ki, yüksək peşəkarlıqla çəkilən illüstrasiyalar yazıçının fikri ilə üst-üstə düşərək vəhdət təşkil edir. Tağı Şahbazinin «Qayçı» (1966), Suleyman Sani Axundovun «Qaraca qız» (1966) hekayələrinə çəkilmiş illüstrasiyalar deyilənlərin bariz nümunəsi olmaqla Nadir Axundovun çoxşaxəli yaradıcılığının uğuru kimi qiymətləndirilməlidir.

Nadir Axundov yaradıcılığının hər dövründə olduğu kimi, yaşının dolğun çağında da tükənməz enerji, qüvvə ilə çalışır, düşündüklərinin hamısını kətan üzərinə köçürməyə tələsirdi. Bu ərəfədə rəssamın çəkdiyi uğurlu əsərlərdən xalq şairi Bəxtiyar Vahabzadənin portretini xüsusi qeyd etmək lazımdır. Uzun illər xəyalında yaşatdığı bu arzunu sənətkar nəhayət ki, 1990-cı ildə həyata keçirir. Şairi dərin düşüncələr içərisində təsvir edir. Şairin qarşısındakı ağ vərəq və vərəqin üzərindəki toxunulmamış qələm buna işarədir.

Hər yolun bir sonu olduğu kimi haqqında bəhs etdiyimiz gözəl sənətkar, Naxçıvan rəssamlıq məktəbinin yetirmələrindən biri olan Nadir Axundovun da yaşı ötdükcə daxilində yaşatdığı yaradıcılıq dünyasından tədricən uzaqlaşıb «yolun sonuna yaxınlaşırdı». Sənət dünyasından xəbərdar olanlar yaxşı bilirlər ki, yaradıcı insan üçün bu necə qorxulu andır. Çox tədqiqatçılar bu anı ölüm kimi qiymətləndirmişlər. 1990-cı illərin sonuna doğru sənətkar belə bir anı yaşayaraq 1999-cu ilin may ayının 19-da Bakı şəhərində dünyasını dəyişir.

Bütün bu faktlar bir daha sübut edir ki, Naxçıvan rəssamlıq məktəbinin görkəmli yetirmələrindən biri olan Nadir Axundov rəssamlıq sənətinin inkişafında və kadr hazırlanması sahəsində ardıcıl və səmərəli fəaliyyət göstərmişdir. Qədir bilən xalqımız heç zaman onun xidmətlərini unutmayacaq, gənc rəssamlarımız isə sənətkarın mədəni irsindən daim bəhrələnəcəkdir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı: Elm, 2003, 168 s.
2. Baxşəliyev V. Naxçıvan arxeoloji abidələri. Bakı: Elm, 2008, 301 s.
3. Bağırov F. Nuh yurduna ziyarət. Naxçıvan, 2008, 220 s.
4. Əliyev V. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 75 s.
5. Əliyev V. Gəmiqaya. Bakı: "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 2005, 147 s.
6. Əfəndiyev R. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı: İşıq, 1976, 190 s.
7. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
8. Kərimov L. Azərbaycan xalçaları. Bakı: Yazıçı, 1985, 236 s.
9. Kərimov K. Azərbaycan miniatürləri. Bakı: İşıq, 1980, 222 s.
10. Qədirzadə H.Q. Əshabi Kəhf: müqəddəslik, tarixilik və inancların genezisi. Bakı, 2002, 112 s.
11. Qədirzadə H.Q. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan, 2008, 190 s.
12. Musayev N. Gəmiqaya və Qobustan işarələrinin müqayisəli təhlili // NDU-nun Xəbərləri. Naxçıvan: Qeyrət, 2002, № 9.
13. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 519 s.
14. Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan

məktəbi abidələri. Bakı: Elm, 1985, 267 s.

**Али Кахраманов, Рафаил Керимов**

## ВИДНЫЙ ПРЕДСТАВИТЕЛЬ ЖИВОПИСИ НАХЧЫВАНСКОЙ ШКОЛЫ

Статья рассказывает о многосторонней деятельности виднего представителя живописи Нахчыванской школы Надира Ахундова. Вместе с тем в статье подробно освещены темы выставок с участием художника и его произведений в различные годы его творчества.

**Ali Gahramanov, Rafael Kherimov**

## A WELL-KNOW MEMBER OF THE ARTISTIC SCHOOL OF NAKHCHIVAN

The article deals with the most famous artist of Nakhcivan artistic school Nadir Akhundov`s multiform activity. In different years the greatest artist took part in various exhibitions. The plot sphere of his topics are investigated by the author.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, filologiya e.n. F.Kazımova.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**YAQUT QULİYEVA**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVANDA ŞƏRQ ÜÇLÜKLƏRİNİN YARANMASI VƏ İNKİŞAFI

Azərbaycanın ən gözəl guşələrindən biri olan Naxçıvan diyarının əsrarəngiz təbiətinə bənzər musiqi sənəti, böyük sənətkarları yetişmişdir. Qədim və ilk orta əsrlər dövrü Naxçıvan şəhərində və onun ətraf ərazilərində çoxlu miqdarda tapılan mədəniyyət abidələri belə bir fikir irəli sürməyə əsas verir ki, bu cür zəngin mədəniyyət abidələri olan bir ərazidə, yüksək müsiqi mədəniyyəti mövcuddur. Bu da geniş tədqiqat işinin aparılmasını aktuallaşdırır.

Azərbaycan folklor musiqisinin qaynaq nöqtələrindən biri olan qədim Naxçıvan diyarı XX əsrin əvvəllərində musiqi, incəsənət və teatr sahəsində öz əhatə dairəsini tədricən daha da genişləndirməyə başladi. Bu dövrlərdə Naxçıvanda və onun bölgələrində milli musiqi mədəniyyəti, eləcə də folklor musiqi nümunələrindən sayilan aşıq musiqisi, el yallıları, kütləvi xalq rəqsləri ilə yanaşı şərq muğam üçlükləri də geniş yayılmağa başlmışdı.

Xalqımızın qədim irsi olan muğam sənəti ta qədim dövrlərdən geniş xalq kütlələrinin ümumi sərvətinə çevrilmişdir. Muğam sənətinin mahir biliciləri, istedadlı ifaçıları, yorulmaz təbliğatçıları az olmamış, indi də az deyil. Məlumdur ki, klassik musiqimiz olan muğamlar şifahi ənənəyə əsaslanan Azərbaycan professional musiqisinin əsas janrıdır. Çoxəsrlik muğam sənətinə aid bəzi problemlər, o cümlədən muğamın tarixi inkişafı və təkamülü, onun kompozisiyası – quruluş xüsusiyyətləri, milli özünəməxsusluğu kimi məsələlər lazımi səviyyədə araşdırılaraq öz yerini tapmışdır.

Musiqi irsimizdə geniş inkişaf etmiş muğam sənəti hazırda milli musiqili-poetik incəsənətin əsas sahəsi kimi üç növdə təşəkkül tapmışdır:

1. Muğam dəstgahları;
2. Kiçik formalı muğamlar;
3. Zərb-muğamlar.

Hər üç muğam janrı haqqında ayrı-ayrılıqda araşdırmalar aparılmış, onların mənşəyi və kompozisiya-quruluş xüsusiyyətləri ətraflı və geniş formada tədqiq olunmuşdur.

Azərbaycanda muğamların öyrənilməsində iki dövr mövcuddur: qədim və müasir dövrlər (5, s. 6-7).

XX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə qədər Naxçıvanda mu-

ğam məclisləri geniş yayılmağa başlamışdır. O dövrlərdə musiqiyə və muğam sənətinə maraq göstərən sənətsevərlər muğamların sirlərinə yiyələnmək üçün bu məclislərin daimi iştirakçıları olurdular. Bu da onu göstərir ki, naxçıvanlılar muğam sənətinə böyük hörmət və ehtiramla yanaşaraq onu dərindən dərk edib yüksək qiymətləndirərdilər. Bundan başqa o dövrlərdə Naxçıvanda Azərbaycan xalq musiqisinin öyrənilməsi ilə yanaşı, həmçinin, not savadı alan, peşəkar bəstəkarların əsərlərini öyrənməyə can atan musiqiçilər yetişməyə başlamışdı. İstər 1927-1928-ci illərədək fəaliyyət göstərən musiqiçilər, istərsə də sonrakı dövrlərdə yaşayıb-yaradan musiqiçilər həm solo ifaçı kimi, həm şərq üçlüklərinin ifaçıları kimi, həm də muxtəlif tərkibli ansambl və orkestr kollektivlərinin ifaçıları kimi öz məharətləri, istedadları ilə yaşadıqları dövrlərdə xalq arasında tanınmışdılar.

Əsrlər boyu Naxçıvanın musiqi məclislərində, konsert salonlarında şərq üçlüklərinin inkişafı, əsasən yerli ifaçıların toy məclislərində birlikdə iştirak etmələri ilə əlaqədar olmuşdur. Şərq üçlüklərinin əsas xidməti ondan ibarət idi ki, onlar istər toy məclislərində, istərsə də konsert salonlarında bayağı musiqiləri deyil, xalq mahnı və rəqslərimizin, muğamlarımızın, əsl mənada, təbliğatçıları kimi çıxış edirdilər. Onlar özlərinin hər bir çıxışına məsuliyyətlə yanaşırdılar. Bu dəstələr toy məclislərindən əvvəl bir yerə yığışıb məşq edərdilər, sanki geniş konsert salonunda çıxış etməyə hazırlaşırdılar. Bu dərəcədə məsuliyyət, sənətə olan məhəbbətdən və xalq kütləsinin musiqiyə olan hörmətindən, təvazökarlığından irəli gəlirdi. Xalq mahnılarının və rəqslərinin bu gün də naxçıvanlılar tərəfindən unudulmaması və sevilərək davamlı surətdə təbliğ olunması məhz şərq üçlüklərinin böyük xidmətlərinin nəticəsidir (4, s. 18).

1920-ci illərin əvvəllərində Naxçıvanda musiqi həvəskarı kimi tanınan Süleyman Süleymanov cümə günləri xanəndələrin məclisini keçirərdi. Burada məşhur Naxçıvan xanəndələri Məşədi Əsəd, Həsənqulu, Məşədi Həsən, Məşədi İsmayıl, İdris Nağıyev, Əliş Xoşkeşinli, Kərbəlayı Baxşəli Əliyev və başqaları iştirak edərdilər. Şərq üçlüyünün müşayiəti ilə onlar əsasən muğam dəsgahlarını oxuyardılar. Xanəndələrin eyni məclisdə toplanıb oxumaları, bir növü "sənət yarışı" xüsusiyyətini daşıyaraq, muğam sənətini inkişaf etdirmək məqsədinə xidmət edirdi... (9, s. 140). Ümumiyyətlə, şərq üçlüyünün müşayiəti ilə burada əsasən muğam dəsgahları oxunardı. Əldə olunan məlumatlardan belə məlum olur ki, Məşədi Əsədin geniş diapazona malik olan, ecaskar və heyranedici bir səs tembri olmuşdur. O, həm zil, həm də bəm notlarda zəngulələr və xallar vurardı. Onun oxuduğu "Rast", "Çahargah", "Segah-Zabul", "Simayi Şəms" muğamları, "Heyratı" ritmik muğamı, "Apardı sellər Saranı", "İrəvanda xal qalmadı", "Qəmərim" və sair bu kimi xalq mahnıları öz dinləyiciləri tərəfindən yüksək alqışlarla qarşılanardı. Məşədi Əsədin, Həsənqulunun, İdris Nağıyevin hər birinin özünəməxsus muğam üçlükləri var idi. Məşədi Əsədin üçlüyünə tarzən Nəsir və kamança çalan Ələsgər daxil idilər. İdris Nağıyevin üçlüyünə isə

tarzən Yusif Əliyev, Tapdıq Hüseynov və kamança çalan Adil Əliyev daxil idilər (1, s. 27-28).

Tarzənlər arsında öz məharətli ifası ilə xüsusən fərqlənən Tapdıq Hüseynov 1922-ci ildə teatrda fəaliyyətə başlamış, az bir müddət ərzində musiqiyə böyük həvəs göstərən istedadlı gəncləri bir yerə toplayıb, xalq çalğı alətləri ansamblı yaratmışdır. Bu ansambl uzun müddət fəaliyyət göstərərək, tamaşaçılar qarşısında sürəkli olaraq konsert proqramları ilə çıxış etmişdir.

Yuxarıda adları qeyd olunan muğam ustaları arasında Kərbəlayı Baxşəli Əliyev yüksək ifa tərzinə görə xüsusilə fərqlənirdi. Kərbəlayı Baxşəli Əliyev 1866-cı ildə Naxçıvan şəhərində dünyaya göz açmışdır. O, gənc yaşlarından xanəndəlik etməyə başlamışdır. Kərbəlayı Baxşəli nəinki Naxçıvan miqyasında, hətta Qafqazda tanınmış muğam ifaçılarından olmuşdur. 1905-ci ildə Tiflisdə onun ifasında "Şur", "Segah" muğamları lentə alınaraq vala köçürülmüşdür.

1930-cu illərdə Naxçıvanda fəaliyyət göstərən şərq üçlükləri muğamlarımızın eyni zamanda qədim Naxçıvanda xalq mahnılarının bir növ təbliğatçılarına çevrilmişdilər. O dövrün mahir muğam ifaçılarından olan Həsənqulunun və Məşədi Əsədin yüksək ifaçılıq mədəniyyəti xüsusilə fərqlənirdi.

Məlahətli səsi olan İdris Nağıyev də digər xanəndələr kimi bu sənətin bilicilərindən idi. İdris Nağıyevin yaratdığı şərq üçlüyündə onu tarda Tapdıq Hüseynov, kamançada isə onun qardaşı Maqsud Hüseynov müşayiət edirdilər. Sonralar bu üçlükdə tarzən Yusif Əliyev, kamançada onun qardaşı Adil Əliyev də çalmışlar. İdris Nağıyevin şərq üçlüyü 1936-cı ildən başlayaraq toy məclislərində, el şənliklərində, eləcə də konsertlərdə iştirak edirdi. İki ayağı sikəst olan İdris Nağıyev hər zaman səhnəyə "təkərli arabayla" gətirilirdi. Onun ifasında "Rast", "Sur", "Segah", "Bayatı-Şiraz" mugam-dəsgahları tamaşaçılar tərəfindən uzun və sürəkli alqışlarla qarşılanırdı. İdris Nağıyevin bənzərsiz səsi haqqında bu gün də tanınmış musiqiçilərimiz heyrətlə bəhs edirlər (2, s. 62).

O dövrdə yasyıb yaratmış musiqiçilərin söylədiklərinə görə Məşədi Əsəd, Həsənqulu və İdris Nağıyev muğamları butun incəliklərinə qədər mənimsəmiş muğam ustadlari idilər.

1943-1948 ci illərdə Naxçıvan Radio Komitəsinin nəzdində fəaliyyət göstərən şərq üçlüyü mütəmadi olaraq radio dalğalarında rəngarəng çıxışlar edirdi. Tarzən Kamil Abdullayevin, kamança çalan Ələsgər İsfəndiyarlının və dəf çalan Səfər Rəcəbovun müşayiəti ilə geniş diapazonlu səsə malik olan istedadlı xanəndə Abbas Axundovun böyük məharətlə ifa etdiyi "Rast", "Bayatı Siraz" muğamları, bir çox xalq mahnıları və təsnifləri tez bir zamanda özünə çoxlu pərəstişkarlar toplayır (3, s. 56).

Daha sonralar Naxçıvanda bir çox yeni-yeni üçlüklər yaranmışdır. Bu üçlüklərin hər biri öz ifaçılıq tərzi ilə fərqlənirdi. Həmin bu üclüklərdən biri də, istedadlı muğam ifaçılarından sayılan xanəndə Səttarın, tar çalan

Kamil Abdullayevlə və kamança çalan Maqsud Hüseynovla birlikdə yaratdıqları şərq üçlüyü idi. Bundan başqa məftunedici səsi olan Mənsurə Ələkbərova, tarzən Nəriman Məmmədov, kamança çalan Ələsgər İsfəndiyarlı və dəf çalan Məzahir Bayramovun təşkil etdikləri qrup xüsusilə zərb muğamlarını və təsnifləri ifa edirdilər. Onlarin radio dalğalarında da tez-tez çıxışları olurdu (4, s. 22).

Radio Komitəsinin daha bir üçlüyü başqa üçlüklərdən fərqlənirdi. Tar çalan Əsgər Əsgərov, kamança çalan Şulan Ələkbərov və dəf çalan Səfər Rəcəbov əsasən xalq rəqslərinin təbliğatçısı kimi çıxış edirdilər. Hər bir konserti hər hansı bir müəyyən muğam üzərində bəstələnmiş mahnılara və rəqslərə həsr edirdilər. Məsələn, konsertlərdən biri "Bayatı-Şiraz " muğamı kökündə səslənən mahnı və rəqslərə həsr edilmişdi. Həmin konsertin sonuna qədər bütün musiqi alətləri "Bayatı-Şiraz" muğamı üstündə köklənmişdi. Beləliklə, onlar əksər muğamlar üzərində bəstələnmiş mahnıları və rəqsləri böyük ustalıqla ifa edirdilər.

1949-cu ildə Kamal Abdullayevin üçlüyünə yeni ifaçılar daxil olur. Bunlar Zərqələm Cavadova və Cəvahir Şuşinskaya idilər. Onların rəvan səsləri oxuduqları muğam və dəsgahlara, zərb muğamlarına xüsusi gözəllik verirdi. Bu minvalla Kamal Abdullayevin üçlüyü qısa müddət ərzində məşhurlaşmağa başladı.

Kamal Abdullayev haqqında danışarkən onun sənətinin davamçısı, muğam ustası Vahid Axundovu xatrlamamaq mümkün deyil.

Tarzən Vahid Axundovun da yaratdığı üçlük o dövrdə öz səviyyəsinə görə xüsusi diqqət cəlb edən musiqi dəstələrindən biri olmuşdur. Vahid Axundov mahir tar ifaçısı olmaqla yanaşı həm də gözəl səsə malik bir müğənni idi. O, xalq mahnılarını və təsniflərini ozünəməxsus tərzdə məharətlə oxuyurdu. Eyni zamanda onun həm də bəstəkarlıq qabiliyyəti var idi. Vahidin yaratdığı mahnılar, onun ifasinda ürəklərə yol tapırdı.

İstedadlı tarzən, savadlı pedaqoq, bacarıqlı təşkilatçı, muxtar respublikada xalq musiqisinin yorulmaz təbliğatçılarından olan, bir cox musiqiçilərin müəllimi kimi tanınan Yusif Əliyev də, şərq üçlüklərinin yaranmasında və inkişafında fəal iştirak etmiş, nüfuzlu musiqiçilərdən biri olmuşdur. O, tanınmış bir çox Azərbaycan xanəndələrini şərq üçlüyünün tərkibində tarda müşayiət edərək, onlarla daima sıx təmasda olmuşdu (4, s. 34).

Klassik musiqi mənbəyimiz sayılan muğamlarımız və onların xüsusi təbliğatçıları olan şərq üçlüklərimiz bu gün öz əhatə dairəsini daha da genişləndirərək artıq bütün dünyada tanınmaqdadır.

## ƏDƏBİYYAT

1. Qəhrəmanov Ə., Quliyeva Y. Naxçıvanda ifaçılıq sənətinin inkişafı tarixindən. Bakı: Musiqi dünyası, 2007, № 2, s. 27-28.
2. Quliyev N. Naxçıvan musiqi mədəniyyəti tarixindən (XX əsr). Bakı: Elm, 1999, 137 s.
3. Məmmədov N. Azərbaycan muğamları Rast və Şahnaz, Bakı, 1963, 148

s.
4. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 68 s.
5. Zöhrabov R. Muğam. Bakı, 1991, 119 s.

**Ягут Кулиева**

## О СОЗДАНИИ И РАЗВИТИИ ВОСТОЧНЫХ ТРОЕК В НАХЧЫВАНЕ

В статье всесторонне исследуется национальная музыкальная культура, Нахчыванской среды. Здесь автором исследуется фольклорная ашукская музыка, национальные танцы, в том числе танец «Йаллы», особенно создание и развитие Восточная мугамская тройка в Нахчыване и в его регионах в начале XIX века. Кроме того, в статье сообщается об этапе развитии Восточной тройки, изучается основные виды этих троек как раздел искусства.

При исследовании автором выявлено, что Восточная мугамская тройка в Нахчыване и в его регионах исследуется первый раз, она отличается своими самобытностями и еще до конца не исследована.

**Yagut Guliyeva**

## THE CREATİON AND DEVELOPMENT OF EASTERN TRİOS

The article deals with the creation and development of national music culture, also the samples of folk music ashik music, folk dances, especially Eastern mugam trios in early XIX century in Nakhchivan.

Besides, there is some information about the main fields of art that play very important role in the development periods of Eastern trios in Nakhchivan.

***Rəyçilər: Filologiya e.d., prof. M.Cəfərli, sənətşünaslıq n. Ə.Qəhrəmanov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət göërülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ƏLƏKBƏR QASIMOV**
AMEA Naxçıvan Bölməsi

# NAXÇIVAN TEATRI 1918-1920-Cİ İLLƏRDƏ

1917-1918-ci illərdə Rusiyada və Zaqafqaziyada gedən ictimai-siyasi proseslər Naxçıvandakı ab-havaya da öz təsirini göstərirdi. Naxçıvan Teatrının fəalları da repertuar seçimində zamanın nəbzini tutmağa, baş verən hadisələrə səhnədən öz münasibətlərini bildirməyə çalışırdılar. Bu zaman irihəcmli pyeslərlə yanaşı Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun, Əli Nəzminin və Əliqulu Qəmküsarın satirik şeir və hekayələri, felyetonları əsasında hazırlanan vodevillər, səhnəciklər, meyxana konsertləri tamaşaçılar tərəfindən rəğbətlə qarşılanırdı. Teatrın aktyorları məhz bu dövrdə şəhərdə teatr sənətinə artan böyük marağı və məhəbbəti duyaraq "Xeyriyyə Məktəbi"nin nəzdində "İmdad" dram dərnəyi, "Tərbiyə Məktəbi"ndə "Ümid" dram dərnəyi, "Qız Məktəbi"ndə isə qızlar üçün dram dərnəyinin yaradılmasında xüsusi fəallıq və yaxından köməklik göstərmişlər.

1918-ci il Azərbaycanın tarixinə qara və qırmızı rəqəmlərlə yazılmış bir ildir. Həmin ilin əvvəllərində Bakıda, digər bölgələrdə, o cümlədən Naxçıvanda erməni və rusların daşnak-bolşevik birləşmələri tərəfindən həyata keçirilən soyqırımı, talan və dağıntılar, qarət və yanğınlar nəticəsində xalq görülməmiş dəhşətlərlə, faciələrlə üzləşdi. O zaman Bakıda yaşayan və burada müəllimlik edən Hüseyn Cavid 1918-ci ilin məlum mart hadisələri zamanı daşnaklar tərəfindən həbs edilmiş və bir müddətdən sonra xoşbəxt bir təsadüf nəticəsində azad olunub, İrandan keçərək Naxçıvana gəlmişdi.

O dövrdə ziyalılar arasında böyük nüfuza malik olan və artıq görkəmli şair və dramaturq kimi tanınan Hüseyn Cavidin gəlişi xüsusilə Naxçıvan Teatrının və "Rüşdiyyə Məktəbi"nin kollektivi tərəfindən böyük sevinclə qarşılandı. Cavid əfəndinin təşəbbüsü ilə məktəbin nəzdində "Ədəbi məclis" təşkil olunur. Yerli şairlər, ziyalılar vaxtaşırı bu məclisdə toplaşaraq Naxçıvanın ağır vəziyyətini, ermənilərin kəndlərə basqınlarını müzakirə edir, bu şəraitdə qurtuluş yollarını arayır, yeni yazılmış və baş verən hadisələri əks etdirən şeir və məqalələri təhlil edir, teatrın gələcək işlərindən söhbət açırdılar. Rza Təhmasib, Bəhruz Kəngərli, Əli Xəllilov, Həsən Səfərli , Rza İsfəndiyarlı və teatrın truppasına yenicə qəbul olunmuş Mirhəsən Mirişli də bu məclisin fəal üzvlərindən idilər.

Hüseyn Cavid "El güzgüsü"nün üzvləri, yəni Naxçıvan Teatrının yaradıcı heyətilə tez-tez xüsusi görüşlər keçirir, milli ruhlu pyeslərin tamaşaya hazırlanmasını tövsiyə edir, belə pyeslərin əldə olunmasında onlara lazimi köməklik göstərirdi. Məhz onun məsləhətilə Əbdülhaq Hamidin "Hind qızı" əsəri teatrın kollektivi tərəfindən tamaşaya hazırlanır. Hind xalqının müstəmləkəçiliyə qarşı mübarizəsindən bəhs edən bu tamaşanın rejissoru Rza Təhmasib, rəssamı Bəhruz Kəngərli olmuş, baş rollarda Mirhəsən Mirişli, Həsən Səfərli və Rza İsfəndiyarlı çıxış etmişlər. İlk tamaşadan toplanan pul qaçqınlara və yoxsul şagirdlərə paylanmışdır.

1918-ci ilin iyununda daşnak Andronikin başçılığı ilə erməni quldurlarının Naxçıvan torpaqlarına vəhşicəsinə hücumları başlandı. Onlarla kəndi dağıdıb talan edən, yandırıb viranə qoyan daşnaklar görünməmiş vəhşiliklə qadınlara, qızlara, körpələrə və südəmərlərə belə acımadan bütün kənd əhalisini qılıncdan keçirir, güllələyir, diri-diri yandırırdılar.

Belə bir vəziyyətdə Naxçıvan şəhərində də normal həyat pozuldu və şübhəsiz ki, bir sıra təşkilatlar kimi teatr da öz fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı (2, s. 42).

Demək olar kİ, Şərurdan Ordubadadək bütün Naxçıvan ərazisinin işğala, əhalinin isə kütləvi soyqırımına məruz qalması təhlükəsi yaranmışdı. Yerli camaatın qəhrəmancasına müqavimətinin tükənmək üzrə olduğu bir məqamda komandan Kazım Qarabəkir paşanın başçılığı altında şanlı türk ordusu sərhəddi keçərək Naxçıvan əhalisinə yardıma yetişdi. Xilaskar ordu qısa bir zamanda quldur daşnak dəstələrini darmadağın edərək Naxçıvan ərazisini onlardan təmizlədi. Xalq rahat nəfəs aldı və öz dinc yaşayışını bərpa etdi. Həyat öz axarı ilə davam etməyə başladı. O dövrdə Araz-Türk Cümhuriyyətinin qurulmasında böyük xidmətləri olan Kazım Qarabəkir paşa Naxçıvanda mədəniyyətin, maarifin də çiçəklənməsinə öz töhfəsini verməyə çalışırdı. Bacarıqlı bir sərkərdə və təşkilatçı olmaqla yanaşı istedadlı bir şair və rəssam olan K.Qarabəkir paşa eyni zamanda bir teatr həvəskarı idi. Məhz buna görə o, Naxçıvanda teatr olduğunu bilən kimi Hüseyn Cavidin bilavasitə yardımı ilə yenicə fəaliyyətini bərpa eləyən "El güzgüsü"nün üzvlərilə tanış olur. "El güzgüsü"ndəki növbəti ədəbi yığıncaqda Kazım bəy tərəfindən Naxçıvan Teatrının fəaliyyətini yenidən canlandırmaq təklifi irəli sürülür. Bu təklif böyük sevinc və rəğbətlə qarşılanır. K.Qarabəkir paşa türk ordusunun tarixi qəhrəmanlığından bəhs edən Namiq Kamalın "Vətən və ya Silistrə" əsərinin tamaşaya qoyulmasını tövsiyə edir və teatrın rejissoru Rza Təhmasibdən, rəssamı Bəhruz Kəngərlidən icazə alaraq həmin tamaşanın quruluşunda və səhnə tərtibatında yaxından iştirak edir. Tamaşanın ərsəyə gəlməsində Hüseyn Cavid də Rza Təhmasibə, Bəhruz Kəngərliyə və paşaya öz köməkliyini əsirgəmir. XIX əsrdə Krım müharibəsi zamanı Türkiyə üçün mühüm strateji əhəmiyyət daşıyan Silistrə qalasının qəhrəmancasına müdafiəsini əks etdirən bu tamaşa ilk dəfə Naxçıvan Teatrında 1918-ci il sentyabrn 25-də nümayiş etdirilir (2, s. 43).

Tamaşadan əvvəl Rza Təhmasib pərdə önünə çıxaraq Naxçıvanın xilası, burada maarif və mədəniyyətin dirçəlişi, xüsusilə də Naxçıvan Teatrının bərpası üçün Kazım Qarabəkir paşaya bütün naxçıvanlılar adından dərin minnətdarlığını bildirmiş "Vətən və ya Silistrə" tamaşasının ərsəyə gəlməsində paşanın yorulmaz fəaliyyətindən söhbət açmışdır. Sonra K.Qarabəkir paşanın "Rüşdiyyə Məktəbi"ndə ara-sıra maraqlı söhbətlərini dinləyən tələbələr səhnəyə çıxmış, həzin türk musiqisinin müşayiətilə paşanın şeirlərini söyləmişlər.

Sonda tələbələrdən Lətif Hüseynzadə dəstədən irəli çıxıb yoldaşları adından məktəblərinə Kazım Qarabəkir paşanın adının verilməsini təklif etmişdir. Bu zaman bütün salondakılar ayağa qalxaraq bu təklifi sürəkli alqışlarla qarşılamışlar. Birinci sırada, Hüseyn Cavid, Rəhim xan, Cəfərqulu xan və digər rəsmi şəxslərlə əyləşmiş paşa da qalxıb üzünü salona çevirərək hamıya dərin təşəkkürünü bildirmişdir. Sonra "Vətən və ya Silistrə" tamaşası göstərilmişdir. Çox uğurla keçən ilk tamaşa dəfələrlə alqışlanmış, tamaşaçılar böyük ruh yüksəkliyi və xoş təəssüratla teatrdan ayrılmışlar. İlk tamaşada əsas rolları Həsən Səfərli, Mirhəsən Mirişli, Rza İsfəndiyarlı və Əli Xəlilov ifa etmişlər. Yaradıcı heyəti böyük sevinclə təbrik edən Hüseyn Cavid bu tamaşanın gənclərin vətənpərvərlik tərbiyəsində böyük əhəmiyyət daşıyacağını qeyd etmişdir (4, s. 330, 332).

Bu tamaşadan sonra yenə də K.Qarabəkir paşanın təşəbbüsü ilə Namiq Kamalın "Zavallı çocuq" əsəri tamaşaya qoyulur. Qeyd etmək yerinə düşər ki, hər iki əsər Naxçıvandan sonra Bakıda və Tiflisdəki Azərbaycan Dram Teatrında tamaşaya qoyularaq bir müddət repertuarda möhkəm yer tutmuşdur.

Az sonra Naxçıvan Teatrında Hüseyn Cavidin təşəbbüsü ilə Əbdülhaqq Hamidin "Əşbər" adlı mənzum əsəri tamaşaya hazırlanır. Əsərdə Hindistanın Pəncab vilayətinin hökmdarı olan Əşbərin öz xalqı ilə birgə Makedoniyalı İskəndərin işğalçı yürüşünə qarşı apardığı müharibədən bəhs edilir. Bu tamaşanın da hazırlanmasında Kazım Qarabəkir paşa yaxından iştirak etmişdir (2, s. 44). Müvəffəqiyyətlə keçən ilk tamaşadan sonra teatrın bütün kollektivinin, Hüseyn Cavid başda olmaqla ziyalıların və teatrsevər gənclərin də iştirak etdikləri müzakirə zamanı K.Qarabəkir paşa çıxış edərək bildirmişdir ki, bir hərbçi kimi o, müharibənin nə demək olduğunu çox gözəl bilir və müharibələrə kəskin nifrət bəsləyir, eyni zamanda müharibə əleyhinə yeni-yeni əsərlərin yazılmasını və imkan daxilində səhnəyə qoyulmasını istəyir. Paşa burada qeyd etmişdi ki, Cavid əfəndi hazırda bu mövzuda "İblis" adlı yeni pyes üzərində işləyir və bu mənzum əsərin bəzi parçaları ilə müəllif onu tanış etmişdir. Kazım bəy gələcəkdə bu əsərə də səhnə həyatı verilməsində öz köməyini əsirgəməyəcəyini açıqlamışdır. Lakin Kazım Qarabəkir paşanın İstanbula çağrılması onun Naxçıvan Teatrında gələcək planlarının gerkəçləşməsinə imkan vermədi. 1918-ci il oktyabrn 31-də bütün Naxçıvan əhli, o cümlədən teatrın kollektivi böyük türk oğlunu, görkəmli sərkərdə, istedadlı şair və səhnə fədaisini Şəhər Dəmir Yol Vağ-

zalından böyük bir məhəbbət və nisgillə yola saldı. Qarsa istiqamət götürən qatar onu həmişəlik olaraq Naxçıvandan aparsa da Kazım bəy ömrünün sonuna kimi bu torpağı xatırlamış, xüsusən də Naxçıvan Teatrının fəaliyyəti barədə imkan düşdükcə məlumat əldə etməyə çalışmışdır. 1919-cu ildə Naxçıvan Teatrı Kazım Qarabəkir paşanın "Türk yılmaz" adlı şeirlər toplusu əsasında müxtəlif səhnəciklərdən ibarət eyniadlı tamaşa hazırlamışdır (4, s. 334).

1918-ci il noyabrın əvvəllərində Türkiyənin ordu hissələri Naxçıvanı tamamilə tərk etdi. Bundan istifadə etmək istəyən daşnak quldurları yenidən Naxçıvan ərazisinə soxulmağa cəhdlər göstərməyə başladılar. Lakin yenicə yararadılmış Araz-Türk Cümhuriyyətinin ordusu düşmənə layiqli cavab verirdi. Dekabr ayının ortalarında qərb istiqamətindən Naxçıvana hücuma keçən ermənilərlə əsl müharibə başlandı. Bir neçə gün davam edən bu vuruşmada daşnak dəstələri darmadağın edilərək geri oturduldu və Araz-Türk Cümhuriyyətinin sərhədlərindən xeyli uzağa qovuldu.

Bu böyük və şanlı qələbə münasibətilə Naxçıvan Teatrının binasında, dekabr ayının 17-də möhtəşəm konsert təşkil olunmuş və həmin gecədə vətənpərvər ruhlu şeirlər səslənmiş, səhnəciklər göstərilmiş, nəğmələr oxunmuş, rəqslər və xalq mahnıları ifa olunmuşdur. Bu konsertdən toplanan vəsaitdən əsgər və zabitlərə pul paylanmış, hədiyyələr alınmış, onlar üçün ziyafətlər təşkil olunmuşdur.

Azərbaycanda artıq möhkəm addımlarını atan demokratik respublikanın müstəqillik, vətənpərvərlik və millilik ab-havası artıq Naxçıvanda da hiss olunmağa başlayır. 1919-cu ildən başlayaraq burada maarif və mədəniyyət demək olar ki, yeni bir mərhələyə qədəm qoyur, Bu tipli müəssisələrin sayı get-gedə artmağa başlayır. Müxtəlif məktəblərin nəzdində olan dram dərnəkləri öz fəaliyyətlərini genişləndirir, Naxçıvan Teatrı isə milli vətənpərvərlik ruhunda əsərlərin sayını artırmaqla, şüurların məhz bu ruhda formalaşması naminə belə pyeslər üzərində işi daha da gücləndirirdi.

1918-1920-ci illərdə Naxçıvan Teatrının fəaliyyəti sovet dövründə yazılmış və nəşr edilmiş kitab və məqalələrdə xeyli təhrif olunmuşdur. Belə hallara Azərbaycanın digər teatrlarının məhz həmin illərdəki fəaliyyətini əks etdirən yazılarda da rast gəlinir. Guya bu dövrdə müsavat hökuməti mədəniyyətə, xüsusən də teatrlara çox biganə, laqeyd, ögey münasibət bəsləmişdir.

Bu dövrdə ümumiyyətlə təkcə Naxçıvanda deyil, bütünlüklə yenicə qurulmuş Azərbaycan Demokratik Respublikasında vəziyyət olduqca gərgin idi. Xüsusən 1919-cu ildə gənc, müstəqil respublikada hakimiyyətin əsas fəaliyyəti dövlətin möhkəmləndirilməsinə, milli ordu quruculuğuna, iqdisadiyyatın dirçəlməsinə və ictimai-siyasi vəziyyətin sabitləşdirilməsinə yönəlmişdi. Bütün bunlarla yanaşı elm, mədəniyyət, təhsil və səhiyyə sahələri də unudulmamışdı. Məhz həmin ildə Bakı Dövlət Universiteti yaradılmış, orta təhsil müəssisələrinə diqqət artırılmış, onların təhsilli, savadlı müəllimlərlə təminatına xüsusi fikir verilmiş, yeni xəstəxanalar açılmış və onlara savadlı

mütəxəssislər cəlb edilmişlər. Teatrlar da öz fəaliyyətlərini davam etdirmişlər. Ən maraqlısı budur ki, ADR-də o zaman heç bir teatra sovet dövründə olduğu kimi repertuar diktə olunmamış, onların fəaliyyətinə tam müstəqillik verilmişdi.

Həmin dövrdə, yəni 1918-ci ilin yayından 1920-ci ilin yayınadək Naxçıvan Teatrı da müstəqil repertuar seçərək öz işini davam etdirmişdir. Bu müddət ərzində teatrda həvəskar aktyorların sayı xeyli artmış və onlar böyük sövqlə, əksər hallarda təmənnasız olaraq repertuarda olan tamaşalarda iştirak etmişlər. Teatrın repertuarı da xeyli zənginləşmiş və vaxtaşırı Mirzə Fətəli Axundovun, Üzeyir Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Əbdürrəhim bəy Haqverdiyevin əsərləri və səhnələşdirilmiş bir neçə vodevillərlə yanaşı, Əbdulhaq Hamidin və Namiq Kamalın da əsərləri dəfələrlə nümayiş etdirilmişdir.

1919-cu ilin ən maraqlı və tarixi hadisələrindən biri də C.Məmmədquluzadənin "Ölülər" əsərinin Təbrizdə yerli və Naxçıvan aktyorlarının birgə səyilə tamaşaya qoyulmasıdır (5, s. 143). Elə bu münasibətlə Naxçıvan truppası ilə Təbrizə gedən Böyük xan Naxçıvanski bir daha geri dönməyərək həmişəlik orada qalır və Cənubi Azərbaycanda teatr sənətinin inkişafı naminə hərtərəfli fəaliyyət göstərir. O zaman aktyorlarla bərabər Mirzə Cəlil özü də Təbrizə getmək üçün Naxçıvana gəlir və yola düşməzdən bir neçə gün əvvəl teatr kollektivilə birgə yenicə yazdığı "Anamın kitabı" pyesinin ilk oxunuşunu keçirir. Müzakirə zamanı pyesdəki bəzi məqamlar üzərində yenidən işləyəcəyini bildirən müəllif Təbrizdən döndükdən sonra bu əsərin ilk dəfə məhz Naxçıvan Teatrında tamaşaya qoyulmasını arzu edir.

Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətini əks etdirən "Molla Nəsrəddin" kitabının, "1920-ci il" bölməsində göstərilir: "Yanvar ayı. Mirzə Cəlil "Anamın kitabı" və "Kamança" pyeslərini Şuşada yazıb qurtarmışdır." Sonra kitabın müəllifi Qulam Məmmədli belə bir qeyd verir: "Şübhəsiz ki, hər iki əsər bir ay ərzində yazıla bilməzdi. Ehtimal ki, bu əsərlər qabaqcadan yazılmış, 1920-ci ilin yanvar ayında surətləri köçürülərkən, həmin tarix qeyd edilmişdir" (3, s. 377).

Buradan da "Anamın kitabı"nın Naxçıvan Teatrında ilk oxunuşu və müzakirəsinin keçirilməsi faktı təsdiqlənir. Lakin təəssüf doğuran haldır ki, belə bir kitabda – salnamədə Mirzə Cəlilin 1919-cu ilə dair fəaliyyəti tam işıqlandırılmamışdır. Xüsusən də həmin ildə onun Təbrizdə olması və burada Naxçıvandan mühacirət edən, həmçinin müvəqqəti olaraq bu şəhərə gələn naxçıvanlı aktyorlarla birgə "Ölülər"in tamaşaya qoyulmasında iştirak etməsi əks olunmamış, Təbrizdə "Molla Nəsrəddin" jurnalının çap edilməsindən söhbət açılmamışdır. O dövrün Naxçıvan Teatrının görkəmli aktyoru, xalq artisti Səməd Mövləvi belə xatırlayırdı: "1919-cu ildə Mirzə Cəlil Məmmədquluzadə Təbrizdə idi. O, Naxçıvandan Təbrizə mühacirət etmiş naxçıvanlı teatr həvəskarlarını toplayıb "Ölülər" pyesini tamaşaya qoymağı məsləhət gördü. Bu vaxt Təbrizdəki teatra şəhərin köhnə, tərəqqipərvər ziyalılarından olan Mehdixan rəhbərlik edirdi. Yerli dindarlar ona

“babi Mehdixan” deyərdilər. Həmin şəxsin yaxın köməkliyilə bu iş həyata keçirildi” (2, s. 47).

S.Mövləvi qeyd edir ki, tamaşanın başlanmasına yaxın senzor əsəri tələb edir və onu böyük ixtisarla geri qaytarıb bu şəkildə oynanılmasına göstəriş verir. Mirzə Cəlil əsəri belə vəziyyətdə oynamağı məsləhət görmür. Qərara alınır ki, tamaşanın olmayacağını səhnədən tamaşaçılara elan etsinlər. Lakin Mehdixan buna mane olaraq bütün məsuliyyəti öz üzərinə götürür və əsərin olduğu kimi oynanılmasını tapşırır. Tamaşa böyük müvəffəqiyyətlə keçir. Teatrı mühasirəyə alan polis tamaşa qurtaran kimi aktyorların demək olar ki, hamısını həbs edir. Şəhər Polis İdarəsinin rəisi Mirzə Cəlili və Mehdixanı çağırıb cərimə etdikdən sonra aktyorları azad edirlər. Bu tamaşadan toplanmış pul vasitəsilə Cəlil Məmmədquluzadə Təbrizdə “Molla Nəsrəddin” məcmuəsini nəşr etdirir.

1919-cu ilin yayında hamının intizarla gözlədiyi “İblis” pyesini yenicə tamamlayan Hüseyn Cavid əsərin ilk oxunuşunu Naxçıvan Teatrında keçirir. Kollektiv tərəfindən böyük ruh yüksəkliyi və rəğbətlə qarşılanan bu pyesin müzakirəsindən sonra Hüseyn Cavid əsər üzərində bir daha işləyəcəyini, bəzi əlavə və düzəlişlər edərək onu yenidən məhz bu kollektivə təqdim edəcəyini bildirmş, pyesə ilk səhnə həyatının da Naxçıvanda verilməsini arzulamışdır. Bundan sonra Bakıya gedən böyük dramaturqun bir daha doğma Naxçıvana gəlmək imkanı olmamışdır.

1920-ci ildə 6 mart tarixli “İstiqlal” qəzeti yazırdı: “Məşhur müqtədir şairlərimizdən Hüseyn Cavid “İblis” namında bir pyes qələmə almışdır. Neçə gün bundan müqəddəm Cavid əfəndi pyesini “Yaşıl qələm” dərnəyində oxumuşdur. İndi Dövləti Teatr aktyorları arasında “İblis”i səhnəyə qoymaq fikri oyanmışdır” (1, s. 546). Lakin əsərin ilk dəfə səhnəyə qoyulması Azərbaycanda deyil, Aşqabadda baş tutmuşdur.

Beləliklə, 1919-cu ildən 1920-ci ilin ortalarınadək müstəqil, demokratik respublikanın tərkibində olan Araz-Türk Cümhuriyyətinin paytaxtı Naxçıvan şəhərində maarif və mədəniyyət müəssisələri, həmçinin də teatr mübariz, məhsuldar və səmərəli bir şəkildə öz fəaliyyətlərini davam etdirmişlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan teatrının salnaməsi (1850-1920). Tərtibçi: Məmmədli Q.M. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, 584 s.
2. Hüseynzadə L.T. Naxçıvan Teatrı tarixindən. Bakı: Qarant, 2003, 64 s.
3. Məmmədli Q.M. Molla Nəsrəddin. (C.Məmmədquluzadənin həyat və fəalliyətinin salnaməsi). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 562 s.
4. Qəhrəmanov Ə.K. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı: “ Min bir mahnı”, 2004, 412 s.
5. Məmmədova G.M. “Qarabəkir əfsanəsi” (Sənədli roman). Bakı: Zaman, 2001, 487 s.

**Алекбер Гасымов**

**НАХЧЫВАНСКИЙ ТЕАТР В 1918-1920 ГОДАХ**

В статюе всесторонне рассказывается о развитие и процветании Нахчыванского Театра, одного из старейщих очагов искусства Азербайджана во времена Демократической Республики.

Одновременно здесю широко отмечено интерес и забота местному театру, тесное сотрудничество с творческим составом легендарного командарма Турецкой Армии Кязима Карабекир паши побывавший в 1918 году в Нахчыване.

В этом исследователюном материале диссертанта Института Архитектуры и Искусства НАНА А.Гасымова был изучен репертуар того времени, дана всесторонняя информация о сыгранных спектаклях, освещено творческие связи с театром Джалила Мамедкулузаде и Гусейна Джавида в те годы.

**Alakbar Gasimov**

**THE NAKHCHIVAN THEATRE IN THE 1918-1920 th YEARS**

This article deals with the development stages of the Nakhchivan Theatre, one of the ancient art hearth of Azerbaijan, during the Democratic Republic.

In this article it is also mentioned about the legendary army commander of Turkey Kazim Garabakir Pashas interest and care to the local theatre, and his close cooperation with creative staff, in Nakhchivan in 1918.

In this research material of A.Qasimov, the candidate of the Institute of Architecture and Art of Azerbaijan National Sciense of Academy, the repertoire was researched information was given about staged performances at that time at the Nakhchivan Theatre relations of Jalil Mammadguluzadeh and Huseyn Javid with the theatre were investigated.

***Rəyçilər: AMEA-nın müxbir üzvü, fililogiya e.d., prof. Ə.Quliyev, sənətşünaslıq n. Ə.Qəhrəmanov.***

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Elmi Şürasının 21 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

## İQTİSADİYYAT VƏ FƏLSƏFƏ

**RƏCƏB RƏHİMLİ**
AMEA Naxçıvan Bölməsi

# YERLİ ÖZÜNÜİDARƏ QURUMLARININ İNKİŞAFINDA BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU

Müasir dünyada beynəlxalq münasibətlər sisteminin ənənəvi faktorları hesab olunan milli dövlətlərlə yanaşı, beynəlxalq təşkilatların rolu da getdikcə genişlənir. Hazırda beynəlxalq təşkilatlar mürəkkəb bir sistem təşkil edərək dövlətlərarası münasibətlərdə, xüsusən dünyada gedən siyasi proseslərdə özünəməxsus rol oynayırlar. Onların beynəlxalq həyata mühüm və həlledici təsir göstərməsi müxtəlif tarixi mərhələlərdən keçərək, müasir dövrdə bu münasibətlərin institutlaşmasında, dövlətlərarası qarşılıqlı əlaqələrin və əməkdaşlığın yaranmasında ciddi faktora çevrilmişdir (10, s. 184).

İkinci Dünya müharibəsindən sonra meydana çıxan bölgəsəl və beynəlxalq ittifaqların yerli özünüidarələrin yenidən formalaşmasına böyük təsiri olmuşdur. Xüsusən Birləşmiş Millətlər Təşkilatı (6), Avropa İttifaqı və Avropa Şurası tərəfindən bu məsələ ilə əlaqədar geniş tədbirlər həyata keçirilmişdir. Post sovet ölkələri başda olmaqla Şərqi Avropa ölkələrindəki sistem dəyişikliyi bütün sahələrdə olduğu kimi yerli özünüidarələrdə də demokratikləşmə meyllərini artırmışdır (9, s. 5-8).

Günümüzdə yerli özünüidarəçilik fikrinin prioritet qazanmasında və inkişafında əsas rol oynayan beynəlxalq təşkilatlardan biri Avropa Şurasıdır. Avropanın birləşməsinə yönəlmiş ilk addımlardan biri olan Avropa Şurasının nizamnaməsi 1949-cü ilin may ayının 5-də qəbul edilməklə Avropa Şurası yaradılmışdır. Şuranın əsas məqsədləri: üzv dövlətlərin ideya və prinsiplərinin müdafiə və həyata keçirilməsi üçün onlar arasında sıx əlaqələr yaratmaq; Avropanın demokratik və təhlükəsiz əraziyə çevrilməsinə kömək etmək; plüralizm, demokratiya və insan hüquqlarının müdafiəsi; vahid mədəniyyətin formalaşması üçün Avropa özünüdərkini möhkəmləndirmək və inkişaf etdirmək; üzv dövlətlərin iqtisadi və sosial tərəqqisinə yardım etmək; XXI yüzillikdə meydana çıxa bilən problemlərin həlli yollarını axtarmaq; təşkilatın fəaliyyətini demokratik və təhlükəsiz Avropa yaratmaq prosesində iştirak edən başqa institutların işi ilə sıx əlaqələndirməkdir (18, s. 71; 21, s. 30-33).

Yarandığı gündən etibarən yerli özünüidarə problemləri ilə fəal şəkildə məşğul olan Avropa Şurası 1959-cu ildə "Avropa yerli və regional hakimiyyətlər daimi konfransı" adlı məşvərətçi bir orqan yaratmışdır. Yerli Özünüidarəetmə haqqında Avropa Xartiyasının hazırlanmasında bu orqanın müstəsna rolu olmuşdur. Avropa Şurası Nazirlər Komitəsinin 1994-cü ildə qəbul etdiyi bir qərarla orqanın adında və quruluşunda dəyişiklik edilmişdir. "Avropa yerli və regional hakimiyyətlər daimi konfransı" yerinə "Avropa yerli və regional hakimiyyətlər konqresi" təsis edilmişdir. Konqresin yaradılması, yerli və regional hakimiyyətlərin Avropa İttifaqı ideyasının müvəffəqiyyətlə həyata keçirilməsinə köməklik məqsədi daşıyır (4, s. 8-12).

Konqresin əsas vəzifələri: Avropa Şurasının yerli içmalarla əlaqədar gördüyü işlərdə yerli özünüidarələrin, aktiv şəkildə iştirakını təmin etmək; Avropa ölkələrində, xalqın ehtiyacı və mənfəəti istiqamətində regionlar səviyyəsində mövcud olan mədəni və iqtisadi sahədə fərqləri göz önündə tutaraq, həqiqi mənada müstəqil olan yerli özünüidarə və regional hakimiyyət sistemləri yaratmaq; Şərqi Avropa ölkələrində yerli və regional səviyyədə demokratiyanın inkişafına köməklik göstərmək; bütün Avropada bələdiyyələr və regionlar arasında əlaqələri möhkəmləndirməkdir (20, s. 142-158).

Konqresin iki məclisi vardır. Birincisi yerli özünüidarələr məclisi, ikincisi isə regional hakimiyyətlər məclisidir. İki ildən bir hər məclis özünün sədrini və bürosunu seçir. Konqresin sədri iki ildən bir növbə ilə məclislərdən birindən seçilir. Konqresin bürosuna isə hər iki məclisdən büro üzvləri və konqresin sədri daxil olur.

Konqres yerli özünüidarə və regional hakimiyyətlərin 286 nümayəndəsindən və onların 286 müavinindən ibarətdir. Bu orqan yerli və regional hakimiyyət tərəfindən seçilmiş, yerli və ya regional hakimiyyət orqanlarına hesabat verən vəzifəli şəxslərin nümayəndələrindən ibarətdir. Milli nümayəndələr hər üzv dövlətin müxtəlif inzibati-ərazi qurumunun nümayəndələri olmaqla onları təmsil edirlər. Bütün milli nümayəndələrin üzvlərindən ibarət Daimi Komitə plenar sessiyalararası fasilələrdə konqresin işini təmin edir. Konqres hər iki məclisin fəaliyyətinin səmərəlilik və çevikliyini təmin etmək üçün işçi qrupları yaradır. Eyni zamanda Konqres iştirakçı dövlətlərdə yerli və regional demokratiyanın fəaliyyətində ciddi problemlər olması barədə məlumat aldıqda ora məruzəçilər qrupu göndərir və zəruri hallarda həmin problemlə bağlı məruzələr hazırlayır (19, s. 184).

Bütün bu deyilənlərdən aydın olur ki, Avropa Şurası yerli özünüidarələrə böyük önəm verir və Avropada yerli özünüidarələrin inkişafı üçün mühüm beynəlxalq sənədlər qəbul edir. Bu beynəlxalq sənədlərdən biri də «Yerli özünüidarə haqqında» Avropa Xartiyasıdır. «Yerli özünüidarə haqqında» Avropa Xartiyası 15 oktyabr 1985-ci ildə Avropa Şurası tərəfindən qəbul olunmuşdur. Azərbaycan Respublikası, 25 dekabr 2001-ci ildə "Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasına Azərbaycan Respublikasının qoşulması barədə" Azərbaycan Respublikası Qanununa əsasən həmin

Xartiyaya qoşulmuş və onun müddəalarını həyata keçirməyi öhdəsinə götürmüşdür. Bu Qanun 28 yanvar 2002-ci ildə qüvvəyə minmişdir (15, s. 77).

Xartiyanın preambulasına əsasən Xartiyanı imzalayan Avropa Şurasının üzv dövlətləri belə hesab edirlər ki, Avropa Şurasının məqsədi ümumi ideya və prinsipləri həyata keçirmək və müdafiə etmək naminə onun üzvləri arasında möhkəm birliyə nail olmaqdır. Bu məqsədə çatmaq üçün istifadə olunan vasitələrdən biri isə yerli özünüidarəçilik sahəsində sazişlərin bağlanmasıdır. Çünkü yerli özünüidarə orqanları hər bir demokratik sistemin başlıca əsaslarından biri hesab olunur. Belə ki, vətəndaşların dövlət idarəçiliyində iştirak hüququ Avropa Şurasına üzv dövlətlərin dəstəklədikləri demokratik prinsiplərə aiddir. Üzv dövlətlər bu hüququn məhz yerli səviyyədə daha asanlıqla həyata keçirilməsinə əmindirlər. Yerli özünüidarə orqanlarının müstəqil real səlahiyyətlərə malik olması, idarəçiliyin səmərəliliyinin yüksəlməsinə, cavabdehliyin və məsuliyyətin artmasına, vətəndaşların idarəetmədə fəal iştirakına səbəb olur (22, s. 2). Bunun nəticəsidir ki, demokratik prinsiplərə və hakimiyyətin əks mərkəzləşdirilməsinə əsaslanan müxtəlif Avropa ölkələrində yerli özünüidarələrin müdafiəsi və möhkəmləndirilməsi ümumavropa quruculuğuna mühüm töhvədir.

«Yerli özünüidarə haqqında» Avropa Xartiyasında yerli özünüidarənin əsas prinsipləri öz ifadəsini tapmışdır. Xartiyanın 2-ci maddəsinə əsasən, yerli özünüidarə prinsipi ölkənin qanunvericiliyi və imkan dairəsində, dövlətin konstitusiyası ilə qəbul edilməlidir. 3-cü maddədə isə yerli özünüidarə anlayışının tərifi verilmişdir. Bu maddəyə əsasən, yerli özünüidarə dedikdə, yerli özünüidarəetmə orqanlarından qanun çərçivəsində, öz səlahiyyəti altında, özünün cavabdehliyi ilə, yerli əhalinin marağını təmin etməklə faktik olaraq dövlət işlərinin əhəmiyyətli hissəsini tənzimləmək və onu idarəetmək bacarığı nəzərdə tutulur (5, s. 16).

Xartiya həmin səlahiyyətlərin azad, gizli, bərabərhüquqlu, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş şuralar və ya iclas üzvləri tərəfindən həyata keçirilməsini nəzərdə tutur. Şura və iclasların nəzdində hesabatlı komissiya və ya icra orqanları fəaliyyət göstərə bilər. Bu hal vətəndaşların birbaşa iclas, referendum və ya qəbul olunmuş başqa formalara müraciətini istisna etmir (2; 3).

Xartiyaya əsasən yerli özünüidarənin əsas səlahiyyətləri konstitusiya və ya qanunlarla müəyyən edilir. Bununla belə, həmin müddəa yerli özünüidarə orqanlarına konkret vəzifələrin yerinə yetirilməsi üçün qanuna müvafiq qaydada əlavə səlahiyyətlərin verilməsini istisna etmir. Yerli özünüidarə orqanları qanunla müəyyən edilmiş hədlərdə onların səlahiyyətlərinə aid olan və ya digər hakimiyyət orqanının səlahiyyətində olmayan hər hansı məsələ ilə bağlı şəxsi təşəbbüsünü həyata keçirmək üçün tam azad fəaliyyət göstərə bilər (15, s. 78-88).

Gördüyümüz kimi yerli özünüidarələrə geniş hüquqlar tanıyan bu Xartiyanın əsas məqsədi qloballaşan dünyada yerli özünüidarələri mərkəziyyətçi xüsusiyyətə malik dövlətə qarşı bir alternativ güc mərkəzi halına

gətirməkdir. Hətta Xartiyaya qoşulan dövlətlərdə Xartiyanın milli qanunvericilikdən üstün qüvvəyə malik olması da buna bir sübutdur.

Azərbaycan Respublikasının "Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası" na dair bəyanatına əsasən, "Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası"nın 12-ci maddəsinin II bəndinə uyğun olaraq Azərbaycan Respublikası aşağıdakı maddə və bəndlər üzrə öhdəliklər götürdüyünü bəyan edir: maddə 2, maddə 3, I və II bəndləri, maddə 4, I, II, IV, V və VI bəndlər, maddə 5, maddə 6, I və II bəndlər, maddə 7, I və III bəndlər, maddə 8, I, II və III bəndlər, maddə 9, I, II, III, IV, VII və VIII bəndlər, maddə 10, I və II bəndlər, maddə 11. Eyni zamanda bəyanatda qeyd edilir ki, Azərbaycan Respublikası Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Xartiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (15, s. 78). Bu sənəd vasitəsi ilə də, bir daha işğal olunmuş ərazilərimiz haqqında məlumat Avropa Şurasının diqqətinə çatdırılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsində göstərilir ki, «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir». Azərbaycanın hüquq nəzəriyyəsində beynəlxalq hüququn üstün mövqeyi mövcuddur ki, bu da öz əksini Konstitusiyanın 151-ci maddəsində tapır. Konstitusiyanın qeyd olunan maddəsinə istinadən demək olar ki, Azərbaycan Respublikasının konstitusiyası və referendumla qəbul edilmiş aktlar istisna olmaqla, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlarla «Yerli özünüidarəetmə haqqında» Avropa Xartiyası arasında ziddiyyət yarandıqda Xartiyanın müddəaları tətbiq edilməlidir.

Xartiyanın Azərbaycan tərəfindən yaxın vaxtda ratifikasiya edilməsinə baxmayaraq, yerli özünüidarəni tənzimləyən milli qanunvericilik onun əsas prinsiplərinin implementasiyası şərti ilə tərtib edilmişdir. Başqa sözlə desək Azərbaycan Respublikasının yerli özünüidarəni tənzimləyən milli qanunvericiliyi Avropada qəbul edilmiş yerli özünüidarə prinsiplərinə əsasən uyğundur (8, s. 9-10).

Yerli özünüidarələrin inkişafında mühüm əhəmiyyətə malik beynəlxalq təşkilatlardan biri də Avropa İttifaqıdır. Avropa İttifaqı iqtisadi əməkdaşlığın yeni hüquqi forması kimi meydana çıxmışdır. Bu birlik formal olaraq müstəqil, lakin bir-biri ilə qarşılıqlı əlaqədə olan üç təşkilatın-1951-ci ildə yaradılmış Avropa Kömür və Polad Birliyi, 1957-ci ildə yaradılmış Atom Enerjisi üzrə Avropa Birliyi və həmin ildə yaradılmış Avropa İqtisadi Əməkdaşlıq Birliyinin birləşməsindən yaradılmışdır. Eyni zamanda Vahid Avropa Birliyinin yaradılması haqqında 1965-ci il Brüssel müqaviləsi, 1975-ci il Lüksemburq müqaviləsi, 1986-cı il Ümumavropa aktı, 1990-cı il Şenqen sazişi, Avropa İttifaqı haqqında 1992-ci il Maastricht müqaviləsi və 1997-ci il Amsterdam sazişi kimi hüquqi aktlarda Avropa İttifaqının əsasən təşkilati-hüquqi quruluşu ifadəsini tapmışdır. Avropa İttifaqı özündə həm

beynəlxalq təşkilatlara xas olan əlamətləri, həm də federativ dövlətə xas əlamətləri birləşdirir (18, s. 59-60; 20, s. 34-42). Avropa İttifaqının məqsədləri: Avropa xalqlarının sıx ittifaqını yaratmaq; daxili sərhədləri olmayan məkan, vahid valyuta yaratmaqla uzunmüddətli iqtisadi tərəqqiyə yardım etmək; beynəlxalq aləmdə birgə xarici syasət yeritmək; ədliyyə və daxili işlər sahəsində əməkdaşlığı inkişaf etdirmək; ümumi nailiyyəti mühafizə edib, inkişaf etdirməkdir. Bu istiqamətlərdə üzv ölkələr qarşılıqlı ticarətdə rüsumların tam aradan qaldırılmasına, vahid xarici gömrük tarifləri müəyyən edilməsinə, bir-biri ilə ticarət əlaqələrində miqdar məhdudiyyətinin aradan qaldırılmasına, vətəndaşların, məhsulun və kapitalın sərhədlərdən azad hərəkətinə, vahid ticarət siyasətinin həyata keçirilməsinə, ümumi hesabat vahidi yaradılmaqla əlaqələndirilən valyuta maliyyə sisteminin yaradılmasına, vahid pul vahidinin (avro) dövriyyəyə buraxılmasına, əhalinin sosial hüquq və təminatının unifikasiyasına (vahid şəklə salınması), vahid patent sisteminin yaradılmasına və s. nail olunmuşdur. Milli vətəndaşlıq mühafizə olunmaqla Avropa İttifaqı üzvü olan ölkələrin vətəndaşları ittifaq vətəndaşlığı da əldə etmişlər (12, s. 87-91).

Avropa İttifaqının yerli hakimiyyət orqanları ilə qarşılıqlı əlaqəsinin təminində mühüm rol oynamış təşkilatlardan biri 1951-ci ildə əsası qoyulmuş Avropa Bələdiyyə və Regionlar Şurasıdır. Təşkilatı yerli özünüidarə orqanlarının bir qrup lideri yaratmışdır. Onlar belə hesab edirdilər ki, birləşmiş Avropanı, adi vətəndaşların yerli birliklərə cəlb edilməsi yolu ilə qurmaq mümkündür. Çünki bu zaman vətəndaşları Bütöv Avropa fikrinə uyğunlaşdırmaq daha asan olacaqdır. 1990-cı ildə Şura Yerli Hakimiyyətlərin Beynəlxalq İttifaqının Avropa Bölməsi ilə birləşərək və hazırda Avropa İttifaqına üzv dövlətlərin milli bölmələrini birləşdirən federasiya şəklində fəaliyyət göstərir. Onlar həmçinin Avropa İttifaqı və Avropa Şurasında yerli və regional idarəçilik orqanlarının təmsilçiliyini həyata keçirirlər. Şura müxtəlif rəsmi orqanlarda öz üzvlərinin iştirakının əlaqələndirilməsini həyata keçirir, öz komitələri vasitəsi ilə siyasi mövqelərini hazırlayır, müxtəlif ölkələrin yerli idarəçilik orqanları arasında texniki əlaqələr və informasiya şəbəkəsini yaratmaq sahəsində əməkdaşlığı həyata keçirir (19, s. 182).

Avropa Komissiyası ilə mərkəzi, regional və yerli hakimiyyətlər arasında əməkdaşlıq əlaqələrinin qurulması məqsədi ilə 1988-ci ildə Yerli və Regional Hakimiyyətin Məşvərətçi Şurası yaradılmışdır. Şura yarandığı gündən etibarən regional proqramların hazırlanması və həyata keçirilməsi, yerli özünüidarələrin fəaliyyətinin gücləndirilməsi prosesində mühüm rol oynamışdır.Məhz Şuranın bu fəaliyyəti, eyni zamanda regional və yerli hakimiyyətlərin Avropa İttifaqının, tərkibində yer almaq arzuları nəzərə alınaraq 7 fevral 1992-ci ildə imzalanan Maastricht müqaviləsi ilə Regionlar Komitəsi yaradılmışdır (7, s. 2). Regionlar Komitəsinin yaradılması ilə üzv olan dövlətlərin mərkəzi idarələrinin xaricində yerli və regional hakimiyyətlərin İttifaqın qərar qəbuletmə prosesində, daha doğrusu, Avropa İttifaqının iqtisadi, sosial və siyasi bütünləşməsində iştirak etmələrinin təmin

edilməsi nəzərdə tutulmuşdur. Avropa İttifaqının yarandığı tarixdən bu günə kimi ilk dəfə yerli və regional hakimiyyətləri özündə cəmləşdirən bir quruma İttifaqın təmsil və qərarvermə mexanizmlərində iştirak etmək hüququ verilmişdir. Bu vasitə ilə bələdiyyələr və regional hakimiyyətlər özləri ilə əlaqədar, proqramların hazırlanması və qərarların qəbul edilməsi prosesində fəal iştirak etmək imkanı əldə etmişlər. Regional siyasət, kənd təsərrüfatı, nəqliyyat və kommunikasiya, ekologiya, sosial siyasət və səhiyyənin planlaşdırılması Komitənin müzakirəyə çıxardığı əsas məsələlərdir. Ümumavropa səviyyəsində bu sahələr üzrə qərarların qəbul edilməsində yerli və regional orqanların fikirləri önəmli hesab olunur (24, s. 235-240).

Mart 1994-cü ildən fəaliyyətdə olan Regionlar Komitəsinin 222 üzvü vardır. Nümayəndələr üzv olan ölkələr tərəfindən, yerli və regional hakimiyyətin quruluşuna görə, bələdiyyə sədrləri, regional hakimiyyətlərin məclis sədrləri və ya nümayəndələri, rayon və qəsəbə nümayəndələri dörd illik müddətə seçilirlər. İttifaqa üzv olan ölkələrdən bəzilərində Regionlar Komitəsinə üzvləri hökumətlərin özləri müəyyənləşdirir. Məsələn, Fransa və İngiltərə. Digər üzv olan ölkələr isə Regionlar Komitəsinə üzvləri seçmək hüququnu regional və yerli hakimiyyətlərin özlərinə həvalə etmişlər (1, s. 38-43; 16, s. 644-648).

Regionlar Komitəsinin fəallığı nəticəsində Maastrichtdə imzalanan Avropa İttifaqı müqaviləsində ictimai xidmətlərin, xalqa ən yaxın orqan olan yerli özünüidarələr tərəfindən göstərilməsini zəruri sayan "xidmətdə xalqa yaxınlıq (subsidiarity)" prinsipi qəbul edilmişdir. Burada bir məsələni qeyd etmək istəyirik ki, bu prinsip eyni zamanda Maastricht müqaviləsinə, birlik – üzv dövlət-regionlar arasında səlahiyyət bölgüsünü məcburi hala gətirmək üçün qoyulmuşdur. (m. 3b). Bu prinsip daha sonra Amsterdam anlaşmasının Avropa tək sənədində də öz əksini tapmışdır (13, s. 11-14).

Avropa Birliyi içərisində geniş təsir dairəsinə sahib olan bu prinsipin Birliyə üzv olmayan dövlətlərin idari strukturları üçün də, yolgöstərici bir xüsusiyyəti mövcuddur. Bu əsasən yerli özünüidarəetmə orqanları ilə dövlət hakimiyyət orqanları arasında səlahiyyətlərin bölüşdürülməsində özünü büruzə verir. Bunun nəticəsidir ki, Subsidiarity prinsipi bir çox ədəbiyyatlarda səlahiyyət bölgüsündən ziyadə yerli özünüidarəetmə orqanlarının əsasını təşkil edən "Xidmətdə xalqa yaxınlıq" kimi mənimsənilir (23, s. 3-4). Sanki səlahiyyət bölgüsü ilə xidmətdə xalqa yaxınlıq arasında bir körpü yaradılır. Xüsusilə Avropa Birliyi tərəfindən bu prinsip etnik azlıqların mövcud olduğu və müstəqilliyini yeni qazanan dövlətlərdə yerli özünüidarəetmə orqanlarının gücləndirilməsi üçün "Xidmətdə xalqa yaxınlıq" prinsipi olaraq empoze edilməyə çalışılır. F.L.Knemeyer də yazısında Subsidiarity prinsipini dövlət hakimiyyət orqanları qarşısında yerli özünüidarəetmə orqanlarını qoruyan bir prinsip kimi qiymətləndirir (14, s. 40).

Avropa Xartiyasının 3-cü maddəsinin 1-ci bəndində deyilir: "Müstəqil yerli özünüidarəetmə düşümü; yerli özünüidarəetmə orqanları, qanunların onlara verdiyi səlahiyyət çərçivəsində dövlətin vətəndaşlara vermək

məcburiyyətində olduğu xidmətlərin böyük bir bölümünü bilavasitə və vətəndaşların ehtiyacları və istəkləri doğrultusunda həyata keçirir" (17, s. 25-30). Bu tərifin verilməsi ilə Avropa Şurası və Avropa Birliyi üçün xidmətlərin xalqa daha tez və mütəşəkkil şəkildə verilməsində yerli özünüidarəetmə orqanlarının müstəqilliyinin önəmi vurğulanmışdır. Fikrimizcə, Subsidiarity prinsipinin Avropa Birliyi anlaşmasına daxil edilməsinin əsas səbəbi də budur.

Yerli Özünüidarəetmə Haqqında Avropa Xartiyasının Subsidiarity prinsipini açıqlayan digər bir maddəsi isə 4-cü maddənin 3-cü bəndidir. Bu bəndə görə: "Vətəndaşa ən yaxın yerli özünüidarəetmə orqanı iqtisadi və ya başqa səbəblərdən xidmətin verilməsində çətinlik çəkərsə, yalnız o zaman dövlət hakimiyyət orqanları xidmətin verilməsində səlahiyyətli sayılacaqlar" (11, s. 8-9).

Göründüyü kimi yerli özünüidarəetmə sisteminin inkişafında rol oynayan beynəlxalq təşkilatların əsas məqsədləri vətəndaşların arzu və ehtiyaclarını nəzərə alan idarəçilik mədəniyyətinin inkişaf etdirilməsidir. Bunun üçün də əsas şərt yerli demokratiyanın inkişafıdır. Yerli demokratiya, xalqı birbaşa maraqlandıran, gündəlik həyatında əhəmiyyətli yer tutan həqiqi və görülən problemlərin gündəliyinin müəyyən etdiyi, müqayisə edilib qərar verildiyi və tətbiq edilməyə başlandığı bir kiçikmiqyaslı dünyadır. Demokratiya isə ancaq aşağıdan yuxarıya doğru vətəndaşın iştirak və təmsil kimi xüsusiyyətlərinin qurumlarda yaşana bilməsi ilə mümkündür.

## ƏDƏBİYYAT


1. Arıkan E. Bütünleşen Avrupada yerel yönetimler// Görüş dergisi, mart 2004, s. 38-51.
2. Avrupa antlaşmaları: Avrupa yerel yönetimler özerklik şartı/ http: // 66. 249.93.104/search?q=cache:M3sXbECnl10J: www.belgenet.com/arsiv/sozles, 03.12.2005, 7 s.
3. Avrupa Birligi temel haklar bildirgesi/ http: //www.belgenet.com/arsiv/ sozlesme/ ab_thb.html, 03.12.2005, 10 s.
4. Bozkurt Ö. Siyasal ve kurumsal yönleriyle, Maastrıcht antlaşması ve Avrupa bütünleşmesi // Amme idaresi dergisi, mart 1993, XXVI c., sayı 1, s. 7-25.
5. Bələdiyyə xəbərləri: qanunvericilik və təcrübə. № 2, Bakı: Adiloğlu, 2002, 44 s.
6. BM ekonomik, sosyal ve kültürel haklar sözleşmesi/ http: //www.belgenet.com/arsiv/bm/bmekohak.html, 03.12.2005, 8 s.
7. CoR, Five Questions five anwsers. http: // www.cor.eu.int/corz403.htm
8. Əliyev N. Yerli özünüidarə hıqqında Azərbaycan qanunvericiliyi/ Bələdiyyələr: Qanunvericilik, təcrübə və inkişaf. Bakı: Azərnəşr, 2003, s. 8-15.
9. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 367 s.

10. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti (dərslik). Bakı: Azərbaycan, 2005, 752 s.
11. Hizmette yerellik (Subsidiyarite) ilkesinin tanımı ve sınırları. Avrupa Konseyi Yerel ve Bölgesel Yönetimler Yönlendirme Komitesi (CDLR). Ankara:Mahalli İdareler Genel Müdürlügü, 1995, 42 s.
12. İbadov R. Avropa ittifaqının əsasları. Bakı: Qapp-Poliqraf, 2004, 212 s.
13. Köşecik M. Yerel ve bölgesel yönetimler açısından Avrupa Birligi, bütünleşme süreci ve anayasası/Avrupa perspektivinde yerel yönetimler. İstanbul: Alfa Aktüel yayınları, 2006, s. 1-43.
14. Knemeyer L.F., Subsidiaritaet-föderalismus-regionalismus-desentralisation-kommune /F-L. Knemeyer. Nemos Verlagsgesellschaft. 1. Auflage. Baden-Baden, 1994, pp. 25-60.
15. Qaralov Z. Azərbaycanda yerli və regional özünüidarəetmənin perspektivləri. Bakı: Pedaqogika, 2002. 128 s.
16. Özcan M. Subsidiarite ilkesinin Avrupa Birligi’nde uygulanması ve yerel yönetimler bağlamında Türkiye’de uyğulanabilirliği üzerine bir değerlendirme / Yerel yönetimler simpozyumu, 1-2 kasım 2000, s. 643-659.
17. Özel M. Kamu yönetiminde yeni bir örgütlenme ilkesi: yerellik (Subsidiaritaet) // Çağdaş yerel yönetimler dergisi, temmuz 2000, c. IX, sayı 3, s. 25-43.
18. Rəcəbli H., İbayev V. Avropa beynəlxalq təşkilatları. Bakı: Qanun, 1999, 92 s.
19. Salahzadə Ə. Yerli özünüidarəçiliyin inkişafında beynəlxalq təşkilatların rolu // Dirçəliş XXI əsr. Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu. Dekabr 2005-Yanvar 2006, s. 181-186.
20. Tekinalp G., Tekinalp Ü. Avrupa Birligi hukuku. İstanbul: Beta yayınları, II Baskı, 2000, 356 s.
21. Vəliyev A. Azərbaycan-Avropa Şurası. Bakı: Elm, 2006, 236 s.
22. Yerli Özünüidarəetmə Haqqında Avropa Xartiyası. Strasburq, Avropa nəşr və sənədlər şöbəsi, JSB № 92-0804-8, may 1990, 10 s.
23. Yeter E. Avrupa yerel yönetimler özerklik şartı karşısında Türkiye: Anayasa ve ilgili yasalarda durum // Çağdaş yerel yönetimler dergisi, ocak 1996, c. V, sayı 1, s. 3-13.
24. Wiehler F., Stumm T. The powers of regional and local authorities and their role in the European Union / European planninq studies, 1995, Vol 3, Issue 2, pp. 227-251.

**Раджаб Рагимли**

## РОЛЬ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ В РАЗВИТИИ СТРУКТУР МЕСТНЫХ САМОУПРАВЛЕНИЙ

В конце XX века, завоевав свою независимость, в Азербайджане начинались социальные, политические, экономические, культурные реформы одновременно и в системе самоуправлений. В этих реформах учтено о новом формировании центральных государственных органов рядом с ними и о создании местных самоуправлений.

В статье всесторонне исследуется определенную роль международных организаций в развитии структур местных самоуправлений, особенно выделено места в изучении усовершенствование и участье Объединенной Организаций Нации, Союз Европы, Европейский Совет при систематизации местных самоуправлений.

При исследовании темы, автором выявлено многие научные новизны связанные с местными самоуправлениями.

**Rajab Rahimli**

## ROLE OF THE INTERNATIONAL ORGANIZATIONS DEVELOPMENT OF THE LOCAL ADMINISTRATIVE ORGANIZATIONS

At the end of the XX centuries in gained independence Azerbaijan has begun carrying out in the management system of the reforms together with in the social, political, economical and cultural area. These reforms intend creation of the local administrative organizations along with anew of the central state organs. To come to light the of the international organizations on development of the local administ-rative organs, especially improving of the local administrative organs of the United Nations, European Union, European Council activity was widely roomed in the article.

***Rəyçilər: Akademik İ.Hacıyev, iqtisad e.d. N.Əhmədov.***

***AMEA-nın İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun Elmi Şurasının 28 noyabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №3).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**MƏMMƏD RZAYEV,**
**ABBAS ƏHMƏDOV**
Naxçıvan Dövlət Universiteti

# ŞƏXSİYYƏTİN AZADLIĞI VƏ MƏSULİYYƏTİNİN VƏHDƏTİ

Şəxsiyyətin azadlığı bütün dövrlərdə onun məsuliyyətindən ayrılmazdır. Bu iki tərəfin sıx vəhdəti müasir dövr üçün daha çox səciyyəvidir. Hazırda azadlıq və məsuliyyət bir-birilə sıx qarşılıqlı təsirdə çıxış edərək demokratikləşmənin genişlənməsində, fərd ilə cəmiyyət arasında münasibətlərin tənzim olunmasında, şəxsiyyətin formalaşması və inkişafı prosesində böyük rol oynayır. Müasir cəmiyyətdə bu anlayışların vəhdəti daha da möhkəmlənir. Belə ki, insanın öz hərəkətləri üçün məsuliyyət daşıması onun azadlığının reallaşmasının zəruri şərtidir, o eyni zamanda başqa adamların da azadlıqlarının həyata keçməsi deməkdir (1, s. 68).

Şəxsiyyətin azadlıq və məsuliyyəti bir çox cəhətdən mövcud sosial mühit ilə şərtlənir, lakin burada onun öztəşkili və ozintizamı həlledici yer tutur. Fərd sosiallaşma prosesi ilə irəlilədikcə, onun azadlığı genişlənir və məsuliyyəti artır. Onlar bir-birilə qarşılıqlı asılılıqda çıxış edərək, şəxsiyyətin mənəvi simasının zənginlik dərəcəsinin əsas göstəricisi rolunu oynayırlar.

İndi belə bir həqiqət hamıya aydın olmaqdadır ki, şəxsiyyətin inkişafı təkcə cəmiyyətdən asılı deyildir, həm də bir çox cəhətdən cəmiyyətin tərəqqisi şəxsiyyətin azad yaradıcı fəallığı və yüksək məsuliyyətindən asılıdır. Təsadüfi deyildir ki, K.Popper şəxsiyyətin azadlıq və məsuliyyətinin qarşılıqlı əlaqəli inkişafını açıq cəmiyyət qurmağın zəruri şərti kimi qiymətləndirirdi (2, s. 488).

Müasir cəmiyyətdə baş verən əsaslı və hərtərəfli dəyişikliklər gedişində azadlıq və məsuliyyət ideyaları kütləvi şüura və ictimai psixologiyaya dərindən nüfuz etməkdədir. Bu onunla izah edilir ki, sosial məsuliyyət hər bir cəmiyyətin və eləcə də onun hər bir üzvünün ayrılmaz keyfiyyət səciyyəsini təşkil edir. O, cəmiyyətin təşəkkülünün ilk dövrlərində yaranmış, sonralar ictimai həyatın təkamülü gedişində siyasi, mədəni, mənəvi və digər ictimai münasibətlərin yetkinlik səviyyəsinin çox mühüm göstəricisinə çevrilmişdir.

Müasir dövrdə şəxsiyyətin sosial məsuliyyəti onun insanlıq mahiyyətinin ən mühüm əlamətlərindən birinin özünəməxsus şəkildə təzahürüdür.

Məsuliyyətlilik şəxsiyyətin strukturunun həlledici elementi olmaqla, onun azadlıq səviyyəsinin və davranışının əsas istiqamətini müəyyən edir (3, s. 63).

Bəzən məsuliyyəti etik kateqoriya hesab edirlər ki, bu fikirlə razılaşmaq olmaz. Çünki məsuliyyət geniş mənada götürüldükdə, sosial fəlsəfənin kateqoriyasıdır. Etik mənada anlaşılan məsuliyyət bu ümumi sosial məsuliyyətin konkret formasıdır. Son dərəcə mürəkkəb məzmunlu sosial hadisə olan sosial məsuliyyət şəxsiyyət ilə cəmiyyət arasında münasibətlərin spesifik en kəsiyini təşkil edir. O, şəxsiyyətin həyatında o dərəcədə mühüm rol oynayır ki, bəzi müəlliflər haqlı olaraq «məsuliyyəti şəxsiyyətin başlıca əlaməti, onun formalaşmasını isə tərbiyə və özünü tərbiyənin əsas vəzifəsi» hesab edirlər (4, s. 41).

Şəxsiyyətin sosial məsuliyyətinin məzmununda aşağıdakı əsas tərəfləri seçib ayırmaq olar: a) şəxsiyyətin sosial əhəmiyyət kəsb edən davranışı, b) iradə azadlığı, c) şəxsiyyətə göstərilən ictimai təsirin ölçüsü.

Onların hər biri ayrılıqda, eləcə də hər üçü birlikdə şəxsiyyət-cəmiyyət sisteminin universal qarşılıqlı təsirini ifadə edir. **Sosial məsuliyyət şəxsiyyətin öz hərəkətlərinin törədə biləcəyi nəticələri irəlicədən görmək məharəti və onlar üçün cəmiyyət qarşısında cavabdehliyini başa düşməsi deməkdir**. O həm də fərdin psixiki funksiyalarından (emosional-hissi, idrakı və davranış) ayrılmazdır. Şəxsiyyətin çox mühüm sosial atributu olan məsuliyyət, onun aşağıdakı keyfiyyətlərinin göstəricisi rolunu oynayır (başqalarının halına acımaq, həssaslıq, qayğıkeşlik, təkidlilik, səbirlik, dözümlülük, mütəşəkkillik və s).

Müasir şəxsiyyət də obyektiv aləmi və cəmiyyətdə gedən prosesləri hər şeydən əvvəl öz fərdi həyat şəraiti prizmasından əks etdirir. Buna uyğun olaraq şəxsiyyət müstəqil və azad fəaliyyət göstərir və deməli öz hərəkət və əməlləri üçün cavabdehlik, məsuliyyət daşıyır. Əlbəttə, o, müəyyən hərəkət və davranışı seçməkdə azaddır. Bu onu yaradıcı subyekt kimi səciyyələndirir və aşağıdakı cəhətləri ifadə edir: seçimin şüurlu və könüllülüyü; qarşıya məqsəd qoyub, müəyyən nəticələri əldə etmək niyyəti; onu hərəkətə yönəldən sövqedici motivlərin başa düşülməsi; öz əməllərinin nəticələrinin dərk olunması və s. Bütün bunlar, yəni onun azadlıq göstəriciləri eyni zamanda şəxsiyyətin məsuliyyətinin müəyyən olunmasında çox mühüm rol oynayır. Əgər şəxsiyyət öz hərəkətlərini azad seçirsə, bu onu məsuliyyətdən azad etmir, çünki azad seçim olmayan yerdə məsuliyyətdən danışmaq əbəsdir. Buradan aydın olur ki, şəxsiyyətin azadlığı və məsuliyyəti onun formalaşması və inkişafı prosesində bir-birilə sıx bağlı iki çox mühüm tərəfdir. Bu münasibətdə belə bir fikir ilə razılaşmaq olar: «Müasir cəmiyyətdə insanın öz hərəkətləri üçün məsuliyyəti onun azadlığının reallaşdırılmasının zəruri şərtidir.... Buradan o irəli gəlir ki, hər bir konkret halda azadlığın səviyyəsi məhz onun tərəfindən obyektiv sosial şəraitin başa düşülməsi dərəcəsi, onun öz şəxsi mənəvi borcu və şəxsi məsuliyyətini anlaması səviyyəsi ilə müəyyən olunur» (1, s. 68).

Şəxsiyyətin azadlığı və məsuliyyətinin qarşılıqlı münasibətləri donuq və sabit xarakter daşımır, əksinə daim yeniləşir və inkişaf edir. Bu proses öz təbiətinə görə dialektik xarakter daşıyır, yəni asan və rəvan getmir, müxtəlif istiqamətləri, çətinlikləri və ziddiyyətləri də əhatə edir.

Şəxsiyyətin azadlığı və məsuliyyətinin əlaqəli olduğunu qeyd etməklə məsələ bitmir. Əsas vəzifə müasir şəraitdə onların qarşılıqlı təsir mexanizmini açmaqdır. Məsələyə bu istiqamətdən yanaşdıqda ilk öncə qeyd olunmalıdır ki, məsuliyyətin bütün formaları (siyasi, hüquqi, mənəvi, peşə, ekoloji və s) iradə azadlığının zəruri olaraq müəyyən qədər məhdudlaşdırılmasının vasitəsi kimi çıxış edir. Sonra, müəyyən davranış xətti seçmək azadlığı ilə həmin hərəkət üçün məsuliyyət daşımağın qarşılıqlı əlaqəsinin xarakteri, bu və ya digər situasiyada şəxsiyyətin malik olduğu seçim variantlarının (imkanlarının) genişliyi dərəcəsindən asılı olaraq müxtəlif şəkildə təzahür edir. Daha dəqiq desək, şəxsiyyətə təqdim olunan seçim imkanlarının sayı nə qədər çox olursa, onun məsuliyyəti də bir o qədər yüksək olur. Bu münasibətdə göstərilməlidir ki, açıq cəmiyyətin əsaslarının formalaşmaqda olduğu indiki dövrdə şəxsiyyətin seçim imkanları özünün durmadan genişlənməsi ilə səciyyələnir. Buradan isə məntiqi olaraq belə bir nəticə hasil olur: deməli onun məsuliyyəti də daim yüksəlməkdədir. Bu tamamilə təbii və qanunauyğun hesab edilməlidir, çünki dərindən nəzər saldıqda şəxsiyyətin azadlığı bu deməkdir ki, o öz hərəkətlərini və şəxsi keyfiyyətlərini dərketmə obyektinə çevirir və bu yönümdə olan fəaliyyəti nəticəsində təbiətin və mövcud ictimai münasibətlər sisteminin onun qarşısında açdığı imkanlara yaradıcı yanaşaraq, onları daha da genişləndirir. Qeyd olunmalıdır ki, bu proses birdən-birə baş vermir, cəmiyyətin inkişafı boyu davamlı olaraq və təkamül edir, yəni cəmiyyətin tarixi, əslində insanın azadlığının sonsuz olan təkmilləşməsi prosesinin həyata keçirilməsi yolunda ayrı-ayrı mərhələlər deməkdir. Sözügedən prosesdə məsuliyyətin əsas rolu şəxsiyyət-cəmiyyət münasibətlərinin dinamikasına uyğun olaraq şəxsiyyətin davranışını sosial baxımdan tənzim etməkdir. Sonuncunun səviyyəsi mövcud ictimai münasibətlərin yetkinlik dərəcəsindən və şəxsiyyətin subyektiv göstəricilərinin inkişafından asılıdır. Ümumiyyətlə «şəxsiyyət azadlığı və məsuliyyətinin dialektikası, insanların fəaliyyət prosesində bir-birilə qarşılıqlı asılılıqda olmasının dərinliklərindən irəli gələn üzvü proses, deməkdir».

Bu proses bir-birilə əlaqəli olan aşağıdakı iki tərəfi əhatə edir. Bir tərəfdən şəxsiyyət müəyyən inkişaf səviyyəsində olan sosial mühitə və mövcud ictimai münasibətlər sisteminə zərurən daxil olur və ondan kənarda fəaliyyət göstərə bilməz. Digər tərəfdən, hər bir şəxsiyyət konkret şəraitdə mövcud situasiyada müxtəlif seçim əsasında reaksiya verə bilir (əlbəttə, bu müəyyən hüdudlar daxilində olur). Məsuliyyət də iki məqamın nəticəsini ifadə edir: a) vacib və zəruri olanın yerinə yetirilməsi, b) seçim yollarının müəyyənləşdirilməsi və ona çatmağın vasitələrinin işlənib hazırlanması. Göründüyü kimi, sonuncu tərəf öz mahiyyətinə görə subyektivin (yəni müm-

kün olanın) obyektivə, yəni vacib olana münasibəti deməkdir. Başqa sözlə deyilsə, bu azadlığın səviyyəsi və hüdudları məsələsidir.

Deyilənlərdən aydın olur ki, şəxsiyyətin azadlığı və məsuliyyətinin dərin əlaqəliliyi onların öz təbiətindən və şəxsiyyətin sosial mahiyyətinin bütövlüyündən irəli gəlir.

Müasir şəxsiyyətin sosial rolu, onun sosial fəaliyyətinin müxtəlif tərəflərində yerinə yetirdiyi funksiyalar təkcə obyektiv tələbatlar ilə deyil, həm də bu tələbatların inikası olan mənəvi amillər ilə şərtlənir. Subyektin obyektiv şərait haqqında biliyi nə qədər yaxşıdırsa, öz azadlığını bir o qədər dolğun reallaşdırır, eynilə də seçilmiş məqsəd və ona nail olmağın yolları obyektiv şəraitə, fəaliyyətin ictimai inkişafının qanunauyğun meyillərinə bir o qədər çox uyğun gəlir. Məsuliyət isə obyektiv şərait, onun dərk olunması və subyektiv müəyyənləşdirilmiş məqsəd ilə şərtlənən hərəkət üsulu seçmək zərurətidir, bu məqsədi həyata keçirmək üçün aktiv fəaliyyət seçimi zərurəti deməkdir. Azadlıq məsuliyyəti doğurur, məsuliyyət isə azadlığı istiqamətləndirir (3, s. 72).

Şəxsiyyətin azadlığı və məsuliyyəti öz mahiyyətinə görə aşağıdakılar deməkdir: onun tərəfindən zəruri olan və eyni zamanda arzu olunan məqsədə yönəlmiş fəaliyyət istiqamətinin axtarılıb tapılması; onlara nail olmaq üçün real imkanların müəyyənləşdirilməsi; irəli sürülmüş məqsədləri reallaşdırmaq üçün fəaliyyət üsullarının seçilməsi və bu fəaliyyətin özü. Bu mənada V.E.Davidoviçin aşağıdakı fikri çox haqlı səslənir:

«İnsan seçim imkanına malik olduğu və bu seçimin onun özündən asılı olduğu, yəni onun tutduğu mövqe ilə müəyyən olunduğu bütün hallarda azaddır. Öz hərəkətini obyektiv seçmək imkanı, öz iradəsinə uyğun olaraq davranış aktı həyata keçirmək, sosial məsuliyyətin bütün növlərinin əsasını təşkil edir. Azadlıq və məsuliyyət bir-birindən ayrılıqda mövcud deyildir. Bundan əlavə azadlıq sferasının genişlənməsi, həm də hamının və hər kəsin öz işi üçün məsuliyyətinin yüksəlməsi deməkdir» (5, s. 18).

Keçid dövrü şəxsiyyətinin həyat fəaliyyətinin bütün sahələrində azadlıq ilə məsuliyyətin vəhdəti daha da möhkəmlənir. Onlar demokratik ictimai quruluşun iki mühüm təməlini təşkil edir. Açıq cəmiyyətdə onların sıx bağlılığını ifadə edərək K.Popper yazırdı: «...... hər gün öz məsuliyyətini bir qədər artır! Bu sənin azadlıq naminə edə biləcəyin hər şeydən yaxşıdır» (2, s. 190).

Məsuliyyəti, əldə olunmuş azadlığın meyarı kimi, səciyyələndirərkən, aşağıdakı məqama da diqqət yetirmək tələb olunur. Söhbət ondan gedir ki, məsuliyyətin özü də elə azadlıq deməkdir, lakin o müəyyən ölçü çərçivəsində normalaşmış azadlıqdır. Buna görə də azadlıq və məsuliyyətin inkişaf mərhələləri öz mahiyyəti etibarilə zəkanın inkişafı, ictimai həyatın ağıllı təşkilinin inkişaf pillələri deməkdir.

İnsanda intellektual-mənəvi və iradi keyfiyyətlər nə qədər çox inkişaf edirsə, onun malik olduğu həyat oriyentirləri də bir o qədər ümumibəşəri standartlara və səviyyəyə yaxın olur və onlara müəyyən mənada zənginləş-

dirici təsir göstərir. Bu səviyyəyə yüksəlmiş şəxsiyyət aşağıdakı keyfiyyətləri ilə səciyyələnir: iradə və xarakterin möhkəmliyi, ruh yüksəkliyi və optimizm, azad fəaliyyət göstərmək əzmi, yaradıcılıq, xeyirxahlıq, humanizm, ədalətlilik və s. Həm də bu keyfiyyətlər təkcə sözdə deyil, real praktikada, gündəlik fəaliyyət prosesində özünü göstərməlidir. Sonuncu məqamda şəxsiyyətin azadlığı ilə məsuliyyətinin qarşılıqlı əlaqələri daha bariz şəkildə aşkara çıxır. Bu təsadüfü olmayıb, onunla izah edilir ki, məhz real həyat proseslərində şəxsiyyətin iradəsi ilə cəmiyyətin onun davranışına verdiyi tələbləri müqayisə gedişində bu iradənin həqiqi azadlıq imkanlarını müəyyənləşdirmək mümkündür. Çünki akademik T.İ.Oyzermanın haqlı olaraq qeyd etdiyi kimi: «sosial məsuliyyətin qəbul edilməsi faktı mütləq azadlığa yol verilməsini tələb etmir. Sosial məsuliyyət şüurun ictimai inkişafı ilə, o cümlədən şəxsiyyətin özünün inkişafı ilə şərtlənir» (6, s. 60).

Deyilənlərdən aydın olur ki, azadlıq və məsuliyyət müasir şəxsiyyətin formalaşması və inkişafının iki asılılıqlı və qarşılıqlı surətdə bir-birini tamamlayan tərəfləridir. Demokratikləşmə prosesi genişləndikcə, onların rolu və əhəmiyyəti də durmadan artır, vəhdəti daha da möhkəmlənir. Demokratik proseslərdə adekvat şəxsiyyətin formalaşması yalnız azadlıq şəraitdə mümkün ola bilər. Yalnız azad insanlar məsuliyyətli ola bilərlər və azadlığın olmadığı yerdə əsl məsuliyyət də qeyrim-mümkündür.

Beləliklə yüksək azadlıq və məsuliyyət şüuruna malik olmaq keçid dövrü şəxsiyyətinin çox mühüm keyfiyyəti, onun formalaşması isə tərbiyənin və özünütərbiyənin başlıca məqsədi kimi çıxış edir.

Şəxsiyyətin azadlıq və məsuliyyətinin qarşılıqlı münasibətlərini zərurətdən kənarda təhlil etmək labüd olaraq birtərəflilikə nəticələnir. Zərurətin dərk olunması həm iradə azadlığına malik olmağın, həm də real azad fəaliyyət göstərməyin başlıca komponentlərindən biridir. Zərurət obyektin inkişaf qurumlarının tələbləri ilə üst-üstə düşür. Lakin nəzərdə tutulmalıdır ki, zərurət, xüsusilə də onun ictimai forması – sosial zərurət, özünə təsadüflər vasitəsilə yol açır. Azadlıq həm zərurət və həm də təsadüflər ilə sıx bağlı şəkildə fəaliyyət göstərir. Daha dəqiq deyilsə, azadlıq zərurətin və təsadüflərin təzahür formalarına subyektivlik keyfiyyəti verir. Özü də azadlıq, o cümlədən də seçim azadlığı ictimai inkişafın əsas meyillərinə, onları ifadə edən təsadüflərə daha çox arxalanır (7, s. 49).

Müasir şəxsiyyətin azadlıq və məsuliyyətinin vəhdətinin güclənməsində formalaşmaqda olan vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı böyük rol oynayır. Əslində müasir dövrdə ictimai həyatda qarşıda duran üç başlıca vəzifə (demokratikləşmə, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının yaradılması) bir-birindən ayrılmazdır. Faktiki olaraq, vətəndaş cəmiyyəti həqiqi demokratiyanın və effektiv bazar iqtisadiyyatının ümumi məxrəci deməkdir.

Yuxarıda deyilənlər sübut edir ki, müasir dövrdə şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində hüquq və azadlıqların artması ilə yanaşı onun məsuliyyətinin çoxalması meyli də müşahidə olunur. Bu üç tərəfin

möhkəmlənməkdə olan vəhdəti ölkə daxilində həyata keçirilən əsaslı transformasiya prosesləri ilə şərtlənir. Lakin o, təkcə bununla məhdudlaşmır. Belə ki, bəşəriyyətin həyatında ümumi cəhətlərin çoxalması, dünya birliyi ölkələrinin qarşılıqlı asılılığının artması, qlobal problemləri həll etmək üçün xalqların və dövlətlərin əməkdaşlığı zərurəti, bütövlükdə götürdükdə müasir sosial tərəqqinin hümanistləşməsi meyli müasir dünyada gedən ümumi qloballaşma prosesinə öz güclü təsirini göstərir.

## ƏDƏBİYYAT


1. Пеньков Е.М. Социальные нормы: управление, воспитание, поведение. М.: Из-во Высшая школа, 1975, 175 с.
2. Поппер К. Открытое общество и его враги. М.: Из-во Наука. 1992, 471 с.
3. Косолапов А.И., Марков В.И. Свобода и ответственность. М.: Из-во. Мысль, 1969, 124 с.
4. Формирование духовного мира и НТР. М.: Из-во. Прогресс, 1972, 271 с.
5. Давидович В.Е. Проблемы человеческой свободы. Из-во Львовского Ун-та, 1967, 167 с.
6. Ойзерман Т.И. Марксистско-ленинское понимание свободы. М.: Из-во Высшая школа, 1967, 67 с.
7. Общественная практика и общественные отношения. М.: Мысль, 1982, 576 с.



**Мамед Рзаев, Аббас Ахмедов**


## ЕДИНСТВО СВОБОДЫ ЛИЧНОСТИ И ОТВЕТСТВЕННОСТИ


В статье исследуются специфические аспекты неотделимости во все времена свободы личности с её ответственностью. При этом объектом анализа становились потребности, мотивы деятельности и интересы личности, основанные на ответственности.

Авторы приходят к заключению,что в усилении единства свободы и ответственности личности играют важную роль формирующиеся гражданское сообщество и рыночная экономи.



**Mamed Rzayev, Abbas Ahmadov**


## UNITY OF PERSONALITY FREEDOM AND RESPONSIBILITY


In the article was investigated spesific features of the freedom of the personalityand responsibility in all times. The needs of the personality resting on responsibility, activity motives and interests became the object of investigation.The researcher concludes that market economy and civilized society which is being formed play a great role in the strengthening of the unity personality and responsibility.



***Rəyçilər: Fəlsəfə e.n., dosent N.Rəhimov, fəlsəfə e.n., dosent Y.Hüseynov.***

***Naxçıvan Dövlət Universitetinin Fəlsəfə kafedrasının 29 noyabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**ASİF ŞİRƏLİYEV**
Naxçıvan Dövlət Universiteti

# «KİTABİ-DƏDƏ QORQUD» EPOSUNDA İQTİSADİ MƏNAFELƏR MƏSƏLƏLƏRİ

İqtisadi mənafelər əlaqə və münasibətlər kompleksi olan insanla, onların fəaliyyət birliyinin məcmusunu təmsil edən cəmiyyətlə yaşıddır, onlarla həmişə yanaşı mövcud olur və fəaliyyət göstərir. Aparılan araşdırmalar, tədqiqatlar və elmi təhlillər göstərir ki, orta əsrlərdə bütünlükdə türkdilli xalqların və o cümlədən, Azərbaycan xalqının şifahi və yazılı ədəbiyyatının başlanğıcı, qədim ensiklopedikası, əcdadımız oğuz tayfalarının həyat tərzini və məişətini işıqlandıran və təcəssüm etdirən «Kitabi-Dədə Qorqud» eposunda həm də dövrünün iqtisadi əlaqə və münasibətləri və xüsusilə iqtisadi mənafelər məsələsi əsaslı şəkildə öz əksini tapmışdır. On iki boyu, əhvalatı əhatə edən bu eposda oğuz tayfası və cəmiyyətində mövcud olmuş iqtisadi mənafeləri aşağıdakı qaydada təsnifləşdirmək olar:

1. Şəxsi iqtisadi mənafelər;
2. Ailə iqtisadi mənafeləri;
3. Ayrı-ayrı tayfalar arasında iqtisadi mənafelər;
4. Oğuz tayfaları ilə bütünlükdə oğuz cəmiyyətinin sosial-iqtisadi mənafeləri;
5. Oğuz cəmiyyəti ilə digər ölkələr arasında iqtisadi mənafelər.

Onu da qeyd etmək lazımdır ki, müasir dünya ölkələri və iqtisadi sistemlərdəki mənafelərin reallaşdırılması mənbələrindən fərqli olaraq oğuz tayfalarında ümumiyyətlə oğuz cəmiyyətində bu mənafelər təkcə istehsalın və cəmiyyətin inkişafının sövqedici motivi kimi deyil, eyni zamanda qəhrəmanlıq, igidlik, mülkiyyət və renta münasibətlərinin reallaşdırılmasının sövqedici motivi kimi çıxış edir. Başqa sözlə, eposun təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, oğuz üzvlərinin mənafeyi istehsal ilə yanaşı, qeyri-istehsal sahə və dairələrində da təmin olunur. Bu, oğuz tayfalarında və oğuz cəmiyyətində iqtisadi mənafelərin reallaşdırılması, əlaqələndirilməsi və uzlaşdırılmasının spesifik xüsusiyyətlərini təşkil edir. Lakin istehsalın ümumi sosial formalarından asılı olmayaraq bütün müasir formalarından asılı olmayaraq bütün müasir cəmiyyətlərdə və o cümlədən, keçmiş oğuz dövlət və tayfalarında iqtisadi mənafelərin reallaşdırılması və əlaqələndirilməsi başlıca olaraq istehsala cəlbin sövqedici motivi kimi iqtisadi sahədə baş verir

və reallaşır. Məlumdur ki, mənafelərin təmin edilməsi və ödənilməsi, hər şeydən əvvəl, maddi istehsalda yaradılmış nemətlər hesabına təmin olunur.

İnsan həyatında aqrar bölmə, əkinçilik həmişə üsünlük təşkil etdiyindən «Kitabi-Dədə Qorqud» eposunda da bu məsələ xeyli yer tutur. Burada feodal rentası, verdiyi torpağa görə feodalın iqtisadi mənafeyinin, icarəyə götürülmüş torpaqdan götürülən izafi məhsulun bir hissəsinə görə fərdin də şəxsi iqtisadi mənafeyinin təmin olunması bədii boyalarla əks etdirilmişdir. Özü də burada hələlik feodal rentasında işləyib-ödəmə formasının (biyar) üstünlük təşkil etdiyi göstərilir. Belə ki, torpağı icarəyə götürən şəxs torpağın sahibi olan tayfa başçısına icaryə götürdüyü torpaq payına görə ona odun tədarük etməyə və yem toplamağa borclu idi. Onu da qeyd etmək olar ki, icarə edilmiş torpağa görə tayfa başçısının və torpağı icarə edənin iqtisadi mənafelərinin əlaqələndirilməsi forması köçəri maldarlıq tayfalarında sonralar da tətbiq olunurdu. Bu, əslində tayfa xan-bəyləri ilə tayfa ailələri arasında iqtisadi mənafelərin təmin edilməsi demək idi. Əsas istehsal vasitələri, yəni mal-mülk və torpaq üzərində xüsusi mülkiyyətə əsaslanan sosial quruluşlarda şəxsi iqtisadi mənafelər prioritet olur, mənafelərin digər forma və növlərinə nisbətən üstünlük təşkil edir. Belə ki, eposun «Dirsə xan oğul Buğac xan» boyunda Dirsənin oğlu Buğac Göy xanın oğul, Oğuz xanın nəvəsi, xanlar xanı, oğuz tayfaları və cəmiyyətinin başçısı olan Bayındır xanın buğasını cəsarətlə öldürdüyünə görə atası buğacın şəxsi mənafeyini təmin edir, ona mülk bağışlayır və vəzifə verir. Bu boyda eyni zamanda Dirsə xanın arvadı ərinə deyir ki, oğlu Buğac xanın sağ qalması üçün «Xan atamın yanına mən gedim, ağır xəzinə alım». Zənnimizcə, bu hissədə Dirsə xanın arvadının iki mənafeyi-birincisi, oğlunun sağ qalması və ikincisi, bunun üçün müqabil tərəfin pul, mal vasitəsilə mənafeyin təmin olunması təsvir edilmişdir. Həmin boyda yenə də göstərilir ki, Dirsə xan deyir: «Mənim əllərimi açın, sizə nə istərsəniz verim».

«Yaylaqdan on min qoyun gedirsə, mənimki gedir».

«Qızıl dəvə gedirsə, mənimki gedir».

«Qızıl tağlı evlər gedirsə, mənimki gedir».

Dirsə xan salamat qalmaq mənafeyi naminə qırx namərdin mənafeyini təmin edir, onlarla mal-qara, qızıl təklif olunur və onlar bundan sonra Dirsə xanın əllərini açırlar.

Oğuz tayfalarının başlıca mənafeləri əkinçilik, maldarlıq, sənət və sənətkarlıq sahələri ilə yanaşı, həm də ovçuluq hesabına təmin olunurdu. Onu xatırladaq ki, oğuz tayfaları dövründə ovçuluq onların istehlak tələbatının ödənilməsində mühüm bir mənbə idi. Elə buna görə də bəylər, tayfa başçıları günlər, həta həftələrlə ov dalınca gedirlər. Eposun «Salur Qazanın evinin yağmalanması» boyunda göstərilir ki, xanlar xanı Bayındırın bəylərbəyisi, onun müavini və kürəkəni, Qalın Oğuzun-Böyük Oğuz dövlətinin və oğuz tayfalarının birliyi və ittifaqının dayağı Qazan xan qonaqlıqda bəylərə təklif edir ki, «gedək ov ovlayaq, quş, sığın-geyik vuraq».

Burada söhbət bəy və xanların istirahətindən, əylənməsindən daha çox ov yolu ilə onların maddi tələbatlarının və iqtisadi mənafelərinin təmin olunmasından gedir. Bu, mənafelərin kollektiv formasına aiddir.

«İç Oğuza Daş Oğuzun dönük çıxması və Beyrəyin öldürülməsi» boyunda da mənafelər məsələsinə toxunulmuşdur. Belə ki, Qazan xanın dayısı Aruz Beyrəyə təklif edir ki, Qazan xana qarşı mübarizədə onlara qoşulsun. Beyrək belə cavab verir:

«Mən Qazanın nemətini çox yemişəm,
bilməzsəm, gözümü tutsun!
Yaxşı qaftanlarını çox geymişəm,
Bilməzsəm, kəfənim olsun!»

Öz iqtisadi mənafeyi və tələbatının Qazan xan tərəfindən təmin olunduğunu başa düşən Beyrək Qazan xana qarşı durmur, əksinə, onun mənafeyindn çıxış edir, onunla birlikdə olacağını elan edir.

Şəxsi, ailə və tayfadaxili mənafelər və tələbatlar, onların əlaqələndirilməsinin müxəlif forma və növləri məsələlərinə eposun digər boylarında da rast gəlmək olar. Məsələn, «Bayburanın oğlu Bamsı Beyrək» boyunda Banıçiçəyi Bamsı Beyrəyə almaq üçün Qorqud Dədə qızın qardaşı Dəli Qarcarla görüşür. Qarcar bacısını Bamsı Beyrəyə verməyə və min qoç və s. istəyir. Belə mənafelər və onların ödənilməsi eposun «Qanlı Qoca oğlu Qanturalı» boyunda da təcəssüm etdirilmişdir. Belə ki, Qanturalın atası ona qız almaq üçün gedib-qayıdır və oğlu ondan soruşur ki, «qızın atası qızıl-gümüşmü, qatır-dəvəmi istəyir?» Burada da şəxsi iqtisadi mənafelərin qarşılıqlı ödənilməsinə işarə vardır.

Şəxsi, ailə və tayfa iqtisadi mənafeləri ilə əlaqədar eposun «qazılıq Qoca oğlu Yeynək» boyunda da əsaslı motivlər mövcuddur. Bu əhvalatda təsvir edilir ki, Yeynək atasını zindandan xilas etmək üçün bayındır xandan kömək istəyir. O da Yeynəyə qüvvə verir, köməklik göstərir. Bunlarla atasını həbsdən qurtaran Yeynək əvəzində Bayındır xana şahin, gözəl qumaş, doqquz cərgəz zər naxışlı çuğa bağışlayır. Beləliklə, mənafelər uyğun olaraq ödənilir, uzlaşdırılır. Mənafeyin bu formasını «Salur Qazanın evinin yağmalanması» boyunda da görmək olar. Qazan xana göstərdiyi kömək üçün o, Qaraca çobanı bütün ilxılarına başçı qaytarır, əmiraxur təyin edir. Yenə həmin boyda qazan xan onun mülkünü və anasını aparmış kafir Şöklü məlikə deyir ki, «uca evlərimi götürüb gəlmisən, qiymətli xəzinəm, bol gümüşüm, şahanə atlarım sənə halal olsun, qoca anamı gətirmisən, ay kafir, anamı ver mənə». Burada mənafe ilə yanaşı, ana haqqı-tanrı haqqı məsələsini də görmək olar. Elə bu da oğul-ana mənafeyidir. «Dədə Qorqud» eposunda eyni zamanda kollektiv iqtisadi mənafelər və onların təmin edilməsi və uyğunlaşdırılması da əks etdirlmişdir. «Salur Qazanın evinin yağmalanması» boyunda göstərilir ki, Qazan xan öz xəzinəsini xarici kafirlərdən olan Şöklü Məlikdən geri qaytarmaq üçün ona kömək edən igidlərə çoxlu torpaq, geyim verir. Nəticə etibarilə onların mənafeyini nəzərə alır.

Qəhrəmanlıq eposunun bir çox boylarında həmçinin oğuz tayfalar arası mənafelərə xeyli dərəcədə toxunulmuşdur. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, oğuz tayfaları, oğuz cəmiyyəti və oğuz dövləti 24 vahidli idarəçilik sisteminə keçdikdən sonra ümumtayfa, ümumdövlət mənafeyi formalaşmış, bu mənafe ilə ayrı-ayrı oğuz tayfalarının iqtisadi mənafelərinin uzlaşdırılması məsələsi, ideyası bir iqtisadi zərurət kimi qarşıya çıxmışdır. Belə mənafelərin əlverişli reallaşdırılmaması və əlaqələndirilməməsi bəzi hallarda qohum tayfalar arasında ciddi münaqişəyə gətirib çıxarmışdır. Bu, «İç Oğuza Daş Oğuzun dönük çıxması və Beyrəyin öldürülməsi» boyunda əsaslı və qabarıq təsvir edilmişdir. Boyda göstərilir ki, üç ox və boz ox tayfaları bir yerə toplaşanda Qazan xan adəti üzrə evini (əslində oğuz cəmiyyətinin mal-mülkünü) talan etdirər, bölüşdürərdi. Amma bu dəfə Daş Oğuz orada deyildi. Alanda ancaq İç Oğuz iştirak edirdi. Daş Oğuz bəyləri bunu eşitdikdə dedilər: «Bax, indiyədək Qazanın evini birlikdə talan edərdik, indi nə üçün birlikdə olmayaq? Daş Oğuz bəyləri müttəfiq olub, Qazanın yanına gəlmədilər, ədavət saxladılar». Burada fikrimizcə, söhbət qeyd etdiyimiz kimi, tayfa cəmiyyətinin qazanc-qənimətinin bölüşdürülməsindən və tayfa mənafelərinin təmin edilməsindən gedir.

Həmçinin eposun boylarında oğuz tayfaları ilə xarici, kafir tayfaları və Gürcüstan ölkəsi arasında iqtisadi mənafelərin səciyyəsi cəhələri də əks etdirilmişdir. Eposdakı boy və əhvalatlardan məlum olur ki, Qazan xanın ova getməsindən istifadə edən kafirlərin başçısı Şöklü Məlik öz dəstəsi ilə onun at- dəvələrini aparır, qızıl tağlı evlərini, qiymətli xəzinəsini, bol pulunu talan edir. Nəticə bundan ibarətdir ki, xarici kafirlər tayfası öz mənafeyini təmin etməklə qazan xanın iqtisadi mənafeyinə toxunmuş olur. Belə bir məsələ öz əksini «Bayburanın oğlu Bamsı Beyrək» boyunda da təcəssüm edilmişdir. Təsvir olunur ki, Bayburanın tacirləri onun oğluna hədiyyə almaq üçün İstanbuldan qayıdarkən kafirlər onları soyur, pullarını isə bölüşdürürlər. Bayburanın oğlu Bamsı Beyrək tacirlərin xahişi ilə kafirlərə hücüm edib onların mal-pulunu qaytarır, tacirlər isə ona mal, hədiyyə verirlər. Eposun «Salur Qazanın dustaq olması və oğlu Uruzun onu xilas etməsi» boyunun bir sıra yerlərinə oğuz tayfaları ilə xarici kafir tayfaları arasında iqtisadi mənafe və tələbatlar məsələsi gözə çarpır. Umas qalasında dustaq olan Qazan xanı oranın təkürü çağırıb deyir ki, «üstümüzə qoşun gəlir, bizi bu düşməndən qorusun, səni buraxar və həm də xərac verməyə hazır olarıq». Göründüyü kimi, Tumas təkürü öz mənafeyi naminə Qazan xana xərac vəd edir. Burada açıq-aşkar mənafelər problemi görünür.

«Bəkil oğlu İmran» boyunda oğuz tayfaları və dövləti ilə Gürcütsan ölkəsi arasında iqtisadi mənafelər məsələsinə aid çox ciddi işarələr mövcuddur. Boyda təsvir edilir ki, Gürcüstanın doqquz tümənlik xəracı gəldi, Bayındır xan bərk dilxor oldu. Dədə Qorqud soruşur ki, niyə qanın qaralıb? Burada Bayındır xan oğuz tayfalarının iqtisadi mənafeyinə toxunulması, xəracın dayandırılması göstərilmişdir.

Bütün bunlar belə bir fikri əsaslandırmağa imkan verir ki, oğuz tayfa, dövlət və cəmiyyətinin həyat tərzində və məişətində mənafe problemi də mühüm yer tutmuş, onların reallaşdırılması və əlaqələndirilməsi oğuzların inkişafı və tərəqqisində əsaslı rol oynamışdır.

**Асиф Ширалиев**

## ВОПРОСЫ ЭКОНОМИЧЕСКИХ ИНТЕРЕСОВ «В ЭПОСЕ КИТАБИ-ДЕДЕ КОРГУДА»

В статъе анализируется формы и виды экономических инитересов, изугается вопросы их в эпосе «Китаби-Деде Коркуда», указывается характер действие их в данном эпосе.

**Asif Shiraliev**

## THE ISSUES OF ECONOMIC INTERESTS IN THE EPOS "KITABI-DADA QORQUD"

In the article are analysed the forms and kinds of economic interests, their description in the epos "Kitabi-Dada Qorqud" is studied. The issues of movement of economic interests are shown in the article, as well.

***Rəyçilər: İqtisad e.n., dosent A.Qəribov, İqtisad e.n., dosent M.Cabbarzadə.***

***Naxçıvan Dövlət Universitetinin «İqtisadiyyat və tənzimləmə» kafedrasının 28 oktyabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür.***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**NOVRUZƏLİ RƏHİMOV**
Naxçıvan Dövlət Universiteti

# QLOBALLAŞMA VƏ İNFORMASİYA MÜHİTİ

Qloballaşma dünya miqyasında iqtisadi, siyasi, mədəni və s. əlaqələrin daha da yaxınlaşması kimi xarakterizə olunur. Qloballaşma prosesinin genişlənməsində elmi-texniki nailiyyətlərin rolu böyükdür. Məlumatlandırma texnologiyalarının yüksək dərəcədə inkişaf etməsi və geniş tətbiq sahələrinə malik olması qloballaşdırmanı reallaşdırmaq imkanını artırır. Kompüterləşmənin geniş yayılması ilə əlaqədar insan fəaliyyətinin bütün sahələrinə təsir etmək mümkündür. Ona görə XXI əsri qlobal informasiya cəmiyyəti əsri adlandırırlar.

Qlobal informasiya məkanının formalaşması prinsipcə yeni elmi praktik kateqoriya olaraq informasiya cəmiyyətinə keçidin başlandığını xəbər verir və müasir dövr radikal sosial dəyişikliklərlə səciyyələnir, yəni müxtəlif çağdaş cəmiyyətlər qarşılıqlı əlaqə və qarşılıqlı asılılıqların qlobal sisteminə geniş şəkildə cəlb olunur (2, s. 3).

Tədqiqatçılar faktlara əsaslanaraq göstərirlər ki, kütləvi audio və video informasiya almaqdan ötəri və fəal fərdi əlaqələr üçün texniki vasitələrin miqdarı dünyada dörd milyardı ötmüşdür və ilbəil artmaqdadır.

Əvvəlki elektrik əlaqəsinin yerinə elektron texnologiyasının müxtəlif növlərindən istifadəyə əsaslanan yeni istehsal, texniki baza gəlir. Bu zaman qlobal informasiya məkanının formalaşmasında peyk əlaqəsi və internet mühüm rol oynayır.

Kontinentlərarasındakı telefon danışıqlarının 80 faizindən çoxuna xidmət edən ən iri beynəlxalq təşkilatlardan biri sayılan «İNTENSAT» təqribən 120 ölkəni əhatə edir. Qlobal informasiya məkanının formalaşmasında xüsusi rolu ümumdünya kompüter, telekommunikasiya İnternet sistemi oynayır. İnternetin əsas funksiyası informasiyanın azad surətdə yayılması və insanlar arasında əlaqələrin genişləndirilməsidir.

İnternet sisteminin köməkliyi ilə hər bir insan evindən kənara çıxmadan müxtəlif zəruri məlumatları əldə edə bilir. Bir çox tədqiqatçılar interneti XX əsrin sonu XXI əsrin əvvəllərində yeni iqtisadi və texniki inqilab adlandırırlar.

Belə bir nəticəyə gəlmək olar ki, artıq indi qlobal informasiya məkanının formalaşması üçün kifayət qədər imkan yaranmışdır.

Müasir telekommunikasiyanın inkişafı ilə əlaqədar dünyada birinci yeri ABŞ tutur. İnternetdən istifadə sahəsində ABŞ, Yaponiya və Qərbi Avropa ölkələrindən irəlidədir. Şərqi Avropa, MDB ölkələri telekommunikasiyanın inkişafına görə aşağı səviyyədədirlər. Afrika və Asiyanın böyük hissəsi bu baxımdan daha çox geridə qalır.

XX əsrin 90-cı illərinin ortalarında dünya standartlarına cavab verən rabitə və telekommunikasiya sahəsində ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya ölkələri öndə gedirdi. Rus akademiki N.M.Moiseyevin fikrincə bəşəriyyətin informasiya cəmiyyəti adlanan inkişaf mərhələsinə keçməsini təsdiq etmək hələ tezdir. Çünki zəruri informasiyadan yalnız ayrı-ayrı seçilmiş insan qrupları və yaxud ölkələr istifadə edə bilir. Həqiqi informasiya cəmiyyəti elə cəmiyyətdir ki, burada fərdi ağılın insan orqanizmində oynadığı rolu kollektiv İntellekt ictimai orqanizmdə oynayacaqdır (3, s. 264).

Lakin 2000-ci illə müqaisədə 2007-ci ildə artıq həm kompüterlərin sayına görə həm də müxtəlif ölkələrə yayılmasına və İnternet şəbəkəsinə qoşulmalara görə artıq xeyli irəliləyiş vardır.

Kompüterləşmə insan həyatının bütün sahələrinə daxil olmaqdadır. İntellektual əmək üçün yeni sahələr və şərait yaranır və asudə vaxtdan istifadə imkanları çoxalır. Elektron poçtların köməyi ilə planetin müxtəlif yerlərində olan insanlar hətta müştərək məqalə yazmaq imkanına malik olurlar. Həmçinin kompüter sistemlərinin köməkliyi ilə çoxlu dağınıq faktları toplayıb sistemləşdirmək və hamının istifadə edə biləcəyi vəziyyətə gətirmək mümkündür. Kompüterlər ağır hesablama işlərinin də öhdəsindən uğurla gəlir.

Lakin, nəzərə almaq lazımdır ki, iri informasiya sistemlərinin yaranması ilə yanaşı kompüter cinayətlərinin bütöv seriyası özünü göstərməkdədir. Bura kompüter viruslarının yaranmasından başlayaraq, informasiya texnikasından istifadə etməklə iri həcmli oğurluq və s. cinayətlərin həyata keçirilməsi daxildir. Həmçinin polis idarələrinin kompüterləşməsi şəxsi həyat sirləri sahəsində insan hüquqlarının itirilməsinə gətirib çıxara bilər (1, s. 35). Kompüterləşmənin insanların sağlamlığına münasibətdə mənfi rol oynaması da mümkündür. Belə ki, görmə qabiliyyətinin zəifləməsi, oturaq həyat tərzi, pornoqrafiya və zorakılığa meyillik və s. uzun müddət kompüterlə əlaqədə olma nəticəsində baş verə bilir. Bu deyilənlərə baxmayaraq bütün dünyada kompüterlər geniş şəkildə yayılır. Demək olar ki, ictimai həyatın bütün sahələrində kompüterlərdən istifadə olunmağa başlanmışdır. Mühasiblər, biznesmenlər, tibb işçiləri, fövqəladə halların ləğvi üzrə mütəxəssislər və başqaları üçün xüsusi proqramlar işlənib hazırlanmışdır.

Müasir dövrdə kütləvi informasiya vasitələri, o cümlədən televiziya, radio, mətbuat hər bir insan üçün dünyanın hər hansı bir ucqar yerində baş verən hadisə haqqında məlumat almaq imkanlarını son dərəcə artırmışdır. Kütləvi informasiya vasitələri insanların dünyagörüşünün formalaşmasında mühüm amilə çevrilmişdir. Bir sözlə, insan onun həyatının bütün sahələrini əhatə edə bilən güclü informasiya sahəsində yaşayır.

Son vaxtlarda kompüterləşmə sayəsində informasiyanın təsir effekti kəskin surətdə artmışdır. İnternet vasitəsilə hər hansı bir arayış əldə etmək mümkündür. Bura, dəmiryolu qatarlarının, təyyarələrin hərəkət cədvəli, valyuta kursları və qiymətli kağızların kursları, dünyanın hər hansı yerində havanın vəziyyəti haqqında məlumatlar da daxildir. İnternetdən istifadə etməklə çoxsaylı qəzet, jurnal və kitabı vərəqləmək, onları printerdə çıxarmaq olar (1, s. 38).

Məlumatlandırma texnologiyalarının yüksək dərəcədə inkişaf etməsi və geniş tətbiq sahələrinə malik olması qloballaşma prosesinin reallaşması imkanını artırır. Kompüterləşmənin geniş yayılması ilə əlaqədar insan fəaliyyətinin bütün sahələrinə təsir etmək mümkündür.

Bir çox başqa sahələrdə olduğu kimi, artıq informasiya texnologiyalarında da əhəmiyyətli struktur dəyişikliyi baş vermişdir. Kompüterlərin yeni-yeni növləri yaradılır. Verilən proqnozlara görə 2020-ci ildə elektron hesablama maşınlarının imkanları əməliyyatların kəmiyyətinə görə ağılagəlməz dərəcədə inkişaf edəcəkdir. Kompüter sahəsində inkişafın istiqamətinə əsasən belə proqnozlar verirlər ki, elə bir kompüter sistemi yaratmaq mümkün olacaqdır ki, beyində baş verən elektrokimyəvi proseslərdən 10 milyon dəfə tez işləmək qabiliyyəti əldə ediləcəkdir. Beyinin fəaliyətinin alqoritmi dərk olunandan sonra onun sintetik neytral ekvivalentə verilə bilməsi imkanı artır. Bu da ayrı-ayrı neyronların adekvat modellərinin yaranmasına səbəb ola bilər. Ehtimal var ki, XXI əsrin birinci yarısına qədər neyronların ən mühüm funksiyalarının xəritəsi ən kiçik detalına qədər hazırlanacaq, onların beyindaxili əlaqələri aydın şəkildə öyrəniləcək və həmin xəritəni güclü kompüterlərin köməkliyi ilə yenidən bərpa etmək mümkün olacaqdır. Bu isə o deməkdir ki, insan beyninin mürəkkəb işini təkmilləşmiş kompüterlə birləşdirmək reallaşacaq.

İnformasiya vasitələri içərisində mobil telefonlar getdikcə daha çox funksiya yerinə yetirməyə başlayır. İnternetlə əlaqəsi olan telefonlar gələcək nəsillər üçün mühüm əhəmiyyətə malik olacaqdır. Təxminən 10 ildən sonra internet çoxşaxəli şəbəkəyə çevriləcəkdir. Proqramlaşdırma qurğuları ucuzlaşacaq və gündəlik məişətə daxil ola biləcəkdir. İnternet elə imkanlar yaradacaqdır ki, insan harada olmasından asılı olmayaraq istədiyi vaxt, istədiyi məlumatı əldə edə biləcəkdir.

İndiki dövrdə informasiya qiymətli məhsula və əsas əmtəəyə çevrilməkdədir. İnformasiya vasitələrinin sürətli inkişafı dərin sosial dəyişikliklər üçün baza hazırlayır. O, ictimai həyatın bütün sahələrini – sosial quruculuğu, təsərrüfat həyatını, təhsil sahəsini, siyasi sahəni və s. əhatə edir.

Kompüter inqilabı hər şeydən əvvəl məlumatların hazırlanma, işləmə və ötürülmə metodlarının inkişafı ilə əlaqədardır. Məlumatların ən yaxşı saxlanma və işləmə üsullarından ən üstünü onları kompüterin yaddaşında saxlamaqdır. Dünya bazarında kompüterlərin satışı artır. Dünya üzrə kompüterlərin satışında rəqabət aparan kompaniyalar kompüterlərin təkmilləş-

dirilməsi və qiymətlərinin ucuzlaşdırılması yolu ilə liderliyi ələ almaq istəyirlər.

İndiki dövrdə hər bir ölkənin qarşısında duran əsas vəzifə yüksək səviyyəli informasiya infrastrukturunun yaradılması və telekommunikasiya şəbəkəsinin yeniləşdirilməsidir.

Nəzərə almaq lazımdır ki, əldə olunan biliklərin bir az da artırılması və daha geniş informasiya materialının mənimsənilməsi, dərk edilmişlərin daha çox olduğu haqqında vəziyyətin aydınlaşmasına kömək edir. İnsan nə qədər çox bilirsə, o qədər həmin sahənin radiusu böyük olur, lakin eyni zamanda bilmədiklərinin, dərk etmədiklərinin meydanı da genişlənir. Məlum olmayan isə praktiki olaraq intuitiv səviyyədə insan və bütövlükdə bəşəriyyət tərəfindən bir problem kimi və hətta təhlükə kimi qavranılır. Ona görə də fəaliyyət miqyasının böyüməsi və buna müvafiq olaraq toplanmış bilik təkcə problemlərin kəmiyyətcə çoxalmasına deyil, həm də keyfiyyətcə yüksəldilməsinə imkan yaradır. Bu da öz növbəsində rəngarəngliyə və sürətlə mürəkkəbləşəməyə səbəb olur. Daim artmaqda olan mürəkkəblik və müxtəliflik yaxın gələcəkdə hətta ən elmli adamın qavradığı adekvat qavrayış və analiz səviyyəsinə yüksələcəkdir.

Fərdi insan şüurunun artmaqda olan qabiliyyəti onun və bütövlükdə bəşəriyyətin qarşısında duran daha mürəkkəb problemlərə uyğunlaşmağa cəhd edir. Əgər insan şüuru onun qarşısında duran problemlərin mürəkkəbliyinə müvafiq gəlirsə və inkişafın ümumi qanunauyğunluqlarının real anlayışlarını dərk edirsə, deməli müvəffəqiyyət qazanmaq imkanı yaranır.

Biliklərin əldə olunması və bütövlükdə idrak prosesi tək bir adamın deyil, kollektivin imkanı daxilindədir. Bu baxımdan informasiya texnologiyaları dövrü intellektual kollektivləşmə dövrüdür. Bəzən bu prosesi məcburi texnoloji və hətta zorakı kollektivçilik dövrü adlandırırlar. Ona görə ki, bir nəfər ona lazım olan qədər informasiyanı tapmaq imkanına malik deyildir. Bunun üçün də həmin şəxs informasiya vasitələrindən, xüsusən də internetdən istifadə etməklə hakim texnologiyadan istifadə etmiş olur və öz biliklərini inikşaf etdirir.

İndiki dövrdə kompüter texnologiyalarının inkişafı və ümumdünya informasiya şəbəkəsinin formalaşması elə bir məqama çata bilir ki, onun mürəkkəbliyi insan beyninin mürəkkəbliyi ilə müqayisə edilə bilir.

İnsanın fərdi şüuru kollektiv şüurun elementinə çevrilməkdədir. Həmin şüur bəşəriyyəti vahid tama çevirir.

İnkişaf etmiş kommunikasiya bazasında vahid planetar şüurun formalaşmasına qədər informasiya axınının mürəkkəbləşməsi zamanı tamamilə fövqəlinsan xarakteri daşıyan informasiyanın işlənməsinin vahid planetar konturu yaranır və fərdi şüur tərəfindən qavranılır.

Bioloji, sosial və texnoloji təkamül prosesində fövqəlinsan şüurunun üzərində təkamül elementləri özünütəkmilləşdirmə aləti kimi çıxış edir.

Planetar şüurun formalaşması əslində təbii tarixi proses olaraq inkişaf edir. Çünki insanlar elmi-texniki inkişafla bağlı olaraq bir-biri ilə

daha yaxından əlaqə yarada bilirlər. Eyni zamanda bəşəriyyət qarşısına bir sıra qlobal problemlər çıxmaqdadır ki, bunların da həlli hökmən birgə fəaliyyəti və kollektiv şüuru zəruri edir. Bu da öz növbəsində planetar ağılın formalaşmasını tələb edəcəkdir.

## ƏDƏBİYYAT


1. Şükürov A.M. Qloballaşma: mahiyyəti və perspektivləri. Bakı: Adiloğlu, 2001, 170 s.
2. Şükürov A.M. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün, sabah. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2006, 191 s.
3. Моисеев Н.Н. Быть или не быть человечеству. М.: Наука ,1991, 290 с.


**Новрузали Рагимов**

## ГЛОБАЛИЗАЦИЯ И ИНФОРМАЦИОННАЯ СРЕДА


Глобализация это сближение экономических, политических, культурных и других связей в мировом масштабе.

Роль научно-технических достижений в расширении процесса глобализации велика.

Глобализация говорит о формировании информационного пространства, о начале перхода в информационное общество, создает условия для формирования глобального сознания.


**Novruzali Rahimov**

## GLOBALIZATION AND INFORMATION ENVIRONMENT


Globalization is the approach of the economical, political, cultural and other relations on a world scale.

The role of scientific-technical development in the expansion of globalization is great.

Globalization means the formation of the information environment, the beginning of transition to the information society, creation of conditions for global consciousness.



***Rəyçilər: Dosent Q.Allahverdiyev, dosent Y.Hüseynov.***

***Naxçıvan Dövlət Universitetinin Fəlsəfə kafedrasının 13 sentyabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

**CAVADXAN QASIMOV**
AMEA Naxçıvan Bölməsi

# MÜASİR DÖVRDƏ ƏHALİNİN MƏŞĞULLUQ PROBLEMİNƏ SİSTEMLİ YANAŞMA

Əhalinin məşğulluq problemi və onun səmərəli həlli istiqamətindəki tədbirlər daimi olaraq hər bir dövlətin diqqət mərkəzində qalmaqdadır. İnsanların sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması, maddi rifah hallarının yüksəlməsi və ümumiyyətlə, milli iqtitsadi inkişafda bu sahənin mühüm yer tutması ən zəruri məsələ kimi çıxış etməkdədir. 1995-ci ildə qəbul olunmuş ilk müstəqil Konstitusiyamızda da bu məsələ təsbit edilmişdir. 15 və 16-cı maddələrin 1-ci bəndlərində həmin məsələ bu cür göstərilmişdir: 15.1. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. 16.1. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır (1, s. 8).

Ölkəmizin 1993-cü ildən etibarən qazandığı hərtərəfli uğur və nailiyyətlər özünü iqtisadi sahədə daha əhatəli şəkildə göstərməkdədir. Qəbul edilmiş Dövlət Proqramları, Prezidentimizin iqtisadi sahədə imzaladığı çoxsaylı fərmanlar, sərəncamlar və digər qərarlar nəzərdə tutulmuş məqsəd üçün ən etibarlı zəmanətdir. Bu baxımdan da ölkəmizdə yaranmış əlverişli şərait iqtisadi siyasətin əsas istiqamətlərinin səmərəli şəkildə müəyyən olunmasına təkan verməkdədir. Günü gündən öz aktuallığını daha da qoruyan əhalinin məşğulluq məsələsi artıq dövlətimizin iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Təbiidir ki, məşğulluq probleminin faydalı həlli hər şeydən əvvəl əmək bazarının formalaşması şəraitində mümkündür. Bütün bu proseslərin uğurlu mövcudluğuna təminat yaradan ölkəmizdə məşğulluq siyasəti özündə əhalinin əmək potensialının daha da tam reallaşması və inkişafına yönəldilmiş kompleks dövlət tədbirlər sistemini birləşdirir. Eyni zamanda məşğulluq sahəsində siyasətin aşağıdakı istiqamətlərdə müəyyən olunması nəzərdə tutulmuşdur.

1. Əhalinin məşğulluğu üçün əlverişli şəraitin formalaşdırılması və iqtisadi sabitlik vasitəsilə təşkilatların iş qüvvəsi ilə təmin edilməsi;
2. İş qüvvəsinin keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi;
3. Kadrların hazırlanması və dövlət məşğulluq fəaliyyəti sisteminin inkişaf etdirilməsi;

4. Mülkiyyətin müxtəlif formaları əsasında çoxukladlı iqtisadiyyatın formalaşdırılması ilə əmək ehtiyatlarının iqtisadiyyatın bölmələri üzrə optimal bölüşdürülməsinə nail olmaq;
5. Büdcə vəsaitinin və xüsusi kapitalın, əhalinin pul yığımlarının cəlb edilməsi yolu ilə iqtisadiyyatın quruluşca yenidən qurulması üzrə irimiqyaslı proqramların həyata keçirilməsi və əmək ehtiyatlarının sahələr üzrə yenidən bölüşdürülməsinə nail olmaq;
6. İşləmək istəyən müxtəlif sosial-demoqrafiq qruplardan olan əhalinin (qadınların, gənclərin və pensiyaçıların) məşğulluğunun təmin edilməsi;
7. İş qüvvəsinin peşə, sahə, və ərazi mobilliyinin yüksəldilməsi, iş yerlərinin sayı və quruluşu ilə iqtisadi cəhətdən fəal əhalinin xarakteristikası arasında mümkün olan uyğunluğun təmin edilməsi;
8. Əmək bazarının çevikliyinin artırılması, məşğulluğun müxtəlif forma və növləri, habelə rejimlərinin stmullaşdırılması;
9. Ümumi «məşğulluq proqramı» ilə yanaşı «gənclərin məşğulluğu», «qadınların məşğulluğu», «pensiyaçıların məşğulluğu» və s. bu kimi məqsədli kompleks proqramların işlənib hazırlanması və həyata keçirilməsi (7, s.61).

Sözügedən məsələ ilə bağlı hər zaman məqsədyonlü iqtisadi siyasətin müyyənləşdirilməsi və çevikliyinin təmin olunması özünü açıq şəkildə göstərmişdir. 1995-ci ildən başlanan iqtisadi (aqrar) islahatlar, onun ardınca (daha doğrusu onun tərkib hissəsi olmaqla) dövlət mülkiyyətinin özəlləşdirilməsi, bir sözlə, iqtisadi yüksəlişin təminatı sahəsində mövcud iqtisadi sistemə uyğun görülmüş tədbirlər öz-özlüyündə əhalinin məşğulluq probleminin də səmərəli həllinə sanballı töhfə kimi qiymətləndirilməlidir. Bütün bunların nəticəsində əhalinin məşğulluq probleminin həll olunması istiqamətində hüquqi təminat mexanizminin işlənib hazırlanması artıq çoxdan öz həllini tapmışdır. İşsizliyin minimuma endirilməsi, insanların faydalı məşğulluğunun təmin olunması, bir sözlə, sosial müdafiə sisteminin təkmilləşdirilməsi qeyd etdiklərimizə əyani misal və sübutdur.

Hazırkı şəraitdə əhalinin məşğulluq probleminin səmərəli həlli yollarının tapılması çox böyük incəlik tələb edir. Aydındır ki, məşğulluq məsələsinin faydalı həlli nə qədər sosial-iqtisadi uğurdursa, bunun əksi isə ondan da çox sosial-iqtisadi fəlakət deməkdir. Ona görə də bu strateji məsələnin həllinə yanaşmada həssaslıq nümayiş etdirmək lazımdır.

Məşğulluq məsələsi hər bir dövrdə, hər bir dövlətin ən əsas məqsədi olmuşdur. Elə buna görədir ki, ölkəmiz tərəfindən bu mühüm məsələnin səmərəli həlli üçün həm daxili, həm də xarici siyasi çeviklik edilməkdədir. Beynəlxalq Təşkilatlarla hərtərəfli (eyni zamanda iqtisadi) əməkdaşlığın yaradılması və bundan zəruri məsələlərin faydalı və uğurlu həlli üçün istifadə edilməsi qeyd etdiklərimizə əyani sübutdur. Bu sahədə Beynəlxalq Əmək Təşkilatının (BƏT) da rolu böyükdür. BƏT-in istər Konvensiya, istərsə də Tövsiyələrində səmərəli məşğulluğun təminatı istqamətində məqsədyönlü iqtisadi siyasətin parametrləri öz əksini tapmışdır. BƏT-in qeyd olunan

Konvensiya və Tövsiyələrində məşğulluq anlayışına və onun səmərəli təminatına istqamətlənmiş məqamlara nəzər salaq:

142 №li Konvensiyada insan resurslarının inkişafı nəzərdə tutulmuşdur. Həmin Konvensiyanın 1.1 maddəsində göstərilmişdir: Təşkilatın hər bir üzvü məşğulluqla, xüsusilə dövlət məşğulluq xidməti vasitəsilə sıx əlaqəsi olan peşə yönümünün və peşə hazırlığının hərtərəfli və əlaqələndirilmiş siyasətini və proqramını qəbul edir və inkişaf etdirir. Bu siyasət və proqramlar isə:

a) itisadi, sosial və mədəni inkişafın mərhələsini və səviyyəsini;

b) insan resurslarının inkişafı ilə digər iqtisadi, sosial və mədəni məqsədlər arasındakı qarşılıqlı əlaqəni lazımi qaydada nəzərdə tutur.

Qeyd edək ki, adı çəkilən Təşkilatın digər-15 №li (kənd təsərrüfatında peşə təhsili), 83 №li (Məşğulluq xidmətinin təşkili), 122 №li (Məşğulluq sahəsində siyasət), 150 №li (insan ehtiyatlarının inkişafı), 189 №li (kiçik və orta müəssisələrdə iş yerlərinin yaradılması) Tövsiyələri də məhz insanlara və onların səmərəli məşğulluğuna istiqamətlənmişdir.

Ümumiyyətlə, BƏT-in qarşısında duran əsas vəzifələrdən biri ölkələrə məhsuldar və azad seçimli məşğulluğun, son nəticədə isə tam məşğulluğun təmin olunmasına nail olmağa yardım etməkdir. Bu əhəmiyyətli vəzifələrin öhdəsindən gəlmək üçün isə aşağıdakılar nəzərdə tutulmuşdur:

1). Düşünülmüş sosial və ekoloji siyasət yeritməklə, tarazlaşdırılmış və davamlı iqtisadi inkişafa yardım etməklə məşğulluğun əhatə dairəsinin genişləndirilməsi;

2). Ödənilən məhsuldar məşğulluq və əsas məhsulların və xidmətlərin əlyetərliyini təmin etməklə yoxsulluq səviyyəsinin aşağı salınması;

3). İqtisadiyyatın formal və qeyri-formal sahələrində əməyin məhsuldarlığının və məşğulluğun keyfiyyətinin artırılmasına nail olmaq (5, s. 30, 66).

Artıq on səkkiz ilə yaxındır ki, Respublikamız müstəqil bir dövlətdir. Keçən dövrlər ərzində ölkəmizdə əhalinin məşğulluq probleminin həlli istiqamətində qısa müddətdə çox böyük bir yol keçilmişdir. Sözügedən sahənin qanunvericilik bazası kifayət qədər zənginləşmiş və uğurlu nəticələri görünməkdədir. Yuxarıda qeyd etdiyimiz tədbirlərlə yanaşı, həm də ölkə daxilində məşğulluq məsələsinin hüquqi tənzimlənməsində mühüm mərhələyə gəlib çatılmışdır. Dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən 26 oktyabr 2005-ci il tarixdə imzalanan Sərəncamla «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər)» təsdiq edilməsini, yenə də cənab prezidentimiz tərəfindən 15 may 2007-ci il tarixdə imzalanmış Sərəncamla təsdiq edilmiş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-ci illər)» qeyd etdiklərimizə əyani sübutdur. Qəbul olunmuş həmin Dövlət Proqramının vəzifələri iqtisadi inkişafa və səmərəli məşğulluğun təmin edilməsinə istiqamətləndirilmiş makroiqtisadi siyasətin həyata keçirilməsi kimi müəyyən edilməklə aşağıdakılardan ibarətdir:

1) Rəqabətli qeyri-neft sektorunun sürətli inkişafı üçün müvafiq tədbirlərin görülməsi;

2) Səmərəli məşğulluq və əmək məhsuldarlığının artımına nail olmaq üçün müvafiq tədbirlərin həyata keçirilməsi;

3) Sahibkarlığın inkişafına mane olan problemləri aradan qaldırmaq, xarici iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət yaratmaq sahəsində müvafiq tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;

4) Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzvlüyünün ölkə iqtisadiyyatına və xüsusilə əmək bazarına və məşğulluğa təsirinin araşdırılması və bununla bağlı zəruri qabaqlayıcı tədbirlərin işlənməsi;

5) Yerli sənaye məhsullarının dünya bazarında rəqabət qabiliyyətini yüksəltmək sahəsində tədbirlərin həyata keçirilməsi;

6) Ölkədə sığorta sisteminin inkişaf etdirilməsi, sığorta şirkətlərinin fəaliyyətinin təkmilləşdirilməsi, sığorta bazarında investisiya siyasətinin formalaşdırılması;

7) Kiçik və orta sahibkarlıq subyektlərində yeni texnologiyaların tətbiqinin stimullaşdırılması və yerli xammaldan istehsal olunan məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi (3, s. 2).

Ümummilli liderimiz möhtərəm Heydər Əliyev bütün siyasi fəaliyyəti dövründə yalnız və yalnız ölkə əhalisinin maddi rifah halının yaxşılaşdırılmasının zəruriliyini qeyd edir, xalq təsərrüfatının bütün sahələrində əlverişli iqtisadi fəaliyyətin təmin edilməsinin ən zəruri məsələ kimi önəmini vurğulayırdı. Bunun nəticəsi olaraq, istər keçmiş Sovet dövründə, istərsə də hazırkı müstəqillik şəraitində insanların aktiv fəaliyyətlə məşğul olmalarında böyük nailiyyətlər qazanılmışdır. Dahi rəhbərimiz elə bu məsələ ilə bağlı deyirdi: …Respublikanın ən kəskin problemlərindən biri də əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi idi. Bu sahədə də böyük dəyişikliklər baş vermişdi. Orta və kiçik şəhərlərdə, kənd yerlərində əlavə iş yerləri yaradılması hesabına fəhlə, qulluqçu və kolxozçuların orta illik sayı 813 min nəfər, yaxud 1,5 dəfə artmış və 1985-ci ildə 2360 min nəfərə çatmışdı (2, s. 56).

Qeyd edək ki, əsası məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan mütərəqqi və həmişəyaşar ideyalar hazırkı dövrdə də ölkəmizdə cənab Prezidentimizin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində daha da zənginləşmiş şəkildə istiqamət almaqdadır. Bunun da nəticəsində çox zəruri məsələ olan məşğulluğun təmin edilməsi sahəsində mühüm nəticələr əldə edilmişdir. İstər qanunvericilik sahəsində məşğulluğun hüquqi tənzimlənməsi ilə, istərsə də yeni yaradılan iş yerləri baxımından əhalinin əmək fəaliyyətinə cəlb edilməsi istəqamətində bu məsələlərin həllinə çalışılmışdır. Elə bunun nəticəsidir ki, son beş ildə 766 min yeni iş yeri açılmışdır. Bunun 548 mini daimi iş yeridir. Qeyd edək ki, təkcə 2008-ci ildə 120 mindən çox iş yeri açılmışdır. Bütün bunlar isə öz növbəsində həm əhalinin məşğulluq

imkanlarını daha da genişləndirmiş, həm də ölkəmizin iqtisadi qüdrətinin artmasında mühüm rola çevrilmişdir.

Məşğulluq anlayışının elmi izahını verərkən aydın olur ki, o, hər bir insanın məqsədyönlü fəaliyyətinin səmərəyə söykənmiş nəticəsidir. Həm də əhalinin sosial-iqtisadi sahədə özünü göstərən tələbatlarının, onların müvafiq qanunvericiliklə tənzim olunan fəaliyyəti nəticəsində qarşılanmasıdır, təminatıdır. Məşğulluq ayrıca bir fərdə və bütövlükdə bir cəmiyyətə xas olan anlayışdır. Məşğulluq anlayışında cəmiyyətin bütün üzvlərinin sosial-iqtisadi münasibətləri öz əhatəli əksini tapır. Məşğulluq anlayışında insanların yalnız və yalnız düşünülmüş fəaliyyəti təmsil olunur. Eyni zamanda məşğulluğun təminatında həm balaca bir ailənin və həm də böyük bir xalqın səadəti öz əksini tapır. Fikrimizi əsaslandırmaq üçün bir fakta müraciət edək: Con Hopkins adına Amerika Universitetinin apardığı müşahidələrə görə ölkə üzrə işsizliyin 1% artımı intihar hallarının 4,1%, cinayətlərin sayının 5,7%, ölümə qəsd hallarının isə 4% artmasına gətirib çıxarır (4, s. 38).

İqtisad elmləri doktoru, professor Şahbaz Muradovun müəllifi olduğu «İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər» kitabında göstərilmişdir: Məşğulluq – iş yerləri ilə təmin edilmələri üzrə işçilər arasındakı münasibətlərin və istehsal vasitələri ilə iş qüvvəsinin birləşməsinin tarixi xüsusiyyətlərini özündə əks etdirən sosial-iqtisadi prosesdir. O, ictimai əmək bölgüsü ilə bağlı olub, bütün ictimai-iqtisadi quruluşlar üçün xasdır (6, s. 163).

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Qanun, 2005, 63 s.
2. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xalqa müraciəti. Naxçıvan, 2001, 190 s.
3. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-ci illər). Qanun, 2007. 11 s.
4. İşaxtaran və işsiz vətəndaşların peşə təhsili sisteminin tədris-metodiki bazasının və texniki-proqram təminatının təkmilləşdirilməsi üzrə proqram. Bakı, 2003, 80 s.
5. Məhsuldarlıq və rəqabətədavamlılıq.Sahibkarlar üçün vəsait. Bakı, 2006. 95 s.
6. Muradov Ş. M. İnsan potensialı: əsas meyllər, reallıtlar, problemlər. Bakı: Elm, 2004, 656 s.
7. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005, 303 s.

**Джавадхан Касымов**

## СИСТЕМНЫЙ ПОДХОД К ПРОБЛЕМАМ ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ

В статье рассмотрены вопросы системного подхода и юридического регулирования проблемы занятости населения в нашей стране.

А также показано влияние связей международных организаций к усилению потенциала занятости и об их успешных результатах.

**Javadkhan Gasimov**

## IN MODERN THE SISTEMATIC APPROACH OF BUSY POPULATION

In article for a while of problems the systematic approach of busy population and these juridical.

In addition, tell about impact relations with international organization on augmentation the potential of busy and about success of results.

***Rəyçilər: İqtisad e.n. M.Cabbarzadə, iqtisad e.n. T.Babayev.***

***AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyyatlar İnstitutunun Elmi Şürasının 26 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01).***

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

## YUBİLEYLƏR, XATİRƏLƏR

**İSMAYIL HACIYEV**

# GÖRKƏMLİ ALİM, VƏTƏNPƏRVƏR ZİYALI, TANINMIŞ İCTİMAİ XADİM



Ömür yolunun 50 ilini elmə və təhsilə həsr edən, görkəmli tarixçi alim, vətənpərvər ziyalı, ictimai xadim, ictimai-siyasi hadisələrə öz operativ və obyektiv münasibətləri ilə diqqəti cəlb edən AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Yaqub Mikayıl oğlu Mahmudovun 70 yaşı tamam oldu.

Yaqub Mahmudov 10 fevral 1939-cu ildə Şəki rayonunun Baş Göynük kəndində bölgənin sayılıb-seçilən adamlarından olan Mikayıl kişinin ailəsində anadan olmuşdur. Şəki bölgəsində erməni daşnaklarına qarşı fəal mübarizə aparan, 1930-cu il Göynük üsyanının rəhbərlərindən olan Mikayıl kişi sonrakı illərdə təqib olunmuş, bu səbəbdən Şəki bölgəsini tərk edib Balakən rayonunda yaşamalı olmuşdur. Yaqub Mahmudovun uşaqlıq illəri burada keçmişdir.

1956-cı ildə Balakən rayonunun Sarıbulaq kənd orta məktəbini bitirən Yaqub Mahmudov Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olur. 1962-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirən Yaqub Mahmudovun tarix elminə sonsuz marağı və xüsusi istedadı nəzərə alınaraq, fakültə Elmi Şurasının qərarı ilə o, aspiranturada saxlanılmışdır.

1966-cı ildə aspiranturanı başa vuran Yaqub Mahmudov "XV əsrin II yarısında Azərbaycan Ağqoyunlu dövlətinin Venesiya Respublikası ilə qarşılıqlı əlaqələri" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edir. O, bu tədqiqat işində tarixşünaslığımızda ilk dəfə olaraq Azərbaycanın Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinin sistemli şəkildə və ayrıca problem kimi araşdırılmasının əsasını qoymuşdur.

Yaqub Mahmudov 1966-1975-ci illərdə Azərbaycan Ensiklopediyası Tarix redaksiyasının elmi redaktoru, böyük elmi redaktoru, redaksiya mü-

diri, Ensiklopediyanın Baş redaktorunun elmi işlər üzrə müavini vəzifələrində çalışmışdır.

Ensiklopediyada işlədiyi dövrdə ilk dəfə olaraq "Azərbaycan SSR xəritələri"nin hazırlanması və Kiyev xəritə fabrikində çap edilməsi də Y.Mahmudovun bu dövrdəki fəaliyyətinin mühüm uğurlarından biri olmuşdur.

Yaqub Mahmudov Ensiklopediyada işləməklə yanaşı, elmi-pedoqoji fəaliyyətini davam etdirir. 1968-ci ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun ümumi tarix kafedrasına müəllim dəvət olunur. Burada orta əsrlər tarixini tədris edir, proqramlar, tədris-metodiki vəsaitlər çap etdirir, dosent elmi adına layiq görülür. Bütün bunlarla yanaşı o, həmin dövrdə Azərbaycanın Avropa ölkələri ilə qarşılıqlı əlaqələri problemi üzərində tədqiqatlarını davam etdirir, nəticədə "Öyrənilməmiş səhifələr", "Səyyahlar Azərbaycana gəlir", "Odlar yurduna səyahət" kimi elmi ictimaiyyətin və geniş oxucu kütləsinin böyük rəğbətini qazanan bir sıra elmi populyar əsərlərini çap etdirir. Bununla da o, Azərbaycan tarixşünaslığında tarixi keçmişimizin elmi-populyar əsərlər vasitəsilə təbliği kimi mühüm bir istiqamətin əsasını qoyur. Y.Mahmudovun bu tədqiqatlarında Azərbaycanın Avropa-Asiya qarşılıqlı əlaqələrində çox mühüm rol oynadığını, Qərb dünyası ilə səfirlik səviyyəsində diplomatik əlaqələr saxlanılmasını tarixi faktlar əsasında sübut edir ki, bu da tarixşünaslığımız üçün mühüm uğur idi.

1981-ci ildə Yaqub Mahmudov yenidən doğma universitetə qayıdır. O, Bakı Bövlət Universitetində Qədim dünya və orta əsrlər tarixi kafedrasının açılması ilə həmin kafedraya işə dəvət olunur. Bir müdət Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri vəzifəsini icra edir, sonra Tarix fakültəsinin dekan müavini vəzifəsində işləyir. 1986-1990-cı illərdə isə fakültə dekanı kimi çox səmərəli fəaliyyət göstərir. Bu illərdə Yaqub Mahmudovun elmi-pedaqoji və ictimai fəaliyyəti daha geniş miqyas alır. O, bu dövrdə "Səyyahlar, kəşflər, Azərbaycan", "Azərbaycanın Avropa ölkələri ilə əlaqələri", "Orta əsrlər tarixi" kitablarını nəşr etdirir. Nəhayət, 1989-cu ildə Moskva Dövlət Universiteti Tarix fakültəsinin Elmi Şurasında "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı – XVII əsrin əvvəlləri)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir.

Rus tarixçi alimlərinin yüksək qiymətləndirdikləri bu əsər 1991-ci ildə rus dilində monoqrafiya halında nəşr olunur. Bununla da Azərbaycan tarixşünaslığında yeni bir istiqamətin – diplomatiya tariximizin elmi əsaslarla araşdırılmasının əsası qoyulur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra diplomatiya tarixinə böyük tələbat olduğunu nəzərə alan Y.Mahmudov həmin tədqiqatı təkmilləşdirərək iki dəfə Azərbaycan dilində nəşr etdirir.

Yaqub Mahmudov kafedra müdiri, dekan müavini və fakültə dekanı (1986-1990, 1994-2004) işlədiyi müddətdə özünü səriştəli elm və tədris təşkilatçısı kimi göstərmiş, tarixçi kadrların hazırlanmasının keyfiyyətcə

yüksəldilməsi, tarix elminin tədrisinin yenidən qurulması, tədris planlarının təkmilləşdirilməsi sahələrində geniş miqyaslı fəaliyyət göstərmişdir. Y.Mahmudovun təşəbbüsü və səyi ilə rəhbərlik etdiyi fakültədə bir sıra yeni ixtisaslar və elmi-tədqiqat laboratoriyaları açılmışdır.

1991-1992-ci illərdə Yaqub Mahmudov müstəqil Azərbaycan Respublikasının yeni təhsil sisteminin yaradılması işində fəal iştirak edir. Təhsil Nazirliyi kollegiyasının qərarı ilə o, Azərbaycan Respublikasının Təhsil Konsepsiyası və hazırda qüvvədə olan Təhsil Qanununu hazırlayan işçi qrupuna rəhbərlik edir. Onun başçılığı və bilavasitə iştirakı ilə hazırlanan "Azərbaycan Respublikasının Təhsil Qanunu"nu Milli Məclis 1992-ci ilin dekabrında qəbul edir.

Azərbaycan tarixinin müxtəlif dövrləri üzrə mürəkkəb elmi məsələləri araşdırmağa qadir olan, yüksək ixtisaslı kadrların hazırlanmasında Akademiyanın müxbir üzvü Yaqub Mahmudovun əməli fəaliyyəti xüsusi mərhələ təşkil edir. Uzun illər Bakı Dövlət Universitetində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında ixtisaslaşdırılmış namizədlik və doktorluq şuralarının elmi katibi, həmsədri və sədri kimi səmərəli fəaliyyət göstərən, çoxsaylı namizədlik və doktorluq dissertasiyalarının elmi məsləhətçisi, elmi rəhbəri, opponenti, rəyçisi olan Y.Mahmudov Azərbaycanda yüksək ixtisaslı tarixçi kadrların hazırlanmasına böyük əmək sərf etmiş və bu işi bu gün də uğurla davam etdirir. Professor Y.Mahmudov 30 nəfər elmlər namizədi, 10-a yaxın elmlər doktoru hazırlayıb. Hazırda o, onlarla aspirant, dissertant və doktorantın elmi-tədqiqat işlərinə rəhbərlik edir.

Professor Y.Mahmudov tarix elmi və onun tədrisi sahəsində mühüm təşkilatçılıq fəaliyyəti göstərməklə yanaşı, elmi-pedaqoji araşdırmalarını da intensiv surətdə davam etdirmişdir. O, orta və ali məktəblər üçün bir sıra dərsliklərin müəllifi və həmmüəllifidir. Tələbələr üçün "Orta əsrlər tarixi" dərsliyi də məhz Y.Mahmudov tərəfindən tərcümə edilmişdir. "Ata yurdu" adlı nümunəvi və orijinal dərslik də Y.Mahmudov qələminin məhsuludur. Vətənpərvərlik, azərbaycançılıq ideologiyasına söykənən bu kitablar əsil vətəndaş hazırlamaq üçün olduqca dəyərli vəsaitlərdir.

Əməkdar elm xadimi Yaqub Mahmudov bir sıra beynəlxalq elmi konfranslarda (İstanbul, Ankara, Berlin, Vaşinqton, Nyu-York, Moskva, Vladimir-Suzdal, Kiyev, Kayseri, Seul, Stokholm, Afina, Tehran, Təbriz, Brüssel, Cenevrə, Budapeşt, Bağdad, Zəncan və s.) məruzə və çıxışları ilə Azərbaycan tarix elmini layiqincə təmsil etmişdir. Bu məclislərdə onun dərin məzmunlu məruzə və çıxışları mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmiş, mükafatlara layiq görülmüşdür.

Professor Yaqub Mahmudov çox geniş ictimai-siyasi, təşkilati işlərlə yanaşı, elmi fəaliyyətdən də yorulmur. Onun məhsuldar elmi fəaliyyəti hər bir elm adamına nümunə ola bilər. O, Azərbaycanın orta əsrlər tarixi, diplomatiya və dövlətçilik tarixi, ümumdünya tarixinə dair 1000-dən çox monoqrafiya, kitab, dərslik, dərs vəsaiti, elmi, elmi-publisistik məqalə, dövrü mətbuatda dərc olunmuş müxtəlif xarakterli yazılar və s. nəşrlərin müəllifi-

dir. Y.Mahmudov ikicildlik «Azərbaycan Xalq Cümhuriyyəti Enskilopediyası"nın baş redaktoru və "Naxçıvan Ensiklopediyası"nın redaksiya heyətinin üzvü olmuşdur.

Təşkilatçılıq fəaliyyəti ilə həmişə seçilən professor Yaqub Mahmudov 2004-cü ilin sentyabr ayında AMEA A.A.Bakıxanov adına Tarix İnstitutuna direktor təyin edilmiş, bir qədər sonra isə o, bu vəzifəyə seçilmişdir. O, eyni zamanda BDU-nin Qədim dünya və orta əsrlər tarixi kafedrasına rəhbərliyi də davam etdirir. Təcrübəli elm təşkilatçısı olan Yaqub Mahmudov qısa müddət ərzində Tarix İnstitutunun fəaliyyətində də əsaslı dönüş yaratmışdır. Onun təşəbbüsü ilə institutun elmi-tədqiqat planları dəyişdirilərək yenidən işlənmiş, əsas diqqət Azərbaycanın ayrı-ayrı dövrlərdə itirilmiş ərazilərinin tarixinin araşdırılmasına yönəldilmiş, Qarabağ, Naxçıvan, İrəvan, Borçalı, Dərbənd, Cənubi Azərbaycan, Azərbaycan xalqına qarşı həyata keçirilən deportasiyalar və soyqırımları tarixi, habelə Azərbaycan tarixinin qəsdən saxtalaşdırılmış bir çox problemləri əsas və təxirəsalınmaz tədqiqat obyektinə çevrilmişdir. Alimin rəhbərliyi, məqsədyönlü fəaliyyəti və bilavasitə iştirakı ilə qısa müddət ərzində işıq üzü görmüş fundamental "Qarabağ: real tarix, faktlar, sənədlər" (2006), "Naxçıvan: tarixi və abidələri" (2007), "Azərbaycan: qısa dövlətçilik tarixi" (2005), "Azərbaycan diplomatiyası" (2006), "Vandalizm: tarixi adlara qarşı soyqırımı" (2006), "Azərbaycan tarixi atlası" (2007), "Azərbaycan və azərbaycanlılar" (2009) və onlarla kitab və monoqrafiyalar Tarix İnstitutunu Akademiyanın qabaqcıl institutları sırasına çıxarmışdır. Qısa müddət ərzində Yaqub Mahmudovun təşəbbüsü və rəhbərliyi ilə Bakıda və Naxçıvanda bir sıra beynəlxalq səviyyəli elmi simpoziumlar keçirilmiş, tariximizin qaranlıq səhiflərinə işıq salınmışdır: "Qarabağ: Kürəkçay müqaviləsi – 200" (2005), Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik" (2007), «Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2008) və s.

Professor Yaqub Mahmudov yalnız tarixçi alim, Azərbaycanın qədim dövrlərdən bu vaxta kimi zəngin dövlətçilik ənənələrinin mahir bilicisi kimi deyil, həm də sözün həqiqi mənasında ziyalı-vətəndaş, çətin məqamlarda konkret mövqeyi, kəsərli sözü olan bir vətən təəssübkeşi olduğunu göstərir. Tariximizin saxtalaşdırılmasına yönələn uydurma erməni təbliğatına ən tutarlı cavabları biz Y.Mahmudovdan eşitmişik. Onun tədqiqatları, elmi konsepsiyaları ermənilərin qondarma "Böyük Ermənistan" xəyallarını tutarlı faktlarla alt-üst edir.

Yaqub Mahmudov görkəmli və vətənpərvər ziyalı kimi müstəqil Azərbaycan dövlətinin qorunub saxlanılması və möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməmişdir. Ən çətin, ekstremal məqamlarda o, ölkədə siyasi sabitliyin təmin olunması, baş verməkdə olan Vətəndaş müharibəsinin qarşısının alınması üçün nicat yolunu düzgün müəyyənləşdirə bilmiş, heç nədən çəkinmədən öz mövqeyini mətbuat səhifələrində cəsarətlə açıqlamış, Azərbaycan dövlətini parçalamaq cəhdlərinə qarşı əhali arasında fəal

iş aparmışdır. O, həmişə gənclərdə milli mənlik şüurunun, Azərbaycan dövlətçiliyi ideologiyasının formalaşdırılmasına çalışmış və bununla müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi işinə bir vətəndaş alim-ziyalı kimi yaxından kömək göstərmişdir. 1993-cü ildə Heydər Əliyevin Azərbaycan prezidentliyinə namizədliyini fəal müdafiə edən Yaqub Mahmudov həmin ildən etibarən Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi uğrunda mübarizədə fəal iştirak edir. Yaqub Mahmudov bütün prezident seçkilərində vəkil kimi Heydər Əliyev və İlham Əliyevin namizədliklərini müdafiə etmişdir.

Professor Yaqub Mahmudovun elmi, təşkilati və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, maarifçilik və elmi biliklərin təbliği sahəsindəki xidmətlərinə görə Y.Məmmədəliyev mükafatına, tarix elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. O, eyni zamanda, Rəsul Rza, Qızıl qələm, Qızıl qılınc, Samir Əsgərxanov mükafatları laureatıdır.

Prezident Heydər Əliyevin 13 fevral 1999-cu il tarixli fərmanı ilə Yaqub Mahmudov Azrəbaycanda Tarix elminin inkişafındakı xidmətlərinə və respublikanın ictimai-siyasi həyatında fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Ölkə Prezidenti İlham Əliyevin 14 fevral 2009-cu il tarixli fərmanı ilə Yaqub Mahmudov "Şərəf" ordeninə layiq görülmüşdür.

Professor Yaqub Mahmudov II və III çağırış Azərbaycan Respublikasının Milli Məclisinə deputat, 2007-ci ildə AMEA seçkilərində isə Akademiyanın müxbir üzvü seçilmişdir.

Yaqub Mahmudov 70 illik həyatını mənalı yaşamış, Azərbaycan xalqına və dövlətinə sədaqətlə xidmət göstərmişdir. Hörmətli müəllimimizin 70 illik yubileyini ürəkdən təbrik edir, ona elm və təhsilin tərəqqisi, müstəqilliyimizin möhkəmləndirilməsi yolunda səmərəli, coşğun fəaliyyət, yeni-yeni uğurlar və can sağlığı arzulayırıq…

***DOST TƏBRİKİ***

## AMEA A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTUNUN DİREKTORU, AMEA-nın MÜXBİR ÜZVÜ, PROFESSOR YAQUB MAHMUDOVA

*Əziz Yaqub müəllim!*

*AMEA Naxçıvan bölməsinin kollektivi adindan Sizi, tarix elmimizin ən tanınmış və görkəmli nümayəndələrindən birini 70 yaşinizin tamam olması münasibətilə ürəkdən təbrik edir və Sizə möhkəm can sağlığı, uzun ömür arzulayıram.*

*Əziz Yaqub müəllim, respublikamızın elmi ictimaiyyəti Sizi ciddi və prinsipial tədqiqatçı, çox böyük elmi dünyagörüşə, yüksək intellektə, müstəsna qabiliyyətə malik olan görkəmli azərbaycanşünas alim və ictimai xadim kimi tanıyır.*

*Azərbaycan tarix elminin inkişafı sahəsində yarım əsirlik əməli xidmətləriniz, tarixi hadisələrə obyektiv və prinsipial münasibətiniz, daim axtarışda olmağınız, respub-*

*likamızın ictimai-siyasi həyatında fəal iştirak etməyiniz Sizə çox böyük hörmət və nüfuz qazandırmışdır.*

*Respublikamızın elmi ictimaiyyəti Sizi ilk növbədə tariximizin görkəmli tədqiqatçısi və təbliğatçısı kimi tanıyır və sevir. Sizin Azərbaycanın Avropa ölkələri ilə qarşılıqlı əlaqələrini sistemli şəkildə araşdırmalarınız orta əsrlərdə Azərbaycanın diplomatiya tarixi və tarixşünaslığımız üçün çox mühüm uğur sayılır. Siz həm də Azərbaycan tarixşünaslığında tarixi keçmişimizin elmi-populyar əsərlər vasitəsilə təbliği kimi mühüm bir istiqamətin də əsasını qoymuşsunuz.*

*Son illərdə Azərbaycanın ən ağrılı problemləri barədə tədqiqatlarınız və çıxışlarınız respublika ictimaiyyəti tərəfindən çox yüksək səviyyədə qarşılanır. Naxçıvan, Qarabağ və İrəvanla bağlı çap etdirdiyiniz kitab və məqalələr, rəhbərliyinizlə keçirilən elmi simpoziumlar, həmin simpoziumlarda müzakirə olunan məsələlər məkrli düşmənlərimizin uydurma və qondarma "tədqiqatlarını" alt-üst etmişdir.*

*Əziz Yaqub müəllim!*

*Siz uzun illər respublikamızda elm və təhsil sahəsində çalışmış, bu sahələrə çox böyük uğurla rəhbərlik etmisiniz. Son illərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutuna rəhbərliyiniz respublikamızda tarixi araşdırmaların elmi istiqamətinin milli yöndə aparılmasına və tarixçi alimlərin fəallığına səbəb olmuşdur. Siz həm də ölkəmizdə yüksək ixtisaslı tarixçi kadrların hazırlanmasına böyük əmək sərf etmiş və bu işi bu gün də ən yüksək səviyyədə və uğurla davam etdirirsiniz. Sizin minlərlə yetirməniz respublikamızın elm, təhsil, mədəniyyət sahələrində, digər struktur bölmələrdə uğurla fəaliyyət göstərir.*

*Sizi Azərbaycan dövlətinə, xalqına, torpağına ürəkdən bağlı olan, onun təəssübünü çəkən, Azərbaycan idealı uğrunda mübarizə aparan, heç kimdən qorxub-çəkinməyən, həmişə sözünü şax deməyi başaran, vətəndaş və vətənpərvər kimi tanımışıq. Təsadüfi deyildir ki, "Ata yurdu" dərsliyi məhz sizin qələminizdən çıxmışdır. Siz təkcə elmin keşiyində deyil, Vətənimizin ən ağır, gərəkli günlərində prinsipial mövqeyiniz ilə seçilmisiniz.*

*Sizin vətəndaş-alim mövqeyiniz, tarix elmindəki misilsiz xidmətləriniz Vətənin yüksək mükafat və təltiflərinə – əməkdar elm xadimi, "Şöhrət" ordeni, bir sıra dövlət mükafatlarına layiq görülməyiniz, bir-neçə çağırış Milli Məclisin deputatı seçilməyiniz xidmətlərinizə və fəaliyyətinizə verilən qiymətdir.*

*Əziz Yaqub müəllim! 70 illik yubileyiniz və Vətənimizin yüksək mükafatı olan "Şərəf" ordeni ilə təltif olunmanız münasibətilə bir daha Sizi səmimi qəlbdən təbrik edir, Ulu Tanrıdan Sizə uzun ömür, möhkəm can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.*

Dяrin hюrmяt vя ehtiramla,

Yetirmяlяriniz, tarixчi dostlarыnыz vя
hяmkarlarыnыz adыndan
***Ismayıl Muxtar oğlu Hacıyev***
AMEA Naxчыvan Bюlmяsinin sяdri,
MM-in deputatы, akademik.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2009, №1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2009, №1*

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
*The series of social and humanities sciences, 2009, №1*

# AZƏRBAYCAN ETNOQRAFİYA ELMİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ



AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, Azərbaycan MEA-nın müxbir üzvü, tarix elmləri doktoru, etnoqraf-alim Hacı Qadir Qədirzadənin anadan olmasının 60 ili tamam oldu.

1948-ci il mayın 20-də Naxçıvan (indiki Babək) rayonunun Cəhri kəndində anadan olmuş Hacı Qadir Qədirzadənin uğurlu və zəngin həyat yolu vardır. 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının tarix ixtisasını bitirən, bir neçə il orta məktəbdə müəllim işləyən Hacı Qadirin elmi tədqiqatlara olan marağı onu 1975-ci ildə Naxçıvan Regional Elm Mərkəzinə gətirib çıxarmışdır. O, burada Azərbaycan etnoqrafiyasının tərkib hissəsi kimi Naxçıvan materialları əsasında etnoqrafik tədqiqatlarla məşğul olmağa başlamışdır. Həmin vaxt Naxçıvanda təcrübəli etnoqrafa ehtiyac olduğu üçün, həmçinin, bir etnoqraf kimi yetişməsinə kömək məqsədilə o 1976-cı ildə təcrübə toplamaq üçün Moskva şəhərinə, SSRİ EA Etnoqrafiya İnstitutuna göndərilir. O, burada bir sıra tanınmış etnoqraflarla birlikdə çalışır, etnoqrafiya elminin sirlərinə yiyələnir. 1983-cü ildə həmin institutda «Azərbaycanlılarda müasir kənd ailəsi (Naxçıvan MR materialları əsasında)» mövzusunda uğurla namizədlik dissertasiyası müdafiə edən Hacı Qadir doğma Naxçıvana qayıdır və Elm Mərkəzində işini davam etdirir. O, burada kiçik elmi işçi vəzifəsindən başlamış elmi işlər üzrə direktor müavini vəzifəsinə qədər bir yol keçir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli sərəncamı ilə AMEA Naxçıvan Bölməsi və onun tərkibində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu yaradıldıqdan sonra Hacı Qadir Qədirzadə 2003-cü ilin yanvarından həmin institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin edilir.

Yüksək dövlət qayğısı ilə Naxçıvanda yaranan münbit şərait elmi tədqiqatların genişlənməsi üçün geniş imkanlar açmış, məhz bu dövrdə, 2004-cü ildə Hacı Qadir «Ailə və məişətlə bağlı adətlər, inamlar və etnogenetik əlaqələr (Naxçıvan materialları əsasında tarixi-etnoqrafik araşdırma)» mövzusunda uğurlu doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Alim 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Hazırda uğurlu və geniş miqyaslı elmi tədqiqatlarla məşğul olur. Onun tədqiqatlarında etnik tarix, ailə və məişətlə bağlı qədim inamlar, onların genezisi və digər türk xalqları ilə paralellərinin öyrənilməsi əsas yer tutur. Alimin topladığı

etnoqrafik çöl və çoxsaylı ədəbiyyat materialları əsasında Naxçıvanda mövcud olan qədim adət və inamların tarixiliyi araşdırılmış, onların digər türk xalqları ilə ortaq cəhətləri müəyyənləşdirilmiş, bütün bunlar əsasında Naxçıvanın qədim zamanlardan ulu babalarımızın məskunlaşdığı türk yurdu olduğu sübuta yetirilmişdir. Hacı Qadir Qədirzadə öz tədqiqatlarını ən sanballı qaynaqlarla, xüsusilə arxeoloji faktlarla sıx əlaqəli surətdə aparır. Bu zaman alim ayrı-ayrı tədqiqatçıların arxeoloji ədəbiyyat və hesabatlarına istinad etməklə yanaşı, şəxsən iştirak etdiyi ekspedisiyalarda özünün tədqiq etdiyi arxeoloji materiallardan da çox səmərəli surətdə bəhrələnir. Məhz bu səbəbdən də onun tədqiqatlarında təhriflərə yol verilmir, hər hansı bir problem obyektiv təhlil olunur, tarixi həqiqətlər üzə çıxarılır.

Hacı Qadir Qədirzadə Azərbaycanın sərhədlərindən kənarda (ABŞ, Rusiya, Türkiyə, İran və s.) da tanınır və nüfuzlu alimlər, elmi ictimaiyyət tərəfindən qəbul edilir. Onun tədqiqatları bir sıra yerlərdə ardıcıl izlənir və onlara istinad olunur. O, Azərbaycan etnoqrafiya elmini beynəlxalq simpozium və konfranslarda layiqli təmsil edir. Onun Moskva, Yoşkar-Ola, Alma-Ata, Minsk, Ankara, İstanbul, Qars, Təbriz, Urmiya və s. şəhərlərdə keçirilən ümumittifaq və beynəlxalq miqyaslı elmi məclislərdə etnoqrafiya elminin müxtəlif problemləri ilə əlaqədar məruzələri maraqla qarşılanmış və böyük uğur qazanmışdır. O, bir neçə sanballı kitab və monoqrafiyanın, 200-ə yaxın elmi və elmi publisistik məqalənin müəllifidir.

Geniş miqyaslı elmi tədqiqatlarla yanaşı alim həm də pedaqoji fəaliyyətlə, gənc nəslin tərbiyəsi ilə də məşğul olur. O, məzunu olduğu Naxçıvan Dövlət Universitetində dərs deyir, uzun illərdən bəri qazandığı elmi bilikləri gənc nəslə çatdırır.

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin, Bölmə nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu elmi şurasının üzvü kimi çox səmərəli fəaliyyət göstərən Hacı Qadir Qədirzadə yeni elmi kadrların yetişdirilməsi sahəsində səylə çalışır, aspirant və dissertantlara rəhbərlik, kitablara redaktorluq edir, opponent kimi dəvət olunur, elmi işlərə rəy yazır, televiziya və mətbuat orqanlarında müxtəlif mövzularda çıxışlar edir. Həmçinin, o muxtar respublikanın ictimai-siyasi, elmi-mədəni həyatın-da yaxından iştirak edir.

Şübhəsiz ki, dəyərli dost, gözəl ailə başçısı, ABŞ-ın Dallas şəhərinin fəxri vətəndaşı olan alimi qarşıda yeni-yeni uğurlar, elmi-pedaqoji nailiyyətlər gözləyir. İnanırıq ki, həyatının kamillik dövrünü yaşayan AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Hacı Qadir Qədirzadə bundan sonra da ciddi elmi axtarışlarla məşğul olacaq, Azərbaycanın tarixi etnoqrafiyasının bir sıra qaranlıq səhifələrinin işıqlandırılması, mürəkkəb elmi problemlərin uğurlu həlli üçün öz töhfələrini verəcəkdir.

Azərbaycan etnoqrafiya elminin görkəmli nümayəndəsi Hacı Qadir Qədirzadəni 60 illik yubleyi münasibəti ilə təbrik edir, ona uzun ömür, can sağlığı, elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

***HACIFƏXRƏDDİN SƏFƏRLİ***
Tarix elmləri doktoru, professor, AMEA
Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və
Arxeologiya İnstitutunun direkotu

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət kriteriyalarına cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Dərc olunan hər məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi, müvafiq elmi müəssisənin elmi şürasının protokolundan çıxarış olmalı və məqalənin sonunda bunlar göstərilməlidir.
6. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, «14» ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə «defislə» keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus dilində Times New Roman, Azərbaycan dilində isə – Times Roman AzLat şriftində yazılaraq, 1nüsxədə çap edilərək, disketlə birlikdə jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin sağküncündə «12» ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. Aşağıda işlədiyi təşkilatın adı 1 interval ara verməklə, «12» ölçülü adi və kiçik hərflərlə yazılır (məs: AMEA Naxçıvan Bölməsi; Naxçıvan Dövlət Universiteti). Sonra 1 sətir boş buraxılmaqla aşağıdan «14» ölçülü hərflərlə məqalənin adı çap edilir. Məqalənin əsas mətni yenə də 1 sətir boş buraxılmaqla aşağıdan yazılır.
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl «12» ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. «Ədəbiyyat» sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır.

    Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. Məs:

    **Kitablar:**

    Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.

    **Kitab məqalələri:**

    Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət /Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91

    **Jurnal məqalələri:**

    Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79

11. Məqalənin xülasəsində müəllifin adı və soyadı «12» ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin içərisində verilməlidir. Məs: (4, s. 15)
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-7 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, iş və ev telefonları) mütləq əlavə olunmalıdır.

**QEYD:** AMEA Naxçıvan Bölməsinin «Xəbərlər» jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və «Tusi» nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

**XƏBƏRLƏR**
AMEA Naxçıvan Bölməsinin elmi nəşri
№1(14)

**Nəşriyyatın direktoru:** *Qafar Qərib*
**Redaktor:** *İsmayıl Quliyev*
**Korrektor:** *Yelena Muxtarova*
**Operatorlar:** *İlhamə Əliyeva,*
*Aynur Əliyeva*
**Proqramçı mühəndis:** *Taleh Maqsudov*

Yığılmağa verilmişdir: 12.01.2009
Çapa imzalanmışdır: 13.02.2009
Kağız formatı: 70 x 108 1/16
20,7 çap vərəqi. 330 səhifə
Sifariş № 18. Tiraj: 200

*AMEA Naxçıvan Bölməsinin «Tusi» nəşriyyatında çap edilmişdir.*
**Ünvan:** *Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.*